# QƏRBİ AZƏRBAYCAN

## *(indiki Ermənistan)*

# Yazarlar

## I Kitab

**“Eım və təhsil”**
**Bakı - 2016**

**«Qərbi Azərbaycanı (indiki Ermənistan) əsilli ziyalıları tanıdaq» layihəsinin rəhbəri:**

**Mirzə Məsim oğlu Ənsərli (Ləmbəli)**

Azərbaycan MEA-nın akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun «Türkiyə tarixi və iqtisadiyyatı» şöbəsinin elmi işçisi. Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvü, Qərbi Azərbaycan Araşdırmalar Mərkəzi İctimai Birliyinin sədri

**Redaktorlar:**

**Fərrux Rüstəmov,** *Pedaqogiya üzrə elmlər doktoru, professor, Əməkdar elm xadimi*

**Rəşid Təhməzoğlu** *(Quliyev) Azərbaycan MEA-nın akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru.*

**Təranə İsmayılova,** *Bakı Dövlət Universitetinin Azərbaycan dilçiliyi kafedrasının müəllimi*

**Məsləhətçilər:**

**İsa Alıyev,** *İqtisad üzrə elmlər doktoru, professor*

**İsmayıl Məmmədov,** *filologiya üzrə elmlər doktoru, professor*

**Nazim Mustafa,** *Dövlət Mükafatı laureatı*

**Əziz Ələkbərli,** *filologiya üzrə fəlsəfə doktoru*

**Tərtibçilər:**

**Mirzə Ənsərli (Ləmbəli)**
**Telman Kərimli**
**İradə Məmmədova,** *t.ü.f.d., Dövlət Mükafatı laureatı*
**Könül İbrahimova**
**Toğrul Ənsərli**

Qərbi Azərbaycan (indiki Ermənistan). Yazarlar. I kitab
Bakı, «Elm və Təhsil», 2016, 512 səh. + 20 səh. şəkil

Kitabda Qərbi Azərbaycan (indiki Ermənistan) əsilli yazıçılar, şairlər və publisistlər haqqında yığcam məlumat verilir. Onlar mahallar, nahiyələr, rayonlar və kəndlər üzrə qruplaşdırılmışdır.

Burada Qərbi Azərbaycanın (indiki Ermənistan) bütöv xəritəsi, rayonlar haqqında (xəritələri verilməklə) qısa məlumat da öz əksini tapmışdır.

$\frac{3703000000}{N098-2016}$ qrifli nəşr

© Mirzə Ənsərli, 2016



## ÖN SÖZ

2005-ci ildən fəaliyyət göstərən Qərbi Azərbaycan Araşdırmalar Mərkəzi İctimai Birliyinin gördüyü işlərdən biri də «Qərbi Azərbaycan (indiki Ermənistan) əsilli ziyalıları tanıdaq» layihəsidir. Layihənin məqsədi Qərbi Azərbaycan (indiki Ermənistan) əsilli yazıçılar, şairlər, publisistlər, alimlər, sənət adamları, ictimai-siyasi xadimlər və qabaqcıl maarif xadimləri haqqında məlumatlar toplayıb nəşr etdirməkdir.

İndi oxuculara təqdim olunan bu kitab Qərbi Azərbaycan (indiki Ermənistan) əsilli yazıçılar, şairlər və publisistlər haqqındadır. Burada onların tərcümeyi-halları (şəkilləri də daxil olmaqla) və əsərlərinin siyahısı verilmişdir.

Adları kitaba daxil edilmiş şəxslər mahallar, rayonlar və kəndlər üzrə qruplaşdırılmışdır. Kitabda həmçinin rayonlar haqqında xəritələri verilməklə yığcam məlumatlar da öz əksini tapmışdır.

Kitab nəşrə hazırlanan zaman fil.ü.e.d., professor Teymur Əhmədovun, fil.ü.e.d., professor Əsgər Zeynalovun, Dövlət Mükafatı laureatı Nazim Mustafanın, şair-publisist Musa Urudun, fil.ü.f.d. Əziz Ələkbərlinin, görkəmli jurnalist-publisist Flora Xəlilzadənin və başqalarının əsərlərindən istifadə olunmuşdur.

Hamıya məlumdur ki, hər hansı bir kitabın ərsəyə gəlməsində bir çox şəxslərin əməyi olur. Kimisi materialların toplanmasında, kimisi bu materialların incələnərək qruplaşdırılmasında, kimisi də yazılmasında yaxından iştirak edir. Layihənin qarşısında duran vəzifələrin reallaşmasında bizə həm mənəvi, həm də maddi köməkliklərini əsirgəməyən Osman Hacıyevə, Camal Naibova, Akif Bayramova, İsəbalı Nəzərova, dos. i.ü.f.d. Mübariz Məmmədliyə, Elman Kərimova, İlham İsmayılova, Vaqif Sədiyevə və adlarını çəkmədiyimiz dəyərli insanlara təşəkkürümüzü bildiririk.

Kitabın materiallarının kompyüterdə yazılmasında bizə yaxından kömək etmiş Leyla xanımın, Yaxşıxanım xanımın, Nübubət xanımın və Səbinə xanımın da əməyini yüksək qiymətləndiririk.

**Tərtibçilər**

# QƏRBİ AZƏRBAYCAN
# (İNDİKİ "ERMƏNİSTAN")



İndiki «Ermənistan Respublikası»nın yaranmasına və ermənilərin Qafqaz türklərinə qarşı soyqırımı siyasəti ilə bağlı qəbul olunmuş qərar və fərmanların, bu hadisələrə həsr olunmuş məqalələrin bir hissəsi



**1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında**
**Azərbaycan Respublikası Prezidentinin fərmanı**

Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən - min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir.

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olmuşdur. Bu qərarlar əsasında 1948-1953-cü illərdə yüz əlli mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdur. Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar. Bu işdə erməni şovinist dairələrinin və SSRİ rəhbərliyinin siyasəti ilə yanaşı, o dövrkü Azərbaycan rəhbərliyinin öz xalqının taleyinə zidd mövqeyi, soydaşlarımıza qarşı törədilən cinayətlərin təşkilində və həyata keçirilməsində iştirakı da az rol oynamamışdır.

Təəssüf ki, 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən deportasiya olunması faktı ötən 50

il ərzində lazımınca araşdırılmamış, bu hadisələrə hüquqi-siyasi qiymət verilməmişdir.

Yuxarıda göstəriləni nəzərə alaraq

**QƏRARA ALIRAM:**

1. 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasının hərtərəfli tədqiq edilməsi, Azərbaycan xalqına qarşı dövlət səviyyəsində keçirilmiş bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması məqsədi ilə aşağıdakı tərkibdə dövlət komissiyası yaradılsın:

Dövlət Komissiyasının sədri:

**Heydər Əliyev** - Azərbaycan Respublikasının Prezidenti

Dövlət Komissiyası sədrinin müavini:

**Artur Rasizadə** - Azərbaycan Respublikasının Baş Naziri

Dövlət Komissiyasının üzvləri:

**Ramiz Mehdiyev** - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbəri

**Vasif Talıbov** - Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri

**İzzət Rüstəmov** - Azərbaycan Respublikasının Baş Nazirinin müavini

**Elçin Əfəndiyev** - Azərbaycan Respublikasının Baş Nazirinin müavini

**Həsən Həsənov** - Azərbaycan Respublikasının Xarici İşlər naziri

**Namiq Abbasov** - Azərbaycan Respublikasının Milli Təhlükəsizlik naziri

**Ramil Usubov** - Azərbaycan Respublikasının Daxili İşlər naziri

**Eldar Həsənov** - Azərbaycan Respublikasının Baş Prokuroru

**Südabə Həsənova** - Azərbaycan Respublikası Ədliyyə nazirinin birinci müavini





**Xanlar Hacıyev** - Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri

**Sirus Təbrizli** - Azərbaycan Respublikasının Mətbuat və İnformasiya naziri

**Vəfa Quluzadə** - Azərbaycan Respublikası Prezidentinin xarici siyasət məsələləri üzrə dövlət müşaviri

**Hidayət Orucov** - Azərbaycan Respublikası Prezidentinin milli siyasət məsələləri üzrə dövlət müşaviri

**Fatma Abdullazadə** - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının humanitar siyasət şöbəsinin müdiri

**Şahin Əliyev** - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının qanunvericilik və hüquq ekspertizası məsələləri şöbəsinin müdiri

**Fuad Ələsgərov** - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının dövlət-hüquq şöbəsinin müdiri

**Yusif Hümbətov** - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının ərazi idarəetmə orqanları ilə iş şöbəsinin müdiri

**Əli Həsənov** - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının ictimai-siyasi şöbəsinin müdiri

**Rafael Allahverdiyev** - Bakı Şəhər İcra Hakimiyyətinin başçısı

**Nizami Xudiyev** - Azərbaycan Respublikası Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin sədri

**Fərəməz Maqsudov** - Azərbaycan Elmlər Akademiyasının prezidenti

**Anar Rzayev** - Azərbaycan Yazıçılar Birliyinin sədri

**Cəmil Quliyev** - Azərbaycan Elmlər Akademiyası ictimai elmlər bölməsinin akademik-katibi əvəzi

**İqrar Əliyev** - Azərbaycan Elmlər Akademiyası Tarix İnstitutunun direktoru

**Budaq Budaqov** - Azərbaycan Elmlər Akademiyası Coğrafiya İnstitutunun direktoru

**Ataxan Paşayev** - Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Baş Arxiv İdarəsinin rəisi

**Yusif Yusifov** - N. Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin ümumi tarix kafedrasının müdiri

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu fərmanın icrası ilə bağlı məsələləri həll etsin.

**Heydər Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 18 dekabr 1997-ci il*





## Azərbaycanlıların soyqırımı haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərində qadağa qoyulmuş həqiqətlər açılır, təhrif edilmiş hadisələr özünün əsl qiymətini alır.

Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırımı da tarixin açılmamış səhifələrindən biridir.

1813-cü və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu. Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Soyqırımı Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildi.

İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq, öz havadarlarının himayəsi altında «Erməni vilayəti» adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. Belə süni ərazi bölgüsü ilə, əslində, azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyuldu. «Böyük Ermənistan» ideyaları təbliğ olunmağa başlandı. Bu uydurma dövlətin Azərbaycan torpaqlarında yaradılmasına «bəraət qazandırmaq məqsədilə» erməni xalqının tarixinin saxtalaşdırılmasına yönəlmiş genişmiqyaslı proqramlar reallaşdırıldı. Azərbaycanın və ümumən Qafqazın tarixinin təhrif olunması həmin proqramların mühüm tərkib hissəsini təşkil edirdi. «Böyük Ermənistan» yaratmaq

xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirdilər. Ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki azərbaycanlı kəndlərini əhatə etdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə yeksan edildi, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi. Bu hadisələrin təşkilatçıları məsələnin mahiyyətinin açılmasına, ona düzgün hüquqi-siyasi qiymət verilməsinə maneçilik törədərək azərbaycanlıların mənfi obrazlarını yaratmış, özlərinin avantürist torpaq iddialarını pərdələmişlər.

Birinci Dünya müharibəsi, Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular. 1918-ci ilin mart ayından etibarən “əks-inqilabçı ünsürlərlə mübarizə” şüarı altında Bakı kommunası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirilməyə başlandı. Həmin günlərdə ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuşdur. Minlərlə dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edilmişdir. Ermənilər evlərə od vurmuş, insanları diri-diri yandırmışlar. Milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıtmış, Bakının böyük bir hissəsini xarabalığa çevirmiş, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıq göstərmişlər. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmiş, kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılıb məhv edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirmişdir. Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədilə fövqəladə istintaq komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradıldı. 1919 və 1920-ci ilin mart ayının 31-i iki dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir. Əslində bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan vermədi.





Zaqafqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra torpaqlarını Ermənistan SSR-nin ərazisi elan etdilər. Sonrakı dövrdə bu ərazilərdəki azərbaycanlıların deportasiya edilməsi siyasətini daha da genişləndirmək məqsədilə yeni vasitələrə əl atdılar. Bunun üçün onlar SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il «Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında» xüsusi qərarına və 1948-1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə deportasiyasına dövlət səviyyəsində nail oldular.

Erməni millətçiləri öz havadarlarının köməyi ilə 50-ci illərdən etibarən Azərbaycan xalqına qarşı mənəvi təcavüz kampaniyasına başladılar. Keçmiş sovet məkanında müntəzəm şəkildə yayılan kitab, jurnal və qəzetlərdə milli mədəniyyətimizin, klassik irsimizin, memarlıq abidələrimizin ən nəfis nümunələrinin erməni xalqına mənsub olduğunu sübut etməyə çalışırdılar. Eyni zamanda onlar tərəfindən bütün dünya azərbaycanlılarının mənfi obrazını formalaşdırmaq cəhdləri də güclənirdi. «Yazıq, məzlum erməni xalqı»nın surətini yaradaraq əsrin əvvəlində regionda baş verən hadisələr şüurlu surətdə təhrif olunur, azərbaycanlılara qarşı soyqırımı törədənlər soyqırımı qurbanları kimi qələmə verilirdi.

Əsrin əvvəlində əksər əhalisi azərbaycanlı olan İrəvan şəhərindən və Ermənistan SSR-nin digər bölgələrindən soydaş-

larımız təqiblərə məruz qalaraq kütləvi surətdə qovulur. Azərbaycanlıların hüquqları ermənilər tərəfindən kobudcasına pozulur, ana dilində təhsil almalarına əngəllər törədilir, onlara qarşı repressiyalar həyata keçirilir. Azərbaycan kəndlərininin tarixi adları dəyişdirilir, toponimika tarixində misli görünməyən hadisə qədim toponimlərin müasir adlarla əvəz olunma prosesi baş verir.

Saxtalaşdırılmış erməni tarixi gənc ermənilərin şovinist ruhda böyüməsinə zəmin yaratmaq üçün dövlət siyasəti səviyyəsinə qaldırılır. Böyük humanist ideallara xidmət edən Azərbaycan ədəbiyyatı və mədəniyyəti ruhunda tərbiyə olunmuş yeni nəslimiz ekstremist erməni ideologiyasının təqiblərinə məruz qalır.

Azərbaycan xaqının mənəviyyatına, milli qüruruna və mənliyinə yönəlmiş böhtanlar siyasi və hərbi təcavüz üçün ideoloji zəmin yaradırdı. Xalqımıza qarşı aparılan soyqırımı siyasəti özünün siyasi-hüquqi qiymətini tapmadığı üçün tarixi aktlar sovet mətbuatında ermənilər tərəfindən təhrif olunur və ictimai fikir çaşdırılırdı. Ermənilərin sovet rejimindən bəhrələnərək həyata keçirdikləri və 80-ci illərin ortalarında daha da güclənən antiazərbaycan təbliğatına Azərbaycan Respublikasının rəhbərliyi vaxtında lazımi qiymət vermədi.

1988-ci ildən ortaya atılan qondarma Dağlıq Qarabağ konfliktinin ilkin mərhələsində yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından qovulmasına da respublikada düzgün siyasi qiymət verilmədi. Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-nin tərkibinə daxil edilməsi haqqında ermənilərin qeyri konstitusion qərarını və Moskvanın, əslində, bu vilayəti Xüsusi İdarəetmə Komitəsi vasitəsilə Azərbaycanın tabeliyindən çıxarmasını xalqımız ciddi narazılıqla qarşıladı və mühüm siyasi aksiyalara əl atmaq məcburiyyəti qarşısında qaldı. Respublikada keçirilən mitinqlər zamanı torpaqlarımızın işğalı siyasəti qətiyyətlə pislənsə də, Azərbaycan rəhbərliyi öz passiv mövqeyindən əl çəkmədi. Məhz elə bunun nəticəsi olaraq 1990-cı ilin yanvar ayında getdikcə güclənən xalq hərəkatını boğmaq





məqsədilə Bakıya qoşunlar yeridildi, yüzlərlə azərbaycanlı məhv və şikəst edildi, yaralandı, digər fiziki təzyiqlərə məruz qoyuldu.

1992-ci ilin fevralında ermənilər Xocalı şəhərinin əhalisinə misli görünməyən divan tutdu. Tariximizə Xocalı soyqırımı kimi həkk olunan bu qanlı faciə minlərlə azərbaycanlıların məhv edilməsi, əsir alınması, şəhərin yerlə-yeksan edilməsi ilə qurtardı.

Millətçi-separatçı ermənilərin Dağlıq Qarabağda başladığı avantürist hərəkətin nəticəsi olaraq bu gün bir milyondan artıq soydaşımız erməni qəsbkarları tərəfindən öz doğma yurd-yuvalarından didərgin salınmış, çadırlarda yaşamağa məhkum edilmişdir. Ərazimizin 20 faizinin erməni silahlı qüvvələri tərəfindən işğalı zamanı minlərlə vətəndaşlarımız şəhid olmuş, xəsarət almışdır.

Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə - 1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarın məntiqi davamı olaraq soyqırımı hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir.

Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırımı faciələrini qeyd etmək məqsədilə qərara alıram:

1. 31 Mart azərbaycanlıların soyqırımı günü elan edilsin.

2. Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə olunsun ki, azərbaycanlıların soyqırımı ilə bağlı hadisələrə həsr olunmuş xüsusi sessiyanın keçirilməsi məsələsinə baxsın.

**Heydər Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 26 mart 1998-ci il.*

**20 noyabr 2009-cu ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Goranboy rayonuna səfəri zamanı məcburi köçkünlər üçün salınan yeni qəsəbənin açılışında etdiyi nitqindən:**

Tarixdə artıq bir dəfə Azərbaycanın əzəli torpaqlarında erməni dövləti yaradılmışdır, o da bugünkü Ermənistandır. O torpaqlar bizim doğma, ata-baba torpaqlarımızdır. İrəvan xanlığı, Zəngəzur mahalı - bütün o adlar Azərbaycan toponimləridir. Hətta indi ermənilər özləri də etiraf edirlər ki, 20-ci əsrin əvvəllərində İrəvan şəhərinin əhalisinin əksəriyyəti azərbaycanlılar idi. Bunu təsdiq edən sənədlər var, şəkillər var, rəsm əsərləri var. Artıq bir dəfə Azərbaycan torpağında erməni dövləti yaradıldı, özü də Azərbaycanın o vaxtkı rəhbərliyinin icazəsi ilə.

**26 Aprel 2011-ci ildə Milli Elmlər Akademiyasının illik ümumi yığıncağında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin giriş nitqindən:**

Mən çox şadam ki, tarixçilərimiz çox sanballı və əsaslı əsərlər yaradırlar. Xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mövcudluğu bizə diktə edir ki, bu sahəyə daha da böyük diqqət göstərək. Çünki bu bölgənin tarixi ermənilər tərəfindən daim saxtalaşdırılır, daim təhrif olunur. Şadam ki, alimlərimiz mənim çağırışıma müsbət cavab verərək qısa müddət ərzində bu bölgənin tarixi ilə bağlı çox gözəl və real faktlara əsaslanmış əsərlər yaratmışlar. Başlıcası, İrəvan xanlığının tarixi ilə bağlı yaradılmış əsərlər xüsusi məna daşıyır. Əfsuslar olsun ki, dünya birliyi bugünkü Ermənistan dövlətinin tarixi Azərbaycan torpaqlarında yarandığını bilmirdi.

Bütün indiki Ermənistan ərazisinin əksər toponimləri Azərbaycan mənşəli toponimlərdir – şəhərlərin, kəndlərin adları. Hətta bunu Böyük Sovet Ensiklopediyasında da görmək





mümkündür. O vaxt erməni şəhərlərinin adları və onların əski variantı yazılmışdı. Biz bütün bunları bilməliyik.

**7 iyul 2014-cü il Xarici İşlər Nazirliyində keçirilən Azərbaycan Respublikasının diplomatik xidmət orqanları rəhbərlərinin beşinci müşavirəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən:**

Bilirsiniz ki, alimlərimiz mənim təşəbbüsümlə İrəvan xanlığı haqqında böyük elmi əsər yaratmışlar. Bunun çox böyük əhəmiyyəti vardır. Ancaq bu əsər daha çox faktoloji və elmi məsələləri əks etdirir. Hesab edirəm ki, daha geniş auditoriyaya çatdırmaq üçün kiçik həcmli broşürlər də buraxılmalıdır. Xarici İşlər Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Mədəniyyət və Turizm Nazirliyi birlikdə belə broşürlər hazırlamalıdırlar ki, müxtəlif dillərdə nəşr edilsin və xarici ictimaiyyətə çatdırılsın. O cümlədən İrəvanın 1918-ci ildə Ermənistana verilməsi faktları da geniş auditoriyaya məlum deyildi.

Bu məsələni mən birinci dəfə qaldıranda bu, bəziləri üçün, necə deyərlər, bir yenilik kimi görünürdü. Ancaq bu, reallıqdır, bunu hazırda Azərbaycanda hər kəs bilir və imkan düşdükcə biz bunu beynəlxalq konfranslarda, forumlarda, tədbirlərdə daim qeyd etməliyik. Çünki bu, tarixi həqiqətdir.

Beynəlxalq hüquqda tarixi amillər öz rolunu oynayıb, presedent hüququ vardır. Ona görə bizim mövqeyimizi möhkəmləndirən kifayət qədər çox amillər var: tarixi, hüquqi və siyasi. Bir sözlə, həm tarixi, həm hüquqi tərəf bizim mövqeyimizi dəstəkləyir.

**16 sentyabr 2010-cu ildə İstanbulda keçirilən Türkdilli ölkələrin dövlət başçılarının X zirvə toplantısında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışından:**

Türk dünyası böyük dünyadır. Vaxtilə türk dünyasının qədim

və ayrılmaz diyarı olan Zəngəzur bölgəsinin Azərbaycandan qoparılıb Ermənistana verilməsi nəticəsində türk dünyası arasında olan coğrafi bağlantı pozulubdur. Biz xəritəyə baxsaq görərik ki, əgər o tarixi ədalətsizlik törədilməsəydi, bu gün vahid türk dünyası coğrafi baxımdan da bir məkan kimi yaşayacaqdı. Ancaq buna baxmayaraq, bizi birləşdirən təkcə coğrafi koordinatlar deyildir. Bizi birləşdirən aramızdakı münasibətlərdir, qardaşlığımızdır, ortaq keçmişimizdir, bu günümüzdür. İyirmi ilə yaxındır ki, ölkələrimiz müstəqil dövlətlər kimi yaşayırlar.

**14 oktyabr 2010-cu il Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Yevlax şəhərində 1 saylı orta məktəbin yeni binasının açılışındakı nitqindən:**

Mən dəfələrlə söyləmişdim ki, bugünkü Ermənistan - xəritədə Ermənistan Respublikası adlandırılan ərazi əzəli Azərbaycan torpağıdır. Bu, həqiqətdir. Əlbəttə, Zəngəzur, İrəvan xanlığı bizim torpaqlardır! Orada azərbaycanlılar əsrlər boyu yaşamışlar. Ermənilər müəyyən bölgələrdə olublar. Amma onlar XIX əsrdə kütləvi şəkildə köçürülmüşlər.

**7 noyabr 2010-cu ildə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Milli Qəhrəman Mübariz İbrahimov və baş leytenant Fərid Əhmədovun vida mərasimindəki çıxışından:**

Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu olmayıb və olmayacaqdır. Azərbaycan ərazi bütövlüyünü bərpa edəcəkdir, Dağlıq Qarabağ bizim doğma, əzəli torpağımızdır. Əsrlər boyu Azərbaycan xalqı Dağlıq Qarabağda və ətraf bölgələrdə yaşamışdır, yaratmışdır. Bugünkü Ermənistan dövləti tarixi Azərbaycan torpaqları üzərində qurulmuşdur. İrəvan xanlığı, Zəngəzur mahalı bizim tarixi torpaqlarımızdır. Biz heç vaxt imkan verə bilmərik ki, doğma torpağımız olan Dağlıq Qarabağda





ikinci erməni dövləti yaradılsın. Heç vaxt Azərbaycan xalqı bu vəziyyətlə barışmayacaqdır.

**22 aprel 2011-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müxtəlif sahələrdə uğurlar qazanmış bir qrup gənc və tələbə gənclər təşkilatlarının nümayəndələrinin qəbulu zamanı söylədiklərindən:**

Bügünkü Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaranıbdır. Bu tarixi həqiqətdir. Biz bu tarixi yaxşı bilirik. İrəvan xanlığında yaşayanların əksəriyyəti azərbaycanlılar idi, Zəngəzur mahalı Azərbaycandan zorla qopardılıb ki, böyük türk dünyasını parçalasınlar və elə də oldu. Ancaq vaxt gələcək, bu ədalətsizliklər aradan qaldırılacaqdır.

**17 yanvar 2008-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ağdam rayonunun Quzanlı qəsəbəsində Olimpiya İdman Kompleksinin təntənəli açılış mərasimində etdiyi nitqindən:**

...İndiki Ermənistan dövləti tarixi Azərbaycan torpağında formalaşıbdır. İrəvan şəhərini Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərliyi 1918-ci ildə Ermənistana hədiyyə edibdir. Yumşaq desək, o da böyük bir səhv idi. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yarananda İrəvan şəhərini Ermənistana bağışlamışdır. İrəvan xanlığı əzəli Azərbaycan torpağıdır. Bir daha demək istəyirəm ki, ermənilər bu bölgəyə qonaq kimi gəlmişdilər. Ona görə haqq-ədalət, tarixi həqiqət, beynəlxalq hüquq, iqtisadi imkanlar, hərbi potensial - bütün bu amillər tərəzinin bir gözündə, Ermənistanın qeyri-konstruktiv və heç bir beynəlxalq normalara sığmayan siyasəti tərəzinin başqa gözündədir.

**18 sentyabr 2013-cü ildə Azərbaycan Respublika-**

**sının Prezidenti İlham Əliyevin Quba Soyqırımı Memorial Kompleksinin açılışındakı nitqindən:**

1918-ci ilin mart-iyul aylarında erməni quldur dəstələri Azərbaycanın demək olar ki, bütün ərazilərində dinc əhaliyə qarşı soyqırımı törətmişlər. Beş ay ərzində 50 mindən çox soydaşımız erməni faşizminin qurbanı olmuşdur. Bakıda, Quba qəzasında, Şamaxıda, Qusarda, İrəvanda, Naxçıvanda, Zəngəzurda, Qarabağda, Lənkəranda, demək olar ki, bütün Azərbaycan torpaqlarında bizə qarşı soyqırımı törədilmişdir.

Bu memorial kompleksin yaradılması, hesab edirəm ki, tarixi hadisədir. Bildiyiniz kimi, 2007-ci ildə burada qazıntı işləri aparılarkən kütləvi məzarlıq aşkarlanmışdır. Ondan sonra buraya alimlər, ekspertlər ezam edilmişdir və böyük tədqiqat işləri aparılmışdır. Tədqiqat işlərinin aparılması nəticəsində aşkar edilmişdir ki, burada minlərlə soydaşımız erməni quldur dəstələri tərəfindən amansızlıqla, qəddarlıqla öldürülmüşdür. 2009-cu ilin sonunda mənim tərəfimdən Quba Soyqırımı Memorial Kompleksinin yaradılmasına dair sərəncam imzalanmışdır və 2011-ci ildən işlər başlanmışdır. Bu gün biz memorial kompleksin açılışını edirik.

Sovet dövründə, təbii ki, tarix təhrif edildiyi üçün bu həqiqətlər bizdən gizlədilirdi. Uzun illər Azərbaycan xalqının qanını axıdan quldurlar – onların da mənfur adları orada göstərilir – Şaumyan və onun kimiləri bizə qəhrəmanlar kimi təqdim edilirdi. Hesab edirəm ki, bu, böyük faciədir. Çünki uzun illər xalqımıza qarşı amansızlıqla vəhşilik törədən ünsürlər sovet tarixində qəhrəman kimi təqdim edilirdi, onların şərəfinə abidələr ucaldılırdı. Yalnız müstəqillik dövründə biz həqiqi ədaləti bərpa etdik. Gözəl şəhərimizi, Bakımızı o abidələrdən təmizlədik və bu gün o yerlərdə gözəl parklar, o cümlədən Sahil parkı yaradılıbdır. Yəni tarix, ədalət zəfər çaldı. Biz bu gün öz tariximizə qayıdırıq. Tarixin bütün məqamlarını bilirik, bilməliyik. Gənc nəsil də bilməlidir ki, xalqımız keçmişdə hansı fəlakətlərlə üz-üzə qalmışdır. Erməni





faşizminə o vaxt düzgün qiymət verilmədiyi üçün sonra tarixin müxtəlif dövrlərində erməni faşizmi öz yırtıcı sifətini nümayiş etdirmişdir.

Ermənistan dövlətinin ideologiyası da faşizm üzərində qurulmuşdur. Hesab edirəm ki, erməni faşizmi Azərbaycan alimləri tərəfindən daha geniş şəkildə tədqiq edilməlidir. Hesab edirəm ki, tarixi paralellər əsasında çox böyük əsərlər yaradılmalıdır. Şadam ki, son illərdə, o cümlədən mənim təşəbbüsümlə alimlərimiz İrəvan xanlığı, bizim tarixi torpaqlarımız haqqında kifayət qədər dolğun və məzmunlu əsərlər yaratmışlar. Biz bu tarixi gənc nəsillərə də çatdırırıq. Məsələn, İrəvanın Ermənistanın paytaxtı elan olunmasının tarixi hesab edirəm ki, bir çoxlarına bəlli deyildi. Biz bu məsələni qaldıranda, tarixi faktlar əsasında bu məsələyə diqqət yetirəndə, artıq bunu həm Azərbaycanda hər kəs bilir, dünyada da bilirlər ki, İrəvanın Ermənistan dövlətinin paytaxtı elan edilməsi Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən verilmiş qərar əsasında olmuşdur. Ona görə, hesab edirəm ki, tarixi həqiqətləri əks etdirən böyük elmi əsərlər yaradılmalıdır. Onların bir hissəsi artıq yaradılıbdır. Ancaq hesab edirəm ki, bu məsələyə daha da ciddi diqqət verməliyik. Ermənilərin bizim tarixi torpaqlarımıza köçürülməsi məsələləri, hesab edirəm ki, Azərbaycan elmində kifayət qədər işıqlandırılmayıb. Biz hamımız yaxşı bilirik ki, Azərbaycanın ayrılmaz torpağı olan Dağlıq Qarabağa ermənilər XIX əsrin birinci yarısında Şərqi Anadoludan və İrandan köçürülmüşdür. Onlar orada məskən salmışdır və ondan sonra dinc Azərbaycan əhalisinə qarşı öz təxribatlarını başlamışlar. Yəni bu tarixi paralel, ondan sonra Bakı soyqırımı, Quba soyqırımı, İkinci Dünya müharibəsində erməni faşizminin törətdiyi cinayətlər və keçən əsrin sonlarında növbəti dəfə erməni faşizminin təzahürləri Azərbaycan tarix elmində geniş şəkildə tədqiq edilməli və gözəl əsərlər yaradılmalıdır.

Erməni faşizmi özünü bir daha 1980-ci illərin sonlarında – 1990-cı illərin əvvəllərində göstərmişdir. Biz o tarixi də

yaxşı xatırlayırıq. Çünki ulu öndər Heydər Əliyevin sovet hakimiyyətinin rəhbərliyindən uzaqlaşdırılmasından iki həftə sonra erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirilməsi haqqında məsələ qaldırmışlar. O vaxtkı sovet rəhbərliyi, ilk növbədə o vaxtkı rəhbər Qorbaçov və onun ətrafında olan erməni millətçiləri Azərbaycan xalqına qarşı böyük cinayətlər törətmişlər. Qanlı Yanvar hadisələri bilavasitə Qorbaçovun əməlləridir. Ondan əvvəl və ondan sonra xalqımıza qarşı törədilən cinayətlər artıq tarixdə kifayət qədər öyrənilibdir. O vaxt Heydər Əliyev amili ermənilərin əl-qolunu bağlamışdı. Sovet dövründə - 1969-cu ilə qədər ermənilər dəfələrlə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi ilə əlaqədar sovet hökumətinə müraciətlər etmişlər. Hətta rəsmi səviyyədə müraciətlər etmişlər. Ancaq Heydər Əliyevin qətiyyəti və çox ciddi etirazı buna imkan verməmişdir. Ondan sonra Heydər Əliyevin sovet hakimiyyətində fəaliyyəti dövrü başlamışdır. O vaxt da, əlbəttə ki, ermənilərin təxribat etmək üçün heç bir imkanları olmamışdır. 1987-ci ilin noyabrında – ulu öndər Heydər Əliyev vəzifədən gedəndən iki həftə sonra bu məsələ qaldırıldı və demək olar ki, o vaxtdan azərbaycanlılara qarşı növbəti soyqırımı prosesi başladı. Təxribatlar törədildi, sovet və dünya mətbuatında bu məsələ ilə bağlı yanlış və təhrif edilmiş rəy yaradıldı. Nəticədə, 1992-ci ildə Xocalı soyqırımı törədildi. Xocalı soyqırımını törədənlər bu gün Ermənistan rəhbərliyində təmsil olunan adamlardır. Bu faciə dünyanın gözü qabağında baş vermişdir. Yəni biz bunu "erməni soyqırımı" mifi kimi heç bir əsası olmayan mifologiya əsasında deyil, real faktlar əsasında görürük. Videomateriallar, fotoşəkillər, canlı şahidlərin ifadələri – bütün bunlar həqiqətdir və reallıqdır. Ancaq nədənsə bəziləri bunu görmək istəmir, bəziləri bu günə qədər də erməniləri qurban kimi təqdim etmək istəyirlər. Əlbəttə ki, bunun səbəbi vardır. Dünyada fəaliyyət göstərən erməni lobbisi və onun nəzarəti altında olan bəzi riyakar və rüşvətxor siyasətçilər tarixi tamamilə təhrif





edərək bütün günahı Azərbaycanın üzərinə qoymağa çalışırlar. Bu ədalətsizlik bu günə qədər də davam edir. Xocalı soyqırımı zamanı 613 günahsız insan ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilmişdir. Əgər burada uyuyan soydaşlarımız soyuq silahlarla və küt alətlərlə öldürülmüşlərsə, Xocalıda artıq soydaşlarımız avtomatlarla, qumbaralarla öldürülmüşdür. Yüzlərlə insan itkin düşmüşdür. Xocalıda ermənilər tərəfindən 63 uşaq, 106 qadın öldürülmüşdür. Bu, misli görünməmiş vəhşilikdir.

Nə üçün terror aktları, o cümlədən Avropa ölkələrində bu aktları törədən erməni terrorçuları sərbəst buraxılır və Ermənistana qaytarılır, orada isə onlara qəhrəman kimi münasibət göstərilir? Nə üçün bunu görmürlər? Bu ədalətsizlik nə vaxta qədər davam edəcək? Bu işğal nə vaxta qədər davam edəcək? Beynəlxalq birlik tərəfindən tanınan torpaqlarımız artıq 20 ilə yaxındır ki, işğal altındadır. Dağlıq Qarabağ Azərbaycanın əzəli, tarixi torpağıdır. Azərbaycan BMT-yə üzv olarkən vahid dövlət kimi üzv olmuşdur. Heç bir dövlət bizim ərazi bütövlüyümüzü şübhə altına almır. Nə üçün BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi icra edilmir? Bütün bu suallar cavabsız qalır. Biz bu suallara cavabları bilirik. Bu məsələnin həll olunmamasının səbəblərini bilirik və bunu açıq ifadə edirik. Ancaq bu suallar havada qalmamalıdır, bu ədalətsizliyə son qoyulmalıdır.

Bizim torpaqlarımız işğal altındadır, tarixi abidələrimiz, məscidlərimiz dağıdılıb, muzeylərimiz talan olunub, bütün şəhərlər yerlə-yeksan edilib. Bu memorial kompleksdə Şamaxının görüntüləri əks olunub. Burada Şamaxı məscidinin - qədim müsəlman aləmində ən qədim məscidlərdən birinin yarıdağılmış vəziyyətdə olan şəkilləri göstərilir. Biz bu ilin may ayında 743-cü ildə tikilmiş Şamaxı Cümə məscidini yenidən bərpa etdik. Bu məscid bu gün yenidən dindarların üzünə açılmışdır. Soyqırımı törədildi, bütün tarixi abidələr dağıdıldı. Baxın bu memorial kompleksdəki şəkillərdə əks olunan dağılmış Şamaxının vəziyyəti bu gün yenə də təkrarlanır. Bu gün Ağdam, Füzuli, Şuşa belə

vəziyyətdədir və bunu edənlər ermənilərdir. Bunu edənlər bu gün özlərini mədəni millət kimi təqdim etmək istəyirlər. Ancaq bunu edənin bir adı var – vəhşi! Başqa ad ola bilməz.

Mən bir dəfə demişəm ki, erməni xalqı bizdən qorxmamalıdır, öz rəhbərliyindən qorxmalıdır. Qaniçən, yırtıcı, quldur, cəllad rəhbərliyindən qorxmalıdır ki, bu gün onlar öz xalqına divan tuturlar, öz xalqını güllləbaran edirlər. İndiki Ermənistan rəhbərliyi nə qədər çox hakimiyyətdə qalsa, Ermənistan bir o qədər də tez tamamilə çökəcək və tarixi ədalət bərpa ediləcəkdir. Mən tam əminəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Bütün amillər – güclərin nisbəti, beynəlxalq, iqtisadi-hərbi amillər bunu göstərir. Sadəcə olaraq, vaxt gedir, biz istəyirik ki, bu, tezliklə olsun.

Azərbaycanın ərazi bütövlüyü tam şəkildə bərpa edilməlidir, Şuşada, Xankəndidə Azərbaycanın dövlət bayrağı qaldırılmalıdır və gələcəkdə azərbaycanlılar bütün tarixi torpaqlarında yaşamalıdırlar. Bizim tarixi torpaqlarımız İrəvan xanlığıdır, Göyçə, Zəngəzur mahallarıdır. Vaxt gələcək biz orada da yaşayacağıq. Mən buna inanıram, buna əminəm. Buna nail olmaq üçün hər birimiz öz səylərimizi birləşdirməliyik, hər birimiz öz işimizlə o müqəddəs günü yaxınlaşdırmalıyıq.

1918-ci ilin mart ayında soyqırımı zamanı bu məscid vəhşi erməni quldur dəstələri tərəfindən yandırılmışdır. Bu məsciddə sığınacaq tapmaq istəyən mindən yuxarı günahsız insan, – onların arasında uşaqlar və qadınlar da olmuşdur - ermənilər tərəfindən yandırılmışdır.

1918-ci ildə ermənilər Azərbaycanın müxtəlif bölgələrində qanlı qırğınlar törətmişlər, soyqırımı siyasəti həyata keçirməyə başlamışlar. Bu soyqırımı Quba qəzasında da xüsusi vəhşiliklə həyata keçirilmişdir. Ermənilər uşaq, qadın, qoca tanımadan minlərlə insanı deyilməsi belə mümkün olmayan qəddar üsullarla qətlə yetirmişlər, yüzlərlə yaşayış məntəqəmizi xarabazara çevirmişlər. Həmin dəhşətli qırğınlar nəticəsində Qubada yaşayan





digər xalqların nümayəndələri, o cümlədən dağ yəhudiləri də soyqırımına məruz qalıb. Biz həmin hadisələr barədə böyüklərimizdən çoxlu söhbətlər eşitmişik. Nə qədər insanlıqdan uzaq olasan ki, belə vəhşiliklərə əl atasan! Bu ancaq ermənilərə xas olan keyfiyyətlərdir.

**17 may 2013-cü ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Şamaxı Cümə məscidinin əsaslı bərpa və yenidənqurmadan sonra istifadəyə verilmə mərasimindəki nitqindən:**

Hazırda işğal altında olan Şuşa məscidi, Ağdam məscidi, işğal altında olan digər məscidlər yarıdağılmış vəziyyətdədir. Ancaq gün gələcək biz o məscidləri də bərpa edəcəyik. Şuşa məscidini də, Ağdam məscidini də, işğal altında olan digər məscidləri də bərpa edəcəyik. İşğalçıları Azərbaycan torpaqlarından qovacağıq. Azərbaycan bayrağı Şuşada, Xankəndidə, işğal olunmuş bütün torpaqlarda dalğalanacaqdır. Mən əminəm ki, o gün gələcəkdir. O günü yaxınlaşdırmaq üçün bütün Azərbaycan cəmiyyəti, Azərbaycan vətəndaşları bir nöqtəyə vurmalıdır. Ölkəmizi gücləndirməliyik, ölkəmizi hərtərəfli inkişaf etdirməliyik.

**Ramiz Mehdiyev,**
*Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbəri*

## Hər birimizdən böyük vətəndaş məsuliyyəti tələb edən tarixi sənəd

Qarabağ münaqişəsi ölkəmizin pozulmuş hüquqlarının bərpa olunmasında çox təsirli vasitə rolunu oynaya bilər.

Bütün bu deyilənlər «Azərbaycanlıların soyqırımı haqqında» Prezident fərmanının böyük tarixi və siyasi əhəmiyyətini vurğulamaqla bərabər, həm də cəmiyyətin bütün təbəqələrinin, elmi ictimaiyyətin, ictimai-siyasi qüvvələrin, hər bir vətəndaşın ona böyük məsuliyyət və yüksək vətənpərvərlik mövqeyindən yanaşması zərurətini şərtləndirir. Milli mənafeləri uca tutan, xalqımızın tarixi haqlarının müdafiə edilməsinə vətəndaş məsuliyyəti göstərən hər bir azərbaycanlının bu fərmanda irəli sürülən vəzifələrə diqqətlə yanaşacağı, milli yaddaşımızın qəti şəkildə, birdəfəlik bərpa edilməsi işində yaxından və fəallıqla iştirak edəcəyi şübhə doğurmur. Unutmamalıyıq ki, xalqımızın tarixində baş vermiş elə hadisələr var ki, ona münasibətdə cəmiyyətin bütün təbəqələri eyni mövqedən çıxış etməlidir. Bu məsələdə heç kim kənarda qala bilməz. Bununla da biz erməni soyqırımının qurbanı olmuş çoxsaylı soydaşlarımızın müqəddəs ruhu qarşısında keçmiş borcumuzu qismən ödəyər, parçalanmış, zəbt olunmuş və işğal edilmiş tarixi Azərbaycan torpaqlarının bərpasına öz vətəndaşlıq xidmətimizi göstərərik.

XXI əsrin astanasında müstəqilliyini əldə etmiş Azərbaycan xalqı qədim tarixə və zəngin ənənələrə malik olan dövlətçiliyini bərpa etmək, milli mənəvi dəyərlərə söykənən və ümumbəşəri ideallardan qidalanan məfkurəsini, öz milli ideologiyasını formalaşdırmaq, azad iqtisadi münasibətlərə əsaslanan, demokratiya prinsiplərini ehtiva və tədbiq edən hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu yolu ilə inamla irəliləyir. Dövlət suverenliyi və milli müstəqillik xalqın əsrlərlə ürəyində gəzdirdiyi müqəddəs arzunun, ideyanın təntənəsi, neçə-neçə nəsillərin bu ideya uğrunda açıq və gizli mübarizəsinin məntiqi yekunu olub, Azərbaycanın müasir durumunun başlıca keyfiyyət təzahürü kimi çıxış edir. Azərbaycan Respublikasının Prezidenti möhtərəm Heydər Əliyev tamamilə haqlı olaraq ölkəmizin dövlət müstəqilliyini xalqımızın XX əsrdə qazandığı ən böyük nailiyyət, ən vacib milli sərvət hesab edir.





Dövlət müstəqilliyi xalqımıza öz milli mənsubiyyətini tam tutumu ilə ifadə etmək, milli mənafelərini maksimum şəkildə reallaşdırmaq imkanları vermişdir. Müstəqillik, azadlıq hissi indiki tarixi mərhələdə xalqın qarşısında duran çətin və mürəkkəb problemlərin özünüdərkin, özünüifadənin, bugünkü və gələcək uğurların fundamental şərtinə və rəhninə çevrilir.

Azərbaycan xalqı yeddinci ildir ki, müstəqil yaşayır. Bu illər əslində müstəqilliyin qorunub saxlanması, möhkəmləndirilməsi uğrunda gərgin, bəzən dramatik mübarizə dövrü olmuşdur. İndi tam əsasla deyə bilərik ki, prezident Heydər Əliyevin düşünülmüş, uzaqgörən, ölçülüb-biçilmiş siyasəti və zəngin dövlətçilik, rəhbərlik təcrübəsi sayəsində ölkəmizdə sabitlik təmin edilmiş və müstəqil Azərbaycan dövləti hərtərəfli inkişaf yoluna çıxmışdır. Xalqımız möhtərəm prezidentimizin rəhbərliyi altında Ermənistan-Azərbaycan münaqişəsinin dinc vasitələrlə nizama salınması, iqtisadi, siyasi və hüquqi islahatların aparılması, ölkənin təbii sərvətlərindən xalqın rifahı naminə istifadə edilməsi, dövlətimizin dünya iqtisadi və siyasi qurumlarına inteqrasiya olunması, əhalinin həyat səviyyəsinin yüksəldilməsi və s. kimi vəzifələri müvəffəqiyyətlə yerinə yetirir. Azərbaycanın xoş sədası mötəbər beynəlxalq məclislərdən getdikcə daha tez-tez eşidilməkdədir, onun dünya birliyində nüfuzu, demokratik, hüquqi, dünyəvi dövlət imici artır. Azərbaycan

dövlətinin başçısı Heydər Əliyev dünyanın ən görkəmli siyasi xadimləri arasında yüksək nüfuz, layiqli hörmət qazanaraq ən mötəbər beynəlxalq sorğuların qalibi olmuşdur. Bütün bunlar Azərbaycanın dövlət müstəqilliyinin nəticəsi olmaqla yanaşı, həm də onun dönməzliyinin, daimi və əbədi xarakter kəsb etməsinin mühüm göstəricisidir.

Xalqımızın dövlət müstəqilliyi əldə etməsi bir tərəfdən dünyada, o cümlədən keçmiş Sovetlər İttifaqında gedən siyasi, iqtisadi, ideoloji, coğrafi-siyasi proseslərin nəticəsi, digər tərəfdən millətimizin özünütəsdiqinin təzahürüdür. Buna görə də biz haqlı olaraq müstəqilliyin əldə edilməsini xalqımızın özünü ifadə etməsi, milli mənliyini təsdiqləməsi, tarixini, mənəviyyatını, adət-ənənələrini, əxlaqi dəyərlərini və baxışlarını obyektiv şəkildə bərpa və inkişaf etdirməsi üçün geniş imkanlar açan tarixi bir şans kimi qavrayırıq. Sübut etməyə ehtiyac yoxdur ki, mənəvi dəyərlərimizi canlandırmadan, milli mənlik hissini coşdurmadan, xalqın soykökünə arxalanmadan milli dövlətçiliyin əbədiyaşar bünövrəsini qurmaq qeyri-mümkündür. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev bu münasibətlə haqlı olaraq demişdir: «Xalqımız əsrlər boyu yaşamaq, yaratmaq uğrunda mübarizə aparıb, milli azadlıq uğrunda vuruşub, qurbanlar verib, öz torpağında milli ənənələri, tarixi kökləri əsasında, öz dini, mənəviyyatı əsasında müstəqil dövlət qurmaq arzusunda olub. İndi xalqımız buna nail olub... Azərbaycan dövlət müstəqilliyi əldə edəndən sonra xalqımızın mənəvi dəyərləri canlanıb, bərpa edilibdir. Azərbaycan xalqı qəhrəman, çəsur, dəyanətli, saf əxlaqlı xalq kimi bütün dünyada tanınıb».

Hər bir xalq öz tarixində milli mənsubiyyətini təsdiqləyən cəhətləri cilalayaraq əxlaqi-psixoloji dəyərlərini və keyfiyyətlərini formalaşdırır. Xalqın tarixi nəinki onun kökü, mənşəyi haqqında informasiya mənbəyidir, habelə onun keyfiyyət müəyyənliyi, milli yetkinlik zirvəsinə yüksəlişi xronologiyasıdır. Ona görə də xalqın həyatı, mədəniyyəti, məfkurəsi haqqında həqiqi bilgiləri





onun obyektiv, dəqiq və dolğun tədqiq olunub yaradılmış tarixi vasitəsilə əldə etmək mümkündür.

Azərbaycan xalqının tarixi qədim və zəngin olduğu qədər də keşməkeşli olmuşdur. Azərbaycanlıların neçə-neçə nəsilləri tarixi ədalət uğrunda vuruşmaqla yanaşı, həm də tarixi həqiqəti bərpa etmək uğrunda mübarizə aparıblar. Yalnız Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlərin açılması tariximizin təhrif edilmiş səhifələrinin yenidən, bu dəfə obyektiv yazılmasına şərait yaradıbdır. Ona görə də hazırda cəmiyyətimiz, ilk növbədə isə tariximizin tədqiqatçıları qarşısında çox mühüm vəzifələr durur. Prezident Heydər Əliyevin qeyd etdiyi kimi, «tarixə düzgün qiymət vermək, onu düzgün təhlil etmək lazımdır».

Azərbaycan tarixinin gizli saxlanılan, uzun illər boyu təhrif edilən səhifələrindən biri də xalqımıza qarşı dəfələrlə törədilmiş, lakin indiyədək özünün hüquqi və siyasi qiymətini almamış soyqırımıdır. Çox təəssüf hissi ilə qeyd edilməlidir ki, bu məsələ tədqiqatçıların da diqqətindən kənarda qalmışdır. «Azərbaycanlıların soyqırımı haqqında» Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1998-ci il 26 mart tarixli fərmanı bu boşluğu doldurur, tarixi həqiqəti aşkar edir. Qətiyyətlə deyə bilərik ki, bu fərman 200 il ərzində Azərbaycan xalqına qarşı törədilən haqsızlıqların indiki və gələcək nəsillərimizə, habelə bütün dünya ictimaiyyətinə çatdırılması baxımından xüsusi dövlət əhəmiyyəti, hətta beynəlxalq əhəmiyyət kəsb edən sənəddir. Özünün ruhu, məzmunu, ideya yönümü ilə bu sənəd yüz illərlə xalqımıza qarşı törədilən qəddar cinayətlərin, XX əsrin sonlarında «Dağlıq Qarabağ problemi» şəklində ortaya çıxmış erməni təcavüzünün həqiqi köklərinin öyrənilməsi və dərk edilməsində əvəzsiz tarixi-siyasi mənbə əhəmiyyətinə malikdir.

«Azərbaycanlıların soyqırımı haqqında» fərmanında

Prezident Heydər Əliyev xalqımıza qarşı soyqırımı faktlarının dövlət səviyyəsində ilk dəfə bəyan edilməsi və ona siyasi qiymət verilməsi ilə Azərbaycan xalqı qarşısında daha bir tarixi xidmət göstərmişdir. Bu fərmanın yaranmasını dövlətçilik fəaliyyətinin adi bir faktı kimi qiymətləndirmək düzgün olmazdı. Belə sənədin qəbul edilməsi dövlət başçısından xalqımızın tarixi taleyinə dərindən bələdçilik və obyektiv baxış, əsl vətəndaş cəsarəti və böyük siyasi uzaqgörənlik, müdriklik və iradə tələb edir. Bununla yanaşı mübaliğəsiz demək olar ki, belə bir addım xalqımızın tarixi haqlarının bərpa edilməsi və qorunması istiqamətində son illər aparılan məqsədyönlü və ardıcıl siyasətin keyfiyyətcə yeni mərhələyə daxil olmasından xəbər verir. Bunu fərmanın bütün məzmunu və mahiyyəti bariz şəkildə göstərir.

Uzun illər müxtəlif formalarda təcavüzlərə məruz qalan, lakin haqq səsini dünyaya çatdıra bilməyən azərbaycanlılar həmin fərmanın sayəsində əsl həqiqəti uca səslə bəyan etmək və millətimizi zülmə, sıxıntılara düçar etmiş erməni və digər ünvanlı təcavüzkarların insanlığa yaraşmayan əməllərini konkret faktlarla ifşa etmək imkanı əldə edirlər. Bu həqiqət isə ondan ibarətdir ki, müxtəlif coğrafi maraqların amansız burulğanına düşmüş Azərbaycan xalqı son iki əsr ərzində milli, dini və ərazi baxımından sıxışdırılıb, qədim ata-baba torpaqlarının böyük bir hissəsindən çıxarılıb, ardı-arası kəsilməyən təzyiqlər və təqiblər sayəsində taqətdən salınıb, dəfələrlə soyqırımına məruz qalıb, lakin onun etiraz səsi, harayı qəddarcasına boğulub, dünyadan gizlədilib. Bütün bunlara görə «Azərbaycanlıların soyqırımı haqqında» Prezident fərmanı mühüm siyasi və tarixi əhəmiyyətə malik sənəddir. O, XIX-XX əsrlərdə azərbaycanlılara qarşı ölkəmizin daxilində və beynəlxalq səviyyədə həyata keçirilən soyqırımı siyasətinə, xalqımız əleyhinə tarixi cinayətlərə rəsmi dövlət səviyyəsində siyasi qiymət verir. Bununla yanaşı fərman ermənilərin və onların himayədarlarının çirkin məqsədli fəaliyyəti nəticəsində xalqımızın son iki yüz illik tarixinin





bilərəkdən saxtalaşdırıldığını dövlət səviyyəsində bəyan edir. O həm də baş vermiş kədərli hadisələrin obyektiv araşdırılması və beynəlxalq təşkilatlar tərəfindən bu cinayətlərə ədalətli qiymət verilməsi üçün hüquqi-siyasi baza yaradır. Bu isə təkcə tarixçilərimiz, ümumiyyətlə, elmi ictimaiyyətimiz qarşısında deyil, həm də ölkəmizi, xalqımızı beynəlxalq səviyyədə təmsil edən nümayəndələrimiz, ən əvvəl diplomatlarımız qarşısında, eləcə də müxtəlif ölkələrdə yaşayan soydaşlarımız, Azərbaycan diasporası qarşısında mühüm vəzifələr qoyur.

Tarix göstərir ki, Azərbaycan torpaqları hesabına «Böyük Ermənistan» dövləti yaratmaq üçün azərbaycanlıların soyqırımını törətmək ermənilərin uzunmüddətli çirkin, azğın milli məqsədidir və bunu hər bir azərbaycanlı dərk etməlidir. Fərmanda Azərbaycan ərazisinin işğalçılar tərəfindən parçalanması, əhalisinin ağır müsibətlərə düçar edilməsi, son iki əsrdə əvvəlcə çar Rusiyasının, sonralar isə totalitar sovet rejiminin bilavasitə yardımı və himayəsi ilə ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi düşünülmüş, məqsədyönlü soyqırımı siyasəti mərhələ-mərhələ açıqlanır və təkzibedilməz bir məntiqlə ifşa olunur.

Sənəddə qeyd olunduğu kimi, həqiqətən də, bu soyqırımı siyasətinin ilkin mərhələsi – Gülüstan və Türkmənçay müqavilələri nəticəsində Azərbaycan torpaqlarının yadelli qəsbkarlar tərəfindən parçalanaraq işğal edilməsi və həmin ərazilərə başqa ölkələrdən ermənilərin köçürülməsi ilə başlanır. Məhz həmin dövrdə ermənilər tarixi Azərbaycan torpaqları olan İrəvan, Naxçıvan, Qarabağ xanlıqları ərazilərində məskunlaşdırıldı və orada yaşayan azərbaycanlılarla müqayisədə son dərəcə azlıq təşkil etmələrinə baxmayaraq, «erməni vilayəti» adlı süni inzibati-ərazi bölgüsü yaradılmasına nail oldular. Bununla da, azərbaycanlıların öz əzəli torpaqlarından qovulması və məhv edilməsi siyasətinin əsası qoyuldu və fərmanda qeyd edildiyi kimi, soyqırım Azərbaycan torpaqlarının işğalı strategiyasının ayrılmaz tərkib hissəsinə çevrildi. On ildən bəri davam edən və xalqımızı ağır

məhrumiyyətlərə məruz qoyan Dağlıq Qarabağ separatçılığı bu strategiyanın növbəti təzahürüdür.

Prezident fərmanının əhəmiyyəti onun tarixi hadisələrə siyasi qiymət verməsi ilə məhdudlaşmır. Bu fərman keçmiş tariximizə və bugünkü proseslərə baxışları köklü surətdə dəyişdirməyi nəzərdə tutan çox mühüm dövlət sənədi, konseptual siyasi baxışlara əsaslanan metodoloji bazadır. Bu fərman dünya miqyasında öz mövqelərini getdikcə möhkəmləndirən müstəqil Azərbaycan dövlətinin haqq səsidir, ədalət harayıdır, bütün dövlətlərlə bərabərhüquqlu münasibətlər qurmağı və öz maraqlarını müdafiə etməyi bacaran dövlətin milli manifestidir. Fərmanın həm bütünlükdə məzmunu, həm də ayrı-ayrılıqda müxtəlif müddəaları hər bir vətəndaş və bütövlükdə cəmiyyət qarşısında çox mühüm vəzifələr irəli sürür. Qısa şəkildə həmin vəzifələri aşağıdakı kimi ifadə etmək olar:

Fərmanda 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələrinin Azərbaycan xalqının və torpaqlarının parçalanmasının əsasını qoyması kimi səciyyələndirilməsi, əslində, həmin dövrdən bu günə qədər Azərbaycan tarixinə yeni, saxtakarlıqdan uzaq, obyektivliyə əsaslanan mövqedən yanaşmaq, onun yeni konsepsiyasını yaratmaq zərurətini irəli sürür. Etiraf etməliyik ki, uzun illər Azərbaycan xalqına qarşı yeridilən mənfur sıxışdırma siyasətinin və ermənilərin törətdikləri soyqırımının ört-basdır edilməsində, tariximizin saxtalaşdırılmasında bizim ictimai elmlərin nümayəndələrinin günahı da az deyil. Onlar kommunist ideologiyasının obyektivlikdən çox uzaq olan, tarixi faktları təhrif edən «xalqlar dostluğu» felinə uyaraq əsl həqiqətləri nəinki dünya ictimaiyyətinə, heç öz gənc nəslimizə belə çatdıra bilməyiblər. Bununla əlaqədar son iki yüz illik tariximizin yenidən işlənməsi tarixçilərin və bütünlüklə iqtisadi elmlərimizin əsas vəzifəsi kimi qarşıda durur. İnanmaq olar ki, humanitar elm nümayəndələrimiz, siyasətçilər, politoloqlar, jurnalistlər, bütün yaradıcı ziyalılarımız prezident Heydər Əliyevin bu fərmanından





düzgün nəticə çıxaracaq, xalqımızın qədim və zəngin tarixinə yenidən nəzər salacaq, həqiqi tariximizi yazıb, olduğu kimi dünyaya çatdıracaqlar. Bu zaman onlar qeyri-səmimilikdə, qeyri-ardıcıllıqda təqsirləndirilməkdən çəkinməyərək öz səhvlərini cəsarətlə etiraf etməlidirlər. Millətimizin gələcək taleyi bunu qətiyyətlə tələb edir.

Sübut etməyə ehtiyac yoxdur, 1988-ci ildə ortaya atılan qondarma Dağlıq Qarabağ problemində, 1990-cı ilin 20 yanvar Bakı qırğınında, Xocalı faciəsində və digər antiazərbaycan vəhşiliklərində öz əksini tapan soyqırımının kökləri Rusiya imperiyasının «Qafqaz yürüşünə», XIX əsrin əvvəllərinə, yuxarıda xatırladılan müqavilələrin imzalanması ilə nəticələnən coğrafi-siyasi proseslərə və münasibətlərə gedib çıxır. İki yüz il ərzində azərbaycanlıların mərhələ-mərhələ öz tarixi torpaqlarından sıxışdırılıb çıxarılmasının əsl səbəblərini və bu proseslərin həm iştirakçılarının, həm də havadarlarının (bəlkə də, prosesin həqiqi sahiblərinin) qarşıya qoyduqları məqsədlərin mahiyyətini aşkara çıxara bilərik. Bu modeli isə prezidentin fərmanının yalnız yeni konseptual modeli zəminində dərin məna çalarlarını yüksək vətəndaş məsuliyyəti və cəsarəti ilə dərk edən vətənpərvər alimlərimiz yaratmalı və həyata keçirməlidirlər.

İrəli sürülən vəzifəni sırf elmi-idraki məzmunlu və yönümlü problem kimi təqdim etmək səhv olardı. Məsələyə siyasi prizmadan yanaşaraq onun praktiki məqsədini daha düzgün müəyyənləşdirib həyata keçirmək lazımdır. Söhbət azərbaycanlıların son iki yüz ildə, o cümlədən yaşadığımız dövrdə üzləşdiyi təzyiqlərin, soyqırımı hadisələrinin səbəblərinin və köklərinin düzgün araşdırılması və obyektiv qiymətləndirməsi ilə məhdudlaşmır. Yuxarıda qeyd etdiyimiz kimi, öz-özlüyündə bu vacibdir. Lakin əsas məqsəd və vəzifə ondan ibarətdir ki, bu xarakterli hadisələrin səbəblərinə ayıq nəzərlə baxaq, gələcəkdə belə faciələrin təkrar olunmaması üçün onların qarşısını vaxtında ala bilək. Bunun üçün isə, ilk növbədə, gənc nəsli və gələcək nəsilləri xalqımızın gözəl mənəvi-

əxlaqi dəyərləri ruhunda, vətənpərvərlik qayəsi əsasında tərbiyə etmək, milli biganəliyin, tariximizə və müsibətlərimizə etinasız münasibətin aradan qalxmasına nail olmaq, mümkün ola biləcək yeni sınaqlar qarşısında xalqımızın öz qədir-qiymətini dərk edən vahid, mübariz, qətiyyətli bir millət kimi formalaşmasını təmin etmək lazımdır.

Prezidentin fərmanı xalqımızın tarixi yaddaşının bərpası və möhkəmləndirilməsi, milli dəyərlərə və milli hislərə söykənən mənəvi-əxlaqi tərbiyə sahəsində də mühüm vəzifələr irəli sürür. Bunun üçün saxtalaşdırılmış erməni tarixi zəminində azərbaycanlılara qarşı yeridilən erməni siyasətinə ən layiqli cavab tarixi həqiqətlərin hər bir azərbaycanlıya çatdırılmasıdır. Mənfur məqsədləri hər birimizə məlum olan erməni düşmənçiliyinin və ekstremizminin xalqımıza qarşı törətdiyi soyqırımı dəhşətlərinin aşkarlanması, gənclərə izah edilməsi onların milli şüurunun, idrakının inkişafında, vətənpərvərlik tərbiyəsində əsas istiqamət olmaqla yanaşı, həm də keçmişimizin acı reallıqlarının bir daha təkrar olunmaması üçün milli yaddaş fenomeninə və ciddi xəbərdarlığa çevrilməlidir. Tarixi unutqanlığımız və biganəlik üzündən müxtəlif dövrlərdə xalqımızın düçar olduğu faciələrin Azərbaycan övladlarının tərbiyəsində (subyektiv və obyektiv amillərə görə) həlledici amilə çevrilə bilməməsindən lazımi nəticə çıxarmağın vaxtı çoxdan çatıb. Xalqımız müstəqillik şəraitində öz şərəfli tarixini yaşayaraq, keçmişimizin qanlı səhifələrini, yaralarını da unutmamalıdır. Bunun üçün gənclərimizdə ideya-siyasi və mənəvi mübarizlik hislərini gücləndirməliyik.

Azərbaycanlıların soyqırımı tarixinin gənc nəslin təlim-tərbiyəsinin mühüm, bəlkə də həlledici elementi kimi tədqiq edilib yazılması cəmiyyəti düşündürən ən aktual problemlərdən biri olmalıdır. Belə bir cəhətə xüsusi diqqət yetirilməlidir ki, ermənilərdən fərqli olaraq azərbaycanlılar qisasçılıq hissinə qapılmasalar da, öz tarixi haqlarını qorumaqda və bərpa etməkdə daha güzəştə getməyəcəklər.





Fərmanın xalqımıza qarşı törədilmiş haqsızlıqların və cinayətlərin üstünü açmasında, bunları həm bugünkü, həm də gələcək nəsillərə çatdırmaq zərurətini vurğulamasında ifadə olunan tarixi əhəmiyyəti bu işə bütün cəmiyyətin qoşulmasını şərtləndirir. Hər bir azərbaycanlı tam məsuliyyətlə dərk etməlidir ki, torpaqlarımızın parçalanması, zəbt olunması, xalqımızın soyqırımına məruz qalması vətəndaşlıq duyğularını gücləndirən, milli məfkurəni ötəri hislərdən və məqsədlərdən təmizləyən tarixi yaddaşa çevrilməlidir. Ona görə də mövqeyindən, əqidəsindən, siyasi mənsubiyyətindən asılı olmayaraq, hər kəs Prezidentin fərmanının tarixi əhəmiyyətini dərk etməli, orada irəli sürülən vəzifələrin həyata keçirilməsi işinə öz töhfəsini verməyə mühüm vətəndaşlıq borcu kimi yanaşmalıdır. Bu vəzifələrin reallaşması bütün cəmiyyətin, dövlət və qeyri- dövlət strukturlarının, ictimai-siyasi təşkilat və partiyaların, habelə xaricdə yaşayan soydaşlarımızın səylərinin birləşməsini tələb edir. Bu ümummilli siqlətli məsələdə iqtidar-müxalifət bölgüsü qətiyyən yolverilməzdir, çünki əks təqdirdə həmin parçalanmanın səbəbkarları düşmən dəyirmanına su tökmüş olurlar.

Azərbaycanlılara qarşı uzun illər boyu davam etmiş soyqırımı tarixinin öyrənilməsi və bu insanlıqdankənar əməllərin düzgün qiymətləndirilməsi xalqımızın mənəviyyatına, milli qüruruna və mənliyinə qarşı yönəlmiş azğın təxribat və böhtanlara son qoymaq baxımından da tutarlı dəstavüz ola bilər.

Bu həm də ona görə, xüsusilə vacibdir ki, belə təxribat və böhtanlar, əslində, ölkəmizə, xalqımıza qarşı zaman-zaman hərbi və siyasi təcavüzlər üçün ideoloji zəmin rolunu oynayır. Xalqımıza qarşı aparılan soyqırımı özünün hüquqi-siyasi qiymətini indiyədək almadığı üçün Azərbaycanın haqq işi uğrunda ədalətli mübarizəsi bütün dövrlərdə çətinliklərlə qarşılaşmalı olmuşdur. Ölkəmizə və xalqımıza qarşı yönəlmiş təxribatlara vaxtında qiymət verilməməsi, eləcə də o dövrdə milli birliyin, dövlətçilik təcrübəsinə malik liderin olmaması Dağlıq Qarabağ ətrafında

Ermənistan-Azərbaycan münaqişəsinin əsl səbəblərinin dünyaya vaxtında çatdırılmasına böyük əngəllər törətmişdir. Buna görə də tarixi faktlar əsasında azərbaycanlıların soyqırımı faktlarının geniş dünya ictimaiyyətinə bəyan olunması Dağlıq Qarabağ münaqişəsi zəminində xalqımızın pozulmuş hüquqlarının, ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi istiqamətində aparılan çoxşaxəli işin tərkib hissəsinə çevrilməlidir. Azərbaycanlıların soyqırımının bütün dəqiqliyi ilə dünya birliyinə çatdırılması - onilliklər ərzində uydurulmuş «məzlum, yazıq erməni milləti» obrazını dağıtmaq üçün də ən tutarlı vasitə ola bilər.

Ölkə Prezidentinin xalqımızın tarixi keçmişinin qaranlıq səhifələrinə işıq saçan bu fərmanı taleyüklü fundamental məsələlər irəli sürdüyünə görə bütün Azərbaycan xalqının diqqətini cəlb edib, cəmiyyətimiz tərəfindən birmənalı şəkildə yüksək qiymətləndirilib. Xalqın bütün təbəqələri onun əhəmiyyətini, vacibliyini, dəyərini dərk edərək qarşıya qoyulan vəzifələrin həyata keçirilməsində yaxından iştirak etmək əzmini bildirir. Fərmanda qaldırılan problemlər ətrafında intensiv diskussiyalar aparılır, elmi konfranslar, ictimaiyyətin toplantıları keçirilir. Dövlət mətbuatı fərmanda qoyulan problemlərin işıqlandırılmasına və reallaşdırılmasına geniş yer verir. Milli Məclis Prezidentin bu fərmanı ilə bağlı xüsusi sessiya keçirmiş, azərbaycanlıların soyqırımı haqqında bəyanat qəbul etmiş, beynəlxalq təşkilatlara, dünya ölkələrinin parlamentlərinə və hökumətlərinə müraciət etmişdir ki, son iki əsrdə erməni millətçiliyinin və onun havadarlarının azərbaycanlılara qarşı törətdiyi soyqırımı cinayətini tanısınlar, gələcəkdə soyqırımı cinayətlərinin cəzasız qalmasının qarşısını almaqdan ötrü təsirli beynəlxalq hüquq mexanizmləri yaradılması işini tezliklə başa çatdırsınlar.

Azərbaycan Respublikasının Milli Məclisi azərbaycanlıların soyqırımı tarixi ilə əlaqədar əsl həqiqətin açılması və tarixi ədalətin bərpası naminə, habelə gələcəkdə azərbaycanlılara qarşı





yeni-yeni cinayətlərin qarşısının alınması məqsədi ilə bəyan etmişdir ki, demokratiya yolu tutmuş Azərbaycan dövləti erməni millətçiliyinin və onun antiazərbaycan ruhlu himayədarlarının XIX-XX əsrlərdə dəfələrlə xalqımıza qarşı soyqırımı törətdiklərini qətiyyətlə dünya ictimaiyyətinə çatdırmaq üçün bütün mövcud üsul və vasitələrdən istifadə edəcəkdir.

Tarixin acı həqiqətlərinin ibrət dərsi ondan ibarətdir ki, azərbaycanlılara qarşı iki yüz il davam edən soyqırımı həmin faciələrin əsl səbəbkarlarının kölgədə, cəzasız qalması sayəsində mümkün olmuşdur. Buna görə də xaricdə təbliğat işimizin bütün gücü və əsas istiqaməti azərbaycanlıların soyqırımı tarixinin tam təfərrüatı ilə dünya ictimaiyyətinə çatdırılmasına yönəldilməlidir. Azərbaycan Prezidentinin bununla əlaqədar Birləşmiş Millətlər Təşkilatını, ATƏT-i, dünyanın bütün nüfuzlu təşkilatlarını tarixdə ən amansız milli qırğın olan azərbaycanlıların soyqırımı haqqında məlumatlandırmaq, bu istiqamətdə genişmiqyaslı tədbirlər sistemi və uzunmüddətli dövrü əhatə edən xüsusi dövlət proqramı hazırlamaq barədə göstəriş vermişdir.

Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı fərmanda irəli sürülmüş müddəalar və cənab Heydər Əliyevin tapşırığı əsasında bu vəzifələrin həyata keçirilməsi üçün işə başlamışdır.

Azərbaycan xalqının indiki və gələcək nəsillərinin siyasi yetkinlik, vətənpərvərlik, mənəvi tərbiyəsinin və milli məfkurəsinin formalaşmasının soyqırım həqiqətləri üzərində köklənməsini təmin etmək məqsədi güdən bu ümummilli proqramın layiqincə həyata keçirilməsi bütün ictimai-siyasi qüvvələrin səylərini birləşdirməyi nəzərdə tutur. Ümid etməyə tam əsas var ki, unudulmuş həqiqətlərin yada salınması ilə tarixi yaddaşımızı bərpa etmək istiqamətində birgə səylər cəmiyyətimizdə milli birliyi daha da möhkəmləndirən səmərəli amil kimi də çox əhəmiyyətli funksiya yerinə yetirə biləcəkdir.

«Azərbaycanlıların soyqırımı haqqında» Azərbaycan Respublikası Prezidentinin fərmanı tarixi həqiqətlərin üzərindən

qadağanı götürməklə yanaşı, müasir Azərbaycan dövləti ilə bağlı reallıqların mahiyyətinin dərk edilməsində də mühüm meyar rolunu oynayır. Ermənilərin və onların havadarlarının azərbaycanlılara qarşı uzun illər ərzində törətdiyi soyqırımı faktlarının üstünün açılıb bütün dünyaya bəyan edilməsi Dağlıq Qarabağ münaqişəsi zəminində ölkəmizin pozulmuş hüquqlarının bərpa olunmasında çox təsirli vasitə rolunu oynaya bilər.

Bütün bu deyilənlər «Azərbaycanlıların soyqırımı haqqında» Prezident fərmanının böyük tarixi və siyasi əhəmiyyətini vurğulamaqla bərabər, həm də cəmiyyətin bütün təbəqələrinin, elmi ictimaiyyətin, ictimai-siyasi qüvvələrin, hər bir vətəndaşın ona böyük məsuliyyət və yüksək vətənpərvərlik mövqeyindən yanaşması zərurətini şərtləndirir. Milli mənafeləri uca tutan, xalqımızın tarixi haqlarının müdafiə edilməsinə vətəndaş məsuliyyəti göstərən hər bir azərbaycanlının bu fərmanda irəli sürülən vəzifələrə diqqətlə yanaşacağı, milli yaddaşımızın qəti şəkildə, birdəfəlik bərpa edilməsi işində yaxından və fəallıqla iştirak edəcəyi şübhə doğurmur. Unutmamalıyıq ki, xalqımızın tarixində baş vermiş elə hadisələr var ki, ona münasibətdə cəmiyyətin bütün təbəqələri eyni mövqedən çıxış etməlidir. Bu məsələdə heç kim kənarda qala bilməz. Bununla da biz erməni soyqırımının qurbanı olmuş çoxsaylı soydaşlarımızın müqəddəs ruhu qarşısında keçmiş borcumuzu qismən ödəyər, parçalanmış, zəbt olunmuş və işğal edilmiş tarixi Azərbaycan torpaqlarının bərpasına öz vətəndaşlıq xidmətimizi göstərərik.

*"Azərbaycan" qəzeti, 16 aprel 1998-ci il*





**Yaqub Mahmudov,**
*Əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü,*
*Dövlət Mükafatı laureatı*

## İrəvan və ətrafındakı torpaqlar ermənilərə hansı şərtlərlə verilmişdi[1]*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev real tarixi həqiqətlərə və ilk mənbələrə əsaslanaraq dəfələrlə bütün dünyaya birmənalı şəkildə və qətiyyətlə bəyan etmişdir ki, ermənilər Azərbaycan Xalq Cümhuriyyətinin onlara verdiyi İrəvan və ətraflarını əhatə edən Azərbaycan torpaqlarında bir dəfə özlərinə dövlət yaratmışlar. Azərbaycan öz ərazisində təcavüzkar Ermənistana ikinci erməni dövləti yaratmağa imkan verməyəcəkdir. Ölkə başçısının tövsiyə və tapşırıqları əsasında Tarix İnstitutunda bu istiqamətdə aparılan tədqiqatlar daha da genişləndirilmiş, İrəvan və ətrafındakı Azərbaycan torpaqlarının ermənilərə verilməsilə bağlı bir sıra yeni sənədlər və maraqlı faktlar aşkar olunmuşdur. Həmin sənədlər sübut edir ki, erməni tərəfi Batum danışıqları və müqavilələrinə (11 may - 4 iyun 1918-ci il) əsasən İrəvan və ətrafındakı Azərbaycan torpaqlarının onlara verilməsi müqabilində üzərinə bir sıra öhdəliklər götürmüşdü. Lakin ermənilər məqsədlərinə nail olduqdan sonra üzərilərinə götürdükləri bütün öhdəlikləri birtərəfli qaydada pozmuş, işğalçılıq siyasətini davam etdirmişlər. Beləliklə, İrəvan və ətrafındakı Azərbaycan topraqlarının ermənilərə verilməsi barədə həm Batum müqavilələrinin müvafiq maddələri, həm də Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurasının 29 may 1918-ci il tarixli qərarı öz hüquqi qüvvəsini itirmişdir. Buna görə də Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurasının İrəvan və ətrafındakı Azərbaycan torpaqlarının ermənilərə verilməsi haqqındakı qərarına yenidən baxılmalı, həmin qərar qüvvədən

*"Azərbaycan" qəzeti, 17 oktyabr 2014-cü il.

salınmalı və Azərbaycan xalqının İrəvan və ətrafındakı torpaqlara tarixi varislik hüququ bərpa olunmalıdır.

Çar Rusiyasında mütləqiyyətin devrilməsindən sonra yaranmış Zaqafqaziya Demokratik Federativ Respublikası 1918-ci il mayın 26-da süqut etdi. Bununla Cənubi Qafqazda müstəqil yerli dövlətlərin formalaşması prosesi başlandı. Həmin dövrdə Cənubi Qafqazda yalnız iki yerli (aborigen) xalqın - azərbaycanlıların və gürcülərin dövləti yaradıla bilərdi. Çünki ancaq bu iki xalqın müstəqil dövlət yaratmaq üçün tarixi etnik - ərazi bazaları vardı. Və ancaq bu iki xalq - azərbaycanlılar və gürcülər Cənubi Qafqazda dövlətçilik ənənələrinə malik idilər.

XIX əsrdə Türkmənçay (1828) və Ədirnə (1829) müqavilələrinə əsasən Çar Rusiyası tərəfindən Qacarlar İranından və Osmanlı Türkiyəsindən Cənubi Qafqaza köçürülüb gətirilmiş və əsasən, Azərbaycan torpaqlarında yerləşdirilmiş ermənilərin isə dövlət yaratmaq üçün burada - Cənubi Qafqazda ərazi bazaları yox idi. Beləliklə, Cənubi Qafqaz ərazisində erməni dövləti ancaq bu regionun yerli xalqları olan azərbaycanlıların və gürcülərin torpaqları hesabına yaradıla bilərdi.

Birinci Dünya müharibəsini aparan hərbi blokların hər ikisinin, həm Antantanın (Rusiya, İngiltərə, Fransa, ABŞ), həm də Almaniya-Türkiyə blokunun üzvləri arasında ermənilərə dövlət yaratmaq barədə ümumi fikir formalaşmışdı. Rusiya, İngiltərə, Fransa və ABŞ gələcək erməni dövlətinin Osmanlı Türkiyəsi ərazisində - Şərqi Anadoluda yaradılmasına tərəfdar idilər.

Azərbaycanın arxalandığı və məğlubiyyət qarşısında olan Osmanlı Türkiyəsi isə «erməni təhlükəsi»ni özündən, yəni Şərqi Anadoludan uzaqlaşdırmaq üçün erməni dövlətinin Türkiyə sərhədləri xaricində - Osmanlı hərbi qüvvələri tərəfindən zəbt olunmuş Azərbaycan torpaqlarında yaradılmasına çalışırdı.

Azərbaycan tərəfinin, real olaraq, həm böyük dövlətlərin təzyiqlərinə, həm də ölkənin bütün ərazilərində soyqırımıları həyata keçirən daşnak-erməni silahlı birləşmələrinə və onların





arxasında duran dövlətlərə silahlı müqavimət göstərmək gücü yox idi. Buna görə də, Azərbaycan milli hərəkatının xadimləri ermənilərə dövlət yaratmaq məsələsində Osmanlı Türkiyəsinin diktəsi ilə hərəkət edirdilər, daha doğrusu, buna məcbur idilər.

Yaranmış tarixi şəraitdə Azərbaycan tərəfi, yəni Zaqafqaziya Seyminin Azərbaycan fraksiyasının nümayəndələri ermənilərə dövlət yaratmaqdan ötrü hansı Azərbaycan torpaqlarının verilməsini müəyyən etmək üçün Türkiyənin vasitəçiliyi ilə erməni tərəfi ilə danışıqlara girdi. Danışıqlar Batum konfransı (11 may - 4 iyun 1918-ci il) çərçivəsində və konfransda iştirak edən Türkiyə nümayəndə heyətinin vasitəçiliyi ilə aparıldı (Danışıqların gedişi barədə ətraflı məlumat üçün bax: V.Qafarov. Türkiyə - Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922). Bakı, Azərnəşr, 2011).

Batum danışıqlarının lap başlanğıcındaca məlum oldu ki, həqiqətən də, Osmanlı Türkiyəsi «erməni təhlükəsini» özündən uzaqlaşdırmaq üçün gələcək erməni dövlətinin Azərbaycan ərazisində yaradılması siyasətini yeridir. Bununla bağlı olaraq, Batum konfransında aparılan danışıqların gedişi barədə danışıqlarda iştirak edən Azərbaycan nümayəndə heyətinin üzvü Nəsib bəy Usubbəyov Zaqafqaziya seyminin sabiq üzvlərinin 27 may 1918-ci il tarixli fövqəladə iclasında məlumat verdi. Batumdan yenicə qayıdan Nəsib bəy Usubbəyov fövqəladə iclas iştirakçılarına bildirdi ki, «Türkiyə nümayəndə heyətinin fikrinə görə, Zaqafqaziyanın tərəqqisi üçün ən başlıca təminat Zaqafqaziya xalqlarının həmrəyliyi və birliyidir ki, buna nail olmaq üçün Azərbaycan tərəfi ermənilərə müəyyən qədər ərazi güzəştə getməlidir» (Bax: Azərbaycan Respublikasının Dövlət Arxivi, fond 970, siyahı 1, iş 1, vərəq 46).

Onu da qeyd etmək lazımdır ki, Türkiyənin hakim siyasi dairələrində Cənubi Qafqazda erməni dövləti yaradılması məsələsində fikir ayrılığı vardı. Sədrəzəm Tələt paşa və hərbi nazir Ənvər paşa Cənubi Qafqazda erməni dövləti yaradılmasının

əleyhinəydilər və bu məsələdə «çibanı kökündən təmizləmək» tərəfdarı idilər. Bu mümkün olmadıqda «Ermənistanın çox zəif və yaşaya bilməyəcək bir dövlət şəklində təşəkkül etməsini» təklif edirdilər. Lakin Tələt paşa və Ənvər paşadan fərqli olaraq, Batum danışıqlarında Türkiyə nümayəndə heyətinə başçılıq edən Dövlət Şurasının sədri və Ədliyyə naziri Xəlil bəy Menteşə və Osmanlı Orduları Qafqaz Cəbhəsinin komandanı Ferik Mehmed Vehib paşa Cənubi Qafqazda Azərbaycan torpaqları hesabına ermənilərə dövlət yaratmaq tərəfdarı idilər. Onlar güman edirdilər ki, bununla ermənilər həm Anadoludan uzaqlaşdırılacaq, həm Türkiyə-erməni münasibətləri biryolluq nizama salınacaq, həm də «erməni məsələsi» ilə bağlı Türkiyəyə qarşı beynəlxalq qınağa son qoyulacaqdır.

Yeri gəlmişkən, Azərbaycan tərəfi də Tələt paşa və Ənvər paşanın «çibanı kökündən təmizləmək» siyasətinin əleyhinə idi və «kiçik bir erməni kantonunun» yaradılmasını təklif edirdi. Belə bir təkliflə Batumda danışıqlar aparan Azərbaycan nümayəndələri M.H.Hacınski və M.Ə.Rəsulzadə hələ 1918-ci il mayın 23-də Ənvər Paşaya xüsusi müraciətnamə göndərmişdilər. Həmin müraciətnaməni onlardan başqa Əhməd bəy (Can Baba), A.B.Səfikürdski, Ə.C.Pepinov, M.Y.Cəfərov, F.X.Xoyski, N.B.Usubbəyov və X.B.Xasməmmədov da imzalamışdılar (Bax: Türkiyə Cümhuriyyəti Başbakanlıq Osmanlı Arxivi, Hariciyye Siyasi Kısım, Dosya 2398, Gömlek 4, Vərəq 12 a.b.c.d.). Eyni təkliflə bundan bir gün əvvəl - 1918-ci il mayın 22-də Tələt paşaya və Ənvər paşaya Ə.B.Hüseynzadə və Ə.B.Ağaoğlu da müraciət etmişdilər (Bax: Türkiyə Cümhuriyyəti Başbakanlıq Osmanlı Arxivi, Hariciyye Siyasi Kısım, Dosya 2398, Gömlek 4, Vərəq 19.).

Azərbaycan tərəfi belə bir təkliflə çıxış edərkən inanırdı ki, bu güzəşt müqabilində, yəni ermənilərə Azərbaycan torpaqları hesabına «kiçik bir kanton» yaradılacağı halda ermənilərin Türkiyə ərazilərindən Azərbaycan torpaqlarına, o cümlədən





Bakıya axınının qarşısı alınacaq, ermənilər Azərbaycan xalqına qarşı soyqırımlarını dayandıracaqlar və bir daha ölkəmizə qarşı ərazi iddiaları irəli sürməyəcəklər. Azərbaycan tərəfi güman edirdi ki, bu addım həm də böyük dövlətlər tərəfindən rəğbətlə qarşılanacaqdır.

Beləliklə, Azərbaycan tərəfi Cənubi Qafqazda - Azərbaycan ərazisində ermənilərə «kiçik bir kanton» və ya «kiçik bir dövlət» yaradılmasına tərəfdar idi və bu məsələdə Xəlil bəy və Vehib paşa ilə eyni mövqedən çıxış edirdi (Bax: Türkiyə Cümhuriyyəti Başbakanlıq Osmanlı Arxivi, Hariciyye Siyasi Kısım, Dosya 2398, Gömlek 5,Vərəq 129-130;146; 151 a-b).

Azərbaycan tərəfinin ermənilərə Azərbaycan torpaqlarında dövlət yaradılması barədə yuxarıda göstərilən mövqeyi və bunun üçün konkret ərazi vermək təklifi Batum danışıqlarının gedişinə ciddi təsir göstərdi.

Bununla da Batumda, faktiki olaraq, ermənilərə dövlət yaratmaq üçün hansı Azərbaycan torpaqlarının verilməsi ətrafında danışıqlar aparıldı.

Batum danışıqları zamanı ermənilərin özlərinə mərkəz kimi iddia etdikləri Qars və Gümrü (Aleksandropol) artıq Osmanlı hərbi qüvvələri tərəfindən zəbt olunmuşdu və Türkiyə tərəfi bu şəhərlərdən hər hansı birinin danışıqlar mövzusu olmasına imkan vermədi. Beləliklə, İrəvan məsələsi gündəmə gətirildi. Ənvər paşa «çibanı kökündən təmizləmək» planının baş tutmadığını görcək ermənilərə veriləcək torpağın Azərbaycan və Türkiyə əraziləri arasında bir ada kimi əhatəyə alınması təlimatını verdi.

Danışıqlar zamanı Azərbaycan ərazisində dövlət yaratmaq üçün ermənilərə torpaq veriləcəyi halda erməni tərəfi Azərbaycan və Türkiyə tərəfləri qarşısında bir sıra öhdəliklər yerinə yetirməyi üzərinə götürdü. Həmin öhdəliklər aşağıdakılar idi:

1. Ermənilərlə müsəlmanlar arasında düşmənçilik aradan qaldırılacaq və erməni tərəfi Stepan Şaumyanla əlaqəyə girib Bakının müsəlman əhalisinin təhlükəsizliyini təmin

edəcək, bununla azərbaycanlılara qarşı kütləvi qırğınların qarşısı alınacaqdır. Erməni tərəfinin üzərinə götürdüyü bu öhdəlik Osmanlı imperiyası ilə yenicə yaradılmış Ermənistan Respublikası arasında 1918-ci il iyunun 4-də Batumda bağlanmış «Sülh və Dostluq» müqaviləsində təsbit olundu. Batum müqaviləsinin 11-ci maddəsinə əsasən Ermənistan Respublikası hökuməti erməni silahlı qüvvələrinin ən tez bir zamanda Bakıdan çıxarılması üçün bütün qüvvələrini səfərbər edəcəyini öhdəsinə götürdü (Bax: Türkiyə Cümhuriyyəti Başbakanlıq Osmanlı Arxivi, Hukuk Müşavirliği İştişare Odası Belgeleri, Dosya 107, Gömlek 11, Vərəq 11-19; ATASE. A.4/3671. K.2919. D.61-499. F.3-26). Müqavilənin yuxarıda göstərilən maddəsində deyilirdi: «Ermənistan Respublikasının hökuməti erməni qüvvələrini Bakıdan çıxmağa məcbur etmək üçün özünün bütün qüvvələrini səfərbər edəcəyini öhdəsinə götürür» (Bax: göstərilən müqavilə, 11-ci maddə). Bundan əlavə, yenicə yaradılan Ermənistan Respublikasının hökuməti «Respublika ərazisində (yəni Ermənistan Respublikası ərazisində - Y.M.)» hər hansı silahlı quldur dəstələrinin yaradılmasının qarşısını alacağını, ölkənin müxtəlif yerlərində gizlənən və fəaliyyət göstərən bütün quldur dəstələrinin tərksilah ediləcəyini öhdəsinə götürdü» (Bax: Göstərilən müqavilə, maddə 5).

2. Erməni tərəfi öhdəsinə götürdü ki, Azərbaycan qəzalarında erməni silahlı birləşmələri tərəfindən müsəlmanlara qarşı həyata keçirilən kütləvi qırğınlar dayandırılacaqdır (Bax: Türkiyə Cümhuriyyəti Başbakanlıq Osmanlı Arxivi, HSD. AFT, Dosya 6, Gömlek 61). Bu öhdəlik Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi sənədlərində də öz əksini tapmışdır. Belə ki, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin başçısı F.X.Xoyski İrəvan və ətrafındakı torpaqların ermənilərə verilməsi barədə Milli Şuranın 29 may 1918-ci il tarixli qərarından dərhal sonra Xarici İşlər naziri M.H.Hacınskiyə verdiyi rəsmi göstərişdə yazırdı: «Biz ermənilərlə bütün mübahisələri bitirdik, onlar ultimatumumuzu





qəbul edəcəklər və müharibəni dayandıracaqlar. Biz İrəvanı onlara güzəştə getdik» (Bax: Azərbaycan Respublikasının Dövlət Arxivi, fond 970, siyahı 1, iş 4, vərəq 1-2).

3. Ermənistan hökuməti İrəvanda və yeni yaradılan erməni dövlətinin digər ərazilərində müsəlmanların sərbəst dini ibadət, mədəniyyət, siyasi və ana dilində təhsil almaq hüquqlarını təmin etməyi öhdəsinə götürdü. Ermənilərin qəbul etdiyi bu öhdəlik Osmanlı dövləti ilə yenicə yaradılmış Ermənistan Respublikası arasında bağlanmış Batum müqaviləsinin 6-cı maddəsində və müqaviləni tamamlayan III əlavədə təsbit olundu. Müqavilənin 6-cı maddəsinə və III əlavəsinə əsasən yeni yaradılan Ermənistan Respublikasında türk-müsəlman əhali bütün yuxarıda göstərilən sahələrdə ermənilərlə eyni hüquqa malik olmalı idi (Bax: Türkiyə Cümhuriyyəti Başbakanlıq Osmanlı Arxivi, Hukuk Müşavirliği İştişare Odası Belgeleri, Dosya 107, Gömlek 11, Vərəq 11-19, 28-32.). Batum müqaviləsinin 6-cı maddəsində bu məsələ aşağıdakı kimi təsbit olundu: «Ermənistan Respublikasında yaşayan müsəlmanların dininə və adətlərinə hörmət olunmalıdır...

Onlar başqa mədəniyyətlərə mənsub olan digər sakinlərlə eyni vətəndaşlıq hüquqlarına və siyasi hüquqlara malik olmalıdırlar. Onlar öz etnik dillərində təhsil ala və öz dinlərində ibadət edə bilərlər.

Müsəlmanlar praktiki olaraq öz dinlərində ibadət etmək və xeyriyyəçilik işlərilə məşğul olmaq üçün müsəlman icmaları yaratmaq, məscidlər, xəstəxanalar, məktəblər, dini müəssisələr açmaq və xeyriyyə cəmiyyətləri təşkil etmək hüququna malikdirlər.

İrəvan şəhərində Ermənistan Respublikası Müftisinin və respublikanın digər vilayətlərində müftilərin fəaliyyət göstərməsi zəruri hesab edilsin...» (Bax: Göstərilən müqavilə, 6-cı maddə).

Bəhs olunan müqaviləni tamamlayan III əlavədə bütün yuxarıda göstərilən öhdəliklər təfərrüatı ilə təsbit olunur və qeyd olunurdu ki, «Ermənistan hökuməti öz hesabına ibtidai və orta

təhsil verən müsəlman məktəbləri açacaqdır» (Bax: Müqavilənin III əlavəsi, 6-cı maddə).

4. Batum danışıqları zamanı əldə olunmuş razılığa əsasən ermənilər Azərbaycana qarşı ərazi iddialarından imtina edəcəkdilər (Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, fond 276, siyahı 9, iş 1, vərəq 47.).

5. Bundan başqa, İrəvan və ətrafındakı torpaqların verilməsi müqabilində ermənilər Azərbaycanla vahid konfederativ dövlətdə birləşməli idilər.

Beləliklə, Batum danışıqlarında yuxarıda göstərilən məsələlərlə bağlı ilkin razılaşma əldə olunduqdan dərhal sonra, hələ Batum müqavilələrinin bağlanmasına, yəni 1918-ci il iyunun 4-nə bir həftə qalmış, 1918-ci il mayın 29-da Azərbaycan Milli Şurasının qərarı ilə qədim Azərbaycan şəhəri İrəvan onun ətrafındakı 9 min $km^2$ ərazini əhatə edən torpaqlarla birlikdə ermənilərə verildi (Bax: Türkiyə Cümhuriyyəti Başbakanlıq Osmanlı Arxivi, Hariciyye Siyasi Kısım, Dosya 2372, Gömlek 1, Vərəq 69.).

Azərbaycan Milli Şurasının 29 may 1918-ci il tarixli qərarına əsasən ermənilərə dövlət yaratmaq üçün İrəvanla birlikdə aşağıdakı Azərbaycan torpaqları verilmişdi: Yeni Bayazit qəzası (Basarkeçər adlanan cənub-şərq qismi istisna olmaqla), İrəvan qəzası (Qəmərli-Gərnibasar, Uluxanlı-Zəngibasar və Vedibasar istisna olmaqla), Eçmiədzin qəzası (Sərdarabad istisna olmaqla) və Aleksandropol qəzası (qəza mərkəzi Aleksandropol istisna olmaqla). Beləliklə, yeni yaradılmış Ermənistan Respublikası Göyçə gölü ilə Osmanlı dövlətinin yeni sərhədləri arasındakı dar dağlıq ərazini əhatə edirdi.

Ermənilərə verilmiş Azərbaycan ərazisinin əhalisi cəmi 321.000 nəfər idi ki, onun da 230 mini erməni, 80 mini türk-müsəlman, 11 mini isə digər xalqların nümayəndələri idi (yenə orada).

Yeri gəlmişkən, ermənilərə verilmiş İrəvan və onun ətrafındakı Azərbaycan torpaqlarında yaşayan 230 min nəfər





erməni bu yerlərə 1828-ci ildən sonra Çar Rusiyası tərəfindən Osmanlı Türkiyəsi və Qacarlar İranından köçürülüb gətirilmişdi.

Qeyd etmək lazımdır ki, yuxarıda göstərilən qərar qəbul olunarkən 28 nəfər Milli Şura üzvündən 20 nəfər iştirak edirdi. Onlardan qərarın lehinə 16 nəfər səs vermiş, 1 nəfər əleyhinə olmuş, 3 nəfər bitərəf qalmışdı (Bax: Azərbaycan Respublikasının Dövlət Arxivi, fond 970, siyahı 1, iş 1,vərəq 51-52.).

Azərbaycan Milli Şurasının yuxarıda göstərilən iclasında, eyni zamanda, ermənilərlə konfederativ dövlət yaradılması da qərara alındı (Yenə orada.). Yəni İrəvan və ətrafındakı torpaqlar ermənilərə həm də onlarla konfederativ dövlət yaradılması şərti ilə verilmişdi.

Beləliklə, 1918-ci il mayın 29-da Azərbaycan ərazisində - Cənubi Qafqazda erməni dövləti yaradıldı. Ertəsi gün - mayın 30-da erməni dövlətinin yaradılması barədə bəyannamə elan olundu.

Yeni yaradılmış erməni dövlətini de-fakto tanıyan ilk dövlət Osmanlı Türkiyəsi oldu. Bununla Osmanlı Türkiyəsi, faktiki olaraq, Azərbaycan ərazisində ermənilərə dövlət yaratdı.

Osmanlı Türkiyəsinin vasitəçiliyi ilə Azərbaycan tərəfi ilə erməni tərəfi arasında razılıq əldə olunan kimi, daha doğrusu, ermənilər məqsədlərinə nail olduqdan dərhal sonra, 1918-ci il iyunun 4-də Batumda Osmanlı dövləti ilə Azərbaycan Xalq Cümhuriyyəti arasında «Dostluq», Osmanlı dövləti ilə Gürcüstan və Ermənistan respublikaları arasında isə «Sülh və Dostluq» müqavilələri imzalandı.

Batum müqavilələrinə əsasən ən çox ərazi itkisinə Azərbaycan məruz qaldı. Azərbaycan ermənilərə verilmiş torpaqlardan əlavə Tiflis və İrəvan quberniyalarındakı digər tarixi torpaqlarının - Ahıska, Axalkələk, Gümrü (Aleksandropol), Sürməli (İğdır), Sərdarabad, Qəmərli (Gərnibasar), Uluxanlı (Zəngibasar), Vedibasar kimi iri yaşayış məntəqələrinin də Osmanlı Türkiyəsinə verildiyini təsdiq etdi.

Batum müqavilələrinin Azərbaycan üçün ən ağır nəticəsi bu oldu ki, xalqın iradəsi ilə hesablaşılmadan onun torpağında İrəvan mərkəz olmaqla erməni dövləti yaradıldı.

Cümhuriyyət xadimləri Azərbaycan torpaqlarının ermənilərə verilməsi səbəblərini beynəlxalq aləmə açıqlayan bəyanatla da çıxış etmədilər.

Ermənilər məqsədlərinə nail olduqdan dərhal sonra Batum danışıqları zamanı və Batum müqavilələrinə əsasən İrəvan və ətrafındakı Azərbaycan torpaqlarının onlara verilməsi müqabilində üzərilərinə götürdükləri bütün öhdəlikləri yerinə yetirməkdən imtina etdilər.

Belə ki, 1) Yeni yaradılmış erməni hökuməti, götürdüyü öhdəliyin əksinə olaraq, nəinki Bakıda hakimiyyəti ələ keçirərək Azərbaycan xalqına qarşı soyqırımı cinayəti həyata keçirən Stepan Şaumyanla əlaqə yaradıb qırğınları dayandırmadı, əksinə Stepan Şaumyanın göstərişi ilə daşnak-bolşevik qüvvələri ermənilərə dövlət yaratmaq üçün torpaq vermiş Azərbaycan Xalq Cümhuriyyəti hökumətini aradan qaldırmaq üçün Gəncə istiqamətində hücuma başladı və Azərbaycan xalqına qarşı yeni soyqırımları həyata keçirdi.

2) Ermənilər, verdikləri vədlərin əksinə olaraq, Azərbaycan qəzalarında nəinki soyqırımını dayandırmadılar, əksinə yeni yaradılmış Ermənistan Respublikasının silahlı müdaxiləsi və yardımı ilə Azərbaycan xalqına qarşı soyqırımları daha dəhşətli xarakter aldı.

3) Erməni tərəfi verilmiş vədlərin əksinə olaraq, nəinki yeni yaradılmış Ermənistan Respublikasının ərazisindəki türk-müsəlman əhalinin dini ibadət, mədəni, siyasi və ana dilində təhsil almaq hüquqlarını təmin etmədi, əksinə Azərbaycan ərazisində dövlət yaratmaq məqsədlərinə nail olan kimi yerli azərbaycanlılara qarşı dövlət səviyyəsində kütləvi soyqırımlarına başladı. Bununla kifayətlənməyən Ermənistan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin sərhədlərini pozaraq Azərbaycan xalqına qarşı





soyqırımlarının coğrafiyasını daha da genişləndirdi. Yeni-yeni Azərbaycan torpaqları işğal olundu. İşğal olunmuş Azərbaycan torpaqlarında türk-müsəlman əhaliyə qarşı etnik təmizləmə və soyqırımları həyata keçirildi. Ermənistan Respublikasının siyasi varisi olan müasir Ermənistan Respublikası hazırda ancaq ermənilərdən ibarət olan monoetnik və təcavüzkar dövlətə çevrilmişdir. Beləliklə, vaxtı ilə əhalisinin böyük əksəriyyəti türk-müsəlman əhali olan müasir Ermənistan ərazisində 1 nəfər də olsun azərbaycanlı qalmamışdır.

4) Yeni yaradılmış erməni dövləti - Ermənistan Respublikası götürdüyü öhdəliyin əksinə olaraq, nəinki Qarabağın dağlıq hissəsinə olan iddialarından əl çəkmədi, əksinə Batum müqaviləsinin imzalanmasından dərhal sonra ermənilərə dövlət yaratmaq üçün ərazi vermiş Azərbaycan Xalq Cümhuriyyətinin sərhədlərini pozaraq yeni-yeni Azərbaycan torpaqlarının işğalına başladı. Məhz buna görə də Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin başçısı F.X.Xoyski 1918-ci il iyulun 31-də o zaman İstanbulda danışıqlar aparan Azərbaycan nümayəndə heyətinin başçısı M.Ə.Rəsulzadəyə belə bir göstəriş vermişdi: «Əgər ermənilər əldə olunmuş razılığı pozaraq Qarabağla bağlı iddia qaldırsalar İrəvanın onlara güzəştə gedilməsindən (yəni Milli Şuranın 29 may 1918-ci il tarixli qərarının icrasından - Y.M.) imtina et» (Bax: Azerbaydjanskaya Demokratiçeskaya Respublika (1918-1920). Vneşnyaya politika (Dokumentı i materialı). Baku, 1998. s. 42). Qeyd etmək lazımdır ki, ermənilər bundan sonra da bütün tarixi dövrlərdə Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirdilər. O zamankı Ermənistan Respublikasının varisi olan müasir Ermənistan Respublikası da həmin işğalçılıq siyasətini davam etdirərək öz havadarlarının köməyi ilə Dağlıq Qarabağı və ətrafındakı digər Azərbaycan rayonlarını da işğal etdi, 1 milyon nəfərdən çox azərbaycanlını öz doğma yurd-yuvalarından didərgin saldı və bütün dünyanın gözləri qarşısında 1992-ci il Xocalı soyqırımını törətdi.

5) Batum müqaviləsinin şərtlərinə və Azərbaycan Milli Şurasının qərarına əsasən ermənilərə dövlət yaratmaq üçün İrəvan və ətrafında 9 min km$^2$ sahəsi olan Azərbaycan torpaqları verilmişdi. Yəni erməni dövləti həmin ərazi çərçivəsində mövcud olmalı idi. Lakin yuxarıda qeyd olunduğu kimi, ermənilər çox keçmədən Batum müqaviləsinin şərtlərini pozaraq Azərbaycan torpaqları hesabına öz ərazilərini genişləndirməkdə davam etdilər. Belə ki, 1918-ci ilin 29 mayında 9 min km$^2$-lik Azərbaycan torpağında yaradılmış Ermənistan dövləti müxtəlif dövrlərdə Moskvanın birbaşa köməyi ilə daha 20,8 min km$^2$ Azərbaycan torpağını ələ keçirərək ərazisini 29,743 min km$^2$-ə çatdırdı.

1918-ci il mayın 29-da 9 min km$^2$-lik Azərbaycan torpağında yaradılmış Ermənistan dövləti sonrakı dövrlərdə aşağıdakı Azərbaycan torpaqlarını işğal etdi: 1920-ci ilin dekabrından başlayaraq 10 il ərzində Moskvanın birbaşa köməyi ilə Zəngəzur qəzasından 405.000 desyatin (4414,5 km$^2$), Qazax qəzasından 535096 desyatin (5832,82 km$^2$), Naxçıvan MSSR-dən 657 km$^2$, Cəbrayıl qəzasından Nüvədi, Eynəzir və Tuğut kəndlərini əhatə edən Azərbaycan torpaqları Ermənistan ərazisinə qatıldı. Sovet rejiminin sonrakı illərində də Ermənistan ərazisi Azərbaycan torpaqları hesabına daha da genişləndirildi və 29,743 km$^2$-ə çatdırıldı.

Yuxarıda göstərilən işğallar nəticəsində Azərbaycan özünün ayrılmaz tərkib hissəsi olan Naxçıvandan ayrı salındı və Türkiyə ilə birbaşa əlaqə saxlamaq imkanından məhrum edildi.

Ermənilərin həyata keçirdiyi yuxarıda qeyd olunan işğallar nəticəsində, ümumiyyətlə, türk dünyası ölkələrinin bir-biri ilə birbaşa əlaqə saxlamaq imkanları da aradan qaldırıldı.

Bütün bunlarla kifayətlənməyən təcavüzkar Ermənistan 1988-1994-cü illərdə Azərbaycanın Dağlıq Qarabağ və ətrafındakı rayonlarından ibarət daha 17 min km$^2$-lik ərazisini işğal etdi, insanlığa qarşı misilsiz vəhşilik aktı olan Xocalı soyqırımını törətdi.

6) Erməni tərəfi bütün yuxarıda göstərilənlərdən əlavə, Azərbaycanla konfederativ dövlət yaratmaq şərtini də yerinə





yetirmədi. Daha doğrusu, Azərbaycan Milli Şurasının 1918-ci il mayın 29-da ermənilərlə konfederativ dövlət yaradılması barədə yekdilliklə qəbul etdiyi qərar da ermənilər tərəfindən yerinə yetirilmədi.

Göründüyü kimi, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti İrəvan və ətrafındakı Azərbaycan torpaqlarını ermənilərə 1918-ci il Batum danışıqları (11 may - 4 iyun) və Batum müqavilələrinin (4 iyun 1918-ci il) şərtlərinə əsasən vermişdi. Azərbaycan tərəfi bu taleyüklü addımı atarkən ermənilərlə dostluq və mehriban qonşuluq münasibətləri yaratmağa çalışırdı və danışıqlarda iştirak edən erməni tərəfinin səmimiyyətinə inanırdı. Lakin erməni tərəfi Batum danışıqları zamanı əldə olunmuş razılaşmalara və Batum müqavilələrinin şərtlərinə əsasən üzərinə götürdüyü bütün öhdəlikləri birtərəfli qaydada pozdu: işğalçılıq, deportasiyalar və soyqırımları siyasətini davam etdirdi. Buna görə də 4 iyun 1918-ci il tarixli Batum müqavilələri və Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurasının 29 may 1918-ci il tarixli qərarı, əslində, öz hüquqi qüvvəsini itirmişdir.

Fikrimizcə, erməni tərəfi 1918-ci il Batum razılaşmalarının və Batum müqavilələrinin bütün şərtlərini birtərəfli qaydada pozduğu üçün və bununla da göstərilən müqavilələr öz hüquqi qüvvəsini itirdiyinə görə Azərbaycan Xalq Cümhuriyyətinin qanuni varisi olan Azərbaycan Respublikası adekvat addım atmalıdır: Azərbaycan Milli Şurasının xalqın iradəsini nəzərə almadan İrəvanın və ətrafındakı torpaqların ermənilərə verilməsi haqqında 29 may 1918-ci il tarixli qərarına yenidən baxılmalı və həmin qərar qüvvədən salınmalıdır. Bununla, Azərbaycan xalqının öz tarixi torpaqlarına varislik hüququ bərpa olunmalıdır.

**İBRAHİM BAYRAMOV,**
**QƏRBI AZƏRBAYCAN: TARİXİ HƏQİQƏTLƏR VƏ YA ERMƏNİSTANIN ETNİK TƏMİZLƏMƏ SİYASƏTİ**

**Bakı, 2011, 288 səh.**

## Qərbi Azərbaycanın tarixi coğrafiyası və etnik tərkibi

*(səh. 8-32)*

İndi Ermənistan adlanan Qərbi Azərbaycan ərazisinin köklü sakinləri- aborigenləri olan Azərbaycan türklərinin tarixini araşdırmaq elmi və siyasi baxımdan xüsusi əhəmiyyət kəsb edir. Bu, həm Azərbaycan tarixi, həm də Cənubi Qafqaz xalqlarının tarixi coğrafıyasının hərtərəfli və elmi şəkildə araşdırılması üçün geniş imkanlar yaradır.

«Tariximizə, elmimizə, maddi və mənəvi irsimizə partiyalılıq, sinfilik mövqeyindən yanaşmaq vərdişi, «başqasının daxili işlərinə qarışmaq» vahiməsi üzündən xalqımızın... Azərbaycan Respublikası hüdudlarından kənarda olan qüdrətli qolları, Cənubi Azərbaycanda, Gürcüstanda, Ermənistanda yaşayıb-yaradan soydaşlarımızın adlarını çəkməyə belə uzun illər cəsarətimiz çatmayıb. Ermənistanda yaşayan azərbaycanlıların aqibəti bu mənada daha dözülməz olmuşdur [39,s.3]. Bununla əlaqədar İ.Məmmədov xüsusi vurğulayır: «Təəccüblü burasıdır ki, aborigen əhali olan Ermənistan azərbaycanlılarının tarixi haqqında qısa məlumat verməyi belə nə erməni tarixçiləri, nə də Azərbaycan tarixçiləri rəva bilmişlər. Erməni olmadıqlarına görə onlar «Erməni xalqının tarixi»ndən, Azərbaycanda yaşamadıqlarına görə «Azərbaycan tarixi»ndən kənarda qalmışlar [19, s.8].

Azərbaycan türkləri indiki Ermənistan ərazisində e.ə. II əsrdən yaşamağa başlamışlar. Bu faktı əsaslı şəkildə təsdiqləyən





amillərdən biri həmin xalqın, tayfanın adını özündə yaşadan toponimlərdir. Qərbi Azərbaycan ərazisində tarixən mövcud olmuş türk mənşəli toponimlərə, IV-VII əsrdən başlayaraq Qafqaz xalqlarının tarixi ilə bağlı yazılmış əsərlərə istinad edib bu qənaətə gəlmək olur ki, Qərbi Azərbaycan ərazisində Azərbaycan türkləri yerli sakinlər olmuşlar və ermənilər buraya ilk yaşayış yerləri olan İraqdan - Fərat və Dəclə çayının sahillərindən gəlmişlər. «IV əsrin ikinci yarısındakı hadisələri qeyd edən Favstos Buzand da Cənubi Qafqaz zonasında (təbii ki, indiki Ermənistan ərazisində -İ.B.) hunların və digər türklərin mövcud olduğunu bildirir: «O zaman Maskut padşahı Sanesen bərk qəzəblənərək, öz qohumu erməni padşahı Xosrova (əslində Xosrov farsdır – İbrahim Bayramov) ədavət bəslədi və qoşunların hamısını - hunları, paxları, tavasparları, xeçmatakları, ijmaxları, qotları, qluarları, quqarları, şiçbləri, gilbləri, balasiçləri, yegersvanları və saysız-hesabsız digər müxtəlif köçəri tayfaları, itaətində olan külli miqdarda qoşunları topladı, öz sərhədi olan böyük Kür çayını keçərək erməni ölkəsinə sel kimi basqın etdi [17, s.172]. Deməli, indiki Ermənistan ərazisində tarixən yaşayan qədim türk tayfalarından biri elə məhz hunlar olmuşdur. Erməndilli mənbələrdə hunlar - xaylantürklər adlandırılır [17, s.172]. Bu tayfa Qərbi Azərbaycanın ərazisində IV-V əsrlərdə məskən salmışdır. Son dövrlərə qədər (1988-ci ilə qədər - İ.B.) ermənilərin Şərqi Ermənistan adlandırdığı indiki ərazidə qorunub saxlanılan qədim oğuz qəbirləri, qoç, qoyun qəbir daşları, yəhərli-yüyənli at heykəlləri xalqımızın tarixi keçmişi ilə səsləşir. «Ermənistan azərbaycanlıları yaşayan (1988-ci ilə qədər olan dövr nəzərdə tutulur -İ.B.) bir çox yerlərində, xüsusilə Basarkeçər, Artaşat (keçmiş Qəmərli), Amasiya (keçmiş Ağbaba), Eçmiədzin, Krasnı (keçmiş Qaraqoyunlu mahalı) və s. rayonlarda sıx-sıx qoyun heykəllərinə, qəbir daşları üzərində qoyun, qoyun başı qabartmalarına tuş gəlmək olur» [51, s.142].

Bu ərazidə yaşayan ilk qədim türk tayfalarından biri kimmerlər

qoyun, qoyun başı qabartmalarına tuş gəlmək olur» [51, s.142].

Bu ərazidə yaşayan ilk qədim türk tayfalarından biri kimmerlər olmuşlar. Bu adı daşıyan tayfalar eradan əvvəlki minillikdə Krım, Cənubi Qafqaz və Kiçik Asiya regionunda yaşamış və tarixi mənbələrdə kimmer (yunan mənbələrində), qimirri (assur mənbələrində), qomer (Bibliya), qamir (erməni mənbələrində) şəklində verilmişdir. Yunan yazılarında proazərbaycan onomastikasındakı «a» səsinin «i» ilə verilməsi (Maday>Midiya) nəzər alınanda kam ər >kimmer dəyişməsini qanunauyğun hal hesab etmək lazım gəlir. Göründüyü kimi, qamər tayfaları ilə birbaşa kontaktda olan qədim ermənilərin dilində (qədim erməni yazılarında) həmin tayfaların adı əslinə uyğun şəkildə verilmişdir [18, s.81].

E.ə. VIII əsrdə Qara dənizin şimal sahilləri **kimmerlərin** vətəni olmuşdur. Onları **iskitlər** qovmuşlar. Kimmerlər buradan Cənubi Qafqaza və Kiçik Asiyaya gəlmişlər. E.ə. 722-705-ci illərdə kimmerlər indiki Ermənistan ərazisində yaşamağa başlamışlar ki, bu da Urartu çarı I Rusanın çarlığı dövrünə təsadüf edir (ətraflı məlumat üçün bax: 70; 82). «Kimmerlərin eradan əvvəl VIII əsrdə indiki Ermənistana gəlməsinə qədər burada yaşamış türkdilli əhalinin necə adlandığı məlum deyil. Ona görə də kimmerlər Ermənistan ərazisində tarixi mənbələrdən adı məlum olan ilk etnosdur» [33, s.76].

Kimmerlərin etnik mənsubiyyəti tarixşünaslıqda mübahisəlidir. Bir qrup tarixçilər kimmerləri irandilli etnos [70, s. 97], başqa bir qrup isə kimmerləri qədim türk tayfalarından biri hesab edirlər [8, s. 102-103; 33, s. 76-82].

F.Cəlilov kimmerlər etnoniminin etimoloji təhlilini və morfoloji rekonstruksiyasını nəzərdən keçirərək **qamər//qəmər// kimmer** etnoniminin kökü (qam//qəm) hissəsini Azərbaycan dilinin ayrı-ayrı dövrlərində müxtəlif anlamalarda işlənməsini tarixi-xronoloji ardıcıllıqla izləyir və M.Kaşğariyə (M.Kaşğari





«qam» sözünün şaman anlamında işləndiyini göstərir), «Kitabi-Dədə Qorqud» dastanına [Bayındır xanın ulu şamanın oğlu olduğunu göstərir və onun Qamqanın (Qamxan) oğlu olduğuna istinad edir], qədim Azərbaycan antroponimlərinə (Qam-qan «baş, ulu şaman» anlamında Qam burada isə müqəddəs qurd anlamında işləndiyini xatırladır) istinad edərək [18, s. 82-83] belə qənaətə gəlir ki, «Türk dillərində teonimin (tanrı adının sonralar etnonimə (qəbilə adına), qəbilənin kahin tirəsinin adına (şamana), etnotoponimə (qəbilənin yaşadığı ərazi adına) çevrilməsi sistem şəklindədir. Ona görə də qam sözünün etnonim yaradan -ər (xəz-ər, az-ər, tat-ər), -an (tur-an, alp-an), -uq (tur-uq> türk) şəkilçiləri ilə işlənib, qəbilə-tayfa adına çevrilməsi (qam-ər, qam-an, qam-uq) qanunauyğun haldır» [18, s.83].

Bununla yanaşı, Q.Qeybullayev kimmer çarlarının (Teuşpa, Tuqdame, Sandakşartu, Sandakut) adları əsasında izah edərək aydınlaşdırır ki, bu etnos qədim türk tayfasıdır [33, s.82-89].

Kimmer tayfasının adı indiki Ermənistan ərazisində yer adlarında öz əksini tapmışdır. İrəvanın yaxınlığında Qəmərli rayonunun (04. 09.1945-Artaşat), eləcə də Eçmiədzin rayonunun ərazisindəki Qəmərli kəndinin adı (15.07.1946-Medzamor) kimmer qədim türk tayfasının adını əks etdirir.

Onu da əlavə edək ki, indiki Ermənistanın Gümrü şəhərinin adı da [Şörəyel sultanlığının ərazisinə daxil olan Gümrü şəhərinin 1804-ci ildə Rusiya tərəfindən işğalından sonra 1837-ci ildə Nikolay Gümrüyə gəlir. Elə 1837-ci ildə şəhərin adı dəyişdirilib çarın arvadının şərəfinə Aleksandropol qoyulmuşdur [45, s.36-37]. V.İ.Leninin ölümündən sonra onun adını əbədiləşdirmək məqsədi ilə şəhərin adı Ermənistan SSR Ali Sovetinin 27.01.1924-cü il tarixli fərmanı ildə yenidən dəyişdirilib Leninakan adlandırılmışdır. SSRİ dağılandan sonra şəhərə Qumayri, sonra isə təkrar olaraq Qyumari, yəni Gümrü adı verilmiş, kimmer etnonimi əsasında formalaşmışdır.

Qərbi Azərbaycan ərazisində yaşamış türk tayfalarından biri də saklar idi. Assur mənbələrinə görə saklar e.ə.VII əsrdə Qara dənizin şimalından Qafqaza gəlməyə başlamışlar. Herodot bu tayfanın adını skif kimi verir. Q.Qeybullayev yazır: «Həm kəmərlər (kimmerlər-7.5.), həm saklar atlı etnoslar idilər, atdan qoşqu və minik heyvanı kimi istifadə edir, atın südünü içir, ətini yeyirdilər. Ona görə də antik müəlliflər hər iki xalqı «at südü içənlər» adlandırırdılar. Bu, bütün qədim türk xalqları üçün səciyyəvi olmuşdur. İrandilli xalqların tarixində belə şey yoxdur. Saklar Gürcüstanın şərqini, bütünlüklə Şimali Azərbaycan ərazisini və indiki Ermənistanı tutdular və e.ə 680-cı ildə Araz sahillərinə çatdılar» [34, s.48].

Sakların Qərbi Azərbaycan ərazisinə gəlmələri e.ə. VII əsrdən başlamışdır və beləliklə, ərazidə Sak dövləti yaranmışdır. Bu tayfanın adı indiki Ermənistan ərazisində yerləşən Sisyan rayonunun adında [61, s.91-94] öz izini qoruyub saxlamışdır.

Ə.Ələkbərli yazır: «Makedoniyalı İsgəndərin şərqə yürüşü ilə bağlı e.ə. IV yüzilin 2-ci yarısında Sak padşahlığı süqut edir və bu nəhəng Türk dövlətinin şimalı və cənubu arasında kəskin ayrılma baş verir. Şimalda və cənubda bir sıra türk dövlətləri (Atropatena, Albaniya, Sisakan, Sakasena və s.) yaranır. Bu vaxtlar Armaniya (indiki Ermənistan ərazisi – İbrahim Bayramov) yunanların işğalı altına keçir, e.ə. 321-ci ildə Selevkilər dövlətinin tərkibinə qatılır. Həmin tarixdən e.ə. 202-ci ilə qədər Armaniyada türksoylu Oruzlar // Oğuzlar (Sak boyundan) sülaləsi, e.ə. 202-ci ildən etibarən isə əslən midyalı Artaşlar (Qamər boyundan) sülaləsi hakimiyyətdə olur» [23, s.10].

Qərbi Azərbaycan ərazisində yaşamış qədim türk tayfalarından biri də quqarlar olmuşdur. Quqarlar təqribən e.ə. VII-VI əsrlərdə bu ərazidə yaşamışlar.

Tarixən Qərbi Azərbaycan (indiki Ermənistan) ərazisində Qoqarena əyaləti olmuşdur ki, bu da, şübhəsiz, quqarların adı ilə





bağlıdır. Onlar Göyçə gölü ətrafında yaşamışlar. Türk mənşəli quqar tayfasının adı daha qabarıq şəkildə indiki Ermənistanın Quqark rayonunun adında özünü göstərir. Görkəmli Türkiyə tədqiqatçısı M.Fahrettin Kırzıoğlu yazır: «Arsaklılar çağında Göldən Tiflis altındakı Borçalıya kimi uzanan və XIII əyaləti təşkil edən bölgənin «Quqark» (Quqarlar) adı da əski «Qoqaren»dən qalmadır [61, s. 82].

«Sonrakı tarixi mənbələrdən aydın olur ki, 387-ci ildən sonra Gögər ölkəsi uzun müddət İberiya ərazisinə daxil edilmişdir. M.Xorenasi (V əsr) Gögər vilayətinin adını erməni dilinin qaydalarına uyğun olaraq Quqark şəklində yazmışdır. Sözün kökünü qədim azər dilindəki gögər//qöqər formasına uyğun quqar vermişdir, «k» isə erməni dilindəki cəmlik bildirən şəkilçidir» [1, s. 66].

İndiki Ermənistanın ərazisində tarixən yaşayan türk tayfalarından biri isə şiraklar adlanırdı. Bunlar haqqında ilk məlumatı I əsrdə Strabon vermişdir. Tarixi mənbələrdə bu etnonim **şirak, şıraq, çirak** fonetik formalarında qeydə alınmışdır. Bu tayfanın türk mənşəli olması haqqında M.Seyidovun [51, s.47-59], Q.Qeybullayevin [33, s. 105-108] və Q.Məşədiyevin [42, s.228] əsərlərində də məlumatlar vardır.

Şirak tayfası Göyçə gölü ətrafında, Arpaçayın sahilində yaşamışdır. Bu tayfanın adı indiki Ermənistanın ərazisində tarixən mövcud olmuş Şırak əyalətinin adında, Şörəyel toponimində özünü qoruyub saxlamışdır. Şirak türk tayfasının adını özündə əks etdirən ərazilərdə tarixən yalnız azərbaycanlılar yaşamışlar. Bu da Şirakların qədim türk tayfalarından olduğunu sübut edən tarixi dəlillərdən biri və başlıcasıdır. Onu da qeyd edək ki, şirak tayfası azərbaycanlıların etnogenezində mühüm rol oynamışdır.

Qərbi Azərbaycan ərazisində qədim türk tayfalarından qarqarlar və peçeneqlər də yaşamışlar. Bu tayfaların adlarını özündə yaşadan toponimlər indiki Ermənistan adlanan ərazidə

mövcuddur [12, s. 162-163, 207-208].

Qərbi Azərbaycan ərazisində tarixən yaşamış türk tayfalarından biri də **şadılı tayfası** olmuşdur. Şadılı tayfası «qədim şadlı boyu ilə bağlıdır, şadlı sözü isə qədim türk dilində titul bildirən şad sözündən yaranmışdır» [2, s.70].

«Şad» sözü qədim türklərdə hərbi titul mənasında işlənirdi [69, s.519]. F.Ağasıoğlu yazır: «.. şad titulu müxtəlif türk bölgələrində işlənmişdir. İrəvan mahalında bu titulun ən qədim yazılı tarixi m.ö. VII əsrin ortalarına aiddir. Assur yazısında keçən bu məlumat həmin çağda Kür-Araz çayları arasındakı əraziləri əhatə edən və Vedi də daxil olmaqla, mərkəzi Göyçə gölü hövzəsi olan **saqa-qamər** boyalarının qurduğu Saqa dövləti ilə bağlıdır. Burada söhbət dövlət başçısı Tuğdamın oğlu Sandak-Şatər haqqında gedir» [3].

Şadılı türk tayfasının adı Qərbi Azərbaycanın Vedibasar mahalında 1988-ci ilə kimi azərbaycanlıların yaşadığı Şidli toponimində öz izini qoruyub saxlamışdır.

İndiki Ermənistan ərazisində tarixən məskunlaşan qədim türk tayfalarından biri kəngərlərdir. Kəngərlər bu əraziyə eramızın IV əsrindən sonra gəlmişlər. Qədim türk tayfalarından olan kəngərlər, əsasən, Ağrı vadisində, indiki Ermənistanın Gürcüstanla sərhədlərində yaşamışlar.

Kəngərli tayfasının adı Ağbaba mahalındakı Kəngər dağının adında özünü qoruyub saxlamışdır. Eləcə də kəngərli tayfasının qollarından olan pol, çor etnonimləri ilə bağlı indiki Ermənistan ərazisində xeyli yaşayış məntəqəsi mövcud olmuşdur [33, s. 112-114]. Əlavə edək ki, indiki Ermənistan ərazisində tarixən cinli, oğuz, sabunçu, baharlı, bayandur, əfqanlar, qacar, peçeneq, qazax, əfşar, xalac, şamlı, ustaclı, türkmən, ayrım, qarapapaq, muğanlı və b. türk tayfaları yaşamışdır [83, s.530-631]. Onların adlarına Əfşar (Vedi), Xalac (Qafan), Qacaran (Qafan), Qaraqoyunlu (Cəmbərək), Qaraiman (Basarkeçər) və s. toponimlərdə rast gəlinir. Ümumiyyətlə, tarixən yaşamış 24 oğuz tayfasının hamısının adı ilə bağlı indiki Ermənistan ərazisində xeyli toponim olmuşdur ki, bu da ərazinin qədim Oğuz yurdu olduğunu aydın şəkildə göstərir.

Qərbi Azərbaycan ərazisində Azərbaycan türklərinin





soykökündə iştirak etmiş varsaq, barsil, şiraq // siraq, qaşqay, saq, arsaq, bulqar kimi türk tayfaları çox-çox qədim zamanlardan yaşamışlar [51, s.336]. Bu baxımdan erməni tarixçisi M.Xorenasinin türk tayfalarından biri olan bulqarların eramızdan əvvəl indiki Ermənistan ərazisində yaşadığını göstərən aşağıdakı fikri çox qiymətlidir: «O zaman (yeni eradan qabaq 110-cu il - İbrahim Bayramov) Qafqazın böyük dağlarının ətəklərindəki Bulğarların ölkəsində düşmənçilik başladı və onların çoxu bizim ölkəyə (indiki Ermənistan ərazisi nəzərdə tutulur – İbrahim Bayramov) gəldilər və Qoğdan (İrəvanın yaxınlığında yaşayış məskəni olmuşdur – İbrahim Bayramov) aşağıdakı bərəkətli yerlərdə uzun müddət yurd saldılar» [51, s.325].

Qərbi Azərbaycan ərazisində tarixən yaşamış türk tayfalarından biri zəngi idi. Bu tayfanın adı qədim çağlarda sanqi şəklində yazılmışdır [1, s. 114].

Apardığımız araşdırmalardan bu qənaətə gəlirik ki, zəngi tayfası türk mənşəlidir. Faruq Şümer yazır: «Əlcazair və Suriya hakimləri olan zəngilər də türk məmlük ailəsindən idilər» [52, s.123].

Ərəb ölkələrindəki məmlük türkləri qıpçaq tayfalardır [58, s.26]. Deməli, zəngilər qıpçaq tayfalarından biridir: «Zəngilər təkcə Ağrı vadisində deyil, həm də Zəngi (Zəngəzur) bölgəsində yaşamışlar. Ümumiyyətlə, İrəvan mahalının digər qədim tayfaları kimi zəngi boyları da sonralar geniş ərazilərə yayılmışdır. Belə ki, Quzey Azərbaycanda Zəngilan və Sanqaçal toponimlərində də izini qoymuş zəngilər bir zamanlar Türküstan çöllərinə qədər köç etmişlər» [2, s.72].

Qərbi Azərbaycan ərazisinin zəngin tarixi vardır. Ermənistan haqqında ilk məlumatlar Bisitun yazılarında, Strabonun, Herodotun əsərlərində verilmişdir. Lakin bu qaynaqlarda adı çəkilən Ermənistanın indiki Ermənistan ərazisi ilə heç bir əlaqəsi yoxdur.

Bəzi mənbələrdə e.ə. IV əsrin sonlarında yaranmış Azərbaycan dövlətinin hökmdarı Artabazın olduğu qeyd edilir. Artabazın

hakimyyəti illərində çox güman ki, sonrakı Şərqi Ermənistan ərazisi də Azərbaycanın tərkibinə daxil imiş [7, s.139].

E.ə. 189-cu ildə Azərbaycanın qonşuluğunda Armeniya dövləti yaratmaq istəyirlər. Hətta Armeniya hökmdarları Azərbaycan torpaqları olan indiki Ermənistanın Ağrı vadisinə və onun dağlıq hissəsinə hücum edir və oranı ələ keçirirlər. Lakin azərbaycanlılar sonralar bu torpaqları geri alırlar [8, s.140].

III - VII əsrlərdə indiki Ermənistanın müəyyən əraziləri Sasanilər hakimiyyətinə tabe idi. 387-ci ildə indiki Ermənistanın Ağrı vadisi İranın, Quqark vilayəti isə Gürcüstanın tərkibində olmuşdur.

Qərbi Azərbaycan ərazisində Syunik vilayəti olmuşdur. Bu, 12 vilayətdən ibarət idi [41, s. 95]. 591-ci ildə İranla Bizans arasında bağlanan müqaviləyə əsasən Ağrı vadisinin bir hissəsi və Syunik vilayəti İranın tabeliyində qaldı [39, s.90].

«630-cu ildə Cebi xaqan sərkərdə Çopran Tarxanın başçılığı altında Armeniyaya üçminlik ordu göndərdi. Sasani mərzbanı orduda xidmət edən türk süvarilərinin rəisi, türk etnosuna mənsub olan Honahı, Çoprana qarşı göndərdi. İki türk dəstəsi Göyçə gölünün sahilində döyüşə girdilər. Burada Sasani ağalığının müdafiəsinə qalxmış Honah məğlub oldu. Döyüş gedən yer Azərbaycan türkləri yaşayan ərazi idi və onlar etnik və dil cəhətdən həm türk mənşəli albanlara, həm də türk xaqanlığının türkdilli əhalisinə qohum olduğundan çox güman ki, türk xaqanı azəri türkləri yaşayan ərazini öz hakimyyəti altına almaq istəyirdi. Qələbə nəticəsində Göyçə gölü sahil boyu türk xaqanlığına tabe edilir» [8, s. 195].

Bu dövrdə indiki Ermənistan ərazisində aşağıdakı əsas yaşayış məntəqələri olmuşdur.

İrəvan. Bu yaşayış məntəqəsi İrəvan xanlığının mərkəzi olmuşdur və indi də indiki Ermənistanın paytaxtıdır. Ararat vadisinin şimal-şərqində, Zəngi çayının sahilində yerləşir. İlk





dəfə VII əsrdə (670) xatırlanır [87, s.550].

Ararat. Araz çayının sahilində yerləşirdi. Münbit torpaqlar olduğu üçün əhali daha çox yaşayırdı. Ərazi XIII əsrə qədər səlcuqların, XIII əsrdən sonra monqol-tatarların tabeliyində olmuşdur.

**Şirak.** Axuryan çayının yuxarı və aşağı axarları arasında yerləşmişdir. Movses Xorenli «Ermənistan tarixi» əsərində Şirakı acgöz mənasını verən Şirakın adı ilə bağlayır [65, s.138]. Lakin, əslində, Şirak toponimi sirak adlı qədim türk tayfasının adı əsasında yaranmışdır.

Gümrü. İndiki Ermənistanın Şörəyel ölkəsində yerləşir. E.ə. IV əsrdə bura yaşayış məskəni olmuşdur. Erkən və orta əsrlərdə Kumayri adlanırdı.

**Kotayk.** İndiki Ermənistan ərazisindəki Kotayk (Abovyan) Axta (Razdan), Qəmərli (Artaşat) və Üçkilsə (Eçmiədzin) rayonlarının bir hissəsini əhatə edib, Zəngi çayının vadisində yerləşirdi.

Qafan. Syunik vilayətində yeganə şəhər olmuşdur. Qafan-Qaçaran yolunun ortasında, Oxçu çayının sağ sahilində yerləşir. Qafan haqqında ilk məlumatlar V əsrin əvvəllərində verilmişdir. X əsrdən başlayaraq şəhər kimi tarixçilər tərəfindən qeydə alınmışdır.

**Şəki.** X əsr anonim müəllifin verdiyi məlumata görə, Şəki Ermənistanda uzunluğu təqribən 70 fərsəx olan bir vilayətdir [17, s.180].

Eyni zamanda, indiki Ermənistan ərazisində tarixən Dvin, Ağın (Ani), Qarni (Gərni-İbrahim Bayramov.) kimi böyük şəhər və yaşayış məntəqələri olmuşdur [17, s. 143].

Xəzər türk tayfası VIII əsrdə indiki Ermənistan ərazisində tam məskunlaşmağa başlamışdır. «II Yəzidin (720-724) hökmranlığı zamanı 722-23-cü ildə xəzərlər qıpçaq və digər türk tayfalarının köməyi ilə təqribən 30 min nəfərlik ordu ilə yenidən Arana

soxuldular və onun ərazisindən keçərək Ermənistana girdilər» [17, s. 106].

XI əsrin I yarısında indiki Ermənistan ərazisi səlcuqların tabeliyinə keçmişdir.

Qədimdən Oğuz tayfaları indiki Ermənistan ərazisində yaşamışlar. Oğuzların bu ərazidə yaşadığını VII əsrin tarixi abidəsi olan «Kitabi-Dədə Qorqud» dastanı aydın şəkildə sübut edir. Belə ki, əsərdə adı çəkilən Göyçə dənizi (Göyçə gölü- *İbrahim Bayramov*), Göyçə dağı, Altuntaxt, Şəruk (Şirak – İbrahim Bayramov) toponimləri tarixi həqiqətlərdən xəbər verir [10, s.45-60; 11, s.61-68; 13, s.197-204; 12, s.432-433].

Artyom adlı daha bir tanınmış erməni müəllifi oğuz tayfalarının bu məmləkətdə (indiki Ermənistanda – İbrahim Bayramov) qədimdən məskunlaşdıqlarını şəkki-şübhə yeri qoymadan daha inandırıcı, daha gerçək faktla etiraf, təsdiq və sübut edərək yazmışdır: «За несколько верст не доходя до сей деревни, увидел я в стороне множество надгробных памятников... пришли на означенное место. Она есть древнее кладбище называемое Огус...» (kursiv mənimdir – İbrahim Bayramov) [39, s.36-37]. 1124-ci ildə Ani və Şirak Gürcüstana birləşdirilir. İndiki Ermənistanın səlcuqlardan azad olunması çarıça Tamaranın dövrünə (1184-1213) təsadüf edir. Beni, Şirak, Ani 10-12 il ərzində (1190-cı ilin ortalarından XIII əsrin I onilliyinin axırına qədər) səlcuqlardan azad olunub, Gürcüstanın tabeliyinə keçdi.

XIII əsrdə indi Ermənistan adlanan ərazi monqollar tərəfindən işğal edilmişdir. Monqolların ilk hərbi hissələri Cənubi Qafqaza 1220-21-ci illərdə hücum etmişlər. 15-16 il sonra 1235-36-cı illərdə isə indiki Ermənistan ərazisini işğal etdilər.

Teymurləngin 1386-87, 1394, 1400-cü illərdəki yürüşləri nəticəsində Ağrı vadisi ələ keçirilmişdir.

Qərbi Azərbaycan ərazisi XIV əsrin sonu, XV əsrin əvvəllərində Qaraqoyunlu, sonra Ağqoyunlu dövlətinin





tabeliyində olmuşdur.

XVI əsrdə Ağqoyunlu dövləti dağıldıqdan sonra Səfəvilər dövləti yarandı. Onun tabeliyinə-ərazisinə İrandan əlavə, Azərbaycan, indi Ermənistan adlanan Qərbi Azərbaycan da daxil idi.

1508-ci ildə Şah İsmayıl Qərbi Azərbaycana gəlir. Şah İsmayıl 1500-cü ildə Göyçə gölünün cənub sahillərində, sonra isə Çuxursəddə olur [8, s.399].

XV əsrin əvvəllərində indiki Ermənistan adlanan ərazi Qaraqoyunlu dövlətinin tərkibinə daxil idi. Başqa dövrlərdə olduğu kimi, XV əsrdə də burada bütün mülklər azərbaycanlılara məxsus idi. XV əsrin ikinci yarısından başlayaraq ermənilərin indiki Ermənistan ərazisində məskunlaşmasına kömək edən Eçmiədzin kilsəsi bu mülkləri azərbaycanlılardan almağa başlayır. Bu haqda 1763-1780-ci illərdə erməni kilsəsinin başçısı olmuş Simeon İrəvanlının (Simeon Yerevansı) «Cambr» əsərində geniş məlumat verilmişdir [72, s.179-222].

Akademik Ramiz Mehdiyev həmin dövrdə baş verən hadisələri elmi şəkildə təhlil edərək yazır: «Ermənilər (haylar) XV əsrin ortalarınadək Cənubi Qafqazda, demək olar ki, yaşamırdılar. 1441-ci ildə Qaraqoyunlu türk-Azərbaycan dövlətinin hökmdarı Cahan şah erməni katolikosluğunun mərkəzini əhalisi tamamilə türklər olan İrəvan yaxılığındakı Kilikiyanın Sis şəhərindən qədimdə alban monastrı olmuş Üçkilsə monastrına (yaxud Üç Müədzin) köçürmüşdür. Sonralar ermənilər Üç Müədzin adını dəyişərək «Eçmiədzin» kimi ifadə etmişlər. Erməni dilində bu sözün heç bir mənası yoxdur (təbii ki, hər hansı erməni sözünü ona uyğun dəyişməsələr). Halbuki Azərbaycan türkcəsində bu sözün mənası «üç müəzzin»dir («müəzzin» ərəbcə azan oxuyan deməkdir). Matenadaranda saxlanılan orta əsr sənədlərində məbədin adı məhz «Üçkilsə» kimi xatırlanır. Erməni katolikosluğunun Üçkilsəyə köçürülməsi ilə erməni missionerləri buraya üz

tutdular. Onların Cənubi Qafqazda nüfuzlarını artırmaq imkanı yaranmışdı. Tezliklə monastrın özü ermənilərin dini mərkəzinə çevrilmişdir. Bu torpaqların XIX əsrin birinci yarısında Rusiyaya birləşdirilməsinədək Cənubi Qafqazda Üçkilsənin hüdudlarından kənarda çox cüzi erməni var idi» [37, s.54-55].

İrəvan bölgəsindəki Azərbaycan torpaqlarını ermənilərin hansı yollarla ələ keçirmələri ilə bağlı Matenadaranda saxlanılan 1687-ci il tarixli bir sənəd olduqca əhəmiyyətlidir. Həmin sənəddə qeyd olunur ki, biz (ermənilər – İbrahim Bayramov) Azərbaycan türklərinə məxsus olan torpaqları «... ya satın alır, ya zəbt edir, ya sahibinin əlindən çıxarır, ya rüşvət verib alır, ya bəxşiş kimi əldə edir və yaxud da zorla ələ keçiririk» [28, s.71].

XV-XVII əsrlərdə indiki Ermənistan ərazisində azərbaycanlılara məxsus mülklərin Eçmiədzin kilsəsi və ərazidə məskunlaşan ermənilər tərəfindən ələ keçirilməsini cədvəl 1-də aydın görmək olar.

| Tarixi | Satan | Alan | Kənd | Satılmış dənklər | Qiymәti | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | Tümən | Min dian (dinar) | Şahı |
| 1431 | Ağqoyunlu Yaqub padşahın nümayəndəsi Əmir Rüstəm | Qriqor Makvesi | Vağarşabad, Əştərək, Batrinç, Noraqovit, Ağunatun, Kırəçli, Muğni | | | 525 | |
| 1443 | Səid bəy | — | Vağarşabad (tam) | 6 | | 8040 | |
| 1489 | Kəmaləddin Əbdin bəy | Xoca Sədi Vakkas | Oşakan . | | | 8 | |
| 1574 | Şahmənsur ağa, Şəhriyar ağa, Şahqubad ağa | Mirzəcan | Ovanavəng | 6 | 8 | | |
| 1575 | Nubarşah | Hovannes | Berdak | | | 41 | |





| Tarixi | Satan | Alan | Kənd | Satılmış dənklər | Qiymәti | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | Tümən | Min dian (dinar) | Şahı |
| 1640 | Sultan bəy | Katalikos Hakop | Oşakan | 0,5 | 5 | | |
| 1641 | Sultan bəy | — | — | 0,5 | 5 | | |
| 1641 | Baba, Bəndəli, Bəyim | — | — | 1 | 7 | | |
| 1641 | Həsən və Hüseyn | — | — | 0,5 | 6 | | |
| 1642 | İsmayıl bəy, Məclumqulu bəy | — | — | 0,5 | 5 | | |
| 1643 | Səfiqulubəy, Məclumqulu bəy | — | — | 0,5 | 6 | | |
| 1644 | Şeyx Zeynəb | — | — | 0,5 | 4 | | |
| 1645 | Məclum bəy | — | — | 0,5 | 6 | 4 | |
| 1645 | Hüseyn bəy | — | — | 0,5 | 5 | | |
| 1655 | Hundalıqulu və Kəlbəli | Katalikos Hakop | Oşakan | 0,5 | 5 | | |
| 1655 | Bayraməli bəy | Katalikos Hakop | Batrinc | 1 | — | 16 | |
| 1655 | Əliağanın vərəsəsi | | Franknov | 6 | 9 | 9 | 10 |
| 1655 | Məhəmmədəli | Tarxan | Mastara | 2,5 | — | 12 | |
| 1656 | Rzaqulu | Katalikos Hakop | Kyatur | 6 | 2 | | |
| 1664 | Rzaqulu | — | Məlikkənd | 6 | 2 | | |
| 1666 | Bəzzaz Dərgah | — | Oşakan | 0,5 | 7 | | |
| 1667 | Həbib bəy | — | Mankano ərazisi | 6 | | 11 | |
| 1671 | Qul İsmayıl | — | Keşişkənd | 6 | 2 | | |
| 1672 | Səfiqulu | — | Oşakan | 0,5 | 7 | | |

| Tarixi | Satan | Alan | Kənd | Satılmış dənklər | Qiyməti | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | Tümən | Min dian (dinar) | Şahı |
| 1680 | Mürşüd | — | — | 0,5 | 6 | | |
| 1680 | Səfiqulu | — | — | 0,5 | 6 | | |

Simeon İrəvanlının «Cambr» əsərində XVII əsrdə indiki Ermənistanda yaşamış muğanlı, bayat, ayrımlı, ilxıçı, kolanı, qacar, kürəkənli (körakanlı) və s. türk tayfaları haqqında da ətraflı məlumat verilir [72, s. 105-106, 188-197].

Azərbaycanı işğal etmək cəhdinin boşa çıxdığını görən Sultan I Süleyman Səfəvilərlə danışığa başlamağı lazım bilir. Naxçıvandan qayıdan kimi, baş vəziri Məhəmməd paşaya göstəriş verir. Məhəmməd paşa qızılbaş əmirlərinə məktub göndərib Sinan bəyin əsirlikdən azad edilməsini və danışıq üçün öz nümayəndələrini göndərməyi xahiş edir. Sinan bəy azad edilir və qaçaq tayfasından olan Şahqulu bəylə Sultanın yanına göndərilir. Şahqulu bəy geri döndükdən sonra Səfəvi səfiri - eşikağası Fərruxzad Amasiyaya göndərilir. 1555-ci il mayın 29-da Amasiyada Səfəvi-Osmanlı müharibələrinin birinci mərhələsini başa çatdıran sülh müqaviləsi imzalanır. Bu sülhə görə Qərbi Gürcüstan-İmeretiya, Menqreliya və Quriya Türkiyənin, Gürcüstanın şərq vilayətləri - Meshi, Kartli-Kaxetiya və Qərbi Azərbaycan Səfəvilərin ixtiyarına keçir [8, s.418; 21, s.83].

Səfəvilərin hökmdarlığı dövründə Şimali Azərbaycanda və Qərbi Azərbaycanda bəylərbəyliklər təşkil olunur. Bəylərbəyliklər mahallara bölünür. Onlardan biri də İrəvan mahalı idi. XIV əsrin sonundan İrəvan inzibati mərkəz kimi tanınıb. Qaraqoyunluların (1410-1467) və Ağqoyunluların (1467-1503) hökmranlığı dövründə coğrafi mövqeyinə və yerli şəraitinə görə bu ad geniş yayılıb və Çuxursəd bəylərbəyliyinin inzibati mərkəzi olub [38, s.8].





Qaraqoyunlular dövründə olduğu kimi, Ağqoyunlular dövründə də İrəvan əsas şəhərlərdən biri kimi inkişaf edərək həm də mədəniyyət mərkəzinə çevirilir.

«Səfəvilər sülaləsinin süqutundan sonra İranda hakimyyət başına gələn Nadir şah Əfşar (1736) dövlətin inzibati bölgüsünü dəyişdirərək, bütün bəylərbəylikləri ləğv etdi. Çuxursəd bəylərbəyliyi digər Azərbaycan bəylərbəylikləri ilə birlikdə mərkəzi Təbriz şəhəri olan vahid Azərbaycan vilayəti ətrafında birləşdirildi» [24].

XVI əsrin sonu-XVII əsrin əvvəllərində Səfəvi-Osmanlı müharibələri nəticəsində İrəvan bir neçə dəfə dağıntıya məruz qalmış və əldən-ələ keçmişdir. İndiki Ermənistan Rusiyanın tərkibinə qatılanadək İrəvan xanlığı Azərbaycanın tərkibində olmuşdur.

1639-cu ildə Səfəvi-Osmanlı arasında «Qəsri-şirin» müqaviləsi bağlanmışdır. Həmin müqavilədə İrəvan Səfəvi dövlətinin ayrılmaz hissəsi kimi qeyd edilir.əsrdə Çuxursəd bəylərbəyliyi daha geniş əraziyə malik idi. İrəvan xanlığının ərazisinə Axuryan çayından Şah dağına, Alagöz dağ silsiləsinə, Axuryan çayının mənbəyindən aşağı axarına qədər olan sahəsinə (Arazın sol sahilindən 15-17 km-lik uzunluğunda dar bir sahəni əhatə edib Arazı kəsir), Gözəldərə dağ silsiləsindən, Şah dağından Pəmbək dağlarına qədər olan torpaqlar daxil idi.

XVII əsrin II yarısında Azərbaycan ərazisində xanlıqlar yaradıldı. Həmin xanlıqlardan biri də İrəvan xanlığı idi.

«1747-ci ildə Nadir şahın öldürülməsindən sonra Azərbaycanın digər bölgələrində olduğu kimi, Çuxursəd bəylərbəyliyi ərazisində də Naxçıvan və İrəvan xanlıqları yarandı» [39, s.92].

İrəvan xanlığı 15 mahala bölünmüşdü: Qırxbulaq, Zəngibasar, Gərnibasar, Vedibasar, Şərur, Sürməli, Dərəkənd-Parçenis, Saatlı, Talın, Seyidli-Axsaxlı, Sərdərabad, Karpibasar, Abaran, Dərəçiçək və Göyçə.

**1.** Qırxbulaq mahalı. Onun ərazisinə Dərələyəzdən Zəngibasara qədər olan sahələr, şərqdən Ağmanqan, Gizçə dağları, qərbdən Zəngi çayı, cənubdan İrəvan şəhərinə çatan sahə daxil idi.

**2.** Zəngibasar mahalı. Bu mahal Qırxbulaq mahalı ilə Gərnibasar mahalları arasında yerləşirdi. Zəngi çayının aşağı axarındakı suvarılan bütün torpaqlar ona aid idi.

**3.** Gərnibasar mahalı. Arazın sol tərəfində yerləşirdi.Gərni çayı ilə suvarılan bütün kəndlərin torpaqları onun ərazisinə daxil idi.

**4.** Vedibasar mahalı. Arazın sol tərəfində, Gərnibasar və Şərur mahalları arasında yerləşirdi. Vedibasar mahalı, əsasən, indiki Ermənistanın Vedi rayonunun ərazisini, Vedi çayının bütün hövzəsini əhatə edirdi.

**5.** Şərur mahalı. İrəvan xanlığının cənub-şərqində yerləşirdi. Arpa çayının axarında yerləşən sahəni əhatə edirdi. Naxçıvan ərazisinə daxildir.

**6.** Sürməli mahalı. Sərdarabadın yanında, Araz çayının sağ tərəfində, Arazla Ağrıdağ silsiləsi arasında yerləşirdi. Türkiyənin ərazisinə daxildir.

**7.** Dərəkənd - Parçenis mahalı. Bu mahal Arazın sağında, Sürməli mahalının qərbində yerləşirdi. Onun ərazisindən Dərəkənd, Parçen çayları axırdı. Dərəkənd çayı öz mənbəyini Təkəltu dağlarından alır.

**8.** Saatlı mahalı. Bu mahal ərazi cəhətdən o biri mahallara nisbətən o qədər də böyük deyildir. Axuryan çayı ilə Araz çayınm birləşdiyi sahəni əhatə edirdi. Talın və Sərdarabad mahalları ilə həmsərhəd idi.

**9.** Talın mahalı. Talın mahalı Araz və Axuryan çayları arasında yerləşirdi. Axuryan çayı Talın mahalını Qars padşahlığından ayırırdı. Şimaldan Şörəyel nahiyəsi ilə, cənubdan isə Sərdarabad və Saatlı mahalları ilə həmsərhəd idi.





**10.** Seyidli-Axsaxlı mahalı. Bu mahal Talın mahalının şərqində, Alagöz dağının şimal-şərq yamacında yerləşirdi. Şərqdən onun sərhədi Abaran mahalına çatırdı.

**11.** Sərdarabad mahalı. Sərdarabad mahalı Araz çayının sol tərəfində, Saatlı və Karpibasar mahalları arasında yerləşirdi. Xanlığın ən böyük mahallarından biri idi. Bu mahal indiki Ermənistanın Oktemberyan rayonunun ərazisi daxilində mövcud olmuşdur. Burada İrəvan xanı Sərdarabad qalasını tikdirmişdir.

**12.** Karpibasar mahalı. Bu mahal Seyidli-Axsaxlı mahalı ilə sərhəd idi. Karpi çayının orta və Qarasu çayının yuxarı hissələri mahalın ərazisinə daxil idi. Karpibasar mahalı Zəngibasar və Sərdarabad mahalları arasında yerləşirdi.

**13.** Abaran mahalı. Alagöz dağının şimal-şərqində, Pəmbək dağının şərqində yerləşirdi.

**14.** Dərəçiçək mahalı. Dərəçiçək mahalı Pəmbək nahiyəsi və Qırxbulaq mahalı arasında İrəvan şəhərinin yaxınlığında yerləşirdi. Axta çayının yuxarı hissəsi və Dərəçiçək onun ərazisinə daxil idi.

**15.** Göyçə mahalı. İrəvan xanlığının mahallarından biri Göyçə mahalı adlanırdı. Göyçə gölünün sahilində yerləşən rayonlar bu mahala daxil idi. Başqa sözlə, onun sərhədləri Ağmanqan, Gözəldərə və Şahdağ silsilələrini əhatə edirdi [91, s.386]. Mahalın adı erməni [91, s.386], rus mənbələrində [83,. s.515] Göyçay mahalı formasında da qeyd edilir. Göyçə mahalı həm ərazicə, həm də əhalinin sayına görə İrəvan xanlığının ən böyük mahalı hesab edilirdi. Bu mahal indiki Ermənistanın ərazisindəki Çəmbərək (Krasnoselo) rayonunda yerləşən Toxluca, Ağbulaq, Ardaniş, Cil kəndlərini, Basarkeçər (Vardeniş), Qaranlıq (Martuni), Kəvər (Kamo) rayonlarının ərazilərini əhatə edirdi.

İndiki Ermənistan daxilində yerləşən Ağbaba mahalı 1921-ci ilə kimi Qars vilayətinin (əvvəllər Qars padşahlığının), Qızılqoç (indiki Qukasyan), Gümrü (indiki Qumayri), Düzkənd (indiki

Axuryan), Ərtik (indiki Artik) rayonlarının əraziləri isə XVIII əsrdə Şörəyel sultanlığının tərkibində olmuşdur.

XX əsrin əvvəllərində bu bölgədə yerləşən əhalinin 70%-ni, əsrin ortalarında 50%-ni azərbaycanlılar təşkil edirdisə, əsrin sonunda bölgədə ermənilər çoxluq təşkil edirdi. Bu da onu göstərir ki, azərbaycanlılar Rusiya siyasətinin nəticəsi olaraq ermənilər tərəfindən XX əsrdə kütləvi surətdə öz ata-baba torpaqlarından zorla qovulmuşlar.

Zəngəzurun Gorus, Qafan, Meğri və Sisyan rayonları indiki Ermənistan Respublikasının tabeliyindədir. 1920-ci ilə kimi bu bölgələr (Gorus, Qafan, Meğri və Sisyan) Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasının tərkibinə daxil olmaqla Azərbaycan torpaqları idi. Lakin bir həqiqəti unutmayaq ki, bütövlükdə Cənubi Qafqaz, o cümlədən də Azərbaycan Rusiyanın təsir dairəsində idi. Elə bu ərazilərə də ermənilərin yerləşdirilməsi (Qarabağ və İrəvan xanlıqlarında olduğu kimi) bilavasitə Rusiyanın əli ilə həyata keçirilmişdi.

İndiki Ermənistanın ərazisində yerləşən Dərələyəz mahalı XIX əsrin əvvəllərində Naxçıvan xanlığının tərkibində olmuşdur. Bu mahal Paşalı (Əzizbəyov, Vayk) və Keşişkənd (Yeğeqnadzor) rayonlarının ərazisini əhatə edirdi. Burada 1828-ci ilə kimi 4583 nəfər azərbaycanlı (1001 ailə), 147 erməni (58 ailə) yaşamışdır [83, s.647-648]. Mahalın ərazisinə 1828-1830-cu illərdə İrandan 2838, Türkiyədən 27 erməni köçürülüb yerləşdirilmişdir [83, s.649].

1830-1887-ci illərdə mahalın ərazisinə ermənilərin köçürülüb yerləşdirilməsi geniş vüsət almışdır. Bunun nəticəsində Dərələyəz mahalında ermənilərin sayı əhəmiyyətli dərəcədə artmışdır. 1837-ci ildə Dərələyəz mahalında 13498 nəfər türk (azərbaycanlı), 11748 nəfər erməni (hay), 1886-cı ildə 16841 nəfər türk (azərbaycanlı), 16048 erməni (hay), 1897-ci ildə 24254 nəfər türk (azərbaycanlı), 17813 nəfər erməni (hay) yaşamışdır.





XVII əsrin sonlarında Cənubi Qafqazın başqa bölgələri ilə yanaşı, İrəvan xanlığını da Rusiya öz tabeliyinə keçirmək niyyətində idi. 1783-cü il Georgiyevski müqaviləsinə əsasən Rusiyaya birləşən Gürcüstan bu aspektdə xüsusi iş aparırdı. Lakin 1787-ci ildə Türkiyə ilə başlanan müharibə Rusiyanın planını pozdu və İrəvan xanlığını ələ keçirə bilmədi. Bununla belə, bu illərdə İrəvan xanlığı güclənmişdi. Düzgün siyasət aparan İrəvan xanı Kartli-Kaxetiya çarlığının asılılığından qurtardı.

Umma xan (Avar hakimi –İbrahim Bayramov) 1785-ci ildə Gürcüstana basqın etdi, oradan isə İrəvan xanlığı ərazisinə gəldi və onun şimal rayonlarını qarət etdi. Umma xan 1786-cı ilin yayına kimi İrəvan xanlığının ərazisində qaldı [29].

1789-cu ildə Bayazid paşalığı ilə İrəvan xanlığı arasında toqquşmalar olmuşdur. Bayazid paşalığı İrəvan xanlığının ərazisini tutmaq istəyirdi. Lakin Naxçıvan xanlığının köməyi ilə Bayazid paşalığının ordusunu məğlub edərək onu geri oturtdu [29]. Hətta Bayazid qoşununu geri oturdan İrəvan xanı Məhəmməd xan Bayazid qalasını mühasirəyə aldı. Bununla İrəvan xanı gücləndiyini sübut etdi ki, bu da onun müstəqil hərəkət etdiyini göstərirdi.

1795-ci ildə Ağa Məhəmməd şah Qacarın ordusu İrəvan xanlığına hücum etmiş, İrəvan qalasını 35 gün mühasirədə saxladıqdan sonra ələ keçirmişdi. 1796-cı ildə general V.Zubovun başçılığı ilə Rusiya qoşununun Cənubi Qafqaza yürüşü zamanı İrəvan xanı Məhəmməd xan Rusiyanın himayəsinə keçmək istədiyni bildirdi [24, s.79-83]. Lakin II Yekaterinanın ölümü bu işi yarımçıq qoydu. İşdən xəbər tutan Ağa Məhəmməd şah Qacar İrəvan xanını həbs etdirdi və onun yerinə Əmirgünə xanı təyin etdi. 1797-ci ildə Ağa Məhəmməd şah Qacar öldürüldükdən sonra əhali Əmirgünə xanı İrəvandan qovdu. İranın yeni şahı Fətəli şah İrəvan xanı Məhəmməd xanı həbsdən azad edərək yenidən İrəvana xan təyin etdi [6, s.79].

İrəvan xanlığı 1827-ci ilin oktyabr ayının 1-də Rusiya tərəfindən işğal olundu. İrəvan xanlığının işğalından dərhal sonra, yəni 1827-ci ilin oktyabrın 6-da general İ.F.Paskeviçin əmri ilə müvəqqəti idarə üsulu yaradıldı.

1827-ci ilin axırlarında mənşəcə erməni olan X.Y.Lazerev I Nikoloya Azərbaycan ərazisində Rusiya imperiyasının tərkibində «Erməni dövləti» yaradılması haqqında layihə təqdim etmişdir. I Nikolay 1828-ci ilin martın 21-də fərman verdi. Fərmana görə, İrəvan və Naxçıvan xanlıqları ləğv edildi. Əvəzinə Azərbaycanın tarixi və qədim torpaqlarında yeni inzibati bölgü - «Erməni vilayəti» (Армянская область) yaradıldı [79, s.75-76; 28, s.352]. Erməni vilayətinin rəisi general-leytenant Aleksandr Çavçavadze təyin edildi. Buraya həm də iki nəfər rus hərbi xidmətçisi və əhalinin imtiyazlı təbəqəsindən bir erməni və bir azərbaycanlı nümayəndə daxil idi.

1828-ci ilin fevralın 10-da Təbriz şəhəri yaxınlığındakı Türkmənçay kəndində İranla Rusiya arasında sülh müqaviləsi imzalandı. Bu müqaviləyə əsasən İrəvan xanlığı Rusiyanın tərkibinə daxil edildi.

1833-cü il iyunun 23-də erməni vilayətinin inzibati quruluşu qanunu qəbul edildi. Bu qanuna əsasən İrəvan uyezdi dörd dairəyə (okruqa) bölündü: İrəvan, Şərur, Sürməli və Sərdarabad. Dairələrin rəisi vəzifəsinə rus məmurları təyin edildi.

İrəvan dairəsinə Göyçə, Dərəçiçək, Qırxbulaq mahallarının ərazisi, Şərur dairəsinə isə Vedibasar, Zəngibasar və Gərnibasar mahalları daxil idi. Sürməli dairəsinə Dərəkənd- Parçenis mahalı, Gərnibasar və Vedibasar mahallarının Arazın sağ sahilində olan torpaqlar daxil idi.

Sərdarabad dairəsinə Saatlı, Talın, Seyidli-Axsaxlı, Abaran, Karpi və Sərdarabad mahallarının əraziləri daxil idi. XIX əsrin 30-40-cı illərində Azərbaycanda çarın idarə sisteminə uyğun olaraq keçmiş xanlıqlar və sultanlıqlar əyalətlərə və dairələrə çevrildi.





İndiki Ermənistan ərazisində yerləşən Şəmşəddil (sonralar Berd rayonu adlandırıldı) Azərbaycanın tərkibində olmuş və distansiya adlandırılmışdı [8, s.580].

1837-ci ilin martında I Nikolay senator K.F.Qanı Zaqafqaziyaya göndərdi. O, Tiflisə gedib müəyyən məlumatları topladı və 1838-ci ildə öz layihəsi ilə birlikdə çara təqdim etdi. Çar I Nikolay müəyyən dəyişikliklər etməklə 1840-cı ili aprel ayının 19-da K.F.Qanın təklif etdiyi layihəni qəbul etdi.

1840-cı il 10 aprel qanununa əsasən Zaqafqaziya iki böyük inzibati əraziyə bölündü: Gürcü-İmeretiya quberniyası və Xəzər-Kaspi vilayəti. Bunlar 18 qəzadan və 782 kənd icmasından ibarət idi. Bu qanuna əsasən Erməni vilayəti ləğv edildi. İrəvan, Naxçıvan qəzaları, Ordubad dairəsi yaradıldı və yeni təşkil edilmiş Aleksandropol qəzası isə Gürcü-İmeretiya quberniyasına daxil edildi [79, s.84].

1849-cu ilin iyunun 9-da Ali fərmanla İrəvan quberniyası yaradıldı. Fərman 1850-ci il yanvarın 1-dən qüvvəyə mindi. Quberniyanın mərkəzi isə İrəvan şəhəri idi. İrəvan, Aleksandropol, Naxçıvan, Ordubad, Yeni Bayazid İrəvan quberniyasının tərkibinə daxil edildi. 1862-ci ildə Aleksandropol qəzasından ayrılan Loru Tiflis quberniyasına, 1867-ci il fərmanı ilə Ordubad qəzası ləğv edilərək Naxçıvan qəzasına birləşdirildi və bu fərmanla Eçmiədzin qəzası yaradıldı. 1867-ci il bölgüsündən sonra İrəvan quberniyasının tərkibinə İrəvan, Aleksandropol, Naxçıvan, Yeni Bayazid və Eçmiədzin qəzaları daxil oldu. 1874-ci ildə yeni inzibati-ərazi bölgüsü aparıldı. Əlavə olaraq iki qəza - Şərur-Dərələyəz və Sürməli qəzaları yaradıldı. Beləliklə, İrəvan quberniyasına daxil olan qəzaların sayı yeddi oldu: İrəvan, Aleksandropol, Naxçıvan, Yeni Bayazid, Eçmiədzin, Şərur-Dərələyəz və Sürməli.

1. Aleksandropol qəzası. 1849-cu ildə İrəvan quberniyası yarandığı vaxtdan Aleksandropol qəzası təşkil edilmiş və

İrəvan quberniyasının tərkibinə daxil edilmişdir. Bu qəzanın tərkibinə indiki Ermənistanın Düzkənd (Axuryan), Ağin (Ani), Artik, Qızılqoç (Qukasyan) rayonlarının əraziləri, eləcə də Talın və Hamamlı (Spitak) rayonlarının bəzi kəndləri daxil idi. Aleksandropol qəzasının mərkəzi Gümrü şəhəri idi.

**2.** Eçmiədzin qəzası. İrəvan quberniyasının ən böyük ərazilərindən biri olmuşdur. Bu qəza 1874-ci ildə yaradılaraq İrəvan quberniyasının tərkibinə daxil edilmişdi. Bu qəzanın tərkibinə Eçmiədzin, Əştərək, Sərdarabad (Oktemberyan), Talın və Abaran rayonlarının əraziləri daxil idi.

**3.** İrəvan qəzası. İrəvan quberniyasının tərkibinə daxil olan qəzalardan biri İrəvan qəzası adlanırdı. İrəvan qəzası quberniyanın ən böyük ərazilərini əhatə edirdi. Azərbaycanlılar çoxluq təşkil edirdi. Ermənistan İnqilab Komitəsinin 1921-ci il 21 iyul tarixli dekreti ilə Qəmərli, Ağahəmzəli, Baş Gərni, Kotayk, Axta nahiyələri İrəvan qəzasının tərkibinə daxil edilmişdir. Ermənistan Mərkəzi İcraiyyə Komitəsi Rəyasət Heyətinin qərarı ilə İrəvan qəzasında dəyişikliklər edilmiş, Meğri, Dərələyəz, Əştərək, Talın, Kotayk, Axta, Qəmərli, Qurduqulu (Oktemberyan), Vedi rayonlarının əraziləri qəzanın inzibati-ərazi bölgüsünə daxil edilmişdir [88, s.508; 19, s.193].

**4.** Yeni Bayazid qəzası. İrəvan quberniyasının qəzalarından biri Yeni Bayazid qəzası adlanırdı. Qəza XV-XIX əsrlərdə İrəvan xanlığının ərazisi daxilində yerləşmiş Göyçə mahalının ərazisi daxilində yaradılmışdır. İrəvan xanlığı Rusiya tərəfindən işğal edildikdən sonra Göyçə mahalı Yeni Bayazid qəzası adı ilə İrəvan quberniyasının tərkibinə daxil olmuşdur. 1919-cu ildə qəza Ermənistana verilərkən onun ərazisinə Basarkeçər, Yeni Bayazid (Kamo) rayonları, Axta (Razdan) rayonunun ayrı-ayrı kəndləri daxil idi. Türkiyənin Bayazid paşalığından ermənilər köçürülüb (1828-ci il Türkmənçay müqaviləsindən sonra) bu ərazidə yerləşdirildiyi üçün qəza Yeni Bayazid adlandırılmışdır.





**5.** Zəngəzur qəzası. Yelizavetpol (Gəncə) quberniyasına daxil olan qəzalardan biri də Zəngəzur qəzası adlanırdı. Zəngəzur qəzası Azərbaycanın Laçın, Qubadlı, Zəngilan rayonlarını, eləcə də Qərbi Azərbaycanın Gorus, Qafan, Sisyan, Meğri rayonlarını əhatə edirdi.

**6.** Şərur-Dərələyəz qəzası. Şərur-Dərələyəz qəzası 1874-cü ildə yaradılmış, 1920-ci ilədək Azərbaycanın tərkib hissəsindən biri olmuşdur. Bu qəza Azərbaycanın Şərur zonasını və indiki Ermənistanın Keşişkənd (Yeğeqnadzor), Paşalı (Əzizbəyov, Vayk) rayonlarının ərazilərini əhatə edirdi.

**7.** Loru-Pəmbək qəzası. İndiki Ermənistan ərazisində tarixən yaradılmış qəzalardan biri də Loru-Pəmbək qəzası idi. 1842-ci ilədək Pəmbək qəzasına Qarakilsə (Kirovakan) şəhəri, Quqark rayonu, Calaloğlu (Stepanavan) və Gümrü (Leninakan, Qumayli) qəzasının bir hissəsi və Hamamlı (Spitak) rayonu daxil idi. Əslində, XIX yüzilliyin əvvəllərində bu ərazinin Ermənistanla əlaqəsi olmamışdır.

1801-ci il 18 yanvar «Manifest»i ilə Gürcüstan rəsmi surətdə Rusiyaya birləşdirildi. Gürcüstanın tərkibinə indiki Ermənistan daxilində yerləşən Şəmşəddil (onun bir hissəsi indiki Berd rayonudur), Pəmbək-Şörəgəl (indiki Ermənistan ərazisi daxilində yerləşən Calaloğlu, Qarakilsə, Hamamlı, Qızılqoç, Gümrü rayonları, bir neçə kənd istisna edilməklə bütövlükdə indiki Artik, Abaran rayonlarının yarısı), Samsxetiya (Qazax, İcevan, Dilican rayonları, Allahverdi rayonuna aid olan bir neçə kənd) qəzalarının əraziləri daxil edildi [85, s.XXVI; 19, s.304].

**8.** Qazax qəzası. Yelizavetpol (Gəncə) quberniyasına daxil olan Qazax qəzası həm də indiki Ermənistanın Çəmbərək (Krasnoselo) rayonunun bir hissəsini (Yanıxpəyə, Gölkənd, Çaykənd, Əmirxeyir, Bəriyabad, Qaraqaya, Çıvıxlı kəndləri), Karvansaray (İcevan) rayonunu və Dilican şəhərini əhatə edirdi.

**9.** **Sürməli qəzası.** XIX əsr inzibati-ərazi bölgüsünə əsasən

Sürməli qəzası İrəvan quberniyasına daxil idi. Bu qəza üç polis sahəsinə bölünmüşdü [78, s.125- 127]. Həmin ərazi Türkiyənin tarixi torpaqlarıdır və indi də Türkiyənin ərazisi daxilindədir.

1918-ci ildə Daşnaksutyun partiyası Ermənistanda öz hakimiyyətlərini qurmaq məqsədilə Zəngəzurda, Göyçədə, Dərələyəzdə, Zəngibasarda, Vedidə minlərlə azərbaycanlını - qocaları, uşaqları, qadınları vəhşicəsinə qətlə yetirmişlər.

1918-ci ildə yaranan Zaqafqaziya komissarlığını mayda Zaqafqaziya seymi əvəz etdi [ 6, s.85 ]. 1918-ci il mayın 26-da gürcü nümayəndələri seymdən çıxıb Gürcüstan hökümətini qurmaq üçün bəyanat verdilər. 1918-ci il mayın 28-də Ermənistan Respublikasının yaranması rəsmən elan edildi. Beləliklə, tarixdə ilk dəfə olaraq Rusiyanın əli ilə ermənilər öz dövlətlərini yaratdılar. Ermənistan dövlətinin tarixi də 1918-ci ilin mayın 28-dən başlayır. T.Köçərli yazır: «378-ci ildə Ermənistan İranla Bizans arasında bölünəndən sonra əsrlər boyu, ta 1918-ci ilə qədər, yəni 15 əsr ərzində nə müstəqil, nə yarım müstəqil Ermənistan olub» [31, s. 17].

1920-ci il noyabrın 29-da indiki Ermənistanda Sovet Respublikası yaradıldı. F.Ağasıoğlunun qeyd etdiyi kimi, Miladdan öncə Azərbaycanın batı bölgələrində (Qərbi Azərbaycanda – İbrahim Bayramov) qaşqay, qamər, qızıl, polad, ərmən, ağ hun, kuman, kedar, gögər, qorus, dəli, qapan, azər, şad, zəngi türk tayfalarının izi vardır və onda belə qənaətə gəlinir ki, azər xalqının formalaşmasında mühüm rol oynayan İrəvan mahalı (indiki Ermənistan ərazisi – İbrahim Bayramov) 1920-ci ilə kimi beş min il fasiləsiz azər-türk boylarının ölkəsi olmuşdur [31, s.73].

Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra Ermənistan Sovet Şuralar Cəmiyyəti Mərkəzi İcraiyyə Komitəsi Rəyasət Heyəti 12 iyul 1929-cu ildə «Ermənistan Sovet Şuralar Cəmiyyəti territoriyasının (ərazisini –İbrahim





Bayramov) rayonlaşdırmaq haqqında» qərar qəbul etmişdir. Bu qərar Ermənistan SSR-nin MİK-si Ermənistan Sovet Şuralar Cəmiyyəti işçi-kəndli və qızıl əsgərlər şuralarının VI qurultayının «Ermənistanın SŞC daxilində idarəvi - iqtisad yeni rayonlaşdırma ifa etmək (yaratmaq –İbrahim Bayramov) haqqında qərarı»na əsasən qəbul edilmişdir [35].

İndiki Ermənistan ərazisində rayonlaşdırmanın yeni forması 1930-1931 və 1937-ci illərdə həyata keçirilmişdir. 9 sentyabr 1930-cu ildə indiki Ermənistanda 23 rayon (Ellər, Ağbaba, Abaran, Vedi, Artaşat, Artik, Əştərək, Basarkeçər, Gorus, Quqark, İcevan, Yeni Bayazid, Qafan, Martuni, Meğri, Sərdarabad, Axta, Sisyan, Stepanavan, Talin, Allahverdi, Şəmşəddin, Eçmiədzin), 15 oktyabr 1931- ci ildə 2 rayon (Əzizbəyov, Keşişkənd) yaradılmışdır [89, s. 13-86].

5 dekabr 1936-cı ildə Zaqafqaziya Federasiyasının ləğvi ilə əlaqədar indiki Ermənistanda 31 dekabr 1937-ci ildə əlavə olaraq 8 rayon (Ani, Düzkənd, Qızılqoç, Kalinino, Krasnoselo, Barana, Sevan, Hamamlı) yaradılmışdır [89, s.17, 21, 50, 53, 63, 73, 77, 82]. Bundan başqa, respublikanın ərazisində 15 mart 1972-ci ildə Alagöz (Araqadz), Nairi rayonları təşkil edilmişdir [89, s.27, 71].

1991-ci ilə qədər Ermənistan SSRİ-nin tərkibində oldu və kommunistlər tərəfindən idarə olundu. İğdiroğlu doğru olaraq yazır: «Kavkaz Ermənistanın m.ö. 521-ci ildən 333-cü ilə qədər Pers vilayətinə, m.ö. 215-ci ilə qədər Makedoniyaya bağlı bir ərazi parçası, m.ö. 190-cı ilə qədər Selefkilərə bağlı bir vilayət, m.s. 220- ci ilə qədər Roma və Perslər arasında el dəyişdirən bir yer, V əsrə qədər Sasani, VII əsrdə Bizans, X əsrə qədər Ərəb və Bizansın tabeliyində, XI əsrdən XIX əsrin II yarısına qədər (əslində I yarısına qədər – İbrahim Bayramov) Türkiyənin hakimiyyəti altında və nəhayət, XIX əsrin II yarısmdan (XIX əsrin I yarısından – İbrahim Bayramov) günümüzə qədər (1991-ci ilə qədər - İ.B.) Çar Rusiyası ilə onun xələfi olan Sovet Rusiyasının

himayəsi altında olmuşdur. Hanı müstəqil torpaq, harada milli erməni möhürü» [52, s.37]. 1991-ci ildə isə SSRİ-nin dağılması ilə bağlı Ermənistan da müstəqilliyini elan etdi.

Ermənistan Konstitusiyasına əsasən 1996-cı ildə respublikada rayon inzibati-ərazi bölgüsü ləğv edildi və yeni inzibati-ərazi bölgüsü aparıldı. Yeni inzibati-ərazi bölgüsünə əsasən indiki Ermənistan ərazisində 10 vilayət, eləcə də vilayət hüququnda Yerevan şəhəri qurumu yaradıldı.

Onu da qeyd edək ki, bu inzibati-ərazi bölgüsü XVIII əsrdə fəaliyyət göstərən İrəvan xanlığının inzibati-ərazi bölgüsü ilə eynidir. İnzibati-ərazi bölgüsü sadəcə olaraq mahallar əvəzinə vilayətlər adlandırıldı [49, s.229].

Qərbi Azərbaycan ərazisinə başqa ölkələrdən, dövlətlərdən köçürülərək məskunlaşdırılan ermənilər Rusiyanın himayəsi ilə Azərbaycan torpaqları hesabına indiki Ermənistan dövlətini beləcə yaratdılar.

## İstifadə edilmiş ədəbiyyat

### Azərbaycan dilində

1. Ağasıoğlu F. İrəvan mahalının qədim əhalisi / Azərbaycanlıların Qərbi Azərbaycandan – indiki Ermənistan adlandırılan ərazidəki tarixi etnik torpaqlarından kütləvi surətdə deportasiyasına həsr olunmuş elmi konfransın materialları. Bakı: ADPU, 1998, s. 110-115.

2. Ağasıoğlu F. Azər xalqı (seçmə yazılar). Bakı: Ağrıdağ, 2000, 436 səh.

3. Ağasıoğlu F. Vedibasar mahalının qədim türk tayfaları. "Vedibasar" qəz., Bakı, 27 fevral 2003-cü il.

4. Axundov A.A. Torpağın köksündə tarixin izləri. Bakı: Gənclik, 1983, 183 səh.

5. Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri. Deportasiya. Soyqırımı. Qaçqınlıq. Bakı: Qartal, 1998, 280 səh.

6. Azərbaycan Sovet Ensiklopediyası, 10 clddə, IV c., Bakı: Azərbaycan Sovet Ensiklopediyasının Baş redaksiyası, 1980, 592 səh.





7. Azərbaycan Sovet Ensiklopediyası, 10 cilddə, IV c., Bakı: Azərbaycan Sovet Ensiklopediyasının Baş redaksiyası, 1982, 608 səh.

8. Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək). I c., Bakı: Azəməşr, 1994, 688 səh.

9. Azərbaycan tarixi üzrə qaynaqlar. (prof. S.S.Əliyarov və dos. Y.M.Mahmudovun redaktəsi ilə). Bakı, ADU, 1989, 328 səh.

10. Bayramov A.Ə. "Kitabi-Dədə Qorqud"la bağlı tarixi yer-yurd adlarımız. Pedaqoji Universitet Xəbərləri (humanitar elmlər seriyası) / "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinə həsr olunmuş elmi-nəzəri konfransın materialları. N 1, Bakı: ADPU, 1999, s.45-60.

11. Bayramov İ.M. "Kitabi-Dədə Qorqud"dakı Altuntaxt toponimi // Pedaqoji Universitet Xəbərləri (humanitar elmlər seriyası). Bakı: ADPU, 1999, s.61-68.

12. Bayramov İ.M. Qərbi Azərbaycan türk mənşəli toponimləri. Bakı: Elm, 2002, 696 səh.

13. Bayramov İ.M. "Göyçə gölü" hidronimi haqqında // Pedaqoji Universitet xəbərləri, N 4, Bakı: ADPU, 2002, s.197-204.

14. Bayramov İ.M. Qərbi Azərbaycanın toponimlər sistemi. Bakı: Elm, 2005, 432 səh.

15. Bayramov İ.M. "Kitabi-Dədə Qorqud" kitabında Qərbi Azərbaycan toponimləri və ya "Dədə Qorqud" kitabının coğrafi mühiti haqqında // Dədə Qorqud (elmi-ədəbi toplu), N 2, 2007, s.21-23.

16. Budaqov B.Ə., Qeybullayev Q.Ə. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı: Elm, 1998, 452 səh.

17. Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə. Bakı: Azərnəşr, 1989, 336 səh.

18. Cəlilov F.A. Qədim türk etnonimləri (Qamer "kimmer") / Azərbaycan onomastikası problemlərinə aid konfransın materialları. Bakı: APİ, 1987, s.81-83.

19. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası (Tərtib edəni: Sabir Əsədov: Elmi redaktor: B.Budaqov və Q.Qeybullayev). Bakı: Gənclik, 1995, 464 səh.

20. Erməni terror və quldur birləşmələrinin bəşəriyyətə qarşı cinayətləri (XIX-XX əsrlər). Bakı: Elm, 2003, 367 səh.

21. Əfəndiyev O. Azərbabycan Səfəvilər dövləti. Bakı: Azərnəşr,

1993, 301 səh.
22. Əliyarov S. "Dədəm Qorqud" kitabında "Boriağız", "Şirökürvəz" anlayışları // Türk dilinə dair etimoloji və tarixi-morfoloji tədqiqlər (elmi əsərlərin tematik məcmuəsi). Bakı, 1982, s.10-23.
23. Ələkbərli Ə. Qərbi Azərbaycan abidələri. Bakı: Nurlan, 2007, 272 səh.
24. Əliyev F., Həsənov U. İrəvan xanlığı. Bakı: Azərnəşr, 1997, 224 səh.
25. Əliyev V.H. Zəngəzurda qalan izlərimiz. Bakı: Nurlan, 2004, 295 səh.
26. Əsədov F., Kərimova S. Çarizmi Azərbaycana gətirənlər. Bakı: Gənclik, 1993, 144 səh.
27. Həmzə Vəli. Nüvədi kitabələri. Bakı: Oğuz eli, 1998, 56 səh.
28. İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Bakı: Azərbaycan, 2009, 576 səh.
29. İsmayılov M., Əliyev F. İrəvan xanlığı. "Azərbaycan" qəzeti, Bakı, 30 mart, 12 aprel 1991-ci il.
30. Kərimova S. Çarizmin Azərbaycan işğalında və müstəmləkəçilik siyasətində erməni siyasətbazlarının rolu. Bakı: Azərnəşr, 1995.
31. Köçərli T.Q. Qarabağ (Qarabağ tarixinin saxtalaşdırılması əleyhinə). Bakı: Elm, 2002, 472 səh.
32. Qaraçanta K. Ölümlə üzləşdi xalq. "Vətən səsi" qəzeti, 27 noyabr, 1992.
33. Qeybullayev Q.Ə. Qədim türklər və Ermənistan. Bakı: Azərnəşr, 1992, 140 səh.
34. Qeybullayev Q.Ə. Azərbaycanlıların etnik tarixinə dair. Bakı: Şərq-Qərb, 2010, 96 səh.
35. "Qızıl şəfəq" qəzeti, İrəvan, 1929-cu il 20 avqust.
36. Qurbanov A.M. Cücəkənd yazılı abidələri nədən bəhs edir // Azərbaycan dilçiliyi problemləri. Bakı: ADPU, 1996, s.3-9.
37. Mehdiyev R.Ə. Gorus-2010: Absurd teatrı mövsümü, Bakı: Şərq-Qərb, 2010, 96 səh.
38. Məmmədov İ.S., Əsədov S.C. Ermənistan azərbaycanlıları və onların acı taleyi (qısa tarixi oçerk). Bakı: Azərbaycan, 1992, 72 səh.
39. Məmmədov İ.S. Tarixiniz, torpağımız, taleyimiz. Bakı:





Adiloğlu, 2002, 700 səh.
40. Məmmədov S.A. Qərbi Azərbaycan deportasiyaya məruz qalan azərbaycanlıların qədim diyarıdır / Azərbaycanlıların Qərbi Azərbaycandan – indi Ermənistan adlandırılan ərazidəki tarixi-etnik torpaqlarından kütləvi deportasiyasına həsr olunmuş elmi konfransın materialları. Bakı: ADPU, 1998, s.43-53.
41. Məmmədova F.C. Azərbaycanın (Albaniyanın) siyasi tarixi və tarixi coğrafiyası. Bakı : Azərnəşr, 1993, 262 səh.
42. Məşədiyev Q.İ. "Kitabi-Dədə Qorqud"da Azərbaycanın paleotoponimləri. "Kitabi-Dədə Qorqud" (məqalələr toplusu). Bakı: Elm, 1999, s.228-231.
43. Muradverdiyev A. Zəngəzur- tariximizin yaddaşı. Bakı: Xəzər, 2007, 1024 səh.
44. Mustafa N. Xalqımıza qarşı tarixi cinayət. 1948-1953-cü illər deportasiyası, "Dövran" qəzeti, 6-9 yanvar, 1998.
45. Mustafa N. Cümrünün tarixindən səhifələr // Elturan, 1993, N 1-2, s. 36-37.
46. Nemətova M, Heydərov M. Nadir tapıntı // Elm və həyat, 1977, N 5, s.13-14.
47. Ordubadi M.S. Qanlı illər. 1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi. Bakı: Qarabağa Xalq Yardımı Komitəsi, 1991, 144 səh.
48. Paşayev A. Tarixi hadisələr və erməni uydurmaları. "Yeni fikir" qəzeti, 16 noyabr, 1995-ci il.
49. Rəhimoğlu H. Silinməz adlar, sağalmaz yaralar. Bakı: Azərnəşr, 1997, 260 səh.
50. Rüstəmxanlı S. Ömür kitabı. Bakı: Gənclik, 1989, 368 səh.
51. Seyidov M.Ə. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı: Yazıçı, 1983, 326 səh.
52. Sümər Faruq. Oğuzlar. Bakı: Yazıçı, 1992, 432 səh.
53. Təkləli (Nuriyeva) M. Qərbdən-Şərqə. Ulu türk adlarının dəyişdirilməsi tarixindən. Bakı: Elm, 1999, 243 səh.
54. Vandalizm: tarixi adlara qarşı soyqırımı (tərtib edəni: Nazim Mustafa). Bakı: Təhsil, 2006, 92 səh.
55. Verdiyeva H.Y. XIX əsrin birinci yarısında Şimali Azərbaycanın

əhalisi. Bakı, 1993, 133 səh.

56. Vəlizadə İ., Muradov B. Ermənistan azərbaycanlılarının soyqırımı. Bakı: Gənclik, 1996, 172 səh.

57. Yunusov A. 1988-1989-cu illərdə Ermənistandakı qırğınlar. "Vətən səsi" qəzeti, 24.04.1991.

58. Zeynalov F. Türkologiyanın əsasları. Bakı: Maarif, 1981, 347 səh.

59. Zeynalov Ə. İrəvan ziyalıları. Bakı: Oğuz eli, 1999, 368 səh.

**a. Türk dilində**

60. İğdıroğlu. Torpağın dili olsaydı // Azerbaycan türkleri, Nisan 1990, N 1 s.37-40.

61. Kırzıoğlu Fahrettin M. Kars tarihi, I c., İstanbul: İşil matbaası, 1953, 560 səh.

**i. Rus dilində**

62. Акты собранные Кавказской археографической комиссией: В 12-х т., т.I, Тифлис,1866, с.462-614.

63. Акты собранные Кавказской археографической комиссией: В 12-х т., т.II, Тифлис,1868, с.572-581.

64. Акты собранные Кавказской археографической комиссией: В 12-х т., т.III, Тифлис,1869, с.227-497.

65. Армянская ССР. Административно-территориальное деление.Ереван: Айастан, 1976, 283 с.

66. Асадов С. Миф о «Великой Армении». Баку: Азербайджан, 1999, 280 стр.

67. Договоры Росии с Востоком политические и торговые. Собрал и издал Т.Юзефович, Спб, 1869.

68. Долженко И.В. Хозяйственный русской крестьян восточной Армении конец XIX-нач.XX вв. Ереван: АН Арм.ССР, 1985, 179 стр.

69. Древнетюркский словарь. Л., Наука, 1969, 676 стр.

70. Дьяконов И.М. К методике исследований по этнической истории («Киммерийцы») // Этнические проблемы истории Центральной Азии в древености (2 тысячелетие до н.э.). Труды международной симпозиума по этническим проблемам история





Центральной Азии в древности (2 тысячелетие до н.э.). Душанбе, 17-22 октября 1977 г. М.: Наука, с.90-100.

71. Глинка С. Описание переселения армян аддербиджанских в пределы России, М., 1831, 142 стр.

72. Ереванци С. Джамбр. Памятная книга. Зерцало и сборник всех обстоятельств святого престола. Эчмиадзина и окрестных монастырей. М.: Изд.-во вост.литер. 1958, 400 стр.

73. Записи о переселении армян из Персии в наши области – Грибоедов А.С. Сочинения, т.2, М.,1971, с.339-341.

74. История армянского народа (с древнейщих времен до наших дней), под ред. М.Т.Нерсесяна, Ереван: Луйс, 1980, 287 стр.

75. История народов Северного Кавказа. Конец XVIII века 1917 г., М., 1988.

76. История Азербайджана по документам и публикациям. Баку: Элм, 384 стр.

77. Исмаил-заде Д.И. Русское крестьянство в Закавказье, М., 1982.

78. Кавказский календарь. Тифлис: Типография канцелярии наместника Е.И.В. на Кавказе, 1916, с.95-134.

79. Парсамьян В.А. История армянского народа. Ереван: 1801-1900 гг. кн. I , Аястан, 1972, 398 стр.

80. Суперенская А.В. Как вас завут? Где вы живете? М.: Наука, 1964, 95 стр.

81. Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье. Спб, 1911, 156 стр.

82. Страбон. География. В 17 книгах. Книга XI, Л., 1964, 943 стр.

83. Шопен И.И. Исторический памятник состояния Армянской области в ее присоединения к Российской империи. Спб: Типография Императорской Академии Наук, 1852, 1231 стр.

84. Эзов Г.А. Сношение Петра Великого с армянским народом. Спб, 1898, 468 стр.

**a. Erməni dilində**

85. Qorqodyan Z.Ç. Son yüz ildə Sovet Ermənistanının əhalisi. 1831-1931. İrəvan: Melkonyan fond, 1932, 188 səh.

86. Ermənistan Sovet Ensiklopediyası. 12 cilddə. I c., İrəvan: Ermənistan SSR Elmlər Akademiyası, 1974, 697 səh.
87. Ermənistan Sovet Ensiklopediyası. 12 cilddə. III c., İrəvan: Ermənistan SSR Elmlər Akademiyası, 1977, 550 səh.
88. Ermənistan Sovet Ensiklopediyası. 12 cilddə. V c., İrəvan: Ermənistan SSR Elmlər Akademiyası, 1979, 728 səh.
89. Ermənistan SSR. İnzibati ərazi bölgüsü. İrəvan: Hayastan, 1976, 283 səh.
90. Ermənistan və ətraf vilayətlərin toponimlər lüğəti. Ic., İrəvan Universiteti, 1986, 991 səh.
91. Hakopyan Q.X. Ermənistanın tarixi coğrafiyası (oçerklər). II nəşri, İrəvan: Hayastan, 1986, 508 səh.





## ƏZİZ ƏLƏKBƏRLİ, QƏRBİ AZƏRBAYCAN ABİDƏLƏRİ

**Bakı, "Ağrıdağ", 2006, 288 səh.**

### Tariximizi yaşadan abidələrimiz, abidələrdə yaşayan tariximiz

*(səh. 1-21)*

Qərbi Azərbaycan (indiki «Ermənistan») ərazisi Bütöv Azərbaycanın tarixinə görə ən qədim, coğrafı-siyasi mövqeyinə görə ən strateji, təbiətinə görə ən zəngin bölgələrindən biridir.

Keçmişdə Azərbaycanın şimalı ilə cənubunu, bütün Qafqazla Yaxın Şərqi birləşdirən mühüm karvan yollarının üstündə yerləşən, hazırda isə şimaldan Gürcüstan, şərqdən və cənub-şərqdən Azərbaycan Respublikası, qərbdən Türkiyə, cənubdan İranla həmsərhəd olmaqla 29,8 min km$^2$ sahəni əhatə edən bu diyar çağdaş dünyada «Ermənistan Respublikası» adı ilə erməni-hay dövləti kimi tanınsa da, onun ərazisi son qarışına qədər qədim Türk-Oğuz yurdu, tarixi Azərbaycan torpağıdır.

Bunu həmin ərazidəki saysız-hesabsız yeraltı və yerüstü maddi mədəniyyət nümunələri - qədim yaşayış məskənləri, nekropollar, kurqanlar, qala, saray və istehkam qalıqları, karvansaraylar, körpülər, qəbirüstü sənduqələr, xaçdaşlar, at-qoç heykəlləri, məbəd, kilsə, məscid, pir və ocaqlar da təsdiq edir.

Çoxsaylı maddi mədəniyyət nümunələrinin bir hissəsi tarix boyu arasıkəsilməz hərbi yürüşlər, müharibələr nəticəsində, xüsusilə zaman-zaman bu yerlərə köçürülüb gətirilən, tarixi torpaqlarımızda isti yuva tapan ermənilər tərəfindən məhv edilsə də, digər hissəsi isə erməniləşdirilərək mənimsənilsə də, daşlara yazılmış yaddaşı pozmaq və ya dəyişmək yadellilərə heç də

həmişə nəsib olmamışdır. E. ə. V-II minilliklərə aid Soyuqbulaq və Qarakilsə qayaüstü təsvirləri ilə Qobustan və Altaydakı qayaüstü təsvirlər arasındakı oxşarlıq, Nüvədi-Qarqadaşı yazıları ilə Orxon-Yenisey kitabələrinin dil və əlifba eyniliyi, qədim qala, saray və məbədlərin müxtəlif tarixi mənbələrdə əbədiləşən adları bu ərazilərin ən qədim dövrlərdən üzü bəri Türk-Oğuz boylarının ana yurdu olduğuna heç bir şübhə yeri qoymur.

Qərbi Azərbaycan ərazisinin qədim Türk tarixi ilə bağlı bilgilərə qədim Asur və Urartu mixi yazılarında da tez-tez rast gəlirik. Öncə xatırladaq ki, e. ə. 1200-cü ilə aid Asur yazılarında adı çəkilən türksoylu Xarxar//Qarqar ölkəsinə həm də indiki Qərbi Azərbaycan ərazisi daxil idi. Təsadüfı deyil ki, Xarxar// Qarqar//Gər- gər//Herher variantlarında günümüzə qədər gəlib çıxan bu etnonimin izləri bu gün Bütöv Azərbaycan, o cümlədən Qərbi Azərbaycan ərazisində qeydə alınmış yüzlərlə toponimdə yaşamaqdadır. Təkcə elə İrəvan xanlığı tərkibinə daxil olan 15 mahaldan 2-si (Qarnibasar və Qarbibasar) bu etnosun adını daşımışdır.

Urartu mixi yazılarında Qərbi Azərbaycan ərazisinə dair məlumatlara e. ə. VIII yüzilin əvvəllərindən başlayaraq rast gəlirik. Belə ki, e. ə. 782-ci ildə Urartu çarı I Argişti Araz çayını keçərək mənbələrdə «Az ölkəsi» adlanan indiki «Ermənistan» ərazisinə daxil olmuş, Göyçə gölünə qədərki böyük bir ərazini işğal etmiş, İrəvan şəhəri yerində Qanlıtəpə adlanan yüksəklikdə İrpuni//Erebuni (əslində «Ərlər ölkəsi» anlamında Er-bi-uni) və Sərdarabad mahalı ərazisində Ar- giştihinili//Argiştixinili (Argişti-han-eli) qalalarını tikdirmişdir. Bütün bunlar barədə həmin ərazilərdən tapılmış Urartu kitabələrində aydın bəhs edilmişdir.

Lakin Urartu çarları II Argiştinin (Ar-quz-tunun), onun oğlu II Sardurun (As-ar-turun), onun oğlu I Rusanın (Ar-usun) indiki Cənubi Qafqaz ərazisinə yürüşləri və bu ərazilərin böyük





bir hissəsini işğalı nəticəsində şimala çəkilən bəzi Azərbaycan boyları bir müddət sonra möhtəşəm yürüşlə geri qayıtmış, tarixə Qamərlər adı ilə düşən həmin boylar e. ə. 715-ci ildə I Rusanın qoşunlarını darmadağın edərək Cənubi Qafqazdan çıxarmışlar. Bununla belə, bir qədər sonra Qamərlərin ardınca Cənubi Qafqaza enən Sak türkləri öz Qamər soydaşlarının burada, xüsusilə Qərbi Azərbaycan ərazisində şəriksiz hökmranlığına imkan verməmiş, onları Arazın cənubuna sıxışdırmış və Cənubi Qafqaz ərazisində özlərinin dövlət qurumunu yaratmışlar. «Bibliya»da Aşkenaz, arman mənbələrində Aşxanas adları ilə qeydə alınan bu dövlətin - Sak//Skif//İskit//İşquz//İç Oğuz çarlığının başında. Azkan adlı hökmdar durmuşdur.

Cənubi Qafqazda türk boylarının bir-birini bu cür əvəz etməsi ardıcıllığı V yüzil arman tarixçisi Moisey Xorenlinin qələmə aldığı armanların nəsil şəcərəsi ilə də üst-üstə düşür: Nuh-Yafəs-Qamər- Tür-Turqam-Azkan.

Armaniya ölkə adının tarix səhnəsinə gəlişi də məhz bu dövrə - Urartu dövlətinin süqutu, onun ərazilərinə Qamər-Sak boylarının qayıdışı dövrünə təsadüf edir. Artıq Urartunun böyük bir hissəsində, xüsusilə şimal torpaqlarında hegemonluq Qamər-Sak boylarının əlində idi və bu vaxt həmin ərazilərdə Arman dövlətinin yaranmasında həmin boyların həlledici rolu olmuşdur. Lakin Armaniyanın təşkilində Qamər-Sak boyları çoxluq təşkil etsələr də, üstünlük yerli - Urartu (Bian eli) türk, xüsusilə Ərlər//Ərər (Qarqar//Gərgər) boylarında qalmaqda idi. Ölkənin Armaniya adına gəldikdə isə, bu da Ərlər anlamındakı Urartu (Ara- rat//Ərərat) adının həmin anlamda yeni ifadə formasından başqa bir şey deyildi.

Nəhayət, Makedoniyalı İsgəndərin Şərqə yürüşü ilə bağlı e. ə. IV yüzilin 2-ci yarısında Sak padşahlığı süqut edir və bu nəhəng Türk dövlətinin şimalı ilə cənubu arasında kəskin ayrılma baş verir, şimalda və cənubda bir sıra yeni Türk dövlətləri

(Atropatena, Albaniya, Sisakan, Sakasena və s.) yaranır. Bu vaxt Armaniya yunanların işğalı altına keçir, e. ə. 321-ci ildə Selevkilər dövlətinin tərkibinə qatılır. Həmin tarixdən e. e. 202-ci ilə qədər Armaniyada türksoylu Oruzlar//Oğuzlar (Sak boyundan) sülaləsi, e. ə. 202-ci ildən etibarən isə əslən midiyalı Artaşlar (Qamər boyundan) sülaləsi hakimiyyətdə olur. Oruzlar sülaləsindən sonuncu hökmdar Artabası Artaşlar sülaləsindən Artaş əvəz edir.

Selevkilər dövlətinin zəifləməsindən istifadə edən Artaş e.ə. 183-cü ildə Armaniya türk dövlətinin müstəqilliyini elan edir, e. ə. 165-ci ildə isə ölkənin hüdudlarını bütün indiki «Ermənistan» boyu genişləndirir, Alban çarının qızı ilə evlənir, Araz çayının sahilində Artaşad şəhərini saldırır, ölkənin paytaxtını bura köçürür. Bununla da Böyük Armaniyanın bünövrəsini qoymuş olur. Artaşın hakimiyyətini oğlu Artabas, Artabası isə qardaşı II Tiqran//Dikran əvəz edir.

Xüsusilə II Tiqran Armaniyanı daha da gücləndirir, bu işdə o, qonşu soydaş dövlətlərin gücünə arxalanır. Məsələn, Artaşad şəhəri yaxınlığında Roma qüvvələrini darmadağın edərkən II Tiqranın əsas köməyi Atropatena qoşunları olur. Roma Senatı Lukullu II Tiqranın üstünə göndərəndə isə nəinki atropatenalılar, həm də madaylar, albanlar və Arazsahili digər türk boyları Arman sərkərdəsinin köməyinə çatırlar. Lakin e. ə. 166-cı ildə II Tiqranın Roma ordusu tərəfindən məğlub edilməsindən sonra Böyük Armaniya dağılmağa başlayır. Bu hadisə Armaniyanın öz cənub torpaqlarından şimala - Araz çayına doğru çəkilməsini daha da sürətləndirir. Onun cənub torpaqları yavaş-yavaş digər türk dövlətinin - Midiyanın tərkibinə qatılır.

Plutarxın «romalılar Midiyanı Armaniyadan ayıran Araz çayına çatdılar» qeydi təsdiq edir ki, e. ə. 1-ci yüzilin sonlarında Armaniya artıq Arazın sol sahilinə - indiki Qərbi Azərbaycan ərazisinə sığınmış, Midiya isə Araz çayına qədər gəlib çıxmışdı.

Eramızın 51-ci ilində Armaniya taxtında Qamər boyundan





olan Artaşlar sülaləsini yenidən Sak boyları - Parfiya Arsaklar sülaləsindən hökmdar Vologezin (Valarsakın) qardaşı, Armaniya Arsaklar sülaləsinin banisi I Turadat (ermənicə Tiridat// Trdat) əyləşir. Turadatı taxtda oğlu Sanatürk, onu isə oğlu Valarsak əvəz edir. Arsaklar sülaləsi eramızın IV yüzilinin sonlarına qədər Armaniyada hakimiyyətdə olur.

Göründüyü kimi, bura qədər nəzərdən keçirdiyimiz tarixi dövrdə - ən qədim zamanlardan eramızın IV yüzilinə qədər Qərbi Azərbaycanda müxtəlif Türk boyları yaşamış, hakimiyyət ancaq onlara məxsus olmuşdur və təbii ki, həmin ərazilərdəki bu tarixi dövrə aid bütün maddi mədəniyyət nümunələrinin Azər-Türk boylarına məxsus olduğu da etiraf edilməli, Azər-Türk babalarımızın tarixi-mənəvi haqqı özlərinə qaytarılmalıdır.

Eramızın IV yüzilinə qədər Qərbi Azərbaycan ərazisində yaşayan əhalinin - Azər-Türk boylarının dini etiqadı, əsasən, atəşpərəstlik və tanrıçılıq olduğundan həmin dövrdə burada ucaldılan dini məbədlərdə uyğun üslublar özünə geniş yer almışdır.

Ən qədim dövrlərdən xristianlığa qədərki mərhələ kimi ayırdığımız bu dövr Qərbi Azərbaycan abidələri sırasında Zəngəzur mahalının Qarakilsə rayonu ərazisindəki e. ə. II minilliyə aid Qoşundaş tikili qalıqları, e. ə. VIII yüzildə İrəvan şəhəri yaxınlığındakı Qırmızıtəpə adlı yüksəklikdə ucaldılmış Teyşebaini, İrəvan şəhərinin yerində Qanlıtəpə adlı yüksəklikdə salınmış Erebuni, Göyçə mahalının Qaranlıq rayonunun Kolagirən kəndinin kənarındakı Teyşeba qalaları, Zəngəzur mahalının Meğri rayonunun Nüvədi kəndində aşkar edilmiş eradan əvvəlki minilliklərə aid Qarqadaşı kitabələri, Gərnibasar mahalında e. ə. III-II yüzillərdə inşa edilmiş Gərni qalası və həmin qalada eramızın I yüzilində Arman hökmdarı **I Turadat** tərəfindən tikilmiş, «Təxti-Turadat» adı ilə tarixə düşən saray xüsusi yer tutur.

IV yüzilliyin əvvəllərində, daha dəqiq desək, 301-ci ildə Armaniya Arsaklar sülaləsindən hökmdar III Turadat xristianlığı Armaniyanın rəsmi dini elan edir. Əslində, Armaniyada xristianlığın qəbulu tarixi zərurətdən irəli gəlirdi. Belə ki, Parfiyada hakimiyyətdə olan Arsaklar sülaləsi ilə Armaniya Arsakları qohum sülalələr olduğundan 224-cü ildə Sasanilər Parfiya Arsaklarını devirib hakimiyyətə gəldikdən sonra Armaniya Arsaklarının hökmdarı I Xosrov (217-238) Sasanilərin hakimiyyətini tanımaqdan imtina edir. Bununla da, Armaniya türk Arsakları ilə Parfiya fars Sasaniləri arasında aramsız müharibələr başlayır. Bu müharibələrdə Armaniya Arsakları qohum və soydaş Albaniya Arsaklarının köməyinə arxalanır. Lakin farsların hücumları ara vermir. Qatı atəşpərəst olan Sasanilər Armaniya əhalisinin atəşpərəst olmasından da məharətlə istifadə edir. Belə bir çətin məqamda xristianlıq Armaniyada Sasani işğalçılarına qarşı müqavimət faktoru kimi ortaya çıxır. Xristianlığı rəsmi dövlət dini kimi qəbul edən Armaniya hökmdarları Sasanilərə qarşı müharibəni hər iki - həm etnik (türk-fars), həm də dini (atəşpərəst-xristian) müstəvi üzərində aparmaq, bu müharibəni ümumxalq müharibəsinə çevirmək imkanı qazanırlar. Bundan sonra Armaniyanın Sasanilərə müqaviməti daha çox güclənir.

Ölkədə xristianlığın yayılmasına daha öncəki məbədlərin dağıdılması ilə başlayan Maarifçi Qriqori ilk addım olaraq Armaniyanın ən böyük və nüfuzlu ibadətgahı olan ölkə paytaxtı Vağarşabaddakı məşhur atəşpərəstlik məbədini daş hasara aldırır (guya bu yerdə onun gözünə Allah görsənmişdir) və az sonra (303-cü ildə) Qərbi Azərbaycan ərazisində ilk xristian məbədini ucaltdırır. Dünya ermənilərinin bugünkü dini mərkəzi olan Üçkilsə (Eçmiədzin) kilsəsinin əsası belə qoyulur.

Bundan sonra ölkədəki digər atəşpərəstlik məbədlərinin sürətlə, ucdantutma və vəhşicəsinə dağıdılmasına, yerində xristian məbədlərinin tikilməsinə və ya əvvəlki məbədlərin





xristianlaşdırılmasına başlanılır.

Xristianlığın Armaniya ərazisində sürətlə yayılması, qısa vaxtda geniş vüsət tapması və burada heyrətamiz dərəcədə çoxlu sayda dini məbədlərin ucaldılması bəzən tədqiqatçılarda təəccüb doğursa da, əslində, burada təəccüblü heç nə yoxdur. Məsələ ondadır ki, bir tərəfdən Sasanilərin Armaniyaya qarşı yeritdiyi düşmənçilik siyasəti nəticəsində Armaniyada atəşpərəstliyin dayaqları sarsılmış, digər tərəfdən Armaniya əhalisinin müxtəlif türk boylarından ibarət olduğunu nəzərə alan Maarifçi Qriqori bu boyların, xüsusilə, tanrıçılıqdan irəli gələn əski inam və inanclarını böyük ustalıqla xristianlığa uyğunlaşdırır, başqa sözlə, mövcud məzmunu (tanrıçılıq) yeni formada (xristianlıq) xalqa təqdim edirdi. Özü də türksoylu olduğundan Maarifçi Qriqori bu işi böyük həvəs və ilhamla, içindən gələn daxili bir inamla həyata keçirir, yeni dində öz əski etiqadını görən xalq isə onu məmnuniyyətlə qəbul edirdi.

Bütün bu cəhətlərinə görə az sonra Albaniya hökmdarı Urnayr xristianlığı Albaniyanın da rəsmi dövlət dini elan edir. Bu, Cənubi Qafqazdakı iki soydaş və müttəfiq dövləti - Armaniya ilə Albaniyanı daha da yaxınlaşdırmaq, Sasani işğalçılarına qarşı birgə mübarizə aparmaq yolunda irəliyə doğru atılmış mühüm addım olur.

Beləliklə, Qərbi Azərbaycan ərazisində xristianlığın dövlət dini kimi mövcud olduğu IV-VII yüzillərdə ölkədə çoxlu xristian məbədləri - vəng və kilsələr ucaldılmışdır. Xristianlıq Bizansdan əxz edildiyindən həmin dövr xristian məbədlərinin tikintisində də Bizans üslubu xüsusi rol oynayırdı. Bununla belə qriqorianlıq türk- tanrıçılıq etiqadı üzərində qurulduğundan qriqorian-alban məbədlərində də türklərin əski etiqadlarının simvol, damğa və işarələri öz geniş əksini tapmışdır.

Karbibasar mahalında Üçkilsə, Gərnibasar mahalında Dvin, Göyçə mahalında Sivəng, Zəngəzur mahalında Tatev, Talın

mahalında Uzunlar, Vedibasar mahalında Aselişad//Xorvirab, Qırxbulaq mahalında Avan, Putqni, Əştərək rayonunda Pirəgən, Qırmızıvəng, Qarqavəng və onlarla başqa məbədlər bu dövrün əvəzsiz xristian-türk abidələridir. Lakin, təəssüf ki, bu abidələr də mütəxəssislərimiz tərəfindən, demək olar ki, araşdırılmamışdır.

Armaniyanın ərəblər tərəfindən işğalı ölkənin təkcə sosial-siyasi yox, həm də mənəvi həyatında köklü dəyişikliklərə səbəb olur. Ölkəni kütləvi şəkildə islamlaşdırmaq və ərəbləşdirmək siyasəti yeridən ərəblər Armaniya və Albaniya əhalisinin bir hissəsinin (xüsusilə VII yüzilin əvvəllərində ölkə boyu yayılmış Xəzərlərin) qeyri-xristian olmasını əsas götürərək onları dinsiz elan edib, bəzən xristian arman türklərini də onlara qatıb, ölkənin türk əhalisini ucdantutma zorla müsəlmanlaşdırmağa başlayırlar. «Qılınc müsəlmanı» ifadəsi də o vaxtlar yaranır.

Tezliklə ərəblər dini toxunulmazlıq verdikləri xristian armanları öz tərəflərinə çəkməklə ölkə əhalisinin Türk birliyini parçalamağa müvəffəq olurlar. İslamı qəbul etmiş arman türkləri artıq müsəlman adlanır, arman (ərəb tələffüzündə ərmən) adı isə ancaq xristian armanlara şamil edilir. Ölkədə islam möhkəmləndikcə, kütləviləşdikcə xristian armanların da sayı azalmağa, dini icma, kilsə icması səviyyəsi ilə məhdudlaşmağa başlayır. Bölgəyə yeni Türk - Səlcuq boylarının axını Armaniyada xristianlığa növbəti zərbəni vurur. Təsadüfi deyil ki, 301-ci ildə Maarifçi Qriqori tərəfindən əsası qoyulan və 452-ci ilə qədər Üçkilsə, 452-ci ildən Dvin şəhərində fəaliyyət göstərən arman xristian kafedrası artıq X yüzildə burada öz dayaqlarını itirdiyindən Ani şəhərinə köçürülür, 1113- cü ilə qədər Anidə, 1113-cü ildən 1294-cü ilə qədər Fərhad çayı sahilində, 1294-cü ildən 1441-ci ilə qədər Kiçik Asiyada - Sis şəhərində fəaliyyətini davam etdirir.

X yüzildən sonra ayrı-ayrı kilsələrdə kiçik icma şəklində qalan arman-türk din xadimləri artıq cəmiyyətdən təcrid olunaraq özlərini bütövlükdə kilsə xidmətinə həsr edirlər. Bu, onları ayrıca





bir sosial zümrəyə çevirir. Yalnız Arsak (Qarabağ) və Siyunik (Dərələyəz və Zəngəzur) türkləri öz xristianlıqlarını daha bir neçə yüz il qoruyub saxlamaqda davam edirlər.

1431-ci ildə Qriqor Makulu adlı bir nəfər İran ermənisi Ağqoyunlu Yaqub padşahın nümayəndəsi Əmir Rüstəmdən 525 dinara Vağarşabad kəndinin bir hissəsini və bir neçə ətraf kəndlərin ərazilərini satın alır. 1441-ci ildə dini kafedra Sisdən Vağarşabada köçürülür. X yüzilə qədər arman-türk xristian kilsəsi kimi mövcud olan kafedra artıq 1441-ci ildə hay-erməni xristian kilsəsi kimi geri qayıdır. 1443-cü ildə həmin Qriqor Makulu Səid bəydən 8040 dinara Vağarşabad (Üçkilsə) kəndinin qalan torpaqlarını da satın alır və özü də həmin il dünya haylarının katolikosu seçilərək 1461-ci ilə qədər bu vəzifədə çalışır. Həmin vaxtdan Üçkilsə (Eçmiədzin) katolikoslarının monastır ətrafındakı türk torpaqlarını, kəndlərini pulla alıb monastırın tərkibinə qatması bir ənənəyə çevrilir.

Beləliklə, 1431-ci ilə qədər Cənubi Qafqazda heç bir ciddi dayağı olmayan, bu ərazilərə Yaxın Şərqdən ancaq tacir və mövsümi işçilər kimi gəlib-gedən hay-ermənilər həmin il bu torpaqda möhkəmlənmək üçün ilk addımlarını atırlar. Bu, armanların - Armaniya ərazisində yaşayan xristian türklərin islamlaşmasının, demək olar ki, başa çatdığı, xristian məbədlərinin əksəriyyətinin sahibsiz qalıb dağıldığı, bəzi kilsələrdə isə tək-tək arman keşişlərinin tərki-dünyalığa qapıldığı bir dövrə təsadüf edir. Yerli türk əhali arasında xristianlığın nisbətən daha uzun müddət yaşadığı Dağlıq Qarabağ və Zəngəzur diyarlarında da xristianlıq tənəzzül etməkdə idi. Belə bir həlledici tarixi dövrdə xristian kafedrasının Cənubi Qafqaza köçürülməsi bir tərəfdən bu regionda xristianlığın tamam məhv olmasının qarşısını aldısa, digər tərəfdən minillik tarixə malik türk-xristian mədəniyyətinin yadelli haylar tərəfindən mənimsənilməsinin bünövrəsini qoydu. Hələ də xristianlığını qoruyub saxlamış

çox az sayda arman//ərmən və alban türklərinin (əsasən din xadimlərinin) ermənilaşməsi - haylaşması da bu dövrə təsadüf edir. İlk vaxtlar hay-erməni keşişlərinin Cənubi Qafqaza tək-tək axışıb gəlməsinə loyal münasibət göstərən yerli xan və bəylər arasında bu təhlükəni hamıdan öncə hiss edən və həyəcan təbili çalanlardan biri, bəlkə də birincisi Rəvanqulu xan olmuşdur. Şah İsmayıl tərəfindən İrəvan qalabəyi və Çuxur-Sakat bəylərbəyi təyin olunan Rəvanqulu xan 1519-cu ildə Şah İsmayıla yazdığı məktubunda: «Son illər, müşahidələrimə görə, əhalinin bir qismi, yəni Beynənnəhreyndən (İkiçayarasından – Əziz Əkbərli) Van gölü sahillərinə, oradan da beş-beş, on-on Qafa, bizim torpaqlara gələn ermənilər, sazişdəkilər kimi, kəsbkarlıqla, xırda ticarətlə, bənna və dülgərliklə güzəran sürüb fərağat oturmaqdansa, tabeliyimdəki torpaqlarda yerdəyişmə vurnuxmalarına başlamış, geniş oturaq həyat iddialarına qapılmışlar. İndi Üçkilsə kəndində əyləşən dünya ermənilərinin katolikosu II Qriqori zünnarına xas olmayan fəaliyyəti ilə və təxribatçılıq ənənələri ilə idarəmizi müşküllərə məruz qoyub. Katolikos erməni dini mərkəzinin vəqf sərmayəsi hesabına öz soydaşlarının türk kəndləri kənarında iki-üç ailə olmaqla oturaq məskunlaşmasını maliyyələşdirir, onlara kiçik kilsələr tikdirir, beləliklə, bu tayfanın Qafda qədim mövcudiyyəti təsəvvürünü yaradır ki, bunlar istiqbalda nəsillərimizə başağrısı verə biləcək fəsadlar törənməsinə zəmin yarada bilər. İndi zikr olunan ərazidə elə bir kəndimiz, obamız qalmayıb ki, orada üç yad ailə işığı yanmasın. İsmətsizlik əxlaqına qurşanmış hayk qızgəlinləri türk dəliqanlı cavanlarına sırınmağa can atır, könüllər ovsundurur, oğuzlara ərə getməyə, başqa sözlə, mülkümüzə, malımıza şərik çıxmağa çalışırlar», - deyərək xəbərdarlıq edirdi. «Qarışıq nikahların vüsəti məni qorxudur, şahım!» - deyən Rəvanqulu xan «cəmi on beş min gəlməni» mövsümi işçilər kimi qisim-qisim vətənin dişarına çıxarmaq üçün şahdan səlahiyyət istəyirdi.





Göründüyü kimi, məktubda bölgəyə gəlmiş 15 min yadellidən - hay-ermənidən və onların İrəvan Çuxurundakı türk torpaqlarında murdar əməllərindən bəhs olunur. Lakin XIX yüzildə Qərbi Azərbaycan ərazisi Rusiya imperiyası tərəfindən işğal olunduqdan sonra 1829-1832-ci illərdə orada aparılan ilk siyahıyaalma Şah İsmayıl dövründə ermənilərin torpaqlarımızdakı murdar əməllərinin qarşısının qismən alındığını söyləməyə əsas verir. Belə ki, 1829-1832-ci illər siyahıyaalmasını aparan rus məmuru İ.Şopen erməniləri «yerli» (rus işğalına qədər) və «gəlmə» (rus işğalından sonra) deyə iki qrupa ayırır, «yerli» ermənilərin Asuriyadan köçürülüb gətirilmə olduqlarını yazır və həmin «yerli» ermənilərin dəqiq statistikasnı verir: İrəvan əyalətində 3.498 ailədə 20.073 nəfər, Naxçıvan əyalətində 530 ailədə 2.690 nəfər, Ordubad dairəsində 400 ailədə 2.388 nəfər. Cəmi 4.428 ailədə 25.151 nəfər.

Beləliklə, bölgənin ümumi əhalisinin (həmin statistikada əhalinin ümumi sayı 31.201 ailədə 164.450 nəfərdir) cüzi bir hissəsini, həm də gündəlik qara işlərdə çalışan, qismən də ticarətlə məşğul olan hissəsini təşkil edən ermənilərin həmin tarixə qədərki dövrdə Qərbi Azərbaycan ərazisində hər hansı etnik mövqeyindən danışmaq qətiyyən mümkün deyil.

Buna görə də XV-XVI yüzillərə qədər Qərbi Azərbaycan ərazisində mövcud olan maddi mədəniyyət nümunələrinin bu gün dünya ictimaiyyətinə erməni-hay abidələri kimi təqdim olunmasının heç bir elmi əsası yoxdur, hətta adi məntiqdən belə kənardır.

İrəvan və Naxçıvan xanlıqlarının ruslar tərəfindən işğalından və 1828-ci il Türkmənçay bağlaşmasından sonra isə vəziyyət kökündən dəyişir. Bu ərazilərdə İran və Türkiyəyə qarşı erməni-xristian bufer dövləti yaratmaq məqsədilə Rusiya bu torpaqlara 1828-1829-cu illərdə İrandan, 1830-cu ildə Türkiyədən çoxlu erməni köçürüb gətirir. Həmin köçürmələr sonrakı onilliklərdə daha intensiv şəkil alır. Ermənilərin bölgəyə gətirilməsi ilə

bərabər yerli türk-azərbaycanlı əhali də sıxışdırılıb çıxarılır, çox vaxt da bu, dövlət səviyyəsində həyata keçirilir.

Ermənilərin Cənubi Qafqazda yerləşdirilməsini onilliklər üzrə qruplaşdıran N.Şavrov 1911-ci ildə nəşr etdirdiyi «Cənubi Qafqazda rus işinə yeni təhlükə» əsərində öz hesablamalarına belə yekun vurur: «XX yüzilin başlanğıcında Cənubi Qafqazda yaşayan 1.300.000 ermənininin bir milyondan artığı bu rayonun yerli əhalisi deyildir, onlar buraya bizim (rusların - Ə.Ə.) tərəfimizdən köçürülmüşlər.»

Ermənilərin Cənubi Qafqazda, o cümlədən Qərbi Azərbaycan ərazisindəki tarixi türk-xristian abidələrinə sahib çıxması da məhz XIX yüzildə geniş vüsət alır. Bununla kifayətlənməyən ermənilər özününküləşdirə bilmədikləri türk abidələrini yerlə-yeksan edir, izini itirməyə çalışırlar. Buna görə də bütün orta yüzillər tarixi mənbələrində «məscid və minarələr şəhəri» kimi qeydə alınan İrəvan şəhərində bu gün yalnız bir məscid qalmaqdadır ki, onu da ermənilər dünya ictimaiyyətinə fars məscidi kimi təqdim edirlər. Neçə-neçə rus generalının başını aşağı endirən, rusların 25 illik fasiləsiz hücumlarına mətanətlə sinə gərən məşhur İrəvan qalasının bu gün izi-tozu yoxdur. Bütün Avropa səyyahlarını heyrət içində qoyan möhtəşəm Sərdar Sarayı, onun Güzgülü salonu artıq bir nağıldır.

1832-ci ildə İ.Şopen İrəvan şəhərində 12 məscid qeydə almışdı: 1) Qala məscidi, 2) Şah Abbas məscidi, 3) Zal xan məscidi, 4) Novruzəli bəy məscidi, 5) Sərtib xan məscidi, 6) Hüseynəli xan məscidi, 7) Hacı İmamverdi məscidi, 8) Hacı Cəfər məscidi və daha dörd məscidin xarabalıqları. İndi nə o məscidlər var, nə də İrəvan adlı o qədim Türk şəhərində, Qərbi Azərbaycan adlı o qədim Türk diyarında bir nəfər yerli - Türk əhali. 1905, 1918-1920, 1948-1953, 1988-ci illərdə Qərbi Azərbaycan türklərinə qarşı həyata keçirilən soyqırımları bu bölgəni bütünlüklə yadelli ermənilərin işğalı altına salmışdı.



# QƏRBİ AZƏRBAYCANIN AĞBABA MAHALI








# Qərbi Azərbaycanın Ağbaba və Şörəyel nahiyələrinin ərazisində yerləşən Amasiya rayonu




Ermənistan Respublikasının şimal-qərbində inzibati rayon 1930-cu il sentyabrın 9-da yaradılmışdır. Ərazisi 614 km$^2$ –dir (bəzi mənbələrdə 608 km$^2$ göstərilir). 1920-ci ilə kimi İrəvan quberniyasının Aleksandropol (1837-ci ilədək Gümrü, 1924-cü ildən Leninakan) qəzasının Ağbaba nahiyəsinə, 1920-1930-cu

illərdə isə Ermənistan SSR-nin Aleksandropol qəzasına (1924-cü ildən Leninakan) daxil idi. Mərkəzi Amasiya şəhər tipli qəsəbəsidir. Rayonun ərazisi Türkiyə, Gürcüstan Respublikası və Ermənistan Respublikasının Axuryan (keçmiş Düzkənd) və Qukasyan (keçmiş Qızılqoç) rayonları ilə həmsərhəddir. Rayon mərkəzindən İrəvan şəhərinə (indi Yerevan) 148 km-dir. Ən yaxın dəmiryol dayanacağı 28 km məsafədə yerləşən Leninakan (keçmiş Gümrü) stansiyasıdır.

1. 1988-ci ilə kimi Amasiya rayonunun ərazisində mövcud olmuş türk kəndləri:

| | | |
|---|---|---|
| 2. Alakilsə | (1949-cu ildən Baytar) | (1988-ci ildə) |
| 3. Amasiya | (Hamasiya) | (1988-ci ildə) |
| 4. Baxşalı | | (1918-ci ildə) |
| 5. Balıqlı | | (1988-ci ildə) |
| 6. Bozqala | (Şindilər) | (1940-cı illərdə) |
| 7. Böyük Təpəköy | (Təpəköy) | (1988-ci ildə) |
| 8. Çaxmax (Çaxmaq) | | (1988-ci ildə) |
| 9. Çaybasar | (1946-cı illədək İlanlı) | (1988-ci ildə) |
| 10. Çivinli | Düzkənd | (1988-ci ildə) |
| 11. Daşkörpü | | (1988-ci ildə) |
| 12. Düzkənd | (Aşağı və Yuxarı Düzkənd) | (1988-ci ildə) |
| 13. Ellərkənd | (1945-ci illədək Elləroyuğu) | (1988-ci ildə) |
| 14. Əzizbəyov | (1939-cu illədək Qaraçanta) | (1988-ci ildə) |
| 15. Göllü(Güllü) | | (1988-ci ildə) |
| 16. Güllübulaq | | (1988-ci ildə) |
| 17. Güllücə | | (1988-ci ildə) |
| 18. Xançallı | | (1940-cı illərdə) |
| 19. İbiş | (Ayıçınqılı) | (1988-ci ildə) |
| 20. İlli | (İyli Qarakilsə) | (1988-ci ildə) |
| 21. Kiçik Şiştəpə | (1918-ci ildə) | |





| | | |
|---|---|---|
| 22. Kiçik Təpəköy | (Təpəköy) | (1930-cu illərdə) |
| 23. Qarabulaq | (Ağbaba) | (1988-ci ildə) |
| 24. Qaraməmməd | (Meğraşad) | (1918-ci ildə) |
| 25. Qızıldaş | (Yeni Qızıldaş) | (1948-1950-ci illərdə) |
| 26. Qızılkilsə | (Qarapapaq) | (1940-cı illərdə) |
| 27. Quzukənd | (1940-cı ilə kimi Hozukənd) | (1988-ci ildə) |
| 28. Mağaracıq | (Mağaracıqcan) | (1988-ci ildə) |
| 29. Mumuxan | | (1918-ci ildə) |
| 30. Mustuqlu | | (1918-ci ildə) |
| 31. Oxçuoğlu | | (1988-ci ildə) |
| 32. Öksüz | | (1988-ci ildə) |
| 33. Ördəkli | | (1918-ci ildə) |
| 34. Seldağılan | (Seyidoğlan) | (1918-ci ildə) |
| 35. Sultanabad | (Şurabad-1959-cu ildən) | (1988-ci ildə) |
| 36. Təpəköy | | (1988-ci ildə) |
| 37. Təzəkənd | | (1918-ci ildə) |
| 38. Yeni yol | (1935-ci ilə kimi Qaranamaz) | (1988-ci ildə) |
| 39. Sınıq | | (1948-1949-cu illər) |
| 40. Söyüdlü | | (1918-ci ildə) |

1988-ci ilin yanvar ayında olan məlumata görə Amasiya rayonunda 1 şəhərtipli qəsəbə [Amasiya (Hamasa)- Amasiya rayonunun mərkəzidir. Qərbi Arpaçay çayının (indi Axuryan) sağ sahilində, Gümrü şəhərindən (keçmiş Leninakan) 18-20 km şərq-qərbdədir. İqlimi soyuq, yağmuru 500-600 mm-dir. Əvvəllər əhalisi tam türklər olub, sonra hayların buraya köçürülməsi prosesi başladı. 1918-1920-ci illərdə kəndin türk əhalisi ermənilərin (hayların) hücumuna məruz qalıb və xeyli itki olub, sağ qalanlar isə təhlükəsiz ərazilərə sığınmağa məcbur olublar. Qərbi Azərbaycanda (Ermənistan Respublikasında (1918-1920)) Sovet hakimiyyəti qurulduqdan (29.IX.1920) bir az

sonra, yəni 1922-ci ildə qaçqınların bir hissəsi doğma yurdlarına qayıdırlar. Əhali dağıntıları bərpa edir və digər quruculuq işləri ilə məşğul olmağa başlayır. Kənd 1930-cu ildən yeni qurulmuş Amasiya rayonunun inzibati mərkəzinə çevrilir və bundan sonra artıq burada ermənilər (haylar) yaşamağa başlayır. Sonralar qəsəbə statusu alan Amasiyada südçülük –heyvandarlıq sovxozu, yağ-pendir zavodu, yerli sənaye kombinatı, elektrik dəyirmanı fəaliyyət göstərir. Əkinçilik ilə də məşğul olunur. Burada iki, üç və çoxmərtəbəli daş evlər, xəstəxana, aptek, uşaq baxçası, körpələr evi, mehmanxana, orta məktəb, mədəniyyət evi, kinoteatr, baytarlıq məntəqəsi də var idi. Amasiyanın türk (azərbaycanlı) əhalisi 1988-ci ilin sonunda Moskvanın himayədarlığı, Ermənistan SSR-nin o zamankı rəhbərliyinin təşkilatçılığı və rayonun partiya, təsərrüfat və hüquq-mühafizə orqanlarının məsul şəxslərinin köməyi ilə yerli ermənilər tərəfindən zorla doğma yurdlarından qovuldular. Hazırda Amasiya qəsəbəsinin əhalisi Azərbaycanın müxtəlif bölgələrində yaşayır], 12 sovetlik (1.Amasiya (Hamasa); 2.Balıqlı; 3.Cradzor; 4. Əzizbəyov (Qaraçanta); 5. Güllübulaq; 6. Güllücə; 7. Qoncalı; 8. Quzukənd (Hozukənd); 9.Mağaracıq; 10. Oxçoğlu; 11. Təpəköy və 27 yaşayış məntəqəsi – 1. Amasiya (Hamasa) (şəhərtipli qəsəbə); 2. Balıqlı; 3. Baytar (Alakilsə); 4. Bəndivan; 5. Cradzor (Cələb); 6. Çaxmaq; 7. Çaybasar (İlanlı); 8. Çivinli; 9. Daşkörpü; 10. Düzkənd; 11. Ellərkənd (Elləroyuğu); 12. Əzizbəyov (Qaraçanta); 13. Göllü; 14. Güllücə; 15.Güllübulaq; 16. İbiş; 17. İlli (İyli Qarakilsə); 18. Qarabulaq (Ağbaba); 19. Qoncalı; 20. Quzukənd (Hozukənd); 21. Mağaracıq; 22. Meğraşat (Qaraməmməd); 23. Oxçoğlu; 24. Öksüz; 25. Şurabad (Sultanabad); 26. Təpəköy; 27. Yeniyol (Qaranamaz)) var idi.

27 yaşayış məntəqəsində 4140 ailə yaşamış və 21476 nəfər əhalisi olmuşdur. Ermənilər 662 ailədə 3220, türklər (azər-





baycanlılar) 3478 ailədə 18256 nəfər olmuşdur. 27 kənddən 1-i qarışıq (Amasiya-türklər (azərbaycanlılar): 318 ailədə 1650 nəfər; ermənilər (haylar): 312 ailədə 1560 nəfər), 5-i erməni (hay) kəndidir [1. Meğraşat (Qaraməmməd); 2. Cradzor (Cələb); 3. Hoğmik (İyli Qarakilsə, İlli); 4. Bəndivan, 5. Baytar (Alakilsə)].

1920-1991-ci illərdə Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin və 1991-ci ildən sonra isə Ermənistan Respublikası Prezidentinin müxtəlif fərmanlarına əsasən türklərə (azərbaycanlılar) məxsus yaşayış məntəqələrinin adları bir neçə dəfə dəyişdirilərək erməniləşdirilmişdir:

**Ermənistan SSR dövründə (1920-1991)**

| Keçmiş(əsl) adı | Yeni adı | Dəyişdirildiyi tarix |
|---|---|---|
| Alakilsə | Baytar | 03.01.1935 |
| Cələb | Cradzor | 26.04.1946 |
| Ellər oyuğu | Ellər | 03.01.1935 |
| Hozukənd | Quzukənd | 03.01.1935 |
| İlli (İyli Qarakilsə) | Hoğmik | 25.01.1978 |
| İlanlı | Çaybasar | 26.04.1946 |
| İyli Qarakilsə | İlli | 03.07.1935 |
| Qaraçanta | Əzizbəyov | 04.05.1939 |
| Qaraməmməd | Meğraşat | 26.04.1996 |
| Qaranamaz | Yeni yol | 03.01.1935 |
| Sultanabad | Şurabad | 03.01.1935 |

## 1991-ci ildə adları dəyişdirilərək erməniləşdirilən kəndlər

| | | |
|---|---|---|
| Baytar | Hovtun | 03.04.1991 |
| | Berdaşen | 08.08.1991 |
| Təpəköy | Şaqik | 03.04.1992 |
| | Zarişad | 03.04.1991 |
| Qarabulaq | Qarnariç | 08.08.1991 |
| | Alvar | 03.04.1992 |
| Qonçalı | Lorasar | 08.08.1991 |
| Hozukənd | Areqnadem | 03.04.1991 |
| Düzkənd | Yerizak | 03.04.1991 |
| Ellərkənd | Ağvörik | 09.04.1991 |
| Əzizbəyov | Qdaşen | 03.04.1991 |
| İbiş | Byuraku | 04.07.2006 |
| | Ardeniş | 03.04.1992 |
| Qaranamaz | Tsaxkut | 08.08.1992 |
| Mağaracıq | Vaxşi | 03.04.1991 |
| | Darik | 09.IX.1991 |
| Güllübulaq | Pağakn | 08.08.1991 |
| | Aravet | 03.04.1991 |
| Göllü | Kamxut | 03.04.1991 |
| Güllücə | Yeğnacur | 03.04.1991 |
| Oxçoğlu (Oxçuoğlu) | | |
| Öksüz | | |
| Sultanabad | | |
| Çaybasar | | |
| Çaxmaq | | |
| Çivinli | | |

## 1918-1940-cı illərdə ləğv edilmiş kəndlər

1. Bozqala (40-cı illər)
2. Mumuxan (1918-1920-ci illər)





3. Mustuxlu (--------)
4. Ördəkli (-------)
5. Seldağılan (------)
6. Sınıx (-----)
7. Söyüdlü (------)
8. Şiştəpə (------)

Amasiya rayonunun ərazisində min illər boyu türklər (azərbaycanlılar) yaşamışdır. Erməni (hay) mənbələrində bəzən onlar qarapapaqlar, müsəlman və türk adlandırılmışdır. Rayonun ərazisinə ermənilər (haylar) yalnız 1918-1920-ci illərdə gəlib yerləşmişdilər.

1979-cu ildə rayonun 22 371 nəfər əhalisi olmuşdur ki, bunun da 90%-dən çoxunu türklər (azərbaycanlılar) təşkil etmişdir. 1988-ci ilin sonunda rayonun yerli əhalisi olan türklər Moskvanın himayədarlığı, respublika rəhbərliyinin təşkilatçılığı ilə rayonun məsul şəxslərinin rəhbərliyi ilə öz doğma yurdlarından qovuldular. 1989-cu il əhalinin siyahıya alınması zamanı Azərbaycandan evlərini dəyişib Amasiyaya gedən ermənilərlə birlikdə rayonda cəmi 5 700 nəfər erməni (hay), rus və yunan olmuşdur.

Rayondan zorla qovulan 19 000 nəfər türk (azərbaycanlı) əhali yüz milyonlarla hesab edilən mülkiyyət, 30 000 başdan çox mal-qara,kolxoz, sovxoz, maşın-traktor stansiyası, məktəb, kitabxana, tibb ocaqları, ümumiyyətlə, 600 km$^2$-dən çox torpaq sahəsi itkisinə məruz qalmışdı.

Rayonun relyefi dağlıq, iqlimi sərt, qışı qarlı və uzunmüddətlidir. Ermənistanda və bütün Qafqazda ən soyuq yer rayondakı Sultanabad (Şurabad-1935, Pağakn-1991) kəndidir. Qışda temperatur mənfi 46° C-dir. İllik yağıntının miqdarı 500-600 mm-ə çatır. Ən böyük çayı Qərbi Arpaçay (indiki Axuryan) çayıdır. Ərazisi soyuq bulaqlarla zəngindir. Arpaçay mənbəyini Arpa gölündən götürür.

Birinci Dünya müharibəsi zamanı (1914-1918) və Ermənistan Respublikası dövründə (1918-1920) rayonun əhalisi qaçqın həyatı yaşamağa məcbur olmuşdur. Bu dövrlərdə "Daşnaksutyun"

partiyasının silahlı qüvvələri əhalinin xeyli hissəsini qırmış və kəndlərini talamışdılar. Bu qırğınlardan Türkiyəyə, İrana və başqa təhlükəsiz yerlərə qaçan əhalinin bir hissəsi yalnız Ermənistan Respublikasında sovet hakimiyyəti qurulduqdan (29 noyabr 1920) sonra, yəni 1922-ci ildə öz doğma yurdlarına qayıda bildilər. Böyük itkilər vermiş, var-yoxdan çıxmış əhali 20-30-cu illərdə dağıntıları bərpa edərək rayon ərazisində kolxozlar qurdular, ibtidai və yeddiillik məktəblər açdılar, klubların, kitabxanaların, xəstəxanaların və tibb məntəqələrinin fəaliyyət göstərmələri üçün binalar tikdilər.

Yeni qurulmuş Ermənistan SSR-nin dövlət və hökumət rəhbərliyinə cildlərini dəyişərək soxulan daşnaklar türklərə (azərbaycanlılara) qarşı yenə də düşmən münasibətlərini müxtəlif formalarda davam etdirdilər. Minlərlə qeyrətli, savadlı, mərd amasiyalı repressiya qurbanı oldu. Bir hissəsi troyka (üçlük) tərəfindən güllələndi, bir hissəsi isə Sibirə, Qazaxıstana və başqa bölgələrə sürgün olundu. İkinci Dünya müharibəsi zamanı (1939-1945) rayonun türk (azərbaycanlı) əhalisindən 1 767 nəfər cəbhəyə getmiş, onlardan 888 nəfər həlak olmuşdur.

50-ci illərdən, xüsusilə də, 1965 –ci ildən sonra Ermənistan SSR-nin başqa bölgələrində olduğu kimi Amasiya rayonunda da türk kadrlarına qarşı ayrıseçkilik siyasəti yeridilməyə başlandı. Rayonda işləyən milli kadrlar tədricən ermənilərlə (haylarla) əvəz edildi. Amasiya rayonunda 60 il ərzində rayon partiya komitəsinin birinci katibləri türk (azərbaycanlı) olmuşdur (Əli Məmmədov, Hüseyn Məmmədov, Həbib Həsənov, Cahangir Əliyev, Məhərrəm Bayramov, Zərbəli Qurbanov, İldırım Bağırov və s.). Qalan vəzifələrdə (rayon icraiyyə komitəsinin sədri, rayon prokuroru, daxili işlər şöbəsinin rəisi, dövlət təhlükəsizlik komitəsinin sədri) ancaq ermənilər (haylar) olmuşdur. Onlar da əhalinin 90%-ni türklər (azərbaycanlılar) təşkil etməsinə baxmayaraq, birinci katibin müstəqil fəaliyyətinə həmişə mane olmuşlar.

Hazırda amasiyalılar Azərbaycan Respublikasının müxtəlif bölgələrində yaşamaqdadırlar.





## BALIQLI KƏNDİ

## ƏLİ BAYRAMOV
## *(1934-1991)*

***Bayramov Əli Yunus oğlu - şair, nasir***

1934-cü il mayın 24-də Qərbi Azərbaycanın Ağbaba mahalının Balıqlı kəndində (indiki Ermənistan Respublikasının Amasiya rayonu) anadan olmuşdur. Burada orta məktəbi bitirdikdən sonra 1950-1954-cü illərdə Xanlar Pedaqoji Texnikumunu fərqlənmə diplomu ilə başa vurmuş və əmək fəaliyyətinə müəllim kimi başlamışdır. 1965-1989-cu illərdə Balıqlı kənd orta məktəbində direktor vəzifəsində çalışmışdır. Bədii yaradıcılıqla texnikumda oxuyan zaman məşğul olmuş, ilk qələm təcrübələrini bu zaman çap etdirmişdir. Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində qiyabi təhsil almışdır (1955-1961). Şeir və hekayələri qəzet, jurnal və almanaxlarda vaxtaşırı çap olunmuşdur. Uzun müddət ilk partiya təşkilatının katibi və bir neçə dəfə kənd sovetinin deputatı seçilmişdir. "Əmək veteranı", "Yubiley medalı", "Vicdanlı əməyə görə" və s. medallarla təltif olunmuşdur. 1991-ci ilin dekabrında Bakıda vəfat etmişdir.

**Əsəri:**

1. Nailənin səhvi. İrəvan, "Hayastan" nəşriyyatı, 1973, 72 səh., 500 nüs.

## ÇAYBASAR KƏNDİ

### SƏYYAD AĞBABALI
*(1952)*

***Səyyad Nəsib oğlu Məmmədov - publisist, Azərbaycan Jurnalistlər Birliyinin üzvü (1988), "Araz" ali ədəbi mükafatı laureatı (1995)***

1952-ci il aprelin 14-də Qərbi Azərbaycanın Ağbaba mahalının Çaybasar (keçmiş İlanlı) kəndində (indiki Ermənistan Respublikasının Amasiya rayonu) anadan olmuşdur. Amasiya rayon orta məktəbini bitirdikdən sonra İrəvan Dövlət Pedaqoji İnstitutunun pedaqogika fakültəsində təhsil almışdır (1968-1972). Çaybasar kənd orta məktəbində müəllim işləmişdir (1972). Ordu sıralarında hərbi xidməti borcunu yerinə yetirmişdir (1973-1974). H.Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyatı fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir (1980). Amasiya rayon Partiya Komitəsində təlimatçı, şöbə müdiri vəzifələrində çalışmışdır (1980-1985). Bakı Ali Partiya Məktəbinin dinləyicisi olmuşdur (1985-1987). Amasiya rayonunda nəşr olunan "Əmək" qəzetinin redaktoru vəzifəsində işləmişdir (1987-1988). Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkətində radionun "Xəbərlər" baş redaksiyasında baş redaktorun müavini, orada televiziyanın "Xoş gördük" studiyasında şöbə müdiri, ictimai-siyasi proqramlar redaksiyasında şərhçi, "Xəbərlər" baş redaksiyasında baş redaktor, həftəlik "7 gün" proqramında aparıcı, radionun "Səhər" informasiya proqramının yaradıcılarından biri və ilk aparıcısı olmuşdur (1989-1991). "Respublika" qəzeti redaksiyasında ictimai-siyasi şöbənin





müdiri vəzifəsində çalışmışdır (1996-1999). Hazırda "Arena" adlı müstəqil ictimai-siyasi qəzetin və eyni adlı jurnalın təsisçisi və baş redaktorudur.

Ədəbi fəaliyyətə tələbəlik illərində başlamışdır. İlk hekayələri, oçerk və publisistik məqalələri "Sovet Ermənistanı", "Əmək" qəzetlərində dərc olunmuşdur. Dövri mətbuatda vaxtaşırı çıxış etmişdir. Xankəndində Dağlıq Qarabağ üzrə təşkilat komitəsində mətbuat qrupunun üzvü olduğu dövrlərdə ölkədə ictimai-siyasi proseslərlə bağlı analitik verilişlərin müəllifi olmuşdur. Ümummilli lider Heydər Əliyevin xarici səfərlərində onu müşayiət edən jurnalistlərin tərkibində olmuş, 10-dan çox sənədli televiziya filminin ssenari müəllifi kimi tanınır. "Yol: haradan gəlib hara gedirik?" (2004) kitabında 1990-2000-ci illərdə ictimai-siyasi prosesləri əks etdirən publisistik məqalələri toplanmışdır.

## ELLƏR KƏNDİ

### AŞIQ İSGƏNDƏR AĞBABALI
*(1929-1992)*

***İsgəndər Ağbabalı - aşıq-şair***

1926-cı il mayın 24-də Qərbi Azərbaycanın Ağbaba mahalının Ellər kəndində (indiki Ermənistan Respublikasının Amasiya rayonu) anadan olmuşdur. Mənsub olduğu Güləlioğlu tayfasında Güləlioğlu İsgəndər, Məmmədqasım Əfəndi kimi el şairləri olmuşdur. Burada dörd il təhsil almasına baxmayaraq, kiçik yaşlarından saza-sözə meyil göstərmiş, Ağbaba-Şörəyel ellərində ad-san qazanmış ustad Aşıq Nəsibin şagirdi olmuşdur. Aşıqlıq sənətinin incəliklərinə yiyələnmiş, el arasında çalıb çağırmağı ilə şöhrət tapmışdır. 33 dastanı sinədəftər etmişdi. “Qaçaq Yusif”, “Haley bəy”, “Yaralı Mahmud”, “Qulamsöyün”, “Qaçaq İsgəndər”, “Balasöyün və həkimi” dastanlarının bilicisiydi. 1988-ci ildə öz həmyerliləri ilə qaçqın düşüb Azərbaycanın Şəmkir şəhərinə pənah gətirmişdi.

1992-ci ilin payızında vəfat edib və Şəmkirdə dəfn olunmuşdur.





### ZAHİD ƏZİZ
*(1963)*

***Zahid Əziz oğlu Xəlilov - şair, publisist, Azərbaycan Jurnalistlər Birliyinin üzvü (1993), “Araz” ali ədəbi mükafatı (1997), Azərbaycan Yazıçılar Birliyinin üzvü (1998) və “Qızıl qələm” mükafatı laureatı (2003)***

1963-cü il iyulun 5-də Qərbi Azərbaycanın Ağbaba mahalının Ellər kəndində (indiki Ermənistan Respublikasının Amasiya rayonu) anadan olmuşdur. Burada səkkizillik məktəbi, qonşu Güllücə kəndində orta məktəbi bitirmişdir (1980). N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun riyaziyyat-fizika fakültəsində ali təhsil almışdır (1980-1985). Jurnalistika üzrə xüsusi kursda ixtisaslaşmışdır (1981-1983). Əmək fəaliyyətinə Qərbi Azərbaycanın Amasiya rayonundakı Çivinli və Ellər kəndlərində başlamışdır. Eyni zamanda dövri mətbuatda müntəzəm çıxış etmişdir. Amasiya rayonundakı “Ağbaba ədəbi birliyinin” fəal üzvü olmuşdur. Qaçqınlıqla əlaqədar doğma yurd-yuvasını tərk etmişdir. 1989-cu ildən ailəsi ilə birlikdə Bakıda yaşayır. Burada “Ağbaba” ədəbi-bədii bülleteninin hazırlanması və nəşrində yaxından iştirak etmişdir. Ədəbi yaradıcılığa erkən başlamışdır. İlk şeiri Amasiya rayonunda çıxan “Əmək” qəzetində çap olunmuşdur (1981). Dövri mətbuatda vaxtaşırı çıxış etmişdir.Bakı şəhərində Nəsimi rayon İcra Hakimiyyətində ərazi hakimiyyət orqanları, ictimai təşkilatlar və siyasi partiyalarla iş şöbəsində təlimatçı, mənzil şöbəsində təlimatçı, mənzil şöbəsinin müdiri, ərazi hakimiyyət orqanları, ictimai təşkilatlar və siyasi partiyalarla iş şöbəsinin müdiri və özəlləşmə şöbəsinin müdiri olmuşdur (1991-1999).

Hazırda Nəsimi rayon İcra hakimiyyəti başçısının müavinidir (1999-cu ildən). "Simurq" milli mükafat fondunun təsis etdiyi "İlin şairi" (2001) və "İlin müəllifi" (2002) nominasiyalarının qalibi olmuşdur. Bir neçə fəxri fərmanla və diplomlarla təltif olunmuşdur.

**Əsərləri:**

1. Könlüm səni istəyir. Bakı, "Azərbaycan" nəşriyyatı, 1993, 48 səh., 5.500 nüs.
2. Dünyadan qaçmağım gəlir. Bakı, Sabah, 1995, 80 səh., 4.000 nüs.
3. Çıxmışıq Tanrı yanına. Bakı, "Təhsil-Elm İstehsalat Mərkəzi" nəşriyyatı, 1997, 74 səh., 500 nüs.
4. Qəm yüküyəm bu dünyanın. Bakı, Yazıçı, 1999, 160 səh., 1.000 nüs.
5. Sevgi məktubları. Bakı, Gənclik, 2002, 96 səh., 1.000 nüs.
6. Gözlərim yol çəkir axı. Bakı, Gənclik, 224 səh., 1.000 nüs.
7. Hər yaşın özünün öz sevdası var. Bakı, Qismət, 2009, 208 səh., 1000 nüs.





## GÖLLÜ KƏNDİ

### NİZAMİ MƏMMƏDCANLI
*(1950)*

***Nizami Alı oğlu Ömərov - şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü (2001)***

1950-ci il martın 27-də Qərbi Azərbaycanın Ağbaba mahalının Göllü kəndində (indiki Ermənistan Respublikasının Amasiya rayonu) anadan olmuşdur. Amasiya rayon mərkəzindəki beynəlmiləl orta məktəbi fərqlənmə ilə bitirdikdən sonra bir müddət rayonun ucqar Öksüz kəndində dil-ədəbiyyat müəllimi işləmişdir (1967-1979). İrəvan Kənd Təsərrüfatı Texnikumunun mühasibatlıq şöbəsində təhsil almışdır (1977-1979). Sonra Amasiya rayon Düzkənd sovxozunda Amasiya rayon ət tədarükü məntəqəsində çalışmışdır (1980-1989). Qaçqınlıq üzündən Bakıda məskunlaşmış, 1989-1990-cı illərdə Suraxanı rayon mədəniyyət evində baş mühasib işləmişdir. Uzun müddətdir ki, "Neftçi" idman cəmiyyətində baş mühasib işləyir (1991-ci ildən). Ədəbi fəaliyyətə 70-ci illərdən başlayaraq mətbuatda şeir və məqalələrlə çıxış etmişdir. "Azərbaycan" və "Ağbaba" folklor toplusunda şeirləri dərc olunmuşdur. "Qaçaq Usuf" (1994) kitabında Ağbaba folklorundan nümunələr toplayıb çap etdirmişdir.

**Əsərləri:**

1. Məşəl. Bakı, "Sabah" nəşriyyatı, 1996, 80 səh., 2.000 nüs.
2. Qaçaq Usuf. Bakı, 1994.

## GÜLLÜBULAQ KƏNDİ

### RAFİQ MUSA
### (1950)

***Rafiq Hüseyn oğlu Məmmədov – şair, publisist***

1950-ci ildə Qərbi Azərbaycanın Ağbala mahalının Güllübulaq kəndində (indiki Ermənistan Respublikasının Amasiya rayonu) anadan olub. Orta təhsilini 1957-1967-ci illərdə doğma kəndində, ali təhsilini isə 1971-1975-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki ADPU) filologiya fakültəsində almışdır. 1975-1988-ci illərdə doğma kəndində müəllim işləmişdir. Məlum hadisələrlə əlaqədar olaraq Bakıda məskunlaşan Rafiq müəllim pedaqoji fəaliyyətini əvvəl 1991-1999-cu illərdə 191 saylı orta məktəbdə davam etdirmişdir. Sonra Xətai rayonunda yerləşən 58 saylı orta məktəbdə direktor olmuşdur (1999-2004). Hazırda, yəni 2004-cü ildən Xətai rayonunun ərazisində yerləşən 24 saylı orta məktəbdə direktor işləyir.

Bədii yaradıcılığa hələ orta məktəb illərində başlayıb. "Sevgi harayı" (Yerevan, 1983; Bakı, 1992), "Şeirlər və təmsillər" (Bakı), "Yaxşı olsun axırı" (Bakı), "Sevməyi bacar" (Bakı), "Ömrün payızına gedən yoldayam" (Bakı), "Təmsillər" (Bakı), "Sənə bir söz deyəcəm" (Bakı 2015) əsərlərinin müəllifidir.





## ÖKSÜZ KƏNDİ

### KAZIM ƏZİZ
### *(1962)*

***Kazım Həmid oğlu Əzizov - şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü (2010)***

1962-ci il fevralın 17-də Qərbi Azərbaycanın Ağbaba mahalının Öksüz kəndində (indiki Ermənistan Respublikasının Amasiya rayonu) anadan olmuşdur. Kiçik yaşında ikən valideynləri Bakının Kürdəxanı qəsəbəsinə köçmüş, orada məskunlaşmışlar. Orta məktəbi bitirsə də, fiziki sağlamlığı ona təhsilini davam etdirməyə imkan verməmişdir. I qrup əlildir.

Güclü mütaliəsi və fitri istedadı bədii yaradıcılığına vüsət vermişdir. Onun şeirlərinə mahnılar bəstələnmişdir. Mətbuat sahəsində çalışır (2000-ci ildən). "Qətiyyət", "Azərbaycan Press" qəzetlərində xüsusi müxbir, şöbə müdiri olmuşdur. "Zəminxarə" və "Əsrin ziyalıları" qəzetlərində redaktor işləmişdir.

Hazırda "Zamanla irəli" qəzetinin baş redaktorudur. Beynəlxalq Sülhsevərlər, Dünya yazarları və Əlillər cəmiyyətlərinin üzvüdür, "Qızıl qələm", "Fəzilət", "İti qələm" media mükafatlarına və Fəxri diplomlara layiq görülmüşdür.

**Əsərləri:**

1. Vətən övladları. Bakı, 2008.
2. Ağbaba. Bakı, 2010.

## SULTANABAD KƏNDİ

### ELDAR SƏRTQAYA
*(1956)*

***Eldar Paşa oğlu Əliyev - şair***

1956-cı il iyulun 2-də Qərbi Azərbaycanın Ağbaba mahalının Sultanabad kəndində (indiki Ermənistan Respublikasının Amasiya rayonu) anadan olmuşdur. Burada Təpəköy kənd orta məktəbini bitirdikdən sonra Azərbaycan Dövlət Politexnik İnstitutunun elektrotexnika fakültəsində ali təhsil almışdır (1974-1979).

Əmək fəaliyyətinə Daşkəsən rayonunda 6 saylı xətti-texniki sahədə mühəndis kimi başlamışdır. Orada sahə rəisi işləmişdir (1979-1981). Gəncə şəhərində 2 saylı İstismar-texniki Rabitə qovşağında böyük mühəndis (1981-1989), Gəncə Rabitə İstehsalat Birliyində elektrik rabitəsi şöbəsinin rəisi (1989-1990), Xanlar Rayon Rabitə Qovşağının rəisi (1990-1992), Gəncə Rabitə İstehsalat Birliyində poçt rabitəsi şöbəsinin rəisi (1992-1994), Samux Rayon Rabitə Qovşağının rəisi (1994-1997), orada poçtamtın rəisi (1997-2001) vəzifələrində işləmişdir. Hazırda fərdi yaradıcılıqla məşğuldur.

Bədii yaradıcılığa tələbəlik illərindən başlamışdır. Dövri mətbuatda şeirləri və məqalələri çap olunmuşdur.

**Əsərləri:**

1. Həyat kitabımdan sətirlər. Bakı, 2001;
2. Ağbabada izim qaldı. Bakı, 2003;
3. Ölməyibdir yaşayır ürəyimin başında. Bakı, 2004;
4. Ulu Heydər, doğum günün mübarək. Bakı, 2003;
5. Mübarəkdir on yaşın. Bakı, 2002;
6. Qüdrət. Bakı, 2002;
7. Sönməz günəş (beş cilddə). Bakı, 2001-2004.





### QƏŞƏM VƏLİYEV
*(1960-1996)*

***Qəşəm Camal oğlu Vəliyev - ədəbiyyatşünas, publisist***

1960-cı il yanvarın 14-də Qərbi Azərbaycanın Ağbaba mahalının Sultanabad kəndində (indiki Ermənistan Respublikasının Amasiya rayonu) anadan olmuşdur. Təpəköy kənd orta məktəbini bitirmişdir. 1979-1983-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyatı fakültəsində təhsil almışdır. Buranı fərqlənmə ilə bitirmişdir. Əmək fəaliyyətinə təyinatla göndərildiyi Dəvəçi rayonunun Çayqaraqaşlı kənd məktəbində müəllim kimi başlamışdır. Sonra həmin məktəbin direktoru olmuşdur.

Eyni zamanda Azərbaycan Dövlət Pedaqoji İnstitutunun aspiranturasında qiyabi təhsil almışdır (1986-1992). Bu illərdə xeyli folklor materialı toplamışdır. Qazaxıstana - Mexseti türkləri yaşayan ərazilərə də getmiş, Aşıq Şenlik haqqında qiymətli məlumatlar toplamış, Xəstə Hasanın məlum olmayan qoşma və gəraylılarını yazıya almışdır. “Aşıq Şenliyin həyatı, mühiti və poetik yaradıcılığı” mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri namizədi adını almışdır. 1994-cü ildən Azərbaycan İncəsənət Universitetinin Quba filialında müəllimlik etmişdir. 1996-cı ildə onun fəaliyyəti ilə Qubada folklor problemlərinə həsr edilmiş elmi-praktik konfrans keçirildi. Ağbabalı Aşıq Nəsib (“Azərbaycan” jurnalı, 1988, №6), “Aşıq Ələsgərlə Aşıq Şənliyin görüşü” (Azərbaycan, 1988, №8), “Qaçaq Usub” (“Vətən səsi” qəzeti, 1990, №35) və folklor haqqında digər elmi yazıları məcmuələrdə çap olunmuşdur. 1988-ci ildən topladığı folklor materialları əsasında toplu hazırlamışdı. Lakin amansız ölüm kitabın nəşrinə macal vermədi.

1996-cı il yanvarın 9-da yaradıcılığının çiçəkləndiyi bir dövrdə qəflətən vəfat etmişdir. Dəvəçi rayonunun Çəlquşu kəndində dəfn olunmuşdur.

# QƏRBİ AZƏRBAYCANIN AĞRI VADİSİ



## QƏRBİ AZƏRBAYCANIN AĞRI VADİSİNDƏ YERLƏŞƏN EÇMİƏDZİN (KEÇMİŞ ÜÇKİLSƏ) RAYONU




Ermənistan SSR-də (1920-1920) (1991-ci ildən Ermənistan Respublikası) inzibati rayon, 1930-cu il sentyabrın 9 – da yaradılmışdır.

1945-ci ilədək rayonun adı Vağarşabad adlanıb. Vaxtilə Ərməniyyənin (Armaniyanın) mərkəzi olmuşdur. Rayonun sahəsi 377 km$^2$-dir. 1977-ci il məlumatına görə rayonun əhalisi Eç-

miədzin şəhəri hesab olunmadan 60617 nəfərdir. Cənub-qərbdən Türkiyə ilə, şimaldan Əştərək, şərqdən Zəngibasar rayonları ilə həmsərhəddir.

Ümumiyyətlə, çar Rusiyası Cənubi Qafqazı işğal edənədək rayonun indiki ərazisi I-V əsrlərdə Ərməniyyəni (Armaniyanın) idarə edən Arşakilərin, IX-XI əsrlərdə Baqratilərin, sonrakı əsrlərdə səlcuqların, moğol-tatarların, Qaraqoyunluların, Ağqoyunluların, Səfəvilərin, Əfşarların və Qacarların hakimiyyəti altında olmuşdur.

1747-ci ildə Nadir şah Əfşar öldürüldükdən sonra dağılan imperiyanın ərazisinə daxil olan mahallarda müstəqil xanlıqlar yarandı. Rayonun ərazisinin də daxil olduğu Çuxursəd bəylərbəyliyində İrəvan xanlığı yarandı (1747-1828). Yuxarıda qeyd etdiyimiz kimi Cənubi Qafqazı tamamilə işğal edən və İrəvan ərazisində hakimiyyəti ələ keçirən Rusiya ilə Qacarlar sülaləsi arasında Türkmənçay müqaviləsi imzalandı. Müqaviləyə görə Araz çayından şimalda qalan torpaqlar Rusiyanın, cənubunda qalan torpaqlar isə Qacarlar dövlətinin hakimiyətinə keçdi. Beləliklə, Azərbaycan iki yerə - şimala və cənuba bölündü.

1828-ci ildə İrəvan xanlığı ləğv edildi və müvəqqəti «Ermənistan vilayəti» yaradıldı. Rayonun ərazisi 1828-1849-cu illərdə bu vilayətin, 1849-1867-ci illərdə İrəvan quberniyasının İrəvan qəzasının, 1867-1918-ci illərdə İrəvan quberniyasının Eçmiədzin qəzasının, 1920-1930-cu illərdə Ermənistan SSR-nin Eçmiədzin qəzasının tərkibində olmuşdur.

Rayonun ərazisində tarixən həmişə türklər yaşamışdır. Ermənilər (haylar) bu ərazilərə sonralar köçmüşdülər. 1828-ci ilədək rayonun ərazisində yaşayan türk (azərbaycanlı) əhalisi ermənilərin (hayların) sayından dəfələrlə çox olmuşdur. 1828-1830-cu illərdə Osmanlı imperiyasının Van, Sasun, Qacarlar dövlətinin (İran) Xoy, Salmas vilayətlərindən köçürülən ermənilərin (hayların) böyük əksəriyyəti bu rayonun ərazisində





yerləşdirilmişdir. Elə bu vaxtdan da ermənilərin (hayların) sayı artmağa başlayır. Buna baxmayaraq, 1918-ci ilə kimi üstünlük yenə türklərdə olmuşdur. Onlar təxminən əhalinin yarısından çoxunu təşkil etmişdilər. Bunu biz Zaven Qorqodyanın erməni dilində İrəvanda çap etdirdiyi «Sovet Ermənistanının əhalisi. 1831-1931» əsərində də aydın görürük. 1831-ci ildə türklər 6422 nəfər, ermənilər (haylar) 5317 nəfər, 1873-cü ildə türklər 13795 nəfər, ermənilər (haylar) 12009 nəfər, 1886-cı ildə türklər 15042 nəfər, ermənilər (haylar) 14929 nəfər, 1897-ci ildə türklər 18057 nəfər, ermənilər (haylar) 18006 nəfər olmuşdur.

1918-1920-ci illərdə, yəni Ermənistan Respublikasının (daşnakların hakimiyyəti dövründə) rəhbərliyinin yürütdüyü antitürk və antimüsəlman siyasəti nəticəsində rayonun indiki ərazisində yaşayan türklər soyqırımına və deportasiyaya məruz qaldılar. Onların sayı ermənilərə nisbətən 7 dəfə azaldı. 1930-cu il sentyabrın 9-da rayon təşkil edilən zaman 56 yaşayış məntəqəsindən-kənddən ibarət olmuşdur. Bunların da 24-ü sırf türk kəndi idi. Bunlar aşağıdakılardır:

1. Ağcaqala, 2. Aşağı Aylanlı. 3. Aşağı Qarxun, 4. Ayarlı, 5. Böyük Zeyvə, 6. Cəfərabad, 7. Doğs, 8. Göykümbət, 9. Hacı Qara, 10. Hacılar, 11. Haramlı, 12. Xanlıq, 13. İlxı qoruğu, 14. İskəndərabad, 15. Kiçik Zeyvə, 16. Kürəkənli, 17. Qarğabazarı, 18. Qəmərli, 19. Qrampa, 20. Məmmədabad, 21. Molla Dursun, 22. Yuxarı Əylənli, 23. Yuxarı Qarxun, 24. Yuxarı Türkmənli.

Rayon mərkəzi respublika tabeli Eçmiədzin (keçmiş Vağarşabat, Üçkilsə) şəhəridir. Rayon mərkəzinə ən yaxın dəmiryol dayanacağı 15 km məsafədə yerləşən Eçmiədzin (Üçkilsə) stansiyasıdır. Rayon mərkəzindən İrəvan şəhərinə olan məsafə 20 km-dir.

1970-ci ilin məlumatına görə rayonun ərazisində bir respublika tabeli şəhər [Eçmiədzin – Ağrı vadisində (Ararat düzənliyində) yerləşir. 1924-cü ildən qəza, 1930-cu ildən

respublika tabeli şəhərdir. Şəhərin eramızın II əsrin 2-ci yarısında salındığı bildirilir. Şəhər erməni (hay) qriqorian kilsəsinin mərkəzidir. Dünya ermənilərinin (haylarının) katolikosu burada oturur. Tədqiqatçı, filologiya üzrə fəlsəfə doktoru Əziz Ələkbərli «Eçmiədzin» toponiminin qədim türk dilində **«əcdad», «ata», «baba»,** mənasını verən **«eçi» / «m»-1-ci şəxsin təkinə aid mənsubiyyət şəkilçisidir** və **«çöl»** mənasını verən **«yazı»** komponentlərindən ibarət olduğu ehtimal edir. **Yəni «əcdadların çölü, yurdu», «Eçmiədzin»** sözünün **«üç müədzin»** birləşməsindən əmələ gəldiyi ehtimalı Üçkilsə variantı ilə bir növ təsdiq olunur], 13 kənd sovetliyi (1.Xznauz, 2.Körpəli 3.Ahavnatun, 4.Yuxarı Zeyvə, 5. 3 saylı sovxoz, 6.Yuxarı Qazxun, 7.Aşağı Əylənli, 8.Üzümçülük İnstitutunun Baza qəsəbəsi, 9.Aşağı Xatınarx, 10.Noraket, 11.Şirabad, 12.Samağar, 13.Molla Dursun) və bu sovetliklərə daxil 41 kənd (1. Xznauz, 2. Ağcaqala, 3. Körpəli, 4. Ahavanatun, 5. Doqquz, 6. Ayarlı, 7. Franqanots, 8. Yuxarı Zeyvə, 9. Ayğırlıç, 10. 3 saylı sovxoz, 11. Varmaziyar. 12. 9 saylı sovxoz, 13. 4 saylı sovxoz, 14. Yuxarı Qarxun, 15. Üçkilsə stansiya qəsəbəsi, 16. Qəmərli, 17. Aşağı Türkmənli, 18. Yuxarı Türkmənli, 19. Aşağı Qarxun, 20. Aşağı Əylənli, 21. Aşağı Zeyvə, 22. Əlibəyli, 23. Aralıq Kolanlı, 24. Üzümçülük İnstitutunun Baza qəsəbəsi, 25. 15 saylı sovxoz, 26. Aşağı Xatınarx, 27. Qarğabazar, 28. Yuxarı Xatınarx, 29. Norakert, 30. Bağramyan, 31. Şirabad, 32. Samağar, 33. Aydaq, 34. Muğan, 35. Qrampa, 36. Qaraqoyun, 37. Yuxarı Əylənli, 38. Molla Dursun, 39. Daşdı, 40. Hacılar, 41. Hacı Qara) olmuşdur.

Ermənistan SSR (1920-1991-ci illərdə mövcud olmuş) Ali Sovet Rəyasət Heyətinin müxtəlif illərdə qəbul etdiyi fərmanlar ilə türk mənşəli aşağıdakı kəndlərin adları dəyişdirilərək erməniləşdirilmişdir:





| Köhnə (əsl) adı | Yeni adı | Dəyişdirildiyi tarix |
|---|---|---|
| Ağcaqala | Tsaxqalanc | 25.01.1978. |
| Aşağı Əylənli | Lenuqi | 04.04.1946. |
| Aşağıxatınarx | Qay | 25.01.1978 |
| Aşağı Qarxun | Araks | 15.07.1946 |
| Aşağı Türkmənli | Lusaqvuğ | 3.01.1935 |
| Aşağı Zeyvə | Artaşen | 25.01. 1978 |
| Ayarlı | Lernamerdz | 25. 01. 1978 |
| Ayğırlıç | Aqnalıç | 25. 01. 1978 |
| 4 saylı sovxoz qəsəbə | Vosgehad | 25. 01. 1978 |
| 9 saylı sovxoz qəsəbə | Ptxunk | 30. 12. 1957 |
| Əlibəyli | Atarbekyan | 4. 04. 1946 |
| Franqonots | Amberd | 25. 01. 1978 |
| Hacıqara | Hayqeşat | 3. 01. 1935 |
| Hacılar | Mrqastan | 3. 01. 1935 |
| Xznauz | Araqats | 4. 04. 1946 |
| Körpəli | Arşaluys | 3. 01. 1978 |
| Qaraqoyun | Ferik | 25. 01. 1978 |
| Qarğabazar | Haykaşen | 25. 05. 1965 |
| Qəmərli | Metsamor | 15. 07. 1946 |
| Qrampa | Dziazan | 25. 01. 1978 |
| Molla Dursun | Şaumyan | |
| Muğan | Hovdameç | 25. 01. 1978 |
| 15 saylı sovxoz qəsəbə | Ayqek | 25. 01. 1978 |
| Samağar | Geğakert | 25. 01. 1978 |
| 3 saylı sovxoz qəsəbə | Ginevert | 30. 12. 1957 |
| Üzümçülük İnstitutunun baza qəsəbəsi | Mertsavan | 27. 01. 1965 |
| Vağarşapat | Eçmiədzin | 12. 03. 1945 |
| Varmaziyar | Arevşat | ٤.٠٤.١٩٤٦ |
| Yuxarı Əylənli | Tsaxkunk | 4.04.1946 |

| | | |
|---|---|---|
| Yuxarı Xatınarx | Aknaşen | 25.01.1978 |
| Yuxarı Kolanlı (Aralıq) | Qriboyedov | 25. 01. 1978 |
| Yuxarı Qarxun | Crarat | 4. 04. 1946 |
| Yuxarı Türkmənli | Apaqa | 3. 01. 1935 |
| Yuxarı Zeyvə | Taronik | 25. 01. 1978 |

1. Üçkilsənin Vağarşapat, 2. Aralıq Kolanlının Aralıq, 3. Aralığın Aralıq Kolanlı, Yuxarı Kolanlı adlandırılmasının tarixi məlum deyil.

Rayonun mərkəzindən Abaran (Kasax), İranla sərhəddindən isə Araz çayı axır.

1932-ci ilin inzibati bölgüsünə görə Eçmiədzin rayonunun ərazisində 71 yaşayış məntəqəsi olub. Onların 52-də türklər yaşayıblar. Lakin Zəngibasar rayonunun hər dəfə yaradılıb ləğv edilməsi ilə əlaqədar Eçmiədzin rayonu da ərazi dəyişikliyinə məruz qalmışdır. 1937-ci ilin dekabrında rayonun ərazisindən 14 kənd alınıb Zəngibasar rayonuna verilmiş, 1940-cı illərdən sonra həmin kəndlər yenidən, 1969-cu ildə 2-ci dəfə bərpa olunan Zəngibasar rayonununa verilmişdir.

1918-1920-ci illərdə rayonun indiki ərazisində yerləşən kəndlərin əhalisi ermənilərin (hayların) soyqırımına və deportasiyasına məruz qalmışlar. Bu kəndlərdən yalnız Aşağı Qarxun (Şərifabad, 1946-cı ildən Araks) və Qarğabazarı (1967-ci ildən Haykaşen) kəndlərinin əhalisinin cüzi bir hissəsi Ermənistan Respublikasında (1918-1920) sovet hakimiyyəti qurulduqdan (1920-ci il sentyabrın 29-u ) sonra, yəni 1922-ci ildə doğma yurdlarına qayıtdılar.

Soyqırım zamanı dağılmış və əhalisi qovulmuş kəndlərdə ermənilər (haylar) yerləşdirilmişdir. Elə o vaxtdan da hər iki kənd qarışıq kənd olmuşdur. Dağılmış evlərini və təsərüfatlarını bərpa edərək dinc yaşamağa başlayan bu iki kəndin əhalisi bir müddət sonra, yəni 1948-ci ildə zorla Azərbaycan SSR-yə köçürüldü. Elə o vaxtdan da rayonun indiki ərazisində bir nəfər də olsun türk (azərbaycanlı) yaşamayıb.





## KOLANLI KƏNDİ

## ZAKİR SƏFƏROĞLU (1947)

***Zakir Səfər oğlu Bayramov – tərcüməçi***

1947-ci il mart ayının 1-də Qərbi Azərbaycanın Ağrı vadisinin Kolanı kəndində [indiki Ermənistan Respublikasının Eçmiədzin (Üçkilsə) (keçmiş Vağarşabad) rayonu] anadan olmuşdur. 1949-cu ildə ailəliklə Azərbaycan Respublikasının Bərdə rayonundakı Alpout kəndinə köçmüşlər. Burada kənd orta məktəbini bitirdikdən sonra M.F.Axundov adına Azərbaycan Xarici Dillər İnstitutunun ingilis dili fakültəsində ali təhsil almışdır (1966-1971).

İnstitutu fərqlənmə diplomu ilə bitirdiyinə görə gənc mütəxəssis kimi institutda saxlanmışdır (1971). Burada müəllimlik etməklə yanaşı, bədii tərcümə ilə də məşğul olmuşdur. İngilis dilindən ilk bədii tərcüməsi Amerika yazıçısı Con Ridin "Amerikalı dələduz" adlı hekayəsi 1970-ci ildə "Bilik" qəzetində çap olunmuşdur.

Hazırda həmin institutda baş müəllim vəzifəsində çalışmaqla bərabər, ABŞ-ın Bakı şəhərində tərcümə xidmətləri göstərən "Universe Technical Translation" şirkətinin tərcüməçisi kimi də fəaliyyət göstərir.

**Tərcümələri (ingilis dilindən):**

1. Başsız qadın (Britaniya adalarının xalq nağılları). Bakı, Gənclik, 1989, 320 səh., 30000 nüs (şərikli).
2. Dünya xalqlarının nağılları. Bakı, Gənclik, 1990, 552 səh., 35000 nüs (şərikli).

3. Ceyms Moriyer. İsfahanlı Hacıbabanın macəraları. Bakı., Gənclik, 1993, 408 səh., 12000 nüs (şərikli).
4. Somerset Moem. Ay və qara şahı. Bakı, Azərbaycan Dövlət nəşriyyatı. 1993, 200 səh., 6000 nüs (şərikli).

## QARĞABAZAR KƏNDİ

### RÜSTƏM BAĞIR
*(1939)*

***Rüstəm Ələkbər oğlu Bağırov – şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü (1999)***

1939-cu il avqustun 10-da Qərbi Azərbaycanın Ağrı vadisində Qarğabazar kəndində [indiki Ermənistan Respublikasının Eçmiədzin (Üçkilsə) (keçmiş Vağarşabad) rayonu] anadan olmuşdur. Burada kənd məktəbinin dördüncü sinfini başa vurduğu il ermənilərin deportasiya siyasətinə məruz qalan ailə üzvləri Azərbaycana, Sabirabad rayonunun Həşimxanlı kəndinə köçmüşlər. Orta məktəbi bitirdikdən sonra iki il kolxozda işləmişdir. Azərbaycan Dövlət Pedaqoji İnstitutunda təhsilini davam etdirmişdir (1960-1964). Sabirabad rayonunda müəllim, Kovlar kənd səkkizillik, sonra axşam onbirillik məktəblərində direktor olmuş (1964-1966), sonra Bakıya köçmüş və burada tərbiyəçi müəllim, Bakı Kitabxanaçılıq Texnikumunda direktor işləmişdir (1970-1978). Bir müddət partiya-sovet orqanlarında çalışmış, Azərbaycan Dövlət Plan Komitəsinin normativ-tədqiqat bürosuna işə dəvət olunmuş, burada yeddi il işləmişdir. Hazırda Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyində İdarə rəisinin müavini vəzifəsində çalışır (1992-ci ildən). Bədii yaradıcılığa erkən başlamışdır. İlk mətbu şeiri 1955-ci ildə Sabirabad rayon qəzeti – "Pambıq





cəbhəsi"ndə dərc olunmuşdur. Dövri mətbuatda şeirləri vaxtaşırı çap edilir. "Bir ömür yaşadım mən bu dünyada" (1997), "Niskilli naxışlar" (1998) şeirlər toplusu kütləvi tirajla nəşr olunmuşdur.

# QƏRBİ AZƏRBAYCANIN BORÇALI MAHALI



## QƏRBİ AZƏRBAYCANIN BORÇALI MAHALININ BORÇALI VƏ LORU NAHİYƏLƏRİ




1880-ci il mayın 6-da Tiflis quberniyasının tərkibində Borçalı qəzası yaradıldı. Qəza 4 nahiyəyə (pristavlığa) bölünmüşdü: Borçalı, Loru, Yekaterinenfeld və Trialet.

Borçalı nahiyəsinə : 1. Baydar, 2.Gorarxi, 3. Dəmirçi-Həsənli, 4. Qaçağan, 5. Körpülü, 6.Qırxlı, 7. Sadaxlı, 8.Saral, 9.Cockən, 10. Şınıx, 11. Şulaver kənd cəmiyyətləri (sovet dövründə (1920-1991) kənd sovetlikləri) daxil idi.

1888-ci ildə Borçalı qəzasında 13 529 ev(tüstü) olmuşdur ki, burada da 101 847 nəfər (56 180 kişi, 45 667 qadın) yaşamışdır. Bunlardan 4 928 ev (33 036 nəfər: 19 143-ü kişi, 13 893-ü qadın)

türklərə (həmin dövrdə türklərə tatar deyilirdi), 846 ev (6024 nəfər: 3 095-i kişi, 2 929-u qadın) ruslara, 2 636 ev (19 886 nəfər: 10 021-i kişi, 8 965-i qadın) yunanlara, 4 218 ev (37 832 nəfər: 20 673-ü kişi, 17 159-u qadın ) ermənilərə (haylar), 560 ev (4 159 nəfər : 2 304-ü kişi, 1 845-i qadın) gürcülərə, 272 ev ( 1 578 nəfər: 766-ı kişi, 812-i qadın) almanlara, 41 ev (167 nəfər: 127-i kişi, 40-ı qadın) kürdlərə, 14 ev (24 nəfər: 20 –i kişi, 4-ü qadın) imeretilərə, 1 ev (1 kişi) yəhudiyə, 1 ev (1 nəfər kişi) farsa aid idi.

Həmin dövrdə Tiflisdə canişinliyin və quberniyanın statistika idarələrində çoxlu erməni (hay) və başqa qeyri-müsəlmanlar işlədiyinə görə siyahıyaalma zamanı ermənilərin yaşadığı kəndlərin əhalisinin sayını çox yerdə türklərdən (azərbaycanlılar) artıq göstərməyə çalışmışdılar. Bunu biz Borçalı qəzasının Loru nahiyəsinin əhalisinin sayında daha çox hiss edirik. Qəza üzrə türklərin ailələrinin sayı ermənilərdən 770 nəfər çox olduğu halda erməni əhalisinin sayı 4 796 nəfər (37 832 nəfər erməni(hay), 33 038 nəfər türk (azərbaycanlı)) çox göstərilir. Buradan belə nəticə çıxır: hər türk (azərbaycanlı) ailəsində təxminən 6 nəfər düşdüyü halda, erməni (hay) ailəsinə təxminən 9 nəfər düşür. Minillər boyu bu ərazinin köklü əhalisi olan türklərin (azərbaycanlıların) ailələrində yaşayanların sayının XVIII sonlarında müxtəlif yollarla, xüsusən də, XIX əsrin 30-cu illərinin əvvəllərindən Rusiya dövləti tərəfindən köçürülən gəlmə ermənilərin ailələrində yaşayanların sayından türklərin (azərbaycanlıların) sayının az olması özü şübhəlidir. Bu halı o dövrdə Azərbaycanın bir çox qəzalarında yaşayan ermənilərin (hayların) saylarını göstərən rəqəmlərdə də görürük. Buradan belə bir nəticə çıxır ki, Rusiya (bu siyasət sonralar SSRİ dövründə də davam etdirilmişdir) dövləti həmişə Cənubi Qafqazda özünə arxa bildiyi xristianların sayının müsəlmanlara, xüsusilə də, türklərə (azərbaycanlılara) nisbətən çox olmasına çalışmışdır.

Borçalı nahiyəsində 3 022 evdə19 109 nəfər yaşamışdır ki,





bunların da 12 377 nəfəri türk (azərbaycanlı, 6 722 nəfəri isə erməni (hay) olmuşdur.

Türklər (azərbaycanlılar), əsasən, Baydar, Gorarxı, Dəmirçi-Həsənli, Qaçağan, Körpülü, Qırxlı, Sadaxlı, Saral kənd cəmiyyətlərində, ermənilər (haylar) isə Cöckən (Çöçyən), Şınıx, Şulaver kənd cəmiyyətlərində yaşayırdılar.

1914-18-ci illərdə baş vermiş Birinci Dünya müharibəsi zamanı çar hakimiyyəti 1917-ci il fevralın 23-də baş vermiş çevriliş nəticəsində devrildi və müvəqqəti hökumət yaradıldı. 1917-ci il oktyabrın 25-də ( 7 noyabrın) bolşevik çevrilişi oldu və Kerenski hökuməti xaricə qaçdı. Cənubi Qafqazda Cənubi Qafqaz Seymi fəaliyyət göstərdi (1918-ci ilin əvvəlləri). 1918-ci il aprelin 22-də seym tərəfindən Cənubi Qafqaz Müstəqil Federativ Respublikası yaradıldı. 1918-ci il mayın sonunda, yəni 27-də Gürcüstan, 28-də isə Azərbaycan və Ermənistan fraksiyası öz müstəqil dövlətlərinin yarandığını elan etdilər.

Bakı neftini ələ keçirmək üçün böyük dövlətlər – İngiltərə, Fransa, Almaniya, Sovet Rusiyası arasında ölüm-dirim savaşı gedirdi. Osmanlı dövləti də Almaniyanın müttəfiqi kimi Bakı neftindən pay almaq istəyirdi.

1918-ci ilin yayında Borçalı ərazisini (Sənain stansiyasına qədər) alman qoşunları tutmuşdular.Gürcülərin yenicə yaradılmış hərbi hissələri də onlarla birlikdə idi. Gümrü, Cəlaloğlu və Kolagirən isə Osmanlı dövlətinin qoşunlarının nəzarəti altında idi. Yerli müsəlman əhalisi almanların bu ərazini işğal etmələrinin əleyhinə idilər. Onlar Azərbaycana birləşmək arzularını yazılı şəkildə dəfələrlə Azərbaycan hökumətinə bildirmişdilər. Borçalı qəzasında və Qarayazı mahalında əhalinin 90%-dən çoxunu türklər (azərbaycanlılar) təşkil edirdi.

1918-ci il oktyabrın 18-də Osmanlı qoşunları bu ərazilərdən çıxdılar və onların əvəzinə Gümrüyə və ətraf ərazilərə alman hərbi hissələri yerləşdilər. Bir müddət sonra Birinci Dünya

müharibəsində məğlub olan almanlar (noyabrın 11-də Antanta dövlətləri ilə Almaniya arasında Kompyen (Fransada) barışığı imzalandı) da bu ərazilərdən qoşunlarını çıxarmağa məcbur oldular. Beləliklə,qəzanın çox hissəsi gürcü qoşunları tərəfindən tutuldu.

Osmanlı dövlətinin (Türkiyə) və Almaniyanın qoşunları bu əraziləri tərk etdikdən sonra ermənilər (haylar) vəziyyətdən istifadə edərək Borçalı ərazisinə hücum edərək təxminən oktyabrın 19-dan dekabrın17-ə kimi fasilələrlə gürcü hərbi hissələri ilə döyüşlər apardı. Bu dövrdə hər iki tərəf arasında aparılan danışıqlar nəticəsiz qaldı və nəticədə, dekabrın 19-da hər iki tərəf müharibənin rəsmi olaraq başlamasını elan etdilər. Dekabrın 17-31-də Şulaver, Ləmbəli, Xocornu, Cöckən, Ayrım, Bəytərəfçi(Betarafçı) kəndlərini əhatə edən geniş bir ərazidə qanlı döyüşlər oldu. Bu zaman Borçalıda yaşayan müsəlmanlar, yəni türklər (azərbaycanlılar) gürcülərə, Qazax qəzasında və Borçalı qəzasında, hətta Tiflis şəhərində yaşayan ermənilər (haylar) isə Ermənistan Respublikasının (1918-1920) qoşunlarına kömək edirdilər. Döyüşdə məğlub olacağını anlayan ermənilər (haylar) dekabrın 31-i saat 24-də müharibənin dayandırılmasına razı oldular. Müharibənin dayandırılmasında ingilislərin də rolu olmuşdur.

1919-cu il yanvarın 9-dan 17-dək Tiflisdə keçirilən Ermənistan-Gürcüstan konfransında Borçalı qəzasında neytral zona yaradılması qərara alındı:

a) Borçalı neytral zonasının şimal sərhədi Gürcüstan qoşun hissələrinin 1918-ci il dekabrın 31-də saat 24-dək tutduğu ayıran xətt olsun;

b)Borçalı qəzasının neytral zonasında Əyridaz dağı, Yırğançay kəndinin üstündəki sıra dağlar, 789 yüksəklikdə xətt, sonra Uludaş (855,5) yüksəkliyində 675 yüksəkliyi, Saatlı kəndi, 910 yüksəkliyi, 995 yüksəkliyi, Candar kəndi, Ağkörpü





kəndi, Opret kəndində düz xətt-492 yüksəkliyi, Xocornu yaxınlığındakı kilsənin uçuqları, Bərdəzor kəndi, Sadaxlı kəndi, Sadaxlı stansiyası, Sadaxlıdan şimaldakı 1 554 yüksəkliyi, 2 680 yüksəkliyi (Təpədağ), Haçaqayadan şimaldakı "Bulaq" yazısı olan yer, Palıdlıbaş dağı, Yırğançay, Saatlı, Candar, Ağkörpü, Opret, Xocornu, Bərdəzor, Sadaxlı kəndləri layihə xəttindən şimalda qalır.

Neytral zonanın cənub sərhədi türklərə məxsus olmuş Disix-Cəlaloğlu hesab edilir. Bu Gürcüstanla Ermənistanın indiki sərhədi ilə eynidir.

Bu bölgüyə görə, Borçalı qəzası üç yerə parçalandı:şimal hissə Gürcüstana, cənub hissə Ermənistana verilir, Loru nahiyəsi isə neytral zona elan edilir. Qeyd edək ki, əhalisinin əksəriyyəti türklər (azərbaycanlılar) olan ərazinin taleyini ermənilər (haylar) və gürcülər həll edirlər. Həmin dövrdə Daşnak Ermənistanı (1918-1920) Azərbaycan Respublikasına (1918-1920) da torpaq iddiaları irəli sürərək Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, Göyçə mahalında, Qazax qəzasının Dilican nahiyəsində və Qarabağ mahalında qırğınlar törətməkdən də çəkinmirdi. Başı bu ərzilərdə qırğınların qarşısını almağa çalışan Azərbaycan Respublikasının dövləti və hökuməti borçalıların gələcək taleyinin həll olunması məsələlərinə müdaxilə etməkdə aciz idi. Burada müəyyən beynəlxalq qüvvələrin də borçalıların taleyinə biganə qalmalarını unutmaq olmaz. Bunu həmin dövrlərdə (1918-20-ci illər) ərazidə olan ingilislərin, almanların və sonra da Sovet Rusiyasının hərəkətlərində aydın görürük.

Sonra konfransda Borçalı və Axalkələk zonalarında Gürcüstan və Ermənistan qoşunlarının sayı, ordudan tərxis, hərbi əsirlərin dəyişdirilməsi, girovların buraxılması, Borçalı neytral zonasının idarə olunması və başqa məsələlər də müzakirə olundu və müəyyən razılıqlar əldə olundu. Zonanın idarə olunması ingilislərin nəzarəti ilə qarışıq komissiyaya həvalə edildi.

1919-1920-ci illərdə neytral zonada yenə də hərc-mərclik hökm sürürdü. Ona görə də Gürcüstan parlamenti 1919-cu ilin dekabrında "Borçalı qəzasının neytral zonasında milisi gücləndirmək haqqında" 1920-ci ilin fevralında "Neytral zonada dəmiryol milisi" barədə qərar və qanun qəbul etdi.

1920-ci il aprelin 28-də artıq Azərbaycan Demokratik Respublikası Sovet Rusiyasının XI Qızıl Ordusu tərəfindən işğal olundu və proletariat diktaturası quruldu. Bir müddət sonra, yəni 1920-ci il iyunun 12-də Azərbaycan SSR ilə Gürcüstan Demokratik Respublikası arasında Azərbaycan SSR-nin Ağstafa məntəqəsində müqavilə imzalandı. İngilislər bir müddət Borçalının neytral zonasını qoruyandan sonra çıxıb getdilər.

1920-ci ilin sentyabrında türk qoşunu Loru neytral zonasına yaxınlaşdı. Bu zaman Ermənistan Respublikasının daşnak liderləri kömək üçün Gürcüstana müraciət etdilər. Nəhayət, noyabrın 13-də Gürcüstan Respublikası ilə Ermənistan Respublikası arasında saziş imzalandı və bu sazişə əsasən Gürcüstan qoşunları neytral zonaya daxil oldular. Razılaşmaya görə, üç ay müddətində Loru neytral zonasına nəzarət müvəqqəti olaraq Gürcüstan Respublikasının qoşununa həvalə edildi.

1920-ci il noyabrın 29-da Ermənistan Respublikasında (Daşnak Ermənistanında) də Sovet hakimiyyəti bərqərar oldu. Sovet Rusiyasına arxalanan erməni (hay) bolşevikləri yenidən fəallaşdılar. Onlar Tiflisə notalar göndərərək daşnakların əvvəlki razılığının Ermənistan SSR üçün məcburi olmadığını bildirdilər və Gürcüstan Respublikasından qoşunlarını Lorudan çıxartmağı tələb etdilər. Bundan sonra Gürcüstan Respublikası çıxılmaz vəziyyətə düşdü.

Sovet Rusiyası həm Azərbaycanı (28.04.1920), həm də Gürcüstanı (25.02.1921) işğal edən zaman ermənilərdən (haylardan) istifadə etmişdir. Yəni 1920-ci ilin əvvəlində Qarabağda erməni (hay) əhalisi üsyan etdiyi kimi, 1921-ci il fevralın 11-dən 12-ə keçən gecə Loruda erməni (hay) kəndlilərinin qiyamı təşkil olundu. Qiyamı təşkil edənlər XI Qızıl Ordunu köməyə çağırdılar və bir neçə gün ərzində Borçalı ərazisi menşevik hökumətinin qoşunlarından təmizləndi.





Beləliklə, Sovet Rusiyası ilə Gürcüstan Respublikası arasında bir-birinin müstəqilliklərini tanımalarına dair 1920-ci il mayın 7-də imzaladıqları müqavilə qüvvəsini itirdi. Artıq fevralın 25-də Gürcüstanda sovet üsuli-idarəsi quruldu.

Yeni yaradılmış Gürcüstan İnqilab Komitəsi imzaladığı sənədlə Borçalının Gürcüstanın, yoxsa Azərbaycanın ərazisi olmasını yerli əhalinin öhdəsinə buraxdı.

Rusiya Kommunist (bolşevik) Partiyası Mərkəzi Komitəsinin Qafqaz Bürosunun (RK(b)P MK QB) mayın 2-dəki plenumu Cənubi Qafqazda ərazi məsələlərini "nizama salmaq"məqsədilə xüsusi komissiya yaratdı. Komissiya 3 dəfə iclas keçirdi (iyulun 25-28-i arasında). İclaslara S.M.Kirov rəhbərlik etmişdir.

Komissiyanın iclasında Gürcüstandan-A.Svanidze, Todria, Ömər Faiq Nemanzadə; Azərbaycandan – Mirzə Davud Hüseynov, M.Hacınski, A.Rəsulzadə; Ermənistandan isə A.Bekzadyan və başqaları iştirak edirdilər. İclasın 1-ci günü Ermənistanın nümayəndə heyəti 1921-ci ilin martında Sovet Rusiyası ilə Türkiyə arasında bağlanan müqavilədən (martın 16-da Moskvada Rusiya Sovet Federativ Sosialist Respublikası (RSFSR) ilə Türkiyə arasında "Dostluq və qardaşlıq haqqında" müqavilə imzalandı) Ermənistanın kifayət qədər ərazisi olmadığını xatırlatdılar, Gürcüstanın və Azərbaycanın müəyyən torpaqlarının Ermənistana verilməsi təklifini irəli sürdülər. İclasda Loru neytral zonası məsələsinə ayrıca baxıldı. Ermənilər (haylar) bu ərazinin bütövlüklə Ermənistana verilməsni tələb etdilər. Gürcülər isə Lorunun şərq hissəsinin Ermənistana, qərb hissəsinin isə Gürcüstana verilməsi təklifini irəli sürdülər. 2-ci iclasda (iyunun 26-da) gürcülər neytral zonanın şərq

hissəsinin Ermənistana güzəştə gedilməsini, qərb hissəsində isə xalq səsverməsi keçirilməsini təklif etdilər. Ancaq bu təklifi Ermənistan nümayəndələri qəbul etmədilər. İclasın 3-cü günü (iyunun 28-də) yekdil bir nəticəyə gəlinmədiyini görən komissiya üzvləri müzakirələri dayandırmağı və mübahisəli məsələlərin həllini RK(b)P MK GB-nin öhdəsinə buraxmağı qərara aldılar. İyulun 7-də RK(b)P MK GB İosuf Stalinin iştirakı ilə Gürcüstanla Ermənistan arasında sərhəd məsələsini müzakirə etdi. Burada bütün neytral zonanın Ermənistana verilməsi qərara alındı (səs verdilər: lehinə-1, əleyhinə 1). RK(b)P MK Gafqaz Bürosunun qərarı ilə əlaqədar iyulun 16-da Gürcüstan Kommunist Partiyası Mərəzi Komitəsinin (Gürcüstan KP MK) yeni yaradılmış Siyasi Bürosunun xüsusi iclası çağırıldı və iclasda qərara alındı: "RK(b) P MK GB-nin Lorunu (neytral zonanı) Ermənistana vermək qərarı təsdiq olunsun".

1921-ci il avqustun 3-də Gürcüstan KP MK plenumunda Loru məsələsinə baxıldı. Burada qəbul olunmuş protokolda göstərilir ki, RK(b)P MK GB-da neytral zona məsələsinin müzakirəsi zamanı Gürcüstan KP MK-nın rəyi nəzərə alınmadığına görə Qafqaz Bürosundan bu məsələni təzədən müzakirə etməsi xahiş olunsun. Eyni zamanda Mərkəzi Komitə öz tərəfindən Loruda xalq səsverməsi (referendum) keçirilməsini zəruri sayır (səs verdi 5, əleyhinə 5( MK-da keçirilən müzakirənin nəticələri ilə Qafqaz Bürosu tanış edilsin).

Nəhayət, 1921-ci il noyabrın 6-da Gürcüstan İnqilab Komitəsinin sədri B.Mdivani və Ermənistan Xalq Komissarları Sovetinin sədri, xalq hərbi işlər komissarı Aleksandr Myasnikovun (Myasnikyan) imzaladıqları bəyannamə ilə Gürcüstan SSR ilə Ermənistan SSR arasında dövlət sərhədləri müəyyənləşdirildi. Yəni bu sənədə əsasən Borçalının Loru bölgəsi Ermənistan SSR-yə verildi.





Bolşeviklərin Borçalıdan Ermənistana hədiyyə verdikləri Borçalı qəzasının cənub sahələri –Loru-Vorontsovka bölgəsi 2 367,44 km², üstəlik də Lök-Ləlvər dağ silsiləsinin şimal yamacları 207,94 km² təşkil edirdi.

1922-ci il dekabr 26-da Zaqafqaziya (Cənubi Qafqaz) Sovet Sosialist Federativ Respublikasının sərhəd məsələləri komissiyasının tövsiyəsi ilə Vorontsovka bölgəsi də Ermənistan SSR-nin Loru-Pəmbək qəzasına qatıldı. Beləliklə, Borçalı parçalandı və bu zaman Borçalı qəzasının Borçalı nahiyəsinin bir neçə kəndi-Abdallı, Baraxlı, Köprülü, Ləmbəli, Ayrım, Şınıx, Arciz kəndləri, Loru nahiyəsindən Həkəri, Atan, Ağbat, Hacıdur, Aygehat, Ərdvi, Cilizə, Seyidbağlı, Qaçağan, Kərinc, Uzunlar, Əgərək, Gərgər, Güləgərə, Qoturbulaq, Çubuqlu, Loruqala, Qaraməmməd, Urud, Heydərbəy, Yağdan, İlməzli, Qaraqala, Qara İsa, Qızılkilsə (Qızıldaş), Sarıyal, Cücəkənd, Soyuqbulaq, Ağtala, Şamlıq, Cəlaloğlu, Evli kəndləri ermənilərin (haylar) əlinə keçdi. Onlar 1988-ci ilin sonuna kimi bu kəndlərin əksəriyyətinin adını dəyişdirib erməniləşdirdilər və türk əhalisini sıxışdırıb doğma yurdlarından didərgin saldılar. 1988-ci ilin noyabr-dekabr aylarında Qərbi Azərbaycanda (indiki Ermənistan Respublikası) yaşayan yüz minlərlə türk (azərbaycanlı) Moskvanın himayədarlığı və respublika rəhbərliyinin təçkilatçılığı və rayonların partiya, sovet və hüquq-mühafizə orqanlarının məsul işçilərinin iştirakı ilə yerli ermənilər (haylar) tərəfindən tamamilə qovuldu. İndi onlar Azərbaycan Respublikasının müxtəlif şəhərlərində, rayon mərkəzlərində, qəsəbələrində və kəndlərində yaşayırlar.

# BORÇALI NAHİYƏSİ
# NOYEMBERYAN (KEÇMİŞ BARANA) RAYONU




Ermənistan SSR-nin (1920-1991) tərkibində inzibati rayon. 1937-ci il dekabrın 31-də Barana adı ilə yaradılıb. Ərazisi əvvəllər Allahverdi (indi Tumanyan) rayonunun tərkibində olmuşdur. Rayon mərkəzi Barana kəndi idi. Kəndin adı 1938-ci il yanvarın 4-də dəyişdirilərək Noyemberyan qoyuldu. Bu ad Ermənistan Respublikasında (1918-1920) Sovet hakimiyyətinin 1920-ci il noyabrın 29-da qurulmasını əbədiləşdirmək üçün qoyulmuşdur. 1971-ci ildən şəhərtipli qəsəbə olmuşdur.





Rayon 1953-1954-cü illərdə ləğv edilərək Allahverdi (indiki Tumanyan) rayonuna birləşdirilib. Sonra yenə müstəqil olur. Ermənistan SSR-nin İcevan və Allahverdi rayonları, Azərbaycan SSR-nin Qazax və Gürcüstan SSR-nin Marneuli (keçmiş Borçalı) rayonları ilə həmsərhəddir. Sahəsi 538 km$^2$, əhalisi 31.2 min (1882) olmuşdur. Rayonun indiki ərazisinin bir hissəsi Gəncə quberniyasının Qazax qəzasına və bir hissəsi isə Tiflis quberniyasının Borçalı qəzasının Borçalı nahiyəsinə daxil olmuşdur.

Rayonun ərazisində qədimdən həmişə türklər yaşamışdır. Bu ərazilər 1921-ci ilin sonlarında Ermənistan SSR-nin tərkibinə qatıldıqdan sonra ermənilər (haylar) tədricən burada məskunlaşmağa başlamışdılar. Xüsusilə, 1948-1950-ci illərdə Misirdən, Suriyadan, Livandan və başqa ərəb ölkələrindən eyni zamanda Ermənistan SSR-nin və Gürcüstan SSR-nin dağlıq rayonlarından çoxlu sayda ermənilər (haylar) köçürülərək yeni yaradılmış kəndlərin ərazilərində yerləşdirildilər. Rayonun ərazisində türklər yaşayan kəndlərdə 30-cu illərdə yaradılmış kolxozlar ləğv edildi və sovxozlar yaradıldı. Bu sovxozlarda artıq ermənilər üstünlük təşkil etməyə başladılar.Yerli əhali olan türklər isə tədricən sıxışdırıldı. Rayonun ərazisindəki Ləmbəli və Yuxarı Körpülü kəndlərinin əhalisinin bir hissəsi 1948-1950-ci illərdə deportasiyaya məruz qaldı. Ləmbəlilər Göyçə mahalının Basarkeçər rayonunun Zod və Ağkilsə kəndlərinə, yuxarı körpülülər isə Qazax rayonuna köçürüldülər. Ancaq onlar ermənilərin bu siyasətinə boyun əyməyərək yenidən doğma yurdlarına qayıdaraq 1988-ci ilin sonlarına kimi burada yaşadılar. Yuxarı körpülülərdən bir çox ailə Qazaxda yaşamağa üstünlük verdi. 1988-ci ilin sonunda ləmbəlilər, körpülülər və Ayrım qəsəbəsində yaşayan onlarla türk ailəsi ermənilər tərəfindən qovuldu.

Rayonun ərazisində türklər və ermənilər (haylar) ilə birlikdə yunanlar, ruslar və almanlar (ləmbəli kəndində) yaşamışdır.

Almanlar 70-ci illərdə Almaniya Demokratik Respublikasına köçdülər. Qədimdən rayonun ərazisində türklərin yaşadığı 30-dan çox yaşayış məskəni olmuşdur: 1. Aşağı Körpülü; 2. Aşağı Şeypurxan; 3. Ayrım; 4. Balakənd; 5. Baraxlı; 6.Barana; 7.Buğakar; 8. Burma; 9. Çıraqlı; 10. Cadqıran; 11. Daşdəmir; 12. Daşxana; 13. Gəzdək; 14. Çölyeri; 15. Günəşli; 16. Keçəltəpə; 17. Kirəştəpə; 18. Köhnəkalafa; 19.Qarabulaq; 20. Qaranəbi; 21. Qarasu; 22. Qıllıçarıq; 23. Qojarvan; 24. Quruçay; 25. Ləlvər; 26. Ləmbəli; 27. Mürşüdlü; 28. Yeldağı; 29. Yeldəyirmanı; 30.Yuxarı Körpülü; 31. Yuxarı Şeypurxan.

Bu yaşayış məntəqələrinin bir hissəsi XVIII-XIX əsrlərdə ləğv edilmiş, əhalisi başqa yerlərə köçürülmüşdü. Bunların çoxu Ermənistan SSR hökumətinin 20-30-cu illərdə həyata keçirdiyi inzibati ərazi islahatları zamanı ləğv edilmişdi.

1970-ci ilin məlumatına görə rayonun ərazisində 2 şəhər tipli qəsəbə (Ayrım və Noyemberyan (Keçmiş Barana)), 9 kənd sovetliyi (1. Aşağı Körpülü; 2. Ərciz (Arcis); 3. Kipara; 4. Xoşkotan; 5. Kotah; 6. Qalaça; 7. Qoxb; 8. Qurumsulu; 9.Baqrataşen (Ləmbəli), 20 kənd və qəsəbə (1. Aşağı Körpülü; 2. Ayrım (Ayrum) qəsəbəsi; 3. Ayrım dəmiryol stansiyası; 4. Boğanis; 5. Balakənd; 6. Barana; 7. Bdğavan; 8. Cücəvəng; 9. Debedavan; 10. Əskipara; 11. Ərciz (Arcis); 12. Xoşkotan; 13. Kotgah; 14. Qalaça; 15. Qoxb; 16. Qomsavar; 17. Qozman; 18. Qurumsulu; 19. Baqrataşen (Ləmbəli); 20. Yuxarı Körpülü) olmuşdur.

1930-1970-ci illərdə rayonun ərazisində adları dəyişdirilmiş kəndlər aşağıdakılardır:

1. Aşağı Körpülü-Haxtanak-25.01.1970.
2. Balakənd-Dovex
3. Baraxlı -2-ci məntəqə - Desedovan
4. Barana-Noyemberyan - 4.01.1938
5. Debedaşen – Baqrataşen - 25.01.1978





6. Dostlu- Bareqamevan -25.01.1978
7. Əskipara-Voskepar
8. Xoşkotan- Vosgevan-25.01.1978
9. Kotgah – Şavarsavan-15.06.1964.
10. 2-ci məntəqə – Debadavan
11. Qalaça- Berdavan-25.01.1978
12. Quruçay-Meyvəli-Btğavan-1949
13. Qurumsulu-Dostluq
14. Ləmbəli – Debedaşen -18.06.1960
15. Yuxarı Körpülü – Verin Körpülü -25.01.1978

1978-ci ilin sonuna kimi rayonun ərazisində yalnız Ayrım dəmiryol stansiyası (qarışıq-türk və erməni), Ayrım qəsəbəsi (qarışıq-türk, erməni, rus, yunan), Baqrataşen (keçmiş adı Ləmbəli, Debedaşen) (qarışıq-türk, erməni, rus, yunan, alman), Debedavan (keçmiş adı Baraxlı, 2-ci məntəqə) (qarışıq-türk, erməni, rus, alman), Haxtanak (keçmiş adı Aşağı Körpülü) (qarışıq-türk, erməni), Btğavan (keçmiş adı Quruçay) (qarışıq-türk, erməni, rus), Verin Körpülü (keçmiş adı Yuxarı Körpülü) (sırf türk kəndi) kəndlərində türklər (azərbaycanlılar) yaşamışdır.

# LƏMBƏLİ KƏNDİ (İNDİKİ BAQRATAŞEN QƏSƏBƏSİ)

## BİLAL ƏNSƏR
*(1935)*

***Bilal Əhməd oğlu Ənsərov -şair, publisist, Azərbaycan Yazıçılar Birliyinin üzvü (2001)***

1935-ci il fevralın 10-da Qərbi Azərbaycanın Borçalı mahalının Borçalı nahiyəsinin Ləmbəli kəndində [indiki Ermənistan Respublikasının Noyemberyan rayonunun (keçmiş Barana) Baqrataşen qəsəbəsi] anadan olmuşdur. Burada kənd orta məktəbini bitirdikdən sonra ordu sıralarında xidmət etmişdir (1954-1957).

Ordudan tərxis olunduqdan sonra doğma kənddə bir müddət fəhləlik etmişdir. Azərbaycan Dövlət Universitetinin filologiya fakultəsinin kitabxanaçılıq şöbəsində qiyabi ali təhsil almışdır. (1958-1963). Əmək fəaliyyətinə doğma kənd məktəbində müəllim kimi başlamışdır (1963-cü ildən). Sonra orada təlim-tərbiyə və tədris işləri üzrə direktor müavini vəzifəsində çalışmışdır. Bədii yaradıcılığa erkən başlasa da, ilk mətbu şeiri – "Telefonçu qız" 1963-cü ildə "Sovet Ermənistanı" qəzetində dərc edilmişdir.

Dağlıq Qarabağ hadisələri dövründə deportasiyaya məruz qalan həmkəndliləri ilə birlikdə köçüb Bakı şəhərində məskunlaşmışdır. Uzun illər "Vətən səsi" qəzetində müxbir vəzifəsində çalışmışdır (1990-2012). Şeirləri və publisist yazıları dövri mətbuatda vaxtaşırı çap olunur.

**Əsərləri:**

1. Dünyaya gəlmişəm ki... Bakı 1994, 48 səh., 1.000 nüs.
2. Qiyamətə qalmayan qisas, Bakı., 1999, 80 səh., 500 nüs.
3. Alo, Ləmbəli? Bakı., 2001, 75 səh., 1.500 nüs.
4. Tek Yaprak (Hayatımın kitabı). İstanbul, Elçi, 2003, 96 sah.





5. Ağrıdağlı qəhrəmanlar. Bakı, Nurlan, 2004, 88 səh., 1000 nüs.
6. Türklərə qarşı törədilmiş erməni terrorunun qısa xronikası. Bakı, Adiloğlu, 2009, 175 səh., 500 nüs.
7. Buza dönmüş beşiyim. Bakı, "Bayram-oğlu".2010-239 səh.

## ƏHMƏD HÜSEYNOV
*(1933-2006)*

***Əhməd Məhəmməd oğlu Hüseynov – publisist, nasir***

1933-cü ildə Qərbi Azərbaycanın Borçalı mahalının Borçalı nahiyəsinin Ləmbəli kəndində [indiki Ermənistan Respublikasının Noyemberyan rayonunun (keçmiş Barana) Baqrataşen qəsəbəsi] anadan olub. Atası ikinci Dünya müharibəsində həlak olub. Ata babası Hüseynqulu Cəfərqulu oğlu Cənubi Azərbaycanın Urmiya vilayətindəndir.

Orta təhsilini 1942-1953-cü illərdə Ləmbəlidə, ali təhsilini isə 1953-1957-ci illərdə Gəncə şəhərində Həsənbəy Zərdabi adına Kirovabad Dövləti Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyatı fakultəsində almışdır. Ali təhsilini başa vurub doğma kəndinə qayıdır və orada müəllim işləyir. 1988-ci ilin məlum hadisələrindən sonra Bakıda məskunlaşan Əhməd müəllim 1998-ci ilə kimi pedaqoji fəaliyyətini 151 saylı məktəbdə davam etdirir. 1998-ci ildə təqaüdə çıxır və bədii yaradıcılıqla məşğul olur. 2006-cı il avqustun 2-də vafat edib.

**Əsərlər:**

1. Borçalıda qalan izlər( povest və hekayələr). Bakı, «Günəş», 1999 (Sahib Hüseynovla birlikdə)
2. İftixarlarımız. Bakı, «Nurlan», 2005.

## MƏMMƏD SÜLEYMANOĞLU
## (1039)

***Məmməd Süleyman oğlu Məmmədov – həkim-jurnalist***

1939-cu ildə Qərbi Azərbaycanın Borçalı mahalının Borçalı nahiyəsinin Ləmbəli kəndində [indiki Ermənistan Respublikasının Noyemberyan rayonunun (keçmiş Barana) Baqrataşen qəsəbəsi] anadan olub. Atası Süleyman Xasməmməd oğlu (Dosular tayfası) İkinci Dünya müharibəsinin tərkib hissəsi olan Almaniya-SSRİ müharibəsində (Böyük Vətən müharibəsi) həlak olub. Anası Cavahir Mustafa qızının (Ayvazlı tayfası) himayəsində böyüyüb. Orta təhsilini Ləmbəlidə və qonşu Qasımlı kəndində alıb. 1957-ci ildə Ləmbəli 2 saylı orta məktəbini bitirdikdən sonra bir neçə il Ləmbəli kəndinin sovetliyinə daxil olan şərab zavodunda fəhlə işləyib. Sonra Bakıda 1963-1969-cu illərdə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsində ali təhsil alıb. Eyni vaxtda Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsinə də daxil olub. O dövrün qanunlarına görə iki ali məktəbdə eyni vaxtda ali təhsil almaq mümkün olmadığı üçün universiteti 70-ci illərdə bitirib. Ali təhsilini başa vurduqdan sonra Azərbaycan Səhiyyə Nazirliyinə işə göndərilib. Bir müddət nazir köməkçisi olub.Eyni zamanda 2 saylı Ruhi-əsəb xəstəxanasında həkim də işləyib. O bu xəstəxanada 35 ildən çox xəstələrə şəfa verib. Məmməd Süleyman oğlu uzun müddət Binəqədi Hərbi Komissarlığında həkim komissiyasında ordu sıralarına sağlam gənclərin seçilməsində də yaxından iştirak edib.

Uzun illər Azərbaycan Təbabəti Muzeyinin direktoru vəzifəsini yerinə yetirib. Eyni zamanda Azərbaycan Dövlət Tibb Universitetinin sosial-gigiyena və səhiyyənin təşkili kafedrasının müəllimidir.





Məmməd Süleymanoğlunun həyatının bir hissəsini də elmi-publisistik yaradıcılıq təşkil edir. O hələ orta məktəbin yuxarı siniflərində oxuyan zaman ilk yaradıcılıq məhsullarım "Sovet Ermənistanı", "Sovet Gürcüstanı", "Axali Marneuli" (gürcü dilində), "Siasan" ["Göyqurşağı" (erməni dilində)], "Kommunizmi hamar" ["Kommunizm uğrunda" (erməni dilində)], "Stalin yolu", "Al sayraq" və s. qəzetlərdə çap etdirmişdir.

Qeyd etdiyimiz kimi, o həm də Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini də (qiyabi şöbəsini) bitirmiş və bu da onun gələcəkdə peşəkar həkim olduğu kimi, peşəkar jurnalist olmasına da təkan vermişdir. İndi o məktəb illərindəki kimi kiçik həcmli məqalələr yox, sanballı oçerklər və məzmunlu kitablar yazaraq çap etdirir. O tibb təhsili alan zaman institutun "Tibb kadrları uğrunda" qəzetinin əsas yazarlarından biri olmuşdur. Ailəlidir: bir oğlu, üç qızı var. Hamısı ali təhsillidir.

**Əsərləri:**

1. Qadın zəkası. Bakı, 1975 (Rizvan Cavadov ilə birlikdə).
2. Alkoqolizmin tibbi-sosial aspektləri(Əhməd Abbasquliyev ilə birlikdə). Bakı, "Azərnəşr", 1979.
3. Ömrünüzü qısaltmayın. Bakı, "Azərnəşr", 1984.
4. Ömürlər uğrunda ömür. Bakı, "Gənclik", 1980.
5. Xeyirxahlığa tələsin. Bakı, "Yazıçı", 1982.
6. And içirəm. Bakı, "Azərnəşr", 1987.
7. Nizami və təbabət. Bakı, "Təbib", 1988.
8. Qalacaqdır dünyada (Akademik Adilə Namazova haqqında) Bakı, 2006
9. Azərbaycanın səhiyyə nazirləri. Bakı, 2008.

## VƏLİ LƏMBƏLİ
## (1927-2001)

***Vəli Qoca oğlu Seyidov - nasir, publisist, Azərbaycan Yazıçılar Birliyinin üzvü (1989), əmək veteranı (1984)***

1927-ci il sentyabrın 15-də Qərbi Azərbaycanın Borçalı mahalının Borçalı nahiyəsinin Ləmbəli kəndində [indiki Ermənistan Respublikasının Noyemberyan rayonunun (keçmiş Barana) Baqrataşen qəsəbəsi] anadan olmuşdur. Burada kənd orta məktəbində təhsil almışdır (1937-1947). Azərbaycan Qazax Dövlət Müəllimlər İnstitutunda təhsilini davam etdirmişdir (1947-1950). Əmək fəaliyyətinə Ləmbəli kənd orta məktəbində Azərbaycan dili və ədəbiyyatı müəllimi kimi başlamışdır (1950). Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyatı fakültəsində təhsilini qiyabi davam etdirmişdir (1963-1967). Bədii yaradıcılığa 50-ci illərdən başlasa da, "Çoban qardaş" adlı ilk şeiri 1956-cı ildə dərc olunmuşdur. Şeirləri, publisist məqalələri və hekayələri "Sovet Ermənistanı", "Ədəbiyyat və incəsənət" qəzetlərində, "Ədəbi Ermənistan" almanaxlarında müntəzəm çap edilmişdir. Cavad Həkimli ilə şərikli yazdığı ilk iri həcmli "İntiqam" romanı Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadəyə həsr edilmişdir. 1988-ci il noyabrın sonunda baş verən məlum hadisələr nəticəsində doğma yurdunu məcburən tərk etmiş, Bakı şəhərində yaşayıb-yaratmışdır. 1986-cı ildə SSRİ Yazıçılar İttifaqının üzvülüyünə qəbul edilmişdir.

1989-cu ildə Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuşdur.

2001-ci ildə Bakıda vəfat etmişdir.

**Əsərləri:**

1. İntiqam. Yerevan, "Haypethrat", 1963, 286 səh., 9.000 nüs. (şərikli).





2. Ədalət. Yerevan, "Haypethrat", 1974,325 səh., 2.000 nüs.
3. Haqq harayları. Bakı., "Yazıçı", 1987, 165 səh., 10.000 nüs.
4. Ləmbəli fəryadı. Bakı, "Yazıçı", 1995, 109 səh., 2.000 nüs. (şərikli).
5. Dağlarda kişnərti (roman). Bakı, "Yurd", 1999, 224 səh., 2000 nüs.
6. Ləlvar (şeirlər və pyes). Bakı, Nurlan, 2002, 293 səh., 500 nüs.

## SƏFALI NƏZƏRLİ
## (1948)

***Səfalı Avdal oğlu Nəzərli –publisit, jurnalist, naşir, Azərbaycan Jurnalistlər Birliyinin üzvü (1979), Azərbaycan Yazıçılar Birliyinin üzvü (2007)***

1948-ci il dekabrın 14-də Qərbi Azərbaycanın Borçalı mahalının Borçalı nahiyəsinin Ləmbəli kəndində [indiki Ermənistan Respublikasının Noyemberyan rayonunun (keçmiş Barana) Baqrataşen qəsəbəsi] anadan olub. Orta təhsilini Ləmbəli 2 saylı orta məktəbində alıb. 1966-1968-ci illərdə zavodda operator işləyib. 1968-1970-ci illərdə hərbi xidmət keçib, zabit kimi tərxis olunub.

1975-ci ildə Azərbaycan Dövlət Universitetinin Jurnalistika fakültəsini Fərqlənmə diplomu ilə bitirib. O, respublikanın ilk ixtisaslı nəşriyyat redaktorudur. 1975-1981-ci illərdə Azərnəşrdə (Azərbaycan Dövlət Nəşriyyatında) korrektor, bədii ədəbiyyat, elmi-kütləvi və tibb ədəbiyyatı redaksiyalarında redaktor işləyib. Az KP MK-nın Marksizm-Leninizm Universitetini Fərqlənmə diplomu ilə, Moskva Poliqrafiya İnstitutunun kurslarını "əla" qiymətlərlə bitirib. 1981-1983-cü illərdə Azərkitabın (Respublika

Kitab Ticarəti Birliyinin) rəis müavini, rəisi olub. Sonra 10 il "İşıq" nəşriyyatında baş redaktor, direktor vəzifələrində çalışıb. 1993-2000-ci illərdə respublikada ilk Azərbaycan – Türkiyə birgə müəssisəsi olan "Göytürk" şirkətində baş redaktor - direktor müavini vəzifəsində, eyni zamanda "Yeni əsr" qəzetinin ilk baş redaktoru olub, "Vahid" qəzetində müxbir işləyib.

2002-2007-ci illərdə Azərbaycan Atatürk Mərkəzində baş redaktor, şöbə müdiri vəzifələrində çalışıb, Mərkəzin "Bülleten"inin məsul katibi olub.

2007-2012-ci illərdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində Ümumi şöbənin müdiri, Aparatın rəhbəri vəzifələrində çalışıb. "Dövlət və din" jurnalının redaktoru, "Cəmiyyət və din" qəzetinin Redaksiya Şurasının üzvü olub.

Ədəbi yaradıcılığa "Mənim qələmim" adlı şeirlə başlayıb. Bir çox kitabın, Azərbaycan, ingilis, türk, rus, Ukrayna və erməni dillərində yüzlərlə publisistik və elmi yazının müəllifidir. Onun "Klassik naşir", "Bütövlük", "Zamanın nəfəsi, yazıçının səsi", "Əsgər atası", "Ləmbəli həsrəti", "On dördlərdən biri", "O xatirələr, bu xatirələr", "Ləmbəlinin şair oğlu" və s. oçerkləri rəğbətlə qarşılanıb.

1970-1990-cı illərdə Sov. İKP sıralarında olub. Dünyanın 13 ölkəsinə rəsmi və turist səfərlərinə gedib. Ümumdünya türk xalqlarının VI (Bursa) və VII (Dənizli) qurultaylarında iştirak və çıxış edib. "Odlar Yurdu" Universitetində və Dnepropetrovsk Universitetinin Bakı filialında jurnalistika fənnindən dərs deyib. 1990-cı ildə müqəddəs Məkkə və Mədinə şəhərlərinə Həcc ziyarətinə gedib. Respublika "Qızıl qələm" mükafatı laureatıdır. SSRİ-nin "Əsgəri rəşadətə görə" medalı, "Əla təhsilə görə" döş nişanı ilə və Fəxri fərmanlarla təltif olunub.

Hazırda dövlət qulluğu təqaüdçüsüdür. "Ədəbi İrəvan" almanaxının redaktorudur.





Ailəlidir, 3 övladı var. Oğlu Altun Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin kapitanıdır, güləş üzrə idman ustasıdır.

**Əsərləri:**

1. Bozalqanlının ulduzu. Bakı, Azərnəşr, 1984.
2. Şirin-şəkər balamız. Bakı, "İşıq", 1984.
3. Dəniz səyyahı Sindibadın nağılı. Bakı, ASE, 1996.
4. Qiyamətə qalmayan qisas (şərikli). Bakı, "Günəş", 1999.
5. Alo, Ləmbəli. Alo Körpülü (şərikli). Bakı, ASE, 2001.
6. Heydər Əliyev Atatürk haqqında. Bakı, AzAtaM, 2003.
7. Ləmbəli. "Nurlan", 2004.
8. Heydər Əliyev Atatürk haqqında (ingilis dili). Bakı, Az AtaM, 2004.
9. Azərbaycan Atatürk Mərkəzi (albom). Bakı, AzAtaM, 2004.
10. Müdrik Atatürk. AzAtaM, 2006.
11. Alo, Ləmbəli (şərikli). Yeni varinat. Bakı, "Nurlan", 2012.

**Tərtib etdiyi:**

1. Qafqazın qəhrəman oğlu. (Azərbaycan, rus d.). Bakı, "Göytürk", 1998.
2. Azərbaycanın və Dağıstanın böyük oğlu. (Azərbaycan, rus d.). Bakı, "Göytürk", 1998.
3. Azərbaycan Atatürk Mərkəzi (buklet). Bakı, AzAtaM, 2004.
4. Əziz Əliyev. Böyük ömrün anları. Bakı, "Nurlan", 2007.
5. Şeyxülislam – alın yazısı. Bakı, "Qismət", 2009.
6. Azərbaycan Respublikasında dövlət və din münasibətlərini tənzimləyən rəsmi sənədlər. Bakı, "Orxan", 2011.
7. Hidayət (kitab-albom). (Azərbaycan, ingilis, rus d.). Bakı, "Şərq-Qərb", 2015.

## YUXARI KÖRPÜLÜ KƏNDİ

### ELŞAD QOCA
### *(1959)*

***Elşad Qoca oğlu İsayev - publisist, tərcüməçi, Azərbaycan Jurnalistlər Birliyinin üzvü (1986), Azərbaycan Yazıçılar Birliyinin üzvü (1999)***

1959-cu il mayın 2-də Qərbi Azərbaycanın Borçalı mahalının Borçalı nahiyəsinin Yuxarı Körpülü kəndində [indiki Ermənistan Respublikasının Noyemberyan (keçmiş Barana) rayonu] müəllim ailəsində anadan olub. Burada kənd orta məktəbini bitirmişdir (1976). Bir il sovxozda fəhləlik etmişdir. Sonra Azərbaycan Dövlət **Universitet**inin jurnalistika fakültəsində təhsilini davam etdirmişdir (1977-1982). Ordu sıralarında hərbi xidməti borcunu yerinə yetirmişdir (1982-1984). "Kənd həyatı" jurnalında ədəbi işçi (1984-1988), "Pioner" jurnalında korrektor, müxbir (1988-1991), "Səhər" qəzetində müxbir, Azərbaycan Gənc Publisistlər və Qəzetçilər Cəmiyyətində mədəniyyət işləri üzrə direksiya müdiri (1991-1992) olmuşdur. Sonra bir müddət "Sərhəd" qəzetində hərbi müxbir işləmişdir (1992-ci ildən). Uzun illər Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşı olmuşdur (1992-ci ildən). Hazırda pensiyaya çıxıb. Ədəbi fəaliyyətə 80-ci illərdən başlamışdır. İlk mətbu əsərləri "Pioner", "Göyərçin", "Mərhəmət", "Kirpi", "Azərbaycan qadını" jurnallarında, "Sovet Ermənistanı", "Vışka", "Sərhəd" qəzetlərində və "Vətən nəğməsi" almanaxında dərc olunmuşdur. Hekayələri rus, özbək dillərində, Türkiyə türkcəsində çap olunmuşdur. "Azərbaycanfilm" kinostudiyasının





dublyaj redaksiyası ilə sıx əməkdaşlığı nəticəsində bir sıra bədii-kütləvi filmləri, o cümlədən, uşaqların böyük maraq göstərdiyi "Bumbo da gəldi" filmini dilimizə çevirib. Döyüş bölgələrindən yazdığı reportajlara görə Respublika Həmkarlar İttifaqının təsis etdiyi mükafata layiq görülmüşdür. "Günəş" jurnalı redaksiya heyətinin üzvüdür.

**Əsərləri:**

1. Oğlum mənim, arxam mənim. Bakı, Şuşa, 1998, 168 səh., 1000 nüs.
2. Cəllad etirafı (publisistika). Bakı, Azərnəşr, 1999, 232 səh., 500 nüs.
3. Sibir dərsi (publisistika). Bakı, "Şuşa", 2000, 320 səh., 1000 nüs.
4. Azərbaycan təhlükəsizlik və xüsusi xidmət orqanları. Bakı, "Şuşa", 2000, 144 səh., 500 nüs.
5. Tariximiz və taleyimiz. Bakı, Şuşa, 2001, 176 səh., 500 nüs.
6. Azərbaycan xüsusi xidmətləri (miniatur kitab). Bakı, "Şuşa", 2004, 200 səh., 500 nüs.

### İSA KÖRPÜLÜ
### (1956-2007)

**İsa Həsən oğlu Mansurov – şair**

1956-cı ildə Qərbi Azərbaycanın Borçalı mahalının Borçalı nahiyəsinin Yuxarı Körpülü kəndində [indiki Ermənistan Respublikasının Noyemberyan (keçmiş Barana) rayonu] anadan olub. Orta təhsilini doğma kəndində, orta ixtisas və ali təhsilini isə Bakıda alıb. 1977-ci ildə Mədəni-Maarif Texnikumunu, 1992-ci ildə isə Azərbaycan Dövlət

İncəsənət İnstitutunun mədəni-maarif fakültəsini (indiki Azərbaycan Dövlət İncəsənət Universiteti) bitirib. 1977-1988-ci illərdə doğma kəndində mədəniyyət evinin müdiri işləmişdir.

1988-ci ilin sonlarında o da ermənilərin antitürk siyasəti nəticəsində doğma diyarından qaçqın düşür və Bakıda məskunlaşır. Əvvəl Azərbaycan Dövlət Statistika Komitəsində, sonra Azərbaycan Gənclər, İdman və Turizm Nazirliyi sistemində işləyib. 2007-ci il iyunun 30-da vəfat edib. Ailəlidir. Üç oğlu var (Elton, Həsən, Kərəm). Hamısı ali təhsillidir.

Əsərləri:

1. Sevməzdim bu dünyanı sən olmasaydın. Şeirlər. Bakı, "Günəş", 2002, 292 səh.
2. Gəl sağollaşaq. Bakı, "Səda", 2008, 367 səh.

## KAZIM KÖRPÜLÜ
*(1959-2014)*

***Kazım Səməd oğlu Əliyev - şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü (2005)***

1959-cu il iyulun 9-da Qərbi Azərbaycanın Borçalı mahalının Borçalı nahiyəsininm Yuxarı Körpülü kəndində [indiki Ermənistan Respublikasının Noyemberyan (keçmiş Barana) rayonu] anadan olmuşdur. Burada kənd orta məktəbini bitirmişdir (1976). Azərbaycan Dövlət Pedaqoji İnstitutunun coğrafiya-biologiya fakültəsində ali təhsil almışdır (1976-1981). Əmək fəaliyyətinə təyinatla göndərildiyi Azərbaycan SSR-nin İsmayıllı rayonunda müəllim kimi başlamışdır (1981-1987).





Məlum səbəblərə görə azərbaycanlılar Ermənistandan didərgin salındığından ailəliklə ata ocağına deyil, Bakıya üz tutmuş, burada məskunlaşmışdır.

Binəqədi rayonunun 284 saylı orta məktəbində müəllim, direktor müavini (1990-1995), təhsil şöbəsində inspektor (1995-2001), 217 saylı orta məktəbdə direktor (2001-2004), Yasamal rayonunda 308 saylı orta məktəbdə coğrafiya müəllimi (2004-2014) işləmişdir.

2014-cü il dekabr ayının 12-də Bakı şəhərində vəfat edib.

**Əsərləri:**

1. Sən qürub etməyə tələsmə, günəş. Bakı, Adiloğlu, 2004, 140 səh., 2000 nüs.
2. Bir səhvi düzəltməyə bir ömür bəs eləmir. Bakı., Adiloğlu, 2009, 68 səh., 300 nüs.

## MÖHBƏDDİN SƏMƏD
*(1942)*

***Möhbəddin Səməd oğlu Əliyev - publisist, nasir, Azərbaycan Jurnalistlər Birliyinin üzvü (1975), Azərbaycan Yazıçılar Birliyinin üzvü (1989)***

1942-ci il yanvarın 25-də Qərbi Azərbaycanın Borçalı mahalının Borçalı nahiyəsinin Yuxarı Körpülü kəndində [indiki Ermənistan Respublikasının Noyemberyan (keçmiş Barana) rayonu] anadan olmuşdur. Burada orta məktəbi bitirmişdir (1948-1958). Əmək fəaliyyətinə Abşeiron üzümçülük sovxozunda, sonra isə Bakı Şin zavodunda fəhlə kimi başlamışdır (1959-1966).

Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsində ali təhsil almışdır (1966-1972). "Bakı" axşam qəzeti və "Azərbaycan gəncləri" qəzeti redaksiyalarında (1972-1980) ədəbi işçi, "Kommunist" qəzeti redaksiyasında baş müxbir, ədəbi işçi

(1980-1991) olmuşdur. Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətində publisistika və radio musiqi şöbələrinin müdiri (1991-1994) və Cənubi Azərbaycan Radio Verilişləri baş redaksiyasının baş redaktoru vəzifəsində (1994-cü ildən) işləmişdir. Hazırda pensiyaya çıxıb.

Bədii yaradıcılığa orta məktəbdə oxuyarkən həvəs göstərmişdir. "Əsli" adlı oçerki 1958-ci ildə "Sovet Ermənistanı" qəzetində dərc olunmuşdur. Öz yaradıcılığında sənədli hekayələrə üstünlük verir. Məqalə, esse, və portret oçerkləri dövri mətbuatda müntəzəm çap olunur.

Toğrul Nərimanbəyov, Qara Qarayev, Səttar Bəhlulzadə, Fikrət Əmirov barədə elmi-kütləvi oçerkləri Yaponiya, Almaniya, Fransa, Türkiyə, Amerika və Lüksemburqda dərc edilmişdir. "Uzaq və yaxın Lütfi", "Ömür", "Musiqişünas", "Luvr" çoxseriyalı sənədli filmlərinin ssenari müəllifidir. Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif olunmuşdur (1979).

**Əsərləri:**

1. Nağıllar yalan olmur. Bakı., Yazıçı, 1983, 131 səh., 10.000 nüs.
2. Dialoqlar. Bakı, Azərnəşr, 1983,102 səh., 10.000 nüs.
3. Toğrul Nərimanbəyov. Bakı, "İşıq", 1984, 600 səh., 7.500 nüs.
4. İncəsənət ustaları. Bakı, "İşıq", 1987, 176 səh., 10.000 nüs.
5. Tofiq Dadaşov və onun psixoloji etüdləri. Bakı, Azərnəşr, 1987, 160 səh., 40.000 nüs.
6. Səsin sehri varmış. Bakı, İşıq, 1994, 178 səh., 5.000 nüs.
7. Rənglə musiqinin harmoniyası. İtaliya, Omeqa Arte, 1998, 120 səh., 2.000 nüs.
8. Dünya dahilərsiz yaşaya bilmir. Bakı, Azərbaycan Milli Ensiklopediyası NPB, 2000, 207 səh., 500 nüs.
9. Yaddaşımın yaşıdları. Bakı, Azərbaycan Milli Ensiklopediyası NPB, 2003, 473 səh., 500 nüs.





## NƏRİMAN SÜLEYMANOV
### *(1930-1995)*

***Nəriman Qoca oğlu Süleymanov - nasir, Azərbaycan Yazıçılar Birliyinin üzvü (1959), Azərbaycanın Əməkdar mədəniyyət işçisi (1977), Azərbaycan Jurnalistlər Birliyinin üzvü (1985)***

1930-cu il avqustun 15-də Qərbi Azərbaycanın Borçalı mahalının Borçalı nahiyəsinin Yuxarı Körpülü kəndində [indiki Ermənistan Respublikasının Noyemberyan (keçmiş Barana) rayonu] anadan olmuşdur. Burada orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Unersitetinin (ADU) filologiya fakültəsinin jurnalistika şöbəsində ali təhsil almışdır (1947-1952). Həmin vaxtdan "Pioner" jurnalı redaksiyasında ədəbi işçi, pioner və məktəblilər şöbəsinin müdiri, məsul katib, "Pioner" ("Günəş") jurnalının baş redaktoru vəzifəsində çalışmışdır (1977-ci ildən ömrünün sonunadək). Yazıçılar Birliyinin Təftiş komissiyası sədrinin müavini seçilmişdir (1991). Moskvada, Leninqradda, Daşkənddə, Düşənbədə və digər şəhərlərdə gənc nəslin kommunist tərbiyəsi və ədəbiyyat problemlərinə həsr olunmuş müşavirə, simpozium, konfranslarda fəal iştirak etmişdir. Əsərləri keçmiş SSRİ xalqlarının dillərinə tərcümə olunmuşdur. Macarıstan və Yuqoslaviya ölkələrində çıxan uşaq jurnallarında və almanaxlarda hekayələri çap edilmişdir. Ədəbi fəaliyyətinə 1956-cı ildə "Azərbaycan pioneri" qəzetində çıxan kiçik bir hekayə ilə başlamışdır. Üç dəfə Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif olunmuşdur.

1995-ci il aprelin 15-də dünyasını dəyişmişdir.

**Əsərləri:**

1. Balaca atlı. Bakı, "Uşaqgəncnəşr", 1956, 34səh., 10.000 nüs.
2. Qaraçı qızı. Bakı, "Uşaqgəncnəşr", 1963, 65səh., 10.000 nüs.
3. Tanışlıq. Bakı, Azərnəşr, 1963, 64 səh., 10.000 nüs.
4. Sovqat. Bakı, Azərnəşr, 1965, 64 səh., 6.000 nüs.
5. Novruzgülü. Bakı, Azərnəşr, 1966, 107 səh., 10.000 nüs.
6. Qocalar və uşaqlar. Bakı, "Uşaqgəncnəşr", 1967, 120 səh., 10.000 nüs.
7. Yetər nənə. Bakı, "Gənclik", 1971, 83 səh., 12.500 nüs.
8. Babamın bağı. Bakı, "Gənclik", 1974, 56 səh., 14.000 nüs.
9. Göy qurşağı. Bakı, "Gənclik," 1975, 163 səh., 10.500 nüs.
10. Tək çiçək. Bakı, "Gənclik", 1979, 177 səh., 10.000 nüs.
11. Əsas ürəkdir. Bakı, "Gənclik", 1983,198 səh., 10.000 nüs.
12. Ömrün iki payızı. Bakı, "Gənclik", 1986, 200 səh., 30.000 nüs.
13. Tərs külək. Bakı, Yazıçı, 1987, 213 səh., 10.000 nüs.
14. İnsan yaşayır. Bakı, "Gənclik", 1989, 260 səh., 15.000 nüs.

## ŞƏMİSTAN NƏZİRLİ
*(1942)*

***Şəmistan Əmiraslan oğlu Nəzirli - publisist, nasir, Azərbaycan Jurnalistlər Birliyinin üzvü (1978), Azərbaycan Yazıçılar Birliyinin üzvü (1985), H.Zərdabi adına mükafatın laureatı (2002)***

1942-ci il avqustun 12-də Qərbi Azərbaycanın Borçalı mahalının Borçalı nahiyəsinin Yuxarı Körpülü kəndində [indiki Ermənistan Respublikasının Noyemberyan (keçmiş





Barana) rayonu] anadan olmuşdur. Burada kənd məktəbinin səkkizinci sinfini bitirdiyi il ailəliklə Azərbaycana köçmüşlər. Dəvəçi şəhərində orta məktəbi bitirmişdir (1960). 5 saylı Bakı Texniki Peşə Məktəbinə daxil olmuşdur. Sovet Ordusu sıralarında xidməti borcunu yerinə yetirmişdir (1962-1965). Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsində ali təhsil almışdır (1967-1972). Ədəbi fəaliyyətə 1958-ci ildə "Sovet Ermənistanı" qəzetində çıxan kiçik bir məqaləsi ilə başlamışdır. Lakin 60-cı illərdən dövri mətbuatda oçerk, hekayə və publisist məqalələri ilə müntəzəm çıxış edir. Səməd Vurğun dünyası və azərbaycanlı sərkərdələrin taleyi onun ədəbi-publisist fəaliyyətinin əsas mövzusudur. Onun tərtib etdiyi general-leytenant Əliağa Şıxlinskinin "Xatirələrim" kitabı 1984-cü ildə Azərnəşr tərəfindən Azərbaycan və rus dillərində kütləvi tirajla buraxılmışdır. Əmək fəaliyyətinə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun "Gənc leninçi" qəzeti redaksiyasında ədəbi işçi kimi başlamışdır (1972-1973). Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətində hərbi vətənpərvərlik redaksiyasında redaktor, şöbə müdiri (1973-1991), Azərbaycan Dövlət Ensiklopediyasında "Xatirə" redaksiyasının şöbə müdiri (1991-1992), Respublika Müdafiə Nazirliyinin Hərbi-Elmi Tədqiqatlar və Tarix İdarəsində şöbə müdiri (1992-1996). Respublika Dövlət Televiziya və Radio Verilişləri Şirkətində "Hərbi proqramlar və salnamə" baş redaksiyasının baş redaktoru (1996-1998) işləmişdir. Hazırda Azərbaycan Respublikası Müdafiə Nazirliyində Hərbi Elmi Mərkəzin hərb tarixi şöbəsində baş elmi işçidir. Xalq şairi Səməd Vurğun haqqında silsilə əsərlərinə görə Azərbaycan Jurnalist Həmkarlar İttifaqının "Səməd Vurğun fəxri xatirə diplomu"na (1996), "Qacarlar" əsərinə görə İran Dostluq Cəmiyyətinin birinci dərəcəli mükafatına (1995), hərbi vətənpərvərlik mövzusunda tarixi publisistik əsərlərinə görə "General Həzi Aslanov" və Qazax Xeyriyyə Cəmiyyətinin təsis etdiyi "General Əliağa Şıxlınski" mükafatlarına (1995), "Qarxunlu Əşrəf bəy" sənədli povestinə görə "Elm" fondunun "İlin ən yaxşı kitabı" (1999), H.Zərdabi adı-

na Respublika mükafatına (2002) və Səməd Vurğun mükafatına (2004) layiq görülmüşdür.

**Əsərləri:**

1. Vurğun keçib bu yerlərdən, Bakı., "Gənclik", 1978, 120 səh., 18.000 nüs.
2. Vurğun ömrü. Bakı, Azərnəşr, 1982, 106 səh., 20.000 nüs.
3. Qəribə talelər. Bakı, "Gənclik", 1982, 88 səh., 10.000 nüs.
4. Vurğun keçib bu yerlərdən. Bakı, "Yazıçı", 1985, 167 səh., 30.000 nüs.
5. Əfsanəvi Mixaylo. Bakı, "Gənclik", 1988, 88 səh., 15.000 nüs.
6. Azərbaycan generalları. Bakı, "Gənclik", 1991, 208 səh., 30.000 nüs.
7. Qoridən gələn qatar. Bakı "Azərnəşr", 1993, 207səh., 8.000 nüs.
8. Qacarlar. Bakı, "Şur" nəşriyyatı, 1995, 64 səh., 3.000 nüs.
9. Cümhuriyyət generalları. Bakı, "Hərbi nəşriyyat", 1995, 211 səh., 3.000 nüs.
10. Yaddaşlarda yaşayan Vurğun. Bakı, "Şərq-Qərb", 1996, 292 səh., 1.500 nüs.
11. Ellər Vurğunu. Bakı, "Tural" 1997, 290 səh. 10.000 nüs.
12. General Cəmşidxan Naxçıvanski. Bakı, "Hərbi nəşriyyat", 1997, 110 səh., 10.000 nüs.
13. Daş Salahlı Məmməd Koxa. Bakı, "Şirvan" nəşriyyatı, 1997, 5.000 nüs.
14. Tam artilleriya generalı Səmədbəy Mehmandarov. Bakı, Hərbi nəşriyyat, 1997, 120 səh., 1.000 nüs.
15. Qarxunlu Əşrəf bəy. Bakı, "Elm və həyat" nəşriyyatı, 1998, 180 səh., 1.000 nüs.
16. Arxivlərin sirri açılır. Bakı, "Elm və həyat" nəşriyyatı, 1998,750 səh., 500 nüs.
17. Topoqraf general İbrahim ağa Vəkilov. Bakı, "Zaman" nəşriyyatı, 2002, 203 səh., 500 nüs.
18. Nəzirli ocağının üç şairi. Bakı, Azərbaycan Milli Ensiklopediyası NPB, 2002, 249 səh., 250 nüs.





19. Abbas ağa Nazir. Əsərləri. Bakı, Ofset-nəşriyyat poliqrafiya şirkəti, 2003, 325 səh., 500 nüs.
20. General Yadigarov qardaşları. Bakı, Şirvannəşr, 2004, 87 səh., 500 nüs.
21. Krım dəftəri. Bakı, Şirvannəşr, 2005, 250 səh., 300 nüs.
22. General Əliağa Şıxlınski ömrü. Bakı, "Uğur", 2005, 300 səh., 500 nüs.
23. Güllələnmiş Azərbaycan generalları. Bakı, 2006, 614 səh., 500 nüs.
24. Azərbaycanın ilk hərbi təyyarəçisi. Fərrux ağa Qayıbov. Bakı, Uğur, 2007, 1000 nüs.
25. 1920-ci ildə Qarabağ döyüşləri. Bakı, 2009, 480 səh., 500 nüs.

**Tərcümələri: (ruscadan)**

26. M.Məmmədov. Vaxtsız ölüm əbədiyyət gətirdi, Bakı, "Gənclik", 1985, 73 səh., 20.000 nüs.

# BORÇALI NAHİYƏSİNİN VƏ LORU NAHİYƏSİNİN ƏRAZİSİNDƏ YERLƏŞƏN TUMANYAN RAYONU (KEÇMİŞ ALLAHVERDİ)




Ermənistan SSR-də (1920 - 1991) inzibati rayon. 1930-cu il sentyabrın 9-da yaradılıb. Sahəsi 1170 km², əhalisi 35.6 min (1976) nəfər olmuşdur. Şimaldan Gürcüstan SSR-nin Marneuli





(keçmiş Borçalı), cənubdan və cənub-şərqdən Ermənistan SSR-nin İcevan, Noyemberyan, şimal və şimal-şərqdən Quqark (keçmiş Böyük Qarakilsə), Stepanavan (keçmiş Cəlaloğlu) və Kalinino (keçmiş Vorontsovka) rayonları ilə həmsərhəddir.

Rayonun ərazisi həmişə türklərin yaşayış məskəni olmuş Borçalı mahalına aid idi.

XI-XIX əsrin əvvəllərinə kimi səlcuqların, sonra moğol-tatarların, osmanlıların, səfəvilərin, əfşarların, qacarların yaratdıqları dövlətlərin hakimiyyəti altında olmuşdur. 1736-cı ildən ərazisi daima gah Osmanlıların, gah da Qacarların vassalı olan gürcü çarlarının hakimiyyətində olmuşdur. Çar Rusiyası Gürcüstanı 1801-ci ildə öz imperiyasına birləşdirən zaman Borçalı da bu tarixdən rusların hakimiyyəti altına keçmişdir. Ruslar 1828-ci ildə İrəvan xanlığını işğal edəndən sonra Qacarlar dövləti ilə Türkmənçay müqaviləsi bağlayaraq bütövlükdə Cənubi Qafqaza sahib oldular. Rayonun ərazisi yaradılmış Gürcüstan - İmereti quberniyasına (mərkəzi Tiflis şəhəri) daxil oldu. 1846-cı il dekabrın 14-də çar tərəfindən imzalanmış fərmanla Gürcüstan İmereti quberniyası və Xəzər vilayəti ləğv edildi və yerində 4 quberniya (Tiflis, Kutaisi, Şamaxı, Dərbənd) yaradıldı. 1849-cu ildə isə İrəvan quberniyası təşkil edildi.

Tarixi mənbələrdə göstərilir ki, ruslar Cənub Qafqazı işğal etdikdən sonra Borçalıya «tatar distansiyası» statusu verilmişdir. 1877-ci il martın 25-də Borçalı distansiyaları ləğv edildi və Şulaver inzibati bölgəsi yaradılmış, 1880-ci il mayın 6-da isə həmin bölgə əsasında Tiflis quberniyasına tabe olan Borçalı qəzası təşkil edilmişdir.

Rayonun indiki ərazisi 1880-1918-ci illərdə Tiflis quberniyasının Borçalı qəzasının Borçalı və Loru nahiyələrinin (bir neçə kənd Borçalı nahiyəsinə daxil idi), 1921-1930-cu illərdə Ermənistan SSR-nin Loru-Pəmbək qəzasının tərkibində olmuşdur. 1918-1920-ci illərdə mübahisəli ərazi və neytral zona hesab olunmuşdur.

1969-cu ilə kimi rayon Allahverdi adlandırılmışdır.1921-ci ilin noyabrında bütün mübahisəli və neytral hesab edilən ərazilər (Loru nahiyəsi və Borçalı nahiyəsinin bir çox kəndləri) bloşeviklər tərəfindən Ermənistan SSR-yə verildi. Elə o vaxtdan da rayonun indiki ərazisi Ermənistan SSR-yə aiddir. Rayon mərkəzi Allahverdi (keçmiş Manas) şəhəridir. Rayon mərkəzindən İrəvan şəhərinə olan məsafə 191 km-dir. Rayon mərkəzindən Tiflis (Tbilisi)-İrəvan dəmiryolu xətti keçir.

Rayonun indiki ərazisində 1828-ci ilədək türk əhalisi üstünlük təşkil etmişdir. Az sayda yunanlar və ermənilər (hay) də yaşamışdır. 1828-1931-ci illərdə Türkiyədən və İrandan əraziyə köçürülən ermənilərdən əvvəl burada xristian qıpçaqlar yaşayıb. Onların bir hissəsi XIII əsrin əvvəllərində Cənubi Qafqaza hücum edən moğol-tatar qoşunları tərəfindən məhv edilib, bir hissəsi isə sonralar əraziyə köçən ermənilərə və yunanlara qarışaraq etnik mənsubiyyətlərini itirmişlər. Ancaq çar Rusiyasının apardığı antimüsəlman, antitürk siyasəti nəticəsində XIX-XX əsrin əvvəllərində bütün Qərbi Azərbaycanda (indiki Ermənistanda) xristian ünsürlərin sayı tədricən artmışdır. Bu xristianlar arasında ermənilərin (hayların) sayı üstünlük təşkil etmişdir. Bu,Tumanyan rayonunun ərazisində də özünü göstərmişdir. Ermənistan SSR-nin tədqiqatçısı olan Zaven Qorqodyanın tədqiqatlarına əsasən (Z.Qorqodyan. Sovet Ermənistanının əhalisi) 1988-ci ilə kimi rayonun indiki ərazisində 30-a yaxın kənddə türk (azərbayanlı) yaşamışdır: 1. Abovi (qarışıq) (1930); 2. Ağdaş (1930); 3. Alıncalı (qarışıq) (1918); 4. Allahverdi (Manas) (qarışıq) (1988); 5. Allahverdi stansiyası (qarışıq) (1930); 6. Aşağı Ağtala (Gümüşxana) (qarışıq) (1988); 7. Aytağı (1918); 8. Böyük Ayrım (1988); 9. Cik (Kiçik) (qarışıq) (1918); 10. Ciliz (Ciliza) (qarışıq) (1920-ci illər); 11. Dəmiryol qəsəbəsi (icarədar Ağababov) (əsrin əvvəlləri); 12. Dəmiryol qəsəbəsi (icarədar Meyer) (qarışıq) (XX əsrin əvvəlləri); 13.Dəmiryol qəsəbəsi (icarədar Nevezd Tisa)





(qarışıq) (XX əsrin əvvəllər); 14. Dolaylar (1920-ci illər); 15. Əyridağ (1918-1920); 16. Kiçik Ayrım (1988); 17. Qarabulaq (1930-cu illər); 18. Qəhrəmanın yurdu (qışlaq) (1918); 19.Ləngitəmir (1930-cu illər); 20. Muşul (Mosul) (1930); 21. Nəhədək (1918-1920); 22. Pədik (Pendik) (keçmiş adı Qızıldaş) (qarışıq) (1930-cu illər); 23. Şamlıq (qarışıq) (1918); 24. Şeypurxan (1930-cu illər); 25. Teymurilər qalası (qarışıq) (1930-cu illər); 26. Təhlə (yaylaq-qışlaq) (1918); 27. Tərpiçala pəyələri (1930-cu illər); 28. Yuxarı Ağtala (1988).

Bu kəndlərin bir qrupu dəmiryolunun çəkilməsi ilə əlaqədar yaradılan kiik yaşayış məntəqələri idi. Sonralar onlar yaxın qəsəbə və kəndlərlə birləşdirilişdir. İkinci qrup kəndlər isə 1918-1920-ci illərdə ermənilərin (hayların) yerli türk əhalisinə qarşı havadarlarının köməyi ilə soyqırımı əməliyyatları zamanı dağıdılıb məhv edilən kəndlərdir. Onların bir hissəsi sonralar ölü kəndlərə çevrildi. Üçüncü qrup kəndlər isə, 1918-1920-ci illərdə dağıdılmış kəndlərdir. Daşnak Ermənistanda (1918-1920) sovet hakimiyyəti qurulduqdan (1920-ci il noyabrın 29-da) sonra qaçqınların bir hissəsi öz doğma torpaqlarına qayıdıb (1922-ci ildən sonra) dağıntıları bərpa edilər və 1988-ci ilin sonunadək burada yaşadılar.

1970-ci ilin sonuna olan məlumata görə rayonun ərazisində bir respublika tabeli şəhər [**Allahverdi** (keçmiş adı Manas olub) Debed (Tona, Təvətey, Borçalı çayı) çayı sahilində yerləşir. Cənubi Qafqazda qədim mis sənayesi mərkəzidir. Yüngül yeyinti sənayesi müəssisələri, iri Mis-Kimya Kombinatı, Sənaye-Texnologiya Texnikumu var. 1938-ci ildən respublika tabeli şəhərdir. 1975-ci ildə 21.9 min nəfər əhalisi olub. Şəhər sovetinə Ağnər (Akner) kəndi də daxildir. Rayon mərkəzi burada yerləşir], 3 şəhər tipli qəsəbə [Ağtala (Axtala) – rayon mərkəzindən 18 km, İrəvan şəhərindən 209 km. məsafədədir. 1939-cu ildən şəhər tipli qəsəbədir. Qəsəbədən İrəvan --Tiflis dəmiryol xətti keçir.

Qəsəbə sovetinə Ağtala sanatoriya qəsəbəsi, Yuxarı Ağtala (Verni Ağtala), Neqots kəndləri, Karkop qəsəbəsi daxildir. Burada xristian qıpçaqların tikdikləri məbəd də yerləşir. Ağtala adlı məbəd Gürcüstanın Telavi şəhərindən 15 km məsafədə XI əsrin 1-ci yarısında tikilmişdir. Alazan çayının sahilində eyniadlı kurort da mövcuddur; **Dzağqadzor (Tumanyan)**- rayon mərkəzindən 18 km, İrəvan şəhərindən 176 km məsafədədir. 1947-ci ildən şəhər tipli qəsəbədir. Ən yaxın dəmiryol dayanacağı 4 km kənarda yerləşən Köbər (Kober) stansiyasıdır. Qəsəbə sovetinə 4 km kənarda yerləşən Köbər dəmiryol stansiyası qəsəbəsi də daxildir; **Şamlıq (Şamluq)**- rayon mərkəzindən 36 km, İrəvan şəhərindən 227 km məsafədədir. 1938-ci ildən şəhər tipli qəsəbədir. Ən yaxın dəmiryol dayanacağı 18 km kənarda yerləşən Ağtala stansiyasıdır.], 13 kənd sovetliyi [1. Ağbat; 2. Atan; 3. Aygehat; 4. Böyük Ayrım; 5. Cilizə; 6. Cockan; 7. Dsex; 8. Həkəri (Akori); 9. Qaçağan; 10. Lorut; 11. Marts; 12. Şınıx (Şnox); 13. Uzunlar (Odzun)] və 34 şəhər, kənd və qəsəbə [1. Ağbat stansiya qəsəbəsi; 2. Ağnər; 3. Ağtala; 4. Ağtala stansiya qəsəbəsi; 5. Allahverdi şəhəri; 6. Amoc; 7. Atan; 8. Aygehat; 9. Böyük Ayrım (Medz Ayrum); 10. Cilize; 11. Cockan; 12. Dzeğqadzor (Tumanyan) şəhər tipli qəsəbəsi; 13. Əqvi (Ağvi); 14. Ərdvi; 15. Hacıdur, (Xaçdur); 16. Həkəri (Akori); 17. Kaçaçqut; 18. Karkop; 19. Kərinc; 20. Kiçik Ayrım (Pokr Ayrım); 21. Köbər (Kober); 22. Qacağan (Arevadzoğ); 23. Qırmızı Ağak; 24. Lorat; 25. Marts; 26. Mqart; 27. Sədibağlı (Çkalav); 28.Şamluq şəhər tipli qəsəbəsi; 29.Şamut; 30. Şınıx (Şnox); 31. Texut; 32. Tsater; 33. Uzunlar (Odzun); 34. Yuxarı Ağtala] olmuşdur.

1930-1991-ci illərdə Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin və Ermənistan Respublikası Prezidentinin fərmanları ilə adları dəyişdirilərək erməniləşdirilmiş (haylaşdırılmış) yaşayış məntəqələri:





| **Keçmiş (əsl) adı** | **Dəyişdirilmiş adı** | **Dəyişdirildiyi tarix** |
|---|---|---|
| 1 Allahverdi rayonu | Tumanyan rayonu | 19.XI.1969 |
| 2 Ayqehad | Danuşavan | 02. II.1963 |
| 3. Böyük Ayrım rayonu | Medz Ayrum | 1991-ci ildən sonra |
| 4. Hacıdur (Xaçdur) | Tcaxkauiat | 03. I. 1935 |
| 5. Qranitzavodu | Karkop | 03.VII.1968 |
| 6. Qaçağan | Arvedzor | 25.I.1978 |
| 7. Sədibağlı | Çkalov | 22.II.1939 |
| 8. Uzunlar | Odzun | 30.IX.1967 |

Rayon mərkəzindən Debed (Təvətey, Borçalı çayı, Tona) çayı axıb gedir. Rayonun ərazisi Hələb, Somhet və Quqarats dağ silsilələri ilə əhatə olunmuşdur.

1988-ci ilə qədər türklərin (azərbaycanlıların) yaşamaqda davam etdikləri və həmin il tərk etməyə məcbur olduqları yaşayış məntəqələri: 1. Ağtala stansiya qəsəbəsi; 2. Aşağı Ağtala; 3. Böyük Ayrım; 4. Cilizə; 5. Kiçik Ayrım; 6. Manas (indiki Allahverdi); 7. Mədən qəsəbəsi; 8. Şamlıq; 9. Yuxarı Ağtala.

## BÖYÜK AYRIM KƏNDİ

### BAYRAM HƏSƏNOV
### (1925-1979)

***Bayram Həsən oğlu Həsənov - nasir, Azərbaycan Yazıçılar Birliyinin üzvü (1962)***

1925-ci il mayın 12-də Qərbi Azərbaycanın Borçalı mahalının Borçalı nahiyəsinin Böyük Ayrım kəndində [indiki Ermənistan Respublikasının Tumanyan (keçmiş Allahverdi) rayonu] anadan olmuşdur. Kənd yeddiillik məktəbini əla qiymətlərlə bitirib, İrəvan Pedaqoji Texnikumunun qiyabi şöbəsində təhsil almışdır. Qonşu Ağtala kəndində ibtidai məktəb müdiri təyin edilmişdir.

Bu dövrdə imtahan verib kamal attestatı almış, İrəvanda X.Abovyan adına Dövlət Pedaqoji İnstitutunun Azərbaycan şöbəsində təhsilini davam etdirmişdir. Lakin bir ildən sonra Bakıya köçməli olduğundan yenidən imtahan verib Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyat fakültəsinə daxil olmuş (1949), oranı bitirəndən (1953) sonra Bakı məktəblərində müəllimlik etmiş, bu illərdə fəal bədii yaradıcılıqla məşğul olmuşdur. "Tufanda" adlı ilk hekayəsi 1954-cü ildə yazıçı Abdulla Şaiqin tövsiyəsi ilə "Pioner" jurnalında dərc olunmuşdur. "Şəkil", "Ayı ovu", "Ot biçini", "Qardaşlar" və s. hekayələri onu özünəməxsus uşaq yazıçısı kimi tanıtmışdır. 1958-ci ildən mətbuat sahəsində - "Azərbaycan müəllimi", "Azərbaycan pioneri" qəzetlərində, "Göyərçin", "Azərbaycan" jurnallarında, "Gənclik" nəşriyyatında məsul işlərdə çalışmışdır. Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutunun nəsr bölməsində təhsil alıb qayıtdıqdan sonra (1971-1973) ömrünün sonunadək "Azərbaycan" jurnalında





işləmişdir. Əsərləri SSRİ xalqları dillərinə tərcümə olunub yayılmışdır.

1979-cu il fevralın 28-də Bakı şəhərində vəfat etmişdir.

**Əsərləri:**

1. Qardaşlar. Bakı, "Uşaqgəncnəşr", 1958, 66səh., 10.000 nüs.
2. İlk qar.Bakı, "Uşaqgəncnəşr", 1962, 38 səh., 13.000 nüs.
3. Səfər təxirə salındı. Bakı, "Azərnəş»r, 1964, 53 səh., 9000 nüs.
4. İlk görüş. Bakı, "Azərnəşr", 1965, 89 səh., 8.000 nüs.
5. Buzovə. Bakı, "Azərnəşr", 1966, 12 səh., 8.000 nüs.
6. Ayaz. Bakı, "Gənclik", 1969, 46 səh., 17.000 nüs.
7. Qonşu. Bakı, "Gənclik", 1972, 69 səh., 12.000 nüs.
8. Ayaz. Bakı ,"Gənclik", 1976, 150 səh., 18.000 nüs.
9. Yaylaq. Bakı ,"Gənclik", 1979, 133 səh., 9.000 nüs.
10. Gəlirəm, ana. Bakı, "Gənclik", 1983, 224 səh., 30.000 nüs.
11. Yadigar (povestlər). Bakı, "Yazıçı", 1986, 300 səh., 30000 nüs.
12. Torpaq nağılı (povestlər, hekayələr, nağıllar). Bakı. Nurlar, 2004, 208 səh., 300 nüs.

### MƏLEYKƏ SƏMA
### (1957)

***Məleykə Əhməd qızı Əhmədova - şair, Azərbaycan Jurnalistlər Birliyinin üzvü (1995), Azərbaycan Yazıçılar Birliyinin üzvü (2001)***

1957-ci il iyunun 1-də Qərbi Azərbaycanın Borçalı mahalının Borçalı nahiyəsinin Böyük Ayrım kəndində [in-

diki Ermənistan Respublikasının Tumanyan (keçmiş Allahverdi) rayonu Mehz Ayrım kəndi] anadan olmuşdur. Burada kənd orta məktəbini bitirdikdən sonra Bakı şəhərindəki 2 saylı Tibb Texnikumunda təhsil almışdır (1976-1978). Əmək fəaliyyətinə doğma Allahverdi rayon Mərkəzi Xəstəxanasında tibb bacısı kimi başlamışdır. Erməni-rus qoşunlarının təzyiqi nəticəsində el-obası ilə doğma yurdu tərk etməli olub. Bakıda akademik Mirqasımov adına Respublika Kliniki Xəstəxanasının travmotologiya şöbəsində şəfqət bacısı olmuşdur (1989-1992). Meydan hadisələri dövründə, 20 Yanvarda və İranda zəlzələ zamanı yüzlərlə zərərçəkənlərə tibbi xidmət göstərmişdir. Qardaşı kəşfiyyat komandiri Kamranla Qarabağ uğrunda döyüşlərdə iştirak etmişdir. Beynəlxalq Pedaqoji Akademiya nəzdində yaranan Azərbaycan Açıq Universitetinin tibb fakültəsində (1994-1999), Təfəkkür Universitetinin jurnalistika fakültəsində (1996-1997) təhsilini davam etdirib. Azərbaycan Müdafiə Nazirliyinin poliklinikasında cərrahiyyə şöbəsində çalışıb (1996-2007). Ədəbi fəaliyyətə XX əsrin 90-cı illərindən başlamışdır. “Vahid poeziya”, “Pərvanə”, “Xatun”, “Məhsəti” ədəbi məclislərinin fəal üzvü idi. Fəal ictimaiyyətçi olaraq Azərbaycan Veteranlar Birliyinin, Şəhid ailələri və Qarabağ Əlilləri Cəmiyyətinin üzvü kimi çalışmışdır. I Azərbaycan qadınları qurultayına (1998) və Azərbaycan gənclərinin II forumuna (1999) nümayəndə seçilmişdir. Dövri mətbuatda şeir, oçerk və məqalələrlə çıxış etmişdir. “Tale” qəzetinin cəbhə bölgəsi üzrə xüsusi müxbiri olmuşdur. Xidmətlərinə görə “Azərbaycan bayrağı” ordeni (1994), döyüş medalları (1991, 1993), Fəxri fərmanlar (1996) almışdır. “Şah İsmayıl Xətai” (2005), “Qızıl qələm” (2005), “Tomris ana”, “Xan qızı Natəvan”, “Məhsəti” (2004), “Qaratel” (2003), “Məhəmməd Peyğəmbər”, “Həsənbəy Zərdabi” (2001), “Vətən” (2005) media mükafatlarına layiq görülmüşdür.





**Əsərləri:**

1. Qəm çiçəyi. Bakı, “Ozan”, 1999, 145 səh., 500 nüs.
2. Qəlb hönkürtüsü. Bakı, “Hərbi” nəşriyyat, 1999, 95 səh., 1000 nüs
3. Anamın susan nəğmələri. Bakı, “Hərbi” nəşriyyat, 2000, 140 səh., 500 nüs.
4. Əsgər Tiqana. Bakı, “Hərbi” nəşriyyat, 2001, 90 səh., 1000 nüs.
5. Qan yaddaşı. Bakı, Nərgiz, 2001, 148 səh., 500 nüs.
6. Mən elimin göz yaşıyam. Bakı, “Hərbi” nəşriyyat, 2001, 136 səh., 550 nüs.
7. Sazbənd Qəzənfərin saz-söz dünyası. Bakı, Adiloğlu, 2001, 250 səh., 500 nüs.
8. Girətağ harayı. Bakı, Adiloğlu, 2002, 90 səh., 250 nüs.
9. Ağ atlı döyüşçü. Bakı, Adiloğlu, 2002, 80 səh., 100 nüs.
10. Nur sorağında. Bakı, Adiloğlu, 2003, 254 səh., 300 nüs.
11. Bu torpağın igid qızı. Bakı, Adiloğlu, 2003, 112 səh., 100 nüs.
12. Səngər günəşi. Bakı, Adiloğlu, 2003, 214 səh., 200 nüs.
13. Ana fəryadı. Bakı, Adiloğlu, 2004, 176 səh., 250 nüs.
14. Qarabağdan keçən yol. Bakı, Adiloğlu, 2005, 160 səh., 200 nüs.
15. Qaçaq Səməd və tütək çalan Mələyin nağılı. Bakı, Təfəkkür, 2005, 46 səh., 500 nüs.
16. Xocalı şərqisi. Bakı, Adiloğlu, 2006, 188 səh., 500 nüs.

## LORU NAHİYƏSİNDƏ YERLƏŞƏN KALİNİNO RAYONU (KEÇMİŞ VORONTSOVKA)




Ermənistan SSR-də (1920 - 1991) inzibati rayon. 1937-ci il dekabrın 31-də yaradılıb. 1935-ci ilədək Vorontsovka adlanıb. 1962-1964-cü illərdə Stepanavan (keçmiş Cəlaloğlu) rayonu ilə birləşdirilib. Sahəsi 690 km$^2$, əhalisi 34829 (1978) nəfər idi. Rayon mərkəzi Kalinino (keçmiş Vorontsovka) qəsəbəsidir. 1961-ci ildən şəhər tipli qəsəbədir. Rayon mərkəzindən İrəvan şəhəri arasındakı məsafə 174 km-dir. Rayonun ərazisi Stepanavan (keçmiş Cəlaloğlu), Tumanyan (keçmiş Allahverdi) rayonları və Gürcüstan Respublikasının Dmanisi (keçmiş Başkeçid) rayonu ilə həmsərhəddir.

Rayonun ərazisi, yəni Loru bölgəsi həmişə türklərin yaşayış məskəni olmuş Borçalı mahalına aid idi. XI-XIX əsrin əvvəllərinə kimi səlcuqların, sonra moğol-tatarların, osmanlıların, səfəvilərin, əfşarların və qacarların yaratdıqları dövlətlərin hakimiyyəti altında





olmuşdur. Loru bölgəsi 1736-1801-ci illərdə gürcü çarlarının torpaqlarına daxil idi. 1801-ci ildə çar Rusiyası Gürcüstanı işğal edib öz imperiyasına qatan zaman Borçalı da bu tarixdən rusların hakimiyyəti altına keçmişdi. Ruslar 1828-ci ildə İrəvan xanlığını işğal edəndən sonra Qacarlar dövləti ilə Türkmənçay müqaviləsini bağlayaraq bütövlükdə Cənub Qafqaza sahib oldular. Rayonun indiki ərazisini əhatə edən torpaqlar yeni yaradılmış Gürcüstan-İmereti quberniyasına (mərkəzi Tiflis şəhəri idi) daxil oldu.

1846-cı il dekabrın 14-də çar tərəfindən imzalanmış fərmanla Gürcüstan-İmereti quberniyası və Xəzər vilayəti ləğv edildi və yerində 4 quberniya (Tiflis, Kutaisi, Şamaxı, Dərbənd) yaradıldı. 1849-cu ildə isə İrəvan quberniyası təşkil edildi.

Ruslar Cənubi Qafqazı işğal etdikdən sonra Borçalıya «tatar distansiyası» statusu verilmişdir. 1877-ci il martın 25-də «tatar distansiyası» ləğv edildi və Tiflis qəzasının Trialet və Loru nahiyələri də daxil olmaqla Şulaver inzibati bölgəsi yaradılmış, 1880-ci il mayın 6-da isə həmin bölgə əsasında Tiflis quberniyasına daxil olan Borçalı qəzası təşkil edilmişdir. Rayonun indiki ərazisi 1880-1918-ci illərdə Loru nahiyəsinin, 1921-1930-cu illərdə Ermənistan SSR-nin Loru-Pərnbək qəzasının, 1930-1937-ci illərdə Stepanavan (Cəlaloğlu) rayonunun tərkibində olmuşdur. Ərazi 1918-1920-ci illərdə mübahisəli və neytral zona hesab edilmişdir.

1828-1831-ci illərə qədər türklər üstünlük təşkil etmişdir. Rayonun ərazisinə Türkiyədən və İrandan 1828-1918-ci illərdə kütləvi şəkildə ermənilər, Rusiyanın mərkəzi quberniyalarından isə malokanlar (əslən qıpçaqlar idilər) yerləşdirildikdən sonra etnik tərkib türklərin (azərbaycanlıların) ziyanına dəyişməyə başlayır. Bundan başqa çar dövründə aparılmış siyahıyaalınmalar (1873, 1886, 1897) zamanı saxtakarlığa yol verilmişdir. Saxtakarlığı isə həmin dövrlərdə quberniyanın və qəzanın statistika idarələrində işləmiş ermənilər (haylar) etmişdilər. Onlar çox zaman türk kəndlərinin bir çoxunu ya siyahıya salmamış,

ya əhalisini erməni (hay) kimi qələmə vermiş, ya da rəqəmləri ermənilərin xeyrinə dəyişmişdilər.

Rayonun ərazisində qədimdən 1988-ci ilə kimi aşağıda adları göstərilən kəndlərdə türklər yaşamışdılar: 1. Abəyli (1918); 2. Dəmirçilər; (1988), 3. Evli (1988); 4. İlməzli (1988); 5. Qaraisa (1918); 6. Qaraqala (1988); 7. Qızqala (1918); 8. Qızıldaş (Qızılkilsə) (1988); 9. Qızılşəfəq (Cücəkənd) (1988); 10. Medovka (1918); 11. Mixailovka (1930); (qarışıq-türk, rus, erməni); 12. Nəzərov (1918); 13. Privolnoye (1988) (qarışıq-türk, rus, erməni); 14. Sarıyal (1988); 15. Soyuqbulaq (1988); 16. Təzəkənd (Türk Qarakilsəsi) (1918).

1918-1920-ci illərdə Cənubi Qafqazda baş verən etnik münaqişələr zamanı Borçalı mahalının Loru nahiyəsində, xüsusilə də, Kalinino rayonunun indiki ərazisindəki kəndlərdən Abəyli, Dəmirçilər, Qaraqala, Qızqala, Qızıldaş, Medovka, Nəzərov, Təzəkənd ermənilərin (hayların) hücumuna məruz qalmışdır. Bunlardan Abəyli, Nəzərov və Təzəkənd kəndləri dağıdılmış və yer üzündən silinmişdir. Medovka kəndindən isə türklər (azərbaycanlılar) qovulmuşdular. İndi rus kəndidir. Qalan türk kəndlərinin əhalisinin isə bir hissəsi soyqırımı və deportasiyadan bir neçə il sonra, yəni 1922-ci ildə doğma yurdlarına qayıda bildilər. Artıq Daşnak Ermənistanında (1918-1920) qurulmuş Sovet hökuməti (1920-ci il noyabrın 29-da) qayıdanların təhlükəsizliyini öz üzərinə götürmüşdür. Onlar dağıdılmış və yandırılmış kəndləri az bir müddətdə yenidən quraraq dinc həyata başlamışdılar. Onların bu dinc həyatları 1988-ci ilin sonunda başa çatdı. Yəni Moskvanın himayədarlığı, respublika rəhbərliyinin rayonun məsul şəxslərinin də iştirakı ilə türklər üç gün ərzində doğma yurdlarından həmişəlik qovuldular. Hazırda onların əksəriyyəti Azərbaycan Respublikasının müxtəlif şəhərlərində, rayon mərkəzlərində, qəsəbələrində və kəndlərində yaşamaqdadırlar.

Rayonun ərazisində az sayda müsəlman kürdü də yaşamışdır. Onlar da 1988-ci ilin sonunda qovuldular.





1970-ci ilin məlumatına görə rayonun ərazisində 1 şəhər tipli qəsəbə [Kalinino (1933-cü ilə kimi Vorontsovka) 1961-ci ildən şəhər tipli qəsəbədir], 13 kənd sovetliyi 1. Evli, 2. İlməzli, 3. Katnarat, 4 Qızıldaş, 5. Qızılşəfəq, 6. Lernhovit, 7. Medovka, 8. Medzavan, 9. Mixaylovka,10. Noraşen, 11. Privolnoya, 12. Saratovka. 13. Sərçəbed) və 24 yaşayış məntəqəsi (1. Blaqodornoye, 2. Dəmirçilər, 3. Evli, 4. Getevan, 5. İlməzli, 6. Kalinino, 7. Katnarat, 8. Kruqlaya Şişka, 9. Qaraisa, 10. Qaraqala, 11. Qızıldaş, 12. Qızılşəfəq, 13. Lernhovit, 14. Medovka, 15. Medzavan, 16. Mixaylovka, 17. Noraşen, 18. Novoseltsova, 19. Petrovka (keçmiş Qurdqala), 20. Privolnoye, 21. Saratovka, 22. Sarıyal, 23. Sərçəbed, 24. Soyuqbulaq) olmuşdur.

1935-1978-ci illərdə rayonun bir çox yaşayış məntəqələri Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin müxtəlif fərmanları ilə dəyişdirilmişdir.

| Keçmiş (əsl) adı | Yeni adı | Dəyişdirildiyi tarix |
|---|---|---|
| Boqdanovka | Noraşen | 03.03.1935 |
| Cücəkənd | Qızıl şəfəq | 03.01.1935 |
| Qarakilsə | Lernhovit | 25.01.1978 |
| Qızılqala | Getevan | 25.01.1935 |
| Qızılkilsə | Qızıldaş | 03.01.1935 |
| Lorsovxoz qəs | Katnarat qəs. | 25.01.1978 |
| Mola Eyyublu | Evli | 03.01.1935 |
| Şahnızır | Medzavan | 25.01.1978 |

1988-ci ilə qədər türklərin (azərbaycanlıların yaşamaqda olduğu qəsəbə və kəndlər: 1. Blaqodornaya, 2. Dəmirçilər, 3. Evli, 4. İlməzli, 5. Kalinino, 6. Katnarat, 7. Kruqlaya Şişka, 8. Qaraisa, 9. Qaraqala, 10. Qızıldaş, 11. Qızılşəfəq, 12. Medovka, 13. Mixaylovka, 14. Novoseltsova, 15. Petrovka, 16. Privolnoye, 17. Saratovka, 18. Sarıyal, 19. Soyuqbulaq.

## CÜCƏKƏND KƏNDİ (İNDİKİ QIZILŞƏFƏQ KƏNDİ)

### ƏHMƏD OĞUZ
*(1961)*

***Əhməd Musa oğlu Kərimov – şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü (1993).***

1961-ci il noyabrın 13-də Qərbi Azərbaycanın Borçalı mahalının Loru nahiyəsinin Cücəkənd kəndində [indiki Ermənistan Respublikasının Kalinino rayonunun (keçmiş Vorontsovka) Qızılşəfəq kəndi] fəhlə ailəsində anadan olmuşdur. Doğma kəndində orta məktəbi bitirmişdir (1978). Azərbaycan Dövlət Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakültəsində təhsilini davam etdirmişdir (1978-1982). Azərbaycanın Quba rayonunun Hacıqaib və Ermənistan SSR-nın Kalinino rayonunun Soyuqbulaq kəndlərində Azərbaycan dili və ədəbiyyatı müəllimi işləmişdir (1985-1988). Ermənistanda ata-baba yurdundan zorla qovulduqdan sonra “Azərbaycan” qəzeti redaksiyasında müxbir olmuşdur (1989-1990). Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasına daxil olsa da, bir ildən sonra qiyabi şöbəsinə dəyişilmişdir (1991). “Xəzər” jurnalında şeir şöbəsinə rəhbərlik etmişdir (1991-1992). “Oğuz eli” qəzeti redaksiyasında məsul katib olmuşdur (1992-1993). Hazırda Azərbaycan Radio və Televiziya Verilişləri Şirkətində radio xalq yaradıcılığı baş redaksiyasında çalışır (1993-cü ildən). Bədii yaradıcılığa erkən başlasa da, ilk şeirləri 80-ci illərin əvvəllərindən “Ulduz”, “Azərbaycan” jurnallarında, “Ədəbiyyat və incəsənət” qəzetində müntəzəm çap olunmuşdur. “Nar ağacı” adlı ilk şeiri 1981-ci ildə “Ulduz” jurnalının 3-cü sayında dərc edilmişdir. “Azərbaycantelefilm” yaradıcılıq birliyində onun ssenariləri əsasında bir neçə sənədli film (“Bağlı qapı”, “O quzeylər” və b.) çəkilmişdir. “Bağlı qapı” sənədli filminə görə “Humay” mükafatına layiq görülmüşdür. Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsüdür (1998). İlk şeirlər kitabı – “Hara gedirsiniz dağlar?” 1998-ci ildə nəşr edilmişdir. Türkiyədə keçirilən “Türk xalqları şeir şölənində” Azərbaycan poeziyasını təmsil edən nümayəndə heyətinin tərkibində olmuşdur.





### MİRASLAN BƏKİRLİ
*(1955)*

***Miraslan Məcnun oğlu Bəkirli - nasir, publisist, 2001-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan Jurnalistlər Birliyinin üzvü.***

1955-ci il martın 17-də Qərbi Azərbaycanın Borçalı mahalının Loru nahiyəsinin Cücəkənd kəndində anadan [indiki Ermənistan Respublikasının Kalinino (keçmiş Vorontsovka) rayonunun Qızılşəfəq kəndi] olmuşdur.

Burada səkkizillik, İlməzlidə kənd orta məktəbi bitirdikdən sonra bir il sovxozda fəhləlik etmişdir. Azərbaycan Dövlət Universitetinin geoloji-coğrafiya fakültəsində təhsil almışdır (1972-1977). Azərbaycan SSR-nin Cəlilabad rayonunun Ecara, Maşlıq kənd orta məktəblərində pedaqoji fəaliyyətə başlamışdır (1977-1980). Kalinino rayonunda nəşr olunan “Zarya” qəzeti redaksiyasında çalışmışdır (1980-1988). Sumqayıt şəhərindəki 15, 8 saylı məktəblərdə müəllim, 18 saylı orta məktəbdə dərs hissə müdiri (1988-1990), “Vətən səsi” qəzeti redaksiyasında ədəbi işçi, şöbə müdiri (1990-1992) olmuşdur. Hazırda Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətində böyük redaktor

vəzifəsində çalışır (1992-ci ildən). "Yurd", "Həsrət", "Vətən qürbətdə qaldı", "Ağrı", "Durnalar qayıdanda" və bir sıra digər silsilə verilişlərin ssenari müəllifi və aparıcısıdır. "Azərbaycan", "Ulduz", "Göyərçin" ədəbi jurnallarında və dövri mətbuatda hekayə, povest, roman, mənsur şeirlər və publisist yazılarla vaxtaşırı çıxış etmişdir.

**Əsərləri:**

1. Çən qarısı. Bakı, Gənclik, 1992, 130 səh., 3000 nüs.
2. İstək (hekayələr, povestlər, esse və mənsur şeirləri). Bakı, Ağrıdağ, 1999, 340 səh., 500 nüs.
3. Qaçqının ünvanı olmur (publisistika). Bakı, Nurlan, 2002, 180 səh., 500 nüs.
4. Kəndim kədərim (publisistika). Bakı, Nurlan, 2003, 486 səh., 500 nüs.
5. Əsərləri (V cilddə). I cild. Bakı, Nurlan, 2004, 400 səh., 500 nüs.
6. Əsərləri (V cilddə). II cild. Bakı, Nurlan, 2008, 454 səh., 500 nüs.

## MÖVLUD SÜLEYMANLI
*(1943)*

***Mövlud Süleyman oğlu Balakişiyev - nasir, dramaturq, Azərbaycan Yazıçılar Birliyinin üzvü (1980), M.Qorki adına Ümumittifaq müsabiqəsinin laureatı (1983), "Qızıl sünbül" ədəbi mükafatının laureatı (1991)***

1943-cü il martın 18-də Qərbi Azərbaycanın Borçalı mahalının Loru nahiyəsinin Cücəkənd kəndində [indiki Ermənistan Respublikasının Kalinino (keçmiş Vorontsovka) rayonunun Qızılşəfəq kəndi] anadan olmuşdur.





Həmin rayonun İlməzli kəndində orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində ali təhsil almışdır (1962-1967). Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin ədəbi dram redaksiyasında redaktor (1968-1974), C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında ssenari emalatxanasında əməkdaş (1974-1976), "Ulduz" jurnalında nəsr şöbəsinin müdiri (1976-1980), "Azərbaycan" jurnalında nəsr şöbəsinin müdiri (1980-1992), "Oğuz eli" qəzetinin redaktoru (1992-1993) olmuşdur. Hazırda teleşirkətin radio üzrə sədr müavinidir (1993-cü ildən). Ədəbi yaradıcılığa 1964-cü ildə "Azərbaycan gəncləri" qəzetində çap olunan "Əllərim" adlı ilk şeirilə başlamışdır. Həmin vaxtdan fəal yaradıcılıqla məşğuldur. "Dəyirman" pyesi Sumqayıt Dram teatrında tamaşaya qoyulmuşdur (1988).

**Əsərləri:**

1. Bir ünvan (şeirlər kitabı). Bakı, Gənclik, 1969, 30 səh., 4.500 nüs.
2. Ayın aydınlığında. Bakı, Gənclik, 1979,128 səh., 20.000 nüs.
3. Köç. Bakı, Yazıçı, 1984, 277 səh., 50.000 nüs.
4. Şəhər toylarının səsi. Bakı, Gənclik, 1985, 243 səh., 45.000 nüs.
5. Səs. Bakı, Yazıçı, 1988, 250 səh., 30.000 nüs.

## EVLİ KƏNDİ

### TAHİR TALIBLI
*(1948)*

***Tahir İslam oğlu Maşayev - şair, publisist, Azərbaycan Yazıçılar Birliyinin üzvü (1990)***

1948-ci il fevralın 22-də Qərbi Azərbaycanın Borçalı mahalının Loru nahiyəsinin Molla Eyyublu kəndində [indiki Ermənistan Respublikasının Kalinino (keçmiş Vorontsovka) rayonunun Evli kəndi] anadan olmuşdur. Burada kənd orta məktəbini bitirmiş və Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filologiya fakültəsində təhsilini davam etdirmişdir (1968-1972). Həmin ildə əmək fəaliyyətinə doğma kəndində dil-ədəbiyyat müəllimi kimi başlamış, sonra isə orta məktəbin direktoru işləmişdir (1972-1988). 1988-ci ildə erməni ekstremistlərinin təhdid və təzyiqi üzündən dədə-baba yurdunu tərk etməyə məcbur olmuşdur (1988). Həmin ildən Bakı şəhərində yaşayır. 1970-ci ildən poetik əsərlərini, dövri və publisistik yazılarını mətbuatda çap etdirmişdir. İlk şeirləri "Azərbaycan gəncləri" qəzetinin səhifələrində dərc olunmuşdur. "Yeni fikir" qəzetinin əməkdaşı, sonra həmin qəzetin baş redaktoru işləmişdir (1992-1993). Hazırda Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətində Radio verilişləri redaksiyasının Güney Azərbaycan şöbəsində redaktor vəzifəsində çalışır (1993-cü ildən).

**Əsərləri:**

1. Sevgi harayı. Yerevan, Sovetakan qroğ, 1982, 36 səh., 2.000 nüs.
2. Yazılmamış şeirlər. Yerevan, Sovetakan qroğ, 1984, 80 səh., 500 nüs.





3. Yollara çıxmışam. Bakı, Yazıçı, 1986, 45 səh., 5.000 nüs.
4. Bizi yurd saxlar. Bakı, Yazıçı, 1992, 120 səh., 7.000 nüs.
5. Əziz Əliyev. Bakı, Azərnəşr, 1996, 352 səh., 10.000 nüs.
6. Bu tale dediyin (şeirlər). Bakı, Azərbaycan Türkiyə Birgə Poliqrafiya Şirkəti. 125 səh., 1.000 nüs.

## İLMƏZLİ KƏNDİ

### HAFİZ HACXALIL
*(1981)*

***Hafiz Ziyadxan oğlu Təmirov- şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü (2009)***

1981-ci il dekabrın 6-da Qərbi Azərbaycanın Borçalı mahalının Loru nahiyəsinin İlməzli kəndində [indiki Ermənistan Respublikasının Kalinino (keçmiş Vorontsovka) rayonu) ] anadan olmuşdur. Orta təhsilini Bakının Nərimanov rayonundakı 177 saylı məktəbdə almışdır (1999). Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rejissorluq fakültəsini bitirmişdir (2003), Bakı Dövlət Universitetinin filologiya fakültəsində ikinci ali təhsil almışdır (2009).

GRBS - konsaltinq şirkətində korrektor (2005-2006), 177 saylı məktəbdə dərnək rəhbəri (2006-2008), "Evro xəbər" qəzetinin müxbiri işləmişdir. Dünya Gənc Türk Yazarlar Birliyinin Məclis üzvüdür. "Deportasiya" ictimai birliyinin sədri (2006-2007), Azərbaycan Respublikası DİN-in Polis Akademiyasının Elmi-Tədqiqat və Redaksiya-Nəşriyyat şöbəsinin baş inspektor-korrektoru olmuşdur (2008-2010).

Hazırda Azərbaycan Dövlət DİN-in mətbuat xidmətinin müxbiri vəzifəsində çalışır (2010-cu ildən).

**Əsərləri:**

1. Sevgi dolu ürəyəm. Bakı, Çaşıoğlu, 2001,101 səh., 1000 nüs.
2. Gözləmə nə vaxtsa qayıtmağımı. Bakı, Şirvannəşr, 2005, 144 səh., 500 nüs.
3. Atillaya məktub. Bakı, Vektor, 2008, 101 səh., 500 nüs.
4. Dərdimdən ölən dərdlərim. Bakı, MR, 2010, 176 səh., 300 nüs.

## İSMAYIL İLMƏZLİ
*(1948)*

***İsmayıl Mustafa oğlu Osmanov - şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü (2010)***

1948-ci il yanvarın 20-də Qərbi Azərbaycanın Borçalı mahalının Loru nahiyəsinin İlməzli kəndində [indiki Ermənistan Respublikasının Kalinino (keçmiş Vorontsovka) rayonu] anadan olmuşdur. Orta təhsilini doğma kəndlərində almışdır (1966).

İlk qələm təcrübəsi olan "Saz" rədifli şeiri "Sovet Ermənistanı" qəzetində dərc olunmuşdur. Şeirləri "Dan ulduzu" və "Qarapapaqlar" almanaxlarında nəşr olunmuş, Borçalı aşıqlarının repertuarına daxil edilmişdir.





## SALMAN QAZİ
*(1952)*

***Salman Qərib oğlu Şamilov - şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü (2002)***

1952-ci il fevralın 1-də Qərbi Azərbaycanın Borçalı mahalının Loru nahiyəsinin İlməzli kəndində [indiki Ermənistan Respublikasının Kalinino (keçmiş Vorontsovka) rayonu] anadan olmuşdur. Burada kənd orta məktəbini bitirdikdən sonra ordu sıralarında xidmət etmişdir (1970-1995). Tbilisidə kiçik zabitlər kursunu bitirmişdir (1971). Azərbaycanın Milli Ordusu tərkibində sərhəd qoşunlarının yaranmasında iştirak etmişdir (1990-1995). Qarabağda erməni-rus birləşmələrinə qarşı döyüşlərdə ön cəbhədə olmuşdur (1991-1993). Müharibə veteranıdır. Hazırda fərdi təqaüdə çıxmışdır.

Gənclik dövründən qoşma, gəraylı, təcnis və s. lirik şeirlərini mətbuatda çap etdirmişdir. Əsərləri poetik xalq yaradıcılığından qaynaqlanır. "Durnalar qayıdanda", "Üz-üzə", "Ovqat", "Sarıtel" televiziya verilişlərində onun yaradıcılığından ətraflı bəhs olunmuşdur. Şeirlərinə mahnılar bəstələnmişdir.

**Əsərləri:**

1. Şair bulağı. Bakı, Şəms, 1996, 125 səh., 1500 nüs.
2. Yurd həsrəti sıxır sinəmi. Bakı, Hərbi nəşriyyat, 1998, 256 səh., 1000 nüs.
3. Sığınmışam tanrısına dünyanın. Bakı, Nərgiz, 2001, 204 səh., 1000 nüs.
4. Hamamlıdan keçən yollar. Bakı, Nərgiz, 2002, 247 səh., 500 nüs.
5. Ellər mənə şair dedi. Bakı, Şəms, 2003, 306 səh., 1000 nüs.

6. İtirdiyim yerlər. Bakı, Nurlan, 2006, 482 səh., 500 nüs.
7. Bir könüldən min könülə. Bakı, Nərgiz, 2008, 218 səh., 500 nüs.

## QARAQALA KƏNDİ

### XAQANİ İSMAYIL
### *(1962)*

***Xaqani Neyman oğlu İsmayıl - şair, Azərbaycan Jurnalistlər Birliyinin üzvü (1994), Azərbaycan Yazıçılar Birliyinin üzvü (2002)***

1962-ci il oktyabrın 25-də Qərbi Azərbaycanın Borçalı mahalının Loru nahiyəsinin Qaraqala kəndində [indiki Ermənistan Respublikasının Kalinino (keçmiş Vorontsovka) rayonu] anadan olmuşdur. Burada kənd məktəbində yeddinci sinfi bitirdikdən sonra bir il Gürcüstan SSR-nın Dmanisi (keçmiş Başkeçid) rayonunun Muğanlı kəndində, sonra Bakı şəhəri 1 saylı fizika-riyaziyyat təmayüllü məktəbdə təhsilini davam etdirmişdir.

Azərbaycan Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsini 1984-cü ildə başa vurduqdan sonra təyinatla Bakı Aqreqat İstehsal Birliyinin strukturlarında proqramçı-mühəndis, tərbiyəçi müəllim, baş mühəndis, dispetçer, mühəndis, texnoloq vəzifələrində işləmişdir (1984-1990). Birlikdə siyasi kluba sədrlik etmişdir (1988-ci ildən).

1989-cu ilin mayında AXC Ali Məclisinə üzv seçilmişdir. Bakıda 200 saylı məktəbin rus bölməsində riyaziyyat müəllimi (1990), "Hikmət" qəzetində müxbir, şöbə müdiri (1991-1993), "Kefli İsgəndər" qəzetinin təsisçisi və baş redaktoru (1993-





1998), "Novruz" nəşriyyatında redaktor (2001-2003) olmuşdur. "Olaylar", "Hakimiyyət", "Millət", "Türkün səsi", "Yeni Azərbaycan" qəzetlərində satira səhifəsinin aparıcısı, şöbə müdiri vəzifələrində işləmişdir (1998-2000). Hazırda "Kefli İsgəndər" qəzetinin baş redaktorudur (2003-cü ildən). Eyni zamanda soyqırım "Tanıtım" təşkilatının sədridir (2003-cü ildən). "Qarabağ taleyimiz" mənzum dram və satirik şeirlər toplusu (1990), "Haqsız dünya" (2001), "Salam, istiqlal", "Azəri soyqırımı" (tarixi mənzum pyes) kitabları kütləvi tirajla çap olunmuşdur.

## PETROVKA (KEÇMİŞ QURDQALA) KƏNDİ

### ALXAN YEKƏƏHMƏDLİ
### *(1961)*

***Alixan Məmmədəli oğlu Ömərov - şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü (2005)***

1961-ci il aprelin 3-də Qərbi Azərbaycanın Borçalı mahalının Muğanlı kəndində [Gürcüstan SSR-nin Dmanisi (keçmiş Başkeçid) rayonu] anadan olmuşdur. Alxan körpə ikən ailəsi 1961-ci ilin ortalarında qonşu Petrovka (keçmiş Qurdqala) [kənd Ermənistan SSR-nin Kalinino (keçmiş Vorantsovka) rayonuna daxil idi] kəndinə köçmüşdür. 1971-ci il iyunun 9-da atasını Qaraxaç yaylağında ildırım vurur. Bundan sonra iki qardaşı və iki bacısı ilə birlikdə anasının himayəsində böyüyür. İbtidai təhsilini 1968-1972-ci illərdə Petrovka ibtidai məktəbində, natamam orta təhsilini 1872-1976-cı illərdə Mixaylovka kəndində səkkizillik

məktəbdə, orta təhsilini isə 1976-1978-ci illərdə Gürcüstan SSR-nin Dmanisi (keçmiş Başkeçid) rayonunun Muğanlı kəndində (nəsli bu kənddəndir) orta məktəbdə almışdır.

1983-cü ildə Gəncə şəhərində Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu fərqlənmə diplomu diplomu ilə bitirmişdir. İxtisasca zoomühəndisdir. 1984-1987-ci illərdə Qazaxıstan SSR-nin Kustanay vilayətinin Naurzum, Borovoy, Lenin rayonlarında baş zootexnik, böyük zootexnik, 1987-1989-cu illərdə Krasnodar diyarının Uspensk rayonunun Konokovo sovxozunda ferma müdiri, zootexnik vəzifələrində çalışmışdır.

Azərbaycana qayıtdıqdan sonra 1989-1990-cı illərdə Xanlar (indiki Göygöl) rayonunun Əzizbəyov sovxozunda ikinci zootexnik, 1994-1995-ci illərdə Bakı şəhəri Binəqədi rayonu Əhalinin məşğulluq Mərkəzində aparıcı mütəxəssis vəzifəsində işləmişdir. Hazırda işsizdir. Fərdi yaradıcılıqla məşğuldur.

«Cəngi» ədəbi birliyinin üzvüdür.

**Əsərləri:**

1. İlhamımı bu yerlərdən almışam. Bakı, Nərgiz, 2003, 156 səh.
2. Yurd həsrəti ağır olur. Bakı, Nərgiz, 2004, 22 səh. 500 nüs.
3. Dərd böyük olanda. Bakı, Nərgiz, 2006, 296 səh., 500 nüs.
4. Yuxulara dönən yurdlar. Bakı, Nurlan, 2007, 302 səh., 500 nüs.





## SOYUQBULAQ KƏNDİ

### SÜDABƏ İRƏVANLI
### (1962)

***Südabə Tofiq qızı Vəliyeva – şairə***

1962-ci ildə Qərbi Azərbaycanın Loru mahalının Soyuqbulaq kəndində [indiki Ermənistan Respublikasının Kalinino (keçmiş Vorontsovka) rayonu] anadan olub. Səkkizillik təhsilini doğma kəndində, orta təhsilini isə Qərbi Azərbaycanın Pəmbək mahalının Saral kəndində [indiki Ermənistan Respublikasının Spitak (keçmiş Hamamlı) rayonu] alıb. 1982-1984-cü illərdə İrəvan (indiki Yerevan) Pedaqoji Texnikumunda orta ixtisas təhsili alıb (rus dilində). Sonra ailə qurub və həyat yoldaşı ilə birlikdə Rusiya Federasiyasının Krasnoyarski vilayətinin Norilski şəhərinə köçüb. İndi də orada yaşayır. Norilsk şəhərində rus dilində çap olunmuş şeir almanaxlarında onun da rus dilində şerləri vardır.

Hazırda Norilsk şəhərində fəaliyyət göstərən Azərbaycan diasporunda Qadınlar Cəmiyyətinin sədri və Dünya azərbaycanlıları Mədəniyyət Mərkəzinin Norilsk şəhəri üzrə təmsilçisidir.

**Əsərləri**

1. Vətən, səndə izim qaldı. Bakı, 2013, 290 səh.

# QƏRBİ AZƏRBAYCANIN DƏRƏÇİÇƏK MAHALI



İrəvan xanlığının mahallarından biri olan Dərəçiçək mahalı Pəmbək mahalı ilə Qırxbulaq mahalları arasında İrəvan şəhəri yaxınlığında yerləşir. Axta (sonra Hrazdan) çayının yuxarı hissəsi və Dərəçiçək onun ərazisində yerləşir. Mahalın ərazisindən Axta (Hrazdan) çayı və Böyük çay ( Mərmərik) qolu axıb gedir. Mahalın ərazisi müxtəlif tərəflərdən Pəmbək, Tsax kunyats dağ silsilələri, Göyçə yaylası ilə əhatələnmişdir. Mahalın adı Aşağı Axtadan (1956-cı ildən Hrazdan) şərqə doğru uzanan meşənin içərisində Əlibəy dağının ətəyində yerləşən Dərəçiçək (sonra Tsaxkadoz) kəndinin adından götürülmüşdür. Bu yerlər həmişə İrəvan xanlarının diqqət mərkəzində olmuşdur. İrəvan xanlarından Pənh xanın buradakı yay evi son zamanlara kimi qalırdı.

Mahalın şimalından Böyük Qarakilsəyə qədər uzanan Teş dağları Gürcüstanın sərhədinə kimi uzanır. «Teş» sözünün «Dış» sözündən başqa bir şey olmadığı da Dış Pristavlığın mərkəzi oğuzların sərhədini nişan verdiyi barədəki fikirlərin həqiqiliyini təsdiq edir. Maraqlıdır ki, ermənilərin özləri də bu sözü «dırs», yəni «bayır», «çöl», «eşik» mənasında işlədirlər. Kitabi «Dədə Qorqud» boylarında adı çəkilən Altuntaxtın Dərəçiçəklə bağlı olduğu fikri də deyilənlərlə üst-üstə düşür. Dərəçiçəkdə Misxana (sonra Ankavan) kəndinin şimal şərqindəki yaylaq Altuntaxt adlanır.

1886-cı ildə Dərəçiçək mahalının ərazisi İrəvan quberniyasının Yeni Bəyazid qəzasına daxil idi və Dərəçiçək sahəsi[ 1 sahə (pristavlıq)] adlanırdı. Mərkəzi qəza mərkəzi olan Yeni Bayazid (keçmiş Kəvər) şəhərindən 50 km məsafədə yerləşən Karvansaray kəndi idi. Pristavlığa (sahəyə) aşağıdakı kənd icmaları daxil idi.

1. Ərzəkənd (6 kənd, 475 ev, 3375 nəfər: 1878 kişi, 1497 qadın), 188 evdə erməni, 287 evdə türk,
2. Aşağı Erməni Axtası (5 kənd, 926 ev, 7213 nəfər: 3789

kişi, 3424 qadın, hamısı erməni),

3. Aşağı Rus Axtası (3 kənd, 130 ev, 759 nəfər: 393 kişi, 366 qadın, hamısı rus);
4. Yelenovka (3 kənd, 288 ev, 1722 nəfər: 872 kişi, 850 qadın: ruslar-262 ev, 1579 nəfər, mordvinlər-26 ev, 143 nəfər),
5. Kankan (8 kənd, 427 ev, 2822 nəfər: 1483 kişi, 1333 qadın: kürdlər-41 ev, 305 nəfər; ermənilər- 53 ev, 399 nəfər; türklər (tatarlar, azərbaycanlılar)- 333 ev? 2118 nəfər,
6. Randamal (7 kənd, 722 ev, 710 nəfər: 3608 kişi, 3493 qadın, kürdlər-3 ev, 23 nəfər, ermənilər-719 ev, 7078 nəfər)
7. Tayçarıq [11 kənd, 418 ev, 3756 nəfər: 1936 kişi, 1770 qadın; kürdlər- 32 ev, 269 nəfər, ermənilər-108 ev, 1103 nəfər, türklər (azərbaycanlılar)-254 ev, 2266 nəfər, yunanlar (berzenlər) 24 ev, 118 nəfər]
8. Cırcır (7 kənd, 794 ev, 7096 nəfər: 3703 kişi, 3393 qadın; kürdlər 2 nəfər, ermənilər-793 ev, 7094 nəfər).

Ümumiyyətlə 1886-cı ildə Dərəçiçək sahəsində (pristavlığında) yəni keçmiş Dərəçiçək mahalında 4280 ev olmuş və 33844 nəfər (17712 kişi, 16132 qadın) yaşamışdır. Bunlardan 2338 nəfər rus (392 ev), 670 nəfər kürd (77 ev), 24286 nəfər erməni (2787 ev), 6361 nəfər türk (azərbaycanlı ) (587 ev), 143 nəfər mordvin (26 ev), 118 nəfər yunan (berzen) (24 ev) olmuşdur.





# DƏRƏÇİÇƏK MAHALININ HRAZDAN (KEÇMİŞ AXTA) RAYONU




Ermənistan SSR-də (1920-1991) inzibati rayon. 1930-cu il sentyabrın 9 – da yaradılıb. 1959-cu il iyunun 30-a kimi Axta adlanıb. Ərazisi 936 km$^2$ –dir. Rayon mərkəzi respublika tabeli Hrazdan (1959-cu ilə kimi Aşağı Axta) şəhəridir. Rayon mərkəzindən İrəvan şəhərinə olan məsafə 50 km-dir. Rayonun mərkəzindən İrəvan-Yelenovka (Sevan) dəmiryol xətti keçir. Rayon mərkəzi Zəngi çayının sahilində yerləşir.

«İrəvan əyalətinin icmal dəftəri»ndə Axtu formasında, Qafqazın 5 verstlik xəritəsində Axta kimi qeyd edilmişdir. Toponim **oğuz tayfası** olan **padarların** bir qolunu təşkil edən **axta** etnonimi əsasında formalaşmış etnotoponimdir. Quruluşca sadə toponimdir.

Rayonun ərazisi 1828-ci ilə kimi İrəvan xanlığının Dərəçiçək mahalının, 1828-1918-ci illərdə İrəvan quberniyasının Yeni Bəyazid 1918-1920-ci illərdə Ermənistan Respublikasının [Daşnak Ermənistanı (1918-1920)] Yeni Bəyazid qəzasının, 1920-1930-cu illərdə Ermənistan SSR-nin Nor Bəyazid qəzasının tərkibində olmuşdur.

Rayonun ərazisində qədimdən türklər (azərbaycanlılar) yaşamışdır. XIX əsrin 20-30-cu illərində və ondan sonrakı dövrlərdə İrandan və Türkiyədən gələn ermənilərin (hayların) sayı getdikcə artmışdır. 1931-ci il məlumatına görə rayonun yalnız 36-sı türk (azərbaycanlı) kəndi olmuşdur. Bu kəndlər aşağıdakılardır: 1) Ayverən (Kəbir Əli) (qarışıq- türk, erməni) (1948-1949), 2. Axta (rus Axtası), (qarışıq - türk, rus, erməni) (1918), 3. Axundov (Dədəqışlaq) (1988). 4. Alabars (qarışıq-türk, erməni) (1918), 5. Allahverdikənd (Qorçulu) (qarışıq-türk, erməni) (1988), 6. Allahverən (qarışıq-türk, erməni), (1930-cu illərdə), 7. Aşağı Axta (Hrazdan, 1918), 8. Balakişi (Ağavanadzor) (qarışıq -- türk, erməni) (1918-ci ildə), 9. Bicini (Bijni) (qarışıq-türk, erməni,) (1920-ci illərdə), 10. Bığlı (Bığlı Hüseyn Sarcalı) (1920-1930-cu illərdə), 11. Çopur Əli (Əli Çopur) (XIX əsrdə), 12. Dəllər (1918-ci ildə), 13. Dərəçiçək (Zaxqadzor) (qarışıq-türklər, ermənilər), (1918-ci ildə), 14. Ərzəkənd (Arzakan) (qarışıq-türk, erməni), (1918-ci ildə), 15. Fantan (Quru Fantan,) (qarışıq-türk, rus, erməni) (1918-ci ildə), 16. Fərrux (1918-ci ildə), 17. Gümüş (1918-ci ildə), 18. Qabaxlı (Zər) (1948-ci ildə), 19. Qaraqala (1948-1949-cu illərdə), 20. Qarnıyarıq (Karvansara) (qarışıq –türk, erməni), (1918-ci ildə), 21. Qoyunlu (Quyulu)





(XIX əsrdə), 22. Ozanlar (1918-ci ildə), 23. Paşakənd (Marmarik) (qarışıq-türk, erməni), (1948-1949-cu illərdə), 24. Solaq (qarışıq-türk, erməni), (XIX əsrdə), 25. Soyuqbulaq (1918-ci ildə), 26. Tezxarab (Tezxaraba) (qarışıq-türk, erməni,) (1918-ci ildə), 27. Təkəlik (Mola Əli kənd), (1988-ci ildə), 28. Ulaşıq (Ulya Şeyx), (1948-1949-cu illərdə), 29. Yelenovka (qarışıq-türk, rus, erməni,) (1918-ci ildə), 30. Yuxarı Axta (Hrazdan), (qarışıq-türk, erməni) (1918-ci ildə), 31. Zeynal Ağəli (Aleksandrovka), (qarışıq- türk, rus, erməni), (1918-ci ildə).

1980-ci illərin məlumatına görə rayonun ərazisində 1 respublika tabeli şəhər [Hrazdan (1959-cu ilə qədər Aşağı Axta) Zəngi (Hrazdan) çayının sahilində yerləşir. 1959-cu ildən respublika tabeli şəhərdir. Rayonun mərkəzidir. Burada mədən kimya, iripanelli ev tikmə və soyuducu kombinatları, tikiş fabriki, süd, pivə zavodları, Dövlət Rayon Elektrik Stansiyası, İstilik Elektrik Stansiyası, Su Elektrik Stansiyası; Sənaye-Texnoloji Texnikumu və s. var], 1 rayon tabeli şəhər [Çarentsavan (1967-ci ilə kimi Lusavan) 1961-ci ildən rayon tabeli şəhərdir. Rayon mərkəzindən 17 km, İrəvan şəhərindən 38 km məsafədədir. Şəhərin içərisindən İrəvan-Sevan (keçmiş Yelenovka) dəmiryol xətti keçir. Erməni şairi Yeğişe Çarentsin adını daşıyır], 2 şəhər tipli qəsəbə [**Tsaxkadzor** ( Dərəçiçək)- rayon mərkəzindən 8 km, İrəvan şəhərindən 58 km məsafədədir. Ən yaxın dəmiryol dayanacağı 7 km məsafədə yerləşən Hrazdan (keçmiş Aşağı Axta) stansiyasıdır; **Lusakert**-rayon mərkəzindən 23 km, İrəvan şəhərindən 32 km məsafədə yerləşir. Ən yaxın dəmiryol dayanacağı 6 km kənarda yerləşən Lusavan stansiyasıdır], 11 kənd sovetliyi [1. Alabars, 2. Ankavan, (Misxana), 3. Arzakan (Ərzəkənd), 4. Naxavandzor (Babakişi), 5. Bjni, 6. Lernanist, Yuxarı Axta, 7. Kaxsi (Qaxsu), 8. Meğadzor (Tayçarıx), 9. Solak, 10. Takarli (Təkəlik), 11. Fontan (Quru Fontan)] və 18 yaşayış məntəqəsi [1. Axundov (Dədəqışlaq), 2. Alabars, 3. Ankavan

(Misxana), 4. Arzakan (Ərzəkənd), 5. Bjni, 6. Garentsavan (Lusavan), 7. Fontan (Qoru Fontan), 8. Gümüş, 9. . Naxavandzor (Babakişi), 10. Razdan (keçmiş Aşağı Axta), 11. (Kaxsı), (Qaxsu, 12. Qorçulu, 13. Lernanist (Yuxarı Axta), 14. Lusakert 15. Marmarik (Paşa kənd), 16. Meğadzor (Tayçarıx) 16. Solak, 17. Takarlı (Təkəlik), 18. Tsaxkadzor (Dərəçiçək)] olmuşdur.

Ermənistan SSR Alt Soveti Rəyasət Heyətinin və Ermənistan Respublikası Prezidentinin müxtəlif fərmanları ilə Hrazdan (keçmiş Axta) rayonu üzrə adları dəyişdirilərək erməniləşdirilmiş yaşayış məntəqələri

| Keçmiş (əsl) adı | Yeni adı | Dəyişdirildiyi tarix |
|---|---|---|
| 1. Aşağı Axta | Razdan | 30.VI. 1959 |
| 2. Babakişi | Ağanadzor | 15.VII. 1948 |
| 3. Dədəqışlaq | 1. Axundov,<br>2. Pyunik | 04. V.1939<br>04. VII. 2006 |
| 4. Dərəçiçək | Tsaxkadzor | ? |
| 5. Ərzəkənd | Arzakan | ? |
| 6. Gümüş | Karenis | 03.IV.1991 |
| 7.Qorçulu | Qorqos | 04.VI.2006 |
| 8. Paşakənd | Marmarik | 03.I.1935 |
| 9. Tayçarıx | Meğadzor | 31.V.1946 |
| 10. Təkəlik | 1. Təkərli<br>2.Ardavaz | ?<br>03.IV.1991 |
| 11.Yuxa Axta | Lernanist | 25. I. 1978 |





## TƏKƏLİK KƏNDİ

### NADİR HACIYEV
### *(1949)*

***Nadir Haci oğlu Haciyev – publisist***

1949-cu ildə Qərbi Azərbaycanın Dərəçiçək mahalının Təkəlik kəndində [indiki Ermənistan Respublikasının Hrazdan (Axta) rayonu] anadan olmuşdur. Ailəsi 1949-cu illərdə deportatsiya nəticəsində doğma yurdundan Saatlı rayonuna köçməyə məcbur olmuşdur. Orta məktəbi gümüş medalla bitirdikdən sonra Azərbaycan Dövlət Universitetində (indiki Bakı Döviət Universitetində) (əyani), Bakı Ali Partiya Məktəbində (əyani), S. Ağamalıoğlu adına Kənd Təsərrüfatı İnstitutunda (indiki Kənd Təsərrüfatı Akademiyasında) (qiyabi) ali təhsil almışdır.

Əmək fəaliyyətinə müəllim kimi başlamış, uzun illər Saatlı rayon partiya komitəsində təlimatçı, şöbə müdiri, katib, rayon İcra Hakimiyyəti başçısının humanitar məsələlər üzrə müavini, «Xalq üçün mallar» Dövlət Konsernində Tikilməkdə olan müəssisələr müdriyyətində direktor müavini, eyni zamanda Saatlıda tikilməkdə olan sap əyriçilik fabrikinin direktoru, 1999-2002-ci illərdə Saatlı rayon İcra Hakimiyyətində ictimai təşkilatlar və siyasi partiyalarla iş şöbəsinin müdiri vəzifələrində işləmiş, 2006-cı ildən Saatlı rayon Təhsil Şöbəsində məsləhətçi vəzifəsində çalışmaqdadır.

Ailəlidir. Bir oğlu, iki qızı vardır

Nadir Hacıyevin 1963-cü ildən başlayaraq «Muğan Pambıqçısı", "Dönüş", "Azərbaycan gəncləri», «Bakı», «Sovet kəndı» «Kommunist», «Xalq qəzeti", "Azərbaycan» qəzetlərində,

«Azərbaycan məktəbi», «Kimya-biologiya tədrisi» məcmuəsində, «Elm və həyat», «Təşviqatçı», «Gənclik» jurnallarında müxtəlif mövzularda elmi-publisist, pedaqoji, metodiki və bədii yazıları dəfələrlə çap olunmuşdur.

**Əsərləri:**

1. Saatlı. Diyarşünaslığı və etnoqrafıyası. Bakı,"Nurlan", 2008,360 səh



# QƏRBİ AZƏRBACANIN DƏRƏLƏYƏZ MAHALI






# QƏRBİ AZƏRBAYCANIN DƏRƏLƏYƏZ MAHALININ ƏZİZBƏYOV RAYONU (KEÇMİŞ SOYLAN)




Ermənistan SSR-nin (1920-1991) ərazisində inzibati rayon. 1931-1956-cı illərdə Soylan, 1956- 1991-ci illərdə Əzizbəyov, 1991-ci ildən Vayk adlanır. Ərazisi 1173 kv, km-dir. Rayon mərkəzi Əzizbəyov qəsəbəsidir (1935-ci ilə kimi Soylan, sonra dəyişdirilb Əzizbəyov, 1957-ci ildən Zaritap olmuşdur). 1956-cı

ildən şəhər tipli qəsəbədir. Rayon mərkəzindən İrəvan şəhərinə olan məsafə 135 km-dir. Rayon mərkəzinə ən yaxın dəmiryol dayanacağı 75 km kənarda yerləşən Vedi rayonunun ərazisindəki Arazdəyən (Yerasx) stansiyasıdır.

1920-ci ilə kimi İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasının, 1920-1930-cu illərdə Ermənistan SSR-nin Dərələyəz qəzasının tərkibində olmuşdur. Rayon 1931-ci il oktyabrın 15-də təşkil edilmişdir, 1951-1956-cı illərdə Yeğeqanadzor rayonuna [(1931-1935-ci illərdə Keşişkənd (əslində Keşkənd), 1935-1957-ci illərdə Mikoyan, 1957-ci ildən Yeğeqnadzor adlandırılıb] birləşdirilib. 1957 –ci ildən yenidən müstəqil rayon olub.

Arpa çayının yuxarı axarında yerləşən rayon şərqdən Zəngəzur dağları, şimaldan Basarkeçər dağları ilə əhatə olmunmuşdur. Arpa çayının Pşonk, Dərb, Herher qolları Əzizbəyov rayonunun ərazisindən axır. Müxtəlif filiz yataqları və bazalt daşı ehtiyatları ilə zəngindir. Cermuk və Herher çayları arasında respublikanın ən böyük qoruğu salınmışdır.

Əzizbəyov rayonunun əhalisi türklərdən və ermənilərdən (haylardan) ibarət olmuşdur. 1831-ci ildə türklər (azərbaycanlılar) 1903 nəfər, ermənilər 872 nəfər, 1873-cü ildə türklər (azərbaycanlılar) 6507 nəfər, ermənilər (haylar) 6254 nəfər, 1886-cı ildə türklər (azərbaycanlılar) 7198 nəfər, ermənilər 7149 nəfər, 1922-ci ildə ermənilər (haylar) 7925 nəfər, türklər (azərbaycanlılar) 2271 nəfər, 1931-ci ildə ermənilər 10299 nəfər, türklər (azərbaycanlılar) 5061 nəfər olmuşdur. Ancaq 40-cı illərin sonunda bu nisbət türklərin (azərbaycanlılar) xeyrinə dəyişdi, yəni əhalinin 60%-dən çoxunu türklər (azərbaycanlılar) təşkil etməyə başladı.

1948-1949-cu illərdə 150 min nəfər Qərbi Azərbaycanda (indiki Ermənistan) yaşayan türklərin zorla Azərbaycan SSR-yə köçürülməsi zamanı Əzizbəyov rayonunun etnik tərkibi yenidən 28-30 faizə endi.1959-cu ildə 13422 nəfər, 1972-ci ildə 14974 nəfər, 1979-cu ildə 19638 nəfər erməni (hay) və türk (azərbaycanlı) əhalisi olmuşdur. Erməni Sovet Ensiklopediyasında





rayon əhalisinin etnik tərkibi ermənilər (haylar) 80 %, türklər (azərbaycanlılar) 19 % göstərilir. Cermuk şəhərinin əhalisi buraya daxil deyil. Lakin Cermuk şəhərinin əhalisini hesablamasaq kənd əhalisində türklər 28-30% təşkil edirdi.

1988-ci ilədək rayonda 21 kənd mövcud olmuşdur. Onlardan 11-i türk (azərbaycanlı), 10-u erməni (hay) kəndi idi. Cermuk şəhərinin əhalisi buraya daxil deyildir, lakin burada da az sayda olsa da, türklər yaşayırdı. 1988-ci il noyabrın sonunda rayonda olan bütün türklər (azərbaycanlılar) Moskvanın himayədarlığı, Ermənistan SSR-nin rəhbərlərinin təşkilatçılığı, rayonun partiya, sovet və hüquq-mühafizə orqanlarının məsul işçilərinin iştirakı ilə ermənilər bir həftə ərzində türkləri doğma yurdlarından qovdular.İndi onlar Azərbaycan Respublikasının müxtəlif şəhərlərində, rayon mərkəzlərində, qəsəbələrində və kəndlərində yaşamaqdadırlar.

XIX əsrdən 1988-ci ilin sonunadək rayonun ərazisində mövcud olan kəndlər:

1.Ağca (Ağca kənd) (1918),
2. Ağxaç (qarışıq-türk, erməni) (1918),
3. Ağıllı (Axili) (1918),
4.Axta (Aşağı Axta) (1918)
5. Almalı (Xındzorud) (qarışıq-türk, erməni) (XX əsrin əvvəlləri),
6. Arinc (1918),
7. Azader (Azadek),
8.Bilək (Çıraq) (1918),
9.Bulaqlar (Bolbulaq) (1940),
10. Çaykənd (1948-1949),
11. Çıraxlı (Çıraxoğlu kəndi),
12. Cagata (Cagatay) (1918),
13. Ceyranlı (1918),
14.Cul (Ağxaç, Artavan) (1948-1949),
15. Daşaltı (qışlaq) (1918),

16. Daşkənd (XIX əsr),
17. Daylaxlı (1918),
18. Dəmirçilər (1918),
19. Dərəkənd (1918),
20. Donuzdamı (qışlaq)
21. Əkərək,
22. Gendərə (1918),
23. Gomur (Gömürlü) (1988),
24.Göyərçin (İtqıran) (1988).
25. Gülüstan,
26. Gümüşxana (1918),
27. Herher (1948-1949) (qarışıq-türk və erməni),
28. İstisu (Cermuk) (1988),
29. Gabut (Qabuyd-1958-ci ilədək) (1988),
30. Kotanlı (Qarmraşen) (qarışıq-türk, erməni) (1988),
31. Köçbəy (1988),
32. Qabaxlı (1988)
33. Qaralar (1918),
34. Qayabas (1918),
35. Qayalı (XX əsrin 20-ci illəri),
36. Qidevar (qarışıq-türk , erməni) (1918),
37. Qılıclı (1918),
38. Qısır (Qısır xaraba), (1918),
39. Quşçu (Bilək, Geçut) (1946),
40. Leyli köçən (1918),
41. Maratuz (Maratuz qışlağı (1918),
42. Məmmədrza (Məmmədrza qışlağı) (1918),
43. Orta kənd (?),
44. Paşalı (1988), (qarışıq-türk və erməni),
45. Pəyə kəndi (?),
46. Por (1828-ci ildən sonra),
47. Soylan (1956-cı ildən Əzizbəyov) (XX əsrin əvvəlləri),
48. Terp (1960-cı ildən Saravan) (1948-1949-cu illər),





49. Tezxarab (XIX əsr),
50. Zeytə (Çomax, Çompaz, Zeytə) (1988)

1970-ci ilin məlumatına görə rayon ərazisində bir respublika tabeli şəhər [Cermuk (Safolar)-Arpaçayın (Arazın qolu) yuxarı axınında, 2100 m yüüksəklikdə, İrəvandan 175 km məsafədə yerləşir. Avtobus və hava yolları İrəvanla əlaqələndirir. 1961-ci ildən respublika tabeli şəhərdir. Balneoloji və iqlim krortudur. Suyunun tərkibi Karlovi-Vari, İstisu, Jeleznovodsk mineral sularına yaxındır. Mineral bulaqları müalicə məqsədilə içilir və vanna kimi istifadə edilir. Kurortda ginekoloji, həzm orqanları, sidik yolları, hərəkət orqanları, sinir sistemləri və s. xəstəliklərə tutulanlar müalicə olunur. Cermukda sanatoriyalar, pansionatlar, vanna binaları, mineral su zavodu var. Şəhər sovetinə Keçit kəndi də daxildir], bir şəhər tipli qəsəbə [**Əzizbəyov**-İrəvan-Əzizbəyov şosse yolunun kənarında, Arpa çayı sahilində yerləşir. 1956-cı ildən şəhər tipli qəsəbədir. Qəsəbə sovetinə 7 km kənarda yerləşən Arin (1978-ci ilədək Daylaxlı) kəndi də daxildir], 11 kənd sovetliyi [1. Artavan (Cul), 2. Azadek, 3. Gomur, 4. Her-Her, 5. Xındzorut (Almalı), 6. Karmraşen (Kotanlı), 7. Qndevaz, 8. Martiros, 9 Saravan (Terp), 10. Sers, 11. Zaritap (Səylan, Əzizbəyov] və 21 yaşayış məntəqəsi [1. Axta, 2. Arin (Daylaxlı). 3. Azadek, 4. Bartstunı (Sultanbəy). 5. Cermuk (Safolar), 6. Gomur. 7. Gülüstan (İtqıran), 8. Herher. 9. Xndzorut (Almalı), 10. Kopuyt (Gabut), 11. .Karmraşen (Kotanlı). 12. Keçit (Quşçu), 13. Köçbəy, 14. Ondevaz. 15. Martiros, 16. Horadiz (Qradis) 17. Por, 18. Saravan (Terp). 19. Sers. 20. Zaritap (Soylan, Əzizbəyov), 21. Zeytə] mövcud idi.

1935-1978-ci illərdə Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin imzaladığı müxtəlif fərmanlarla dəyişdirilərək erməniləşdirilmiş kəndlər:

| Keçmiş (əsl) adı | Yeni adı | Dəyişdirildiyi tarix |
|---|---|---|
| 1. Almalı | Xndzorut | 12.11.1941 |
| 2. Cul | Hartavan | 19.04.1950 |
| 3. Gabut | Kapuyt | 03.07.1948. |
| 4. Horadis | Oradis | 03.07.1968 |
| 5. İstisu | Cermuk | 7 |
| 6. İtqıran | Gülüstan | 03.01.1935 |
| 7. Kotanlı | Karmıraşen | 12.XI.1946 |
| 8. Quşçu | Keçit | 03.01.1935 |
| 9. Paşalı rayonu | Əzizbəyov rayonu | |
| 10. Safolar | Cermuk | |
| 11. Soylan | 1.Əzizbəyov | |
| | 2. Zaritab | 03.01.1935 |
| 12. Sultanbəy | Bartsruni | 12.X.1956 |
| 13. Terp | Saravan | 03.01.1935 |
| | | |

1991-ci il aprelin 9-da Ermənistan Respublikasının Prezidenti tərəfindən imzalanmış fərmanla adları dəyişdirilərək erməniləşdirilən türk mənşəli kəndlər:

1.Əzizbəyov rayonu – Vayk rayonu.
2. Gomur – Komk.
3. Gülüstan – Nor Aznaserd,
4. Köçbəy – Hedzor,
5 Zeytə – Zedca.





## GABUD KƏNDİ

### VALEH SAVALAN
### (1957)

***Valeh Surxay oğlu Şahquliyev - şair***

1957-ci il iyulun 14-də Qərbi Azərbaycanın Dərələyəz mahalının Gabud kəndində [indiki Ermənistan Respublikasının Əzizbəyov (keçmiş Soylan) rayonu] anadan olmuşdur. Burada qonşu Gomur kəndində orta məktəbi bitirdikdən sonra bir müddət istehsalatda işləmişdir. Naxçıvan Dövlət Pedaqoji İnstitutunun fizika-riyaziyyat fakültəsində ali təhsil almışdır (1975-1980).

Bədii yaradıcılıqla tələbəlik illərindən məşğul olmuşdur. Şeirləri almanaxlarda və dövri mətbuatda vaxtaşırı çıxmışdır. Hazırda Sabirabad rayonundakı Poladtoğay kənd orta məktəbində müəllimdir (1980-ci ildən). “Bağışla yurd yeri” (1998) şeirlər toplusu kütləvi tirajla çap olunmuşdur.

## GOMUR KƏNDİ

### KAMİL TEYMUROĞLU
*(1948)*

***Kamil Teymur oğlu Həsənov – aşıq, şair***

1948-ci ildə Qərbi Azərbaycanın Dərələyəz mahalının Gomur kəndində [indiki Ermənistan Respublikasının Əzizbəyov (keçmiş Soylan) rayonu] anadan olub.

Orta təhsilini 1954-1964-cü illərdə Gomur kənd orta məktəbində alıb. 1965-1970-ci illərdə Gomur kənd orta məktəbində kitabxana müdiri, 1970-1986-cı illərdə isə laborant, 1986-1988-ci illərdə isə doğma kəndində sahə briqadiri vəzifələrində işləmişdir.

1988-ci ilin məlum hadisələri zamanı ermənilər tərəfindən doğma yurdundan zorla qovulanlardan biri də Kamil Həsənovun ailəsi olmuşdur. O, bir müddət Şuşa, Şamaxı və Ağdamda yaşamış, sonra Naxçıvan MR-in Babək rayonunun Çalxanqala kəndində (kənd indi yeni yaradılmış Kəngərli rayonunun ərazisinə daxildir) məskunlaşmışdır. 1988-1989-cu illərdə Çalxanqala kəndində sahə briqadiri olmuşdur. 1993-cü il sentyabrın 1-də Çalxanqala kəndində Uşaq Musiqi Məktəbində saz dərslərini tədris edir. On uşaq atasıdır. Bir çoxu ali təhsillidir.

**Əsəri:**

1. Vətənə baxıram həsrət gözüylə. Bakı, 2015, 128 səh.





## HER-HER KƏNDİ

### VAHİD ƏZİZ
**(1945)**

***Vahid Əziz oğlu Cəfərov – şair, publisist, Azərbaycan Yazıçılar Birliyinin üzvü (1974), Azərbaycan Jurnalistlər Birliyinin üzvü.***

1945-ci il noyabrın 23-də Qərbi Azərbaycanın Dərələyəz mahalının Herher kəndində [indiki Ermənistan Respublikasının Əzizbəyov (keçmiş Soylan) rayonu] qulluqçu ailəsində anadan olmuşdur. Ailəliklə Azərbaycanın Tərtər rayonuna köçdüklərindən orta məktəbi orada bitirmişdir (1963). Əmək fəaliyyətinə Əli Bayramlı şəhərində Şirvanneft trestində başlamışdır (1963-1964). Azərbaycan Politexnik İnstitutunu bitirmişdir (1971). "Xəbər Mətbuat Agentliyi"ndə müxbir (1971-1976), Bakı şəhər Partiya Komitəsində təbliğat və təşviqat şöbəsində təlimatçı (1976-1982), Azərbaycan KP Mərkəzi Komitəsində təlimatçı, mətbuat bölməsinin müdiri (1982-1989), Azərbaycan Dövlət Mətbuat Komitəsində sədr müavini (1989-1991) vəzifələrində çalışmışdır.

Azərbaycan Yazıçılar Birliyi İdarə Heyətinin katibi (1991-1997), Bakı şəhər İcra Hakimiyyətinin Reklam və Şəhər tərtibatı Departamentində "Reklamların azərbaycan dilində yazılışına nəzarət bölməsi"nin müdiri (1998-ci ildə 7 ay) və Dağlıq Qarabağ və ətraf rayonlar üzrə respublika təşkilat komitəsinin üzvü olmuşdur (1988-ci ildən). Bolşevik çevrilişindən əvvəl, yəni çar Rusiyası dövründə görkəmli rus ədiblərinin erməni - Azərbaycan münasibətlərinə dair yazdıqları əsərlərin yenidən nəşrini bilavasitə təşkil etmişdir. "Oğuz eli" ədəbi-publisistik qəzetin işıq üzü görməsinə ciddi köməyi olmuşdur. Bakıda keçirilən Beynəlxalq-

Biznes Konqresinin təşkilat komitəsi qərargahının rəisi olmuş (1991) və "Ergün" firmasını, eyni adlı nəşriyyatı təsis etmişdir. Burada bazar iqtisadiyyatı ilə sıx bağlı olan sorğu, lüğət kitablarını, müasir Avropa və Amerika iqtisadçılarının əsərlərini kütləvi tirajla nəşr etdirmişdir. Bədii yaradıcılığa 1967-ci ildə "Ədəbiyyat və incəsənət" qəzetində çıxan ilk şeirindən sonra başlamışdır. Həmin vaxtdan dövri mətbuatda müntəzəm çıxış edir. Son illər 200-dən çox publisistik məqaləsi və müsahibəsi dərc olunmuşdur. Yeni şeirlərlə vaxtaşırı çıxış edir. Sözlərinə bəstələnmiş mahnıların diski buraxılmışdır. "Dözmək olmur" (1997) şeirlər kitabı rəğbətlə qarşılanmışdır. Bədii tərcümə ilə də məşğul olur. 40-dan çox mahnısına musiqi bəstələnmişdir. Azərbaycanın rəsmi nümayəndə heyətinin tərkibində dəfələrlə xarici ölkələrdə olmuşdur.

**Əsərləri.**

1. Mən küləyi görürəm. Bakı., Gənclik, 1969, 40 səh., 7.000 nüs.
2. Aylı pəncərə. Bakı, Gənclik, 1974, 63 səh., 7.500 nüs.
3. İllərin baharı. Bakı, Yazıçı, 1980, 136 səh., 5.500 nüs.
4. Əllərimin kölgəsi. Bakı, Gənclik, 1986, 136səh., 7.000 nüs.
5. Dözmək olmur. Bakı, Gənclik, 1997, 210 səh., 7.000 nüs.
6. Seçilmiş əsərləri (üç cilddə). I cild. Bakı, Gənclik, 415 səh., 1.000 nüs.
7. Seçilmiş əsərləri (üç cilddə), II cild. Bakı, Gənclik, 428 səh.,1.000 nüs.
8. Seçilmiş əsərləri (üç cilddə), III cild. Bakı, Azərnəşr, 2008, 672 səh., 1.000 nüs.

**Tərcümələri: (ruscadan)**

1. Aqustino Netto. Azadlıq nəğmələri. Bakı, Yazıçı, 1981, 84 səh., 6.00 nüs.





## QƏRBİ AZƏRBAYCANIN DƏRƏLƏYƏZ MAHALININ YEĞEQNADZOR (keçmiş Keşişkənd, Mikoyan) RAYONU




Ermənistan SSR-də (1920-1991) (1991-ci ildən Ermənistan Respublikası) - inzibati rayon. 1931-ci il oktyabrın 15-də yaradılıb. 1935-ci il yanvarın 3-nə qədər Keşişkənd, həmin tarixdən 1957-ci il dekabrın 6-na qədər Mikoyan, ondan sonra isə Yeğeqnadzor rayonu adlandırılıb. Ərazisi 1134 km$^2$-dir. Ararat (keçmiş Vedi),Martuni (keçmiş Yuxarı Qaranlıq) və Əzizbəyov (kemiş Paşalı) rayonları ilə, habelə Azərbaycan SSR-nin

Naxçıvan Muxtar Respublikası ilə həmsərhəddir. Əhalisi tarixən türklər olmuşdur. Sonralar ermənilər də köçərək burada yaşamağa başladılar. XX əsrin birinci rübünədək türklər üstünlük təşkil etmişdilər. Erməni (hay) mənbələrinin göstərdiyinə görə 1831-ci ildə türklər 2557 nəfər, ermənilər 2396 nəfər, 1873-cü ildə türklər (azərbaycanlı) 6991 nəfər, ermənilər (haylar) 6494 nəfər, 1886-cı ildə türklər (azərbaycanlı) 9643 nəfər, ermənilər 8899 nəfər, 1897-ci ildə türklər (azərbaycanlı) 12970 nəfər, ermənilər 10914 nəfər, 1918-ci ildə türklər (azərbaycanlı) 14271 nəfər, ermənilər 8000 nəfər, 1922-ci ildə türklər (azərbaycanlı) 3171 nəfər, ermənilər 13647 nəfər, 1926-cı ildə türklər (azərbaycanlı) 3154 nəfər, ermənilər 15131 nəfər, 1931-ci ildə isə türklər (azərbaycanlı) 4052 nəfər, ermənilər 18123 nəfər olmuşdur. Ermənilər (haylar) türklərə nisbətən 4,5 dəfə artmışdır. Qərbi Azərbaycanın (indiki Ermənistan) ərazisi 1828-ci ildə bağlanmış Türkmənçay müqaviləsi ilə Rusiyaya birləşdirildi. Bundan sonra bu əraziyə İrandan ermənilərin (hayların) köçməsinə icazə verilmişdir.

1829-cu ildə İranın Xoy və Salmas vilayətlərindən köçürülmüş 500 erməni (hay) ailəsi rayonun Malışka, Keşişkənd (Yeğeqnadzor), Ortakənd (Oladzor), Başkənd (Vernaşen), Əyar (Ayarqadzor), Qoytul (Gedep), Həsənkənd (Şodin), Erdəpin,Karaqlux, Taratums və s. kəndlərdə məskunlaşmışdır.

1918-1920-ci illərdə Ermənistanın daşnak hökuməti ərazinin türk əhalisinə qarşı soyqırım həyata keçirmiş və bu zaman 60-dan çox türk (azərbaycanlı) kəndi dağıdılmış, 14000 nəfərdən artıq əhali doğma yurdundan qovulmuşdur. Onların bir hissəsi həlak oldu və müxtəlif dərəcəli xəsarətlər aldılar.

1920-ci ilin noyabrın 29-da Daşnak Ermənistanında (1918-1920) sovet hakimiyyəti qurulduqdan (29. IX. 1920) bir müddət sonra, yəni 1922-ci ildə qaçqınların cüzi hissəsi (3171 nəfər) doğma yurda qayıtdı. Onlar dağılmış evlərini və təsərrüfatlarını tezliklə bərpa edərək əvvəlki həyat şəraitlərini düzəltməyə nail





oldular. Rayonun əhalisinin səfərbərliyə alınanları 1939-1945-ci illərdə baş vermiş İkinci Dünya müharibəsinin tərkib hissəsi olan Almaniya-SSRİ müharibəsində (1941-1945) fəal iştirak etdilər. Xeyli sayda keşişkəndli (keşkəndli) müharibədə həlak oldu və yaralandı. Sağ qalanlar isə doğma yurda qayıdaraq rayonun təsərrüfatının inkişaf etdirilməsində fəal iştirak etməyə başladılar. Ermənilər bu illərdə yenə də fürsət düşən kimi türklərə (azərbaycanlılara) qarşı öz məkrli siyasətlərini yürüdərək onları doğma yurdlarından köçməyə məcbur edirdilər.

Yeğeqnadzorluların qeyrətli övladları 1918-1920-ci illərdə ermənilərə (haylara) qarşı əldə silah mərdliklə vuruşmuşdular. Bu şəxslərin çoxu 30-40-cı illərdə Ermənistan SSR-nin o dövrkü rəhbərliyi tərəfindən repressiyalara məruz qalaraq güllələndi və bir hissəsi isə Orta Asiyaya, Sibirə sürgün edildi.

II Dünya müharibəsindən sonra ermənilər yenidən fəallaşdılar, yəni xaricdən «vətənlərinə» qayıtmaq istəyən erməniləri (hayları) yerləşdirmək bəhanəsi ilə Qərbi Azərbaycanın müxtəlif bölgələrində olduğu kimi Yeğeqnadzor rayonunda yaşayan türklərin (azərbaycanlı) Azərbaycan SSR-yə köçürülməsi məsələsini də yenidən gündəmə gətirdilər. SSR-nin o zamankı rəhbərləri- İosif Stalin, Molotov, Mikoyan və başqaları 1948-1953-ci illərdə Ermənistan SSR-də yaşayan türklərin Azərbaycan SSR-yə köçürülməsinə dair fərmanlar imzaladılar. Ancaq yeğeqnadzorlular (keşişkəndlilər) ermənilərə ciddi müqavimət göstərdilər. Ancaq Almalı, Ardaraz, Vardanes (Fartanik), Qızıl (Şahgəldi qışlağı), Qurdulaq [Qurdbulaq, 1940-cı ildə Bolorabert (qarışıq–türklər və ermənilər)] və Heşin kəndləri Azərbaycan SSR-nin müxtəlif rayonlarına köçməyə məcbur oldu.

Ermənilər bununla kifayətlənməyib daima SSR-nin rəhbərliyinə yol taparaq onların razılığını almaqla həm Qərbi Azərbaycanda (indiki Ermənistan) yaşayan türklərə qarşı çirkin siyasətlərini yürüdür, həm də eyni zamanda Azərbaycan SSR-dən

torpaq qopartmağa çalışırdılar. Nəhayət, onlar insan hüquqları, demokratiya deyə bar-bar bağıran böyük dövlətlərin və SSRİ-nin o zamankı rəhbərliyinin xeyir-duası ilə istədiklərinə nail oldular və 1988-ci ilin noyabr ayının sonunda, üç gün ərzində Qərbi Azərbaycandan (indiki Ermənistandan) bütün türkləri zorla qovdular. Bu zaman Yeğeqnadzor rayonunun Ağkənd (Ağncazor) (qarışıq-türklər və ermənilər), Qabaxlı (Cani, Aşağı Cani), Qaraqaya, Qovuşuq, Ələyəz (Alagöz, Məzrə Kərimxan), Gədikvəng (1946-cı ilədək Qoturvəng), Gülüdüzü, Sallı (qarışıq-türklər və ermənilər), Horbadeğ (Xorvadeğ) (qarışıq-türklər və ermənilər), Hors (Hork) (qarışıq-türklər və ermənilər) və Çivə (Çuvya) (qarışıq-türklər və ermənilər) kəndlərinin türk əhalisini doğma yurdlarından zorla qovdular. Onlar hazırda Azərbaycan Respublikasının müxtəlif şəhərlərində, rayon mərkəzlərində, qəsəbələrində və kəndlərində yaşamaqdadırlar.

XIX əsrin əvvəllərindən 1988-ci il noyabrın sonuna kimi Yeğeqnadzor rayonunun ərazisində aşağıdakı kəndlər mövcud olmuşdur:

1. Abana (XIX əsr),
2. Ağdırı (XX əsrin əvvəlləri),
3. Ağkənd (Ağncazor) (qarışıq-türk və erməni) (1988),
4. Ağkilsə (1918),
5. Ağsu (XX əsrin əvvəlləri),
6. Axurlu (?),
7. Alxan pəyəsi (1918),
8. Almalı (1948-1949),
9. Ardaraz (1948-1949),
10. Arxaç (1948-1949).
11. Arpa (Areni) (XX əsrin 20-ci illərində) (qarışıq-türk və erməni),
12. Aşağı Gülüdüzü (1950-ci illərdə),
13. Atçar (Ağca) (?),





14. Ayazlı saray (?),
15. Ayuş (XX əsrin əvvəlləri),
16. Baxçacıq (?),
17. Başkənd (Vernaşen- 1946) (qarışıq-türk və erməni) (XX əsrin əvvəlləri),
18. Bəyzadə (?),
19. Bülbülölən (Bülbül oğlu) (1918),
20. Çivə (Çuvya) (1988) (qarışıq-türk və erməni),
21. Daşxərmən (1918),
22. Əbdül-Ərəb (XIX əsrin sonu-XX əsrin əvvəli),
23. Ələyəz (Alagöz, Məzrə Kərimxan) (1988),
24. Əlidərəsi (1918),
25. Əliqışlağı (XIX əsrdə),
26. Əmağu (1988).
27. Ərəb xəncəri (30-cu illər),
28. Ərəbkəndi (?).
29. Ərkələz (Ərkəzan) (1918),
30. Əsgərkənd (1918),
31. Əskikənd (XX əsrin əvvəli),
32. Əyar (1946-cı ildən Aquraqadzor) (qarışıq-türk və erməni) (XX əsrin sonu),
33. Əynəzur (Ağavandzor) (qarışıq-türk və erməni) (XIX əsrin sonu-XX əsrin əvvəlləri),
34. Gəncəli (1918),
35. Gədikvəng (1946-cı ildən Qoturvəng) (1988),
36. Gəncə (?),
37. Gömürlü (1918),
38. Göy Abbas (1918),
39. Göyərçin (1918),
40. Gülüdüzü (1988),
41. Göneyvəng (1920-ci illərin sonu),
42. Heşin (1948-1949-cu illər),

43. Horbadeğ (Xorvadeğ) (qarışıq- türk və erməni) (1988),
44. Hors (Hork) (qarışıq-türk və erməni),
45. Hosdun (Vostinq) (qarışıq-türk və erməni) (XX əsrin 30-cu illərin sonu),
46. İlanlı (1918),
47. Qabaxlı (Cani, Aşağı Cani) (1988),
48. Qalakənd (?),
49. Qanalı (1918),
50. Qaraqaya (1988),
51. Qaravəng (XX əsrin 20-ci illəri),
52. Qışlaq (şahgəldi qışlağı (1948-1949),
53. Qızılgül (1948-cı llədək Aysəsi),
54. Qızılqışlaq (XX əsrin əvvəlləri),
55. Qovuşuq (1948-1949),
56. Qozluca (1918).
57. Qurban Kahası (1918),
58. Kürdqulaq (Qurdqulaq), (1948-ci ildən Bolraberd) (qarışıq- türk və erməni) (1948-1949),
59. Məşədilər (1918),
60. Moz (Mozrov),
61. Nəbilər (?),
62. Novlar (1918),
63. Novlu (1918),
64. Orta kənd (1946-cı ildən Qladzor) (1918),
65. Rəsul qışlağı (XIX əsrdə),
66. Sallı (qarışıq- türk və erməni) (1988),
67. Seyid Məmiş (1918),
68. Şorca (1918),
69. Ülgül (1918),
70. Vardanes (Vartanik) (1948-1949),
71. Yavər kəndi (1918),
72. Yengicə (1946-cı ildən Qanzak) (1918),





73. Yuxarı Gülüdüzü (XX əsrin 20-ci illəri).

1979-ci ilin məlumatına görə rayonda 1 şəhər tipli qəsəbə [**Yeğeqnadzor** (Keşişkənd, Mikoyan)-Arpa çayının sağ sahilində yerləşir. 1960-cı ildən şəhər tipli qəsəbədir], 18 kənd sovetliyi [1. Ağncadzor (Aykənd), 2. Axavnadzor (Əyənzur), 3. Aqarakadzor (Əyər), 4. Areni (Arpa), 5. Ələyəz, 6. Getap (Göytul), 7. Gülüdüzü (1987-ci ildən Vardohovid), 8. Hars, 9. Xaçik, 10. Qaraqulax, 11. Qladzor (Ortakənd), 12. Qnişik (Gənişik), 13. Qovuşuq, 14. Malışka, 19. Rind, 16. Şatin (Həsənkənd), 17. Yeğeqiş (Erdəpin), 18. Yelpin] və 31 yaşayış məntəqəsi [1. Ağncadzor (Ağkənd), 2. Axavnadzor (Əyənzur), 3. Aqarakadzor (Əyər), 4. Areni (Arpa), 5. Boloraberd (Qurdqulax), 6. Çivə, 7. Ələyəz, 8. Əməğu, 9. Getap (Göytur), 10. Gülüdüzu (Vardohovid), 11. Hors, 12. Xaçik, 13. Qabaxlı, 14. Qalaser, 15. Qandzak (Yengicə), 16. Qaraqaya, 17. Qaraqulaq, 18. Qızılgül (Aysəsi), 19. Qladzor (Ortakənd), 20. Qnişik (Gənəşik), 21. Qodaxvəng (Gədikvəng), Qoğurvan, 22. Qovuşuq, 23. Malışka, 24. Ortatex, 25. Rind, 26. Sallı, 27. Şatin (Həsənkənd), 28. Taratumb, 29. Verenaşen (Başkənd), 30. Yeğeqis (Erdəpin), 31.Yelpin] olmuşdur.

Bu kəndlərdən yalnız Qabaxlıda, Ələyəzdə, Qovuşuqda, Aysəsində, Qalasərdə, Qoturvanda, Qaraqayada, Əmağuda, Sallıda, Horsda, Ağkənddə, Çivədə,Gülüdüzündə 1988-ci il noyabrın sonunda ermənilər (haylar) tərəfindən zorla qovulan zaman türklər yaşamışdır. Ağkənddə, Sallıda, Horsda və Çivədə ermənilər (haylar) da yaşayırdı.

1935-1987-ci illərdə Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin verdiyi fərmanlar nəticəsində müxtəlif yaşayış məntəqələrinin adları erməniləşdirilmişdir.

| | | |
|---|---|---|
| 1. Arpa | Areni | 10.09.1946 |
| 2. Aysəsi | Qızılgül | 10.09.1946 |
| 3. Başkənd | Veraşen | 10.09.1946 |
| 4. Erdapin | Yeğaqis | 10.09.1946 |
| 5. Əyar | Aqarakadzor | 10.09.1946 |
| 6. Gülüdüzü | Vardohovid | 03.01. 1987 |
| 7. Həsənkənd | Şatin | 03.01.1935 |
| 8. Qoturvan | Qoduxvang | «---------- |
| 9. Qoduxvang | Qyadikvank | -------------- |
| 10. Qurdqulaq | Boloraberd | 10.06.1946 |
| 11. Ortakənd | Qladzor | 10.09.1946 |
| 12. Yengicə | Oandzak | 10.09.1946 |

1991-ci il aprelin 9-da və ondan sonrakı illərdə Ermənistan Respublikasının Prezidenti tərəfindən imzalanmış fərmanla aşağıdakı kəndlərin adları dəyişdirilərək erməniləşdirilmişdir.

| Keçmiş (əsl) Adı | Yeni adı | Dəyişdirildiyi tarix |
|---|---|---|
| 1. Ələyəz | Yeğegis | 09.04. 1991 |
| 2. Gülüdüzü | Vardahovit | |
| 3. Qızılgül | Arates | |
| 4. Qovuşuq | Yermon | |





## ARDARAZ KƏNDİ

### SONA ÇƏRKƏZ
### (1948)

***Sona Məmməd qızı Quliyeva – şair, publisist.***

1948-ci il mayın 10-da Qərbi Azərbaycanın Dərələyəz mahalının Yeğeqnadzor rayonunun Ardaraz kəndində [indiki Ermənistan Respublikasının Yeğeqnadzor rayonu (keçmiş Keşişkənd, Mikoyan)] anadan olmuşdur. 1949-cu ildə ailəliklə Azərbaycanın Saatlı rayonuna köçmüşlər. Burada kənd orta məktəbini bitirmişdir. 1966-1973-cü illərdə M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutunda ali təhsil almışdır. Əmək fəaliyyətinə Azərbaycan Dövlət Universitetinin rus dili kafedrasında elmi işçi kimi başlamışdır (1973). Hazırda həmin kafedrada müəllim vəzifəsində çalışır (1990-cı ildən). Dövri mətbuatda şeirləri, hekayələri və xatirələri vaxtaşırı çap edilir.

**Əsərləri:**

1. Çərkəzli Çərkəzsiz günlərim. Bakı., Qızıl Şərq, 1995, 90 səh., 500 nüs.
2. Sənsiz səninlə. Bakı, Qızıl Şərq, 1995, 144 səh., 1000 nüs.
3. Sənin xatirinə. Bakı, Vətən, 1996, 130 səh., 500 nüs.
4. Ağla iydə çiçəyi. Bakı, Səda, 2000, 128 səh., 2000 nüs.
5. Nələr gördüm dünya, səndə. Bakı, Araz, 2001, 160 səh., 2000 nüs.
6. Bəxtimə düşən dünya. Bakı, Oskar, 2002, 300 səh., 500 nüs.
7. Taleyim mənim. Bakı, Oskar, 2003, 400 səh., 500 nüs.

## GƏDİKVƏNG KƏNDİ

### NİZAMİ ELYANAR
### (1952)

***Nizami İbrahim oğlu Hüseynov - şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü (2009)***

1952-ci il sentyabrın 3-də Qərbi Azərbaycanın Dərələyəz mahalının Gədikvəng (Qoduqvəng) [indiki Ermənistan Respublikasının Yeğenadzor (keçmiş Keşişkənd, Mikoyan) rayonu] müəllim ailəsində anadan olmuşdur. İbtidai təhsilini doğma kəndində almış, orta məktəbi isə Sumqayıt şəhərində bitirmişdir. Orada kimya zavodunda əmək fəaliyyətinə başlamışdır (1970-1972).

Ordu sıralarında hərbi xidməti borcunu yerinə yetirmişdir (1972-1974). Tərxis ediləndən sonra iki il Sumqayıt kimya zavodunda işləmişdir. İctimai İaşə Birliyində (1975-1978), ayrı-ayrı müəssisələrdə müxtəlif işlərdə çalışmışdır (1979-1987). Qaradağ rayonu Müşfiqabad qəsəbəsindəki Quşçuluq fabrikində (1984-1987), "Abşeiron" qəzeti redaksiyasında, "Pirküşgül quşçuluq fabriki"ndə işləmişdir (1987-1999).

Gənclik dövründən bədii yaradıcılığa başlamışdır. Redaktə ilə ciddi məşğul olmuş, onlarla poetik toplunun çapa hazırlanmasında həmkarlarına qayğı göstərmişdir. Öz şeirlərini ara-sıra qəzet və məcmuələrdə dərc etdirmişdir.

**Əsərləri:**

1. Vətən yanğısı, yurd yanğısı. Bakı, KTİ Birliyi, 1999, 100 səh., 1000 nüs.
2. Vətən yanğısı. Bakı, KTİ Birliyi, 2001, 165səh., 1.000





nüs.

3. Haqqa gedən yol. Sankt-Peterburq, 2004, 170 səh., 1500 nüs.
4. Haqqa iman gətirin. Sankt-Peterburq, 2007, 165 səh., 1000 nüs.
5. Saflıqdan kamilliyə. Bakı, Nurlan, 2010, 160 səh., 500 nüs.

## QABAXLI (CANI, AŞAĞI CANI) KƏNDİ

### ALİM DƏRƏLƏYƏZLİ
### (1953)

***Alim Cəfər oğlu Gülmalıyev - şair***

1953-cü il mayın 18-də Qərbi Azərbaycanın Dərələyəz mahalının Qabaxlı kəndində [indiki Ermənistan Respublikasının, Yeğeqnadzor rayonu (keçmiş Keşişkənd, Mikoyan)] ziyalı ailəsində anadan olmuşdur. Burada kənd səkkizillik məktəbini bitirmişdir. Gəncə şəhərində 27 saylı Texniki Peşə Məktəbində, eyni zamanda 8 saylı Fəhlə-Gənclər Məktəbində təhsil almışdır (1969-1971). Alüminium zavodunun İstilik Elektrik Mərkəzində maşinist köməkçisi işləmişdir. Ordu sıralarında xidmət etmişdir (1973-1975). Kemerov şəhərində Dağ-Mədən Texnikumunu bitirmişdir (1975-1978). Azərbaycan Dövlət Universitetində təhsilini davam etdirmişdir (1981-1986). "Aydınlıq" qəzetinin bölgə müxbiri (1995-1998), Abşeiron Rayon İcra Hakimiyyətinin İstehlak Bazarı və Xidmət Departamentində şöbə müdiri (2001-2002) vəzifələrində çalışmışdır. Ədəbi

yaradıcılığa 80-ci illərdən başlamışdır. Mingəçevir şəhərində "Bozdağ" ədəbi birliyini yaratmış, ona sədrlik etmişdir (1990-1994). "Mingəçevirdən səslər" (1992), "El bayatıları" (1996) almanaxlarında şeirlərindən nümunələr verilmişdir.

**Əsərləri:**

1. Qəlbimin dağ boyda qəmi (şeirlər). Bakı, Gənclik, 1992, 116 səh., 5.000 nüs.
2. Qeyrət qalası (poema). Bakı.,Səda, 1993, 88səh. 1.000 nüs.
3. Qaramanlı Qamboy ağa (şeirlər, poemalar). Bakı., Gənclik, 1994, 210 səh., 1.000 nüs.
4. Vətən şahinləri. Bakı, Səda, 1999, 139 səh., 500 nüs.
5. Dərələyəzim - dərdim mənim. Bakı, Ağrıdağ, 1999, 202 səh., 500 nüs.

## KAMİL DƏRƏLƏYƏZLİ
## (1947)

***Kamil Qəhrəman oğlu Məmmədov – publisist, nasir, Azərbaycan Jurnalistlər Birliyinin üzvü (1991), Azərbaycan Yazıçılar Birliyinin üzvü (2003)***

1947-ci il iyunun 15-də Qərbi Azərbaycanın Dərələyəz mahalının Qabaxlı kəndində [indiki Ermənistan Respublikasının Yeğeqnadzor rayonu (keçmiş Keşişkənd, Mikoyan)] anadan olmuşdur. Burada yeddiillik məktəbi, qonşu Qovuşuq kəndində orta məktəbi bitirdikdən sonra İrəvan Pedaqoji İnstitutunun Azərbaycan şöbəsində ali təhsil almışdır (1964-1968).

Əmək fəaliyyətinə doğma Qabaxlı kəndinin səkkizillik məktəbində dərs hissə müdiri kimi başlamışdır. Ordu sıralarında





xidmət etmişdir (1969-1971). Sonra Qovuşuq kənd orta məktəbində ibtidai hərbi hazırlıq dərsini tədris etmişdir (1971-1976). Bakı şəhərinə köçmüş və burada Azərbaycan Daxili İşlər Nazirliyinin islah əmək düşərgəsində şəxsi işlər üzrə baş inspektor olmuşdur (1976-1980).

Rusiyanın Saratov vilayətində yeniyetmələrə məxsus islah əmək düşərgəsində dəstə rəhbəri vəzifəsində işləmişdir (1980-1983). Ona baş leytenant rütbəsi verilmişdir. Perm vilayətində ən təhlükəli canilərin düşərgəsində rəis vəzifəsində işləmişdir (1983-1988). Erməni quldur dəstələrinin Qarabağa təcavüzkar hücumları dövründə vətənə qayıdır, könüllü olaraq Xocalı təyyarə limanında cinayət axtarış inspektoru və komendant müavini vəzifəsində çalışır (1990-1992). Hazırda polkovnik-leytenant rütbəsində Xüsusi Dövlət Mühafizə Xidməti İdarəsinin Milli Qvardiyasında xidmət edir (1992-ci ildən). Ədəbi fəaliyyətə tələbəlik illərindən başlamışdır. İlk mətbu oçerki – "Tütünçü qız" 1970-ci ildə "Sovet Ermənistanı" qəzetində dərc olunmuşdur. "Sovet kəndi", "Azərbaycan gəncləri", "Kommunist", "Qarabağ", "Ulu Göyçə", "Azərbaycan", "Respublika", "Vətən səsi", "Xalq qəzeti", "Ədalət", "Paritet" və s. qəzetlərində sənədli oçerkləri, publisist məqalələri, tarixi-etnoqrafik yazıları ilə müntəzəm çıxış etmişdir.

**Əsərləri:**

1. Dərələyəz od içində. Bakı, "Ağrıdağ" nəşriyyatı, 2001, 562 səh., 500 nüs.
2. Milli Qvardiya. Bakı, "Ağrıdağ" nəşriyyatı, 2002, 212 səh., 500 nüs.
3. Burda bir el var idi (roman). Bakı, Dərələyəz – M., 2009. – 650 səh., 500 nüs.

## SALLI KƏNDİ

### QULU KƏNGƏRLİ
### (1957)

***Qulu Nadir oğlu Kazımov - publisist, Azərbaycan Jurnalistlər Birliyinin üzvü (1985)***

1957-ci il yanvarın 5-də Qərbi Azərbaycanın Dərələyəz mahalının Sallı kəndində [indiki Ermənistan Respublikasının Yeğeqnadzor rayonu (keçmiş Keşişkənd, Mikoyan)] anadan olmuşdur. Yeğeqnadzor rayonundakı Qovuşuq kənd orta məktəbini bitirmişdir (1973). Azərbaycan Boru Prokat zavodunda quraşdırıcı çilingər işləmişdir (1973-1975), ordu sıralarında xidmət etmişdir (1975-1977), Azərbaycan Dövlət Universitetinin (ADU-nun) axşam hazırlıq şöbəsində təhsil almış, eyni zamanda zavodda işini davam etdirmiş və 1978-1983-ci illərdə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsində ail təhsil almışdır

Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin son xəbərlər baş redaksiyasında kiçik redaktor, böyük redaktor, şərhçi, şöbə müdiri və baş redaktorun müavini işləmişdir (1984-1994). Hazırda Özbəkistan Respublikasının Daşkənd şəhərində Azər TAC-ın Orta Asiya üzrə müxbiridir.

İlk yazıları "Pioner" jurnalı, "Azərbaycan pioneri" qəzetində dərc olunmuşdur. Dövri mətbuatda müntəzəm çıxış etmişdir. Mavi ekran və efirdə "Bulaq" və "Hünər" verilişlərində iştirak etmişdir. "Didərginlər", "Şəhidlər" toplularında publisist məqalələri çap olunmuşdur. 1990-cı il 20 Yanvar faciəsindən sonra ilk mətbu nəşr – "Şəhidlər" bukleti ona məxsusdur. "Şəhidlər" bukletinin ikinci hissəsini də hazırlayıb çap etdirmişdir (1990). "Qara yanvar şəhidləri" (1992), "Erməni lobbisi, Azərbaycan faciəsi"





(1993) kitabları kütləvi tirajla nəşr olunmuşdur. "20 yanvar sənədlərinin dili ilə və ya xəyanət sükutu" (iki cilddə) kitabını çapa hazırlamışdır.

### HƏSƏN MƏTİN
### (1963)

***Həsən Rəbil oğlu Vəliyev - nasir, Azərbaycan Yazıçılar Birliyinin üzvü (2006)***

1963-cü il sentyabrın 10-da Qərbi Azərbaycanın Dərələyəz mahalının Sallı kəndində [indiki Ermənistan Respublikasının Yeğeqnadzor rayonu (keçmiş Keşişkənd, Mikoyan)] anadan olmuşdur. Naxçıvan MR Şərur rayonu Danyeri kənd məktəbində orta təhsil, Azərbaycan Dövlət Politexnik İnstitutunda isə ali təhsil almışdır (1981-1986).

Əmək fəaliyyətinə təyinatla göndərildiyi Rusiyanın Belqorod vilayətinin Starıy Oskol şəhərində mühəndis kimi başlamışdır (1986). Bakı Tütün Kombinatında mühəndis-elektronçu işləmişdir (1989-1992). Milli ordu sıralarına səfərbərliyə alınmış, Qarabağda, Füzuli, Ağdam, Cəbrayıl rayonları uğrunda döyüşlərdə iştirak etmişdir.

Hazırda ehtiyatda olan kapitandır. Ordudan tərxis edilləndən sonra "Evropen Tobacco Baku" Açıq Səhmdar Cəmiyyətində menecer vəzifəsində işləyir. Bədii yaradıcılığa erkən başlamışdır. Orta məktəbdə ikən "Şərur qönçələri" ədəbi dərnəyinin fəal üzvü olmuşdur (1978). İlk hekayəsi - "Səxavət" "Azərbaycan müəllimi" qəzetində dərc edilmişdir (1985). Bundan sonra "Azərbaycan", "Kirpi", "Mozalan", "Ədəbiyyat və İncəsənət" və digər dövri mətbuat səhifələrində vaxtaşırı çıxış etmişdir. İlk hekayələr toplusu - "Biz ayrılanda" 2005-ci ildə "Təfəkkür" nəşriyyatında kütləvi tirajla buraxılmışdır.

# QƏRBİ AZƏRBAYCANIN QAZAX MAHALININ DİLCAN NAHİYƏSİ

## QƏRBİ AZƏRBAYCANIN QAZAX MAHALININ DİLCAN NAHİYƏSİNDƏ YERLƏŞƏN İCEVAN (KEÇMİŞ KARVANSARA) RAYONU



Ermənistan SSR-də (1991-ci ildən Ermənistan Respublikası) inzibati rayon, 1930-cu il sentyabrın 9-da yaradılıb. Ərazisi 1336 km²-dir. Rayonun mərkəzi İcevan (keçmiş Karvansaray) şəhəridir. Rayon mərkəzindən İrəvan şəhərinə 142 km-dir.

Rayon ərazisi Daşnak Ermənistanında (1918-1920) sovet hakimiyyəti qurulanadək (1920-ci il noyabrın 29-u) Azərbaycan Respublikasının (1918-1920) Gəncə quberniyasının Qazax qəzasının tərkibində olmuşdur.

Cənubi Qafqazda sovet hakimiyyəti qurulduqdan sonra bu ərazi bolşeviklər tərəfindən yenicə qurulmuş Ermənistan SSR-yə verildi. Rayonun ərazisi Azərbaycan Respublikasının Qazax rayonu ilə həmsərhəddir.

Rayonun əsas əhalisi türklər və ermənilər (haylar) olmuşdur. Burada həmçinin ruslar və müsəlman kürdlər də yaşamışdır.

1988-ci ilə kimi İcevan rayonunun ərazisində aşağıdakı türk kəndləri və qışlaqları mövcud olmuşdur: 1.Ağkilsə (1988), 2. Alaçıq qaya (Alaçıx, (1988), 3. Baltaçay (1959), 4. Balta dərəsi (qışlaq) (1929-1930), 5. Bəxtiyar (?) , 6. Bostan tala (qışlaq) (1930), 7. Çəpərqırılan (qışlaq) (1930), 8. Cantəpə (qışlaq), (1930), 9. Curasdan (qışlaq) (1930), 10. Əyrisu (qışlaq), (1930), 11. Göyərçin (1959), 12. Xərrətgah (1920), 13. Haqqıxlı (Vurğun), (1988), 14. Murteyil (1988), 15. Polad (1988), 16. Salah (1988).

1970-ci illərin sonunda rayonun ərazisində 2 respublika tabeli şəhər [**İcevan** (keçmiş Karvansaray) şəhəri - İrəvan-Tibilisi (keçmiş Tiflis) avtomobil yolu üstündə, Ağstev (Ağstafa) çayının (Kür çayının sağ qolu) sahilindədir. Şəhərdə çoxlu sənaye müəssisələri (xalça, ağac emalı bentonit kombinatları, meşə sənayesi üçün maşın istehsalı, pivə, şərab pendir zavodları, Su Elektrik Stansiyası, təhsil müəssisələri (texnikum, rəssamlıq, texniki peşə, musiqi məktəbləri), muzey, xalq və kukla teatrları, turist bazası və s. var; **Dəlican**-dağ-iqlim və balneoloji kurort. Ağstev (Ağstafa) çayı dərəsində, dəniz səviyyəsindən 1255-





1510 m yüksəklikdə yerləşir. Qışı yumşaq, yayı isti keçir. Orta tempratur yanvarda $2^0$ – S, iyulda $19^0$ –S dir. İllik yağıntı fərq 540 mm-dir. Ağciyər və sümük vərəmi, mədə-bağırsaq yolu xəstəliklərinə tutulanlar müalicə edilir. Kurort il boyu işləyir. Yüngül və yeyinti emalı müəssisələri mineral su dolduran və süd zavodları, mebel fabriki, Yerevan (kemiş İrəvan) trikotaj istehsalat birliyinin filialı, bəstəkarların Ümumittifaq yaradıcılıq evi, istirahət evləri, sanatoriyalar, Elmi-Tədqiqat Bitkilərin Mühafizəsi İnstitutu, Radiotexnika Texnikumu, tibb, texniki peşə məktəbləri, 3 muzey, teatr fəaliyyət göstərir. Dilican yaxınlığında karbon qazlı natrium hidrokarbonatlı bulaqlar var. Dilican şəhər sovetinə Qoş, Texut, Carhec (Kuybişev) və Alaçıx (Alaçıxqaya) kəndləri də daxildir], 12 kənd sovetliyi [1. Açacur (Hacasu), 2. Aygehovit (Uzuntala, Onut), 3. Ditavan (Rəvazlı), 4. Getahovit (Tala), 5. Xaştarak (Xaçdərək, Saratı), 6. Qandzakar (Ağdan, Yuxarı Ağdan), 7. Polad (Polad Ayrım), 8. Salah, 9. Sarıyuğ (Sarıgah), 10. Səməd Vurğun (Haqqıxlı), 11. Sevkar (Qaradaş), 12. Tsaxkavan (Məlikkənd, Melikgyuğ], 13. Vazaşen (Aşhigah, Lalakənd, Laligyuğ] və 30 yaşayış məntəqəsi [1. Açacur (Haçasu), 2. Açarkut (Qaradaş Meşə Təsərrüfatı İdarəsi), 3. Ağkilsə, 4. Alaçıx (Alaçıxqaya), 5. Aygehovit (Uzuntala, Onut), 6. Berkaber (Coğaz, Bilis), 7. Çiçəkbulaq (Murteyıl), 8. Dilican, 9 Ditavan (Rəvazlı), Getahovit (Tala), 11 Haknaxpyur, (Aşağı Ağan, Morut), 12. Xaştarak (Xaçdərək, Saratı), 13. İcevan (Karvansaray), 14. Qayan, 15. Kirants (Künən, Getaşen), 16. Krovoy most (Əyri körpü), 17. Kuybişev (Carhec), 18. Qandzakar (Ağdan, Yuxarı Ağdan), 19. Qoş, 20. Lusadzor (Qaranlıqdərə), Xavaradzor), 21. Lusahovit (Cirviz), 22. Polad (Polad Ayrım), 23. Salah, 24. Sarıyuğ (Sarıgah), 25. Sevkar (Qaradaş), 26. S.Vurğun (Haqqıxlı), 27. Texut, 28. Tsaxkavan (Məlikkənd, Melikgyuğ), 29. Varaşen (Aşıxköy, (Ləlakənd, Laligyuğ), 30. Yenikavan (Kürdəvan)] var idi.

Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin və Ermənistan Respublikası Prezidentinin müxtəlif fərmanları ilə İcevan (Karvansaray) rayonunun aşağıdakı türk kəndlərinin adları dəyişdirilərək erməniləşdirilmişdir.

| Keçmiş (əsl) adı | Yeni adı | Dəyişdirildiyi tarix |
|---|---|---|
| 1. Ağkilsə | Cermakavan | 03.IV. 1991 |
| 2. Alaçıxqaya | Alaçıx | ? |
| 3. Aşağı Ağdan | 1.Morut,<br>2.Aknaxpyur | 25. V. 1967<br>11. XI. 197· |
| 4. Coğaz | Berkaber | 25.I. 1978 |
| 5. Cirviz | Lusahovit | 25.I. 1978 |
| 6. Haçadaraq | Xaştarak | ? |
| 7. Haçasu | Açacur | ? |
| 8. Haqqıxlı | 1. Vurğun<br>2. Səməd Vurğun<br>3. Hovk | 25.I. 1978<br>26.I. 1983<br>03. IV. 1991 |
| 9. Karvansaray | İcevan | ? |
| 10. Künən | 1. Getaşen<br>2. Kirans | 03.I.1935<br>25.V. 1967 |
| 11. Qaradaş | Sevkar | ? |
| 12. Qaranlıqdərə, | Xavaradzor | ? |
| 13. Laləkənd, (Asıxköy) | Laligyuğ | ? |
| 14. Morut | Aknaxpyur | 11. XI. 197· |
| 15. Murteyil | 1.Çiçəkbulaq<br>2. Cuğatap | 1.25.I.1978<br>2. 03. IV. 1991 |
| 16. Polad Ayrım | Polad | ? |
| 17. Rəyazlı | Ditavan | 25.V.1991 |
| 19. Saratı | 1. Xaştarak<br>2. Xaçdərək | ?<br>? |
| 20. Tala | Getaovit | 25.I.1978 |
| 21. Uzuntala | 1. Onut<br>Aygehevit | 25. V.1967<br>12.II.1969 |
| 22 Uzuntala qəsəbəsi | Qayan | 25.V.1967 |
| 23. Yuxarı Ağdan | 1. Ağdan,<br>2.Qandzakar, | 25.V.1967<br>25.I.1978 |





İcevan rayonunun ərazisinə Qaraqoyunlu dərəsinin bir hissəsi də daxildir. (Dilican nahiyəsinin Çəmbərək (Krasnoselo) və Yelenovka (Sevan) rayonları ilə sərhəd tərəfləri]. Rayonun ərazisi Pəmbək, Murğuz, Hələb, Karvansaray (İcevan) dağ silsilələri ilə dövrlənmişdir. Rayonun ərazisindən Ağstafa (Ağstav) çayı axaraq Kür çayına tökülür.

1905-1906, 1918-1920-ci illərdə rayonun ərazisində olan türk kəndləri ermənilər (haylar) tərəfindən hücuma məruz qalaraq dağıdılmış və əhalinin bir hissəsi qırılmışdır. Sağ qalanlar isə təhlükəsiz yerlərə qaçmışdılar. Onlar sakitlik yaranan zaman doğma kəndlərinə qayıdaraq dağıntıları yenidən bərpa edərək təsərrüfatı dirçəltmişdilər. Ancaq bu da uzun sürməmiş, yəni 1988-ci ilin sonunda rayonun türk əhalisi zorla öz dədə-baba torpaqlarından qovulmuşdular. İndi onlar Azərbaycan Respublikasının müxtəlif bölgələrində yaşamaqdadırlar.

**HAQQIXLI KƏNDİ**

## FƏRHAD VƏLİZADƏ
## (1947)

***Fərhad Vəli oğlu Yahyayev - şair, ədəbiyyatşünas, Azərbaycan Yazıçılar Birliyinin üzvü (1995)***

1947-ci il oktyabrın 7-də Qərbi Azərbaycanın Qazax mahalının Dilican nahiyəsinin Haqqıxlı (Vurğun) kəndində [indiki Ermənistan Respublikasının İcevan (keçmiş Karvansaray) rayonu] anadan olmuşdur. Haqqıxlı kəndində səkkizillik məktəbi, Polad (Polad Ayrım) kəndində orta məktəbi bitirmişdir.

Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində ali təhsil almışdır (1968-1974). Sonra Haqqıxlı, Dədəqışlaq və Ağkilsə kənd orta məktəblərində müəllimlik etmişdir (1967-1988). 1988-ci ildə məlum hadisə nəticəsində ailəlikcə Abşeronun Altıağac kəndinə köçmüşlər. Azərbaycan Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunun dissertantı olmuşdur. Baba bəy Şakirin "Seçilmiş əsərləri"ni toplayıb nəşr etdirmişdir. Bədii yaradıcılığa erkən başlamışdır. Şeir, hekayə və oçerkləri Zaqafqaziya (Cənubi Qafqaz) dövri mətbuatında vaxtaşırı çıxmışdır. Altıağac kənd orta məktəbində birinci dərəcəli əlil kimi təqaüdə çıxmışdır. Hazırda Bakı yaxınlığındakı Xırdalan qəsəbəsində yaşayır və fərdi yaradıcılıqla məşğuldur. İlk şeirlər toplusu "Zaman bizi tələsdirir" 1986-cı ildə nəşr olunmuşdur.





## ZABİT ƏLİYEV
## (1955)

***Zabit Məmməd oğlu Əliyev - şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü (1999)***

1955-ci il mayın 24-də Qərbi Azərbaycanın Qazax mahalının Dilican nahiyəsinin Haqqıxlı (S.Vurğun) kəndində [indiki Ermənistan Respublikasının İcevan (Karvansaray) rayonu] anadan olmuşdur. Burada kənd orta məktəbini bitirdikdən sonra Azərbaycan Dövlət İnşaat Mühəndisləri İnstitutunda ali təhsil almışdır (1973-1978). Əmək fəaliyyətinə təyinatla göndərildiyi Qazax rayonu su idarəsində mühəndis kimi başlamışdır. Sonra Ağstafada mexanik, Gəncə Suvarma Sistemləri İdarəsində mexanik, Qazax Olimpiya Mərkəzinin tikintisində mühəndis işləmişdir. Hazırda "Kvant" kiçik müəssisəsinin direktoru vəzifəsində çalışır (1990-cı ildən). Ədəbi fəaliyyətə 80-ci illərdən başlamışdır. Şeirləri "Azərbaycan gəncləri", "Ədəbiyyat və İncəsənət" qəzetlərində dərc olunmuşdur.

**Əsərləri:**

1. Gəlsənə görüşək. Bakı, 1992.
2. Doğmalıq. Bakı, 1994.
3. Yaşıma ilişən payız. Bakı, 1999
4. Ömrün ağ bayrağı. Bakı, 2001

**POLAD KƏNDİ**

## POLADLI MƏHƏMMƏD
*1912-1997*

*Məhəmməd Abbas oğlu Mirzəyev – şair*

1912-ci il sentyabrın 15-də Qərbi Azərbaycanın Qazax mahalının Dilican nahiyəsinin Polad kəndində [indiki Ermənistan Respublikasının İcevan (keçmiş Karvansaray) rayonu] anadan olub. Nəsli qədim Polad soyunun şahmarlı qolundandır. Məhəmməd müəllimin ulu babası Pirməmməd bölgənin ilk koxası olmuşdur. Onun ikinci oğlu Mirzə bəy Gəncədə qubernator dəftərxanasında məsul vəzifədə çalışıb. Təəssüf ki, o dövrdə tüğyan edən taun xəstəliyinə tutulur və cavan yaşında vəfat edir. Qəbri İmamzadə qəbristanlığındadır. Həyat yoldaşı qiyaslı Qiyas ağanın qızı Nənəxanım idi. Dul qalan qadın bütün çətinliklərə baxmayaraq övladlarının savadlanmasına nail oldu. Mirzə bəyin oğlu Abbas ağa sonralar Polad kəndinin qlavası olmuşdur. Abbas ağa Məhəmməd müəllimin atası idi.

1905 və 1917-1920-ci illərdə ermənilər böyük qırğınlar törətdilər. Abbas ağa 1905-ci il hadisəsində bölgədə olan türk kəndlərinin əhalisinin təhlükəsizliyini təmin etməyə nail olur.

1917-ci ilin fevralında çar taxtından salınır və burjua-demokratik rejimli bir dövlət qurulur. Bu səbəbdən də ucqarlarda, xüsusilə Qafqazda hərc-mərclik başlayır. Ermənilər yenidən fəallaşırlar. Baş verən hadisələrin birində Abbas ağa həlak olur. 1920-ci ildə Cənubi Qafqaz Sovet Rusiyası tərəfindən işğal olunur və burada sovet üsul-idarəsi qurulur. Eyni hadisə Daşnak Ermənistanında da baş verir. 1920-ci ilin sonlarında Polad kəndinin yerləşdiyi Dilican nahiyəsi Qazax mahalından alınıb yeni qurulmuş Ermənistan SSR-nin ərazisinə qatılır.





Məhəmməd Abbas oğlu ilk təhsilini doğma kəndində, orta ixtisas təhsilini isə 1929-1931-ci illərdə İrəvan Kənd Təsərrüfatı Texnikumunda alır. Təhsilini zootexnik ixtisası ilə başa vurub kəndlərinə qayıdır və bir il Sevan rayonunda zootexnik işləyir. Bir ildən sonra Polada qayıdır və kənd sovetinin katibi işləyir. 1932-1934-cü illərdə Dilican Rayon Komsomol Komitəsində məsul vəzifədə çalışır. Sonra rayon qəzetinə redaktor təyin olunur. Bu vəzifələrdə işləsə də təhsilini Azərbaycan Dövlət Pedaqoji İnstitutunun tarix fakültəsində qiyabi davam etdirir. 1936-cı ildən etibarən Dilican Rayon Partiya Komitəsində təlimatçı, sonra isə kənd təsərrüfatı şöbəsinin müdiri vəzifəsində çalışır və eyni zamanda RPK-nın büro üzvü seçilir.

1939-cu ildə Azərbaycanın Quba rayonunda yerləşən hərbi məktəbdə 6 aylıq kursda təhsil alır. Kursu bitirir və leytenant rütbəsi alır və yenidən öz işinə qayıdır. 1941-ci ildə müharibə başlanan zaman ona bron verilir və kənd təsərrüfatı məhsullarının itkisiz toplanması və ön cəbhəyə fasiləsiz olaraq ərzaq göndərilməsi işinə rəhbərlik etmək tapşırılır.

1941-ci ilin sonlarında müharibəyə səfərbər olunan leytenant Məhəmməd Abbas oğlu bir neçə ay İranda Təbriz şəhəri yaxınlığında yerləşən hərbi hissədə xidmət edir.

1942-ci ilin fevralında almanların Şimalı Qafqaza yaxınlaşmaları təhlükəsi artan zaman Məhəmməd Abbas oğlunun xidmət etdiyi hərbi hissə Şimali Qafqaza, cəbhə xəttinə göndərilir. Bu zaman o rota komandirinin siyasi məsələlər üzrə müavini təyin olunur. Mozdok uğrunda gedən döyüşlərdə fəal iştirak edir və orden medallarla təltif olunur. 1943-cü ilin yanvarında ağır döyüşlərin birində yaralanır. Onu müalicə üçün Bakıya göndərirlər. Burada məşhur cərrah, sonralar akademik olan Mustafa bəy Topçubaşov tərəfindən cərrahiyyə əməliyyatı olunur və bir müddət sonra III dərəcəli əlil kimi ordudan tərxis edilir.

Cəbhədən qayıdandan sonra rayon rəhbərliyi onu müxtəlif vəzifələr təklif edirlər. Ancaq, o məktəbdə müəllim olmağı

üstün tutur. 1943-cü ilin sentyabrında doğma kəndində məktəbə direktor təyin olunur və 1954-cü ilədək çalışır. O, direktor işlədiyi müddətdə nüfuzundan istifadə edərək Polad kəndində orta təhsil verən internat məktəbin açılmasına nail olur. Məktəb nəinki kəndin, həm də ətraf kəndlərdə yaşayan uşaqların təhsil aldığı bir maarif müəssisəsi idi. Məhəmməd müəllim yerli müəllim kadrlarının hazırlanmasına da həmişə diqqət yetirmişdir. Məktəbi əla qiymətlərlə bitirən şagirdlərin Qazax Müəllimlər İnstitutunda, İrəvan Pedaqoji Texnikumunda və Bakıda müxtəlif təhsil müəssisələrində təhsil almalarına yardım etmişdir. Onun şagirdlərinin əksəriyyəti sonralar ali təhsil alaraq cəmiyyətə yararlı mütəxəssislər olmuşdular.

1958-1961-ci illərdə Polad kəndinin kolxoz sədri seçilir. Az bir müddət ərzində kolxozu varlı təsərrüfatlar cərgəsinə çıxarır. 1961-1964-cü illərdə Polad kəndi də daxil olmaqla ətrafda yerləşən türk kəndlərinin birləşmiş partiya təşkilatı katibi vəzifəsində çalışır. Onun sonrakı fəaliyyəti Polad kənd orta məktəbi ilə bağlıdır. Qərbi Azərbaycanda (indiki Ermənistan) yaşayan türklərin 1988-ci ilin sonunda öz doğma torpaqlarından ermənilər tərəfindən zorla qovulmaları Məhəmməd Abbas oğlunun ailəsindən də yan ötmədi. O da köçərək Bakıda məskunlaşdı.

O gəncliyindən şeir yazsa da onları çap edirməyə o qədər də həvəs göstərməmişdir. O dövrün şairləri, aşıqları və bir çox ziyalıları onun qonağı olmuşdular.

Məhəmməd müəllim həm də gözəl bir ailə başçısı olmuşdur. Böyütdüyü doqquz övladın hamısı ali təhsil almışdır.

1997-ci il martın 15-də Bakıda vəfat etmişdir.

**Əsəri:**

1. Ömürdən yarpaqlar. Bakı, «Apostrof» Çap Evi, 2013, 172 səh.





## QƏRBİ AZƏRBAYCANIN QAZAX MAHALININ DİLİCAN NAHİYƏSİNİN (ƏSASƏN QARAQOYUNLU DƏRƏSİNİN KƏNDLƏRİ) VƏ GÖYÇƏ MAHALININ MƏZRƏ NAHİYƏSİNİN ƏRAZİSİNDƏ YERLƏŞƏN KRASNOSELO (KEÇMİŞ ÇƏMBƏRƏK) RAYONU




1937-ci il dekabrın 30-da yaradılıb. Ermənistan SSR-nin şimal-şərqində yerləşir. Azərbaycan Respublikasının Gədəbəy rayonu, Ermənistan SSR-nin Vardenis (keçmiş Basarkeçər) və İcevan (keçmiş Karvansaray) rayonları ilə həmsərhəddir. Sahəsi 691 km²-dir. Əhalisinin 80 %-ə yaxını türklər (azərbaycanlılar) olmuşdur. Rayonun mərkəzi Krasnoselo (keçmiş Çəmbərək, Mixaylovka) şəhər tipli qəsəbəsidir. Göyçə gölünün şimal-şərqində yerlişər.

Göyçə mahalının bir hissəsini təşkil edən Krasnoselo rayonu XIX əsrin əvvəllərində çar Rusiyasının ruslaşdırma siyasətinin nəticəsində ucqarlara, o cümlədən Çəmbərəyə çoxlu malakanlar sürgün edilmişdir. O vaxtdan Mixaylovka adlandırılmış və 1920-ci ilə kimi bu adla tanınmışdır.

1920-ci ildə XI Qızıl Ordu Mixaylovkaya gəlmiş və Qızıl Ordunun şərəfinə bura Krasnoselo (Qırmızı kənd) adlandırılmışdır.

Rayonun içindən Tərsa (Gedik) çayı axır, 1937-ci ilə kimi rayonun indiki ərazisi müxtəlif inzibati – ərazi quruluşlarının tərkibində olmuşdur. Onun Çaykənd, Gölkənd, Qaraqaya, Əmrxeyir, Yanıqpəyə, Cıvıxlı kəndləri əvvəl Dilican rayonunun, Toxluca, Cil, Ağbulaq, Ardanış və Şorca kəndləri isə Vardenis (keçmiş Basarkeçər) rayonlarının ərazisi hesab olunurdu.

1920-ci ilə kimi rayonun Göyçə hissəsi İrəvan quberniyasının Yeni Bəyazid qəzasının Məzrə nahiyəsinə, Dilican hissəsi isə Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasının Dilican nahiyəsinin tərkibində olmuşdur.

Bu ərazilər daşnak Ermənistanında (1918-1920) 1920-ci il noyabrın 29-da sovet hakimiyyəti qurulduqdan sonra bolşeviklər tərəfindən ermənilərə peşkəş edildi. Yəni Göyçə mahalı və Dilican nahiyəsi Ermənistan SSR-yə verildi. Ermənilər Göyçə mahalının ərazisində çar dövründə olduğu kimi qəza inzibati-ərazi sistemini 1930-cu ilə kimi saxladılar.

1930-cu ildə Göyçə mahalının torpaqlarını özündə birləşdirən Nor Bəyazid (Novobayazid) qəzası ləğv edildi və 1930-1937-ci illərdə Basarkeçər (sonra Vardenis), Çəmbərək (sonra Krasnoselo), Aşağı Qaranlıq (sonra Martuni), Kəvər (sonra Kamo), Yelenovka (sonra Sevan) rayonları yaradıldı.

Dilican nahiyəsinin ərazisində isə Dilican qəzası yaradıldı. Qəzanın tərkibinə sonralar (1930-1937-ci illərdə) yaradılmış





Barana (sonra Noyemberyan) rayonunun bir hissəsi, Allahverdi (sonra Tumanyan) yarımrayonunun bir hissəsi, Dilican, İcevan (əvvəl Karvansaray) və Şəmşəddin (sonra Berd) rayonlarının bütün əraziləri daxil idi.

Krasnoselo rayonunun bir hissəsini də Qaraqoyunlu dərəsi deyilən ərazi təşkil edir. Bu dərə Dilican dərəsi ilə Soyuqbulaq yaylasının arasında yerləşir. Çar Rusiyası dövründə bu ərazilər də Gəncə (sonra Yelizavetpol) quberniyasının Qazax qəzasına daxil olub. Bu dərə Alaçıqqaya, Murteyil, Ağkilsə, Polad,Salah, Göyərçinli, Qaraqaya, Yanıqpəyə, Çaykənd, Bəryabad. Əmirxeyir, Gölkənd, Cıvıxlı kəndlərindən ibarət idi.

Rayonunun ərazisində malakanlar yaşayıb. Onlar bu ərazilərə Rusiyanın müxtəlif quberniyalarından XVIII əsrin əvvəllərində köçmüşlər. Onlar Krasnoselo (keçmiş Çəmbərək) qəsəbəsinin indiki yerində Starıy Mixaylovka kəndini salmışdılar. Bu ərazi Gədəbəyin Şınıx bölgəsinin, Göyçə mahalının və Qaraqoyunlu dərəsinin qovuşduğu yerdir.

Ermənilərin də bu torpaqlara gəlişi yalnız XIX əsrin əvvəllərinə təsadüf edir. Onlar üçün Köhnə Başkənd, Aşağı Çəmbərək, Yuxarı Çəmbərək və Qoturbulaq kəndləri salınmışdır. Onlar əsasən Türkiyədən və İrandan köçürülmüşdülər. Bu yerlər əvvəllər türklərin otlaq və yaylaq yerləri olmuşdur.

1938-ci ildə Azərbaycanın Gədəbəy rayonunun Köhnə Başkənd kəndi də yenicə yaradılmış Krasnoselo rayonunun tərkibinə qatıldı.

Yuxarıda qeyd etdiyimiz kimi rayonun ərazisində türklər (azərbaycanlılar), ermənilər (haylar) və malakanlar (qıpçaq əsilli idilər) yaşamışdılar.

1831-ci ildə 1493 nəfər türk (azərbaycanlı), 880 nəfər erməni (hay), 1873-cü ildə 4472 nəfər türk (azərbaycanlı), 3422 erməni (hay), 1886-cı ildə 6725 nəfər türk (azərbaycanlı), 4718 nəfər erməni (hay), 2274 nəfər malakan, 1897-ci ildə 8358

nəfər türk (azərbaycanlı), 4815 nəfər erməni (hay), 676 nəfər malakan, 1922-ci ildə 6785 nəfər türk (azərbaycanlı), 15857 nəfər erməni (hay), 3887 nəfər malakan, 1931-ci ildə 9000 nəfər türk (azərbaycanlı), 20000 nəfər erməni (hay), 4000 nəfər malakan olmuşdur. 1979-cu ildə rayonda 62700 nəfər, 1988-ci ildə 72600 nəfər 1989-cu ildə isə 16500 nəfər əhali olmuşdur.

1988-ci ildə rayon əhalisinin 56100 nəfəri (78, 2%) türklər (azərbaycanlılar) olmuşdur. 1918-1920-ci illərdə daşnak Ermənistanın (1918-1920) o dövrdə rəhbərliyinin yürütdüyü antitürk, antimüsəlman siyasəti nəticəsində rayonun indiki ərazisində minlərlə türk (azərbaycanlı) məhv edildi və kəndləri dağıdıldı, sağ qalanlar təhlükəsiz yerlərə sığınmağa məcbur oldular.

Daşnak Ermənistanında (1918-1920) sovet hakimiyyəti qurulduqdan (1920-ci il noyabrın 29-u) bir az sonra, yəni 1922-ci ildən yurdlarını tərk etmiş türklərin (azərbaycanlılar) bir hissəsi geri qayıdaraq dağıntıları bərpa etdilər və təsərrüfatı dirçəltdilər. Artıq 1988-ci ilin sonunda türklər rayon əhalisinin 80 %-ə qədərini təşkil edirdi.

1988-ci ilin sonlarında Sovet İttifaqının o dövrdəki rəhbərliyinin (xüsusilə də Mixayıl Qorbaçov) dəstəyi və Ermənistan SSR-ni idarə edənlərinin təşkilatçılığı ilə rayonun partiya, sovet və hüquq-mühafizə orqanlarının məsul şəxslərinin iştirakı ilə ermənilər (haylar) tərəfindən türklər (azərbaycanlılar) öz doğma yurdlarından zorla qovuldular. Hazırda onlar Azərbaycan Respublikasının müxtəlif bölgələrində yaşamaqdadırlar.

Qədimdən 1988-ci ilin sonlarına kimi rayonun indiki ərazisində aşağıdakı kəndlər və qışlaqlar mövcud olmuşdur: 1. Ada təpə (?), 2. Ağa tala (1930-cu illərdə), 3. Ağa təpə (1826-1831-ci illərdə), 4. Ağbulaq (1988-ci ildə), 5. Ardanış (1988-ci ildə), 6. Bahar bəyin bağları (?), 7. Bəryabad (1988-





ci ildə), 8. Cıvıxlı (1988-ci ildə), 9. Cil (1988-ci ildə), 10. Çatal çınqıl (qışlaq) (1930-cu illərdə), 11. Çaykənd (1988-ci ildə), 12. Donuz damı (qışlaq) ( 1920-ci illərdə), 13. Donuz yatağı (qışlaq) (1920-ci illərdə), 14. Əmirxeyir (1988-ci il), 15. Gölkənd (1988-ci ildə), 16. Xəli kənd (qışlaq) (1930-cu illərdə), 17. Karvansara (qışlaq) (1930-cu illərdə), 18. Krasnoselo (keçmiş Çəmbərək, Mixaylovka) (qarışıq-türklər, ruslar, ermənilər) (1988-ci ildə), 19. Qaçan uçan (1930-cu illərdə), 20. Qara torpaq (Torpaq) (1940-cı illərdə), 21. Qaraqaya (1988-ci ildə), 22. Qızıl qaya (qışlaq) ( 1930-cu illərdə), 23. Quşçaqaya (qışlaq) (1950-ci illərdə), 24. Maccan yatağı (qışlaq) (1930-cu illərdə), 25. Marallıca (qışlaq) (1930-cu illərdə), 26. Meşə dərəsi (qışlaq) (1930-cu illərdə), 27. Şahmurad (qışlaq) (1930-cu illərdə), 28. Şorca (qarışıq-türklər, malakanlar), (1988-ci ildə), 29. Taxta pəyə (qışlaq) (1930-cu illərdə), 30. Taya qaya (qışlaq), (1930-cu illərdə), 31. Toxluca (1988-ci ildə), 32. Yanıqpəyə (Meşəkənd), (1988-ci ildə), 33. Yapalaxlı (qışlaq) (1930-cu illərdə), 34. Yolaycı (qışlaq) (1930-cu illərdə).

**AĞBULAQ KƏNDİ**

## ELDAR İSMAYIL
## (1942)

***Eldar Ələsgər oğlu İsmayılov - şair, publisist, Azərbaycan Yazıçılar Birliyinin üzvü (1999), "Qızıl qələm" və "Araz" ali ədəbi mükafatları laureatı.***

1942-ci il martın 10-da Qərbi Azərbaycanın Göyçə mahalının Ağbulaq kəndində (indiki Ermənistan Respublikasının Krasnoselo rayonu) anadan olmuşdur. Burada yeddiillik, qonşu Toxluca kəndində orta məktəbi bitirmişdir (1960). Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində təhsilini davam etdirmişdir (1970-1975). Bakı Neftayırma zavodunda operator (1964-1965), Ağbulaq kənd mədəniyyət evinin müdiri (1967-1971), kitabxana müdiri (1971-1972), "Dostluq" rayon qəzeti redaksiyasında redaktorun müavini (1972-1979) vəzifələrində işləmişdir.

Sonra Ağbulaq və Şorca kəndlərinin birləşmiş sovetliyinin sədri olmuşdur (1979). Qaçqınlıq ucbatından Bakı şəhərində məskunlaşmışdır (1988).

1988-ci ildən taleyinə qaçqınlıq düşmüş şair öz poeziyasında el-obasının dərdini, ağrı-acısını, düşmənə nifrətini, sabaha inamını qələmə almışdır. Vətən həsrəti, doğma ocağına qayıtmaq arzusu və inamı onun şeirlərində başlıca motivə çevrilmişdir. Əvvəlcə Dövlət Statistika Komitəsində böyük iqtisadçı, sonra Azərbaycan Qaçqınlar Cəmiyyətinin ideologiya şöbəsinin müdiri (1990-1997), "Ulu Göyçə" və "Göyçə" qəzetlərinin baş redaktoru





və təsisçisi olmuşdur (1992-1994).

Hazırda Azərbaycan Dövlət Tibb Universitetinin "Təbib" qəzetinin baş redaktorudur (1997-ci ildən). Bədii yaradıcılığa erkən - 14 yaşında ikən başla- mışdır. Aşıq Ələsgər yurdu onun ilham pərisinin beşiyi olmuşdur. İlk mətbu şeiri - "Kəndimiz" Krasnoselo rayon qəzetində çıxmışdır. Xalq şairi Hüseyn Arifin xeyir-duası ilə "Sovet Ermənistanı" qəzetində şeirlərini çap etdirməsi onu ruhlandırmışdır. Bundan sonra dövri mətbuatda vaxtaşırı çıxış etmişdir. Onun ilk poeması - "Sınmış güldan" "Ədəbi Ermənistan" almanaxının 1987-ci il tarixli sayında verilmişdir. "Azərbaycan", "Ulduz", "Göyərçin" jurnallarında lirik şeirləri çap olunmuşdur.

Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının "Türk ədəbiyyatına hizmət" (2007) mükafatına layiq görülmüş, "Araz" ali ədəbi (2001), "Qızıl qələm" (2002) mükafatlarını almışdır. Azərbaycan Səhiyyə Nazirliyinin və Azərbaycan Tibb Universitetinin fəxri fərmanları ilə təltif edilmişdir.

**Əsərləri:**

1. Ulu Göyçə. Bakı, Yazıçı, 1990, 118 səh., 4.500 nüs.
2. Allah amanatı. Bakı, "Bayatı" nəşriyyatı, 1994, 112 səh., 3.000 nüs.
3. Vətən dedi İbrahim. Bakı, "Səhər" nəşriyyatı, 1995, 52 səh., 1.000 nüs.
4. Ermənistan türklərinin 1988-ci il soyqırımı, 1995, 112 səh., 1.500 nüs.
5. Göyçənin qisası qalır. Bakı, "Zaman" nəşriyyatı, 1997, 394 səh., 2.000 nüs.
6. Şəhid yurdun şəhid övladları. Bakı, Ağrıdağ, 1997, 184 səh., 700 nüs.
7. Hikmət dünyası. Bakı, "Ağrıdağ" nəşriyyatı, 1997, 40 səh., 1.000 nüs.
8. Səttar oğlu. Bakı, "Azərbaycan" nəşriyyatı, 1997, 400

səh., 1.500 nüs.
9. Mən burda qəribəm, yurd orda qərib. Bakı, "Səda" nəşriyyatı, 1998, 266 səh., 1.000 nüs.
10. Ağrıdağı qədər ağrılarım var. Bakı, "Ağrıdağ" nəşriyyatı, 1999, 372 səh., 100 nüs.
11. Oğuz yurdun övladları (I kitab). "Təbib" nəşriyyatı, 1999, 376 səh., 1.000 nüs.
12. Yaxşı ad. Bakı, "Nurlan" nəşriyyatı, 2001,100 səh., 500 nüs.
13. Sabaha məktub. Bakı, "Səda" nəşriyyatı, 2001, 270 səh., 1.000 nüs.
14. Oğuz yurdun övladları (II kitab). Bakı, "Nurlan" nəşriyyatı, 2001, 398 səh., 1.000 nüs.
15. İçimdə bitən bənövşə. Bakı, Nurlan, 2002, 142 səh., 500 nüs.
16. Məndən ötrü Ermənistan yoxdu yox. Bakı, Nurlan, 2002, 300 səh., 1.000 nüs.
17. Yaxşılıq: müdriklik, gözəllik. Bakı, Nurlan, 2002, 200 səh., 1.000 nüs.
18. Ömür itiririk yaş qazandıqca. Bakı, Nurlan, 2004, 116 səh., 500 nüs.
19. Sənsizlik nə yaman çətinmiş, Sərdar. Bakı, Nurlan, 2004,288 səh., 1.000 səh.
20. Böyük öndər. Bakı., Nurlan, 2004, 408 səh., 500 nüs.
21. Bütöv Azərbaycan olmalıyam mən. Bakı, Nurlan, 2004, 270 səh., 500 nüs.
22. Səttar oğlu (əlavəsi ilə təkrar nəşr). Bakı, Nurlan, 2005, 508 səh., 1.000 nüs.
23. Xatırla məni. Bakı, Nurlan, 2005, 120 səh., 500 nüs.
24. Türkün xilaskarı. Bakı, 2005, 152 səh., 300 nüs.
25. Sən məni aldada bilməzsən, dünya. Bakı, Nurlan, 300 səh., 500 nüs.





26. Mən kiməm. Bakı, Nurlan, 2007, 164 səh., 1.000 nüs.
27. Ulu Turan yolunda. Bakı,Nurlan, 2007, 430səh., 500nüs.
28. Haçansız dünya,. Bakı, Gənclik, 2008, 272səh., 500 nüs.
29. Zaman məni anlamadı. Bakı., Səda, 2008, 352səh., 500 nüs.
30. Cahan ömrü. Bakı., Səda, 2008, 440 səh., 300 nüs.
31. Zülmətdə parlayan qılınc. Bakı, Azərnəşr, 2009, 522 səh., 500 nüs.

## ARDANIŞ KƏNDİ

## ƏHMƏD PAŞA
## (1927-1997)

***Əhməd Əli oğlu Paşayev - şair, publisist, Azərbaycan Yazıçılar Birliyinin üzvü (1996)***

1927-ci il yanvarın 14-də Qərbi Azərbaycanın Göyçə mahalının Ardanış kəndində [indiki Ermənistan Respublikasının Krasnoselo (keçmiş Çəmbərək) rayonu] anadan olmuşdur. Burada kənd yeddiillik məktəbini bitirdikdən sonra İrəvan Pedaqoji Texnikumunda təhsil almışdır (1941-1945). Əmək fəaliyyətinə Babacan kənd məktəbində müəllim kimi başlamışdır (1945-1948). Azərbaycan Dövlət Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakültəsində təhsilini davam etdirmişdir (1948-1951). Göyçə mahalının Babacan, Toxluca, Cil, Şorca və Ardanış kəndlərində müəllim, tədris hissə müdiri, məktəb direktoru vəzifələrində işləmişdir (1945-1987). Bakı Ali Partiya məktəbində təhsil almışdır (1968-1969). Dəfələrlə rayon və kənd sovetinə deputat seçilmişdir. Əmək veteranı kimi fərdi

təqaüdə çıxmışdır. Ellikcə doğma yurdundan qaçqın düşərkən Bakı şəhərinə pənah gətirmişdir. Bədii yaradıcılığa 50-ci illərdən başlamışdır. İlk şeiri "Sülhün günəşi" "Ədəbi Ermənistan" almanaxında çıxmışdır. Sonra "Sovet Ermənistanı", "Dostluq" qəzetlərində, "Ədəbi Ermənistan" almanaxında satirik və lirik şeirləri çap olunmuşdur.

1997-ci il sentyabrın 3-də Bakı şəhərində qəflətən vəfat etmişdir.

**Əsərləri:**

1. Səhər duyğuları. Yerevan, Hayastan, 1965, 65 səh., 2000 nüs.
2. Göyçə lövhələri. Yerevan, Qroc, 1986, 80 səh., 1000 nüs.
3. Göyçə dərdi. Bakı., "Səda" nəşriyyatı, 1998, 200 səh., 2000 nüs.

## HƏSƏN HƏSƏNLİ
## (1954)

***Həsən Zal oğlu Həsənov - nasir, publisist, Jurnalistlər Birliyinin üzvü (1981).***

1954-cü il avqustun 30-da Qərbi Azərbaycanın Göyçə mahalının Ardanış kəndində [indiki Ermənistan Respublikasının Krasnoselo (keçmiş Çəmbərək) rayonu] anadan olmuşdur. Burada orta məktəbi bitirmişdir (1971).

Azərbaycan Dövlət Universitetinin tarix fakültəsində təhsilini davam etdirmişdir (1972-1977). Universiteti fərqlənmə diplomu ilə bitirdikdən sonra Azərbaycan Dövlət Ensiklopediyasında elmi redaktor (1977-1990), "Vətən səsi" qəzetində şöbə müdiri (1990-1991), "Amal" qəzetində redaktorun birinci müavini (1991-1992), "Yeni Azərbaycan" və "Respublika" qəzetlərində baş redaktorun





birinci müavini (1993-1995), Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətində Xəbərlər baş redaksiyasının baş redaktoru (1996-2001), orada şirkətin sədr müavini (2001-2002) vəzifələrində işləmişdir.

Hazırda "Xalq qəzeti"nin baş redaktorudur (2002-ci ildən). Ümumittifaq Mətbuat İnstitutu ali kursunun, Azərbaycan Dövlət Xarici Dillər İnstitutunun müdavimi olmuşdur. Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının siyasi idarəetmə fakültəsini dövlətşünas və hüquqşünas ixtisası üzrə bitirmişdir (2002). "Azərbaycan ensiklopediyası" (10 cildlik), "Uşaq ensiklopediyası" (3 cilddə) kitablarının hazırlanmasında və nəşrində xidmətləri olmuşdur. "Dünya və insanlar" atlas-kitabın tərtibçilərindən biridir.

Dövri mətbuatda hekayələri və publisist məqalələri vaxtaşırı çıxmışdır. Bir neçə televiziya filminin ssenari müəllifi və redaktoru olmuşdur. "Nəvə" və "İstedad" jurnallarının redaksiya heyətinin üzvüdür (1993-cü ildən).

## NURU BAYRAM
## (1939)

***Nuru Bayram oğlu Verdiyev – şair.***

1939-cu il yanvarın 4-də Qərbi Azərbaycanın Göyçə mahalının Ardanış kəndində [indiki Ermənistan Respublikasının Krasnoselo (keçmiş Çəmbərək) rayonu] anadan olmuşdur. Burada yeddiillik məktəbi, Xanlar rayonunun Qızılca kəndində orta məktəbi bitirmişdir. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun fizika-riyaziyyat fakültəsində təhsil almışdır (1958-1963).

Əmək fəaliyyətinə təyinatla göndərildiyi Zaqatala rayonunun Mamrux kəndində müəllim kimi başlamışdır (1963-1966). Sonra doğma kənd orta məktəbində müəllimlik fəaliyyətini davam etdirmişdir (1966-1973). Ailəlikcə Bakıya köçdükdən sonra Bakı Neft Texnikumunda müəllim işləmişdir (1973-1992). Hazırda təqaüdçüdür, fərdi yaradıcılıqla məşğuldur. Bədii yaradıcılığa orta məktəbdə təhsil aldığı illərdən başlamışdır. İlk mətbu şeirləri – "Bahar", "Biz onuncular" 1958-ci ildə Xanlar rayon qəzetində dərc olunmuşdur.

Dövri mətbuatda, almanaxlarda şeirləri vaxtaşırı dərc edilmişdir. "Zaman və xilaskar" (2000) adlı ilk kitabı Qərbi Azərbaycanda yaşayan soydaşlarımızın qanlı-qadalı mübarizə tarixindən bəhs edir.

## ÇAYKƏND KƏNDİ

## QURBAN SÜLEYMANOV
(1926)

***Süleymanov Qurban Yusif oğlu - şair, folklorşünas, ali dərəcəli müəllim.***

1926-cı il mayın 24-də Qərbi Azərbaycanın Qazax mahalının Dilican nahiyəsinin Qaraqoyunlu dərəsində yerləşən Çaykənd kəndində [indiki Ermənistan Respublikasının Krasnoselo (keçmiş Çəmbərək) rayonu] anadan olmuşdur. Burada kənd orta məktəbini bitirdikdən sonra Qazax Müəllimlər İnstitutunda (1942-1948) və Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyatı fakültəsində qiyabi





təhsil almışdır (1950-1954).

Əmək fəaliyyətinə Krasnoselo rayon qəzeti redaksiyasında məsul katib kimi başlamışdır (1949-1950). Sonra orada Əmirxeyir kənd yeddiillik məktəbində məktəb direktoru (1951-1955), təhsil şöbəsində inspektor (1955-1957), Toxluca, Ağbulaq, Gölkənd, Çaykənd orta məktəblərində direktor vəzifəsində işləmişdir (1957-1988). 1988-ci ildə məlum hadisələr zamanı ellikcə doğma yurdu tərk edib Şəmkir rayonunun Günəşli kəndinə köçüb məskunlaşmışdır.

Bütün müsibətləri "Qaraqoyunlunun qara günləri" kitabında qələmə almışdır. Ədəbi fəaliyyətə gənclik illərindən başlamışdır. Şeirləri ilə yanaşı, metodiki və publisist məqalələrini və aşıq yaradıcılığı haqqında yazılarını dövri mətbuatda çap etdirmişdir. El ədəbiyyatının toplayıcısı və tədqiqatçısıdır. Qaraqoyunlu folklor antologiyasını toplayıb "Səda" nəşriyyatında çap etdirmişdir (2003). Şəxsi kitabxanasında saxlanan minlərlə kitabı xalqın istifadəsinə vermişdir.

Xidmətlərinə görə bir sıra medal, tərifnamələr və fəxri diplomlar almışdır.

**Əsərləri:**

1. Analı və anasız illərim. Bakı, 2000, «Çaşıoğlu» nəşriyyatı, 117 səh., 300 nüs.
2. Əzəli oğuz yurdum – doğma Çaykəndim. Bakı, 2001, «Təhsil» nəşriyyatı, 442 səh., 300 nüs.

## NƏSİB ƏFƏNDİYEV
## (1906-1984)

***Nəsib Vəli oğlu Əfəndiyev** –*
***nasir, müəllim,** Azərbaycan Yazıçılar Birliyinin üzvü (1937)*

1906-cı ildə Qərbi Azərbaycanın Qazax mahalının Dilican nahiyəsinin Qaraqoyunlu dərəsində yerləşən Qaraqaya kəndində [indiki Ermənistan Respublikasının Krasnoselo (keçmiş Çəmbərək) rayonu] anadan olmuşdur. Əsli Çaykənd kəndindəndir. Qərbi Azərbaycanda [Ermənistan Respublikası (1918-1920] sovet hakimiyyəti qurulduqdan (29. IX.1920) sonra kənddə açılmış orta məktəbdə təhsil almışdır. Ali təhsil almaq üçün Bakıya gəlmiş və Azərbaycan Dövlət Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakultəsini 1933-cü ildə bitirmişdir. İlk mətbu əsəri «Əhmədin dağarcığı» hekayəsidir. 1931-ci ildə onun hekayələri «Gənc işçi» qəzetində dərc olunmuşdur.

İrəvana qayıdan Nəsib Vəli oğlu 30-cu illərdə İrəvan şəhərində bir çox mədəni-maarif tədbirlərinin həyata keçirilməsində yaxından iştirak etmişdir. O bir müddət C.Cabbarlı adına İrəvan (Yerevan) Azərbaycan Dövlət Dram Teatrının direktoru vəzifəsində də çalışmışdır. İnzibati işlərlə yanaşı bədii yaradıcılıqla məşğul olmuşdur.

İkinci Dünya müharibəsinin (1939-1945) tərkib hissəsi olan Almaniya – SSRİ müharibəsində (1941-1945) iştirak etmiş və Avstriyanın, Çexoslovakiyanın və Polşanın alınmasında iştirak edərək Almaniyaya qədər döyüş yolu keçmişdir. Döyüş xidmətlərinə görə iki dəfə «Qırmızı ulduz», iki dəfə «Qırmızı Əmək Bayrağı» ordeni, bir neçə medalla təltif edilmişdir.

1984-cü il avqustun 30-da Bakıda vəfat etmişdir.





**Əsərləri:**
1. Od içində. Yerevan. Haypetrat, 1935. – 75 səh., 1000 nüs.
2. Üçlər (povest). Yerevan. Haypetrat, 1935. – 115 səh., 1000 nüs.
3. Vyana gecələri. Bakı. Azərnəşr, 1965. – 280 səh., 2000 nüs.
4. Qızıl quşa atılan güllə. Bakı, Yazıçı, 1983. – 172 səh., 8000 nüs.

## SULİDDİN QASIMLI
## (1948)

***Suliddin Novruz oğlu Məmmədov - şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü (1989)***

1948-ci il noyabrın 20-də Qərbi Azərbaycanın Qazax mahalının Dilican nahiyəsinin Qaraqoyunlu dərəsində yerləşən Çaykənd kəndində [indiki Ermənistan Respublikasının Krasnoselo (keçmiş Çəmbərək) rayonu] kolxozçu ailəsində anadan olmuşdur. Burada səkkizillik məktəbi başa vurduqdan sonra Gölkənd orta məktəbini bitirmişdir (1966). Azərbaycan Dövlət Xarici Dillər İnstitutunun alman dili fakültəsinə daxil olmuşdur (1966-1968). Lakin könüllü olaraq təhsilini davam etdirməmişdir. ADU-nun jurnalistika fakültəsində təhsil almışdır (1969-1974). Bu dövrdə Sumqayıt şəhərində boru-prokat zavodunda və radio qovşağında əmək fəaliyyətinə başlamışdır. Sonra "Sosialist Sumqayıtı" qəzetinin əməkdaşı olmuşdur (1974-1975). "Azərbaycan təbiəti" jurnalı redaksiyasında redaktor vəzifəsində çalışmışdır (1975-1996). Hazırda Azərbaycan Milli Ensiklopediyasında qrup rəhbəri vəzifəsində çalışır (1996-cı ildən). Bədii yaradıcılığa 70-ci illərdən başlamışdır. Şeirləri dövri mətbuatda müntəzəm çap olunur.

**Əsərləri:**
1. Bu sevdaya düşəndən (şeirlər). Bakı, Yazıçı, 1980, 82 səh.,

4.000 nüs.
2. Görüşünə gəlirəm (şeirlər). Bakı, Yazıçı, 1987, 90 səh., 5.000 nüs.
3. Mənim nigaran anam (şeirlər və poemalar). Bakı, Yazıçı, 1992, 120 səh., 3.500 nüs.
4. İşığıma gələn pərvanə (şeirlər və poemalar). Bakı, Azərbaycan Milli Ensiklopediyası nəşri, 2001, 300 səh., 500 nüs.

## CİL KƏNDİ

### FƏRZALI RÜSTƏMLİ (1963)

***Fərzalı Abbas oğlu Rüstəmli – şair, publisist***

1963-cü ildə Qərbi Azərbaycanın Göyçə mahalının Cil kəndində [indiki Ermənistan Respublikasının Krasnesolo (keçmiş Çəmbərək) rayonu] anadan olub. Orta təhsilini 1970-1980-ci illərdə Çil kənd orta məktəbində, ali təhsilini isə 1980-1989-cu illərdə Azərbaycan Politexnik İnstitutunun avtomobil nəqliyyatı fakultəsində alıb. 1981-1983-cü illərdə hərbi xidmətdə olub. 1989-1995-ci illərdə istehsalatda çalışıb. 1995-1999-cu illərdə Azərbaycan Milli Zadəganlar Universitetində, 2000-2009-cu illərdə Azərbaycan Beynəlxalq Universitetində fəlsəfə müəllimi olub. Hazırda Azərbaycan Dövlət Pedaqoji Universitetində fəlsəfə müəllimidir. Gənc yaşlarından bədii yaradıcılıqla məşğuldur.

**Əsərləri:**
1. Könül kitabı. Bakı, «Nurlan», 2005.
2. Hikmət damlası. Bakı, «Elm və təhsil», 2015. - 74 səh.





### İDRİS ZAMANLI (1930-1994)

***İdris Abbasəli oğlu Zamanlı - şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü (1989)***

1930-cu il martın 22-də Qərbi Azərbaycanın Göyçə mahalının Cil kəndində [indiki Ermənistan Respublikasının Krasnoselo (keçmiş Çəmbərək) rayonu] kolxozçu ailəsində anadan olmuşdur. Burada orta məktəbi bitirmişdir (1948). Əmək fəaliyyətinə Cil kəndində kolxozda başlamışdır (1948-1954). ADU-nun filologiya fakültəsinin jurnalistika şöbəsində təhsilini davam etdirmişdir (1954-1958). Ailə vəziyyətinə görə təhsilini yarımçıq qoyub “Sovet Ermənistanı” qəzeti redaksiyasında ədəbi işçi olmuşdur (1958-1963). 64 saylı Bakı şəhər məktəbində müəllim işləmiş, eyni zamanda universitetdə təhsilini davam etdirmişdir (1964-1967). Azərbaycan SSR Mədəniyyət Nazirliyində redaktor işləmişdir (1966). “Elm və həyat” jurnalında şöbə müdiri olmuşdur (1975-1982). Moskvada “Nedelya” həftəlik qəzetinin müxbiri vəzifəsində çalışmışdır (1982-1986). Sonra təqaüdə çıxmış, ömrünün sonunadək fərdi yaradıcılıqla məşğul olmuşdur. Poetik yaradıcılığa 50-ci illərdən başlamışdır.

İlk şeirləri “Sovet Ermənistanı” qəzetində və “Ədəbi Ermənistan” almanaxında dərc edilmişdir. Dövri mətbuatda müntəzəm çıxış etmişdir. Əsərləri keçmiş SSRİ xalqlarının dillərində çap olunmuşdur.

1994-cü il iyunun 2-də Bakıda vəfat etmişdir.

**Əsərləri:**
1. Mənim məhəbbətim. Yerevan, Haypethrat, 1960, 50 səh., 1.000 nüs.

2. Çətin dərə. B., Gənclik, 1976, 18 səh., 20.000 nüs.
3. Kəndimizdə bir aşıq var. B., Gənclik, 1983, 14 səh., 50.000 nüs.
4. Dağ gölü. B., Yazıçı, 1988, 84 səh., 2.500 nüs.

## ZƏKİ ISLAM (1939)

*Zəki İslam oğlu Yusifov - şair, "Qızıl qələm" mükafatı laureatı (1995)*

1939-cu il avqustun 10-da Qərbi Azərbaycanın Göyçə mahalının Cil kəndində [indiki Ermənistan Respublikasının Krasnoselo (keçmiş Çəmbərək) rayonu] anadan olmuşdur. Burada Şişqaya kənd orta məktəbini bitirmişdir (1957). Doğma kəndində kolxozda baş mühasib, kolxoz sədri, sovxoz direktoru işləmişdir (1961-1988). Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutunun ibtidai-metodika fakültəsində qiyabi təhsil almışdır (1968-1973). Sonra ikinci ali təhsilini isə Gəncədə Kənd Təsərrüfatı İnstitutunda qiyabi davam etdirmişdir (1974-1979). Azərbaycan Kənd Təsərrüfatı Elmi-Tədqiqat İnstitutunun aspiranturasına daxil olmuşdur. Lakin doğma yurd-yuvasından qaçqın düşməsi ona elmi fəaliyyətini davam etdirməyə imkan verməmişdir. Bakıda yaşadığı vaxtdan müxtəlif yerlərdə işləmişdir. Müstəqil "İslam" firması yaratmış, ona rəhbərlik etmişdir (1992-1995). Binəqədi rayonu Rəsulzadə qəsəbəsi Bələdiyyəsinin sədr müavini (1995-ci ildən) olmuşdur. Bədii yaradıcılığa kiçik yaşlarında güclü meyl göstərmiş, ilk qoşmalarını yazmışdır. "Ceyran" adlı ilk mətbu şeiri rayon qəzetində çap olunmuşdur (1954). Sonra "Sovet Ermənistanı", "Azərbaycan gəncləri" qəzetlərində və "Ədəbi Ermənistan" almanaxında şeirlərini müntəzəm dərc etdirmişdir. İlk şeir toplusu "Göyçənin tonqalı sinəmdə yanır" (1993) "Azərbaycan" nəşriyyatında kütləvi tirajla nəşr olunmuşdur. Bu şeirlərdə el-oba yanğısı, ayrı düşdüyü doğma





ocaq həsrəti, ictimai dərdlərimizlə yanaşı, xalq müdrikliyi, mənəvi saflıq, gələcəyə inam ifadəsini tapmışdır. Kərbəla, Məşhəd və Həcc ziyarətində olmuşdur (1993-1995).

**Əsərləri:**

1. Göyçənin tonqalı sinəmdə yanır. Bakı, Azərnəşr, 1993, 144 səh., 5.000 nüs.
2. Əlim Tanrı ətəyində. Bakı, Önər, 1995, 423 səh., 2.500 nüs.
3. Ziyarətgahlarım mənim. Bakı, Azərnəşr, 1996, 420 səh., 3.000 nüs.
4. Dünya nura bələndi. Bakı, "Asiya" nəşriyyatı, 1998, 304 səh., 1.000 nüs.
5. Qəmli-mərhəb Fəthi-Xeybər Əlidi. Bakı, Orxan, 2000, 184 səh., 1.000 nüs.
6. Məktublar, cavablar, yeni şeirlər. Bakı, Orxan 2001, 531 səh., 1.000 nüs.
7. Hər bir sözün əvvəlində. Bakı, "Asiya" nəşriyyatı, 2004, 128 səh., 500 nüs.
8. Seçilmiş əsərləri (I cild). Bakı, Asiya, 2005, 799 səh., 1500 nüs.
9. Göyçəli (Ağbulaqlı) Mirəli ağa. Bakı, Asiya, 2005, 127 səh., 1000 nüs.
10. Göyçəli (Ağbulaqlı) Mirəli ağa. Bakı, 2006, 128 səh., 1500 nüs.
11. Əsərləri. Bakı. Asiya, 2006, 462 səh., 1000 nüs.
12. Dinim Məhəmməd dinidir. Bakı, Uniprint, 2006, 310 səh., 500 nüs.
13. Xocalı faciəsi. Bakı, Uniprint, 24 səh., 1500 nüs.
14. Haqq yerindədir. Bakı, Qanun, 2009, 376 səh., 500 nüs.

# ƏMİRXEYİR KƏNDİ

## BABƏK GÖYÜŞ
(1957)

***Babək Məhərrəm oğlu Göyüşlü - nasir, Azərbaycan Yazıçılar Birliyinin üzvü (2004)***

1957-ci il iyunun 29-da Qərbi Azərbaycanın Qazax mahalının Dilican nahiyəsinin Qaraqoyunlu dərəsində yerləşən Əmirxeyir kəndində [indiki Ermənistan Respublikasının Krasnoselo (keçmiş Çəmbərək) rayonu] anadan olmuşdur. Burada orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsində təhsil almışdır (1974-1979). Əmək fəaliyyətinə Lənkəran rayonundakı Marso qəsəbəsində riyaziyyat müəllimi kimi başlamışdır (1979-1982). Türkmənistanın Nebit-Dağ şəhərində Neft Geofizika Trestində proqramçı (1982-1988), Bakıda "Azneftgeofizika" trestində proqramçı (1988-1990), "Mübarizə", "Dədəm Qorqud", "Oğuz eli", "Azərbaycan ordusu", "Avrasiya" qəzetlərində müxtəlif vəzifələrdə (redaktor, məsul katib, müavin) çalışmışdır (1990-1998).

Hazırda Azərbaycan Dövlət Teleşirkətində Beynəlxalq proqramlar redaksiyasının redaktorudur (1998-ci ildən). Ədəbi fəaliyyətə XX əsrin 80-ci illərindən başlamışdır. Hekayə və povestləri "Azərbaycan", "Ulduz", "Azərbaycan təbiəti" jurnallarında, "Yol", "Ədəbiyyat qəzeti" və b. dövri mətbuatda vaxtaşırı dərc olunmuşdur.





## ZÖHRƏ MƏMMƏDOVA
*(1951)*

***Zöhrə Qara qızı Məmmədova – şair***

Zöhrə Qaraqızı 1951-ci il yanvarın 1-də Qərbi Azərbaycanın Qazax mahalının Dilican nahiyəsinin Qaraqoyunlu dərəsində yerləşən Əmirxeyir kəndində [indiki Ermənistan Respublikasının Krasnoselo (keçmiş Çəmbərək) rayonu] anadan olub.

Natamam orta təhsilini doğma kəndində, orta təhsilini qonşu Çölkənd orta məktəbində (1967-1968-ci illərdə), ali təhsilini isə Bakıda Azərbaycan Dövlət Universitetinin mexanika-riyaziyyat fakultəsində alıb.

Əmək fəaliyyətinə 1973-cü ildə Bakı şəhərində 204 saylı orta məktəbində riyaziyyat müəllimi kimi başlayıb. 1976-1979-cu illərdə 204 saylı orta məktəbdə təlim-tərbiyə işləri üzrə direktor müavini, 1979-1984-cü illərdə Bakı şəhəri Sabunçu rayon Xalq Maarif Şöbəsində metodist, 1984-1991-ci illərdə N.Nərimanov adına 128 saylı orta məktəbdə direktor vəzifələrində işləmişdir. 1991-ci ildən bu günə kimi Bakı şəhərinin Sabunçu rayonunda yerləşən C.Məmmədyarov adına 155 saylı orta məktəbdə direktor işləyir. İşlədiyi illərdə əməyi dövlət tərəfindən dəfələrlə qiymətləndirilmişdir.

Dövrü mətbuatda şeirləri və məqalələri nəşr olunmuşdur. «Qızıl qələm» mediya mükafatçısıdır.

Üç övladı var və hamısı ali təhsillidir.

**Əsərləri**

1. Əfsanə. Bakı, 1998.
2. Mənim nağıllı dünyam. Bakı, 2002.
3. Sevgi payı. Bakı, 2015.

## GÖLKƏND KƏNDİ

### ŞAHMURAD MƏMMƏDOV
*(1965)*

*Şahmurad Zöhtün oğlu Məmmədov – şair*

1965-ci il aprelin 4-də Qərbi Azərbaycanın Qazax mahalının Dilican nahiyəsinin Qaraqoyunlu dərəsində yerləşən Gölkənd kəndində [indiki Ermənistan Respublikasının Krasnoselo (keçmiş Çəmbərək) rayonu] anadan olub.

Orta təhsilini doğma kəndində 1972-1982-ci illərdə, ali təhsilini isə 1986-1991-ci illərdə Azərbaycan Dövlət Universitetinin (sonra Bakı Dövlət Universiteti) kimya fakültəsində alıb. 1983-1985-ci illərdə Rusiyanın Uzaq Şərq vilayətində Vladivostok şəhərində hərbi xidmətdə olub.

Ali məktəbi fərqlənmə diplomu ilə bitirdikdən bir müddət sonra Bakı Dövlət Universitetində müəyyən işlərdə çalışır. Hazırda Bakı Dövlət Rabitə və Nəqliyyat Kollecində tərbiyə işləri üzrə direktor müavini vəzifəsində çalışır. “El həsrəti”, “Yurduma qaytar”, “Qaraqoyunlu dərəsi və mən”şeir kitablarının müəllifidir. Ailəlidir. 2 övladı var (bir oğlan, bir qız).





## TOXLUCA KƏNDİ

### MÜZAHİM MEHVALIOĞLU
*(1961)*

***Müzahim Mehvalı oğlu İsgəndərov - şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü (2005)***

1961-ci il iyulun 3-də Qərbi Azərbaycanın Göyçə mahalının Toxluca kəndində [indiki Ermənistan Respublikasının Krasnoselo (keçmiş Çəmbərək) rayonu] anadan olmuşdur. Orta təhsilini doğma kəndlərində almışdır (1978). İrəvan şəhərində Azərbaycan Kənd Təsərrüfatı Texnikumunu (1983), Gəncədə Kənd Təsərrüfatı Akademiyasını bitirmişdir (1991).

Toxluca sovxozunda baş aqronom (1984-1988), Bakı şəhəri Nizami rayon Kommunal Təsərrüfatı İdarəsində mühəndis (1990-1993), Suraxanı rayon Yaşıllaşdırma İdarəsində briqadir (1994-2000) işləmişdir. Hazırda işsizdir.

“Gərək” adlı ilk mətbu şeiri 1998-ci ildə “Ozan” qəzetində dərc olunmuşdur.

**Əsərləri:**

1. Bu obanın sahibləri hardadı (şeirlər və poema). Bak., Nurlan, 2004, 128 səh., 500 nüs.
2. Ocaq dağı (şeirlər və poema). Bakı, Nurlan, 2005, 202 səh., 500 nüs.
3. Atam mənə deyərdi (şeirlər və poemalar). Bakı, Nurlan, 2007, 240 səh., 500 nüs.

# QƏRBİ AZƏRBAYCANIN GÖYÇƏ MAHALI



# QƏRBİ AZƏRBAYCANIN GÖYÇƏ MAHALININ VARDENİS RAYONU (KEÇMİŞ BASARKEÇƏR)




Ermənistan SSR-də (1920-1991-ci illərdə) (1991-ci ildən Ermənistan Respublikası) inzibati rayon. 1930-cu il sentyabrın 9-da təşkil olunmuşdur. 1969-cu il iyunun 11-nə qədər Basarkeçər rayonu adlanıb. Ermənistan SSR-nin Krosnoselo (keçmiş





Çəmbərək) və Martuni (keçmiş Aşağı Qaranlıq), Azərbaycan SSR-nin Kəlbəcər və Gədəbəy rayonları ilə həmsərhəddir. Rayonun böyük bir hissəsi Göyçə gölü (indi Sevan) ilə əhatə olunub. Ərazisi 1151 km$^2$, əhalisi isə 1985-ci il məlumatına görə 60633 nəfər olmuşdur. Rayon mərkəzi Vardenis (keçmiş Basarkeçər) şəhər tipli qəsəbəsidir. Rayonun ərazisi bizim eranın əvvəllərindən XIX əsrin əvvəllərinə kimi Alban dövlətinin, ərəblərin, səlcuqların, moğol-tatarların, qaraqoyunluların, ağqoyunluların, səfəvilərin, əfşarların, qacarların və İrəvan xanlığının (XVIII əsrin ortaları-1828-ci il), 1828-ci ildən çar Rusiyasının, 1918-1920-ci illərdə bir hissəsi Azərbaycan Demokratik Respublikasının (1918-1920), bir hissəsi isə Ermənistan Respublikasının (1918-1920) (daşnakların hakimiyyəti dövrü) hakimiyyəti altında olmuşdur.

Azərbaycanda (27.VI.1920) və Ermənistanda (29.IX.1920) sovet hakimiyyəti qurulduqdan sonra Göyçə mahalı bütövlükdə bolşeviklər tərəfindən Ermənistan SSR-yə verildi. Elə o günlərdən də bu mahalda yaşayan əhali 1988-ci ilin sonuna kimi müxtəlif yollarla ermənilər (haylar) tərəfindən vətənlərindən köçməyə məcbur edildilər.

Göyçə mahalı Ermənistan SSR-yə verildikdən sonra çar Rusiyası və daşnakların hakimiyyəti dövründəki (1918-1920) keçmiş inzibati ərazi vahidi 1930-cu ilə kimi saxlanıldı. Yəni 1849-cu ildə İrəvan quberniyası yaradılan zaman onun mahallarından biri Novo (Yeni) Bayazid adlandırıldı. Bu qəzanın ərazisi bütövlükdə Göyçə mahalını əhatə edirdi. 1918-1920-ci illərdə də Novo (Yeni) Bəyazid, 1921-1930-cu illərdə də yenə də Nor (Yeni) Bayazid qəzası adlandırıldı.

1930-1937-ci illərdə yeni inzibati-ərazi islahatı zamanı qəza beş rayona bölündü: 1. Krasnoselo (keçmiş Çəmbərək) (31. XII.1937) (Göyçə mahalının bir hissəsi), 2. Basarkeçər (1969-cu ildən Vardenis) (9.IX.1930), 3. Aşağı Qaranlıq (1935-ci ildən Martuni) (09.XII.1930), 4. Yeni Bayazet (Nor Bayazet) (1837-

1930-cu illərdə Novo Bayazet) (09. IX. 1930) (1959-cu ildən Kamo, 1991-ci ildən Qavar), 5. Yelenovka (1935-ci ildən Sevan).

Bu rayonların içərisində həm ərazisinə, həm də əhalisinə görə ən böyüyü Basarkeçərdir. Ümumiyyətlə, Basarkeçər rayonuna daxil olmaqla Göyçə mahalında tarix boyu həmişə türklər (azərbaycanlılar) yaşamışdır. Ermənilərin (hayların) ayağı bu torpaqlara yalnız XIX əsrin birinci rübündə, yəni çar Rusiyasının Cənubi Qafqazı işğal edəndən sonra dəymişdir.

Erməni (hay) tədqiqatçısı Zaven Qorqodyan əsərində («Sovet Ermənistanının əhalisi» 1831-1931) göstərir ki, yalnız 1828-1829-cu illərdə, yəni 1828-ci ildə Qacarlar dövləti (İran) ilə bağlanmış Türkmənçay və 1829-cu ildə Türkiyə ilə bağlanmış Ədirnə sülh müqavilələrinə əsasən Qərbi Azərbaycana (indiki Ermənistana) bu ölkələrdən köçürülmüş mühacirlərin bir hissəsi Göyçə mahalına (sonra Novo Bayazet qəzası adlandırıldı) yerləşdirildilər. Z.Qorqodyana görə 1831-ci ildə Basarkeçər rayonunun indiki ərazisində 44 kənd olmuş və bu kəndlərdə 4367 nəfər türk (azərbaycanlı), 9 nəfər də hay (erməni) olmuşdur.

Statistik məlumatlar göstərir ki,Basarkeçər rayonunun indiki ərazisində bu köçürülən ermənilərin (hayların) sayı tədricən artmağa başlamış, yəni 1831-ci ildəki 0,5% 1988-ci ildə 26 %-ə çatmışdır. 1873-cü ildə türklər 11746 nəfər, ermənilər (haylar) 3145 nəfər, 1886-cı ildə türklər 16139 nəfər, ermənilər (haylar) 4148 nəfər, 1897-ci ildə türklər 29395 nəfər, haylar (ermənilər) 5116 nəfər olmuşdur. 1914-cü ildə isə rayonun bütövlükdə əhalisi (türklər, ermənilər və başqaları) 33918 nəfər olmuşdur.

Rus tədqiqatçısı N.N. Şavrov ermənilərin Cənubi Qafqazda necə yerləşdirilməsi haqqında yazır:

«1828-1829-cu illər müharibəsi başa çatdıqdan sonra iki il ərzində Zaqafqaziyaya 4000 iranlı və 84.600 türkiyəli erməni köçürdük və onları Yelizavetpol və İrəvan quberniyalarının ən yaxşı torpaqlarında yerləşdirdik. Bu yerlərdə erməni əhalisi yox





dərəcəsində idi. Yelizavetpol quberniyasının dağlıq hissəsi və Göyçə gölünün ətrafı bu ermənilərlə məskunlaşdırıldı. Nəzərə almaq lazımdır ki, rəsmən köçürülmüş 124000 ermənidən (haydan) başqa buraya qeyri-rəsmi olaraq çoxlu erməni də köçmüşdür.

Beləliklə köçürülənlərin ümumi sayı 200000 nəfərdən çoxdur» (Шавров Н.Н. Новоя угроза русскому делу в Закавказье: предстяшая распродажа Мугани инородцам, СПБ, 1911).

1905-ci ildə Bakıda həmin ilin may-iyununda Naxçıvanda baş verən erməni (hay) müsəlman (türk) toqquşmasından sonra, xüsusilə, gəlmə ermənilərin fitvası ilə İrəvanda və İrəvan quberniyasının qəzalarında yaşayan yüzlərlə türk (azərbaycanlı) kəndi, o cümlədən Göyçə mahalının Göyçə gölünün sahilindəki bir çox kəndləri dağıdıldı. Dağıdılan kəndlərin əhalisinin bir hissəsi həlak oldu və yaralandı, sağ qalanlar isə Yelizavetpol (Gənəə) quberniyasının münaqişə olmayan qəzalarına, İrana və Türkiyəyə sığınmağa məcbur oldular. Boşalmış kəndlərə vaxt itirmədən İrandan və Türkiyədən köçmüş ermənilər (haylar) yerləşməyə başladılar. Çar hakimiyyətinin işə qarışması ilə münaqişələr səngidi və Tiflisdə canişinin hüzurunda həm ermənilərin (hayların), həm də türklərin nümayəndələri bir araya gələrək yaranmış vəziyyəti müzakirə edərək yoluna qoymağa çalışdılar. Onların bu görüşü nəticəsiz qalmadı və münaqişə müvəqqəti də olsa dayandırıldı.

1917-ci ildə çar Rusiyasında bolşeviklər hakimiyyəti ələ keçirdikdən sonra Cənubi Qafqazda bir müddət, yəni 1920-ci ilin fevralına kimi hərc-mərclik hökm sürdü. Türklər (azərbaycanlılar), gürcülər və ermənilər (haylar) özlərinin Milli dövlətini qurdular (1918-ci il mayın sonunda). Ermənilər bu fürsətdən istifadə edərək həm Azərbaycan, həm də Gürcüstan dövlətindən müxtəlif ərazilərin onlara məxsus olması iddiası ilə çıxış etdilər və Cənubi

Qafqaz yenidən qanlı münaqişələr meydanına çevrildi. Cənubi Qafqazda həm Bakıda, Qubada, Şamaxıda, Qarabağın müxtəlif bölgələrində, həm də Qərbi Azərbaycanın Qazax mahalının Dəlican nahiyəsində, Borçalı mahalının Loru və Borçalı nahiyələrinin, Pəmbək, Ağbaba, Zəngəzur mahallarının, İrəvan quberniyasınm türk kəndlərinin əhalisi erməni nizami qoşun hissələrinin hücumuna məruz qaldılar. Bu zaman yüzminlərlə insan həlak oldu və yaralandı, sağ qalanlar isə doğma yurdlarını tərk etməyə məəbur oldular.

Əvvəlki illərdə olduğu kimi 1918-1919-cu illərdə Qərbi Azərbaycanda mərkəzi İrəvan şəhəri olmaqla qurulmuş Ermənistan Respublikasının (1918-1920) daşnak hökumətinin bilavasitə rəhbərliyi ilə Göyçə mahalının əsasını təşkil edən Basarkeçər rayonunun indiki ərazisini təşkil edən onlarla kənd yerlə-yeksan edildi və çoxlu sayda insan təlafatı oldu, sağ qalanlar münaqişə olmayan sakit ərazilərə qaçmağa məəbur oldular. Yalnız daşnak Ermənistanında (1918-1920) 1920-ci il noyabrın 29-da sovet hakimiyyəti qurulduqdan bir müddət sonra, yəni 1922-ci ildə qaçqınların bir hissəsi doğma yurdlarına qayıtdılar.

Bunu rəqəmlərin dili ilə daha da dəqiq göstərmək olar. Basarkeçərdən 1918-1920-ci illərdə öz doğma yurdlarından işgəncələrlə qovulan 26918-nəfər türk (azərbaycanlı) əhalidən daşnak Ermənistanında sovet hakimiyyəti qurulduqdan (29. XI.1920) sonra, yəni 1922-ci ildə cəmi 11413 nəfər, yəni bütün əhalinin 40% geri qayıda bilmişdir. Lakin onların bir çoxunun yaşadığı kəndlər 1915-1918-ci illərdə Osmanlı dövlətinin (Türkiyənin) ərazisindən gəlmiş ermənilər (haylar) tərəfindən tutulmuşdu və o dövrdən də bir sıra kəndlər qarışıq kəndlərə çevrilmişdi. Məsələn, 1919-cu ilə qədər Basarkeçər rayonunun indiki ərazisində Böyük Məzrə, Çaxırlı, Qızılvəng və Yarpızlı kəndlərində heç vaxt erməni (hay) olmamışdır. Lakin ermənilər baş vermiş hadisələr zamanı boş evlərdə yerləşmişdilər. 1922-





ci ildə Böyük Məzrə kəndində 561 nəfər, Yarpızlı kəndində 104 nəfər, Qızılvəng kəndində 207 nəfər, Çaxırlı kəndində isə 363 nəfər erməni (hay) yerləşmişdi. Bu proses getdikcə davam etmiş və ermənilərin sayı 1931-ci ildə Böyük Məzrədə 1193 nəfərə, Yarpızlıda 547 nəfərə, Qızılvəngdə 653 nəfərə çatmışdır.

1930-cu illərin sonlarında rayon əhalisinin etnik tərkibi türklərin (azərbaycanlıların) xeyrinə dəyişmiş, türk əhali 70 % dən artıq təşkil etmişdir. Bunu görən Ermənistan SSR hökuməti türklərin (azərbaycanlıların) əleyhinə yeni planlar qurmağa başladı. 1940-cı illərin sonunda xaricdə yaşayan ermənilərin (hayların) Ermənistan SSR-yə köçürülməsi bəhanəsi ilə Qərbi Azərbaycan (indiki Ermənistan) türklərinin zorla (buna könüllülük donu da geydirməyə çalışmışdılar) Azərbaycan SSR-yə köçürülməsi kompaniyası başladı. Ancaq, həmin dövrdə Basarkeçər rayonunun qeyrətli şəxslərinin mərdliklə dayanmaları ermənilərin 1948-1953-cü illərdə həyata keçirmək istədikləri planlarını pozdu. Rayonun ərazisindən cəmi 3 kənd: Yarpızlı, Qanlı, Qızılvəng kəndləri köçürüldü. Onların yerinə bir nəfər də olsun erməni mühaciri gəlmədi. Xaricdən gələn ermənilərdən (haylardan) cəmi 20 ailə Basarkeçər rayonunun Gödəkbulaq, Qırxbulaq və Böyük Məzrə kəndlərində yerləşdirildi. Lakin onlar həmin kəndlərdə altı ay yaşadıqdan sonra İrəvan (sonra Yerevan) şəhərinə köçdülər.

1948-1953-cü illərdə 100000 nəfərdən çox türkün Qərbi Azərbaycandan (indiki Ermənistandan) Azərbaycan SSR-yə köçürülməsinə baxmayaraq, Basarkeçər rayonunda 1988-ci ilədək türklər (azərbaycanlılar) əksəriyyət təşkil etmişdir. Ona görə də 1965-ci ilədək həmişə rayon partiya komitəsinin 1-ci katibi türk (azərbaycanlı) olmuşdur. Bir xüsusiyyəti də qeyd etmək lazımdır ki, tarixən rayonun kəndlərinin 90 % -i türk (azərbaycanlı) kəndi olmuşdur. 1897-ci ildə 47 kənddən cəmi 4-ü erməni (hay) kəndi idi. 1988-ci ildə isə rayonda olan 38 kəndin 28-i tam türk

(azərbaycanlı), 3-ü qarışıq (türk, erməni) və cəmi 7-si erməni (hay) kəndi olmasına baxmayaraq, ermənilər burada yenə 30 %-ə yaxın təşkil edirdi. Ermənilər (haylar), əsasən, rayon mərkəzində yaşayırdı, türklər isə kəndlərdə yaşayırdılar. Ona görə də rayonun ərazisinin beşdə birində ermənilər beşdə dördündə isə türklər yaşamışlar. Rayonda olan 17 sovxozdan 15-i, 18 kolxozdan 16-sı türklərin (azərbaycanlıların) payına düşür. Bu təssərrüfatların 97338 hektar əkin sahəsi, 134 hektar meyvə bağları, 13428 hektar suvarılan torpaq sahəsi var idi. 1988-ci ildə bu təsərrüfatlarda 75000 qoyun, 21000 iribuynuzlu qaramal, 57000 quş olmuşdur. Rayonda mövcud olan 30 orta məktəbdən 24-ü, 10 səkkizillik məktəbdən 7-si türklərə (azərbaycanlılara) məxsus idi.

1988-ci ilin noyabr ayının sonlarında Moskvanın xeyir-duası, respublika rəhbərliyinin havadarlığı və rayonun məsul şəxslərinin, xüsusilə də inzibati orqanların birbaşa rəhbərliyi ilə 42 min türk əhalisi zorla öz doğma yurdlarından qovuldular. Bu zaman 40 nəfər həyatını itirdi və onlarla adam müxtəlif dərəcəli xəsarət aldı.

Hazırda rayon əhalisi Azərbaycanın müxtəlif şəhərlərində, rayon mərkəzlərində, qəsəbələrində və kəndlərdə yaşamaqdadırlar.

**Tarixən rayonun ərazisində aşağıdakı kəndlərdə türklər yaşamışdır:** 1. Ağkilsə (1988), 2. Ağyoxuş (1988), 3. Allahverdi bəy (?), 4.Altundağ (?), 5. Aşağı Şorca (1988), 6. Aşağı Zağalı (1988), 7. Babacan (1988), 8. Bahar (1988), 9. Basarkeçər (qarışıq-türk, erməni, rus) (1988), 10. Böyük Ağa (?), 11. Böyük Məzrə (1988), 12. Buğda təpə (XIX əsrin sonu), 13. Çaxırlı (qarışıq-türk, erməni) (1988), 14. Daşkeyti (XIX əsr) 15. Daşkənd (1988), 16. Dərə (1988), 17. Əzizli (1988), 18. Gödəkbulaq (XX əsrin əvvəlləri) 19. Göyçə (?), 20. Göysu (1988), 21. Göytəpə (?), 22. Güney (1988), 23. Günəşli (1988), 24. Həsənli (XX əsrin 30-cu illəri), 25. İnəkdağ (1988), 26. Karvansara (?), 27. Kefli (1919), 28. Kərkibaş (1988), 29.Kiçik Qaraqoyunlu (XX





əsrin 30-cu illəri), 29. Kiçik Məzrə (1988), 30. Qamışlı (1988), 31. Qaraiman (1988), 32. Qayabaşı (1988), 33. Qırxbulaq (XX əsrin əvvəlləri), 34. Qızılvəng (qarışıq-türk, erməni) (1988), 35. Qoşabulaq (1988), 36. Nərimanlı (1988), 37. Pəmbək (1988), 38. Sarıyaqub (1988), 39. Seyidlər (XX əsrin 30-cu illərin sonu), 40. Subatan (XX əsrin 30-cu illərin sonu), 41. Şişqaya (1988), 42. Tatul qışlağı (XIX əsrdə), 43. Yarpızlı (qarışıq-türk, erməni) (1948), 44. Yuxarı Şorça (1988), 45. Yuxarı Zağalı (qarışıq-türk, erməni) (1988) , 46. Zərkənd (1988), 47. Zod (1988).

1990-cı ildə Bakıda nəşr olunmuş «Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə» kitabında daşnak hökumətinin 1918-1920-ci illərdə Göyçə mahalında törətdikləri vəhşilikləri olduğu kimi qeyd olunmuşdur: «Ermənilər 1. Zağalı, 2. Daşkənd, 3. Zod, 4. Hüseynqulu-Ağalı, 5. Sarıyal, 6. Böyük Qaraqoyunlu, 7. Kiçik Qaraqoyunlu, 8. Aşağı Norçamor, 9. Yeni Keti, 10. Kəlbaşı, 11. Kama-Bilal, 12. Ağkilsə, 13. Zərzibil, 14. İnəkdağ, 15. Sultanəli qışlağı, 16. Oğruca, 17. Böyük Məzrə, 18. Kiçik Məzrə, 19. Kəsəmən, 20. Şişqaya, 21. Sətənəxaç və 22. Qızıl Banka kəndlərini dağıdıb viran qoydular. 1. Örkülü, 2. Alçalı, 3. Kamilli, 4. Yarpızlı, 5. Qanlı, 6. Kərkibaş, 7. Çaxırlı, 8. Kefli Kürd və 9. Böyük Məzrə kəndlərini isə tamamilə yandırdılar».

1970-ci ilin məlumatına görə rayonun ərazisində 1 şəhər tipli qəsəbə [**Vardenis** ( 1969-cu ilə kimi Basarkeçər)-pendir, pivə və panel zavodları var. Tibb məktəbi də fəaliyyət göstərirdi. Burada türklər də oxuyub təhsil alırdılar. Təhsil erməni dilində idi. Burada yaşayan türklər ancaq müxtəlif dövlət idarələrində işləyən qulluqçular idi. 1975-ci ildə 9 min əhalisi olmuşdur], 14 kənd sovetliyi [1. Aşağı Zağalı (Tsovak), 2. Bala Məzrə (Kiçik Məzrə) (Pokr Mazra), 3. Böyük Məzrə (Medz Mazra), 4. Çaxırlı (Sovetakert), 5. Daşkənd, 6. Gödəkbulaq (Qarcaxpyur), 7. Hüseynquluağalı (Nərimanlı), 9. Qayabaşı,10. Qırxbulaq (Akunk), 11. Qızıləvəng (Çiçəkli, Makenis), 12. Pəmbək

(Pambak), 13. Sultanəli qışlaq (Canəhməd, Günəşli),14. Şişqaya, 15. Zod] və 39 yaşayış məntəqəsi [1.Ağkilsə (Azad), 2. Ağyoxuş, 3. Aşağı Şorca (Nerkin Şorca), 4. Aşağı Zağalı (Tsovka), 5. Babacan, 6. Bala Məzrə (Pokr Mazra), 7. Basarkeçər (qarışıq-türk, erməni), 8. Böyük Qaraqoyunlu (Əzizli), 9. Böyük Məzrə, 10. Çaxırlı (Sovetaker), (qarışıq-türk,erməni), 11. Daşkənd, 12. Dərə, 13. Gödəkbulaq, 15. Medz Mazra (qarışıq-türk, erməni), 16.Gödəkbulaq (Qarcaxpyur), 17.Göysu, 18. Hüseynquluağalı (Nərimanlı), 19. İnəkdağ (Yenikənd), 20. Kərkibaş (Şəfəq), 21. Kəsəmən (Bahar), 22. Qanlı (Qamışlı), 23. Qayabaşı, 24. Qırxbulaq (Akink), 25. Qızıləvəng (Çiçəkli), (qarışıq-türk, erməni), 26. Qoşabulaq, 27. Morakert, 28. Oğruca (Qaraiman, Sovetkənd), 29. Pəmbək (Pambak),30. Sarıyaqub, 31. Sətənəxaç (Güney), 32. Subatan, 33. Sultanqışlaq (Canəhmət, Günəşli), 34. Şişqaya, 35. Torfavan qəsəbəsi, 36. Tüskülü (Lusakunk), 37. Yarpızlı (Lçevan), 38. Yuxarı Şorca (Verin Şorca), 39. Yuxarı Zağalı (qarışıq- türk, erməni), (Axbradzor), 40. Zərzibil (Zərkənd), 41. Zod, 42. Zod qəsəbəsi] olmuşdur.

1935-1978-ci illərdə Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin imzaladığı müxtəlif fərmanlar nəticəsində Göyçə mahalında yerləşən Basarkeçər (1969-cu ildən Vardenis) rayonunun türk mənşəli kəndlərinin adları dəyişdirilərək erməniləşdirilmişdir.





| Köhnə (əsl) adı | Yeni adı | Dəyişdirildiyi tarix |
|---|---|---|
| 1. Ağkilsə | Azat | 03.01.1935 |
| 2. Aşağı Zağalı | Tsovak | 12.08.1946 |
| 3.Babacan | Qızılkənd | 15.07.1978 |
| 4. Basarkeçər | Vardenis | 11.06.1969 |
| 5.Böyük Qaraqoyunlu | Əzizli | 03.01.1935 |
| 6.Canəhməd (Sultanəli qışlağı) | Günəşli | 03.07.1969 |
| 7. Çaxırlı | Sovetakert | 25.01.1978 |
| 8. Gödəkbulaq | Qarsaxpyur | 12.08.1946 |
| 9. İnəkdağ | Yenikənd | 25.01.1978 |
| 10. Kərkibaş | Şəfəq | 25.05.1967 |
| 11.Kəsəmən | Bahar | 25.01.1978 |
| 12. Qanlı | Qamışlı | 12.08.1946 |
| 13.Qırxbulaq | Akunk | 03.01.1935 |
| 14. Oğruca | 1. Qaraiman | ? |
| | 2. Sovetkənd | 25.01.1978 |
| 15. Satanağac | Güney | 03.01.1935 |
| 16.Tüskülü | Lusakunk | 25.01.1978 |
| 17.Yarpızlı | Lçavan | 25.05.1967 |
| 18. Yuxarı Zağalı | Axsradzor | 25.01.1978 |
| 19. Zərzibil | Zərkənd | 03.01.1935 |

1991-ci il və ondan sonrakı illərdə Ermənistan Respublikası Prezidentinin imzaladığı fərmanlarla adları dəyişdirilərək erməniləşdirilmiş kəndlər.

| Kecmis (əsl) adı | Yeni adı | Dəvisdirildivi tarix |
|---|---|---|
| I Oızılkənd | Canatağ | 09.IV.1991 |
| 1. Bahar | Artank | ? |
| 2. Əzizli | Norabak | ? |
| 3. Bövük Məzrə | Medz Masrik | ? |
| 4. Günəsli | Kutakan | ? |
| 5. Daskənd | Havrk | ? |
| 6. Günev | Arevknı | ? |
| 7. Yenikənd | Tretuk | ? |
| 8. Səfəq | Vanevan | ? |
| 9. Kicik Məzrə | Pork Masrik | ? |
| 10. Əzizli | Norabak | 1991-ci ildən sonra |
| 11. Oavalası | Geğemabak | 09.IV.1991 |
| 12. Oızılbulaq | Xacaxbyur | 1991-ci ildən sonra |
| 13. Oızılkənd | Tsovatağ | 09.IV.1991 |
| 14. Oosabulaq | Saderev | ? |
| 15. Nərimanlı | Satavan | ? |
| 16. Sovetkənd (Oaraiman) | Kaxakn | ? |
| 17. Sarıvaqub (Siyaqut) | Caxqadzor | ? |
| 18. Sabatan | Geğakar | ? |
| 19. Yenikənd | Tretunk | ? |
| 20. Zərkənd (Zərzibil) | Kut | ? |
| 21. Zod | Sotk | ? |





## AĞKİLSƏ KƏNDİ

### AŞIQ ƏLƏSGƏR
*(1821-1926)*

*Ələsgər Alməmməd oğlu – şair-aşıq*

1821-ci ilin baharında Qərbi Azərbaycanın Göyçə mahalının Ağkilsə kəndində [indiki Ermənistan Respublikasının Vardenis (keçmiş Basarkeçər) rayonu] yoxsul əkinçi ailəsində anadan olmuşdur. Ehtiyac üzündən 14 yaşında ikən nökərçilik etmişdir. Coşqun təbii, bədahətən şeir deməsi ona gənclik dövründən el arasında hörmət qazandırmışdır.

İlk məhəbbət şeirləri geniş yayılmışdır. Atasının məsləhəti ilə qızılvəngli Aşıq Alının şagirdi olmuş, saz-söz sənətinin sirrini ondan öyrənmişdir.

Bütün Qafqazı oymaq-oymaq gəzmiş, saysız-hesabsız məclislər, toy-bayram şənlikləri keçirmiş, el arasında ustad aşıq kimi tanınmışdır. Azərbaycan aşıq sənətinin inkişafında xidmətləri misilsizdir. Onun bir əli əkinçilikdə, dülgərlikdə olsa da, bütün varlığı ilə aşıq sənətinin yüksəlişinə çalışmışdır. Onlarla istedadlı aşığa söz sənətini və el havalarını öyrətmişdir.

1915-ci ildə ailə həyatında baş verən faciələrdən sonra əlinə saz alıb çalıb-çağırmamışdır. Zəngin irs yaratmışdır: indiyədək onun beş min misradan artıq şeiri toplanmışdır. Onun dillər əzbəri olan şeirlərinin müəyyən hissəsini ilk dəfə toplayıb 1934, 1935, 1937-ci illərdə nəşr etdirən Hümmət Əlizadə olmuşdur. Sonralar isə onun əsərlərinin mükəmməl nəşrini nəvəsi İslam Ələsgərov hazırlamışdır.

**Əsərləri:**

1. Aşıq Ələsgər. Bakı, Azərnəşr, 1956, 480 səh., 25.000 nüs.

2. Aşıq Ələsgər. Bakı., EA nəşriyyatı, 1963, 487 səh., 27.000 nüs.

3. Aşıq Ələsgər (birinci kitab). Bakı, Elm, 1972, 326 səh., 35.000 nüs.

4. Aşıq Ələsgər (ikinci kitab). Bakı, Elm, 1972, 327 səh., 35.000 nüs.

## AŞIQ TALIB
*(1877-1979)*

*Talıb Ələsgər oğlu – aşıq-şair*

1877-ci ilin baharında Qərbi Azərbaycanın Göyçə mahalının Ağkilsə kəndində [indiki Ermənistan Respublikasının Vardenis (keçmiş Basarkeçər) rayonu] Aşıq Ələsgərin ailəsində anadan olmuşdur.

Müqəddəs aşıq sənətinin bütün incəliklərini atasından öyrənmişdir. Yazı-pozu bilməsə də, çox kəskin hafizəsi sayəsində Qurbanidən dövrümüzə qədər xalq arasında ustad aşıq və el şairi kimi tanınanların şeirlərini, "Qurbani", "Abbas və Gülgəz", "Əsli və Kərəm", "Şah İsmayıl", "Valeh və Zərnigar", "Alı xan və Pəri xanım", "Lətif şah", "Məsum və Diləfruz" kimi onlarla xalq dastanlarını yadında saxlamışdı ("Koroğlu" dastanından yeddi qol bilmişdi). Misilsiz xidməti Aşıq Ələsgərin şeirlərini hafizəsində saxlaması olmuşdur. Aşıq Cəmşid, Aşıq Əli, Aşıq İsmayıl, Aşıq Saleh, Aşıq Teymur, Aşıq Əkbərəli və bir çox başqaları onun yetişdirmələrindəndir. 1918-ci ildə ermənilərin Göyçədə törətdikləri milli qırğın zamanı doğma yurdu tərk edib üç il Kəlbəcərin Qanlıkənd kəndində yaşamağa məcbur olmuşdur. Yaz və yay aylarında əkinçiliklə məşğul olmuş, payız və qışda isə Qafqazın ayrı-ayrı bölgələrində toy və şənlik məclislərində çalıb





çağırmışdır. Onun poetik irsinin bir qismi "Ələsgər ocağı" (1991) kitabında dərc edilmişdir.

1979-cu il may ayının 21-də Ağkilsə kəndində vəfat etmiş və Aşıq Ələsgərin qəbrinin yanında dəfn olunmuşdur.

## ƏLİ QURBAN DASTANÇI
*(1928-2004)*

***Əli Abdulla oğlu Qurbanov - şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü (1993)***

1928-ci il mayın 14-də Qərbi Azərbaycanın Göyçə mahalının Ağkilsə kəndində [indiki Ermənistan Respublikasının Vardenis (keçmiş Basarkeçər) rayonu] anadan olmuşdur. Burada kənd ibtidai məktəbini bitirib dörd il çobanlıq etmiş, sonra Zod kənd orta məktəbini başa vurmuşdur. Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutunda təhsilini davam etdirmişdir (1949-1953). Təyinatla Azərbaycanın Kəlbəcər rayonu Xalq Maarif Şöbəsinin sərəncamına göndərilmiş, burada metodist, təlimatçı (1953-1979), sonra "Yenilik" Kəlbəcər rayon qəzetində redaktor (1979-1986), Kəlbəcər rayonu Xalq Maarif Şöbəsinin metodisti vəzifələrində çalışmışdır (1986-1989). Kəlbəcər rayonu Xalq Deputatları Sovetinə deputat seçilmişdir (1979).

Bədii yaradıcılığa 40-cı illərdən başlamışdır. İlk şeiri 1943-cü ildə Basarkeçər rayon qəzetində dərc olunmuşdur. "Ədəbiyyat və incəsənət", "Azərbaycan müəllimi", "Azərbaycan", "Kənd həyatı" və s. qəzet və jurnallarda şeirlərini vaxtaşırı çap etdirmişdir. "Koroğlu" dastanında "Mərcan xanımın Çənlibelə gəlməyi" qolunu tərtib etmiş, "Keçəl Həmzənin Qıratı aparması" və "Koroğlunun Quba səfəri"ni toplayıb işləmiş, onu "Söz dəyirmandakıdı..." (1996) kitabında nəşr etdirmişdi. "Azərbaycan

ədəbiyyatı inciləri" seriyasının V cildinə onun təcnisləri daxil edilmişdir. Zəhmətkeşlərin yaradıcılıq festivalında "Bədii söz ustası" diplomuna və "Qızıl medal"a layiq görülmüşdür (1977). Xidmətlərinə görə üç medalla təltif olunmuşdur.

2004-cü il martın 27-də Bakıda vəfat etmişdir.

**Əsərləri:**

1. Yetim Hüseyn dastanı. Bakı,Yazıçı, 1982, 186 səh., 7.000 nüs.
2. Balasıyam bu dağların (şeirlər və poemalar). Bakı,Yazıçı, 1989, 96 səh., 7.000 nüs.
3. Göyçə gülü (dastan, poema). Bakı, "Elm" nəşriyyatı, 1995, 136 səh.
4. Səməd ağa dastanı. Bakı, Göytürk, 1995, 93 səh., 2.000 nüs.
5. Deyişmələr-dərdləşmələr (I kitab). Bakı, "Gəncə" nəşriyyatı, 1995, 182 səh., 1.000 nüs.
6. Beş dastan. Bakı, Göytürk, 1996, 219 səh., 2.000 nüs.
7. Deyişmələr-dərdləşmələr (II kitab). Bakı, "Elm" nəşriyyatı, 1999, 244 səh., 500 nüs.
8. Allahu Əkbər. Bakı, "Elm" nəşriyyatı, 1997,81 səh., 500 nüs.
9. Koroğlular uzaqlardan gələn yolda. Bakı, "Elm" nəşriyyatı, 1997, 194 səh., 500 nüs.
10. Söz dəyirmandakıdı. Bakı, Ensiklopediya NPB, 1998, 126 səh., 500 nüs.
11. Yetənə bir şeir, ötənə bir şeir, ölənə bir şeir. Bakı, Azərnəşr, 1998, 296 səh., 500 nüs.
12. Çıraqqala dastanı. Bakı, Araz nəşri, 1999, 254 səh., 500 nüs.
13. Məşədisə dastanı. Bakı, "Əbilov-Zeynalov qardaşları" nəşriyyatı, 1999, 406 səh., 2500 nüs.
14. Dəli Alı dastanı. Bakı, 2002, 230 səh., 500 nüs.





15. Müdriklik mücəssəməsi. Bakı, Azərnəşr, 2003, 304 səh., 500 nüs.
16. Qaxın möcüzələri. Gəncə, 2003, 346 səh., 500 nüs.

## İSMİXAN DİDƏRGİN
*(1930-1994)*

*İsmixan Müseyib oğlu Məmmədov- şair*

1930-cu ildə Qərbi Azərbaycanın Göyçə mahalının Ağkilsə kəndində [indiki Ermənistan Respublikasının Vardenis (keçmiş Basarkeçər) rayonu] anadan olmuşdur. Aşıq Ələsgərin qardaşı Məşədi Salahın nəvəsidir. 9 yaşında ikən atadan yetim qalmış, 15-16 yaşlarında anasını itirmiş, özündən kiçik bir qardaş və iki bacıdan ibarət ailənin qayğısını çəkməli olmuşdur. Ağkilsə kəndində ibtidai, qonşu Zod kəndində orta təhsil almışdır.

Azərbaycan Dövlət Pedaqoji İnstitutunda (indiki Nəsrəddin Tusi adına Pedaqoji Universiteti) təhsilini qiyabi davam etdirmiş, Ağkilsə kəndindəki yeddiillik məktəbdə müəllim işləmişdir. Fitri istedadı ilə şair kimi tanınmışdır. Gənc yaşlanndan şeir, sənət vurğunu olmuşdur. İlk şeirləri "Sovet Ermənistanı" qəzetində və "Ədəbi Ermənistan" almanaxında çıxmışdır. Onun qoşmaları, gəraylıları, təcnisləri aşıqlar tərəfindən məclislərdə oxunur.

Milli ixtilaf və soyqırımı nəticəsində doğma yurdu tərk edib on bir nəfərlik ailə ilə Naftalan şəhərinə, sonra isə Daşkəsən rayonunun Bayan kəndinə köçmüş, kənd orta məktəbində dil-ədəbiyyat müəllimi işləmişdir.

1991-ci ildə "Yazıçı" nəşriyyatında çapdan buraxılan "Ələsgər ocağı" (toplayanı və tərtib edəni İslam Ələsgər) adlı kitaba 22 şeiri daxil edilmişdir. Həmin nəşriyyatda onun ilk kitabı "Ayırdılar qucağından Göyçənin" (1992) İsmixan Didərgin im-

zası ilə çapdan çıxmışdır.

Vətən həsrəti çəkən incə qəlbli şair çox yaşaya bilmədi. 1994-cü il iyun ayının 6-da vəfat etdi. Bayan kəndinin qəbiristanlığında dəfn olunmuşdur.

## NÖVRƏS İMAN
*(1903-1932)*

*İman Məşədi Saleh oğlu - şair*

1903-cü ilin mayında Qərbi Azərbaycanın Göyçə mahalının Ağkilsə kəndində [indiki Ermənistan Respublikasının Vardenis (keçmiş Basarkeçər) rayonu] anadan olmuşdur. Aşıq Ələsgərin qardaşı Məşədi Salehin oğludur. Göyçənin Hüseynquluağalı (indiki Nərimanlı) kəndində molla məktəbində təhsil almışdır. Sonra mütaliə yolu ilə zəngin bilik qazanmışdır. El arasında istedadlı şair kimi tanınmışdır. 1918-ci ildə erməni daşnak quldurları Göyçəni viran edəndə ailəlikcə Kəlbəcərə köçmüş və bir müddət orada yaşamışlar. 1922-ci ildən sonra yenidən doğma Ağkilsə kəndinə qayıtmışlar. Kəlbəcərin Bağırlı kəndində mədrəsə təşkil etmiş, Quranı tədris eləməyə başlamışdır (1922). Bu maarif ocağı qadağan olunduqdan sonra Kəlbəcərin Seyidlər kəndində kənd şurasının katibi vəzifəsinə təyin edilmişdir. Din xadimlərinin təqib olunmasına, məscidlərin dağıdılmasına və digər haqsızlıqlara qarşı etiraz əlaməti olaraq, vəzifəsindən imtina edir, saz götürüb aşıqlıq eləməyə, dindən, şəriət qanunlarından bəhs edən şeirləri məclislərdə oxumağa başlayır. Buna görə təqib olunduğundan guşənişin olur, sakit bir guşəyə çəkilir, gecə-gündüz şeir yazır, əsəbiləşir, "bunlara ki, qiymət verən yoxdur" - deyə məhv edirdi. Dərdini başa düşməyənlər başına hava gəldiyini, hətta dəli olduğunu söyləmiş, onu





incitmişlər. Nadanlığın töhmət və rişxəndlərinə dözə bilməyən incə qəlbli sənətkar 1932-ci ildə doğma kənddən baş götürüb getmiş, bir daha onu gördüm deyən olmamışdır. Bu el sənətkarının çox zəngin yaradıcılığından yalnız bir qismi bizə gəlib çatmışdır. 1930-cu illərin dövri mətbuatında onun şeirlərinə təsadüf olunur. "Ələsgər ocağı" (1991) kitabında isə onun şeirlərinin bir hissəsi çap edilmişdir.

# BABACAN KƏNDİ

## NİFTALI GÖYÇƏLİ
*(1950)*

*Niftalı Puta oğlu Yusubov – şair, publisist*

1950-ci il martın 21-də Qərbi Azərbaycanın Göyçə mahalının Babacan kəndində [indiki Ermənistan Respublikasının Vardenis (keçmiş Basarkeçər) rayonu] anadan olmuşdur. Ailəsi 1952-ci ildə qonşu Dərə kəndinə köçərək orada məskunlaşmışdır. Orta təhsilini Dərə kəndində səkkizillik məktəbində və Ardanış orta məktəbində, ali təhsilini isə Azərbaycan Dövlət Universitetinin kitabxanaçılıq fakültəsində (qiyabi şöbəsində) almışdır.

Orta məktəbi bitirdikdən sonra 1967-ci ildə Bakı şəhərinə gəlmiş və ali məktəbə qəbul olmadıqdan sonra inşaat idarəsində fəhlə işləmişdir. 1969-cu ildə hərbi xidmətə çağrılmış, eyni zamanda hərbi komissarlığın hesabına sürücülük kursunu da bitirmişdir. Hərbi xidməti müddətində İrəvan şəhərində inşaat batalyonunda iki il sürücü işləmişdir. Hərbi xidmətini başa vurduqdan sonra Bakıya qayıtmışdır. 1975-ci ildə Azərbaycan Dövlət Universitetinin kitabxanaçılıq fakültəsinin qiyabi şöbəsinə qəbul olunur. 1976-cı ildə Şəki rayonunun Üzümçülük

sovxozuna (Qasımkənd) köçür və orada mədəniyyət evinin direktoru vəzifəsində çalışır. 1986-1987-ci illərdə S.Vurğun adına Şəki rayon mədəniyyət evinin direktoru vəzifəsində işləyib. Sonra iki il Rusiyanın Pskov şəhərində yaşayıb. 1990-cı ildə yenidən Bakıya qayıdaraq 2013-cü ilə kimi Azərbaycan Dövlət Neft Şirkətinin Geoloji Kəşfiyyat İdarəsində geoloji fond rəisi vəzifəsində işləmişdir. Hazırda təqaüdçüdür.

Niftalı Göyçəli bədii yaradıcılığa hələ orta məktəb yaşlarından başlamışdır. Ailəlidir. Övladları var.

**Əsərləri:**

1. İbrahim və Lilpar. Bakı, 2006, 110 s.
2. Ələsgər və Şəhrəbanı. Bakı.
3. Altun saçlı qəhrəman. Bakı, 2006, 120 s.
4. Dahi öndər. Bakı,2010, 170 s.
5. Vətən sizə oğul dedi. Bakı, 2011, 150 s.
6. Bütöv Azərbaycan eposu. Bakı, 2012, 220 s.
7. Qədim Turan eposu. Bakı, 2014, 200 s.

## BALA MƏZRƏ KƏNDİ

### FÜZULİ SABİROĞLU
*(1964)*

***Füzuli Sabir oğlu Eyvazov - şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü (1998)***

1964-cü il noyabrın 20-də Qərbi Azərbaycanın Göyçə mahalının Bala Məzrə kəndində [indiki Ermənistan Respublikasının Vardenis (keçmiş Basarkeçər) rayonu] anadan





olmuşdur. Burada orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Politexnik İnstitutunda təhsilini davam etdirmişdir (1981-1986). Əmək fəaliyyətinə 1986-cı ildə təyinatla göndərildiyi Sverdlovsk vilayətinin Barançinsk şəhərindəki Elektrotexnika zavodunda mühəndis kimi başlamışdır. Dağlıq Qarabağ münaqişəsi dövründə doğma kəndinə qayıtmış, ailəlikcə Şəmkir rayonunun Atabəy kəndinə köçməyə məcbur olmuşlar (1988). Sumqayıtda Səthi Aktiv Maddələr zavodunda mühəndis vəzifəsində işləmişdir (1989-1993). Azərbaycan Milli Ordusunun tərkibində Azərbaycan ərazisinin bütövlüyü uğrunda erməni təcavüzkarlarına qarşı döyüşlərdə iştirak etmiş, yaralanmışdır. Qarabağ əlilidir. Bədii yaradıcılığa erkən yaşlarından başlamışdır. İlk şeirləri 1988-ci ildə Basarkeçərdə “Vardenis” rayon qəzetində dərc olunmuşdur. Bundan sonra Azərbaycanda dövri mətbuatında şeir və hekayələrini müntəzəm çap etdirir. “Göydən yerə göz qoyan var” şeirlər toplusu kütləvi tirajla nəşr olunmuşdur.

### MƏCNUN GÖYÇƏLİ
*(1949)*

***Məcnun Səməd oğlu İbrahimov – şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü (2002), Azərbaycan Jurnalistlər və Aşıqlar Birliyinin üzvü.***

1949-cu il iyunun 2-də Qərbi Azərbaycanın Göyçə mahalının Bala Məzrə kəndində [indiki Ermənistan Respublikasının Vardenis (keçmiş Basarkeçər) rayonu] anadan olmuşdur. Burada kənd orta məktəbini bitirdikdən sonra Zod Qızıl-Filiz Kombinatında fəhləlik etmişdir (1967-1973). Azərbaycan Dövlət Universitetinin kitabxanaçılıq fakültəsində təhsil almışdır (1973-1979). Bala Məzrə kəndində kitabxana

müdiri, orta məktəbdə pioner baş dəstə rəhbəri, "Vardenis" rayon qəzeti redaksiyasında ədəbi işçi, Azərbaycan Aşıqlar Birliyində təsərrüfat üzrə sədr müavini, Yerli Həmkarlar Komitəsinin sədri, "Ozan" qəzetinin baş redaktorunun müavini, redaktoru işləmişdir (1982-2002). Hazırda Azərbaycan Müasir Müsavat Partiyası sədrinin ictimaiyyətlə əlaqələr üzrə müşaviridir (2002-ci ildən).

Ədəbi fəaliyyətə erkən başlamışdır. Lakin şeirləri XX əsrin 80-ci illərindən "Azərbaycan", "Ulduz", "Göyərçin", "Kirpi" jurnallarında və "Ədəbiyyat qəzeti", "Körpü", "Vətən səsi", "Şərq qapısı" qəzetlərində, eləcə də Türkiyə mətbuatında dərc olunmuşdur.

Ümumdünya Qaçqın Yazarlar Departamenti Rəyasət Heyətinin üzvü, Azərbaycan Yazıçılar Birliyi İrəvan Yazıçılar Şurasının sədr müavinidir.

**Əsərləri:**

1. Göyçə yallısı (şeirlər). Bakı, Yazıçı, 1988. – 68 səh., 2000 nüs.
2. Göyçə təbəssümləri. Bakı, Gənclik, 1996. – 92 səh., 2000 nüs.
3. Köçkün nəğmələri (şeirlər və poemalar). Bakı, "Elm", 2000. – 300 səh., 500 nüs.
4. Tanrıdan payım mənim (şeirlər və poemalar). Bakı, Nurlan, 2003. – 228 səh., 500 nüs.





# BÖYÜK QARAQOYUNLU KƏNDİ

## AŞIQ ƏSƏD
*(1874-1951)*

*Əsəd Əhməd oğlu Rzayev - aşıq, şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü (1939)*

1874-cü ildə Qərbi Azərbaycanın Göyçə mahalının Böyük Qaraqoyunlu kəndində [indiki Ermənistan Respublikasının Vardenis (keçmiş Basarkeçər) rayonu] yoxsul kəndli ailəsində doğulmuşdur. Kiçik yaşlarında atasını itirəndən sonra beş il muzdurluq etmişdir. Sonra söz qoşmağa, çalıb-çağırmağa güclü həvəsini eşidən Aşıq Ələsgər onu şagirdliyə götürmüş, dörd il sənət öyrətmişdir. 1895-ci ildən müstəqil aşıqlıq etmiş, el arasında çalıb-çağırmış, ustad sənətkar kimi tanınmışdır. 1921-ci ildə banditizmə qarşı mübarizə aparmışdır. 1931-ci ildə Azərbaycanın Tovuz şəhərinə köçmüşdür. Birinci Aşıqlar qurultayında ona Azərbaycanın ilk aşığı adı verilmişdir. Sovet hakimiyyəti qurulduğu vaxtdan kolxoz kəndini, yeni sosialist cəmiyyətinin nailiyyətlərini, əmək adamlarının bəxtiyar günlərini tərənnüm etmişdir. 1938-ci ildə Moskvada Azərbaycan incəsənəti ongünlüyünün iştirakçısı olmuşdur. "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir. İkinci Dünya müharibəsi illərində cəbhə arxasında Azərbaycan kəndlilərini qələbəyə ruhlandırmış, öz konsertləri ilə ümumxalq işinə köməklik göstərmişdir.

1951-ci il aprelin 27-də vəfat etmişdir.

**Əsərləri:**

1. Şeirləri. Bakı, Azərnəşr, 1939, 17 səh., 8.000 nüs.

## SALMAN VİLAYƏTOĞLU
*(1962-2009)*

*Salman Vilayət oğlu Salmanov – publisist, jurnalist, psixoanaltik*

1962-ci il fevralın 14-də Qərbi Azərbaycanın Göyçə mahalının Böyük Qaraqoyunlu kəndində [indiki Ermənistan Respublikasının Vardenis (keçmiş Basarkeçər) rayonu] anadan olmuşdur. 15 yaşında orta məktəbi, 20 yaşında (1982-ci ildə) Azərbaycan İnşaat Mühəndisliyi İnstitutunu (indiki Azərbaycan Memarlıq İnşaat Universiteti) bitirib, 1982-1983-cü illərdə SSRİ Müdafiə Nazirliyinin Ural Hərbi Dairəsindəki qapalı müəssisə-konstruktor bürosunda çalışıb. 1983-1985-ci illərdə isə Almaniya Demokratik Respublikasında sovet qoşunlarının hərbi hissələrindən birinin kəşfiyyat zıvoduna rəhbərlik edib. Eyni zamanda 1986-cı ildə Bakı Ali Partiya Məktəbinin «ideoloji kadrlar» kursunda təhsil alıb.

1985-1989-cu ilin yanvar ayınadək İrəvanda (indiki Yerevan) şəhərində ermənistan KP MK-nın orqanı olan «Sovet Ermənistanı» qəzetində müxbir, şöbə müdiri işləyib. 1988-ci ilin sonları – Qərbi Azərbaycanda (İndiki Ermənistanda) baş verən ictimai-siyasi hadisələr zamanı burada yaşayan 300 minə yaxın Azərbaycan türkü doğma yurdlarından ermənilər tərəfindən zorla qovuldular. Onların arasında Salman Vilayətoğlunun ailəsi də var idi. O Bakıda məskunlaşır və bir müddət sonra Azərbaycan Dövlət Teleradio Şirkətində işə düzəlir. Eyni zamanda Azərbaycan Qaçqınlar Cəmiyyətinin yaradılmasında da fəal iştirak edib. 1990-1992-ci illərdə həmin cəmiyyətin «Təşkilat və hüquq» şöbəsinin müdiri, eyni zamanda Həmkarlar İttifaqı Komitəsinin sədri olub. 1993-cü ildə yenidən Azərbaycan Dövlət Teleradio Verilişləri Komitəsinə işləməyə qayıdır və 1997-ci ilin aprel





ayına qədər «sosioloji tədqiqatlar, müxbirlər və məktublarla iş» şöbəsinə rəhbərlik edir.

1997-2000-ci illərdə özünün şəxsi təşəbbüsü ilə nəşrə başladığı müstəqil «Dövran» qəzetinin təsisçisi və baş redaktoru, 2000-2004-cü illərdə «Spektor» jurnalının təsisçisi və baş redaktoru kimi fəaliyyət göstərib. 2004-2009-cu illərdə «Simurq» Fundamental Araşdırmalar Bürosunun və «Simurq» Milli Mükafat Fondunun rəhbəri, «İntellekt» Araşdırmalar Mərkəzi İctimai Birliyinin direktoru, Azərbaycanlıların və digər Türkdilli Xalqların Əməkdaşlıq Mərkəzi İctimai Birliyinin icraçı katib, «Birlik» jurnalının baş redaktoru və ömrünün sonlarına yaxın isə «Kaspi» qəzetinin baş redaktorunun müavini olub.

2009-cu il aprelin 30-da ürək tutmasından vəfat edib. Ailəli olub. Dövd övlad atası idi. Əmək fəaliyyətinə görə Azərbaycan Mətbuat Fondunun Fəxri Fərmanına (1993), «Cəsarətli söz» mükafatına (1994), «İnam» fəxri diplomuna (1998), «Araz» Ali Ədəbi Mükafatına layiq görülüb. «Qızıl Qələm» mükafatı laureatı idi (2002). İctimai fəallığına görə Moskvada fəaliyyət göstərən «Bəşəri ideallar uğrunda» Beynəlxalq İctimai Fondun xüsusi diplom və döş nişanı ilə də təltif olunmuşdur. Ölümündən sonra, yəni 2009-cu il mayın 26-da Dünya türklərinin inteqrasiyası, türk mədəniyyətinin və tarixinin geniş təbliği yönündəki əvəzsiz fəaliyyətinə görə «Birlik» jurnalının baş redaktoru olan Salman Vilayətoğlu mükafatlandırmışdır. Ona çatacaq mükafat isə oğlu Baycan Salmanoğluna təqdim olunmuşdur.

Əsərləri:

1. Desən öldürərlər, deməsən olmur. Bakı, 2006. – 120 səh.
2. Oğuz elinin müqəddəs ocağı. Göyçə. Bakı, «TS», 2006. – 512 səh.
3. Beşikdən qəbrə qədər… Bakı, «Adiloğlu», 2007. – 132 səh.

## BALA (KİÇİK) QARAQOYUNLU (YENGİCƏ)

### İBRAHİM KÖÇKÜN
*(1937)*

*İbrahim İsgəndər oğlu Qurbanov - şair. Azərbaycan Yazıçılar Birliyinin üzvü (2006)*

1937-ci il noyabrın 15-də Qərbi Azərbaycanın Göyçə mahalının Kiçik Qaraqoyunlu kəndində [indiki Ermənistan Respublikasının Vardenis (keçmiş Basarkeçər) rayonu] anadan olmuşdur. İbtidai təhsilini doğma kəndində, orta təhsilini isə Zod orta məktəbində almışdır (1966). Ali təhsilini H.Zərdabi adına Gəncə Pedaqoji İnstitutunun ibtidai təhsilin metodikası fakültəsində və M.F.Axundov adına Xarici Dillər İnstitutunun rus dili və ədəbiyyatı fakültəsində almışdır.

Böyük Qaraqoyunlu kəndində sinif müəllimi (1960-1965), Zod orta məktəbində direktor müavini (1965-1971), Xanlar (indiki Göygöl) rayonunun Kərəmli kəndində rus dili müəllimi (1988-1996), Bakının Mehdiabad qəsəbəsində 1 saylı orta məktəbdə rus dili müəllimi işləmişdir (1998-2008). Hazırda təqaüdçüdür.

"Bahar gəlir" adlı ilk şeiri 1963-cü ildə Basarkeçər rayonunun "Bolluq uğrunda" adlı rayon qəzetində dərc olunub.

**Əsərləri:**

1. Göyçəli Göyçəsiz necə yaşasın? Bakı, Ağrıdağ, 1988, 96 səh,. 1.000 nüs.
2. Sirli-sehirli dünya. Bakı, Nurlan, 2004,129 səh., 300 nüs.
3. Göyçə, səndən kimlər keçib! Bakı, Nurlan, 2005, 160 səh., 300 nüs.
4. Mirzə Bəylər nəfəsiyəm. Bakı, Təknur, 2006, 176 səh.,





300 nüs.

5. Həkimin dünya dərdi. Bakı, Təknur, 2008, 80 səh., 500 nüs.
6. Bir Hüseyn Arif vardı. Bakı, Təknur, 2008, 160 səh., 500 nüs.
7. Mənim Göyçə taleyim. Bakı, Nurlan, 639 səh., 500 nüs.

## D

## ASKƏND KƏNDİ

### AQİL İMAN
*(1958-1996)*

*İman Həsən oğlu Hacıyev - şair.*

1958-ci il mayın 4-də Qərbi Azərbaycanın Göyçə mahalının Daşkənd kəndində [indiki Ermənistan Respublikasının Vardenis (keçmiş Basarkeçər) rayonu] şair Həsən Xəyallının ailəsində anadan olmuşdur. Burada kənd orta məktəbini bitirdikdən sonra Azərbaycan Dövlət Sənaye İnstitutunda təhsil almışdır (1982-1987). Yevlax Qaz-İstilik İdarəsində mühəndis işləmişdir (1988-1992). Erməni təcavüzkarlarına qarşı mübarizə zamanı Kəlbəcər və Ağdərə bölgələrində döyüşlərdə iştirak etmişdir (1992-1994). Ağdərə bölgəsində mina partlayışı zamanı zədə aldığına görə ordudan tərxis olunmuşdur. Ədəbi fəaliyyətlə 80-ci ildən məşğul olmuşdur. "Sovet kəndi", "Azərbaycan müəllimi", "Ədəbiyyat və incəsənət" qəzetlərində lirik şeirləri çap edilmişdir.

1996-cı il avqustun 28-də ürək tutmasından vəfat etmişdir.

## ALQAYID XƏLİL
*(1939)*

*Alqayıd Bayram oğlu Xəlilov - şair.*

1939-cu il noyabrın 28-də Qərbi Azərbaycanın Göyçə mahalının Daşkənd kəndində [indiki Ermənistan Respublikasının Vardenis (keçmiş Basarkeçər) rayonu] anadan olmuşdur. Burada kənd orta məktəbini bitirmişdir (1956). Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universiteti) tarix-filologiya fakültəsinin Azərbaycan dili və ədəbiyyatı şöbəsində təhsilini davam etdirmişdir (1963-1967). Əmək fəaliyyətinə Daşkənd kənd orta məktəbində müəllim kimi başlamışdır (1967-1972). "Mingəçevir işıqları" qəzetində və "Vardenis" (Göyçə) rayon qəzetində ədəbi işçi işləmişdir (1972-1975).

Bir müddət müəllim işləmiş (1972-1982), sonra (1983-cü ildən) Xanlar rayonunda mədəniyyət evində bədii rəhbər vəzifəsində çalışmışdır. Xalq arasında istedadlı şair-aşıq kimi tanınır.

Ədəbi yaradıcılığa erkən başlamışdır. İlk şeirləri Basarkeçər və Şuşa rayon qəzetlərində çıxmışdır. "Sovet Ermənistanı", "Azərbaycan gəncləri" qəzetlərində, "Ədəbi Ermənistan" almanaxında vaxtaşırı çıxış etmişdir.





## ELDAR HƏSƏNLİ
*(1960)*

*Eldar Həsən oğlu Həsənli – şair, folklorşünas, Azərbaycan Yazıçılar Birliyinin üzvü (1990), Azərbaycan Jurnalistlər Birliyinin üzvü.*

1960-cı il aprelin 28-də Qərbi Azərbaycanın Göyçə mahalının Daşkənd kəndində [indiki Ermənistan Respublikasının Vardenis (keçmiş Basarkeçər) rayonu] el şairi Həsən Xəyallının ailəsində anadan olmuşdur. Burada kənd orta məktəbini bitirdikdən sonra Şuşa Mədəni-Maarif Texnikumunda təhsil almışdır (1980-1983). Əmək fəaliyyətinə Bərdə rayonunun Müəllimlər Evinin nəzdində olan poeziya dərnəyində rəhbər kimi başlamışdır (1987-1990). Bir müddət Azərbaycan Aşıqlar Birliyi Bərdə bölgəsinin şöbə müdiri vəzifəsində çalışmış (1990-cı ildən), eyni zamanda "Uşaq poeziyası" dərnəyinə rəhbərlik etmişdir. Ədəbi fəaliyyətə orta məktəbdə təhsil aldığı illərdə başlamışdır. "Azərbaycanlıyam" adlı ilk mətbu şeiri 1983-cü ildə "Sovet Ermənistanı" qəzetində dərc olunmuşdur. Bundan sonra "Ədəbi Ermənistan", "Tale ulduzu" almanaxlarında, "Azərbaycan", "Ulduz", "Kənd həyatı" jurnallarında, "Azərbaycan gəncləri", "Gəncənin səsi", "Tərəqqi" və s. qəzetlərdə şeirləri müntəzəm çap edilmişdir. "Şairlər ölümə ölüm demir ki...", "Boğazdan yuxarı söz deməmişəm", "Ulu Daşkənd yerindəmi" kitablarını çapa hazırlamışdır. Ədəbi-bədii tədbirlərin təşkilatçısı olmuşdur.

**Əsərləri:**

1. Aqilim, Sərrafım qaldı Göyçədə (şeirlər). Bakı, Gənclik, 1990, 148 səh., 2.000 nüs.
2. Gözlərimin yaşı qalıb o yerdə (şeirlər).Bakı, Gənclik, 1992, 120 səh., 1.000 nüs.

3. Göyçə mənim, qadası, Ələsgərim, Alımdı. Bakı, Azərnəşr, 1997, 160 səh., 1.000 nüs.
4. Sən günəşin zərrəsiydin. Bakı, Azərnəşr, 1999, 124 səh., 1.000 nüs.
5. Dünya mənim qəfəsimdi (şeir və poemalar). Bakı, Azərnəşr, 2001, 160 səh., 1.000 nüs.

## XASAY HACIYEV
*(1925-1977)*

*Xasay Oruc oğlu Hacıyev –* **şair**, *maarif xadimi.*

1925-ci il aprelin 28-də Qərbi Azərbaycanın Göyçə mahalının Daşkənd kəndində [indiki Ermənistan Respublikasının Vardenis (keçmiş Basarkeçər) rayonu] anadan olmuşdur. Burada kənd orta məktəbini bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsində ali təhsil almışdır (1942-1947).

Əmək fəaliyyətinə doğma kəndində müəllim kimi başlamışdır. 1948-ci ildən sonra kəndin bir hissəsi Moskvanın təzyiqi ilə Azərbaycanın Bərdə rayonuna köçərək orada Yeni Daşkənd adlı kənd salmışdır. Xasay Oruc oğlunun ailəsi də onların arasında olmuşdur. İlk şeir toplusu – "Babamın dərdi" kitabında Göyçə mahalının müsibətli günlərinin poetik salnaməsini yaratmışdır. Kiçik yaşlarından yazdığı şeirlərdə şifahi xalq ədəbiyyatının güclü təsiri duyulur. Ömrünün axırınadək müəllimliklə yanaşı, yaradıcılığını ardıcıl davam etdirmiş, zəngin ədəbi irs yaratmışdır. Külliyatı çapa hazırlanır.

1977-ci il aprelin 11-də Bərdə rayonunda Yeni Daşkənd kəndində dünyasını dəyişmişdir.





## HƏSƏN XƏYALLI
*(1885-1966)*

*Həsən Xəyallı - şair*

1885-ci il martın 20-də Qərbi Azərbaycanın Göyçə mahalının Daşkənd kəndində [indiki Ermənistan Respublikasının Vardenis (keçmiş Basarkeçər) rayonu] dünyaya göz açmışdır. Kiçik yaşlarında dayısı Hacı Rəhimin yanında dini təhsil almışdır. Xalq arasında şair Həsən Xəyallı kimi tanınmışdır.

Şifahi xalq ədəbiyyatı nümunələrini, xüsusən aşıq şeirlərini toplamağa təşəbbüs göstərmiş, bu səpkidə müxtəlif şəkilli qoşmalar yazmış, şeirlərinin sonunda "Xəyallı" möhürbəndini işlətmişdir.

Aşıq Nəcəflə (Ələsgərin qardaşı oğlu) ailəvi dostluq əlaqələri saxlamış, ondan aşıq sənətinin sirrini öyrənmişdir.

Şair Həsən Xəyallı 1966-cı il aprelin 10-da doğma kəndində vəfat etmiş və orada dəfn olunmuşdur.

## ŞİRUYƏ HƏSƏNOĞLU
*(1942)*

***Şiruyə Həsən oğlu Hacıyev - şair***

1942-ci il sentyabrın 11-də Qərbi Azərbaycanın Göyçə mahalının Daşkənd kəndində [indiki Ermənistan Respublikasının Vardenis (keçmiş Basarkeçər) rayonu] anadan olmuşdur. Kiçik yaşlarında ruhani atasından ərəb dilini öyrənmişdir. Orta məktəbi Azərbaycanda Bərdə rayonunun Yeni Daşkənd kəndində bitirdikdən sonra 1962-1968-ci illərdə Azərbaycan

Dövlət Pedaqoji İnstitutunda təhsil almışdır.

Əmək fəaliyyətinə təyinatla göndərildiyi Yeni Daşkənd kəndində müəllim kimi başlamışdır. Sonra həmin kənd məktəbində tədris işləri üzrə direktor müavini (1972-1980) olmuşdur.

Hazırda orada riyaziyyat müəllimidir (1980-ci ildən). Bədii yaradıcılığa tələbəlik illərindən başlamışdır. İlk şeiri 1965-ci ildə "İnstitutun gənc müəllimi" qəzetində dərc olunmuşdur. Cəbhə bölgələrində ştatdankənar hərbi müxbir işləmişdir (1993-1996). Bərdə "Söz birliyi" ədəbi məclisinin fəal üzvüdür.

**Əsərləri:**

1. Ağlama bülbül, ağlama (şeirlər və poemalar. Gəncə, "Gəncə" nəşriyyatı, 1996, 372 səh., 10.000 nüs.
2. Ölümdən sonra ömür (şeirlər və poemalar). Gəncə, "Gəncə" nəşriyyatı, 1997, 186 səh., 2.000 nüs.
3. Bu ocağın odu sönməz (şeirlər). Gəncə, "Gəncə" nəşriyyatı, 1998, 100 səh., 1.000 nüs.
4. Cəsurlar (poema). Bakı,Gənclik, 2000, 180səh., 1.000 nüs.
5. İgid ölər, adı qalar (şeirlər və poemalar). Gəncə, "Gəncə" nəşriyyatı, 2003, 304 səh., 500 nüs.
6. Ayrılığın sonu varmış. Bakı, Nurlan, 2006, 192 səh., 1000 nüs.
7. Könlüm Göyçəni istər. Bakı, Nurlan, 2006, 192 səh., 1000 nüs.
8. Tərtərin yaralı cəngavərləri. Bakı, Hüquq ədəbiyyatı, 2006, 288 səh., 400 nüs.
9. Mən haqqa sığınmışam. Bakı, Nurlan, 2007, 200 səh., 500 nüs.
10. Hər görüş bir xatirədir. Bakı, Nurlan, 2008, 184 səh., 200 nüs.





**İNƏKDAĞ KƏNDİ**

## HƏSƏN GÖYÇƏLİ
*(1937)*

*Həsən Səməd oğlu Kərimov - şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü (1999)*

1937-ci il mayın 24-də Qərbi Azərbaycanın Göyçə mahalının İnəkdağ kəndində [indiki Ermənistan Respublikasının Vardenis (keçmiş Basarkeçər) rayonu] anadan olmuşdur. Burada kənd yeddiillik məktəbi, qonşu Zod kəndində isə orta məktəbi bitirdikdən sonra İrəvan Kənd Təsərrüfatı Texnikumunun aqronomluq fakültəsində təhsil almışdır (1959-1962). Doğma kəndində kolxozda aqronom işləmişdir. Gəncədə Kənd Təsərrüfatı İnstitutunda ali təhsilini davam etdirmiş (1963-1969) və alim aqronom ixtisası almışdır. Kolxozda baş aqronom olmuşdur.

1988-ci ilin sonunda Azərbaycanın Goranboy rayonunun Veyisli kəndində məskunlaşmışdır. Hazırda Gəncədə nəşr edilən "Rəy" qəzetinin redaktorudur. Eyni zamanda Veyisli kəndində kiçik sahibkarlıqla məşğuldur.

Bədii yaradıcılığa gənclik dövründən başlasa da, lirik şeirləri və təmsilləri 90-cı illərdə almanaxlarda ("Pəncərə", "Göyçə şəhidləri" və s.) çıxmışdır. Qoşma, təcnis və gəraylılardan ibarət "Göyçə həsrəti", "Göyçə mənim ürəyimdə" şeir topluları 1997-ci ildə "Səda" nəşriyyatında kütləvi tirajla çap olunmuşdur.

**Əsərləri:**

1. Göyçə həsrəti (şeirlər və bayatılar). Bakı, Səda, 1997, 120 səh., 300 nüs.
2. Göyçə mənim ürəyimdə (şeirlər, təmsillər). Bakı, Səda,

1997, 95 səh., 1000 nüs.
3. Ayrılmazdım Göyçəm səndən (şeirlər və poemalar). Bakı, Qeyrət, 2004, 120 səh.. 500 nüs.
4. Ata yadigarı (şeirlər və bayatılar). Bakı, Nurlan, 2006, 185 səh., 200 nüs.
5. Dilim ana deyəndə. Bakı, Nurlan, 2007, 240 səh., 300 nüs.
6. Dünya türk dünyasıdır. Bakı, Nurlan, 2008, 235 səh., 300 nüs.
7. Qərib durnalar (şeirlər). Gəncə, 2009, 202 səh., 300 nüs.

## KƏSƏMƏN KƏNDİ

### ÜLVİ BÜNYADZADƏ
*(1969-1990)*

*Ülvi Yusif oğlu Bünyadzadə - şair, publisist*

1969-cu il sentyabrın 23-də Qərbi Azərbaycanın Göyçə mahalının Kəsəmən kəndində [indiki Ermənistan Respublikasının Vardenis (keçmiş Basarkeçər) rayonu] ziyalı ailəsində anadan olmuşdur. Ailəliklə Azərbaycanın Daşkəsən rayonuna köçmüşlər. Burada orta məktəbi bitirmişdir (1987). Bu dövrdə musiqi təhsili də almışdır. Həmin il Azərbaycan Dövlət Pedaqoji Xarici Dillər İnstitutunun ingilis dili fakültəsinə daxil olmuşdur. Lakin ordu sıralarına çağırılmış, Krasnoyarsk vilayətinin Kans şəhərində hərbi xidməti borcunu yerinə yetirmişdir (1988-1989). Burada azərbaycanlılardan ibarət "Xətai" təşkilatı yaratmışdır. Tərxis ediləndən sonra institutda təhsillə yanaşı Azərbaycan xalq hərəkatına qoşulur və AXC-nin dayaq dəstəsi təşkilatçılarından





biri kimi fəal fəaliyyət göstərir (1989-1990). Şimali Azərbaycan Azad Tələbələr İttifaqının idarə heyətinin üzvü seçilir. Bədii yaradıcılığa erkən başlamışdır. İlk şeir və publisistik məqalələri "Daşkəsən" qəzeti səhifələrində çıxmışdır. "Qoşqar" ədəbi birliyinin fəal üzvü olmuşdur. Bakı ədəbi mühiti onun bədii yaradıcılığında ciddi dönüş yaradır. Şeirlər toplusu, pyesləri, hekayələri, ədəbi-publisist məqalələri, ingilis ədəbiyyatından tərcümələri vardır.

Sovet ordusunun 1990-cı ilin 19-20 yanvar gecəsi Bakıya təcavüzkar hücumu yüzlərlə günahsız insanın həyatına son qoydu. Ədəbi üfüqdə yenicə poetik ilhamla çağlayan, səməndər quşu kimi nur saçan gənc şair Vətən yolunda şəhid oldu.

Bakıda Şəhidlər Xiyabanında dəfn olunmuşdur. Almas xanım Bünyadova şairin zəngin şəxsi arxivindən iki kitab tərtib edib müqəddimə ilə nəşr etdirmişdir.

**Əsərləri:**

1. Ülvi duyğularım. Bakı, Gənclik, 1990, 78 səh., 20.000 nüs.
2. Bir ölümün acığına (şeirlər, poema, povest, hekayələr, tərcümələr, publisist məqalələr, məktublar). Bakı, Gənclik, 1993, 254 səh., 15.000 nüs.

## QANLI KƏNDİ

### SAŞA ƏLİYEV
*(1951)*

*Saşa Əli oğlu Əliyev-şair, publisist, Azərbaycan Yazıçılar Birliyinin üzvü (2007)*

1951-ci il noyabrın 5-də Qərbi Azərbaycanın Göyçə mahalının Qanlı kəndində [indiki Ermənistan Respublikasının Vardenis (keçmiş Basarkeçər) rayonu] anadan olmuşdur. Uşaq ikən valideynlərini itirmiş və dayısı Əli Cabbar oğlu Əliyevin himayəsində böyümüşdür.

Səkkizillik təhsilini 1958-1966-cı illərdə Torf səkkizillik məktəbində, orta təhsilini isə 1966-1968-ci illərdə Çaxırlı kənd orta məktəbində almışdır. Ali təhsilini isə 1971-1977-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indi Bakı Dövlət Universiteti) kitabxanaçılıq fakültəsinin qiyabi şöbəsində almışdır.

1972-1988-ci illərdə Şəfəq kəndində klub müdiri işləyib. Eyni zamanda 1978-1988-ci illərdə Şəfəq orta məktəbində tarix və erməni dili müəllimi olmuşdur. 1968-1988-ci illərdə «Vardenis» rayon qəzetində ştatdankənar müxbir kimi fəaliyyət göstərmişdir.

1988-ci ilin sonunda baş vermiş məlum siyasi hadisələr nəticəsində doğma kəndini tərk edərək Bakı şəhərində məskunlaşır. 1989-1990-cı ilin fevralına kimi Azərbaycan Statistika Komitəsində iqtisadçı, böyük iqtisadçı, 1990-cı ilin fevralından 1994-cü ilin may ayına kimi Azərbaycan Qaçqınlar Cəmiyyətinin ideologiya şöbəsində təlimatçı, baş təlimatçı vəzifələrində çalışmışdır.

Eyni zamanda 1992-1993-cü illərdə «Ulu Göyçə» qəzetin-





də müxbir işləyib, 1994-cü ilin may ayında isə «Ağrıdağ» Xeyriyyə Cəmiyyətinin katibi seçilib, «İki sahil», «Bakı axşamı», «Ədəbiyyat», «Yurddaş», «Millət», «Ana vətən», «Ağrıdağın sədası», «Təbib», «Ekspress», «Respublika», «Vedibasar», «Zəngəzurun səsi», «Bütöv Azərbaycan», «Xalq qəzeti» və s. qəzetlərdə publisist və milli-siyasi yazılarla çıxış edib.

1996-cı ilin mayından Azərbaycan Tibb Universitetinin Əsaslı Kitabxanasında direktorun elmi işlər üzrə müavini vəzifəsində işləyir. 1998-ci ildə «Azərbaycanda kitabxana işi haqqında» qanunun hazırlanmasında və 2002-ci ildə İrəvanda Beynəlxalq Kitabxana Cəmiyyətinin (İFLA) xətti ilə «Müasir dövrdə ali məktəb kitabxanalarının vəziyyəti» adlı seminarda iştirak edib. Yeni Azərbaycan Partiyasının üzvüdür.

Ailəlidir, üç övladı var. Qızı Şəlalə ailəlidir. Oğlanları Səyavuş və Sərxan ali təhsillidirlər.

**Əsərləri:**

1.Dünyamızdan nigaranam. Bakı,2002.

2.Bir elin dayağı (publisistik-bioqrfik).Bakı,2005.

## NƏRİMANLI KƏNDİ

### AŞIQ BƏHMƏN GÖYÇƏLİ
*(1901-1976)*

*Bəhman İbrahim oğlu Qarayev – aşıq-şair*

1901-ci il mayın 1-də Qərbi Azərbaycanın Göyçə mahalının Nərimanlı kəndində [indiki Ermənistan Respublikasının Vardenis (keçmiş Basarkeçər) rayonu] anadan olmuşdur. Təhsilini mollaxanada, sonralar isə savadsızlığı ləğv etmə kurslarında almışdır. Doğma kəndində sovet sədri, kolxozda briqadir, sıravi kolxozçu olmuşdur. Gənclik dövründən el arasında aşıq-şair kimi tanınmış, toy-düyünlərə dəvət olunmuşdur. Gəraylı, qoşma, müxəmməs, qəzəl, divani, dodaqdəyməz, cığalı təcnis və digər janrlarda yaratdığı şeirləri dillər əzbəri olmuşdur. "Kirpi", "Sovet Ermənistanı", "Azərbaycan gəncləri" və s. dövri mətbuat səhifələrində qoşmaları çap edilmişdir. 72 aşıq havası və bir çox dastan yaratsa da, zəngin irsi dərindən öyrənilməmişdir. "Vətən, küsmə məndən" (1994) kitabında lirik şeirləri, divaniləri, deyişmə və bağlamaları ilə yanaşı iki dastanı – "Əfqan və Tufan", "Bəhmən və Humay" ilk dəfə nəşr olunmuşdur. 1996-cı ildə Bakıda anadan olmasının 95 illiyi qeyd edilmişdir.

1976-cı il noyabrın 13-də vəfat etmiş, Nərimanlı kənd qəbiristanlığında dəfn olunmuşdur.





### AŞIQ İSLAM
*(1893-1968)*

*İslam Qara oğlu Yusifov – şair-aşıq, Əməkdar İncəsənət xadimi (1940), Azərbaycan Yazıçılar Birliyinin üzvü (1954)*

1893-cü il martın 15-də Qərbi Azərbaycanın Göyçə mahalının Nərimanlı kəndində [indiki Ermənistan Respublikasının Vardenis (keçmiş Basarkeçər) rayonu] yoxsul əkinçi ailəsində doğulmuşdur.

Kiçik yaşlarından çalıb-çağırmağa həvəsi olmuş, bədahətən şeirlər demişdir. Odur ki, 1905-ci ildən Aşıq Mikayılın, Aşıq Mehralının, sonra Şəmkirli Aşıq Hüseynin oğlu Aşıq Çobanın yanında şagirdlik etmişdir.

1915-ci ildən müstəqil aşıqlıq etmişdir. 1934-cü ildə Tbilisidə Zaqafqaziya aşıqlarının olimpiadasında müvəffəqiyyətlə çıxış etmişdir. 1936-cı ildə Azərbaycan ədəbiyyat və incəsənət xadimləri ilə Moskvada olmuş, zəhmətkeşlər qarşısında fəal çıxışlarına görə pul mükafatı və hədiyyə almışdır. Bakıda I Aşıqlar qurultayında iştirak etmiş, Moskvada Azərbaycan incəsənəti ongünlüyündə çıxışına görə ona qol saatı hədiyyə verilmişdir (1938).

Ümumittifaq kənd təsərrüfatı sərgisinin açılışında konsertinə görə iki min manat pul mükafatı almışdır. 1937-ci ildə Gəncədə təşkil etdiyi aşıqlar ansamblı (25 nəfərdən ibarət) onun "Yaşa, yaşa, Azərbaycan", "Qəmərcan", "25 bahar" mahnı-repertuarı ilə zəhmətkeşlər qarşısında çıxış etmişdir. Gəncə şəhər filarmoniyasında işlədiyi dövrdə "Kommunist", "Ədəbiyyat və incəsənət", "Azərbaycan gəncləri" qəzetlərində vaxtaşırı şeirlərini dərc etdirmişdir (1938-1949).

1968-ci il dekabrın 7-də Gəncə şəhərində vəfat etmişdir.

## XƏSTƏ BAYRAMƏLİ
*(1898-1952)*

*Bayraməli Abbasəli oğlu Xudiyev - şair*

1898-ci il iyulun 10-da Qərbi Azərbaycanın Göyçə mahalının Nərimanlı kəndində [indiki Ermənistan Respublikasının Vardenis (keçmiş Basarkeçər) rayonu] anadan olmuşdur. Yeddi yaşında ikən atasını itirdiyindən nökərçilik etmiş, qoyun-quzu otarmışdır. Erkən yazıb-yaratmağa meyl etmiş, hazırcavablığı və lirik qoşmaları ilə hamıda rəğbət oyatmışdır. Şifahi xalq ədəbiyyatının, xüsusən klassik Azərbaycan poeziyasının kamil bilicisi olmuşdur. Məktəb üzü görməsə də, yazıb-oxumağı mükəmməl öyrənmişdir. 30-40-cı illərdə Basarkeçərdə məsul vəzifələrdə çalışmışdır. Bu vaxtlar qəzet və jurnallarda, İkinci Dünya müharibəsinin (1939-1945) tərkib hissəsi olan Almaniya-SSRİ müharibəsi zamanı (1941-1945) Şimali Qafqaz uğrunda döyüşlərdə iştirak etmiş, ağır döyüş yolu keçmişdir. Ordudan tərxis olunandan sonra doğma kəndinə qayıtmış, ömrünün sonunadək burada yaşamışdır. Onun lirik şeirləri dövri mətbuatda çap edilmiş, qoşmaları el aşıqları tərəfindən məclislərdə oxunmuşdur. Zəngin poetik irs yaratmışdır. Qəzəl, qoşma və poemaları almanaxlarda, məcmuələrdə çap olunsa da, bütövlükdə toplanıb tədqiq edilməmişdir. Onun 20.000 misraya yaxın şeiri öz tədqiqatçısını gözləməkdədir.

**Əsərləri:**

1. Mənim Göyçəm.Bakı, Yazıçı, 1987,150 səh., 14.000 nüs.





## QƏDİR ASLAN
*(1944)*

*Qədir Təyyar oğlu Aslanov - publisist, nasir, Azərbaycan Jurnalistlər Birliyinin üzvü (1991), "Qızıl qələm" mükafatı laureatı (1995)*

1944-cü il mayın 18-də Qərbi Azərbaycanın Göyçə mahalının Nərimanlı kəndində [indiki Ermənistan Respublikasının Vardenis (keçmiş Basarkeçər) rayonu] anadan olmuşdur. Burada kənd orta məktəbini bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsində ali təhsil almışdır (1965-1971). Əmək fəaliyyətinə "Vardenis" rayon qəzetində ədəbi işçi kimi başlamışdır. Sonra şöbə müdiri və məsul katib işləmişdir. İlk qələm təcrübələri "Vardenis"də vaxtaşırı çıxmışdır. "Sovet Ermənistanı" qəzetində oçerk, feilyeton, hekayə və reportaj çap etdirmişdir. XX əsrin 80-ci illərinin axırlarında erməni daşnaklarının hücumlarına məruz qalan el-obası ilə Azərbaycana pənah gətirmiş, ailəliklə Bakıda məskunlaşmışdır. Burada "İşıq" nəşriyyatında redaktor işləmişdir (1989-2000). Hazırda "Respublika" qəzeti redaksiyasında "Azərbaycan diasporu" şöbəsinə rəhbərlik edir. Respublika və xarici mətbuatda müxtəlif mövzularda məqalələri çıxır. "Goranboy qartalları" kitabında yeddi nəfər milli qəhrəman haqqında silsilə oçerk vermişdir. Buna görə Azərbaycan Mətbuat Fondunun Fəxri fərmanına layiq görülmüşdür.

**Əsərləri:**

1. Goranboy qartalları. Bakı, "İşıq", 1994, 140 səh., 200 nüs.
2. Göyçə şəhidləri. Bakı, "İşıq", 1997, 330 səh., 2000 nüs.
3. Borçalının qəhrəman oğlu. Bakı, "İşıq", 1998, 48 səh., 1000 nüs.

4. Səbailin şahin oğulları (I hissə). Bakı, "Ağrıdağ", 124 səh., 200 nüs.
5. XX əsrin Koroğlusu. Bakı, "Avropa", 2003, 72 səh., 500 nüs.

## MAHİR BAYRAM
*(1959)*

*Mahir Fərman oğlu Bayramov - şair, nasir, 1998-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü*

1959-cu il dekabrın 20-də Qərbi Azərbaycanın Göyçə mahalının Nəriman kəndində [indiki Ermənistan Respublikasının Vardenis (keçmiş Basarkeçər) rayonu] anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyatı fakültəsində təhsil almışdır (1977-1981).

Əmək fəaliyyətinə təyinatla göndərildiyi Kəlbəcər rayonunun Hopurlu kəndində müəllim kimi başlamışdır (1981-1984). Ordu sıralarında hərbi xidməti borcunu yerinə yetirmişdir (1984-1986).

Basarkeçərdə "Vardanis" rayon qəzeti redaksiyasında müxbir (1986-1987), Azərbaycanda Abşeiron rayonunun Xırdalan qəsəbəsində Xırdalan ritual sexində rəssam (1987-1989), "Zaman" kooperativində sazlayıcı (1980-1992), Bakıda Ali Humanitar Kollecində laborant, baş laborant (1992-1993) işləmişdir. Nəsirəddin Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetin fəlsəfə tarixi kafedrasının aspiranturasına daxil olmuşdur (1993).

Hazırda Bakı Dövlət Universitetində işləyir. Bədii yaradıcılığa 90-cı illərdən başlamışdır. İlk qələm tərcübələri rayon qəzetində dərc olunmuşdur. "Məhv edilmiş vüqar" (1995) kitabı nəşr edilmişdir.





## MAŞALLAH XUDUBƏYLİ
*(1952)*

***Maşallah Bayraməli oğlu Xudiyev-nasir, publisist, folklorşünas, Azərbaycan Yazıçılar Birliyinin üzvü (2003)***

1952-ci il fevralın 21-də Qərbi Azərbaycanın Göyçə mahalının Nərimanlı kəndində [indiki Ermənistan Respublikasının Vardenis (keçmiş Basarkeçər) rayonu] anadan olmuşdur. Burada kənd ibtidai məktəbinə getsə də, orta məktəbi Gəncədə 32 saylı orta məktəbdə bitirmişdir. Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsində təhsil almışdır (1970-1975). Əmək fəaliyyətinə "Yazıçı" nəşriyyatında əmtəəşünas kimi başlamışdır (1978-1982). "Azərkitab" Birliyində baş ekspert (1983-1988), Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində kiçik redaktor, redaktor olmuşdur (1988-1991). Hazırda orada baş proqram direktorunun müavinidir (1991-ci ildən). Bədii yaradıcılığa tələbəlik illərindən başlamışdır. İlk qələm təcrübələri "Jurnalist", "Kirovabad kommunisti", "Azərbaycan gəncləri" qəzetlərində çıxmışdır (1971-1973). Dövri mətbuatda və mavi ekranda elmi-publisistik məqalə, hekayə və reportajları verilmişdir. XIV əsrin aşıq-şairi İbrahim haqqında ilk elmi araşdırmaları vardır. Zəngin elmi-publisistik yazılarının bir qismi "Mənim sazlı-sözlü dünyam" (1999) kitabında toplanmışdır.

## MÖHSÜM QƏDİROĞLU
*(1970)*

*Möhsüm Qədir oğlu Aslanov - şair, publisist, Azərbaycan Jurnalistlər Birliyinin üzvü (1997), "Qızıl qələm" mükafatı*

*laureatı (2003), "İlin jurnalisti" (2003)*

1970-ci il aprelin 20-də Qərbi Azərbaycanın Göyçə mahalının Nərimanlı kəndində [indiki Ermənistan Respublikasının Vardenis (keçmiş Basarkeçər) rayonu] anadan olmuşdur. Burada kənd orta məktəbini bitirdikdən sonra hərbi xidməti borcunu yerinə yetirmişdir (1988-1990).

Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsində ali təhsil almışdır (1991-1996). Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətində Xəbərlər şöbəsində redaktor işləmişdir (1994-2002).

Hazırda həmin şirkətin Ukrayna və Şərqi Avropa ölkələri üzrə xüsusi müxbiridir (2004-cü ildən). Eyni zamanda Kiyevdə Azərbaycan, ukrayna və rus dillərində nəşr olunan "Azərbaycanın səsi" qəzetinin baş redaktorudur (2003-cü ildən). Ədəbi fəaliyyətə orta məktəbdə ikən başlamışdır. İlk qələm təcrübələri Basarkeçər rayon qəzeti "Vardenis"də dərc edilmişdir. Sonra dövri mətbuatda vaxtaşırı şeir, oçerk və publisistik yazılarını çap etdirmişdir. Azərbaycan Dövlət Televiziyasında Azərbaycan Prezidenti Heydər Əliyevə həsr edilmiş "Heydər Əliyev - iki əsrin fenomeni" filminin ssenari müəllifidir. Bir neçə telefilmlərin redaktoru olmuşdur.





**ŞİŞQAYA KƏNDİ**

## ADİL ŞİŞQAYALI
*(1932-2006)*

*Adil Abbas oğlu İbrahimov –*
*şair, müəllim*

1932-ci ildə Qərbi Azərbaycanın Göyçə mahalının Şişqaya kəndində [indiki Ermənistan Respublikasının Vardenis (keçmiş Basarkeçər) rayonu] anadan olub. Orta təhsilini doğma kəndində, ali təhsilini isə Bakıda 1950-1954-cü illərdə Azərbaycan Dövlət Xarici Dillər İnstitutunun alman dili fakültəsində alıb. Sonra 1988-ci ilin sonuna, yəni ermənilər (haylar) tərəfindən zorla doğma yurdundan qovulana kimi Şişqaya orta məktəbində alman dili müəllimi işləyib. Bir müddət Azərbaycan Respublikasının Şəmkir (keçmiş Şamxor) rayonunun Dağcəyir kəndində yaşamışdır.

2006-cı ildə Bakı şəhərində vəfat etmişdir.

**Əsərləri:**

1. Göyçə həsrəti. Bakı, 2001, 2007.

## QARA MƏRİŞ
*(1944)*

*Məhərrəm Abbas oğlu İbrahimov – şair, müəllim*

1944-cü ildə Qərbi Azərbaycanın Göyçə mahalının Şişqaya kəndində [indiki Ermənistan Respublikasının Vardenis (keçmiş Basarkeçər) rayonu] anadan olub. Orta təhsilini doğma kəndində, ali təhsilini isə Bakıda Azərbaycan Dövlət İncəsənət İnstitutunda alıb. 1988-ci ilin sonlarına kimi doğma kəndində müəllim işləyib.

Ermənilər (haylar) bütün qərbi azərbaycanlıları tarixi vətənlərindən zorla qovan zaman şişqayalılar da Azərbaycana köçməyə məcbur olurlar. Bu zaman Məhərrəm Abbas oğlu Şəmkir (keçmiş Şamxor) rayonunun Dağcəyir kəndində məskunlaşır və dövlət qulluğunda çalışır.

Onun «Göyçəsiz qocaltdı bu illər məni», «Bu dünya gidi dünyadır» və «Ömrümün baharı Göyçədə qaldı» adlı şeir kitabları nəşr olunmuşdur.







## AŞIQ ORUC
**(1920-1976)**

*Oruc Vəli oğlu Əhmədov – aşıq-şair, Azərbaycanın Əməkdar mədəniyyət işçisi (1961)*

1920-ci il martın 19-da Qərbi Azərbaycanın Göyçə mahalının Yarpızlı kəndində [indiki Ermənistan Respublikasının Vardenis (keçmiş Basarkeçər) rayonu] Aşıq Vəlinin ailəsində anadan olmuşdur. Atasını erkən itirdiyindən kiçik yaşlarından qoyun-quzu otarmaqla güzəran keçirmişdir. Bununla belə kənd ibtidai məktəbini bitirmişdir. Şeirə, sənətə irsən coşğun həvəs onun ustadı - Aşıq Ələsgər məktəbinin yetirməsi Aşıq Alının oğlu Aşıq İbrahimlə tanışlığına səbəb olmuşdur. Göyçənin adlı-sanlı sənətkarlarından olan - Aşıq Talıb, Aşıq Əsəd, şair Bəhmən, cilli Aşıq Müseyib, Aşıq Yunusdan da dərs almışdır.

1938-ci ildən müstəqil aşıqlığa başlamışdır. İkinci Dünya müharibəsinin (1939-1945) tərkib hissəsi olan Almaniya-SSRİ müharibəsinin (1941-1945) iştirakçısıdır. 1948-1953-cü illərdə türklərin (azərbaycanlıların) Qərbi Azərbaycandan deportasiyası zamanı Gədəbəy rayonunun Zəhmət kəndinə köçərək orada məskunlaşmışdır. Burada aşıqlar ansamblı yaratmış, 20 il ona rəhbərlik etmişdir (1953-1973). Dövri mətbuatda – "Ədəbiyyat və incəsənət", "Kommunist", "Sovet kəndi" və s. qəzetlərdə onun gözəlləmələri, gəraylıları, təcnis və qoşmaları dərc olunmuşdur.

Azərbaycan radiosu və televiziyasında vaxtaşırı çıxışları olmuşdur. Onun çıxışlarından lent yazıları radionun qızıl fondunda saxlanır. Xidmətlərinə görə fəxri fərmanlara, tərifnamə və medallara layiq görülmüşdür.

1976-cı il iyulun 19-da Gədəbəy rayonunun Zəhmət kəndində vəfat etmişdir.

## YUXARI SORCA KƏNDİ

### ƏLİ VƏKİL
### (1938)

*Əli Vəkil oğlu Səfiyev - şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü (1972), Azərbaycan Jurnalistlər Birliyinin üzvü (1968)*

1938-ci il iyunun 10-da Qərbi Azərbaycanın Göyçə mahalının Yuxarı Şorca kəndində [indiki Ermənistan Respublikasının Vardenis (keçmiş Basarkeçər) rayonu] kolxozçu ailəsində anadan olmuşdur. Orada Şişqaya kənd orta məktəbini bitirib, İrəvanda Ermənistan Dövlət Pedaqoji İnstitutunun fizika-riyaziyyat fakültəsinin Azərbaycan şöbəsində təhsil almışdır (1955-1960). Əmək fəaliyyətinə Ermənistan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin Azərbaycan dilində verilişlər redaksiyasında diktor-redaktor kimi başlamışdır (1960-1972). Həmin dövrdən bədii yaradıcılığı davam etdirir. Eyni zamanda tərcümə ilə də məşğul olur. L.Adyanla birlikdə Bəxtiyar Vahabzadənin "Vicdanın səsi" pyesini, S.Xocayanla birlikdə Bayram Həsənovun "Ayaz" povestini erməni dilinə çevirmişdir. Onun erməni ədəbiyyatından doğma dilə tərcümələri də vardır. İllik "Ədəbi İrəvan" almanaxının tərtib edəni və redaktorudur (2004-cü ildən). "Ana... Ana!.." almanaxında (2006) 29 şeiri və poeması dərc olunmuşdur. M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun teatrşünaslıq fakültəsini qiyabi bitirmişdir (1970). Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin Xəbərlər Baş redaksiyasında redaktor (1972-1975), M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunda laborant (1975-1977), Yazıçılar İttifaqının ermənicə çap olunan





"Qrakan Adrbecan" ("Ədəbi Azərbaycan") jurnalı redaksiyasının şöbə müdiri (1977-1988), sonra məsul katibi (1988-1990) olmuşdur. Azərnəşrdə "Göy qurşağı" redaksiyasının müdiri vəzifəsində çalışmışdır (1990-1999).Təqaüdə çıxmışdır.

**Əsərləri:**

1. Sona bulağı. Yerevan, Haypethrat, 1963, 44 səh., 2.000 nüs.
2. Zəfər çələngi. Yerevan, Hayastan, 1967, 80 səh., 5.000 nüs.
3. İki günəş. Yerevan, Hayastan, 1971, 64 səh., 1.000 nüs.
4. Əli Şahsabahlı. Yerevan, Hayastan, 1973, 84 səh., 1.000 nüs.
5. Ata həsrəti. Bakı, Gənclik, 1979, 36 səh., 4.000 nüs.
6. Göyərçinlər. Bakı, Gənclik, 1983, 64 səh., 7.000 nüs,
7. Azərbaycan-erməni teatr əlaqələri. Bakı, İşıq, 1983, 72 səh., 2.000 nüs.
8. Yeddi dağ (şeirlər və poemalar). Bakı, Yazıçı, 1984, 104 səh., 5.000 nüs.
9. Tovuz "Qələbə sovxozu". Bakı, İşıq, 1985, 52 səh., 5.000 nüs.
10. Şəlalə (şeirlər və poemalar). Bakı, Gənclik, 1988, 143 səh., 6.000 nüs.
11. Ana qayğısı. Bakı, Yazıçı, 1991, 200 səh., 4.500 nüs.
12. Ellərin İsgəndəri. Bakı, "Azərbaycan Ensiklopediyası" NPB, 2003, 190 səh., 250 nüs.
13. Əbədi dünya (poema). Bakı, Nurlan, 2004, 152 səh., 300 nüs.
14. Qoşmalar. Bakı, Nurlan, 2004, 448 səh., 500 nüs.
15. Ömür karvanı. Bakı, Nurlan, 2004, 164 səh., 300 nüs.
16. Kişi ömrü. Bakı, Nurlan, 2004, 188 səh., 400 nüs.
17. Fərida-İlham dastanı. Bakı, Nurlan, 2004, 160 səh., 500 nüs.

18. Cərrah Vaqif möcüzəsi. Bakı, Nurlan, 2003, 176 səh., 300 nüs.
19. Dönük taleyin əzablı yolları. Bakı, Nurlan, 2005, 252 səh., 300 nüs.
20. Əbədi qəhrəmanlıq. Bakı, Nurlan, 2005, 88 səh., 500 nüs.
21. Aqillər, ariflər, ali cənablar. Bakı, Nurlan, 2007, 304 səh., 300 nüs.
22. Narahat ürək. Bakı, Nurlan, 2008, 228 səh., 500 nüs.
23. Bir çinarın budaqları. Bakı, Nurlan, 2008, 200 səh, 250 nüs.
24. Bəyaz, Ayan, Süreyya-Aydının gül nəvələri. Bakı, Nurlan, 2006, 56 səh., 200 nüs.
25. Dövlətdə dəvə, övladda nəvə. Bakı, Nurlan, 2008, 64 səh., 200 nüs.

**Tərcümələri:**
**(ermənicədən)**

1. V.Petrosyan. Yaşadığımız və yaşamadığımız illər. Bakı, Yazıçı, 1980, 240 səh., 10.000 nüs.
2. O.Panikyan. Şadlıq üzüyü. Bakı, Gənclik, 1981, 74 səh., 10.000 nüs.
3. L.Adyan. Dağ adamı. Bakı, Gənclik, 1981, 116 səh., 10.000 nüs.
4. L.Adyan. Dərədəki ev. Bakı, Gənclik, 1985, 200 səh., 10.000 nüs.





## ZƏRKƏND KƏNDİ

### AŞIQ İDRİS
*(1894-1944)*

*İdris Şirin oğlu Məhərrəmov – aşıq-şair*

1894-cü ilin baharında Qərbi Azərbaycanın Göyçə mahalının Zərkənd kəndində [indiki Ermənistan Respublikasının Vardenis (keçmiş Basarkeçər) rayonu] el sənətkarı Aşıq Şirinin ailəsində anadan olmuşdur. Kiçik yaşlarından aşıqlıq sənətinin sirlərini atasından öyrənmişdir. Otuz il məclislərdə məlahətli, şaqraq səsi ilə, saz havaları çalmaq məharəti ilə hamını heyran etmişdir. Sovet hakimiyyəti illərində Basarkeçərdə yaranan Aşıqlar cəmiyyətinə sədr seçilmişdir (1938-1941). İkinci Dünya müharibəsinin (1939-1945) tərkib hissəsi olan Almaniya-SSRİ müharibəsinə (1941-1945) orduya könüllü gedib ön cəbhədə döyüşmüş, itkin düşmüşdür. Ədəbi irsi araşdırılmamışdır.

## AŞIQ ŞİRİN
*(1847-1937)*

*Şirin Məhərrəm oğlu İsmayılov- aşıq-şair*

1847-ci il mayın 24-də Qərbi Azərbaycanın Göyçə mahalının Zərkənd kəndində [indiki Ermənistan Respublikasının Vardenis (keçmiş Basarkeçər) rayonu] anadan olmuşdur. İbtidai təhsilini mollaxanada almışdır.

Kiçik yaşlarından şeirə, sənətə böyük maraq göstərmişdir. Sinədəftər olmuşdur: çoxlu dastan, şeir və nağıllar bilməsi ilə seçilmişdir. Sonra el məclislərində otuz il çalıb çağırmışdır. İyirmi beşdən artıq dastan və nağıl yaratmışdır.

1937-ci ildə 90 yaşında Göyçənin Zərkənd kəndində dünyasını dəyişmişdir.

## ZOD KƏNDİ

## AYDIN MUROVDAĞ
*(1953)*

*Aydın Bəndalı oğlu Hacıyev - şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü (1992)*

1953-cü il mayın 22-də Qərbi Azərbaycanın Göyçə mahalının Zod kəndində [indiki Ermənistan Respublikasının Vardenis (keçmiş Basarkeçər) rayonu] anadan olmuşdur. Daşkəsən rayonunun Qazaxyolçular kənd orta məktəbini bitirmişdir. Ordu sıralarında xidmət etmişdir (1972-1974). Ordudan tərxis olunduqdan sonra H.Zərdabi adına Kirovabad Dövlət Pedaqoji





İnstitutunun dil-ədəbiyyat fakültəsində ali təhsil almışdır (1975-1979). Əmək fəaliyyətinə təyinatla göndərildiyi Lerik rayonunun Bilabənd kənd orta məktəbində müəllim kimi başlamışdır (1979-1982). Sonra Xanlar rayonunun Mirzik, Mixaylovka və Çaykənd kənd orta məktəblərində müəllim (1983-1986), Xanlar rayon Xalq Təhsili Şöbəsində (RXTŞ) metodist (1986-1987), RXTŞ-də inspektor (1987-1991), Xanlar rayon İcra Hakimiyyətində şöbə müdiri (1991-1994), Xanlar rayonunun Quşqora kənd nümayəndəsi (1994-1995) olmuşdur. Gəncə Dövlət Dram Teatrında ədəbi hissə müdiri (1998-2003), Gəncə Poeziya Teatrında ədəbi hissə müdiri (2003-2008) olmuşdur. Gəncə şəhərində keçirilən bərpa konfransında "Divani-Hikmət" ədəbi məclisinin sədri seçilmişdir (2000). Eyni zamanda "Qanun və səlahiyyət" qəzetinin baş redaktorudur. Hazırda fərdi yaradıcılıqla məşğuldur. Ədəbi fəaliyyətə 80-ci illərdən başlamışdır. "Sevgi ver içim" adlı ilk mətbu şeiri 1977-ci ildə Qax rayon qəzeti "Şəlalə"də çıxmışdır. "Türkün alın yazısı" səhnə əsəri Gəncə Dram Poeziya Teatrında səhnələşdirilib tamaşaya qoyulmuşdur. "Şeyx Şamil" tarixi mənzum pyesi Gəncə Dövlət Dram Teatrının repertuarına daxil edilmişdir. Şeirləri almanaxlarda, qəzet və jurnallarda dərc olunmuşdur. "Kəpəz bulağı" ədəbi birliyinin rəhbəridir. İlk şeirlər toplusu "Qızıl güllər tonqalı" adı ilə nəşr olunmuşdur.

**Əsərləri:**

1. Qızıl güllər tonqalı. Bakı, Yazıçı, 1989, 69 səh., 3000 nüs.
2. Dirilən ağrılar. Bakı, Şur, 1994, 55 səh., 2000 nüs.
3. Qapısız dünya (I kitab). Bakı, Şirvannəşr, 1996, 79 səh., 1000 nüs.
4. Qapısız dünya (II kitab). Bakı, Şirvannəşr, 1996, 72 səh., 2000 nüs.
5. Gəncənin ziyalı qadınları. Bakı, Şirvannəşr, 2000, 251 səh., 1000 nüs.
6. Gəncənin yaradıcı və fəal qadınları. Bakı, 2001. 142 s.

7. Salam 40 yaşlı məktəb. Bakı, 2002, 118 səh.
8. Əsl insanlıq ömrü. Bakı, 2001, 109 səh.
9. Həmişəyaşıl meyar. Bakı, 2003, 92 səh.

## BÖYÜKKİŞİ MİRZƏZADƏ (Təmkin)
*(1925-2014)*

*Böyükkişi Abbas oğlu*
*Mirzəzadə – şair*

1925-ci il avqustun 25-də Qərbi Azərbaycanın Göyçə mahalının Zod kəndində [indiki Ermənistan Respublikasının Vardenis (keçmiş Basarkeçər) rayonu] anadan olub.

1941-ci ildə doğma kəndində orta məktəbi əla qiymətlərlə bitirib və həmin məktəbdə müəllim saxlanılıb. 1942-ci ildə ailəsi əsil-nəcabətlərinə görə siyasi təqiblərdən xilas olmaq üçün Gəncə mahalının əvvəl Zazalı, sonra Seyidlər kəndində məskunlaşır.

1945-ci ildə atası vəfat edir və ailənin bütün yükü onun üzərinə düşdüyündən 1948-ci ildə Mingəçevir şəhərinə köçür və təqaüdə çıxana kimi bir çox müəssisələrdə mühəndis vəzifəsində çalışır. Qiyabi ali texniki təhsil alıb. 2014-cü il mayın 18-də vəfat edib.

**Əsərləri:**

1. Ustadnamə, nəsihətnamə və lirik şeirlər. Bakı. "Səda", 1998, 150 səh.
2. Poemalar və hekayələr. Mingəçevir, 2000, 130 səh.
3. Səhnə əsərləri. Mingəçevir, 2002, 219 səh.
4. Seçilmiş əsərləri. Şeirlər. II cild. Bakı, "Azərbaycan", 2011, 320 səh.





## QƏRBİ AZƏRBAYCANIN GÖYÇƏ MAHALININ KAMO (KEÇMİŞ KƏVƏR, NOVO BAYAZİD, NOR BAYAZİD) RAYONU




Ermənistan SSR-də (1920-1991) inzibati rayon, 1930-cu il sentyabrın 9-da yaradılıb. 1837-ci ilə kimi Kəvər, 1837-1930-cu illərdə Novo Bayazid, 1930-1959-cu illərdə Nor Bayazet, 1959-1991-ci illərdə Kamo adlandırılıb.

1991-ci ildə adı dəyişdirilib **Qavar** qoyulmuşdur. Respublikanın şimalında Göyçə gölünün sahilində yerləşir. Rayon Abovyan (keçmiş Ellər, Kotayk), Hrazdan (keçmiş Axta), Sevan (keçmiş Yelenovka) və Martuni (keçmiş Aşağı Qaranlıq) rayonları ilə həmsərhəddir. Ərazisi 637 km$^2$, əhalisi 1978-ci il məlumatına görə 26704 nəfər olub. Mərkəzi Kamo şəhəridir (1837-ci ilə kimi Kəvər, 1837-1930-cu illərdə Novo Bayazet, 1930-1959-cu illərdə Nor Bayazet, 1959-1991-ci illərdə Kamo, 1991-ci ildən Qavar).

Rayon mərkəzindən İrəvan şəhərinə olan məsafə 98 km-dir. Rayonun ərazisi qədimdə Sunik əyalətinin şimal-qərb hissəsinə daxil olmuş, sonra ərəblərin, səlcuqluların, moğol-tatarların, səfəvilərin, əfşarların, qacarların, İrəvan xanlığının hakimiyyəti altında olmuşdur.

1828-ci ildən 1917-ci ilin fevralına kimi Çar Rusiyasının (1837-ci ildə Kəvərin adı dəyişdirilib Novo Bayazet qoyulmuşdur), 1917-1918-ci illərdə Cənubi Qafqaz Seyminin, 1918-1920-ci illərdə Ermənistan Respublikasının (Daşnak Ermənistanı) və 1920-ci il noyabrın 29-dan isə yeni qurulmuş Ermənistan SSR-nin tərkibinə daxil edilmişdir.

Çar Rusiyası dövründə İrəvan quberniyasının (1849) Novo Bayazet qəzasına, Ermənistan SSR-də isə 1920-1930-cu illərdə Nor Bayazet qəzasına, 1930-cu il sentyabrın 9-dan isə yeni yaradılmış Nor Bayazet (1959-cu ildən Kamo) rayonuna daxil idi.

Rayonun ərazisində tarixən həmişə türklər (azərbaycanlılar) yaşamışdır. Bir çox mənbələr burada ermənilərin də yaşadığını qeyd edirlər. Ancaq ermənilər buraya Rusiyanın Cənubi Qafqazı, xüsusilə də İrəvan xanlığını işğal etdikdən sonra Osmanlı imperatorluğundan və Qacar imperatorluğundan (İran) ermənilər (haylar) köçürülmüşdülər. Bu tarixə qədər rayonun ərazisində yaşayan xristianlar erməni (hay) deyil, xristian albanlar (türklər) olmuşdular. Yeni köçürülən ermənilərin (haylar) sayı çoxaldıqca yerli xristian əhalisi də onların içərilərində əriyərək





erməniləşmişdilər. Çar hökumətinin qəza mərkəzində və böyük kəndlərdə açdğı rus-erməni (hay) məktəblərində də təhsil gəlmə xristianların (ermənilər) dilində olduğundan yerli xristian əhalinin övladları da bu dildə təhsil almağa məəbur olurdular. Artıq XX əsrin əvvəllərində yerli, xristian əhali erməniləşdirilmişdi.

1897-ci il siyahıyaalınmanın nəticələrinə görə rayonun ərazisində olan 18 kənddən 14-də sırf türklər (azərbaycanlı), 4-də isə ermənilər (haylar) yaşamışdır. 5 kənddə isə həm türk, həm də erməni (hay) bir yerdə yaşamışdır.

Sonrakı illərdə, yəni 1905-ci ildə baş vermiş erməni (hay)-türk (azərbaycanlı) münaqişəsi zamanı ermənilər (haylar) bir çox türk kəndlərini dağıdıb əhalisinin bir hissəsini öldürmüşdülər.

Ermənilərin türklərə qarşı soyqırımı hərəkatı 1918-1920-ci illərdə, yəni Ermənistan Respublikasının mövcud olduğu dövrdə (bu zaman daşnaklar hakimiyyəti ələ keçirmişdilər) (1918-1920) rayonun türklər yaşayan kəndləri tamamilə dağıdılmış, əhalisinin əksəriyyəti qırılmış və sağ qalanlar isə qaçaraq təhlükəsiz yerlərə sığınmışdılar. 1920-ci il noyabrın 29-da Daşnak Ermənistanında (1918-1920) sovet hakimiyyəti qurulduqdan sonra, yəni 1922-ci ildən qaçqınlar yenidən doğma yerlərinə qayıdaraq dağılmış evlərini və təsərrüfatlarını bərpa etməyə başladılar. Artıq bu türk kəndlərinin çoxunda boşalmış evlərə Türkiyədən gəlmiş ermənilər (haylar) yerləşdirilmişdilər. Elə o dövrdən də bu kəndlər qarışıq kəndlər oldu. Yəni türklərlə ermənilər 1948-1953 və 1988-ci ilə kimi bir yerdə yaşamalı oldular.

1918-1928-ci illərdə Abbas gölü (Güllücə), Dəliqardaş (Soruxan), Əyrivəng (Əyrivan), Əfəndi, Rəhman kəndi (Noraşen), Kərimkənd (Zaxqaşen), Kosaməmməd (Badikyan), Hüseynbəyli kəndləri, 1948-1949-cu illərdə isə Ağzıbar (Əbikənd, Lçap), Başkənd (Göyçəli, Geğarkunik), Hacı Muğan (Muğan), 1988-ci ildə isə Ağqala və rayon mərkəzi olan Kamo( Novo Bayazet), şəhər tipli qəsəbədə yaşayan türklər (azərbaycanlılar) öz

doğma yurdlarından qovuldular və rayonun ərazisi tamamilə erməniləşdirildi. Rayonun ərazisində olan türk (azərbaycanlı) kəndlərində yaşayan türklərin (azərbaycanlıların) bir hissəsi isə hələ XIX əsrdə ermənilər tərəfindən sıxışdırılıb qovulmuşdu.

1970-ci il məlumatına görə rayon ərazisində 1 respublika tabeli şəhər (**Kamo**-1837-1920-ci illərdə Novo Bayazet, 1920-1959-cu illərdə Nor Bayazet, 1959-1991-ci illərdə Kamo, 1991-ci ildən Qavar adlanıb. **Kəvər** xəzərlərin bir qolu olan **«Kəbər»** etnonimi əsasında yaranmışdır. 1938-ci ildən respublika tabeli şəhərdir. Burada yüngül və yeyinti sənayesi, cihazqayırma və kabel zavodları; Sənaye texnikumu, dram teatr və ölkəşünaslıq muzeyi var. Bu dövrdə 20 min əhalisi olub), 9 kənd sovetliyi [1. Ayrivan (Əyrivəng); 2. Batıkyan (Kosaməmməd); 3. Tsovazard (Hacı Muğan, Muğan); 4. Geğarkunik (Başkənd); 5. Qarmirgyuğ (Qulalı); 6. Lancağpyur (Küzəcik); 7. Lçap (Ağzıbir); 8. Noradüz; 9. Saruxan (Dəliqardaş)] və 11 yaşayış məntəqəsi [1. **Ağqala**; 2. Ayrivan (Əyrivəng); 3.Batikyan (Kosaməmməd); 4. Tsovazard (Hacı Muğan, Muğan); 5. Ceğarkunik (Başkənd); 6. Qarmirgyuğ (Qulalı); 7. Lancağpyur (Küzəcik); 8. Lçap (Ağzıbir); 9. Noraduz; 10. Saruxan (Dəliqardaş); 11. Tsaxkaşen (Kərimkənd)] olmuşdur.

1940-1978-ci illərdə Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin və 1991-ci ildə Ermənistan Respublikası Prezidentinin imzaladığı müxtəlif fərmanlar nəticəsində erməniləşdirilmiş türk mənşəli toponimlər.





| **Keçmiş (əsl) adı** | **Yeni adı** | **Dəyişdirildiyi tarix** |
|---|---|---|
| Ağqala | Berdunk | 09.IV.1991 |
| Ağzıbir | Lçap | 07.XII.1945 |
| Başkənd | Geğarkunik | 04.XII.1946 |
| Dəliqardaş | Saruxan | 21.VI.1948 |
| Hacı Muğan | Tsovazord | 25.I.1978 |
| Kərimkənd | Tsaxkaşen | 02.III.1940 |
| Kəvər | 1.Novo Bayazet<br>2.Kamo<br>3.Qavar | 1837<br>13.IV.1959<br>1991 |
| Kəvər mahalı | 1.Novo Bayazet qəzası<br>2.Nor Bayazet rayonu<br>3.Kamo rayonu<br>4.Qavar rayonu | 1837<br>30.IX.1930<br>13.IV.1959<br>1991 |
| Kosaməmmədli | Batikyan | ? |
| Küzəcik | Lancağpyur | 19.IV.1950 |
| Quləli | Karmirgyuğ | 01.VI.1940 |

## AĞQALA KƏNDİ

### SALMAN GÖYÇƏLİ
*(1929)*

***Salman Ağakişi oğlu Əliyev - şair, dramaturq, Azərbaycan Yazıçılar Birliyinin üzvü (2001)***

1929-cu il mayın 24-də Qərbi Azərbaycanın Göyçə mahalının Ağqala kəndində [indiki Ermənistan Respublikasının Kamo (keçmiş Kəvər, Nor Bayazid) rayonu] anadan olmuşdur. Burada kənd yeddiillik məktəbini bitirdikdən sonra İrəvan Pedaqoji Texnikumunda təhsil almışdır (1943-1947). Əmək fəaliyyətinə müəllimliklə başlamışdır. H.Zərdabi adına Kirovabad Dövlət Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyatı fakültəsində təhsilini davam etdirmişdir (1953-1957). Kürdəmir rayonunda Axtaçı kənd orta məktəbində tədris işləri üzrə direktor müavini (1957-1960), Oğuz rayonunun Bucaq kənd orta məktəbində direktor (1961-1969), Qazax rayonunun Həsənsu kənd orta məktəbində müəllim, direktor müavini, direktor (1969-1989) işləmişdir. 1989-cu ildə təqaüdə çıxsa da, üç ildən sonra Ağstafa şəhərinin Qaçaq Kərəm adına orta məktəbinə müəllim kimi dəvət olunmuşdur (1992-ci ildən).

Oğuz və Qazaxda rayon və kənd sovetlərinə deputat seçilmişdir. Bədii yaradıcılığa erkən başlamışdır. Lirik şeirləri, təmsilləri və poemaları dövri mətbuatda dərc olunmuşdur. "Aşıq Ələsgər", "Aşıq Alı", "Qılınc və çomaq", "Vərqa və Gülşa", "Qafqaz qartalı", "Dunay sahilində" və s. pyeslərindən bir neçəsi Qazax, Tovuz, Ağstafa rayonlarında və Gürcüstanın Marneuli rayonunda xalq teatrlarında tamaşaya qoyulmuşdur. Yaradıcılığında şifahi xalq ədəbiyyatının qaynaqlarından bəhrələnmişdir. Folklor toplayıcısıdır. "Qaravəlli və nağıllar" (1988) kitabında topladığı şifahi xalq ədəbiyyatı nümunələrini nəşr etdirmişdir. Xalq arasından topladığı dastanlar: "Aşıq Ələsgərin Kor Nəsiblə deyişməsi", "Aşıq Ələsgərin Türkiyə səfəri", "Aşıq Alı ilə Aşıq Ələsgərin deyişməsi", "Yetim Hüseynin dastanı".





## AĞZIBİR KƏNDİ

### QƏDİR BABAYEV
*(1937)*

*Qədir İbrahim oğlu Babayev - publisist, Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

1937-ci il martın 16-da Qərbi Azərbaycanın Göyçə mahalının Ağzıbir kəndində [indiki Ermənistan Respublikasının Kamo (keçmiş Kəvər, Nor Bayazid) rayonu] müəllim ailəsində anadan olmuşdur. Burada kənd orta məktəbini bitirdikdən sonra Qazax Pedaqoji Texnikumunu müvəffəqiyyətlə başa vurub, Amasiya rayonunun Çaybasar kənd orta məktəbində müəllimlik etmişdir (1955-1956). Ordu sıralarında hərbi xidməti borcunu yerinə yetirmişdir (1956-1959). Daşkəsən rayon İcraiyyə Komitəsində ümumi şöbənin müdiri olmuşdur (1959). Ukraynanın Kremençuq şəhərində zavodda çilingər, mühəndis-mexanik işləmiş, eyni zamanda Xarkovda Avtomobil-Yol İnstitutunda təhsil almışdır (1960-1971). Bu dövrdə ədəbi fəaliyyətlə ardıcıl məşğul olmuş, yerli mətbuatda vaxtaşırı çıxış etmişdir. Bakıda istehsalat sahələrində çalışmışdır (1971). AMEA-nın "Elm" qəzetinin yaranmasında və ilk sayının işıq üzü görməsində xidmətləri olmuşdur.Hazırda "Bakinskiy raboçiy" qəzetində müxbir vəzifəsində çalışır. Rus dilində yazıb-yaradır: "Snayper" (1990), "Çelovek bessmertnoqo podviqa" (2004) povestlərinin müəllifidir.

# İRƏVAN ŞƏHƏRİ



## CABBAR ƏSGƏRZADƏ
*(1885-1966)*

*Cabbar Əsgər oğlu Əsgərzadə – şair, publisist*

1885-ci il mayın 24-də Qərbi Azərbaycanın İrəvan şəhərində (1828-ci ildən Erivan, 1936-cı ildən Yerevan) anadan olmuşdur. Burada ilk təhsilini mollaxanada almış, on beş yaşından memarlıq və qənnadılıq peşəsi ilə güzəran keçirən atasına köməkçi olmuş, eyni zamanda evlərdə kiçik yaşlı uşaqlara dərs deməklə məşğul olmuşdur. "Qafqaz" qəzetinin müxbiri kimi jurnalistik fəaliyyətinə başlamışdır. "Molla Nəsrəddin" məcmuəsində də şeir və məqalələrlə çıxış etmişdir. İrəvan şəhərində "Lək-lək" adlı məcmuə təsis edib, onun müdiri olmuşdur (1911-1912). Dövri mətbuatda çıxan satirik şeirləri və publisistik yazıları onu təqibə məruz qoymuşdur. Digər tərəfdən xəstəliyi onun Cənubi Azərbaycana, Mərənd şəhərinə köçməsinə səbəb olmuşdur. Burada Əhmədiyyə məktəbində müəllim işləmişdir. Təbriz şəhərinə dəvət olunmuşdur. Burada uşaq bağçasının açılmasına kömək etmiş, kar və lal uşaqlar üçün məktəb təşkil etmiş (1922-1927), Şirazda uşaq evində pedaqoji fəaliyyətini davam etdirmişdir (1927-1933). Sonra Tehranda korlar və lallar üçün məktəb açmış, onların eşitməsinə yardım edən cihaz icad etmişdir (1933-1935). Burada "Zəban" adlı pedaqoji jurnal nəşr etmiş (1942), eyni zamanda ictimai, ədəbi və pedaqoji fəaliyyətini davam etdirmişdir. Onun çoxcəhətli yaradıcılığı – pedaqogika, poeziya, incəsənət, musiqi, mədəniyyət və səhiyyə ilə sıx bağlı idi. Ərəb, fars və rus dillərini mükəmməl bilmiş, xarici ölkə xalqlarının seçmə poeziyasından tərcümələr etmişdir. Əsərlərini Azərbaycan və rus dillərində yazmışdır. Lirik şeirlərini C.Əsgərzadə, Aciz, Bağçaban, satirik

şeirlərini isə "Məhkəmə pişiyi", "Noxtalı", "Leyləyin yuvadibisi", "Molla haray" və s. imzaları ilə çap etdirmişdir. Kiçik yaşlı uşaqlar, məktəblilər üçün mənzum hekayələri nəşr olunmuşdur. Tehran Universitetində maarif sahəsindəki xidmətlərinə görə ona professor adı verilmişdir.

1966-cı ilin payızında Tehranda vəfat etmişdir.

## CABBAR MƏCNUNBƏYOV
*(1912-1967)*

*Cabbar Hüseyn oğlu Məcnunbəyov – dramaturq, nasir, Azərbaycan Yazıçılar Birliyinin üzvü (1938)*

1912-ci iyunun 20-də Qərbi Azərbaycanın İrəvan şəhərində (1828-ci ildən Erivan, 1936-cı ildən Yerevan) qulluqçu ailəsində doğulmuşdur. 1918-ci ildə ailəliklə Türkiyənin Qars şəhərinə köçmüş, bir il sonra Gəncə şəhərinə qayıtmışlar. 1927-ci ildə Bakı Pedaqoji Texnikumu nəzdindəki nümunəvi məktəbi bitirib həmin texnikuma daxil olmuşdur. Bu dövrdə onun ilk qələm təcrübəsi – "Beşincidir" pyesi Bakı Gənc Fəhlə Teatrında tamaşaya qoyulmuşdur. Leninqrad Fəlsəfə və Dilçilik İnstitutuna daxil olmuşdur (1931). Lakin xəstələndiyinə görə təhsilini yarımçıq qoyub Bakıya qayıtmış (1934), həmin il Azərbaycan Dövlət Nəşriyyatında tərcüməçi, uşaq ədəbiyyatı şöbəsinin müdiri işləmişdir (1934-1938). Bu vaxtdan ciddi ədəbi fəaliyyətə başlamışdır. M.Qorkinin "Foma Qordeyev", Y.M.Lermontovun "Zəmanəmizin qəhrəmanı" və başqa əsərləri tərcümə etmişdir. Bununla yanaşı pyeslər və kiçik hekayələr ("Ana", "İlk məhəbbət", "Gül dəstəsi" və s.) də yazmışdır. Uşaq və Gənclər Nəşriyyatında şöbə müdiri (1937-1939), sonra Partiya Tarixi İnstitutunda elmi işçi işləmişdir (1939-1941). Onun ilk irihəcmli səhnə əsəri – "Yanan vadi" 1938-ci ildə Azərbaycan Dövlət Dram Teatrında tamaşaya qoyulmuşdur. 1941-1948-ci illərdə Sovet





Ordusu sıralarında hərbi qəzetlərdə işləmiş, İkinci Dünya müharibəsi mövzusunda oçerk və hekayələr qələmə almışdır. İranda Sovet Ordusunun "Vətən yolunda" qəzeti redaksiyasında (1941-1942; 1944-cü il) işləmişdir. Hərbi Xarici Dillər İnstitutunda (Kuybışev vilayətində) müdavim (1942-1943), sonra "Vətən şərəfi", "Lenin bayrağı" və s. hərbi qəzetlərdə tərcüməçi, məsul katib (1944-1948) olmuşdur. Ordudan tərxis olunduqdan sonra Uşaq və Gənclər nəşriyyatında şöbə müdiri (1948-1950), baş redaktor (1951-1952) işləmişdir. Onun "Böyük Məhəbbət" (1951), "İldırım" (1955), "Ayrılan yollar" (1956) pyesləri tamaşaya qoyulmuşdur. "Qırmızı ulduz" ordeni və medallarla təltif olunmuşdur.

1967-ci il fevralın 1-də vəfat etmişdir.

**Əsərləri:**

1. Böyük məhəbbət (pyes). Bakı, Uşaqgəncnəşr, 1950, 96 səh., 7000 nüs.
2. Dostların kələyi (birpərdəli pyes). Bakı, Xalq yaradıcılığı evi, 1958, 14 səh., 1500 nüs.
3. Sevdiyim qız (hekayələr). Bakı, Azərnəşr, 1961, 108 səh., 10000 nüsxə.
4. İldırım (pyeslər və hekayələr). Bakı, Yazıçı, 1987, 284 səh., 7000 nüs.

**Tərcümələri:**

5. L.N.Tolstoy. Seçilmiş əsərləri. Bakı, Gənclik, 1986, 332 səh., 40000 nüsxə.
6. Jül Vern. Kapitan Qrantın uşaqları (roman). Bakı, Gənclik, 1987, 530 səh., 20000 nüsxə.
7. A.Şirvanzadə. Namus (roman). Bakı, Gənclik, 1988, 125 səh, 30000 nüs.

## CƏLAL MƏMMƏDOV
*(1918-1983)*

*Cəlal Cabbar oğlu Məmmədov – nasir, tənqidçi, tərcüməçi, Azərbaycan Yazıçılar Birliyinin üzvü (1943), Azərbaycan Əməkdar incəsənət xadimi (1978), Azərbaycan Jurnalistlər Birliyinin "Qızıl Qələm" mükafatı laureatı (1978)*

1918-ci il dekabrın 9-da Qərbi Azərbaycanın İrəvan şəhərində (1828-ci ildən Erivan, 1936-cı ildən Yerevan) qulluqçu ailəsində anadan olmuşdur. 1920-ci ildə ailəsi Bakıya köçəndən sonra atası texnikumlarda və ali məktəblərdə müəllimlik etmişdir. Orta məktəbi bitirib Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsinə daxil olmuşdur. Tələbəlik illərində ədəbi fəaliyyətə başlamışdır. Hekayə və məqalələr yazmış, Azərbaycan ədəbiyyatı nümunələrini ruscaya çevirmişdir. Ali təhsil alandan sonra hüquq məsləhətxanasında vəkillik etmişdir (1941-1942). Zaqafqaziya dəmir yolu idarəsinin 6 saylı dəmir yolu məktəbində tarix və ədəbiyyat müəllimi olmuşdur (1942-1944).

Azərbaycan qadınlarının İkinci Dünya müharibəsindəki (1939-1941) qəhrəmanlığına həsr etdiyi "Tərlan" pyesi 1943-1944-cü illərdə M.Qorki adına Gənc Tamaşaçılar Teatrında səhnəyə qoyulmuşdur. Bu illərdə dövri mətbuat və almanaxlarda onun tənqidi məqalələri, hekayələri müntəzəm dərc olunmuşdur. Azərbaycan SSR Maarif Nazirliyində tarix fənni üzrə metodist işləmişdir (1944-1947). Eyni zamanda Azərbaycan Vəkilləri Kollegiyasının üzvü seçilmişdir. İkinci Dünya müharibəsi illərində bədii tərcümə ilə ciddi məşğul olmuşdur. M.S.Ordubadi, Mehdi Hüseyn, Ə.Məmmədxanlı, S.Rəhimov kimi sənətkarların əsərlərini rus dilinə çevirmişdir. A.Fadeyevin "Gənc qvardiya", B.Polevoyun "Əsl insan haqqında povest", E.Kazakevіçin "Oderdə bahar", V.Sobkonun "Sülhün rəhni" romanları ilə yanaşı, V.Q.Belinskinin, A.Makarenkonun seçilmiş əsərlərini isə doğma dilə tərcümə etmişdir. Azərbaycan SSR EA Dil və Ədəbiyyat İnstitutunun aspirantı olmuşdur (1948-1950). Azərbaycan Dövlət Nəşriyyatı bədii ədəbiyyat şöbəsinin redaktoru (1950-1960), Azərbaycan Tədris-Pedaqoji Nəşriyyatında baş redaktor (1960-1961), Dövlət Radio və Televiziya Verilişləri Komitəsində sədr müavini (1961-1965), Azərbaycan KP MK-nın orqanı "Kommunist" qəzetində redaktor müavini (1965-1966), Azərbaycan Yazıçılar İttifaqının orqanı "Azərbaycan" jurnalının baş redaktoru olmuşdur (1966-1975). 1975-ci ilin aprelindən vəfatınadək Azərbaycan SSR Dövlət Nəşriyyat, Poliqrafiya və Kitab Ticarəti İşləri Komitəsi sədrinin birinci müavini işləmişdir. SSRİ xalq artisti Ələkbər Ələkbərov, Adil İsgəndərov, Mərziyə Davudova və xalq artisti Rza Təhmasib, həmçinin Cəfər Cabbarlı və milli teatr barədə monoqrafiyaları vardır. Onun Moskva, Bakı, Frunze, Alma-Ata, Tbilisi və s. Ümumittifaq simpozium və müşavirələrdə bədii tərcümənin tarixi və nəzəriyyəsi haqqında çıxış və məruzələri SSRİ Yazıçılar İttfaqının məcmuə və digər nəşrlərində əksini tapmışdır.





O, "Literaturnı Azerbaydjan" jurnalı redaksiya heyətinin üzvü olmuş, jurnalistlərin I təsis qurultayında Azərbaycan Jurnalistlər İttifaqının idarə heyətinə üzv seçilmişdir. "Şərəf nişanı" ordeni, üç dəfə Azərbaycan Ali Sovetinin Fəxri Fərmanı və medallarla təltif olunmuşdur.

1983-cü il fevralın 4-də vəfat etmişdir.

**Əsərləri:**

1. Mərziyə Davudova. Bakı, Azərnəşr, 1949, 36 səh., 5000 nüs.
2. Həsənbəy Zərdabi. Bakı, Uşaqgəncnəşr, 1950, 127 səh., 4500 nüs.
3. Ələsgər Ələkbərov. Bakı, Teatr cəmiyyəti, 1960, 68 səh.,

1500 nüs.

4. Nuranə. Bakı, Azərnəşr, 1961, 92 səh., 7000 nüs.
5. Xulian Qrimau. Bakı, Maarif, 1966, 72 səh., 2000 nüs.
6. Rza Təhmasib. Bakı, Teatr cəmiyyəti, 1966, 62 səh., 500 nüs.
7. Gəlirəm, Sakul. Bakı, Gənclik, 1974, 216 səh., 17000 nüs.
8. Halə.Bakı, Yazıçı, 1978, 200 səh., 16000 nüs.

**Tərcümələri:**

1. A.A.Fadeyev. Gənc qvardiya. Bakı, Uşaqgəncnəşr, 1952, 824 səh., 20000 nüs.
2. V.Sobko. Sülhün rəhni. Bakı, Azərnəşr, 1952, 374 səh., 7000 nüs.
3. A.A.Fadeyev. Gənc qvardiya. Bakı, Gənclik, 1967, 824 səh., 20000 nüs.
4. M.V.Kolesnikova, M.S.Kolesnikov. Rixard Zorge. Bakı, Gənclik, 1981, 287 səh., 35000 nüs.
5. Y.M.Korolkov. Feliks – xosbəxt deməkdir. Bakı, Gənclik, 1977, 482, səh., 40000 nüs.
6. Min bir gecə, III cild. Bakı, "Şərq-Qərb", 2007, 336 səh., 25000 nüs.

## ƏHMƏD CƏMİL
*(1913-1977)*

*Əhməd Səttar oğlu Cəmilzadə – şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü (1939), Azərbaycan Dövlət mükafatı laureatı (ölümündən sonra – 1980)*

1913-cü il oktyabrın 20-də Qərbi Azərbaycanın İrəvan şəhərində (1828-ci ildən Erivan,1936-cı ildən Yerevan) kustarçı sənətkar ailəsində anadan olmuşdur. Dörd yaşında ikən





atasını itirmiş, anasının himayəsi altında boya-başa çatmışdır. İbtidai və orta təhsilini Gəncə şəhər məktəblərində almışdır. Orta məktəbin yeddinci sinfində oxuyarkən "Gözəl Qafqaz" adlı lirik şeiri 1928-ci ildə "Qızıl Gəncə" jurnalında dərc olunmuşdur. Azərbaycan Proletar Yazıçıları Cəmiyyətinin Gəncə bölməsində fəal iştirak etmişdir. Onun şeirləri "Qızıl Gəncə", "Dağıstan füqərası", "Gənc bolşevik", "Hücum", "İnqilab və mədəniyyət" qəzet və jurnallarında vaxtaşırı dərc olunurdu. Sonra Bakıda Ali Pedaqoji İnstitututun ədəbiyyat fakültəsində təhsilini davam etdirmişdir (1930-1933). Şəmkir rayonunun Zəyəm kəndində (1933-1936), sonra Gəncədə (1936-1940) orta və ali məktəb müəllimi, metodist olmuşdur. 1940-cı ilin sentyabr ayından Azərbaycan Sovet Yazıçıları İttifaqında şeir bölməsində məsləhətçi, "Ədəbiyyat qəzeti"ndə ədəbi işçi, məsul katib işləmiş, sonra ittifaqın məsul katibi seçilmişdir (1940-1942). İkinci Dünya müharibəsi (1939-1945) illərində Şimali Qafqaz, Krım cəbhə qəzetləri ("Döyüş zərbəsi", "Hücum", "Vətən uğrunda irəli") redaksiyalarında çalışmışdır (1942-1943). Yazıçılar İttifaqı İdarə Heyətinin məsul katibi (1944-1947), həm də idarə heyətinin üzvü seçilmişdir. Uzun müddət "Ədəbiyyat qəzeti", "Azərbaycan" və "Ulduz" jurnalları redaksiya heyətinin üzvü olmuşdur. 1948-ci ilin oktyabrınadək səhhəti üzündən işləməmişdir. Sonra 1948-ci ilin oktyabrında Azərbaycan Sovet Yazıçıları İttifaqında İdarə Heyətinin məsul katibi seçilmişdir. 1950-ci ildə Azərbaycan Yazıçılar İttifaqında məsləhətçi, 1951-ci ildə "Ədəbiyyat qəzeti"ndə redaktor, işləmişdir. Azərnəşrdə baş redaktor, redaktor, (1953-1955), Azərbaycan Mədəniyyət Nazirliyində məsləhətçi (1956-1959), "Azərbaycan" jurnalının redaktoru (1959-1960), Azərnəşrin baş redaktoru (1962-1963), "Gənclik" nəşriyyatında redaktor (1964-1967), "Ulduz" jurnalında baş redaktor işləmişdir (1973-1977). Rus, gürcü, ukrayna, erməni, özbək, belorus, tacik və s. dillərdən Azərbaycan dilinə tərcümələr etmişdir. Xidmətlərinə görə iki dəfə "Qırmızı Əmək Bayrağı" ordeni, Azərbaycan Ali

Soveti Rəyasət Heyətinin Fəxri fərmanı və medallarla təltif olunmuşdur.

1977-ci il sentyabrın 27-də Bakıda vəfat etmişdir.

**Əsərləri:**

1. Yadigar. Bakı, Azərnəşr, 1942, 82 səh., 3000 nüs.
2. Əsgər qardaşıma. Bakı, Uşaqgəncnəşr, 1942, 26 səh., 10000 nüs.
3. Şaxta baba. Bakı, Uşaqgəncnəşr, 1942, 15 səh., 10000 nüs.
4. Can nənə, bir nağıl de. Bakı, Azərnəşr, 1943, 11 səh., 10000 nüs.
5. Böyük qardaşımız. Bakı, Azərnəşr, 1944, 7 səh., 5000 nüs.
6. Şeirləri. Bakı, Uşaqgəncnəşr, 1947, 47 səh., 10000 nüs.
7. Təməl daşları. Bakı, Azərnəşr, 1951, 82 səh., 5000 nüs.
8. Qələbə yolları. Bakı, Azərnəşr, 1954,126 səh., 5000 nüs.
9. Şeirlər. Bakı, Azərnəşr, 1957, 230 səh., 7000 nüs.
10. Mənim azad torpağım. Bakı, Uşaqgəncnəşr, 1960, 53 səh., 3000 nüs.
11. Əhmədli Cəmil. Bakı, Azərnəşr, 1961, 261 səh., 6000 nüs.
12. Bahar şəfəqləri. Bakı, Azərnəşr, 1964, 62 səh., 8000 nüs.
13. Seçilmiş əsərləri. Bakı, Gənclik, 1967, 443 səh., 10000 nüs.
14. Balıqçı gəmiləri. Bakı, Gənclik, 1968, 10 səh., 25000 nüs.
15. Ellər bayramı. Bakı, Gənclik, 1972, 14 səh., 30000 nüs.
16. Seçilmiş əsərləri. Bakı, Azərnəşr, 1975, 366 səh., 10000 nüs.
17. Vaxtında gəlmişik bu dünyaya biz. Bakı, Yazıçı, 1979, 297 səh., 100000 nüs.
18. Xoşbəxt uşaqlara. Bakı, Gənclik, 1981, 70 səh., 7000 nüs.
19. Dünyanın gözəlliyi. Bakı, Azərnəşr, 1983, 303 səh., 15000 nüs.
20. Can nənə, bir nağıl de. Bakı, Gənclik, 1987, 80 səh., 7000





nüs.

21. Əsərləri. Bakı, Azərnəşr, 1988, 336 səh., 11000 nüs.

**Tərcümələri:**

1. S.V.Mixalkov. V.İ.Lenin muzeyində. Bakı, Uşaqgəncnəşr, 1951, 29 səh., 15000 nüs.
2. Lenin və Stalin haqqında. Bakı, Uşaqgəncnəşr, 1953, 36 səh., 20000 nüs.
3. M.Y.Lermontov. Borodino. Bakı, Uşaqgəncnəşr, 1956, 16 səh., 15000 nüs.
4. A.Tvardovski. Lenin və peçqayıran. Bakı, Uşaqgəncnəşr, 1960, 12 səh., 20000 nüs.
5. S.M.Marşak, Naməlum qəhrəman haqqında hekayə. Bakı, Uşaqgəncnəşr, 1962, 13 səh., 20000 nüs.
6. M.Mirşəkər, Mahtab. Bakı, Azərnəşr, 1964, 32 səh., 4000 nüs.
7. Y.V.Höte. Faust. Bakı, Azərnəşr, 1970, 501 səh., 10000 nüs.
8. Dost ellər,dost nəğmələr. Bakı, Gənclik, 1975, 22 səh., 10000 nüs.
9. Y.V.Höte, Faust. Bakı, Yazıçı, 1986, 518 səh., 40000 nüs.

## ƏZİZ SÜLEYMANOV

*(1909-1989)*

*Əziz Yunis oğlu Süleymanov – dramaturq, tərcüməçi, Azərbaycan Yazıçılar Birliyinin üzvü (1964)*

1909-cu il martın 1-də Qərbi Azərbaycanın İrəvan şəhərində (1828-ci ildən Erivan, 1936-cı ildən Yerevan) fəhlə ailəsində anadan olmuşdur. Əkbər Yerevanlının qardaşıdır. Burada yeddiilik məktəbi bitirdikdən sonra Bakı Teatr Texnikumunda təhsil almışdır (1923-1933). C.Cabbarlı adına Yerevan Azərbaycan Dövlət Dram Teatrında aktyor işləmişdir (1934-

1949). Sonra Zəngibasar (indiki Masis) Rayon İcraiyyə komitəsinin mədəniyyət şöbəsinin müdiri (1950-1952), Azərbaycan KP MK yanında Bakı Ali Partiya Məktəbinin müdavimi (1952-1954), Ermənistan Mədəniyyət Nazirliyində baş təlimatçı (1954-1966), C.Cabbarlı adına Yerevan Azərbaycan Dövlət Dram Teatrında direktor (1966-1968) olmuşdur. Yerevanda A.Myasnikyan adına Dövlət kitabxanasının elmi-metodiki şöbəsində baş metodist vəzifəsində çalışmışdır (1968-1989). "Alovlar", "Son tale", "İki həyat", "Üç yoldaş", "Şeyx Zaman gəlir", "Ayna" və digər pyesləri müxtəlif vaxtlarda tamaşaya qoyulmuşdur. Onun tərcümə etdiyi (Tur və Şeyin qardaşlarının "Üzləşdirmə", V.Vaqarşanyanın "Yerazik", A.Babayanın "Ürək çağırır") pyesləri Bakı, Yerevan və Naxçıvan dram teatrlarında səhnəyə qoyulmuşdur.

1989-cu ildə Bakıda vəfat etmişdir.

**Əsərləri:**

1. Pyeslər. Yerevan, "Hayastan" nəşriyyatı, 1970, 175 səh., 2000 nüs.
2. Pyeslər. Yerevan, "Hayastan" nəşriyyatı, 1975, 147 səh., 1000 nüs.
3. Hicran (dramatik poema). Yerevan, Sovetakan qroğ, 1981, 55 səh., 1000 nüs.

## FUAD TARVERDİYEV
*(1932)*

*Fuad Cəfər oğlu Tarverdiyev – nasir, Azərbaycan Jurnalistlər Birliyinin üzvü (1962), Azərbaycan Yazıçılar Birliyinin üzvü (1984), Respublikanın Əməkdar jurnalisti (1990)*

1932-ci il mayın 31-də Qərbi Azərbaycanın İrəvan şəhərində (1828-ci ildən Erivan, 1936-cı ildən Yerevan) anadan





olmuşdur. Orta məktəbin yeddinci sinfini bitirib, Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində təhsil almışdır (1946-1951). Sonra ADU-nun filologiya fakültəsinin jurnalistika şöbəsində təhsilini davam etdirmişdir (1951-1956). Əmək fəaliyyətinə C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının xronika şöbəsində redaktor kimi başlamışdır (1956). 1957-ci ildən Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətində işləmişdir. Əvvəlcə proqram redaksiyasının baş redaktoru, sonra komitə sədrinin müavini olmuşdur (1983-1990). Hazırda Azərbaycan Respublikası "Bilik" maarifçilik cəmiyyətində bilikləri kütləvi yayım şöbəsinin müdiri (1990-cı ildən), eyni zamanda BMTİ özəl televiziya şirkətinin baş direktorunun müavini (1994-cü ildən) olmuşdur. Ədəbi yaradıcılığa "Göyərçin" jurnalında (1965, №2) çap etdirdiyi "Alma" adlı ilk hekayəsi ilə başlamışdır. Bədii tərcümə ilə də məşğul olmuşdur. Xidmətlərinə görə "Şərəf nişanı" ordeni, "Azərbaycanın qabaqcılı maarif işçisi", "Televiziya və radio əlaçısı" nişanları və bir medalla təltif edilmişdir.

**Əsərləri:**

1. Uçub səni taparam. Bakı, Gənclik, 1979, 79 səh., 7000 nüs.
2. Mənim günəşim. Bakı, Gənclik, 1982, 105 səh., 10000 nüs.
3. "Gilavar-2" əməliyyatı. Bakı, Gənclik, 1985, 175 səh., 30000 nüs.
4. Günüm, ayım, Günayım. Bakı, Gənclik, 1989, 280 səh., 30000 nüs.
5. Elçinurun üç səyahəti. Bakı, Gənclik, 1992, 223 səh., 6000 nüs.

## İSMAYIL İSMAYILOV
*(1924-2003)*

*İsmayıl Ələsgər oğlu İsmayılov – nasir, Azərbaycan Jurnalistlər Birliyinin üzvü (1969), Azərbaycan Yazıçılar Birliyinin üzvü (1970), Əməkdar jurnalist (1985)*

1924-cü il mayın 28-də Qərbi Azərbaycanın İrəvan şəhərində (1828-ci ildən Erivan, 1936-cı ildən Yerevan) bağban ailəsində anadan olmuşdur. Burada orta məktəbi bitirmişdir (1941). İkinci Dünya müharibəsinin tərkib hissəsi olan Almaniya-SSRİ (Böyük Vətən müharibəsi) başlayan il səfərbərliyə alınmışdır: onun döyüş yolu Novorossiysk şəhəri uğrunda qanlı vuruşmalardan başlamış, Polşa, Çexoslovakiya və Almaniya ölkələrinin alınması ilə sona çatmışdır (1941-1945). 1947-ci ildə ordudan tərxis olunduqdan sonra "Sovet Ermənistanı" qəzeti redaksiyasında ədəbi işçi, stilist vəzifələrində işləmişdir (1948-1953). Ermənistan Televiziya və Radio Verilişləri Komitəsində Azərbaycan dilində radio verilişləri redaksiyasına redaktor təyin edilmişdir (1953-cü ildən). Azərbaycanlı soydaşların doğma ata-baba yurdundan qovulduğu dövrdə Ermənistanı tərk etmişdir. Ədəbi fəaliyyətə 50-ci illərdən başlamışdır. Onun oçerk və hekayələri "Sovet Ermənistanı" qəzetində, "Ədəbi Ermənistan" almanaxında çap olunmuşdur. Onun hekayə və povestləri "Drujinaçı" (1965), "Müasirlərimiz" (1970), "Doğrulmayan etimad" (1978) kitablarında kütləvi tirajla buraxılmışdır. Son illər yaradıcılığında bayatı və rübailərə üstünlük vermişdir. "Şöhrət", I dərəcəli "Vətən müharibəsi" ordenləri və medallarla təltif olunmuşdur.

2003-cü il oktyabrın 23-də Bakıda vəfat etmiş və Mehdiabad qəbiristanlığında dəfn edilmişdir.





## MƏMMƏDƏLİ NASİR
*(1899-1982)*

*Məmmədəli Məmməd oğlu Məhəmmədzadə – şair, publisist*

1899-ci ildə Qərbi Azərbaycanın İrəvan şəhərində (1828-ci ildən Erivan, 1936-cı ildən Yerevan) anadan olmuşdur. Burada ilk təhsilini mədrəsədə almışdır (1908-1914). Gənclik dövründə qələm təcrübələrini qəzet və jurnallarda çap etdirmişdir. İlk "Millətpərəstlikmi, şərabxorluqmu" adlı melodramı 1913-cü ildə kitabça halında nəşr olunmuş, İrəvanda açılan rus-tatar məktəbində tamaşaya qoyulmuşdur. Satirik şeirləri, publisist məqalələri "Lək-lək", "Zəngi", "Rəncbər", "Molla Nəsrəddin", "İqbal", "Hümmət", "Tuti", "Dirilik", "Zənbur", "Açıq söz", "Füqəra sədası", "Sovqat", "Yeni fikir", "Məktəb", "Yeni yol", "Məşəl", "Azərbaycan füqərası" və s. qəzet və jurnallarda "Fil-fil", "Anaş toyuq", "Qarınqulu", "Azərbaycanlı", "Məmmədəli Nasir İrəvani" imzaları ilə çap olunmuşdur.

İrəvanda Kommunist Partiyası təşkilatında təlimatçı, təbliğat-təşviqat şöbəsi nəzdində türk bölməsinin müdiri, Gürcüstanın Axalsixi quberniya Partiya Komitəsində təlimatçı, Axıska və Borçalı Kommunist Darülfünunun dinləyicisi olmuşdur.

1917-ci ildən PK (b)P-nın üzvü idi. Hüseynağa Şahtaxtlının "Müdafeyi-məzluman" təşkilatında siyasi fəaliyyətə başlamışdı. Gəncənin Bağbanlar bölgəsində təşkilatçı-təşviqatçı kimi tanınmışdı (1918). "Bədbəxt ailə" pyesi Gəncədə tamaşaya qoyulmuşdur (1919). Onun redaktorluğu ilə "Qırmızı Gəncə" qəzeti nəşr olunmuşdur (1920). Tbilisi və İrəvan şəhərlərində Azərbaycan dilində buraxılan "Kommunist" qəzetlərinin ilk redaktoru (1921-1922) Gürcüstanda Başkeçid rayon Partiya Komitəsinin katibi olmuşdur. Moskvada Şərq Xalqlarının

Kommunist Universitetində təhsildən geri çağrılıb Zaqatala rayonuna partiya işinə göndərilmişdir (1924-1926). Bakıda "Kommunist" qəzeti redaksiyasında qəza şöbəsinin müdiri olmuşdur (1926-1936). Bu illərdə partiya tapşırığına görə Ağdam, Laçın, Bərdə, Şəmkir, Dəvəçi və b. rayonlarda qəzet nəşrini təşkil etmiş, ilk buraxılışların məsul redaktoru olmuşdur. Xidmətlərinə görə "Qırmızı Əmək Bayrağı" ordeni, bir sıra medal və fəxri fərmanlarla təltif edilmişdir. Repressiya dövründə Sibirə sürgün edilmiş, 1956-cı ildə bəraət qazandıqdan sonra Bakıya qayıtmışdır.

1982-ci ildə Bakıda vəfat etmişdir.

## MURTUZ MURADOV
*(1909-1973)*

*Murtuz Tağı oğlu Muradov - nasir, publisist, Azərbaycan Yazıçılar Birliyinin üzvü (1940), Azərbaycan Jurnalistlər Birliyinin üzvü (1962)*

1909-cu il mayın 24-də Qərbi Azərbaycanın İrəvan şəhərində (1828-ci ildən Erivan, 1936-cı ildən Yerevan) anadan olmuşdur. İlk təhsilini Tiflisdə mədrəsədə almışdır. Gürcüstanda sovet hakimiyyəti qurulduqdan sonra (25.11.1927) fəhlə-kəndli məktəblərində təhsil almışdır. "Yeni fikir", "Yeni kənd", "Sovet Gürcüstanı", "Lenin bayrağı" qəzetləri redaksiyalarında korrektor, ədəbi işçi, məsul katib və redaktor vəzifələrində çalışmışdır.

Bir müddət Gürcüstan Radio Verilişləri Komitəsində Azərbaycan radio verilişləri redaksiyasının baş redaktoru olmuşdur. Jurnalistlik fəaliyyətinə başladığı vaxtdan dövri mətbuatda hekayə, publisist məqalə və oçerklərlə çıxış etmişdir.

Əsərləri rus və gürcü dillərində çap olunmuşdur. "Kamal" pyesi M.F.Axundov adına Tbilisi Azərbaycanlı Dövlət Dram Teatrında tamaşaya qoyulmuşdur. 1973-cü ildə vəfat etmişdir.





## NÜSRƏT
*(1931)*

*Nüsrət Məhərrəm oğlu Sadıqbəyli - nasir, publisist, Azərbaycan Jurnalistlər Birliyinin üzvü (1968)*

1931-ci il yanvarın 19-da Qərbi Azərbaycanın İrəvan şəhərində (1828-ci ildən Erivan, 1936-cı ildən Yerevan) bağban ailəsində anadan olmuşdur. Burada orta məktəbi bitirmişdir (1950). Əmək fəaliyyətinə çörək zavodunda fəhlə işləməklə başlamışdır (1950-1953). Azərbaycan Dövlət Universitetinə (ADU) daxil olsa da, ailə vəziyyətinə görə iki aydan sonra təhsilini yarımçıq qoymuşdur (1953).

Ordu sıralarında xidmət etmişdir (1954-1955). İrəvan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan şöbəsinin tarix-ədəbiyyat fakültəsində ali təhsil almışdır. (1956-1961). "Sovet Ermənistanı" qəzetində ədəbi işçi, böyük ədəbi işçi, şöbə müdiri vəzifələrində işləmişdir (1961-1988).

Qərbi azərbaycanlıların 1988-ci ilin sonlarında öz dədə-baba torpaqlarından ermənilər tərəfindən zorla qovulması nəticəsində doğma yurdunu tərk etmişdir. Bakıda "Kommunist" qəzetində müxbir (1989-1992), "Aydınlıq» qəzetində şöbə müdiri (1992-1993) olmuşdur.

Ədəbi yaradıcılığa erkən başlamışdır. İlk qələm təcrübələri "Sovet Ermənistanı" qəzetində çıxmışdır. "Koma", "Tək çarpayı" hekayələri, "Gənclik" povestindən parçalar "Ədəbi Ermənistan" məcmuəsində dərc olunmuşdur (1965-1985).

Dövri mətbuatda hekayə, povest, publisist məqalələrilə vaxtaşırı çıxış etmişdir. "Meşənin yaralı bacıları" (1971), "İki şəhərdə iki hadisə" (1979), "Samirə" (1985) hekayə və povestlər topluları İrəvanda kütləvi tirajla buraxılmışdır. "Məhəbbət və cinayət" kitabında onun son dövr hadisələrilə sıx bağlı əsərləri toplanmışdır.

## SVETLANA NƏCƏFOVA
*(1938)*

***Svetlana Hacı qızı Nəcəfova - publisist, şair, əməkdar jurnalist (1988), Azərbaycan Yazıçılar Birliyinin üzvü (2000)***

1938-ci il iyulun 8-də Qərbi Azərbaycanın İrəvan şəhərində (1828-ci ildən Erivan, 1936-cı ildən Yerevan) anadan olmuşdur. Burada orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin (ADU) filologiya fakültəsinin jurnalistika şöbəsində ali təhsil almışdır (1955-1960). Əmək fəaliyyətinə "Pioner" jurnalı redaksiyasında texniki redaktor kimi başlamışdır. "Pioner" jurnalı redaksiyasında ədəbi işçi (1961- 1964), şöbə müdiri (1964-1973), "Azərbaycan qadını" jurnalı redaksiyasında şöbə redaktoru (1973-1977), baş redaktorun müavini (1977-1992) vəzifələrində işləmişdir. "Respublika" qəzeti redaksiyasında humanitar problemlər şöbəsinin müdiri (1996-2003), Teleradio şirkətinin əməkdaşı (2003-2008) olmuşdur. Hazırda təqaüdə çıxmışdır. Azərbaycanda qadın hərəkatında fəal iştirak etmişdir. Universal Sülh Federasiyası və Ümumdünya Sülh Naminə Beynəlxalq Federasiyasının sülhməramlı səfiridir. Azərbaycan Qadınlar Assosiasiyası Rəyasət Heyətinin, Kitab Cəmiyyəti İdarə Heyətinin üzvü seçilmişdir. İstanbulda keçirilən türk qadınlarının I qurultayının iştirakçısı olmuşdur. Azərbaycan Jurnalistlər Birliyinin katibidir. ABŞ-ın "Kim kimdir?" nəşrinin 2008-ci il nominatlarının siyahısına bioqrafiyası daxil edilmişdir. Ədəbi yaradıcılığa 60-cı illərdən başlamışdır. Publisistik məqalələri, oçerk və hekayələri dövri mətbuatda dərc olunmuşdur. "Qırmızı qalstuklar klubu olmuşdur" (1966), "Ömrə sevinc gətirənlər" (1984), "Hər ömür nəğmədir" (1988), "Biz beynəlmiləlçilərik" (1988), "Onun taleyi (1990), "Azərbaycanın qeyri-hökumət qadın təşkilatları" (2002) kitablarının müəllifidir. "Əməkdə fərqlənməyə görə" medalına (1971), Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanına (1974) layiq görülmüşdür. Ədəbi publisistik fəaliyyəti yüksək qiymətləndirilmişdir. "Qızıl qələm", "Məhsəti Gəncəvi", "Sara Xatun", "Vətən", "Humay", "Dan ulduzu", "Araz" ali media və s. mükafatların laureatıdır.





## ŞİRZAD ƏLİYEV
*(1912-1943)*

*Şirzad Allahverdi oğlu Əliyev - şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü (1940)*

1912-ci ildə Qərbi Azərbaycanın İrəvan şəhəri (1828-ci ildən Erivan, 1936-cı ildən Yerevan) yaxınlığında yoxsul kəndli ailəsində anadan olmuşdur. Kiçik yaşlarından ailəsi ilə Gəncəyə köçmüşdür. Burada ata-anasını erkən itirən Şirzad özündən böyük bacı və qardaşının himayəsində boya-başa çatmışdır. İbtidai təhsilini Gəncədə 1 saylı orta məktəbdə almış, 1929-1934-cü illərdə Sənaye Texnikumunda təhsilini davam etdirmişdir. Orta məktəbdə oxuduğu vaxtdan ədəbiyyata ciddi maraq göstərmişdir.

Texnikumun son kursunda ilk şeirlərini yazmış, Bakı Fəhlə-Kəndli Müəlliflər Dərnəyinin fəal üzvlərindən biri olmuş, burada şeir texnikasına yiyələnməyə, nəzəri biliyini artırmağa çalışmışdır.

İlk şeirlərini ("Dəmir məhbəs", "Bahar yelləri", "Bakı axşamı", "Azərbaycan") "Ədəbiyyat qəzeti"ndə və "Kirovabad bolşeviki" qəzetində dərc etdirmişdir. 1935-ci ildə Gəncə Mərkəzi Elektrik Stansiyasında texnik vəzifəsində işləmiş, eyni zamanda Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda təhsilini davam

etdirmişdir. Bununla yanaşı, Gəncədə ədəbiyyat həvəskarlarının dərnək rəhbəri olmuş, gərgin ideya döyüşlərində inadla mübarizə aparmış, yeni ədəbiyyatın saflığı uğrunda çalışmışdır.

1938-ci ildə gənc şairi komsomol sıralarına qəbul etmişlər. Siyasi, lirik şeirlər və poemalar ("Silah", "Şairin səsi", "Qızıl əsgərin andı", "Məhəbbət sətirləri" və b.) qələmə almışdır. "Serqo" poeması üzərində çalışmışdır.

İkinci Dünya müharibəsinin (1939-1945) tərkib hissəsi olan Almaniya-SSRİ müharibəsinin (1941-1945) ilk günlərindən silaha sarılan şair 1943-cü ildə ağır döyüşlərin birində həlak olmuşdur.



# QƏRBİ AZƏRBAYCANIN PƏMBƏK MAHALI






# PƏMBƏK MAHALININ
## QUQARK RAYONU (KEÇMİŞ BÖYÜK QARAKİLSƏ)




Ermənistan SSR-də (1920-1991) (1991-ci ildən Ermənistan Respublikası) inzibati rayon. Pəmbək mahalında yerləşir. 1930-cu il sentyabrın 9-da yaradılıb. 1930-1935-ci illərdə Böyük Qarakilsə, 1935-1964-cü illərdə Kirovakan, 1964-cü ildən Quqark adlanıb. Sahəsi 776 km$^2$-dir. Rayon mərkəzi Meğrut (1946-ci ilə kimi Yaqublu) kəndidir. Rayon mərkəzinə ən yaxın dəmiryol stansiyası 4 km məsafədə yerləşən Kirovakan (1935-ci ilə kimi Böyük Qarakilsə) stansiyasıdır. Rayon mərkəzindən İrəvan şəhərinə olan məsafə 149 km-dir.

Ermənistan Respublikasının şimal hissəsində yerləşir. Şimaldan Stepanakan (Cəlaloğlu), şimal-şərqdən Tumanyan (Tumanyan), cənub-şərqdən İcevan (Karvansara), cənubdan Hrazdan (Axta) və Araqadz (Ələyəz), qərbdən Spitak (Hamamlı) rayonları ilə həmsərhəddir.

Rayonun ərazisində yaşayanlar tarix boyu xristian türklərdən qıpçaqların yaratdıqları abidələrin, indi erməni (hay) adlandırdığımız hayların burada heç bir izi yoxdur. Onlar, əsasən, XIX əsrin əvvəllərindən çar Rusiyası tərəfindən Osmanlı imperiyasının (Türkiyə) və Qacarlar dövlətinin (İran) ərazisindən köçürülərək bu ərazilərdə yerləşdirilmişdilər.

Nadir şah Əfşarın 1747-ci ildə öldürülməsindən sonra Cənubi Qafqazda müstəqil xanlıqlar yaradıldı. Onlardan biri də İrəvan xanlığı idi. Pəmbək mahalı da o dövrdə gürcü çarlarının hakimiyyəti altında idi.

1801-ci ildə yanvarın 18-də Gürcüstan Rusiyaya birləşdirilən zaman bu ərazilər də rusların imperiyasına qatıldı. 1828-ci ildə isə bağlanan Türkmənçay müqaviləsi ilə bütövlükdə Cənubi Qafqaz rusların əlinə keçdi. Həmin dövrdə gürcü çarlarının hakimiyyətində 1. Kartli; 2. Şəmsəddil; 3. Pəmbək-Şırəgəl; 4. Samxetiya; 5. Xevsuriya; 6. Pşaviya; 7. Tuşya bölgələri var idi (Z.Qorqodyan. Sovet Ermənistanının əhalisi, Yerevan, 1932).

Çar Rusiyası Cənubi Qafqazda inzibati ərazi islahatları aparan zaman rayonun indiki ərazisi İrəvan quberniyasının Aleksandropol (keçmiş Gümrü) qəzasının, daşnak Ermənistanında (1918-1920) 1920-ci il noyabrın 29-da Sovet hakimiyyəti qurulduqdan sonra Ermənistan SSR-nin 1930-cu ilə kimi mövcud olmuş Loru-Pəmbək qəzasının tərkibində olmuşdur. 1930-cu ildə qəzalar ləğv olunub yerində rayonlar yaradılan zaman Loru-Pəmbək qəzasının Pəmbək bölgəsində 1930-cu il sentyabrın 9-da Qarakilsə (sonra Quqark adlandırıldı), 1937-ci il dekabrın 31-də isə Hamamlı (sonra Spitak adlandırıldı) rayonları yaradıldı.





Rayonun ərazisində 1939-cu ildə 27866 nəfər, 1959-cu ildə 28500 nəfər, 1970-ci ildə 26600 nəfər, 1979-cu ildə 27156 nəfər türk və erməni (hay) yaşamışdır. Rayonun türk əhalisi həm 1918-1920-ci, həm 1948-1953-cü illərdə soyqırımına və deportasiyaya məruz qaldığından əhalinin nisbəti ermənilərin xeyrinə dəyişir. 1948-ci ilə kimi əhalinin əksəriyyətini türklər təşkil etmişdir. Türklərin bir hissəsi zorla Azərbaycanın aran rayonlarına köçürüldükdən sonra onların evlərinə xarici ölkələrdən köçürülmüş ermənilər (haylar) yerləşdiyindən əhalinin faiz hissəsi 62.4% olaraq dəyişdi. 1988-ci ilin sonlarında isə Ermənistan SSR-də yaşayan bütün türklər (Azərbaycan türkləri) kimi rayonun əhalisi də zorla doğma yurdlarından qovuldular. Bu zamna 70-dən çox insan ermənilər tərəfindən öldürüldü və yüzlərlə insan müxtəlif dərəcəli bədən xəsarəti aldı.

1988-ci il dekabrın 7-də Pəmbək mahalında baş vermiş zəlzələ zamanı (zəlzələnin təbii, yoxsa süni olması barədə hələ də şübhəli versiyalar dolaşmaqdadır) rayonun 33 nəfər türk əhalisi həlak oldu.

XVIII əsr – 1988-ci ilin dekabrına kimi rayonun indiki ərazisində türklər yaşamış kəndləri: 1. Arcut (1988); 2. Armudlu (1918-1920); 3. Aslan-Xaraba (1918); 4. Aşağı Kilsə (1988); 5. Ayıbasan (1918); 6. Baldırqanlı (XVIII əsrin sonu); 7. Bayatlar (XX əsrin əvvəlləri); 8. Bəxtiyar (dağılması tarixi məlum deyil); 9. Boyuniçi (1918); 10. Dəmir yol qəsəbələri (3 qəsəbə, qarışıq – türk, rus, türk) (XX əsrin əvvəlləri); 11. Gözəldərə (1988); 13. Hallavar (1988); 14. Heydərli (1988); 15. Qarakilsə (1935-ci ildən Kirovakan) (qarışıq – erməni, türk, rus və s.) (1988); 16. Qurd Yurd (20-ci illər); 16. Şorağ (qarışıq – türk, erməni) (30-cu illər); 21. Yaqublu (1918); 22. Yuxarı Kilsə (1988).

1970-ci ilin məlumatına görə rayonun ərazisində 1 respublika tabeli şəhər [**Kirovakan** (1935-ci ilə kimi Böyük Qarakilsə) şəhəri – Bazum və Pəmbək silsilələrinin arasındakı çökəklikdə, Pəmbək,

Tandzut və Vanadzoriget çaylarının qovuşuğunda yerləşir. 1924-cü ildən respublika tabeli şəhərdir. İrəvan şəhərindən 145 km məsafədə yerləşir. Şəhərin içindən İrəvan-Tiflis dəmiryol xətti keçir (Böyük Qarakilsə stansiyası). 1980-ci ildə 149 min nəfər əhalisi olub], 2 şəhər tipli qəsəbə [**Drozaget** (Kolagirən) – rayon mərkəzindən 22 km, İrəvan şəhərindən 167 km məsafədədir. 1940-cı ildən şəhər tipli qəsəbədir. Qəsəbənin içindən İrəvan-Tiflis dəmiryol xətti keçir; **Meğrud** (1945-ci ilədək Yaqublu, sonra Quqark, 1989-cu ildən Meğrud) – Quqark rayonunun mərkəzi. Kirovakan (keçmiş Böyük Qarakilsə) şəhərindən bir neçə km şərqdə, Debed çayının sağ sahilində yerləşmişdir. 1897-ci il əhalinin siyahıalınması dövründə Yaqubluda 1011 nəfər erməni, 114 nəfər türk (Azərbaycan) olmuşdur. Sonralar türklər qovulmuş, rayon mərkəzində ancaq ermənilər (haylar) yaşamışdır), 2 qəsəbə sovetliyi (**1.Dzoraget (keçmiş Kolagirən)**; 2. **Meğrud (keçmiş Yaqublu)**] və 16 kənd sovetliyi [1. Antaramut (keçmiş Kolagirən); 2. Arcut; 3. Bazum (keçmiş Bzovdal); 4. Darbas; 5. Debed (keçmiş Hacıkənd); 6. Dzoragyuğ (keçmiş Dərəkənd); 7. Fioletovo (keçmiş Nikitino); 8. Gözəldərə (keçmiş Xancığaz); 9. Hallavar; 10. Karaberd (keçmiş Sarımsaxlı); 11. Lermontovo (keçmiş Voskresenovka); 12. Lernapet (keçmiş Hacıqara); 13. Markahovit (keçmiş Bozigah, Həmzəçimən); 14. Şaumyan (keçmiş Vartana); 15. Vahaqni (keçmiş Şahəli); 16. Yeğeknut (keçmiş Qamışqut)] vardır. Ümumiyyətlə rayonun ərazisində şəhər, şəhər tipli qəsəbələr, qəsəbələr və kəndlər olmaqla 28 yaşayış məntəqəsi mövcuddur. Bunlar aşağıdakılardır: 1. Antaramut; 2. Arcut; 3. Arcut qəsəbə stansiyası; 4. Aşağı Kilsə; 5. Bazum; 6. Darabas; 7. Debed; 8. Dzoraget; 9. Dzoragyuğ; 10. Fioletovo; 11. Gözəldərə; 12. Güllüdərə; 13. Hallavar; 14. Heydərli; 15. Heyvandarlıq sovxoz qəsəbəsi; 16. Karaberd; 17. Kirovakan; 18. Qranitavan; 19. Lermontovo; 20. Lernapat; 21. Markohovit; 22. Pamsak stansiya qəsəbəsi; 23. Pamsak kəndi; 24.





Şaumyan; 25. Vahaqun; 26. Vahaqnadzor stansiya qəsəbəsi; 27. Yeğeknut; 28. Yuxarı Kilsə.

1935-1978-ci illərdə Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin imzaladığı müxtəlif fərmanlarla rayonun ərazisində türk və malokan kəndlərinin adları dəyişdirilərək erməniləşdirilmişdir:

| **Keçmiş (əsl) adı** | **Yeni adı** | **Dəyişdirildiyi tarix** |
|---|---|---|
| 1. Bzovdal | Bazum | 25.01.1978 |
| 2. Bozigah | Həmzəçimən | 03.01.1935 |
| 3. Böyük Qarakilsə | Kirovakan | 03.01.1935 |
| 4.Böyük Qarakilsə rayonu | Kirovakan rayonu | 03.01.1935 |
| 5. Dərəkənd | Dzoragyuğ | 03.01.1935 |
| 6. Hacıkənd | Debed | 03.01.1935 |
| 7. Hacıqara | Makarasen | 01.03.1946 |
| 8.Həmzəçimən (Bozigah) | Markahovit | 25.01.1978 |
| 9. Xancığaz | Gözəldərə | 01.06.1940 |
| 10. Kolagirən | Antaramut | 10.09.1948 |
| 11. Kolagirən qəsəbəsi | Dzoraget | 25.01.1978 |
| 12. Qamışqut | Hegeknut | 03.01.1935 |
| 13.Qranit zavodu qəsəbəsi | Qranitavan | 09.07.1968 |
| 14.Makaraşen (Hacıqara) | Lernapat | 26.09.1957 |
| 15. Mollaqışlaq | Güllüdərə | 25.01.1978 |
| 16. Nikitino | Fioletovo | 03.01.1935 |
| 17. Sarımsaxlı | Karaberd | 04.04.1946 |
| 18. Şahəli | Bahaqon | 10.04.1957 |
| 19.Sahəli stansiya qəsəbəsi | Vahaqnadzor | 25.01.1978 |

## XIDIR ALOVLU
*(1939)*

*Xıdır Binnət oğlu Aloyev - şair, publisist*

1939-cu ilin mayın 28-də Qərbi Azərbaycanın Pəmbək mahalının Gözəldərə kəndində [İndiki Ermənistan Respublikasının Quqark (keçmiş Böyük Qarakilsə, Kirovakan) rayonu] əkinçi ailəsində anadan olmuşdur. Doğma kəndində yeddiillik məktəbi bitirdikdən sonra Saral kənd orta məktəbində təhsilini davam etdirmişdir (1953-1956).

Azərbaycan Dövlət Universitetinin kimya-biologiya fakültəsinə daxil olmuş, iki ildən sonra ailə vəziyyətinə görə təhsili yarımçıq buraxıb Sumqayıt Alüminium Zavodunda işləmişdir. Burada usta köməkçisindən sex rəisi vəzifəsinədək yüksəlmişdir (1959-1965). ADU-nun filologiya fakültəsinin qiyabi şöbəsini bitirmişdir (1960-1966). Sumqayıt şəhər beynəlmiləl məktəbində müəllimlik fəaliyyətinə başlamışdır (1966-1972). Məktəb direktoru vəzifəsində çalışmışdır (1972-1995). Sumqayıt şəhər İcra hakimiyyəti başçısının sənaye və iqtisadi məsələlər üzrə müavini olmuşdur (1995-2000).

Yeni Azərbaycan Partiyasının Sumqayıt şəhər təşkilatının yaradıcılarından biri olmuş (1993-cü ildən) və 2000-ci ildə Milli Məclisə deputat seçilmişdir. Bədi yaradıcılığa erkən başlamışdır. İlk mətbu şeiri 1959-cu ildə "Ədəbi Ermənistan" almanaxında çap olunmuşdur. Bundan sonra Azərbaycan dövri mətbuatında şeirləri və poemaları müntəzəm nəşr olunmuşdur. İlk şeir toplusu – "Baharla görüş" 1977-ci ildə "Gənclik" nəşriyyatında çapdan çıxmışdır.

XX əsrin 60-cı illərində Sumqayıt ədəbi birliyini yaratmış və ona rəhbərlik etmişdir. Rəsmi nümayəndə heyətinin tərkibində





Çin, İsveçrə, Cənubi Afrika, Səudiyyə Ərəbistanı ölkələrində səfərdə olmuşdur.

Publisistika və elmi yaradıcılığa xüsusi diqqət yetirir: "Əliyev və erməni terrorizmi", "Korrupsiyaya qarşı mübarizənin yeni mərhələsi", "Həqiqətin tarixi", "Tarixi şans və tarixi şəxsiyyət" əsərləri onun qələminin bəhrəsidir.

**Əsərləri:**

1. Baharla görüş. Bakı, Gənclik, 1977, 61 səh., 3000 nüs.
2. İttiham. Bakı, Azərnəşr, 1999, 115 səh., 2000 nüs.
3. Həqiqətin tarixi, tarixin həqiqəti. Bakı, Nurlan, 2004, 303 səh., 500 nüs.
4. Heydər Əliyev haqqında seçmələr. Bakı, Nurlan, 2004, 98 səh., 500 nüs.
5. Şeir və poemalar. Sumqayıt, Zərdabi nəşriyyatı, 2005, 143 səh., 3000 nüs.
6. Sərkərdə. Bakı, Nurlan, 2005, 125 səh., 500 nüs.

# İMAMVERDİ HACIYEV
*(1989)*

*İmamverdi İsmixan oğlu Hacıyev – publisist*

İmamverdi İsmixan oğlu Hacıyev 1989-cu ildə Sumqayıt şəhərində anadan olub. Atası əslən Qərbi Azərbaycanın Pəmbək mahalının Xancığaz (sonra Gözəldərə adlandırılıb) kəndindəndir. 2007-ci ildə Bakı şəhərində Nərimanov rayonunda 177 saylı orta məktəbi bitirib. Ali təhsilini 2008-2013-cü illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin tarix fakültəsində alıb. Subaydır.

**Əsəri:**

1. Sərkərdə və döyüşçü ömrü (Sovet İttifaqı Qəhrəmanı, qvardiya polkovniki Xıdır Mustafayevə həsr olunur). Bakı, Uni Print, 2015, 227 səh.





# QƏRBİ AZƏRBAYCANIN PƏMBƏK MAHALININ SPİTAK RAYONU (KEÇMİŞ HAMAMLI)




Ermənistan SSR-də (1920-1991) inzibati rayon. 1937-ci il dekabrın 31-də yaradılıb. Rayonun adı 1937-ci il dekabrın 31-dən 1946-cı il sentyabrın 26-na qədər Hamamlı, həmin tarixdən etibarən isə Spitak adlandırılıb. Ərazisi 592 km² -dir.

1983-cü il məlumatına görə əhalisi Spitak şəhəri ilə birlikdə 42.8 min nəfər olmuşdur. Rayonun ərazisi Stepenavan (Cəlaloğlu), Quqark (Böyük Qarakilsə), Ələyəz, Axuryan və Qukasyan rayonları ilə həmsərhəddir. Rayon Pəmbək vadisində, Pəmbək çayının yuxarı hissəsində yerləşir.

1801-ci ildə Gürcüstanın tərkibində olan Pəmbək mahalı da Rusiya imperiyasının ərazisinə qatıldı. Eranın əvvəllərindən

XVIII əsrin sonlarına kimi ərazi Armaniyanın (Ərməniyyənin), Ərəb xilafətinin, Səlcuq imperiyasının, Elxanilər dövlətinin (moğol-tatarlar), Osmanlı imperatorluğunun, Azərbaycan Səfəvilər dövlətinin və Qacarlar dövlətinin hakimiyyəti altında olmuşdur. Çar Rusiyası dövründə rayonun indiki ərazisi İrəvan quberniyasının Aleksandropol (keçmiş Gümrü) qəzasının Böyük Qarakilsə nahiyəsinə aid edilmişdir.

Daşnak Ermənistanında (1918-1920) Sovet hakimiyyəti qurulduqdan (1920-ci il noyabrın 29-u) sonra rayonun ərazisi yeni yaradılmış Loru-Pəmbək qəzasının (1920-1930) və 1930-1937-ci illərdə Böyük Qarakilsə (indiki Quqark) rayonunun tərkibində olmuşdur.

XIX əsrin əvvəllərinə kimi əhalisi, əsasən, türklər olmuşdur. Bu tarixdən sonra Rusiya əraziyə Osmanlı imperiyasından (Türkiyə) və Qacarlar dövlətindən (İran) çoxlu sayda erməni (hay) köçürüb yerləşdirdi. Artıq XX əsrin 20-ci illərində əhalinin nisbəti ermənilərin xeyrinə kəskin şəkildə dəyişdi. Buna 1905, 1918-1920-ci illərdə ermənilərin türklərə qarşı törətdikləri qanlı soyqırımı və departasiya hərəkətləri də öz təsirini göstərmişdir.

1948-1953-cü illərdə SSRİ-nin o zamankı rəhbərliyi (İosif Stalin, Molotov, Mikoyan və s.) tərəfindən Qərbi Azərbycandan (Ermənistan SSR) türklərin (azərbaycanlılar) Azərbaycan SSR-nin Mil-Muğan bölgəsinə köçürülməsinə dair qəbul olunmuş qərarlar nəticəsində rayonun bir çox kəndləri də yerindən-yurdundan oldu. Onların çoxu sonralar, yəni İ.Stalin öləndən sonra doğma vətənlərinə qayıtdı. 1988-ci ilin sonlarında isə yenidən qovuldular.

XIX-XX əsrlərdə aşağıdakı kəndlərdə türklər yaşamışdır: 1. Güllücə (Sarabart) (qarışıq-türk, erməni) (1918); 2. Güllüdoğan (1918) (qarışıq-türk, erməni) (1918); 3. Əfəndi (Qaradzor) (qarışıq-türk, erməni) (1918); 4. Çikdəməl (Arevaşağ) (qarışıq-türk, erməni); 5. Qızılörən (Şenavan) (1988); 6. Qursalı (1988); 7. Saral (1988). Ümumiyyətlə, rayonun türklər yaşayan 20-dən çox kəndi olmuşdur.





1988-ci ildə rayonun ərazisində bir rayon tabeli şəhər [**Spitak** (1946-cı il aprelin 26-a kimi Hamamlı) şəhəri – İrəvan – Tiflis dəmiryol xəttinin və Pəmbək çayının (Kür hövzəsi) sahilində yerləşir. İrəvan şəhərindən 102 km məsafədədir. Liftqayırma zavodu, yeyinti və yüngül sənaye müəssisələri var idi. 1988-ci il dekabrın əvvəlində baş vermiş zəlzələ nəticəsində tamamilə dağılıb], bir şəhər tipli qəsəbə [**Şirakamut** (1978-ci il yanvarın 25-ə kimi Nalbənd) qəsəbəsi rayon mərkəzindən 11 km məsafədə yerləşir. Qəsəbə sovetliyinə Şirakamot qəsəbəsindən 2 km məsafədə yerləşən Tapanlı (1978-ci ildən Geğasar) kəndi də daxildir], 11 kənd sovetliyi [1. Arevaşağ (Cikdəməl); 2. Artagyuğ (keçmiş Qaltaxçı); 3. Craşen (keçmiş Vardanab); 4. Katnacur (keçmiş Qaral); 5. Qursalı; 6. Lernantsk (keçmiş Spitak); 7. Lisaxpyur (keçmiş Ağbulaq); 8. Medz Pərni (keçmiş Bəykənd); 9. Sarahat (keçmiş Güllücə); 10. Tsaxkaşen (keçmiş Avdıbəy); 11. Tsilkar (keçmiş Mincuqlu)] və 22 yaşayış məntəqəsi [1. Arevşoq (Cikdəməl); 2.Artayuğ (Qaltaxçı); 3.Craşen (Vardanas); 4.Geğasar (Tapanlı); 5. Ceharot (Keşişkənd); 6. Xikoyan (Qaraboya); 7. Katnacur (Qaral); 8. Qaradzor (Əfəndi); 9. Qursalı; 10. Lernautsk (Spitak); 11. Lernavan (Qaçağan); 12. Lusaxpur (Ağbulaq); 13. Medz Pərni (Bəykənd); 14. Pəmb; 15. Saraart (Güllücə); 16. Saral; 17. Saralanc (Göy Yoxuş); 18. Sarameç (Çotur); 19. Spitak (Hamamlı); 20. Şirakamut (Nalbənd); 21. Tsax kaber (Avdıbəy, Tsaxkaşen); 22. Tsilkar (Muncuqlu)] olmuşdur.

1935-1978-ci illərdə Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin imzaladığı fərmanlarla dəyişdirilərək erməniləşdirilmiş türk kəndləri

| Keçmiş (əsl) adı | Yeni adı | Dəyişildiyi tarix |
|---|---|---|
| 1. Ağbulaq | Lisaxpur | 24.04.1946 |

| | | |
|---|---|---|
| 2. Avdıbəy | Tsaxkaşen | 4.05.1939 |
| 3.Bəykənd | Medz Pərni | |
| 4. Çikdəməl | Arevşağ | 25.01.1978 |
| 5. Çotr | Sarameç | 26.04.1946 |
| 7. Goran | Qoqaran | 26.04.1946 |
| 8. Göy yoxaş | Saralanc | 26.04.1946 |
| 9. Güllücə | Sarahart | 19.04.1950 |
| 10. Hamamlı | Spitak | 26.04.1946 |
| 11. Keşişkənd | Gearot | 3.01.1935 |
| 12. Qaçağan | Lernavan | 26.04.1946 |
| 13. Qaltaxçı | Artaqyuğ | 26.04.1946 |
| 14. Qaraboya | Xikoyan | 26.04.1946 |
| 15. Qaral | Katnacur | 26.04.1946 |
| 16. Qızılörən | Şenavan | 26.04.1946 |
| 17. Muncuqlu | Tsilkar | 26.04.1946 |
| 18. Nalbənd qəsəbəsi | Şirakamut | 25.01.1978 |
| 19. Spitak | Lernantsk | 19.04.1950 |
| 20. Tapanlı | Geğasar | 25.01.1978 |
| 21.Tsaxkaşen (Avdıbəy) | Tsaxkaber | 21.01.1967 |
| 22. Vardnav | Geraşen | 2.03.1940 |

Spitak (keçmiş Hamamlı) rayonu Bazum, Şirək və Pəmbək dağ silsilələri arasındakı Pəmbək dərəsində yerləşir. Pəmbək çayının hövzəsi rayonun bütün ərazisini əhatə edir. Yuxarıda da qeyd etdiyimiz kimi rayonun ərazisində yerləşmiş Avdıbəy, Qaçağan, Çikdəməl, Çorut, Nalbənd, Göy Yoxuş, Tapanlı, Ağbulaq, Qaral, Muncuqlu, Əfəndi, Hamamlı, Yaqublu, Cacur və b. kəndlər 1918-1920-ci illərdə ermənilərin nizami ordu hissələrinin hücumuna





məruz qalmış və nəticədə, bu kəndlərin türk əhalisi itgilər verərək doğma yurdlarını tərk etməyə məcbur olmuşdular.

1988-ci ildə yalnız Saral və Qursalı sırf türk kəndi, Qızılörən isə qarışıq, yəni həm türklər, həm də ermənilər (haylar) yaşayan kənd idi.

Bu kəndlərin türk əhalisi də 1988-ci il noyabrın sonu – dekabrın əvvəllərində ermənilər tərəfindən zorla qovuldular. Bu zaman həm Qursalı, həm də Saral kəndlərinin əhalisi ermənilərin hücumuna məruz qaldılar. Nəticədə ölən və yaralananlar oldu. Zəlzələ zamanı Saral kəndində 5 nəfər, Qursalıda isə 16 nəfər həlak oldular. İndi onlar Azərbaycan Respublikasının müxtəlif bölgələrində yaşayırlar.

## QURSALI KƏNDİ

### MƏMMƏD İBRAHİM
*(1939)*

*Məmməd Bayram oğlu İbrahimov – şair*

1939-cu il iyulun 20-də Qərbi Azərbaycanın Pəmbək mahalının Qursalı kəndində [indiki Ermənistan Respublikasının Spitak (keçmiş Hamamlı) rayonu] anadan olmuşdur. Gəncliyi Gürcüstan SSR-nin Borçalı mahalının Marneuli rayonunun Qaçağan kəndində keçmişdir. Burada orta məktəbin yeddinci sinfini bitirdikdən sonra iki il tikinti trestində fəhlə işləmişdir. Bakı Neft Texnikumunun "Qaz və neft texnologiyası" fakültəsində təhsil almışdır. Yeni Bakı Neftayırma Zavodunda texnik-texnoloq olmuşdur. Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsində təhsilini davam etdirmişdir (1965-1971). 1971-ci ildən orta məktəbdə Azərbaycan dili və ədəbiyyatı müəllimi işləmişdir.

İlk qələm təcrübələri zavodda nəşr edilən qəzetdə çap olunmuşdur. Dövri mətbuatda arabir lirik şeirlərini dərc etdirmişdir.

**Əsərləri:**

1. Dönərik biz vətənə. Bakı, Ağrıdağ, 1998,186 səh., 500 nüs.
2. Ziyalı kəndimiz. Bakı, Nərgiz, 2000, 193 səh., 500 nüs.





### NAMİQ QURSALI
*(1960)*

*Namiq Vəli oğlu Məmmədov - şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü (2007)*

1960-cı il yanvarın 1-də Qərbi Azərbaycanın Pəmbək mahalının Qursalı kəndində [indiki Ermənistan Respublikasının Spitak (keçmiş Hamamlı) rayonu] anadan olmuşdur. Doğma kəndində orta təhsil almışdır. (1967-1977). Əmək fəaliyyətinə Qursalı kəndində N.Nərimanov adına sovxozda fəhlə kimi başlamışdır (1977-1979).

Ordu sıralarında hərbi xidməti borcunu yerinə yetirmişdir (1979-1981). Rusiyada Perm Dövlət Kənd Təsərrüfatı İnstitutunda ali təhsil almışdır (1981-1986). Perm vilayətinin kənd təsərrüfatı sahəsində müxtəlif vəzifələrdə işləmişdir (1986- 1989). Hazırda Azərbaycan Dövlət Dəmir Yolu İdarəsində mühəndis vəzifəsində çalışır (1989-cu ildən).

Bakı Hüquq Kadrlarının Təkmilləşdirmə İnstitutunda qiyabi təhsil almışdır (1998). Bədii yaradıcılığa kiçik yaşlarından başlamışdır. İlk şeirləri "Sərbəst düşüncə" qəzetində dərc olunmuşdur. Sonra dövri mətbuatda vaxtaşırı çıxış etmişdir. Şeirlərinə mahnı bəstələnmişdir.

**Əsərləri:**

1. Qursalı Həsrəti. Bakı, Adiloğlu, 2004, 231 səh., 200 nüs.
2. Külsüz, tüstüsüz ocağım. Bakı, Adiloğlu, 2006, 213 səh., 200 nüs.
3. Sinəmə, sözümə sığmayan sevgi. Bakı, Adiloğlu 2008, 187 səh., 200 nüs.

## RƏŞİD NAMAZ
*(1955-2012)*

*Rəşid Mehralı oğlu Namazov - nasir*

1955-ci il noyabrın 26-da Qərbi Azərbaycanın Pəmbək mahalının Qursalı kəndində [indiki Ermənistan Respublikasının Spitak (keçmiş Hamamlı) rayonu] anadan olmuşdur. Burada orta məktəbi bitirmişdir (1972). Azərbaycan Dövlət Pedaqoji İnstitutunun coğrafiya fakültəsində təhsilini davam etdirmişdir (1972-1976). Əmək fəaliyyətinə Yardımlı rayonunun Çayüzü, Nisəkələ, Peşdəsər kəndlərində müəllim kimi başlamışdır (1976-1979). Qərbi Azərbaycanın Pəmbək mahalının Qursalı kəndində rabitə şöbəsinin və əmanət kassasının müdiri (1982-1988), Rusiyanın Vladimir şəhərində tikinti-quraşdırma idarəsində fəhlə olmuşdur (1988-1992). Bakıda "Vəhdət" qəzetində müxbir (1992-1993), "Vətən həsrəti", "Vətəndaş" qəzetlərində böyük müxbir, şöbə müdiri (1993-1994) işləmişdir. Azərbaycan Televiziya və Radio Verilişləri Şirkətində Xəbərlər baş redaksiyasında böyük redaktor vəzifəsində çalışıb (1994-cü ildən). Bədii yaradıcılığa 80-ci illərdən başlamışdır. İlk jumoristik hekayələri "Sovet kəndi" və "Azərbaycan müəllimi" qəzetlərində dərc olunmuşdur. Bundan sonra "Kirpi", "Sovet Ermənistanı", "Azərbaycan təbiəti", "Vətəndaş", "Aydınlıq", "Vətən həsrəti" qəzetlərində yumoristik hekayələri və oçerkləri müntəzəm dərc olunmuşdur.

**Əsərləri:**

1. Pəmbək mahalının Qursalı kəndi. Bakı, «Adiloğlu», 2007, 424 səh. (Vaqif Sayadoğlu ilə birlikdə).





## SARAL KƏNDİ

### ƏLƏMDAR İSA
*(1945)*

*Ələmdar Ziloy oğlu İsayev-şair, tərcüməçi*

1945-ci il fevralın 18-də Qərbi Azərbaycanın Pəmbək mahalının Saral kəndində [indiki Ermənistan Respublikasının Spitak (keçmiş Hamamlı) rayonu] anadan olub. Orta təhsilini Saral orta məktəbində, ali təhsilini isə 1968-1973-cü illərdə Azərbaycan Dövlət Xarici Dillər İnstitutunun alman dili fakültəsində alıb.

1976-1994-cü illərdə Azərbaycan Respublikasının Mətbuatda Dövlət Sirlərini Mühafizə İdarəsində Baş redaktor-senzor vəzifəsində çalışmışdır. Hal-hazırda təqaüddədir. Şeirlərini Ələmdar İsa imzası ilə yazır. O həmçinin dahi alman şairi Yohan Volfqanq Götenin bir çox şeirlərini orjinaldan dilimizə tərcümə etmişdir.

### İMAN USUBOĞLU
*(1954)*

*İman Süleyman oğlu Yusifov - şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü (2001)*

1954-cü il yanvarın 8-də Qərbi Azərbaycanın Pəmbək mahalının [indiki Ermənistan Respublikasının Spitak (keçmiş Hamamlı) rayonu] Saral kəndində anadan olmuşdur. Burada kənd orta məktəbini bitirdikdən sonra Azərbaycan Dövlət

Universitetinin kitabxanaçılıq fakültəsində ali təhsil almışdır (1971-1976).

Bakı, Sumqayıt, Oryol (Rusiya Federasiyası), Şəmkir şəhərlərində fəhlə, frezerçi, müəllim, mühasib və s. olmuşdur. Doğma Saral kəndində kitabxanaçı, qonşu Qızılörən kənd məktəbində müəllim işləmişdir (1978-1983). Azərbaycana köçəndən sonra Şəmkir SES-də çalışmışdır (1983-1989).

Hazırda Bakı şəhərində yaşayır. Bədii yaradıcılığa XX əsrin 80-ci illərindən başlamışdır. "Azərbaycan", "Ulduz", "Xəzər" jurnallarında şeirləri çap olunmuşdur.

## SƏMƏD SARALLI

*(1934-2002)*

*Səməd İdris oğlu Bayramov - şair*

Səməd İdris oğlu Bayramov 1934-cü il dekabrın 31-də Qərbi Azərbaycanın Pəmbək mahalının Saral kəndində [indiki Ermənistan Respublikasının Spitak (keçmiş Hamamlı) rayonu] anadan olub. Orta təhsilini 1943/1944-1953/1954-cü tədris illərində Saral orta məktəbində alıb. Yazıb-yaratmağa hələ 7-ci sinifdə oxuyandan başlayıb. Şeirləri və məqalələri məktəbin divar qəzetlərində, uşaq jurnallarında mütəmadi olaraq dərc olunurdu.

1954-cü ildə orta məktəbi əla qiymətlərlə bitirdikdən sonra M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutuna daxil olmuşdur. Ancaq bir müddət sonra maddi çətinlik üzündən təhsilini yarımçıq qoyub doğma kəndinə qayıdır. 1957-ci ildə hərbi xidmətə çağırılır. Əsgəri borcunu Moskva şəhərində keçirən Səməd İdris oğlu xidmət müddəti başa çatdıqdan sonra Sarala qayıdır və bədii yaradıcılığını davam etdirir.





1959-cu ildən "Sovet Ermənistanı" qəzetinin zona müxbiri vəzifəsini yerinə yetirir. İrəvan radiosunda şeirləri və məqalələri ardıcıl olaraq səslənirdi. Bundan əlavə onun "Sovet Ermənistanı" qəzetində və "Ədəbi Ermənistan" almanaxında şeirləri çap olunmuşdur.

1988-ci ilə kimi müddətsiz Spitak (keçmiş Hamamlı) rayonunun Qızılörən (sonra Şenavan) kəndində müəllim, Kirovakan (əvvəl Böyük Qarakilsə) şəhərində Ermənistan SSR Daxili İşlər Nazirliyinin nəzdində olan hərbiləşdirilmiş mühafizə idarəsində baş serjant vəzifəsində və Spitak (Hamamlı) rayonunda yerləşən 63 607 saylı hərbi hissədə bölmə komandiri vəzifəsində işləmişdir.

1988-ci ilin sonunda o da həmyerliləri kimi ermənilər (haylar) tərəfindən zorla doğma yurdundan qovuldu və ailəsi ilə birlikdə Bakı şəhərində məskunlaşdı. O, Bakı şəhərində Daxili İşlər Nazirliyinin Nəsimi rayonunun ərazisində yerləşən hərbiləşdirilmiş hissəsində yoxlayıcı və Azərbaycan Respublikasının Rabitə Nazirliyinin Azərpoçt sistemində növbə rəisi vəzifəsində çalışır.

O, Bakıda yaşadığı müddətdə şeirlərini "Ədəbiyyat və incəsənət", "Vətən səsi", "Rabitə dünyası", "Azərbaycan" qəzetlərində, "Kirpi", "Mozalan", "Ulduz", "Pioner" jurnallarında çap etdirir.

O, 1959-cu ildə həmkəndlisi Zərnigar xanımla ailə qurur. Bu nigahdan 5 övladı – bir qızı (Xeyransa) və 4 oğlu (Vahid, Zahid, Cavid, Sabit) dünyaya gəlir. Oğlu Zahid 1992-ci ildə Qarabağ uğrunda gedən döyüşlərin birində itkin düşdü. Gözü yaşlı qalan həyat yoldaşına təsəlli verən "Ağlama" şeirini yazır:

2002-ci il mayın 16-da Bakıda vəfat etmişdir.

**Əsəri:**

1. Bu dağ mənim öz dağımdır. Bakı, 2003, 192 səh.

## SÜLEYMAN ŞAMAN
*(1960)*

*İsmayılov Süleyman İsmayıl oğlu – şair*

1960-cı il avqustun 8-də Qərbi Azərbaycanın Pəmbək mahalının Saral kəndində [indiki Ermənistan Respublikasının Spitak (keçmiş Hamamlı) rayonu] müəllim ailəsində anadan olub. Orta təhsilini 1967-1977-ci illərdə Saral kənd orta məktəbində, ali təhsilini isə 1986-1991-ci illərdə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun əczaçılıq fakültəsində alıb. Ali təhsil alana qədər o 1979-1981-ci illərdə SSRİ Silahlı Qüvvələrində hərbi xidmətdə olub. 1981-1986-cı illərdə isə Rusiyanın müxtəlif şəhərlərində istehsalatda çalışıb.

1992-1998-ci illərdə Azərbaycan Respublikasının Silahlı Qüvvələrində zabit kimi qulluq edib və kapitan rütbəsində ordudan tərxis olunub. Hazırda Bakı şəhərində əczaçılıq fəaliyyəti ilə məşğuldur.

Əsərlərini "Şaman" təxəllüsü ilə çap etdirir. "Tanrı milləti" kitabının müəllifidir. Onun "Vətəndaş yetimliyi" povesti doğma yurdlarından didərgin salınan həmvətənlərimizin taleyindən bəhs edir.





## ZƏKİYYƏ ELRUH
*(1962)*

*Zəkiyyə Həsən qızı Pənahova - şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü (1998)*

1962-ci il martın 20-də Qərbi Azərbaycanın Pəmbək mahalının Saral kəndində (indiki Ermənistan Respublikasının Spitak (keçmiş Hamamlı) rayonu) ziyalı ailəsində anadan olub. Orta təhsilini 1969-1979-cu illərdə Saral orta məktəbində, ali təhsilini isə 1982-1989-cu illərdə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun (sonra Azərbaycan Tibb Universiteti) pediatriya fakültəsində alıb. Ali təhsil alana qədər o, 1979-1981-ci illərdə Saral kəndində sovxozda fəhlə işləyib, 1981-1982-ci illərdə isə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun hazırlıq şöbəsində oxuyub. Hazırlıq şöbəsini bitirərək imtahan verib və istitutun birinci kursuna daxil olub. Tibb İnstitutunu müvəffəqiyyətlə başa vuran Zəkiyyə xanım 1989-1992-ci illərdə 10 saylı Tibb Sanitar Hissəsində, 1992-2006-cı illərdə 31 saylı Bakı şəhər poliklinikasında, 2006-cı il iyunun 1-dən 2004-cü il sentyabrın 16-a kimi 13 saylı Bakı şəhər Uşaq Poliklinikasında pediatr həkim işləyib. Hal-hazırda 39 saylı Bakı şəhər Poliklinikasında çalışır.

2013-cü ildə "Pediatriya" üzrə 2-ci ixtisas dərəcəsi alıb. Beynəlxalq Homotoksikologiya Cəmiyyətinin üzvüdür və homeopatiyanı, izopatiyanı mənimsəyib. 12 sertifikat və diploma layiq görülüb. Bakıda keçirilən "Tətbiqi homotoksikologiya" Modul A, Modul B, Modul C Beynəlxalq seminarlarda və layihələrin həyata keçirilməsində iştirak edib. 2006-cı ildə "Demoqrafiya və sağlamlıq" sorğusunda biomarker vəzifəsini icra edib. 2007-ci ildə Səhiyyə Nazirliyinin Birləşmiş Millətlər

Təşkilatının (BMT) Uşaq Fondu ilə birlikdə həyata keçirdiyi "Sağlamlıq və qidalanma" proqramı çərçivəsində uşaq ölümü səbəblərinin milli səviyyədə araşdırılması üzrə tətqiqatda ekspert kimi iştirak edib. Elmi və elmi-publisistik məqalələrlə müntəzəm olaraq müxtəlif mətbuat orqanlarında çıxış edir. 30 ildən çoxdur bədii ədəbiyyatla məşğuldur. "Qızıl qələm" və "Fəzilət" media mükafatlarına layiq görülüb. Müxtəlif mövzularda televiziya və radioda çıxışlar edib.

Qonşu Qursalı kəndinin sakini Məhəmmədəli Əhməd oğlu Ramazanovla ailə qurub. Hazırda həyat yoldaşı Bakı Dövlət Universitetinin fizika fakültəsinin dekanıdır. İki oğlu var: böyük oğlu Əhməd Məhəmmədəli oğlu Ramazanlı 1990-cı ildə Bakı şəhərində anadan olub. Hazırda Türkiyənin mərkəzi olan Ankara şəhərində Orta Doğu Tekniki Universitetində makina mühəndisliyi fakültəsində oxuyur. Kiçik oğlu İlqar isə 1992-ci ildə Bakıda anadan olub. Hazırda İsveçrədə EPEL-də magistr təhsili alır. İlqar dəfələrlə beynəlxalq riyaziyyat olimpiadalarında Azərbaycan və Türkiyəni təmsil edərək qızıl, gümüş, bürünc medallara layiq görülmüşdür. Rus, erməni, türk dillərini yaxşı, alman, ingilis dillərini isə qismən bilir. Bitərəfdir.

**Bədii əsərləri:**

1. Vətəndən ayrılan ölüncə ağlar. Bakı, 1996.
2. Bizdən aralı dağlar. Bakı, 2000.
3. Könlümün harayları. Bakı, 2004.
4. Payızda açan güllər. Bakı, 2008.
5. Vida rəngli yarpaqlar. Bakı, 2008.



# QƏRBİ AZƏRBAYCANIN VEDİBASAR MAHALI

## ARARAT (KEÇMİŞ VEDİ) RAYONU




Ermənistan SSR-də (1920-1991) inzibati rayon. 1930-cu il sentyabrın 9-da yaradılıb. 1964-1968-ci illərdə ləğv edilib və ərazisi Qəmərli (Artaşat) rayonuna birləşdirilib. 1968-ci ildə yenidən Ararat adı ilə bərpa olunub. Ərazisi 1399 km$^2$-dir. Rayon mərkəzi şəhər tipli Böyük Vedi qəsəbəsidir. Rayon mərkəzindən





İrəvan şəhərinə olan məsafə 49 km-dir. Rayon mərkəzinə ən yaxın dəmiryol dayanacağı 7 km kənarda yerləşən Şirazlı (Aygevan) stansiyasıdır.

Rayon qərbdən Türkiyə ilə (Araz çayı vasitəsilə), cənub-şərqdən Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə, habelə Ermənistan Respublikasının Yeğeqnadzor (Keşişkənd, Mikoyan) rayonu, cənub-şərqdən Martuni (keçmiş Aşağı Qaranlıq) rayonu, şərqdən Kotayk (Abovyan) rayonu, şimal-qərbdən isə Artaşat rayonu ilə həmsərhəddir. Ağrı vadisinin bir hissəsini təşkil edir.

1988-ci ilə kimi Ararat (keçmiş Vedi) rayonunun ərazisində aşağıdakı türk kəndləri mövcud olmuşdur;

1. Abbasabad (1828-1831-ci illərdə);
2. Avşar (Kəlbalavan) (qarışıq-türklər və ermənilər) (1988-ci ildə);
3. Ağasıbəyli (Ağaslı) (qarışıq-türklər və ermənilər) (1931-ci ildə);
4. Ağbulaq (1918-1920-ci illərdə);
5. Ağviran (Ağcaviran) (XIX əsrin əvvəllərində);
6. Ağkənd (1918-1920-ci illərdə);
7. Ağkilsə (Ağcakilsə) (XVIII əsrin sonu- XIX əsrin əvvəllərində);
8. Ağkilsə (1948-1960-ci illərdə);
9. Almalı (Almalıq) (XIX əsrin əvvəllərində);
10. Arazdəyən (Qoturlu) (qarışıq-türklər, müsəlman kürdlər, yezidi kürdlər və ermənilər) (1988-ci ildə);
11. Armaş (qarışıq - türklər, müsəlman kürdlər və ermənilər) (1988-ci ildə);
12. Aşağı Qarabağlar (qarışıq-türklər və müsəlman kürdlər) (1918-1920-ci illərdə);
13. Aşağı Ərmik (1949-cu ildə);
14. Bağçacıq (1959-cu ildə);

15. Bayburt (1988- ci ildə);
16. Birəli (Pirəli) (XIX əsrin ortalarında);
17. Böyük Bağ (Bağlar);
18. Böyük Vedi (Vedi) (qarışıq-türklər və ermənilər) (1988-ci ildə);
19. Böyük Gilanlar /Böyük Gilənar/ (1949-cu ildə);
20. Bunut (Bunut Qaratorpaq) (1918-1920-ci illərdə);
21. Vəlican (1828-ci ildə);
22. Qazançı (1828-1829-cu illərdə);
23. Qayçı (Qançı) (XVIII əsrdə);
24. Qaladibi (Qalacıq, Qalakənd) (1949-cu ildə);
25. Qarabağ (1826-1829-cu illərdə);
26. Qaraqoyunlu (Yuxarı Qaraqoyunlu) (XIX əsrin sonu-XX əsrin əvvəllərində);
27. Qaralar (Əliqara) (qarışıq-türklər, müsəlman kürdlər və ermənilər) (1988-ci ildə);
28. Qaratorpaq (Xunut Qaratorpaq) (1939-cu ildə);
29. Qaraxaç (qarışıq-türklər və ermənilər) (1948-ci ildə);
30. Qaraca Abdal (1826-1828-ci illərdə);
31. Qaşqa (qarışıq-türklər və ermənilər) (XIX əsrin ortalarında);
32. Qədirli (1930-cu ildən sonra) (qarışıq-türklər və ermənilər);
33. Qızılverən (Qızılviran, Qızılxaraba) (1826-1828-ci illərdə);
34. Qulaqsız (1826-1828-ci illərdə);
35. Daşlı (Daşdı) (1988-ci ildə) (qarışıq-türklər və ermənilər);
36. Dvin (Düyün);
37. Dəvəli (Qaynar) (qarışıq-türklər, müsəlman kürdlər və ermənilər) (1988-ci ildə);
38. Dəvəli şəhəri (Dəvəli Sement Zavodu qəsəbəsi) (qarışıq-türklər, müsəlman kürdlər, ermənilər və ruslar) (1988-ci ildə);





39. Dəhnəz (qarışıq - türklər və müsəlman türklər) (1948-ci ildə);
40. Əzizkənd (Aşağı Camışbasan) (1948-1949-cu illərdə);
41. Ələyəz (Kiçik Şirazlı) (1918-ci ildə);
42. Əliabad (1918-1920-ci illərdə);
43. Əliqızıl (1826-1828-ci illərdə);
44. Əliqırıq (Alqırıq) (qarışıq-türklər və ermənilər) (1949-cu ildə);
45. Əliməmməd (Əliməhəmməd qışlağı, Alməmməd) (1949-cu ildə);
46. Əlimərdan (1949-cu ildə);
47. Əngiz?
48. Ərmik (Yuxarı Ərmik) (1949-cu ildə);
49. Əsni (Asnı )(1918- 1920-ci illərdə);
50. Əfşarlı (Ovşarlı) (qarışıq - türklər və ermənilər) (1988-ci ildə);
51. Əhmədli (Xanəhməd) (1918-1920-ci illərdə);
52. Zəncirli (Zincirli) (1821 - 1928 ci illərdə);
53. Zimmi (qarışıq - türklər və müsəlman kürdlər) (1949-cu ildə);
54. İmirzik (1949-cu ildə);
55. İnqala (Kiçik Haxış) (1949-cu ildə);
56. Yaycı (1918-1920-ci illərdə);Yappa (1930-cu illərdə);
57. Yeddiqardaş (1905-ci illərdə);
58. Yellicə (İllicə) (1949-cu ildə);
59. Yengicə (qarışıq-türklər və ermənilər) (1988-ci ildə);
60. Yeni Şahablı (qarışıq-türklər və ermənilər) (1949-cu ildə);
61. Yuxarı Qarabağlar (Qarabağlar) (1950-ci ildə);
62. Karvansara?
63. Keşişverən (Keşişviranı) (1826-1828-ci illərdə);
64. Keşişdağ (Keçiddağ) (1919-cu ildə);
65. Kənizək (Yuxarı və Aşağı Kənüz);

66. Kərkab (1930-cu illərdə);
67. Kiçik Bağçacıq (?);
68. Kiçik Vedi (qarışıq-türklər və ermənilər) (1988-ci ildə);
69. Kiçik Gilanlar (Kiçik Gilanar, Tap Gilanar // Tap Gilənar) (qarışıq-türklər və ermənilər) (1950-ci ildə);
70. Kolanlı (Girmənşah) (1949-cu ildə);
71. Kam (1918-1920-ci illərdə);
72. Kotanlı (Seyid Kotanlı) (qarışıq-türklər və müsəlman kürdlər) (1949-cu ildə);
73. Kotuz (Gülbulaq) (1950-ci ildə);
74. Körpükənd (Körpüqulağı, Torpaqqala) (1949-cu ildə);
75. Külağıl (?)
76. Küsüs (Küsühlü Şətli) (1949-cu ildə);
77. Künnüt (Günlük, Künnüt Cəfərli) (XX əsrin əvvəllərində);
78. Goravan (Gorabad, Yenikənd) (qarışıq – türklər, ermənilər) 1988-ci ildə);
79. Göl (Gölkənd, Göllər) (XX əsrin əvvəllərində);
80. Gölaysor (Göl, Türk Gölü, Aysorgöl) (qarışıq-türklər, ermənilər və aysorlar) (1949-cu ildə);
81. Güldərviş (1918-ci ilin mayında);
82. Güneyyurd (Xalisa) (1905-ci ildə);
83. Lök (Lək) (XVIII əsrin sonlarında);
84. Məmmədabad (Muradabad, Qaracalar) (1905-ci ildə);
85. Məmmədrəsul (Məmmədrəsul qışlağı) (1905-ci ildə);
86. Məngük (əsas hissəsi 1949-cu ildə, son ailələr isə 1964-cu ildə);
87. Misir Dərviş (?);
88. Molla Əhməd (Molla Məhəmməd) (1930-cu illlərin əvvəllərində);
89. Musacıq (Musa Dərviş) (1826-1828-ci illərdə);
90. Nəsibli (Nəsibli qışlağı) ( ?);
91. Ortuk (Örtük) (?);





92. Reyhanlı (Sarıbaş yurdu) (qarışıq-türklər və ermənilər) (əsas əhali 1949-cu ildə, bir neçə ailə isə 1988-ci ildə deportasiya edilib);
93. Rəşoğlu (Rəşidoğlu) (?);
94. Saray (Əminkənd) (1826-1828-ci illərdə);
95. Sarıxanlı (1918-1920-ci illərdə);
96. Səfəralı (Səfəralı qışlağı) (1905-ci ildə);
97. Taytan (qarışıq-türklər və ermənilər) (1988-ci ildə);
98. Talasavan (1826-1828-ci illərdə);
99. Telli Baba (?);
100. Təzəkənd (Cığın Təzəkənd) (1939-cu ildə);
101. Tərəkəmələr (1918-ci ildə);
102. Xalisa (Xalisə) (1988-ci ildə) (qarışıq - türklər və ermənilər);
103. Xaraba Kotanlı (qarışıq-türklər və kürdlər), (kürdlər 1937-1938-ci illərdə Qazaxıstanın Oş vilayətinə sürgün olundular. 1949-cu ildə isə türklər deportasiya edildilər);
104. Xartlıq (Xartdıq) (1918-ci ildə);
105. Xaçlı (Hacılı) (1826-1988-ci illərdə);
106. Xıdırelyas (Xıdır İlyas) (?);
107. Xorvirab (Qədim Artaşad qala kilsə) (XIX əsrin sonları);
108. Xosrov (1948-ci ildə);
109. Xunut (Xınıt Xunut //Xınıt Qaraqoyunlu) (1918-1920-ci illərdə);
110. Haqverdi (?);
111. Hand (Hedut) (1949-cu ildə);
112. Haramlı (Şətli)(?);
113. Harunburun (Qırınburun) (1918-1920-ci illərdə);
114. Haxış (1950-ci illərdə);
115. Hacı Baba (1918-1920-ci illərdə);
116. Hacımirzə (Kürd kəndi) (müsəlman kürdlər) (1937-

1938-ci illərdə Qazaxıstanın Oş vilayətinə, türklər isə 1950-ci ildə Azərbaycan SSR-yə köçürüldülər);

117. Heyranıs (Heranos) (1945-ci ildə);
118. Həsənqala (Həsənli) (XIX əsrin sonları);
119. Hortum (Yuxarı Çanaxçı) (bir hissəsi 1950-ci ildə, qalanlar isə 1960-cı illərdə);
120. Çanaxçı (Aşağı Çanaxçı) (qarışıq-türklər və ermənilər) (XIX əsrin ortalarında);
121. Çardaqlı (?);
122. Çatma (Çatmadağ) (qarışıq - türklər və kürdlər) (1930-cu illərdə);
123. Çəmbərək (qarışıq-türklər və ermənilər) (1988-ci ildə);
124. Çəngli (Əlirzalar) (1935-ci ildə);
125. Çimənkənd (Qarabağlar, Çimən) (qarışıq-türklər, ermənilər və kürdlər) (1988-ci ildə);
126. Çincavat (XIX əsrdə);
127. Çobandərə (Aşağı Çobandərə və Yuxarı Çobandərə) (qarışıq-türklər və müsəlman kürdlər) (1905-ci ildə);
128. Cadqıran (Çudkənd, Qaraçorlu) (qarışıq-türklər, müsəlman kürdlər və ermənilər) (1935-ci ildə);
129. Camışbasan (XX əsrin əvvəllərində);
130. Cəfərli (Cəfərli Günnüt) (1949-cu ildə);
131. Cığın (Gölcığın) (1949-cu ildə);
132. Cığın Qaraqoyunlu (Aşağı Qaraqoyunlu, Qaraqoyunlu) (1949-cu ildə);
133. Şampan (Şərab Zavodu Qəsəbəsi) (qarışıq-türklər, müsəlman kürdlər və ermənilər) (1988-ci ildə);
134. Şahablı (İncidərə, Gəncəli, Köhnə Şahablı) (1905-ci ildə);
135. Yeni Şahablı (qarışıq - türklər və ermənilər) (1949-cu ildə);
136. Şəhriyar (1949-cu ildə);





137. Şidli (Qaraqoyunlu Şidli) (1988-ci ildə);
138. Şirazlı (1988-ci ildə);
139. Şirran (qarışıq - türklər və müsəlman kürdlər) (kürdlər 1937-ci ildə Qazaxıstanın Oş vilayətinə sürgün olunmuşdular);
140. Şıxlar (Şeyxlər) (qarışıq - türklər və ermənilər) (Bir hissəsi 1949-cu ildə, bir hissəsi isə 1988-ci ildə qovuldular);
141. Şorsu (Şorbulaq) (1826-1828-ci illərdə);
142. Şuğayıb (1949-cu ildə);

1970-ci ilin məlumatına görə Ararat (Vedi) rayonunun ərazisində 1 rayon tabeli şəhər [**Dəvəli şəhəri (Sement Zavodu qəsəbəsi)** -Vedibasar mahalının aran hissəsində, Ağrıdağ vadisində, Vedi (Ararat) rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsindən 14 km cənub-qərbdə, İrəvan şəhərindən 48 km-lik məsafədə, İrəvan-Naxçıvan-Bakı dəmiryol xəttinin və İrəvan – Naxçıvan avtomobil yolunun üstündə, Dəvəli kəndinin yanında rayon tabeli şəhər (1922-ci ildən). 1988-ci ilin sonuna kimi bu yaşayış məntəqəsində türklər (azərbaycanlılar), ermənilər (haylar), müsəlman və yezidi kürdlər və ruslar yanaşı yaşamışlar. 1988-ci ildən artıq erməni şəhəridir.

Dəvəli şəhərinin adı Dəvəli kəndinin adından götürülmüşdür. Kənd türk tayfalarından olan Qacarların bir qolu olan Dəvəlilər (Dəvəli) tayfasının adını daşıyır.

Şəhərin bünövrəsi 1923-cü ilin əvvəllərində Abbasqulu bəy Şadlınskinin təşəbbüsü ilə Dəvəli kəndi yaxınlığındakı kirəc mədəninin inşası ilə qoyulmuşdur. Bir müddət sonra onun təşəbbüsü ilə Vedi çayından tikinti sahəsini su ilə təchiz etmək üçün içməli və texniki su arxı da çəkilir.

Beşillik (1928-1933-cü illərdə) dövründə burada İrəvan – Naxçıvan dəmiryol xətti üzərində Dəvəli adlı yeni dəmiryol stansiyası açılır.

Zavod Abbasqulu bəyin ölümündən üç il sonra, yəni

1933-cü ilin payızında istifadəyə verilir. Zavodun istifadəyə verilməsində **Ağa Süleymanovun** (Süleymanuşağı tayfasındandır. O dövrdə Vedinin qlavası olmuşdur. Böyük Vedidə ilk rus-tatar məktəbinin açılmasına nail olmuş və övladlarına ali təhsil verməyi də unutmamışdır. Böyük oğlu Ağamirzə bəy Peterburqda ali mühəndis təhsili almış, digər oğlu Seyfulla Süleymanov isə İrəvanda gimnaziyada və Müəllimlər Seminariyasında oxumuş və SSRİ XDİK və XXİK sistemində məsul vəzifələrdə işləmişdir. O biri övladlar Sadıq və Əziz Süleymanovlar da dövrə görə təhsil almışdılar) oğlu Ağamirzənin böyük rolu olmuşdur], bir şəhərtipli qəsəbə [**Böyük Vedi** qəsəbəsi - Vedi çayının kənarında yerləşir. 1963-cü ildən şəhər tipli qəsəbədir. Şirazlı stansiyasında 7 km məsafədə yerləşir.

Böyük Vedi qəsəbəsi Vedibasar mahalının mərkəzində, mahalın dağlıq Millidərə, Cığındərə, Çanaxçıdərə bölgələri ilə düzənlik hissəsini birləşdirən yolların tən ortasında və kəsişmə mərkəz funksiyasına uyğun gəlirdi. Buradan mahalın hündür zirvələri Böyük və Kiçik Ağrı dağlar, şərqdə Qaraquzey, şimalda Ağdağ, Qaraquzeylə Ağdağın arasında Kotuz dağı yerləşir. 1828-ci ildən sonra, 1831-ci ildə İrandan ermənilər gətirilib yerləşdirilir (98 ailədə 430 nəfər). Lakin bir müddət sonra onlar kənddən çıxarıldılar. Onlar bir də 1922-ci ildən sonra Böyük Vedidə yerləşməyə nail olurlar. (1922-ci ildə 453 nəfər, 1926- cı ildə 261 nəfər, 1931- ci ildə 214 nəfər). Türklərin (azərbaycanlıların) sayı isə 1831-ci ildə 31 ailədə 799 nəfər, 1973- cü ildə 214 ailədə 1743 nəfər, 1886-cı ildə 286 ailədə 2110 nəfər, 1905- ci ildə 2387 nəfər, 1914-cü ildə 246 nəfər, 1922- ci ildə 1504 nəfər, 1926- cı ildə 1545 nəfər, 1931- ci ildə 1254 nəfər, 1956- cı ildə 122 nəfər, 1968-ci ildə 45 ev, 1988-ci ildə 40 ev olmuşdur. Ümumiyyətlə, 1972-ci ildə qəsəbədə 963 ailədə 5624 nəfər yaşamışdır. Onun da təxminən 250-300 nəfəri türk olmuşdur.

Türklərin sayının azalmasına 1905-1906-cı, 1918-1920-





ci illərdə baş vermiş erməni-türk münaqişələri (əslində, bu ermənilərin türklərə qarşı törətdikləri soyqırımı hərəkətləridir), 20-30-cu illərdə baş vermiş repressiyalar, 1941-1945-ci illərdə baş vermiş Almaniya - SSRİ müharibəsi («Böyük Vətən müharibəsi»), 1948-1953-cü illərdə həyata keçirilən deportasiya siyasəti, 50-80-ci illərdə türklərə qarşı yürüdülən ayrı-seçkilik siyasəti təsir etmişdir. Kənddə tarixən aşağıdakı tayfalar olmuşdur: Şadlılar və Şadlinskililər, Qızılanlılar, Mahmudlular (Mahmuddular), Paşkilər, Çobanzadələr, Süleymanuşağı, Qasım uşağı, Kəlba Həbib uşağı, Abuzər uşağı, Nurməmməd uşağı, Məhəmməd uşağı, Kələşlilər (Kələşovlar), Vəli uşağı, Məmmədlilər, Kosanlı, Şanolar, Vedili (Paşayevlər, Kərimovlar), Kəlba Şükür uşağı, Eyvazlılar. Bu tayfalar içindən nəinki Böyük Vedidə, bütün Qərbi Azərbaycanda (indiki Ermənistanda) və Azərbaycanda, eləcə də bütün türk dünyasında məşhur olan insanlar - sərkərdələr, alimlər, dövlət xadimləri və b. peşə sahibləri çıxmışdır], 13 kənd sovetliyi [1. Aralez (Qaralar); 2. Ararat (Dəvəli); 3. Armaş; 4. Avşar (Əfşar); 5. Aygevan Reyhanlı; 6. Kirov (2 saylı sovxoz); 7. Lusarat (Şıxlar); 8. Lusaşoğ (Qaraxaç); 9. Pokr Vedi (Kiçik Vedi); 10. Sovetaşen (Çanaxçı); 11. Urdazadzor (Aşağı Qarabağlar, Çimənkənd); 12. Vosketap (Şirazlı); 13. Yeğeqnavan ( Şidli)] və 28 yaşayış məntəqəsi [1. Aralez (Qaralar); 2. Ararat (Dəvəli); 3. Armaş; 4. Avşar (Əfşar); 5. Aygevan (Reyhanlı); 6. Daştakar (Daşdı); 7. Kirov (2 saylı sovxoz); 8. Qorovan (Çoravan, Yenikənd); 9. Lancanist (Qədirli); 10. Lancar (Birəli); 11. Lusarat (Şıxlar); 12. Lusaşoğ (Qaraxaç); 13. Nor Qjank; 14. Nor Uqi; 15. Norakert (Xalisa); 16. Pokr Vedi (Kiçik Vedi); 17. Sisavan (Yengicə); 18. Sovetaşen (Çanaxçı); 19. Surenevan (Çəmbərək); 20. Şahab (Şahablı); 21. Şərab zavodu; 22. Urdsadzor (Aşağı Qarabağlar Çimənkənd); 23. Urtsalanc (Keşişverən, Zovaşen); 24. Vanaşen (Taytan); 25. Vardaşat (Qaşqa); 26. Vedi (Böyük Vedi); 27. Yexeqnavan (Şidli); 28. Yerasx (Arazdəyən)] olmuşdur.

1920-1988-ci illərdə Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin verdiyi fərmanlarla Vedi (Ararat) rayonunda adları dəyişdirilərək erməniləşdirilmiş türk kəndləri.

| Köhnə (əsl) adı | Yeni adı | Dəyişdirildiyi tarix |
|---|---|---|
| 1. Arazdəyən | Yerasx | 03.VII.1968 |
| 2.Aşağı Qarabağlar | 1.Çimənkənd<br>2.Urtsadzor | 25.I.1978 |
| 3. Birəli | Lançar | 03. VII. 1968 |
| 4. Böyük Vedi | Vedi | 04.IV.1946 |
| 5. Canaxçı | Sovetaşen | 10.IX.1948 |
| 6. Çimənkənd | Urtsadzor | 25.01.1978 |
| 7. Daşlı | Daştakar | 03.VII.1968 |
| 8. Dəvəli | Ararat | 03.I.1975 |
| 9. Goravan | 1.Yenikənd<br>2.Qorovan | 04.IV.1946<br>03.VII.1968 |
| 10. Keşişviran | 1. Zovaşen<br>2. Urçalanc | 03.I.1935<br>21.X.1967 |
| 11. Qaraxaç | Lusaşoğ | 25.I.1978 |
| 12. Qaralar | Aralez | 25.I.1978 |
| 13. Qaşqa | Vardaşat | 10.IX.198 |
| 14. Qədirli | Lancanist | 03.VII.1968 |
| 15. Reyhanlı | Haqavan | 04.IV.1946 |
| 16. Sahablı | Şağap | 03.VII.1968 |
| 17. Şıxlar | Lusarat | 26.XII.1968 |
| 18. Şirazlı stansiyası | Ayqavan stansiyası | 31.IX.1950 |
| 19. Taytan | Vahasen | 25.I.1978 |

1991-ci ildən sonra Ermənistan Respublikası Prezidentinin imzaladığı fərmanlarla Ararat (keçmiş Vedi) rayonunda adları dəyişdirilərək erməniləşdirilmiş türk kəndləri

| Keçmiş (əsl) adı | Yeni adı | Dəyişdirildiyi tarix |
|---|---|---|
| 1. Xalisa | Noyakert | 03.IV.1991 |





| | | |
|---|---|---|
| 2. Kiçik Vedi | Pokr Vedi | 04.XII.1995 |
| 3. Şidli | Yeğeqnavan | 03.IV.1991 |
| 4. Şirazlı | Vosgeat | 033.IV.1991 |
| 5. Yengicə | Sisavan | 03.IV.1991 |

Münbit torpağa və «Ermənistan» üçün mühüm strateji əhəmiyyətə malik olduğu üçün Vedi (Ararat) rayonu dəfələrlə ermənilərin (hayların) çirkin məkrli niyyətlərinin hədəfi olmuş, tez-tez ərazi inzibati dəyişikliklərinə məruz qalmışdır. 1936-cı ildə rayon iki yerə bölünərək yeni bir rayon Qarabağlar rayonu yaradılmışdır. Ancaq rayon 1948-ci ildə ləğv edildi və yenidən Vedi (Ararat) rayonu ilə birləşdirildi. 1948-1953-cü illərdə rayonun, demək olar ki, bütün kəndləri zorla Azərbaycan SSR-yə, xüsusilə də aran rayonlarına köçürüldü. İqlim şəraitinə uyğunlaşa bilməyən əhalinin bir hissəsi müxtəlif xəstəliklərdən vəfat etdilər. İosif Stalin öləndən sonra vedililərin bir hissəsi yenidən doğma yerlərinə qayıtdılar. Ermənistan SSR-nin o zamankı maskalanıb bolşevik olmuş daşnak hökuməti gələnləri dağlıq ərazilərdə yerləşən kəndlərinə gələrək yerləşmələrinə hər cür yollarla mane oldu. Əlacsız qalan əhali aran kəndlərində yerləşdilər. Ancaq 1988-ci ilin sonunda yenidən zorla Qərbi Azərbaycandan («Ermənistan SSR») qovuldular.

Vedibasar mahalının dağlıq kəndləri daxil olan Qarabağlar rayonu ləğv edildikdən sonra, qeyd etdiyimiz kimi, əhalisi zorla Azərbaycana köçürüldü. Boşalmış kəndlərin əksəriyyəti elə o vaxtdan da xaraba qaldı. Bu hal 1988-ci ilin sonundan sonra da yenidən təkrarlandı. Bu tarixə qədər Vedi rayonunun türklər yaşamış kəndlərinin əksəriyyətində hələ də heç kim yaşamır. Bu kəndlər də tədricən xarabalığa çevrilmək üzrədir. Buralarda olan evlər və yardımçı tikililər qonşu erməni kəndlərində yaşayan əhali tərəfindən sökülərək aparılmış və deyilənə görə artıq qalanlar isə İrana aparılaraq orada satılmışdır.

## BAĞCACIQ KƏNDİ

### MUSA BAĞIROV
*(1929)*

*Musa Bağırov - şair, publisist*

1929-cu il yanvarın 29-da Qərbi Azərbaycanın Vedibasar mahalının Baxçacıq kəndində [indiki Ermənistan Respublikasının Ararat (keçmiş Vedi) rayonu] anadan olmuşdur. Bu kəndin əsasını Qarapapaq tayfası qoymuşdur. Baxçacıq kəndində yeddiillik məktəbi bitirdikdən sonra kolxozda işləmişdir (1943-1946). İkinci Dünya müharibəsinin tərkib hissəsi olan Almaniya - SSRİ müharibəsi (Böyük Vətən Müharibəsi) qurtardıqdan sonra İrəvan Azərbaycanlı Pedaqoji Texnikumuna daxil olmuş (1946), həmin məktəbi Azərbaycanın Xanlar rayonuna köçürdükdən sonra təhsilini orada başa vurmuşdur (1948-1950). Pedaqoji fəaliyyətə təyinatla göndərildiyi Salyan şəhəri 4 saylı yeddiillik məktəbində müəllim kimi başlamışdır. Sonra Qərbi Azərbaycana, doğma Baxçacıq kəndinə qayıtmış, müəllimlik etmişdir. Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində qiyabi təhsil almışdır (1953-1959). Böyük Vedi qəsəbə orta məktəbində dil və ədəbiyyat müəllimi (1960-1970), "Sovet Ermənistanı" qəzeti redaksiyasında təbliğat şöbəsinin müdiri (1971-1978), Ermənistan Maarif Nazirliyində metodist (1978- 1982) vəzifələrində işləmişdir. Ailəliklə Bakıya köçdükdən sonra Nəsimi rayon partiya komitəsi yanında Kitab Cəmiyyətinin sədri işləmişdir. "Respublika" qəzetinin ştatdankənar müxbiri olmuşdur (1996-cı ildən). 60-cı illərdə dövri mətbuatda şeir, məqalə və oçerkləri dərc olunmuşdur.

**Əsərləri:**





1. Ürəyimin səsi. Yerevan, "Hayastan" nəşriyyatı, 1974, 68 səh., 200 nüs.
2. Ömrün mənası. Yerevan, "Sovetakan qroğ" nəşriyyatı, 1979, 76 səh., 1.000 nüs.
3. Dağlarda keçən ömür. Bakı, Yazıçı, 1986,66 səh., 5.000 nüs.

## BAYBURT KƏNDİ

### İSA HÜMMƏTOV
*(1931-1990)*

*İsa Rüstəm oğlu Hümmətov – nasir, Jurnalistlər Birliyinin üzvü (1958), Azərbaycan Yazıçılar Birliyinin üzvü (1963), Əmək veteranı (1988)*

1931-ci il martın 21-də Qərbi Azərbaycanın Vedibasar mahalının Bayburt kəndində [indiki Ermənistan Respublikasının Ararat (keçmiş Vedi) rayonu] anadan olmuşdur. Burada yeddillik məktəbi bitirib İrəvan Pedaqoji Texnikumda, sonra isə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (ADPİ) dil və ədəbiyyat fakültəsində (1949-1954) isə ali təhsil almışdır. Əmək fəaliyyətinə "Azərbaycan müəllimi" qəzeti redaksiyasında başlamışdır. Əvvəlcə müxbir, sonra şöbə müdiri işləmişdir (1954-1960). 1961-1990-cı illərdə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətində redaktor, "Abşeiron" qəzeti redaksiyasında məsul katib, "Maarif" nəşriyyatında və Azərnəşrdə redaktor, "Yazıçı" nəşriyyatında böyük redaktor işləmişdir. "Moruqlu bulaq" adlı

ilk hekayəsi 1958-ci ildə "Azərbaycan pioneri" qəzetində çap olunmuşdur. Azərbaycan Jurnalistlər Birliyinin nəşriyyat üzrə ilk təşkilat katibi olmuşdur.

"Beşilliyin qalibi" diplomu və döş nişanı ilə təltif edilmişdir. 1990-cı il noyabrın 11-də Bakıda vəfat etmişdir.

**Əsərləri:**

1. Ətirli çiçəklər. Bakı, Azərnəşr, 1959, 161 səh., 10000 nüs.
2. Atanın həsrəti. Bakı, Azərnəşr, 1960, 162 səh., 10000 nüs.
3. Nənə, əlini mənə ver. Bakı, Uşaqgəncnəşr, 1964, 44 səh., 15000 nüs.
4. Ehtiyat qapıçı. Bakı, Uşaqgəncnəşr, 1966, 121 səh., 10000 nüs.
5. Nazilə. Bakı, Uşaqgəncnəşr, 1968, 94 səh., 15000 nüs.
6. Muğanın fəxri. Bakı, Azərnəşr, 1969, 64 səh., 10000 nüs.
7. Günəşi qabaqlayanlar. Bakı, Azərnəşr, 1971, 74 səh., 10000 nüs.
8. Mövlud ayı. Bakı, Azərnəşr, 1971, 48 səh., 10000 nüs.
9. Həyatımın mənası. Bakı, Azərnəşr, 1973, 111 səh., 10000 nüs.
10. Araz çağlayan yerdə. Bakı, Azərnəşr, 1976, 48 səh., 10000 nüs.
11. Baba yadigarı. Bakı, Gənclik, 1977, 161 səh., 10000 nüs.
12. Dünyanın bəzəyi. Bakı, Gənclik, 1979, 182 səh., 17000 nüs.
13. İlk məhəbbət. Bakı, Yazıçı, 1981, 222 səh., 30000 nüs.
14. Çinar əfsanəsi. Bakı, Gənclik, 1983, 157 səh., 30000 nüs.
15. Şeytanın qurbanları. Bakı, Yazıçı, 1987, 280 səh., 20000 nüs.





## BÖYÜK VEDİ KƏNDİ

### FƏRMAN KƏRİMZADƏ
*(1937-1989)*

*Fərman İsmayıl oğlu Kərimov – nasir, 1968-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü (1968)*

1937-ci il martın 3-də Qərbi Azərbaycanın Vedibasar mahalının Böyük Vedi kəndində [indiki Ermənistan Respublikasının Ararat (keçmiş Vedi) rayonu] anadan olmuşdur. İbtidai təhsilini orada almış (1944-1951), orta məktəbi isə Azərbaycanın Beyləqan rayonunun Şahsevən kəndində bitirmişdir (1954). Ailəsi 1948-ci ildə zorla Azərbaycan SSR-yə deportasiya edilmişdir.

Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində təhsil almışdır (1955-1960). İsmayıllı və Beyləqan rayonlarında orta məktəb müəllimi və eyni zamanda "Yüksəliş" rayon qəzeti redaksiyasında ədəbi işçi, şöbə müdiri, məsul katib işləmişdir (1962-1965).

Moskvada Ümumittifaq Kinomatoqrafiya İnstitutunun ssenari fakültəsinin ikinci kursunu bitirmişdir (1965-1967). Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində tərcüməçi, böyük redaktor, "Abşeron", "Ədəbiyyat və incəsənət" qəzetlərinin redaksiyasında şöbə müdiri, ədəbi işçi (1966-1970), C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında kollegiya üzvü (1970-1977), "Ədəbiyyat və incəsənət" qəzetinin xüsusi müxbiri (1977-1980) olmuş və Şüvəlan yaradıcılıq evinin direktoru (1980-1981) işləmişdir.

1989-cu il martın 17-də qəflətən vəfat etmiş, Bakıda dəfn olunmuşdur.

**Əsərləri:**

1. Sonuncu eksponat. Bakı, Uşaqgəncnəşr, 1961, 24 səh., 8000 nüs.
2. Ömrümüz-günümüz. Bakı, Azərnəşr, 1963, 36 səh., 7000 nüs.
3. Heykəl dilə gəlir. Bakı, Azərnəşr, 1965, 64 səh., 10000 nüs.
4. Ömrümüz, günümüz. Bakı, Gənclik, 1969, 95 səh., 10000 nüs.
5. Qarlı aşırım. Bakı, Gənclik, 1971, 296 səh., 15000 nüs.
6. Xudafərin körpüsü. Bakı, Yazıçı, 1982, 382 səh., 40000 nüs.
7. Xudafərin körpüsü. Bakı, Yazıçı, 1983, 282 səh., 10000 nüs.
8. Çaldıran döyüşü. Bakı, Yazıçı, 1988, 300 səh., 65000 nüs.

## MƏMMƏD ORUC
*(1947)*

*Məmməd Kazım oğlu Orucov – şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü (1983), M.F.Axundov adına ədəbi mükafat laureatı (1991)*

1947-ci il martın 8-də Qərbi Azərbaycanın Vedibasar mahalının Böyük Vedi kəndində [indiki Ermənistan Respublikasının Ararat (keçmiş Vedi) rayonu] anadan olmuşdur. Burada orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin jurnalistika fakultəsində ali təhsil almışdır (1965-1969).

"Duyaraq" adlı ilk şeiri 1963-cü ildə "Yüksəliş" rayon qəzetində dərc olunmuşdur. "Azərbaycan gəncləri" qəzeti





redaksiyasında ədəbi işçi, şöbə müdiri (1969-1971), Dövlət Televiziya və Radio Verilişləri Komitəsində kiçik redaktor, redaktor, böyük redaktor (1972-1980), "Azərbaycan" jurnalında ədəbi işçi (1980-1989) vəzifələrində çalışmışdır. Bir ilə yaxın Beyləqan rayonunun Şahsevən kəndində əkinçiliklə və bədii yaradıcılıqla məşğul olmuşdur. Hazırda "Azərbaycan" jurnalında nəsr şöbəsinin müdiridir.

**Əsərləri:**

1. Ailə səadəti. Bakı, Gənclik, 1973, 50 səh., 11000 nüs.
2. Yadigar mahnı. Bakı, Gənclik, 1979, 101 səh., 11000 nüs.
3. İkinci ad. Bakı, Yazıçı, 1984, 194 səh., 10000 nüs.
4. Leylək körfəzi. Bakı, Gənclik, 1985, 174 səh., 40000 nüs.
5. İntizardan sonra. Bakı, Yazıçı, 1989, 311 səh., 10000 nüs.
6. Köçürülmə (roman). Bakı, Yazıçı, 1990, 360 səh., 30000 nüs.

## TELLİ PƏNAHQIZI
*(1954)*

***Telli Pənah qızı Əliyeva – şair, publisist, nasir***

1954-cü il mayın 24-də Qərbi Azərbaycanın Vedibasar mahalının Böyük Vedi kəndində [indiki Ermənistan Respublikasının Ararat (keçmiş Vedi) rayonu] anadan olmuşdur. Burada kənd orta məktəbini bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsində ali təhsil almışdır (1971-1976).

Əmək fəaliyyətinə Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkətində gənclik redaksiyasında kiçik redaktor, redaktor kimi başlamışdır. "Günün ekranı" redaksiyasında şöbə müdiri, baş redaktorun müavini, sonra informasiya xidməti üzrə sədr müa-

vini olmuşdur. Hazırda orada ikinci proqram üzrə baş proqram direktorunun müavini vəzifəsində çalışır. Bədii yaradıcılığa tələbəlik illərindən başlamışdır. Dövri mətbuatda şeir, oçerk və hekayələri dərc olunmuşdur. 100 şeirinə mahnı bəstələnmişdir. Xidmətlərinə görə "Tərəqqi" medalına, "Araz" ali ədəbi və "Qızıl qələm", "Həsənbəy Zərdabi", "Məhsəti" media mükafatlarına layiq görülmüşdür. Quzey Kıprıs Türk Cümhuriyyətində türkdilli şairlərin beynəlxalq şeir yarışmasında xüsusi diplom almışdır (2004).

Əsərləri:

1. Ömrün qoşa izi. Bakı, Maarif, 1993, 10.000 nüs.
2. Tanrımla söhbət. Bakı, 1999.
3. Ayrılıqdan sonra çəkilmiş şəkillər. Bakı, 2003.
4. Səsində ay işığı var. Bakı, 2001.
5. Səsi sevən Sərdararn. Bakı, 2004.

## GORAVAN KƏNDİ

### ƏZİZ ŞÜKÜROĞLU
*(1932)*

*Əziz Şükür oğlu İsmayılov - şair*

1932-ci il dekabrın 1-də Qərbi Azərbaycan Vedibasar mahalının Goravan kəndində [indiki Ermənistan Respublikasının Ararat (keçmiş Vedi) rayonu] anadan olmuşdur. Zəngibasar mahalının Uluxanlı qəsəbəsində (31.XII.1937-ci ildən Zəngibasar, 31.XII.1950-ci ildən Masis) Cəlil Məmmədquluzadə adına orta məktəbi bitirdikdən sonra Azərbaycan Ümumqoşun





Hərbi Məktəbində təhsilini davam etdirmişdir (1952-1955).

Ukraynada Dnepropetrovsk şəhərində mexanikləşdirilmiş hərbi hissədə alay komandiri işləmişdir (1955-1956). Almaniyada sovet qoşunları tərkibində Sanyor alayının komandiri olmuşdur (1956-1962). Gürcüstanda Axalkalakidə yerləşən hərbi hissədə bir il işlədikdən sonra Azərbaycanda mexanikləşdirilmiş mülki müdafiə alayında komandir kimi çalışmışdır (1963-1964).

Moskvada mülki müdafiə zabitləri kursunda təhsil almışdır (1964-1965). Azərbaycan Respublikası Mülki Müdafiə Məktəbində müəllim, baş müəllim işləmişdir (1965-1992). Hazırda Azərbaycan Respublikası Mülki Aviasiya Akademiyasında mülki müdafiə qərargah rəisi vəzifəsində çalışır (1992-ci ildən).

Bədii yaradıcılığa gənclik dövründən başlamışdır. İlk mətbu şeiri – "Vətən" Xanlar rayon qəzetində çıxmışdır (1950). "Şair olmaq istəyirəm" şeirlər toplusu 1989-cu ildə nəşr olunmuşdur.

## GÖLAYSOR KƏNDİ

### ƏLİ ŞABANOV
*(1885-1949)*

*Əli Eyyub oğlu Şabanov - tədqiqatçı alim, tərcüməçi*

1885-ci il mayın 24-də Qərbi Azərbaycanın Vedibasar mahalının Gölaysor kəndində [indiki Ermənistan Respublikasının Ararat (keçmiş Vedi) rayonu] anadan olmuşdur. İbtidai təhsilini mədrəsədə almış, sonra kənd təsərrüfatı ilə məşğul olmuşdur. Sovet hakimiyyəti qurulanda onu kənd inqilab komitəsinin sədri seçmişlər (1921). Sonra Vedi rayon Partiya Komitəsinin birinci katibi və İcraiyyə Komitəsinin sədri

(1925-1928), Zəngibasar rayon Partiya Komitəsinin birinci katibi və İcraiyyə Komitəsinin sədri (1928-1930), İrəvan şəhər ərazi İcraiyyə Komitəsi təşkilat şöbəsinin müdiri və İcraiyyə Komitəsinin sədri (1930-1931), Ermənistan SSR Mərkəzi Komitəsində təlimatçı (1931-1938) işləmişdir. 1938-ci il oktyabrın 17-də təhlükəsizlik orqanı tərəfindən həbs edilmiş, on bir ay ev dustağı kimi saxlanmışdır. Kommunist Partiyası sıralarından xaric edildiyindən İrəvanda Matenadaran Elmi-Tədqiqat Əlyazmaları İnstitutunun ərəb-fars şöbəsində tərcüməçi, sonra müdir işləmişdir. Lakin yenidən həbs edilib Orta Asiyaya sürgün olunmuşdur **(1941-1945)**. Sürgündən sonra "Matenadaran"a öz əvvəlki işinə dəvət edilir. Şərq və Avropa dillərinin mükəmməl bilicisi kimi tanınırdı. Gəncə şəhərinə ailəliklə köçdüyü il onu Nizami Gəncəvinin məqbərəsinə müdir təyin edirlər. Dahi şairin anadan olmasının 800 illiyi təntənə ilə keçirildiyi mərasimlərdə maraqlı elmi mühazirələrlə çıxış etmişdir. Ərəb və fars dillərində yazılmış əlyazmalarını doğma dilə çevirmiş, yüzlərlə gənc tədqiqatçı alimlərə yaxından qayğı göstərmiş, məsləhət vermişdir.

1949-cu ildə Gəncə şəhərində əbədiyyətə qovuşmuşdur.

## HAXIS KƏNDİ

### TELMAN HÜSEYN
*(1941)*

*Telman Canbaxış oğlu Hüseynov - şair, 1998-ci il-dən Azərbaycan Yazıçılar Birliyinin üzvü (1998)*

1941-ci ilin baharında Qərbi Azərbaycanın Vedibasar mahalında Haxıs kəndində [indiki Ermənistan Respublikasının Ararat (keçmiş Vedi) rayonu] anadan olmuşdur. 1951-ci ildə ailəsi





Azərbaycana, Bərdə rayonunun Otuzikilər kəndinə köçmüşdür. Burada kənd orta məktəbini bitirmişdir. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyatı fakültəsində ali təhsil almışdır (1968-1972). Əmək fəaliyyətinə 1974-cü ildən Otuzikilər kənd orta məktəbində müəllim kimi başlamışdır. İmişli rayonunun Bərcivan kəndində Azərbaycan dili və ədəbiyyatını tədris etmişdir (1973-1974). Hazırda Xanqaraqoyunlu kənd orta məktəbində müəllimdir (1974-cü ildən). Həm də Bərdə "Söz" ədəbi birliyinin üzvüdür. 60-cı illərdən dövri mətbuatda şeirlərini çap etdirir. İlk mətbu şeiri "Ana qarğışı" 1968-ci ildə "Gənc müəllim" qəzetində dərc edilmişdir.

**Əsərləri:**

1. Təzə tanışlarım. Bakı, Gənclik, 1985,30səh., 13.000 nüs.
2. Məni bağışla. Bakı, Yazıçı, 1987, 86 səh., 5.000 nüs.
3. Üşüyən nəğmə. Bakı, Gənclik, 1992,115səh., 2.000 nüs.
4. Çığırqandan gələn səs. Mingəçevir, Poliqrafiya müəssisəsi, 2008, 95 səh., 500 nüs.

## XALİSƏ KƏNDİ

### NƏSİBƏ İSRAFİLQIZI
*(1972)*

*Nəsibə İsrafil qızı İsmayılova - şair, publisist, AYB-nin və AJB-nin üzvü, «Qızıl qələm» media mükafatçısı, BMT yanında Ümumdünya Sülh Federasiyasının «Sülh Səfiri» mükafatçısı*

1972-ci il dekabrın 31-də Qərbi Azərbaycanın Vedibasar mahalının Xalisa kəndində [indiki Ermənistan Respublikasının Ararat (keçmiş Vedi) rayonu] anadan olmuşdur. Orta təhsilinin bir hissəsini 1979-1988-ci illərdə doğulduğu kənddəki

orta məktəbdə, davamını isə 1989-1990-cı illərdə Füzuli şəhərindəki B.Sərdarov adına orta məktəbdə, ali təhsilini isə Bakı Dövlət Universitetinin filologiya fakültəsində almışdır.

"Vedibasar" qəzetinin redaktoru, "SEVGİ" jurnalının təsisçisi və baş redaktorudur.

Ailəlidir, Məhəmməd adlı oğlu var.

**Əsərləri:**

1. Gözüm qaldı Ağrıdağda. Bakı, Borçalı, 2004, 173 səh., 200 nüs.
2. Könlümün səsi. Bakı, Ərgünəş, 2005, 210 səh., 500 nüs.
3. Abbasqulu bəy Şadlinski. Bakı, Nurlan, 2006, 190 səh., 500 nüs.
4. Övlad. Bakı, Viktoriya, 2007, 80 səh., 200 nüs.
5. Mən də o kənddənəm. Bakı, Günəş, 2007, 190 səh., 300 nüs.
6. Bir qucaq gül. I cild, Bakı, Araz, 2008, 310 səh., 300 nüs.
7. Sadılı Bahadırı. Bakı, Nurlan, 2009, 190 səh., 500 nüs.
8. Nakam ömrün dastanı. Bakı, Nurlan, 2009, 120 səh., 500 nüs.
9. "Bir şairin poetikası". (Nəsibə İsrafilqızı, Nizami Cəfərov). "Söz çələngi", publisistika, Bakı, "Elm və təhsil", 2015, 648 səh.
10. "Mən xoşbəxtəm". Şeirlər, Bakı, "Elm və təhsil", 2015, 254 səh.

## SƏRTİB İSLAMOĞLU
*(1954)*

*Sərtib İslam oğlu Məhərrəmov – nasir, publisist və jurnalist*

1954-cü il iyulun 22-də Qərbi Azərbaycanın Vedibasar mahalının Xalisa kəndində [indiki Ermənistan Respublikasının Ararat (keçmiş Vedi) rayonu] anadan olmuşdur. Orta təhsilini doğma kəndində, ali təhsilini isə Bakıda Azərbaycan





Dövlət Pedaqoji İnstitutunun (indi Azərbaycan Dövlət Pedaqoji Universiteti) filologiya fakültəsində alıb. 1975-ci ildə ali təhsilini fərqlənmə diplomu ilə bitirərək 1975-1978-ci illərdə Azərbaycan Respublikasının Xaçmaz rayonunda, 1978-1983-cü illərdə isə doğma kəndində Azərbaycan dili və ədəbiyyatı müəllimi işləyib. 1983-1985-ci illərdə doğma Xalisa kəndində sovxozda azad komsomol təşkilatı katibi vəzifəsində çalışıb. 1985-ci ildə Bakı şəhərinə köçüb və 1991-ci ilin oktyabr ayınadək Azərbaycan SSR Nazirlər Soveti yanında Mətbuatda Dövlət və Hərbi Sirləri Mühafizə edən Baş İdarənin redaktoru işləmişdir. Eyni zamanda Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin mətbuat mərkəzində redaktor vəzifəsində də işləmişdir. 1991-2003-cü illərdə müxtəlif vəzifələrdə işləmiş və fərdi yaradıcılıqla məşğul olmuşdur. Müxtəlif qəzet, jurnal və almanaxlarda yüzlərlə şeir, hekayə və ədəbi-publisist məqalələr dərc etdirmiş, radio-pyesləri yayımlamışdır.

2003-cü ilin fevral ayından nəşrə başlayan "Vedibasar" müstəqil qəzetin təsisçisi və baş redaktorudur. Qəzetin nüsxələri ilk sayından illər üzrə ayrı-ayrı cild şəklində nəşr edilmişdir. Ailəlidir. İki övladı (Vüsal və Vüsalə) və iki nəvəsi (Münəvvər və Aytac) var.

**Əsərləri:**

1. Xalisa. Kəndimiz-dərdimiz. Bakı, "Nurlar", 2006, 506 s. şəkilli.
2. Döyüşkən polkovnik Telman Mehdiyev. Bakı, "Elm və Təhsil", 2014, 296 s., şəkilli.
3. Xal düşən ömür. Bakı, "Elm və Təhsil", 2014, 552 s.
4. Qələmim-həmdəmim. I hissə. Bakı, 2014, 324 s.

## ZAUR VEDİLİ
## (1974)

*Zaur Həsən oğlu Cəlilov - şair,*
*2000-ci ildən Azərbaycan*
*Yazıçılar Birliyinin üzvü*

1974-cü il avqustun 24-də Qərbi Azərbaycanın Vedibasar mahalının Xalisa kəndində [indiki Ermənistan Respublikasının Ararat (keçmiş Vedi) rayonu] anadan olmuşdur. Burada kənd orta məktəbində təhsil aldığı illərdə göz işığından məhrum olmuşdur. Lakin ailəliklə Naxçıvan şəhərinə köçdükdən sonra burada 11 saylı şəhər orta məktəbini ev şəraitində bitirmişdir. Musiqi Texnikumunun muğam şöbəsində təhsilini davam etdirmişdir (1996-2000). Kiçik yaşlarından şeirə, sənətə güclü meyl göstərmişdir. İlk mətbu şeiri – "Ata ocağı" və "Bir sonu var həsrətin də" 1991-ci ildə "Şərq qapısı" qəzetində dərc olunmuşdur. XX əsrin 80-cı illərindən almanaxlarda, qəzet və jurnallarda şeirlərlə çıxış edir. İlk şeirlər toplusu – "Vedi həsrəti" 1998-ci ildə "Elm və həyat" nəşriyyatında işıq üzü görmüşdür. Seçilmiş şeirləri və poemaları "Haray" adlı kitabında toplu halda "Əcəmi" nəşriyyatında 2000-ci ildə nəşr olunmuşdur. Onun bədii əsərləri əsasında ədəbi kompozisiyalar, radio verilişləri, televiziya tamaşaları hazırlamışdır. Naxçıvan Dövlət Kukla Teatrının repertuarında "Təpəgöz" (2007), "İlanlar kraliçası küknar" (2009) əsərləri möhkəm yer tutub.

**Əsərləri:**
1. Vedi həsrəti. Bakı, Elm və həyat nəşriyyatı, 1998, 64 səh., 300 nüs.
2. Haray. Naxçıvan, Əcəmi, 2000, 208 səh., 500 nüs.
3. Aygünlü, səmalı dünyam. Bakı, Şirvannəşr, 2004, 80 səh., 500 nüs.
4. Ayrılıqdan qorxuram. Bakı, Şirvannəşr, 2004, 160 səh., 500 nüs.
5. Ürəyimdə yanan işıq. Bakı, Şirvannəşr, 2005, 160 səh., 500 nüs.
6. Duz səpilmiş yaramız. Bakı, Şirvannəşr, 2006, 200 səh., 500 nüs.
7. Sevgimizin xətrinə. Bakı, Şirvannəşr, 2007, 248 səh., 500 nüs.
8. Məhəbbətin intiqamı. Bakı, Şirvannəşr, 2008, 280 səh., 500 nüs.
9. Durnalar gələndə qayıdacam. Bakı, Şirvannəşr, 2010, 160 səh., 500 nüs.





## KOLANLI KƏNDİ

## İNQİLAB XAN RƏVAN
## *(1937)*

*İnqilab Bəhmən oğlu Vəlizadə - nasir, dramaturq, Azərbaycan Yazıçılar Birliyinin üzvü (1986), Azərbaycan Jurnalistlər Birliyinin üzvü (1994), "Qızıl qələm" mükafatı laureatı (2003)*

1937-cı il yanvarın 10-da Qərbi Azərbaycanın Vedibasar mahalının Kolanlı kəndində [indiki Ermənistan Respublikasının Ararat (keçmiş Vedi) rayonu] anadan olmuşdur. Burada ibtidai məktəbi bitirmişdir. Vedi qəsəbə orta məktəbində təhsili köçkünlük ucbatından yarımçıq qalmışdır (1948). Ailəsi bir müddət Azərbaycanın Salyan və Ağstafa rayonlarında yaşamışdır (1948-1953). Bakıda texniki-peşə məktəbində bənnalıq sənətinə yiyələnmişdir (1954). Burada dənizçilik məktəbində (1955-1958) və Bakı Mədəni-Maarif Texnikumunun xalq teatrı rejissorluq şöbəsini bitirmişdir (1965-1967).

1970-1975-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun tarix fakültəsində qiyabi ali təhsil almışdır Qərbi Azərbaycanın Vedi rayonunun Xalisə kənd mədəniyyət evinin müdiri (1967-1973), kənd orta məktəbində tarix müəllimi (1973-1982) işləmişdir. Qaçqınlıq dövrü ərəfəsində həmin rayonda Xalq Maarifi Şöbəsində metodist olmuşdur (1982- 1988). 1988-ci ilin sonunda bütün qərbi azərbaycanlılar kimi o da doğma yurdunu tərk etməyə məcbur olmuşdur.

Azərbaycan EA Milli Münasibətlər İnstitutunda elmi işçi olmuşdur (1991-2003). Hazırda Tarix İnstitutunun elmi işçisi (2003-cü ildən) və Azərbaycan Yazıçılar Birliyi nəzdində Qərbi Azərbaycan Yazıçılar Şurasının sədridir (2001-ci ildən).

İlk qələm təcrübəsi "Telefon xatası" novellası "Sovet Ermənistanı" qəzetində çap edilmişdir (1973). Dövri mətbuatda müntəzəm çıxış edir. "Son gecə", Xoş amallar qurbanı" pyesləri Ağdam Dövlət Teatrında tamaşaya qoyulmuşdur (1984). "Dağlar simfoniyası", "Bahar faciəsi", "Təmrazov alim olur" pyesləri də vardır.

Yazıçılar Birliyinin Bədii Ədəbiyyat Bürosunun mükafatına layiq görülmüşdür (1993). "Qızıl qələm" mükafatı laureatıdır (2003).

**Əsərləri:**

1. Bir gecənin romantikası. Yerevan, Sovetakan qroğ, 1980, 105 səh., 1.000 nüs.
2. Məhəbbət yanğısı (roman). Bakı, Yazıçı, 1984, 202 səh., 40.000 nüs.
3. Düşmən çörəyi. Yerevan, Sovetakan qroq, 1985, 82 səh., 1.000 nüs.
4. Qanlı yanvar. Bakı, Azərnəşr, 1990, 40 səh., 1.000 nüs.
5. Məhəbbət və nifrət. Bakı,Yazıçı, 1990,120 səh., 2.000 nüs.
6. Qandal Kənan (roman). Bakı, Yazıçı, 1997, 300 səh., 1.000 nüs.





7. Həyatım mənim, taleyim mənim (roman). Bakı, Ağrıdağ, 1998, 204 səh., 500 nüs.
8. Vedi qan içində. Bakı, Yazıçı, 1998, 552 səh., 500 nüs.
9. Bağlı qapı arxasında. Bakı, Ağrıdağ, 1999, 248 səh. ,500 nüs.
10. İdeal və xəyal. Bakı, Ağrıdağ, 2000, 186 səh., 500 nüs.
11. Nakam məhəbbət (roman). Bakı, Qartal, 2000, 554 səh., 500 nüs.
12. Qan içində həyat (epopeya). Bakı, Ağrıdağ, 2000, 470 səh., 500 nüs.
13. Günahsız günahkar (roman). Bakı, Ağrıdağ, 2001, 262 səh., 500 nüs.
14. Xan Araz (epopeya). Bakı, Ağrıdağ, 2001, 620 səh., 500 nüs.
15. Kainat və həyat. Bakı, Ağrıdağ, 2001, 100 səh., 500 nüs.
16. Bir gecənin romantikası (povest). Bakı, Yazıçı, 2000, 104 səh., 2.000 nüs.
17. Xocalı faciəsi (roman). Bakı, Çıraq, 2002, 420 səh., 1.000 nüs.
18. Xoş amallar qurbanı (pyeslər). Bakı, Çıraq, 2002, 246 səh., 500 nüs.
19. Yanar qəlbin işığı. Bakı, Nərgiz, 2003, 310səh., 500 nüs.
20. Puç olmuş arzular. Bakı, Çıraq, 2003, 240 səh., 500 nüs.
21. Taleyin göz yaşı. Bakı, Nərgiz, 2003, 220 səh., 500 nüs.
22. Köçkünlər. Bakı, Nərgiz, 2004, 325 səh., 500 nüs.
23. Rəmziyyə. Bakı, Çıraq, 2003, 450 səh., 500 nüs.
24. Haqdan gələn səs. Bakı, Naksuana, 2007, 470 səh., 300 nüs.
25. Kainat və həyat haqqında elmi anlayış. Bakı, Nərgiz, 2005, 71 səh., 300 nüs.
26. Ermənistanda azərbaycanlıların soyqırımı. Bakı, Gənclik, 1996, 170 səh., 100 nüs. (şərikli).
27. Dumanlı dağ. Bakı, Çıraq, 2004, 460 səh., 500 nüs.

## QARAXAC KƏNDİ

### ƏMİR QULİYEV
*(1931)*

*Əmir Məhərrəm oğlu Quliyev - publisist, müharibə və əmək veteranı*

1931-ci il fevralın 8-də Qərbi Azərbaycanın Vedibasar mahalının Qaraxaç kəndində [indiki Ermənistan Respublikasının Ararat (keçmiş Vedi) rayonu] anadan olmuşdur. Burada beynəlmiləl kənd orta məktəbinin yeddinci sinfini uğurla başa vurduqdan sonra İrəvan Pedaqoji Texnikumunun qiyabi şöbəsində təhsilini davam etdirmişdir. (1945-1948). Doğma kənd məktəbində ibtidai sinif müəllimi işləmişdir. Naxçıvan Dövlət İkiillik Müəllimlər İnstitutunun qiyabi şöbəsində ali təhsil almışdır (1949-1954).

Ailəsi zor gücünə Azərbaycanın Salyan rayonuna - Parça-Xalac kəndinə köçürüldükdən sonra burada kənd ibtidai məktəbinə müdir təyin edilmişdir (1950).

Azərbaycan Dövlət Pedaqoji İnstitutunda da qiyabi ali təhsil almışdır. Xanlar rayonu Pedaqoji Texnikumunda və Çırağızor, Aşıqlı, Topalhəsənli kənd orta məktəblərində müəllimlik etmişdir (1955- 1970). Xanlar Rayon Təhsil Şöbəsində rəhbər vəzifədə çalışmışdır (1971-1978). Eyni zamanda Xanlar rayon Bilik Cəmiyyətinin məsul katibi, Partiya Komitəsinin ştatdankənar təlimatçısı və təbliğatçısı olmuşdur (1961-1991). Xanlar rayon Kino Birliyinin direktoru işləmişdir (1976-1998).

Ədəbi yaradıcılığa gənclik dövründən başlamışdır. Dövri mətbuatda elmi-kütləvi və publisistik məqalələrlə çıxış etmişdir.





Oğlu Aydın Quliyevlə şərikli yazdığı, irihəcmli, ictimai-siyasi məzmunlu "Türk oğlu, 17-ci hücuma hazır ol!" monoqrafik əsəri kütləvi tirajla nəşr olunmuşdur (2003). Xidmətlərinə görə tərifnamə, diplom və medallara layiq görülmüşdür.

### QƏMƏR QULİYEVA
*(1939)*

*Qəmər Məhərrəm qızı Quliyeva - şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü (1992), Əməkdar jurnalist (2005)*

1939-cu il dekabrın 10-da Qərbi Azərbaycanın Vedibasar mahalının Qaraxaç kəndində [indiki Ermənistan Respublikasının Ararat (keçmiş Vedi) rayonu] anadan olmuşdur. Əmir Quliyevin bacısıdır. İbtidai təhsilini doğma kəndində almışdır (1947-1950). Ailəsi Azərbaycan SSR-yə köçürüldükdən sonra Salyanda, sonra da Xanlarda yaşamışlar. Yeddiillik təhsili Salyan rayonunun Parça-Xalaç kənd məktəbində, orta təhsili isə Xanlarda 3 saylı şəhər orta məktəbində almışdır (1957).

1964-cü ildə Azərbaycan Dövlət Universitetinin (ADU) filologiya fakültəsinin jurnalistika şöbəsini bitirmişdir. Azərbaycan Dövlət Televiziya və Radio Komitəsinin satira və yumor redaksiyasında kiçik redaktor (1965-1966), Xanlar rayon qəzetində zəhmətkeş məktubları şöbəsinin müdiri (1966-1970), redaktor müavini (1970-1992) olmuşdur. Hazırda "Göygöl" rayon qəzetinin redaktorudur (1992-ci ildən). 60-cı illərdən dövri mətbuatda müntəzəm çıxış edir. Xanlar şəhər Zəhmətkeş Deputatları Sovetinin deputatı seçilmişdir (1990-cı ildə), "Rəşadətli əməyə görə", "Əmək veteranı" və bir sıra medalları vardır.

**Əsərləri:**

1. Ömrün səhifələri (oçerklər). Bakı, Gənclik, 1971 (şərikli).

2. Gətmə. Bakı, Yazıçı, 1983, 45 səh., 500 nüs..
3. Aman ovçu, vurma məni. Bakı, Yazıçı, 1991, 94 səh., 3.000 nüs.
4. Qoyma bülbül ağlasın (şeirlər). Bakı, Yazıçı, 1991, 91 səh., 1000 nüs.
5. Heydər Əliyev erasının birinci mərhələsi (1969-1975). Bakı, 2000, 162 səh., 500 nüs.
6. Bağışla məni (şeirlər və poemalar). Bakı, Günəş, 2006, 450 səh., 300 nüs.
7. Bu millət vəkilimdir (Poema). Göygöl, 2008, 14 səh, 500 nüs.

## İMİRZİK (MİRZİK) KƏNDİ

### NƏRİMAN ƏYYUB
*(1938)*

*Nəriman Əyyub oğlu Məmmədov - şair, nasir, Azərbaycan Yazıçılar Birliyinin üzvü (2003)*

1938-ci il mayın 20-də Qərbi Azərbaycanda Vedibasar mahalının İmirzik kəndində [indiki Ermənistan Respublikasının Ararat (keçmiş Vedi) rayonu] anadan olmuşdur. Deportasiyaya məruz qaldıqlarından ailəsi Azərbaycanın Yevlax rayonuna pənah gətirmişdir. Burada Nərimankənd kəndində orta məktəbi bitirdikdən sonra Gəncə Mühasiblər Məktəbində təhsil almışdır (1956-1957). Yevlax rayonu 8 saylı sovxozda mühasib kimi əmək fəaliyyətinə başlamış, sonra orada böyük mühasib, baş mühasibin müavini, baş mühasib işləmişdir (1958-1985). Bakıda Respublika Sağlamlıq Birliyində baş mühasib vəzifəsində işləmişdir (1985-ci ildən). Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində qiyabi ali təhsil almışdır (1966-1972). Ədəbi fəaliyyətə XX əsrin 50-ci illərindən başlamışdır. Dövri mətbuatda rübailəri, bayatıları, epik və lirik şeirləri çap olunmuşdur.





**Əsərləri:**

1. Ana fəryadı. Bakı, Sabah, 1995, 60 səh., 500 nüs.
2. Qısqanclıqdan qətl. Bakı, Azərnəşr, 1996, 96 səh., 1.000 nüs.
3. Sağalmaz yara. Bakı, "Kür" nəşriyyatı, 1997, 146 səh., 500 nüs.
4. Vedinin yanı dağlar, arxamca baxıb ağlar. Bakı, "Araz" nəşriyyatı, 1998, 142 səh., 500 nüs.
5. Sənsiz. Bakı, Ağrıdağ, 1999, 140 səh., 500 nüs.
6. Vedili dünyam. Bakı, "Şuşa" nəşriyyatı, 2000, 256 səh., 500 nüs.
7. Ana. Bakı, "Adiloğlu" nəşriyyatı, 2001, 268 səh., 500 nüs.
8. Ata. Bakı, "Adiloğlu" nəşriyyatı, 2002, 232 səh., 200 nüs.
9. Bənövşə. Bakı, "Adiloğlu" nəşriyyatı, 2003,128 səh., 200 nüs.
10. Namus. Bakı, Adiloğlu, 2003, 230 səh., 150 nüs.
11. Kəpəz. Bakı, Adiloğlu, 2004, 264 səh., 100 nüs.
12. Haray. Bakı, Adiloğlu, 2005, 520 səh., 200 nüs.
13. General. Bakı, Nərgiz, 2006, 212 səh., 200 nüs.
14. Qəmdə qəm. Bakı, Adiloğlu, 2007, 196 səh,, 100 nüs.
15. Vətən. Bakı, Adiloğlu, 2008, 264 səh., 200 nüs.

**SIDLI KƏNDİ**

## BİLMAN QÜDRƏT
*(1957)*

*Bilman Qüdrət oğlu Nağıyev – şair. Azərbaycan Yazıçılar Birliyinin üzvü (2006)*

1957-ci il fevralın 15-də Qərbi Azərbaycanın Vedibasar mahalının Şidli kəndində [indiki Ermənistan Respublikasının Ararat (keçmiş Vedi) rayonu] anadan olmuşdur. Burada kənd orta məktəbini bitirdikdən sonra ordu sıralarında hərbi xidməti borcunu yerinə yetirmişdir (1975-1977).

Rostov Dövlət Dəmiryol Mühəndislər İnstitutunda qiyabi ali təhsil almışdır (1978-1984). 1977-1982-ci illərdə Bakı Şin zavodunda fəhlə, usta, baş usta, 1982-1989-cu illərdə Dəri-Gön Zavodunda sex rəisi işləmişdir.

"Tale" kiçik müəssisəsində direktor (1999-2001-ci illərdə) və "İslahat" qəzetində baş redaktorun müavini (1999-2001) vəzifəsində çalışmışdır. Hazırda fərdi yaradıcılıqla məşğuldur. Ədəbi fəaliyyətə 70-ci illərdən başlamışdır. İlk qələm təcrübəsi "Pioner" qəzetində çıxmışdır (1970). Dövri mətbuatda – "Gülüstan", "Nad", "Məqam", "Ədəbiyyat qəzeti", "İslahat" qəzetlərində vaxtaşırı çıxış etmişdir.

**Əsərləri:**

1. Ağrıdağ ağrısı. Bakı, "Ağrıdağ" nəşriyyatı, 1999, 103 səh., 500 nüs.
2. Sinəmin çarpaz dağı. Bakı, "Ağrıdağ" nəşriyyatı, 2001, 211 səh., 300 nüs.
3. Qızlar eşqə düşəndə (lirik şeirlər və poemalar). Bakı, Nurlan, 2007, 224 səh., 300 nüs.





4. Ömürdən düşən illər (lirik şeirlər və poemalar). Bakı, Nurlan, 2007, 268 səh., 300 nüs.
5. Ömrün əlli birinci baharı. Bakı, Nərgiz, 2009, 344 səh., 2500 nüs.

## KAMİL NOVRUZ
**(1950)**

***Kamil Səfər oğlu Novruzov - şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü (2002)***

1950-ci il martın 18-də Qərbi Azərbaycanın Vedibasar mahalının Şidli kəndində [indiki Ermənistan Respublikasının Ararat (keçmiş Vedi) rayonu] anadan olmuşdur. Burada kənd orta məktəbini bitirdikdən sonra sıravi kolxozçu kimi əmək fəaliyyətinə başlamışdır (1968-1973). İrəvan Kənd Təsərrüfatı Texnikumunun mühasibat fakültəsində təhsil almışdır (1973-1975). Moskva şəhərində öz ixtisası üzrə çalışmışdır (1976-1988). Eyni zamanda orada Kitabxanaçılıq Texnikumunu bitirmişdir (1980). Hazırda Bakı şəhərində yaşayır, fərdi yaradıcılıqla məşğul olur. Tələbəlik illərindən şeirə-sənətə həvəs göstərmişdir. İlk mətbu şeiri – "Ağaclar" 1976-cı ildə "Azərbaycan gəncləri" qəzetində çıxmışdır. Bundan sonra dövri mətbuatda şeirləri vaxtaşırı dərc olunmuşdur. "İrəvan qalası" tarixi romanını çapa hazırlamışdır. "Bir kəndin nağılı" romanı və şeir toplusu üzərində işini davam etdirir.

**Əsərləri:**

1. Həsrət (şeirlər). Bakı, 1999, 32 səh., 500 nüs.
2. Xan Araz (poema və şeirlər). Bakı, "Ağrıdağ" nəşriyyatı, 2000,133 səh., 1000 nüs.

# QƏRBİ AZƏRBAYCANIN ZƏNGƏZUR MAHALI



# QƏRBİ AZƏRBAYCANIN ZƏNGƏZUR MAHALININ QORİS (KEÇMİŞ GORUS) RAYONU




Ermənistan SSR-də (1920-1991) (1991-ci ildən Ermənistan Respublikası) inzibati rayon. 1930-cu il sentyabrın 9-da keçmiş Gəncə quberniyasının Zəngəzur qəzasının bir hissəsində yaradılmışdır.

Mərkəzi Qoris şəhəridir. 1924-cü ildən qəza tabeli şəhər, 1938-ci ildən isə respublika tabeli şəhərdir. Adı əvvəllər Gorus





olub. Rayon şimaldan və şərqdən Azərbaycan SSR-in Laçın və Qubadlı rayonları ilə, qərbdən Ermənistan SSR-in Sisyan rayonu ilə, cənubdan isə Qafan rayonu ilə həmsərhəddir.

Sahəsi 752 km²-dir. Rayonun ərazisindən Bazarçay (Voratan) çayı və onun qolları olan Gorus, Zoraşen, Xndzoresk çayları axır. Göllərdən ən böyüyü Qara göldür. Ümumi torpaq sahəsi 74657 ha, istifadəli sahəsi 52187 ha təşkil edir.

Tarixən rayonda türklər (azərbaycanlılar) və ermənilər (haylar) yaşamışdır. 1831-ci ildə 6700, 1897-ci ildə 25882, 1926-cı ildə 23362, 1939-cu ildə 26931, 1959-cu ildə 29950, 1970-ci ildə 20769, 1979-cu ildə 18629 nəfər [1970, 1979-cu illərdə aparılmış siyahıya alınma zamanı Gorus (Qoris) şəhərinin 17400 nəfər əhalisi buraya daxil olmamışdır] erməni (hay) və türk (azərbaycanlı) əhalisi olmuşdur.

Rusiya Cənubi Qafqazı işğal edərkən Gəncə xanlığının Zəngəzur mahalı da 1805-ci ildə onun hakimiyyəti altına keçdi. 1813-ci ildə çar Rusiyası ilə Qacar xanədanı (İran) arasında bağlanan Gülüstan müqaviləsi ilə bu işğal rəsmiləşdirildi. 1823-cü ildə Qarabağ vilayəti yaradıldı və Zəngəzur mahalı da onun tərkibinə daxil oldu.

1867-ci ildə çar Rusiyası inzibati baxımdan müəyyən islahatlar həyata keçirdi. Həmin ilin dekabrın 9-da verilmiş «Qafqaz və Zaqafqaziya ölkəsinin idarə olunmasının dəyişdirilməsi haqqında» çar fərmanına əsasən ölkədə dəyişikliklər aparıldı, yeni quberniya və qəzalar yaradıldı və bu zaman meydana gələn inzibati ərazi bölgüsü keçən əsrin 20-ci illərinə kimi ciddi dəyişikliklərə uğramadı. 1868-ci ildə Bakı, Tiflis və İrəvan quberniyalarının hesabına Yelizavetpol quberniyası yaradıldı. Mərkəzi Yelizavetpol (Gəncə) şəhəri olan bu quberniyanın tərkibinə Yelizavetpol, Ərəş, Nuxa, Qazax, Cavanşir, Qaryagin, Zəngəzur və Şuşa qəzaları daxil idi. Sahəsi 39982 km² olmuşdur. 1905-ci ildə Yelizavetpol quberniyasının ərazisində 2 müvəqqəti

general-qubernatorluq yaradıldı. Bunlardan biri Zəngəzur, Cavanşir və Şuşa qəzalarını, digəri isə qalan əraziləri əhatə edirdi.

Həmin dövrdən də Gorus rayonunun ərazisi Zəngəzur qəzasının tərkibində olmuşdur. 1921-ci ildə Zəngəzur qəzasının bir hissəsi Ermənistan SSR-yə verildi və Gorus rayonunun indiki ərazisi də buraya daxil idi. Rayon ərazisi 1921-1930-cu illərdə Ermənistan SSR-in Zəngəzur qəzasının tərkibində idi.

XIX əsrdən 1988-ci il noyabrın sonlarına kimi aşağıdakı kəndlərdə türklər yaşamışdır: 1. Abbas dərəsi (1918); 2. Abbaslar (XX əsrin əvvəllərində dağıdıldığı güman edilir); 3. Ağaflı (1918); 4. Ağbulaq (1988); 5. Ağkörpü (1918); 6. Alçalı (1918); 7. Amudux (1918); 8. Aynaxlı (qışlaq) (?); 9. Babaelli (?) (yerində Today kəndi yaranıb); 10. Baba Yaqublu (1918 ?); 11. Babalı Qayalı (1918); 12. Ballı qaya (1918); 13. Beşbarmaq (qışlaq) (1920-ci illərdə); 14. Bəzli Ağcakənd (1918); 15. Bina Qaragədik (qışlaq) (1918); 16. Birinci Ayanlı (1918); 17. Birinci Bayandur (1969-cu ildən Vağadur) (1918); 18. Boz Kaha (1919); 19. Əbdüləlilər (?); 20. Əhmədağa (?); 21. Əkərli (1918); 22. Ələkçi (1918); 23. Əliqulu (indi onun yerində Azadaşen kəndi yerləşir); 24. Ərəbxana (1918); 25. Giləkərli (?); 26. Gorus [qarışıq- türk və erməni (hay)) (1918); 27. Gölcük (?); 28. Xanazax (?); 29. Xoznavar [qarışıq-türk və erməni (hay)] (1918); 30.İkinci Alyanlı (1918); 31. İkinci Bayandur (1918); 32. Kürdlər; 33. Qalaq (1918); 34. Qlican (?); 35. Qurdqulaq (1988); 36. Mac [qarışıq-türk və erməni (hay)]; 37. Şahverdilər (Şahverdiuşağı) (1930-cu illərdə); 38. Şamsız (1930-cu illərdə əhalisi Şurnuxu kəndinə köçüb); 39. Şurnuxu (1988).

Siyahıdan göründüyü kimi türk kəndlərinin əksəriyyəti 1918-1920-ci illərdə ermənilər (haylar) tərəfindən dağıdılmış və əhalisinin çox hissəsi məhv edilmişdir. Sağ qalanlar isə Azərbaycanın müxtəlif bölgələrinə, Türkiyəyə və İrana sığınmağa məcbur olmuşdular.





Ermənistan Respublikasında (1918-1920) 1920-ci il noyabrın 29-da sovet hakimiyyəti quruldu və 1922-ci ildən qaçqınlar doğma kəndlərinə qayıdaraq dağılmış kəndlərini bərpa etdilər və təsərrüfatı dirçəltdilər. Rayonun ərazisində yaşayan türklər, nəhayət, 1988-ci il noyabrın sonunda bir nəfər kimi yenidən öz doğma yurdlarından zorla qovuldular. İndi onlar Azərbaycan Respublikasının müxtəlif şəhərlərində, rayon mərkəzlərində, qəsəbələrində və kəndlərdə yaşamaqdadırlar.

1970-ci ilin məlumatına görə rayonun ərazisində 1 respublika tabeli şəhər (**Gorus**-Gorus çayının sahilində 1770 m yüksəklikdə, Qafan dəmiryol stansiyasından 70 km şimaldadır. Aeroport, mikroelektrik motorlar, rezin ayaqqabı, yağ-pendir, avtomobil təmiri, tütün- fermentiləşdirmə, ağac emalı zavodları, toxuculuq, xalça fabrikləri vardır. Ermənistan Pedaqoji İnstitutunun filialı, pedaqoji məktəb, ölkəşünaslıq muzeyi, A.Bakunsun muzeyi fəaliyyət göstərir), 18 kənd sovetliyi [1. Bartsravan (Yerit-satumb); 2.Dzoraşen (Körü); 3. Xnatsax; 4. Xndzopesk; 5. Xot; 6. Xoznavar; 7. Kornidzor; 8. Qaldizor (Qaladərəsi); 9.Qarjis (Yayıcı); 10. Qaraşeni; 11. Qarunc; 12. Şinuayr; 13. Şurnuxu; 14. Tatev; 15. Tatevhes; 16. Tex; 17. Tənzətap; 18. Verişen] və 28 yaşayış məntəqəsi [1.Ağbulaq; 2. Azataşen (Əliquluşen); 3. Bartsravan (Yeritisatumb); 4. Barun; 5. Cvarants; 6. Dzoraşen (Körü); 7. Ərəvus; 8. Haygedzor (Muğancıq); 9. Xnatsax; 10. Xndzoresk; 11. Xot; 12. Xoznavar; 13. Kornibzor; 14. Qalidzor, (Qaladərəsi); 15. Qaraşen; 16. Qaraunc; 17. Qarjis (Yayıcı); 18. Qurdqulaq; 19. Moldaş; 20. Meşə zavodu qəsəbəsi; 21. Şinuayr; 22. Şurnuxu; 23. Tatev; 24. Tataehes; 25. Tex; 26. Tənzətap; 27. Vağatur; 28. Verişen] var idi.

1940-1970-ci illərdə Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin verdiyi müxtəlif fərmanlarla adları dəyişdirilərək erməniləşdirilən türk kəndləri:

| Keçmiş (əsl) adı | İndiki adı | Dəyişdirildiyi tarix |
|---|---|---|
| 1. Bavandur | Vağadur | 07.05.1968 |
| 2. Körü | Dzorasen | 19.05.1968 |
| 3. Muğancıq | Ayqedzor | 25.01.1978 |
| 4. Yaycı | Qurjis | 03.07.1968 |
| 5. Gorus | Qalidzor | ------------- |
| 7. Əliqulusen | Azatasen | 01.06.1940 |
| 8. Yeritsatumb | Bartsravan | 01.06.1940 |

1991-ci ildə Ermənistan Respublikası Prezidentinin imzaladığı fərmanla adları dəyişdirilərək erməniləşdirilmiş türk kəndləri.

| Keçmiş (əsl) adı | Yeni adı | Dəyişdirildiyi tarix |
|---|---|---|
| 1. Ağbulaq | Ağbullaq | 09.04.1991 |
| 2. Qurdqulaq | Kurtkullak | 09.04. 1991 |
| 3. Şurnuxu | Surnux | 09.04. 1991 |





## SURNUXU KƏNDİ

### ƏLƏSGƏR HƏSƏNLİ
### (1946)

***Ələsgər Qaraş oğlu Həsənov - şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü (2000)***

1946-cı il mayın 24-də Qərbi Azərbaycanın Zəngəzur mahalının Şurnuxu kəndində [indiki Ermənistan Respublikasının Qoris (keçmiş Gorus) rayonu] anadan olmuşdur. Burada kənd orta məktəbinin doqquzuncu sinfini (1962-1963), Qubadlı rayonunda onuncu sinfi (1963-1964) bitirmişdir. Ali təhsilini Azərbaycan Dövlət Universitetinin kimya fakültəsində almışdır (1967-1972).

Əmək fəaliyyətinə Sumqayıtda tikinti trestində nəzarətçi (1964-1965) kimi başlamışdır. Sonra Azərbaycan EA Qeyri-üzvi və Fiziki-Kimya İnstitutunda baş laborant (1966-1968), Sumqayıt Kimya Zavodunda baş aparatçı (1969-1972), növbə rəisi, korpus rəisi, texnoloq, 20 saylı orta məktəbdə kimya müəllimi (1972-1986) işləmişdir. Hazırda Sumqayıt şəhər 39 saylı orta məktəbdə müəllimdir (1991-ci ildən).

Ədəbi fəaliyyətə tələbəlik illərindən başlamışdır. İlk qələm təcrübələri "Lenin tərbiyəsi uğrunda", "Azərbaycan gəncləri", "Sosialist Sumqayıtı" qəzetlərində çap olunmuşdur. Mərkəzi qəzet və jurnallarda vaxtaşırı çıxış edir.

**Əsərləri:**

1. Qınama məni, vətən. Bakı,1994.
2. Yaddaşdan yaddaşa. Bakı,1996.
3. Qəlbdən doğan ehtiyac. Bakı, Nurlan, 2010.
4. Tapmaq istəsən. Bakı, 2012.
5. Tale yazısı. Bakı, Azərnəşr, 2012.

## QƏRBİ AZƏRBAYCANIN ZƏNGƏZUR MAHALI QAFAN RAYONU




Ermənistan SSR-də (1920-1991) (1991-ci ildən Ermənistan Respublikası) inzibati rayon. 1930-cu il sentyabrın 9-da təşkil edilmişdir. Ermənistan Respublikasının şimal-şərqində yerləşir.

Cənubdan Azərbaycan SSR-nin (1991-ci ildən Azərbaycan Respublikası) Zəngilan və Qubadlı rayonları ilə, şərqdən Ermənistan SSR-nin Gorus və Sisyan rayonları və cənub-qərbdən Meğri rayonu ilə həmsərhəddir. Dağlıq rayondur. Qərbdən Bərgüşad dağları, şimaldan Zəngəzur sıra dağları ilə əhatə olunur. Ən yüksək dağı Qapıcıq (3904 m) və Xusdubdur (3202 m). Rayonun ərazisindəki Qaf (Qap) dağı əslində elə Qapıcıq dağıdır





ki, bu da «qapıcıq» yəni «kiçik qapı» deməkdir. Həqiqətən də, keçmişdə Şərq ölkələrindən gələn tacirlər və səyyahlar Ordubaddan Qafan, Qarakilsə (indi Sisyan), Zəngilan və başqa bölgələrə getmək üçün məhz Qapıcıq dağının Gəmi qaya deyilən ətəyindən keçməli idi.

Ərazisi 1345 km$^2$-dir. Əhalisi 1981-ci il məlumatına görə 22500 nəfər olmuşdur (Qafan şəhərindən başqa). Mərkəzi Qafan şəhəridir. 1938-ci ildən respublika tabeli şəhərdir. 1981-ci il məlumatına görə şəhərin əhalisi 36.000 nəfər olub.

Rayonun ərazisi 1805-ci ildən Rusiyanın tərkibinə birləşdirildikdən sonra müxtəlif dövrlərdə müxtəlif inzibati ərazi vahidlərinin tərkibində olmuşdur. 1861-ci ildən 1920-ci ilə kimi Yelizavetpol quberniyasının (1918-1920-ci illərdə Gəncə) Zəngəzur qəzasına daxil edilmişdir. 1918-1920-ci illərdə Ermənistan Respublikasında hakimiyyətdə olmuş daşnaklar Zəngəzur qəzasını Ermənistan Respublikasına birləşdirmək üçün yaratdıqları silahlı dəstələrlə ərazidə türklərə qarşı soyqırımı həyata keçirdilər. Bu zaman yüzlərlə kənd dağıdıldı və minlərlə insan həlak oldu. Sağ qalanlar isə müxtəlif bölgələrə qaçmağa məcbur oldular. Soyqırımı nəticəsində Qafanın indiki ərazisinə daxil olan kəndlər və əhalisi də dağıntılara və qırğınlara məruz qaldılar.

Hər iki respublika Sovet Rusiyası tərəfindən işğal olundu və 1920-ci il aprelin 28-də Azərbaycanda, 1920-ci il noyabrın 29-da isə Ermənistanda sovet hakimiyyəti üsul idarəsi quruldu. Bundan sonra yeni qurulmuş sovet Ermənistanın ərazisinin az olması bəhanəsi ilə Moskvanın yeni bolşevik liderləri və RK (b) P-nın [Rusiya Kommunist (bolşevik) Partiyası] Qafqaz bürosu bütün vasitələrdən istifadə edərək Azərbaycanın ərazisi hesab olunan Zəngəzur qəzasının bir hissəsinin 1920-ci ilin sonunda Ermənistan SSR-yə verilməsinə nail oldular. Elə o vaxtdan da Zəngəzurun Ermənistan SSR-yə düşən hissəsində 1930-cu ildə

Sisyan, Qafan, Gorus və Meğri (Mığrı) rayonları, Azərbaycan SSR-yə düşən hissəsində isə Qubadlı və Laçın rayonları yaradıldı.

Qafan rayonu hələ Zəngəzur qəzası dövründə müxtəlif mahallara, yarım rayonlara bölünmüşdür. Bunlar Sünik, Ecanan, Qapan mahallarından və Becakan dərəsindən ibarət olmuşdur. Ecanan mahalına, əsasən, türk kəndləri - **Xələc, Təcədin, Yemƒzli, İncəvar, Noraşinnik, Oxtar, Çobanlı, Hünit, Qaradığa, Şabadin, Dovrus, Dornı** və bir neçə erməni (hay) kəndi – **Axtaxana (əhalisinin bir hissəsi türk olub), Ərcəzur, Dəymədağıl** kəndləri daxildir.

Qapan mahalı iki yarımrayona ayrılmışdır: 1 yarımrayonu **Gığı dərəsidir.** Buraya ancaq türk kəndləri-**Quşçulu, Mollalı, Qarabaş, Qovşud, Baharlı, Gığı, Pürülü, Daş Başı, Mahmudlu, Keypəşin, Həcəti, Kurut, Çiriş, Kırs, Acıbac, Kərd, Yuxarı Kərd, Şotalı** daxildir. **II yarımrayon Oxçu dərəsidir.** Buraya türk kəndləri - **Müsəlləm, Oxçu, Atqız, Aralıq, Pirdavdan (Piri Cavidan) və Şabadin** kəndləri və bir neçə erməni kəndi – **Kürdükan, Gecəlan, Puxrud və Mərzə** kəndləri daxildir.

Sünik mahalına isə Qafan şəhərindən cənubda yerləşən türk kəndləri – **Baydax, Qaraçimən, Bəkdaş, Siznək, Aşağı Gödəkli, Yuxarı Gödəkli** kəndləri və **İncəvənnik, Həyərək və Davidbəy** adlı erməni (hay) kəndləri daxildir. **Veçakan** dərəsində isə kəndlərin əksəriyyəti erməni (hay) kəndləridir. Bu mahalda cəmi 5-6 türk kəndləri (Komaran, Ağkənd və s.) kənddən cəmi 26-sı ermənilərin (hayların), qalanları isə türklərin olmuşdur. 1959-cu il məlumatına görə rayonda əhalinin 52%-i türk, 48 %-i erməni (hay) olmuşdur.

Rayonun indiki ərazisində həmişə türk əhalisi üstünlük təşkil etmişdir. Hətta erməni mənbələri də bunu təsdiq etmişdir. Onların verdiyi məlumata gör□ 1831-ci ildə rayonun indiki ərazisində 1852 nəfər erməni (hay), 1940 nəfər türk (azərbaycanlı),1873-cü ildə 3612 nəfər erməni (hay), 6703 nəfər türk (azərbaycanlı)





olmuşdur. Artıq türklərin sayı iki dəfə artmışdır. XIX əsrin sonlarında isə türklərlə ermənilərin sayı bərabərləşmiş, yəni 12000 nəfər olmuşdur. Ancaq 1918-1920-ci illərdə Zəngəzurda ermənilər tərəfindən törədilən türk soyqırımı nəticəsində bir nəfər də olsa türk qalmamışdır. Bu hal 1922-ci ilə kimi davam etmişdir. 1920-ci il noyabrın 29-da Ermənistan Respublikasında (1918-1920) sovet hakimiyyəti qurulduqdan (29.IX.1920) sonra Zəngəzurun Qafan, Meğri (Mığrı), Sisyan və Gorus rayonlarının indiki ərazisi yuxarıda qeyd etdiyimiz kimi sovet Ermənistanına verilmişdir. Daşnakların bir hissəsi məhv edilmiş, bir hissəsi xarici ölkələrə qaça bilmişdir. Heç yerə gedə bilməyənlər isə yeni quruluşu qəbul edərək müxtəlif vəzifələrə soxula bilmişdilər. Kommunist Ermənistanına inanan zavallı qaçqın türk əhalisinin bir hissəsi doğma yurdlarına qayıdaraq dağıntıları bərpa etməyə başladılar. Artıq 30-cu illərdə dirçələn türk kəndlərində kolxoz qurulmuş, ibtidai, yeddillik və orta məktəblər, kitabxanalar, səhiyyə müəssisələri fəaliyyət göstərməyə başlamışdı.

30-cu illərdə baş verən repressiya zamanı maskalanaraq müxtəlif məsul vəzifələr tutan daşnak erməniləri qeyrətli türklərə qarşı mübarizələrini davam etdirmişdir. Onlar minlərlə zəngəzurlunun güllələnməsinə və Sibirə, Orta Asiyaya gedər-gəlməzə göndərilməsinə səbəb olmuşlar. Repressiyadan xilas ola bilənlər bir müddət qaçaqçılıq etmiş və sonra Türkiyəyə və İrana keçmişdilər. Bunların arasında qafanlılar da var idi.

Yuxarıda qeyd etdiyimiz kimi 1922-ci ildən sonra qaçqınlar öz kəndlərinə qayıdaraq yenidən bu ərazilərdə yaşamağa başladılar. Həmin il aparılmış siyahıyaalınmanın nəticələrinə görə ermənilər 20629 nəfər, türklər (azərbaycanlılar) 3868 nəfər olmuşdur. 1931-ci ildə isə bu nisbət belə olmuşdur: erməni (hay) 20629 nəfər, türk (azərbaycanlı) isə 5713 nəfər, 50-ci illərin sonunda rayonun əkin sahələri 69337 hektar olmuşdur. Onun da 42034 hektarı suvarılan torpaqlardır. 80 mindən artıq qoyun,

30 min iribuynuzlu qaramal, 60-dan artıq kolxoz var idi. Kənd təsərrüfatı ilə məşğul olanlar, əsasən, türklər (azərbaycanlılar) idi. 1940-cı illərdə Kecalan Mis-Malibden Kombinatı işə salındı və 1960-cı illərdən isə kolxozların sovxozlara çevrilməsi prosesi başladı. Bu da rayonun ərazisində mövcud kənd təsərrüfatı strukturlarının dağıdılmasına imkan verdi.

Yuxarıda adlarını çəkdiyimiz yarımrayonların hər birində bir sovxoz təşkil edildi. Statistik məlumatların nəticələrinə görə kənd təsərrüfatı istehsalı 30 dəfədən artıq azalmışdı. Bir sıra kəndin əkin sahələri sahibsiz qalmışdır.

1948-1953-cü illərdə Qərbi Azərbaycanda (Ermənistan SSR) yaşayan türklərin (azərbaycanlılar) SSSR-nin o zamanki rəhbərliyinin (İ.Stalin, Molotov, A.Mikoyan və b.) birbaşa tələbi ilə Azərbaycan SSR-nin aran rayonlarına köçürülməsi prosesi qafanlılara o qədər ziyan vurmasa da, 50-ci illərin sonu 60-cı illərin əvvəllərindən onların Abşeiron yarımadasına, xüsusilə də Bakı şəhərinə axını gücləndi. Buna səbəb ermənilərin həmin illərdən qafanlılara qarşı ayrı-seçkilik siyasətinin güclənməsi olmuşdur.

Bu proses, nəhayət, 1988-ci il noyabrın sonunda başa çatdı, yəni Qərbi Azərbaycanın (indiki Ermənistanın) türk (azərbaycanlılar) əhalisinin bir nəfər kimi öz dədə-baba torpaqlarından zorla qovulması zamanı qafanlılar da doğma yerlərindən məhrum oldular.

İndi onlar Azərbaycan Respublikasının müxtəlif şəhərlərində, rayon mərkəzlərində, qəsəbələrində və kəndlərində yaşamaqdadırlar.

Ümumiyyətlə, Qafan rayonunun ərazisində tarixən, yəni 1988-ci ilə kimi bizə məlum olan türklər (azərbaycanlılar) yaşayan kəndlərin bəziləri XIX əsrin əvvəllərində, yəni Rusiyanın Cənubi Qafqazı işğal edən zaman, bəzilərinin XIX əsrin sonu – XX əsrin əvvəllərində, xüsusilə də 1918-1920-ci illərdə, bir





hissəsinin də 20-30-cu illərdə dağıdılaraq ləğv edilməsi müxtəlif arxiv sənədlərində öz əksini tapmışdır. Mövcud olmuş kəndlər aşağıdakılardır:

1. Abbas dərəsi (?);
2. Açağu (1988);
3. Acıbac (1988);
4. Ağgöl (?);
5. Ağkənd (XX əsrin əvvəlləri);
6. Axtaxana (1918) (qarışıq-türklər və ermənilər);
7. Almalıq (1918);
8. Anabad (1918) (qarışıq-türklər və ermənilər);
9. Aralıq (Oxçu Aralığı) (1918);
10. Arxüstü (1918);
11. Aşağı Craxor (1988);
12. Aşağı Girətağ (1988);
13. Atqız (1980-ci illərdə);
14. Badabar (?);
15. Baharlı (1988);
16. Baydak (XX əsrin 20-ci illəri);
17. Bəkdaş (1918);
18. Bəylərin mis zavodu qəsəbəsi (?);
19. Bıx (1918-1920) (qarışıq-türklər və ermənilər);
20. Boğazcıq (Buğacıq) (1918-1920);
21. Çanaxçı (1918);
22. Çatılıdüz (1918);
23. Çiriş (50-ci illər);
24. Çobanlı (1988);
25. Çullu (30-cu illər);
26. Cıbıllı (30-cu illərin sonu);
27. Carxor (Kənd Craxoru) (1988);
28. Daşbaşı (1988);
29. Daş Nov (1918);

30. Dərməzür (20-ci illərin sonu);
31. Dovrus (1918);
32. Əcili (60-cı illərdə);
33. Əfsərli (60-cı illərdə);
34. Ərəbəlz (?);
35. Əskilum (1918);
36. Gərd (1988);
37. Giləmeşə (?);
38. Gığı (Kiçik Sofulu, Sarallı) (1988);
39. Gomoran (1988);
40. Gödəkli Zjiqan (1918);
41. Göllü qışlaq (1918);
42. Göllü zəmi (1918);
43. Həcəti (1988);
44. Hünü (1988);
45. Xatın bağı (1918);
46. Xələc (1988);
47. Xış (1918);
48. İncevar (30-cu illər);
49. Keypəşin (1988);
50. Kırs (1988);
51. Kisar (1918);
52. Kosalı (?);
53. Köşəkənd qışlağı (1918);
54. Kumand (1918);
55. Qafan (1988) (qarışıq-türklər və ermənilər);
56. Qafan mədənləri (1918) (qarışıq-türklər və ermənilər);
57. Qapıcıq (1918) (qarışıq-türklər və ermənilər);
58. Qarabaşlar (30-cu illər);
59. Qaraçimən (1988);
60. Qaradğa (1988);
61. Qarakənd (?);





62. Qotur (1918);
63. Qazarxana (?);
64. Qovşud (1988);
65. Quşçulu (1988);
66. Mahmudlu (1940-cı ildən Çaykənd) (1988);
67. Mollalı (1918);
68. Molla Uruzbəy binəsi (30-cu illərdə);
69. Müsəlləm (1988);
70. Noraşennik (1918) (qarışıq-türklər və ermənilər);
71. Oxçu (1918);
72. Oxtar (1988);
73. Oxtar binəsı (1918);
74. Paşa kəndi (1918) (qarışıq türklər və ermənilər);
75. Pəyhan (1988);
76. Pirdavidan (Piri Cavidan) (1918);
77. Pşan (qışlaq) (1918);
78. Pürülü (1988);
79. Sanallı (1918);
80. Sarıqaya (1918);
81. Səncərəli (30-cu illər);
82. Siznək (1988);
83. Suxan (20-ci illərin sonu-30-cu illərin əvvəlləri);
84. Şabadin (Ecanan mahalı) (1988);
85. Şabadin (Oxçu Şabadini) (1918);
86. Şəhərcik (1988);
87. Şərdərə (1918);
88. Şotalı (20-ci illərin sonu);
89. Taxta kəndi (1918) (qarışıq-türklər və ermənilər);
90. Təcəddin (30-cu illərin sonu);
91. Tuqanlar (1918);
92. Tunis (20-ci illərin sonu);
93. Turabxanlı (20-ci illərin sonu);

94. Tut Pir qışlağı (1918);
95. Yamaxlı (1918);
96. Yaylaxlı-Mehti kəndi (1918);
97. Yeməzli (30-cu illər);
98. Yuxarı Girətağ (1988);
99. Yuxarı Gödəkli (1988);
100. Zeyvə (30-cu illər).

Siyahıdan da göründüyü kimi kəndlərin çoxu 1918-1920-ci illərdə ermənilər (haylar) tərəfindən dağıdılmışdır. 27 kənddə isə 1988-ci ilə kimi türklər yaşamışdır. Qafan şəhərində ermənilərlə bərabər türklər də yaşayırdı.

1970-ci ilin məlumatına görə rayonun ərazisində respublika tabeli 1 şəhər [**Qafan şəhəri**-Zəngəzur silsiləsinin cənub-şərq yamacalrında, Oxçi (Oxçu) çayı (Araz hövzəsi) sahilindədir. Dəmir yol stansiyası və mədən sənayesi mərkəzidir. Mis filiz kombinatı, filizsaflaşdırma və mebel fabrikləri, quşçuluq fabriki, avtomobil təmiri zavodu, yeyinti sənayesi müəssisələri, mədən-metallurgiya texnikumu, tibb və musiqi məktəbləri, dram teatrı və s. var.

1938-ci ildən respublika tabeli şəhərdir. Şəhərin adı keçmişdə mövcud olan indiki Qafan şəhərindən 10 km şimal-qərbə doğru, Oxçu çayının sağ sahilində yerləşmiş Qapan kəndinin adı ilə bağlıdır. İrəvandan 320 km, Bakıdan 280 km məsafədədir. 1976-cı ildə əhalisi 36 min nəfər olmuşdur. XIX əsrin 2-ci yarısında fransızlar misəritmə sənayesini yaradaraq mis filizi mədənlərindən sənaye üsulu ilə istifadə edilməsinə imkan yaratmışlar. Sonralar Zəngəzur Mis-Molibden Kombinatı yaradıldı. 1918-ci ilə qədər Qafan şəhərinin bilavasitə yanında Qatar adlı türk (azərbaycanlı) kəndi olmuşdur. 1918-1920-ci illərdə baş verən hadisələr zamanı kənd ermənilər (haylar) tərəfindən dağıdılmış və xeyli insan tələfatı olmuşdur. Sağ qalanlar isə ətraf ərazilərə qaçaraq vəziyyətin sabitləşməyini gözləmişdilər. Nəhayət, 1920-ci il noyabrın 29-da Ermənistan Respublikasında daşnakların hakimiyyəti Sovet





Rusiyasının Qızıl Ordusu tərəfindən devrildi, Ermənistanda qurulan yeni bolşevik hökuməti qaçqın türklərin öz doğma yurdlarına qayıtmalarını istədi və onların təhlükəsizliklərini öz üzərinə götürdü. Yaranmış şəraitdən istifadə edən qaçqınların bir hissəsi doğma kəndlərinə qayıdaraq dağıntıları bərpa etməyə başladılar. Bunların arasında Qatar kəndinin əhalisi də var idi. Ancaq qatarlılar öz dağıdılmış kəndlərində deyil, Qafan şəhərində məskunlaşmağa məcbur oldular.

Ermənistan SSR-nin o zamankı rəhbərliyi Qafanı respublika tabeli şəhər səviyyəsinə çatdırmaq üçün şəhərətrafı erməni kəndlərini (Aşotavan, Kavard, Bağaburc, Barabatum) və türk kəndlərini (Şəhərcik, Açağu) Qafan şəhərinə birləşdirmişdilər. Son dövrdə Qafan şəhərində 5000 nəfər türk (azərbaycanlı) yaşamışdır. 1979-cu ildə keçirilən siyahıyaalınma zamanı türk (azərbaycanlı) əhasinin çoxu qeydə alınmamışdır. Türklərə xidmət edən iki orta və bir səkkizillik məktəb fəaliyyət göstərmişdir. 60-cı illərdən sonra rayonun mərkəzi də daxil olmaqla qafanlılara ermənilərin göstərdikləri qeyri-insani münasibətlər və ayrıseçkilik onların tədricən Azərbaycan SSR-yə köçməsinə səbəb olmuşdur. 1988-ci ildə isə bütün qərbi azərbaycanlılar kimi qafanlılar da öz doğma yurdlarından zorla qovuldular], bir rayon tabeli şəhər (**Qacaran şəhəri**- Oxçu çayının sahilində yerləşir. 1938-ci ildən rayon tabeli şəhərdir. Ən yaxın dəmiryol dayanacağı 32 km kənarda yerləşən Qafan stansiyasıdır. Rayon mərkəzindən 32 km, İrəvan şəhərindən 352 km məsafədədir. Şəhərin adı çox güman ki, məşhur türk tayfalarından olan qacarlarla bağlıdır. Səfəvilər dövründə İrəvan hakimləri Qacar tayfasından olmuşdur), 19 kənd sovetliyindən [1. Arapak (Əgərək), 2. Artisvanik, 3. Baharlı, 4. Çakaten, 5. Çaykənd (Mahmudlu), 6. David-Bek (Zeyvə), 7. Geğanuş (Güdyüm), 8. Gığı, 9. Kuyrud (Kürüd), 10. Lernadzor (Kürdkənd), 11. Noraşenik, 12. Sevkar, 13. Siznak (Siznək), 14. Şikaxox, 15. Tandzaver, 16. Tsab, 17. Verin Giratağ (Yuxarı

Girətağ), 18. Verin Xotanan (Yuxarı Xotanan), 19. Yeğvard] və 60 yaşayış məntəqəsi [1. Acıbac; 2. Ağvan; 3. Antaraşat; 4. Arçadzor; 6. Arapak; 7. Artsevanik; 8. Aşotavan; 9. Aşağı Girətağ; 10. Bağaburc; 11. Baharlı; 12. Barabatum; 13. Bəydaş; 14. Çakaten; 15. Çapni; 16. Çaykənd (Mahmıdlı); 17. Çibilli; 18. Çobanlı; 19. David-Bek (Zeyvə); 20. Dəvrüs; 21. Dzorastan (Astaxana, Xladağ); 22. Gehanuş (Gutqam); 23. Gərd; 24. Gığı; 25. Gomaran; 26. Hacatin; 27. Hünüd; 28. Xalac (Xələc); 29. Xdrans (Sirkətas); 30. Kaxnut (Marauz); 31. Katnarat (Pirmirzə); 32. Kavart; 33. Kefaşen (Gəhləşin); 34. Kirs; 35. Kürüd; 36. Qaradığa; 37. Qovuşud; 38. Lernadzor (Kürdkənd); 39. Müsəlləm; 40. Nerkin Hand (Aşağı Hənd); 41. Nerkin Xotanan (Aşağı Xotanan); 42. Noraşenik; 43. Oxtar; 44. Payahan; 45. Pıxnut; 46. Pürülü; 47. Sevkar; 48. Siznak (Siznək); 49. Sraşen (Kilsəkənd); 50. Şabadin; 51. Şəhərcik; 52. Şikaxox; 53. Şişkert; 54. Şrvenants (Dəymədağlı); 55. Tandzaver; 56. Tsav; 57. Ucanis; 58. Verin Giratağ (Yuxarı Girətağ); 59. Verin Xotanan (Yuxarı Xotanan); 60. Yeğvard] var idi.

1920-1980-ci illərdə Ermənistan Ali Soveti Rəyasət Heyətinin imzaladığı fərmanlarla adları dəyişdirilərək erməniləşdirilmiş türk yaşayış məntəqələri (kəndlər, qışlaqlar).

| **Kecmis (əsl) adı** | **Yeni adı** | **Dəvisdirildivi tarix** |
|---|---|---|
| 1. Axtaxana | Xlataq | --------------- |
| | Dzorastan | 01.061940 |
| 2.Dəvmədağlı | Srvenants | ----------- |
| 3. Dornu(Dortnu) | Antarasat | 20.06.199. |
| 4. Gülgün | Geğanus | 29.06.1946 |
| 5. Kilsəkənd | Srasen | ------- |
| 6. Kürdkənd | Lernadzor | ------- |
| 7. Qacaran | Kacaran | 04.07.1951 |
| 8. Mahmudlu | Çaykənd | 01.06.1940 |





| | | |
|---|---|---|
| 9. Mülkucan | Erkenants | ----- |
| 10. Pirməzrə | Katnarat | 29.06.1949 |
| 11. Sirkətas | Xdrants | ------- |
| 12. Zeyvə | David-Bek | 29.06.1946 |

1991-ci il və ondan sonrakı illərdə Ermənistan Respublikası Prezidentinin imzaladığı fərmanlarla adları dəyişdirilərək erməniləşdirilmiş türk yaşayış məntəqələri (kəndlər, qışlaqlar)

| Keçmiş (əsl) adı | Yeni adı | Dəyişdirildiyi tarix |
|---|---|---|
| 1.Acıbac | Acabac | 09.04. 1991 |
| 2.Aşağı Girətəğ | Nerkin Qirataq | 1991- ci ildən sonra |
| 3. Aşağı Pürülü | Geğevank | 09.04. 1991 |
| 4. Qayakənd | Bağavank | 1991-ci ildən sonrakı |
| 5. Gərd | Kard | 09.04.1991 |
| 6. Qovşud | Kavçut | 09.04.1991 |
| 7. Şabadin | Yeğek | 09.04. 1991 |
| 8.Yuxarı Girədağ | Vern Qirədağ | 1991-ci ildən sonra |

## ACIBAC KƏNDİ

### PƏRVANƏ ZƏNGƏZURLU
### (1958)

*Pərvanə Hüsü qızı Mustafayeva - şair*

1958-ci il aprelin 14-də Qərbi Azərbaycanın Zəngəzur mahalının Acıbac kəndində (indiki Ermənistan Respublikasının Qafan rayonu) anadan olmuşdur. Qonşu Pəyahan kəndində orta məktəbi bitirdikdən sonra Bakıda Sabir adına Pedaqoji Texnikumunda təhsil almışdır (1973-1980). Təyinatla Abşeiron rayonunun Fatmayi kənd orta məktəbinə müəllim göndərilmişdir (1980-ci ildə).

Bədii yaradıcılığa tələbəlik illərindən başlamışdır. İlk mətbu şeiri – "Dağlar", "Pioner" qəzetində dərc olunmuşdur (1976). Bundan sonra dövri mətbuatda şeirlərlə vaxtaşırı çıxış etmişdir. "Xudafərin", "Məhsəti", "Nur heykəli" və s. almanaxlarda silsilə şeirləri çıxmışdır. "Aşıq Pəri" məclisinin fəal üzvüdür (2002). "Qızıl saz" diplomuna layiq görülmüşdür (2003).

**Əsərləri:**

1. Qayıt gəl (şeirlər). Bakı, "Nurlan", 2002,156 səh., 500 nüs.
2. Dağlar yuxuma girir (şeirlər və poema). Bakı, "Maarif" nəşriyyatı, 2003, 148 səh., 500 nüs.
3. Zəngəzur həsrəti (şeirlər, poemalar). Bakı, "Maarif" nəşriyyatı, 2004, 400 səh., 500 nüs.





## BAHARLI KƏNDİ

### DÜNYAMALI MƏFTUN
*(1929-1999)*

*Dünyamalı Qulu oğlu Dünyamalıyev - şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü (1995)*

1929-cu ilin payızında Qərbi Azərbaycanın Zəngəzur mahalının Baharlı kəndində (indiki Ermənistan Respublikasının Qafan rayonu) anadan olmuşdur. Burada kənd orta məktəbini bitirdikdən sonra İrəvanda Azərbaycan Pedaqoji Texnikumunda təhsil almışdır (1946-1948). Əmək fəaliyyətinə Qafan rayonunun Gığı kənd orta məktəbində müəllim kimi başlamışdır (1954-1988). Ordu sıralarında hərbi xidməti borcunu yerinə yetirmişdir (1950-1954). Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində təhsilini davam etdirmişdir (1954-1960). 1988-ci ilin sonlarında baş vermiş məlum hadisələr zamanı Azərbaycana Bakı şəhərinə pənah gətirmişdir. "Azərkitab" Respublika Kitab Birliyində korrektor işləyib (1989-cu ildən).

Bədii fəaliyyətə 50-ci illərdən başlamışdır. İlk şeiri 1956-cı ildə "Sovet Ermənistanı" qəzetində dərc olunmuşdur.

**Əsərləri:**

1. Çiçəklənən arzular. Yerevan, Hayastan, 1970.
2. Göyçədə göyərən sətirlər. Bakı, 1989,.
3. Öz oduma yanıram. Bakı, 1991.
4. Bahar. Bakı, 1993.
5. Qaytarın. Bakı, 1995.

## GÜLOĞLAN DÜNYA
*(1949)*

*Güloğlan Dünyamalı oğlu Dünyamalıyev - şair*

1949-cu il mayın 24-də Qərbi Azərbaycanın Zəngəzur mahalının Baharlı kəndində (indiki Ermənistan Respublikasının Qafan rayonu) anadan olmuşdur. Burada kənd orta məktəbini bitirmişdir. Gənclik dövründən taleyini Sumqayıt şəhərinə bağlamışdır. Burada bir müddət istehsalatda çalışmış və sonra Azərbaycan Dövlət Politexnik İnstitutunda ali təhsil almışdır (1970-1975). Hazırda Sumqayıt Elmi-Tədqiqat İnstitutunda işləyir. Bədii yaradıcılığa tələbəlik illərindən başlamışdır. Dövri mətbuatda şeirləri vaxtaşırı dərc olunmuşdur. İlk şeirlər toplusu – "Günahını bilən dünyam" (2001) "Sumqayıt" nəşriyyatında işıq üzü görmüşdür.

# GƏRD KƏNDİ

## SƏMƏD QARAYEV
*(1929)*

*Səməd Allahverdi oğlu Qarayev – yazar, publisist, müəllim*

1929-cu ildə Qərbi Azərbaycanın Zəngəzur mahalının Gərd kəndində (indiki Ermənistan Respublikasının Qafan rayonu) anadan olub. İbtidai təhsilini doğma kəndində, (1935-1939-cu illərdə) orta təhsilini (1939-1945-ci illərdə) Gığı orta məktəbində, ali təhsilini isə 1948-1953-cü illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda (qiyabi





şöbəsində) alıb. Orta təhsilini bitirdikdən sonra 2 il Gığı orta məktəbində müəllim işləmiş və sonra pedaqoji fəaliyyətini öz kəndlərində davam etdirmişdir. 1950-1960-cı illərdə Gərd yeddiillik məktəbində direktor vəzifəsində çalışmışdır. O, 60-cı illərdə pedaqoji fəaliyyətindən ayrılaraq partiya və təsərrüfat orqanlarında məsul vəzifələrdə işləmişdir.

1960-1965-ci illərdə Gərd kolxozunun sədri, 1965-1968-ci illərdə Gığı sovğozunda partiya təşkilatının katibi, 1969-cu ilin əvvəlindən 1989-cu ilin iyuluna kimi sovxoz direktoru olmuşdur.

Səməd Qarayev Sov. İKP-nin VI qurultayına nümayəndə seçilib, uzun illər Qafan RPK-nın büro üzvü, 1955-1989-cu illərdə fasiləsiz olaraq RPK-nın plenum üzvü seçilib. 1957-1988-ci illərdə rayon sovetinin deputatı, 1973-1988-ci illərdə isə RİK-nin rəyasət heyətinin üzvü seçilib.

«Qırmızı Əmək Bayrağı» ordeni və müxtəlif medallarla təltif edilib. 1988-ci ilin sonundan Qərbi Azərbaycan türkləri doğma yurdlarından zorla qovulan zaman o da Bakıda məskunlaşmağa məcbur olur.

Ailəlidir, övladları – Elmira, Eldar, Baloğlan, Şirin (1960-1990), Faiq. Övladlarının və nəvələrinin hamısı (10 nəfər) ali təhsillidir.

**Əsərləri:**

1. Qazangöl həsrəti. Bakı, 2002, 569 səh.
2. Qazangöl həsrəti. Bakı, 2002, 464 səh.
3. Gərd. Bakı, 2004, 350 səh.
4. 80 illik təəssüratlarım. Bakı, 2009, 380 səh.

## GIĞI KƏNDİ

### BARİZ BƏHRAMOĞLU
*(1940)*

*Bariz Bəhram oğlu İbrahimov – şair-publisist, müəllim, Azərbaycan Yazıçılar Birliyinin üzvü (2011), «Qızıl qələm» mükafatçısı (2015)*

1940-cı il yanvarın 1-də Qərbi Azərbaycanın Zəngəzur mahalının Gığı kəndində (İndiki Ermənistan Respublikasının Qafan rayonu) anadan olub. İki yaşından Həçəti kəndində yaşamış və ibtidai təhsilini də orada almışdır. Atası İkinci Dünya müharibəsinin (1939-1945) tərkib hissəsi olan Almaniya – SSRİ müharibəsində («Böyük Vətən müharibəsi») (1942-ci ildə) həlak olub. Elə o vaxtdan da anasının himayəsində böyüyüb. 1947-1957-ci illərdə orta təhsilini Gığı orta məktəbində Dövlət Pedaqoji İnstitutunun (indiki Azərbaycan Dövlət Pedaqoji Universiteti) fizika-riyaziyyat fakültəsində ali təhsil alıb. Müəllimlik fəaliyyəti ilə yanaşı, o, mövzu götürərək onu 1980-cı ildə Azərbaycan Dövlət Universitetində uğurla müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi alimlik elmi dərəcəsi almışdır. O, uzun illər orta və orta ixtisas məktəblərində fizika-riyaziyyat fənnindən dərs demişdir. Təqaüdə çıxana kimi (2011-ci il sentyabrın 12-i) Bakı Politexnik və Maşınqayırma Texnikumlarının bazası əsasında yaradılmış Bakı Texniki Kollecində müəllim işləmişdir.

Bariz müəllim pedaqoji və elmi fəaliyyəti ilə yanaşı, bədii yaradıcılıqla da məşğul olmuşdur. Onun çoxlu sayda şeirləri və publisistik yazıları vardır.





**Əsərləri:**

1.Qəzəllər. Bakı, 2006.

2. Anam Gilə bacı. Bakı, 2007, 308 səh.

### ŞAİR TƏBİB
*(1961)*

*Şair Təbib oğlu Kəlbiyev - şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü (2005)*

1961-ci il iyulun 25-də Qərbi Azərbaycanın Zəngəzur mahalının Gığı kəndində (indiki Ermənistan Respublikasının Qafan rayonu) anadan olmuşdur. Burada kənd orta məktəbini bitirmişdir. Ordu sıralarında hərbi xidməti borcunu yerinə yetirmiş (1980-1982) və Azərbaycan Dövlət Tibb İnstitutunda ali təhsil almışdır (1983-1989). Hazırda həkim işləyir (1990-cı ildən). Ədəbi yaradıcılığa tələbəlik illərindən başlamışdır. Dövri mətbuatda şeirlərini vaxtaşırı dərc etdirir. Onun ilk şeirlər toplusu - "Qaranlıqdan keçən yol" (2000) "Zaman" nəşriyyatında kütləvi tirajla nəşr olunmuşdur.

### RÖVŞƏN NÜSRƏTOĞLU
*(1956)*

*Rövşən Nüsrətoğlu Vəliyev – şair, publisist*

1956-cı il noyabr ayının 12-də Qərbi Azərbaycanın Zəngəzur mahalının Gığı kəndində (indiki Ermənistan Respublikasının Qafan rayonu) anadan olub. IX sinfə kimi doğma kəndində, X sinfi isə Şəhərcik kənd orta məktəbində oxuyub. Ali təhsilini Azərbaycan Dövlət Pedaqoji İnstitutunun

(indiki Azərbaycan Dövlət Pedaqoji Universiteti) riyaziyyat fakültəsində alıb. Sonra doğma el-obasına qayıdıb və 6 il Pəyhan, Gığı orta məktəblərində müəllim işləyib. Ailələri Bakıya köçüb orada yaşadığından Rövşən müəllim də 1982-ci ildə şəhərə qayıtmış və 1982-1986-cı illərdə Azərbaycan SSR-nin Maarif Nazirliyində çalışmışdır. 1986-cı ildən Azərbaycan Televiziyasında işə başlayıb və uzun illər «Günün Ekranı»nda («Xəbərlər» redaksiyasında) müxbir işləyib. O bu dövrdə bir çox ictimai-siyasi xarakterli reportajların («Əsgər anası», «Balaca əsgər», «Qanlı bənövşə», «Döyüşən oğullar» və s.) müəllifi olub. 1989-2004-cü illərdə müntəzəm olaraq Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli, Kəlbəcər, Laçın rayonlarında gedən döyüşlərdən reportajlar hazırlayıb. Rövşən Nüsrət oğlu həm də müharibə veteranıdır.

Azərbaycan Televiziyasının fondunda saxlanılan «O kənd bizim kəndimizdir», «Yurd yeri», «İşıq», «Saxlanc», «Təbiətin səsi» verilişlərinin müəllifidir.

Qərbi Azərbaycandan hazırladığı verilişlərinə görə o Həsən bəy Zərdabi mükafatına layiq görülüb.

Hazırda o Azərbaycan Televiziyasının redaktoru, Azərbaycan Jurnalistlər Birliyinin üzvü və «Dədə Qorqud» qəzeti təsisçisi və baş redaktorudur.

**Əsərləri:**

1. Qafan. Bakı, «MBM» nəşriyyatı, 2008, 484 səh.





**KURUD KƏNDİ**

## ƏŞRƏF NURLU
*(1955)*

*Əşrəf Yaquboğlu Nuriyev – şair, publisist*

1955-ci il dekabr ayının 14-də Qərbi Azərbaycanın Zəngəzur mahalının Kurud kəndində (Ermənistan Respublikasının Qafan rayonu) anadan olub.

O, 1991-ci ildə özünümüdafiə dəstələrində, 1992-ci ildən isə Azərbaycan Ordusu sıralarında Laçın, Qubadlı, Zəngilan, Füzuli, Cəbrayıl, Ağdam rayonlarında erməni (hay) işğalçılarına qarşı gedən döyüşlərdə vuruşmuşdur.

**Əsərləri:**

1. Qalx ayağa. Bakı, 2000.
2. Qədim Türk-Oğuz Yurdu yerində yaradılmış indiki «Ermənistan» haqda qısa məlumat. Bakı, 2001.
3. Bir əlində qılınc, bir əlində qələm. Bakı, 2002.
4. Zəngin bir dünyam. Bakı, 2007.

**QARACİMƏN KƏNDİ**

## VAQİF MEHMAN
*(1970)*

*Vaqif Məlik oğlu Şirinov – şair*

1970-ci il martın 5-də Qərbi Azərbaycanın Zəngəzur mahalının Qaraçimən kəndində (indiki Ermənistan Respublikasının Qafan rayonu) anadan olmuşdur. Bir müddət sonra ailəsi Azərbaycan SSR-nın Füzuli rayonunun mərkəzi

olan Füzuli şəhərinə köçüb. Bu səbəbdən də orta təhsilini 1987-ci ildə Füzuli şəhər 2 saylı rus orta məktəbində bitirib. Orta təhsil alarkən eyni vaxtda Füzuli şəhərində musiqi məktəbində də oxuyub və oranı 1984-cü ildə bitirib. Sonra Bakıya gələrək Azərbaycan Kooperasiya Universitetində ali təhsil alıb.

1994-cü ildən bədii yaradıcılığa başlayan Vaqif Malik oğlu «Olaylar» İnformasiya Agentliyində, «Tərəzi», «Hədəf», «Ocaq», «Sahil», «Qız qalası», «Evrika» qəzetlərində müxbir, xüsusi müxbir, şöbə müdiri, redaktor müavini, baş redaktorun müavini, baş redaktorun birinci müavini vəzifələrində çalışıb. Hazırda «Ömür yolu» qəzetinin redaktoru vəzifəsində işləyir.

1996-cı ildən Azərbaycan Jurnalistlər Birliyinin, 2011-ci ildən Dünya Azərbaycanlıları Konqresinin üzvü və «Vicdanlı qələm» media mükafatı laureatıdır.

**Əsərləri:**

1. Bir şam ki, haqdan yana. Bakı, «Nurlan», 2000, 62 səh.
2. Bir dəstə qərənfil. Bakı, «Borçalı», 2004, 95 səh.
3. Mən sevgiyə inanmıram, Bakı, «NVS NƏŞR», 2007, 97 səh.
4. Vicdan əzabı. Bakı, «Nərgiz», 2008, 96 səh.
5. Dağlar insafa gəldi. Bakı, «Nərgiz», 2010, 94 səh.
6. Unut məni sən Allah. Bakı, «Mars Print», 2011, 102 səh.
7. Şahid çinar. Bakı, «Nərgiz», 2014, 88 səh.





## SİZNƏK KƏNDİ

### MƏMMƏD ELLİ
*(1941)*

*Məmməd Cabbar oğlu Təhməzov - ədəbiyyatşünas, şair, publisist, folklorçu*

1941-ci il noyabrın 3-də Qərbi Azərbaycanın Zəngəzur mahalının Siznək kəndində (indiki Ermənistan Respublikasının Qafan rayonu) anadan olmuşdur. Orta məktəbi Qafan şəhərində bitirdikdən sonra ordu sıralarında xidmət etmişdir (1961-1964). Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində ali təhsil almışdır (1964-1969). Əmək fəaliyyətinə təyinatla göndərildiyi Saatlı rayonunda müəllim kimi başlamışdır (1969-1979). Bakı şəhərində 22 saylı peşə məktəbində tərbiyəçi-müəllim olmuşdur (1979-1982). Hazırda təqaüdə çıxmış, fərdi yaradıcılıqla məşğuldur. Bədii yaradıcılığa orta məktəbdə ikən başlamışdır. İlk mətbu yazısı – "Bənövşə ömrü" şeiri "Lenin tərbiyəsi" uğrunda qəzetdə çıxmışdır (1968). Dövri mətbuatda müntəzəm çıxış etmişdir. Saatlı rayonunun "Dönüş" qəzeti nəzdində "Muğan yarpaqları" ədəbi məclisini yaratmış və ona başçılıq etmişdir (1971-1979).

## YAVƏR ZƏNGƏZURLU
*(1961)*

*Yavər Xuduş oğlu Nuriyev – publisist*

1981-ci il mayın 19-da Qərbi Azərbaycanın Zəngəzur mahalının Siznək kəndində (indiki Ermənistan Respublikasının Qafan rayonu) anadan olub.

Orta təhsilini doğma kəndində alıb, 1979-1981-ci illərdə hərbi xidmətdə olub. Hərbi xidmətini başa vurduqdan sonra İrəvan şəhərinə gələrək 1981-1983-cü illərdə Azərbaycan Kənd Təsərrüfatı Texnikumunun mühasibatlıq şöbəsində orta ixtisas təhsili alıb. Ali təhsilini isə Bakıda əvvəl 1994-1998-ci illərdə Bakı Asiya Universitetinin hüquq fakültəsində, sonra 2001-2003-cü illərdə isə Azərbaycan Dövlət İqtisad Universitetinin maliyyə-kredit fakültəsində alıb. 2004-2006-cı illərdə Azərbaycan Dövlət İqtisad Universitetinin magistraturasında da oxumuşdur.

Hazırda alimlik dərəcəsi almaq üçün dissertasiya üzərində işləyir. Onu qərbi azərbaycanlıların acı taleyi həmişə narahat etmişdir. O, Qarabağ müharibəsi iştirakçısı və veteranıdır.

Yavər Xuduş oğlu «Zəngəzurun səsi» qəzetinin təsisçisi və baş redaktorudur. Qəzet fəaliyyətə başladığı gündən bu vaxta kimi səhifələrində Qərbi Azərbaycanın tarixinə, təhsilinə, maddi-mənəvi mədəniyyətinə və görkəmli şəxslərinə aid dəyərli məqalələr çap etdirməkdədir. Qəzetin səhifələrində ermənilərin (hayların) və onun himayədarlarının antitürk siyasətlərini ifşa edən materiallar da öz əksini tapmışdır.

Yavər Xuduş oğlu eyni zamanda 2013-cü ildən «Nur Sağlam Həyat» jurnalının da baş redaktor müavinidir. 2015-ci ildən Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür.





Onun rəhbərliyi və tərtibçiliyi ilə «Zəngəzurun səsi» qəzetinin toplusu və «Ekologiya və insan», «Həsrətində yaşayıram» kitabları nəşr olunmaqdadır.

**SƏHƏRCİK KƏNDİ**

## ƏLİŞ ƏHMƏDOĞLU
*(1947)*

*Əliş Əhməd oğlu Hüseynov – şair*
*Azərbaycan Yazıçılar Birliyinin üzvü*

1947-ci il avqust ayının 18-də Qərbi Azərbaycanın Zəngəzur mahalının şəhərcik kəndində (indiki Ermənistan Respublikasının Qafan rayonu) anadan olmuşdur. Orta təhsilini 1955-1969-cu illərdə doğma kəndində, ali təhsilini isə 1970-1975-ci illərdə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda (indiki Azərbaycan Dövlət İqtisad Universiteti) almışdır.

1966-1970-ci illərdə hərbi xidmətdə olmuşdur. Ali təhsilini başa vurduqdan sonra Bakı şəhəri Xətai Rayon Maarif şöbəsində əmək fəaliyyətinə başlamışdır.

Əvvəlcə tərtibçi, 1990-cı ildən sonra isə baş mühasib vəzifəsində çalışmışdır. 2006-2014-cü illərdə Bakı şəhəri üzrə Təhsil İdarəsi Xətai-Suraxanı Xidmət bölməsinin müdiri olmuşdur. 2014-cü il sentyabr ayının 25-dən Azərbaycan Milli Məclisinin İşlər İdarəsində baş məsləhətçi vəzifəsində çalışır.

Əliş Əhmədoğlu ilk şeirlərini hələ orta məktəb illərindən yazmağa başlamışdır. İlk şeiri «Azərbaycan gəncləri» qəzetində dərc olunmuşdur. Şeirləri, əsasən, «Ulduz», «Yanğından mühafizə», «Düha», «Günəş», «Nur» jurnallarında və «Azad

Azərbaycan», «Zəngəzurun səsi», «525-ci qəzet», «Qarabağa gedən yol», «Bütöv Azərbaycan», «Açıq səma», «Naxçıvan», «Dədə Qorqud», «Demokratiya», «Elm və təhsil», «Ədalət», «İnsan haqları», «Olay», «Müstəqil Pres» qəzetlərində çap olunur.

Əliş Əhmədoğlunun şeirlərinin əksəriyyəti ictimai motivli lirika nümunələridir. Ondan artıq şeirinə musiqi bəstələnmişdir. Hətta şeirlərinə yazılmış mahnılardan səkkizi diskə salınmışdır.

Ailəlidir. İki övladı var (bir oğlan, bir qız). Həyat yoldaşı və övladları ali təhsillidirlər.

**Əsərləri:**

1. Zəngəzur həsrəti. Bakı, 2007.
2. Ömür yolu. Bakı, 2010.
3. Vətəndən uzaq vətən. Bakı, 2011.

## NAİLƏ İBRAHİMOVA

*(1953)*

*Nailə Nuşirəvan qızı İbrahimova - şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü (2010), "Qızıl qələm" mükafatı laureatı (2010)*

1953-cü ilin mayında Qərbi Azərbaycanın Zəngəzur mahalının Şəhərcik kəndində (indiki Ermənistan Respublikasının Qafan rayonu) müəllim ailəsində anadan olmuşdur. Burada 8 saylı orta məktəbin beşinci sinfinədək oxumuş, ailəsi Bakı şəhərinə köçdükdən sonra orta təhsilini burada 63 saylı orta məktəbdə almış və 1970 ildə orta məktəbi bitirmişdir.

Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsində təhsilini davam etdirmişdir (1970-1976). Bakıda 2





saylı şəhər klinik xəstəxanasında internatura kursu keçdikdən sonra 20 saylı şəhər xəstəxanasında həkim, şöbə müdiri vəzifəsində işləmişdir (1977-1997). Hazırda Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 2 saylı Tibbi Sosial Ekspertiza Komissiyasında ekspert-həkimdir.

Ədəbi yaradıcılığa erkən başlamışdır. Orta məktəb illərində Bakı Pionerlər evində şeir dərnəyinin fəal üzvü olmuşdur (1965-1970). İlk mətbu şeirləri - "Xəzər", "Yazda" 1966-cı ildə "Azərbaycan pioneri" qəzetində dərc olunmuşdur. Dövri mətbuatda vaxtaşırı çıxış edir. "Qızıl qələm", "Xan qızı Natəvan" media mükafatları laureatıdır.

**Əsərləri:**

1. Düşüncələr. Bakı, Avropa, 2003, 80 səh., 500 nüs.
2. Ürəklə söhbət. Bakı, Avropa, 2010, 144 səh., 500 nüs.

## YUXARI GİRƏTAĞ KƏNDİ

## HAFİZ BAXIŞ

*(1932-1989)*

*Hafiz Həbib oğlu Baxışov - şair*

1932-ci il oktyabrın 15-də Qərbi Azərbaycanın Zəngəzur mahalının Yuxarı Girətağ kəndində (indiki Ermənistan Respublikasının Qafan rayonu) müəllim ailəsində anadan olmuşdur. Orta məktəbi Qafan bölgəsinin Şəhərcik kəndində bitirmişdir (1950). İki ilə yaxın Qovşud kəndində ibtidai sinif müəllimi kimi dərs demişdir (1950-1952). Sonra Azərbaycan Dövlət Teatr İnstitutunun teatr və kino aktyorluğu fakültəsində təhsilini davam etdirmişdir (1952-1956). Hələ tələbə ikən Azərbaycan diviziyasında bədii özfəaliyyətin rəhbəri olmuşdur (1954). Sumqayıt

şəhərində tərbiyəçi, pionerlər evinin və mədəniyyət sarayının direktoru vəzifəsində işləmişdir (1956-1961). Azərbaycan Dövlət Radio və Televiziya Verilişləri Komitəsində rejissor köməkçisi, rejissor, yüksək dərəcəli rejissor vəzifələrində çalışmışdır (1961-ci ildən). İlk qələm təcrübələri "Sosialist Sumqayıtı" qəzetində dərc olunmuşdur. "Samur-Dəvəçi kanalına" adlı ilk şeiri də həmin qəzetin 1957-ci il 9 fevral tarixli sayında çıxmışdır. "Zirvə" adlı ilk poeması "Azərbaycan" jurnalının 1968-ci il 2-ci sayında çap olunmuşdur. Bundan sonra altı poema qələmə alsa da, lirik şair kimi tanınmışdır. İyirmidən çox şeirinə musiqi bəstələnmişdir.

1989-cu ildə sentyabrın 4-də ürəktutmasından qəflətən vəfat etmişdir.

**Əsərləri:**

1. Azərbaycan oğluyam. Bakı, Gənclik, 1980, 64 səh., 5.000 nüs.
2. Sona bülbüllər. Bakı, Gənclik, 1983, 88 səh., 7.000 nüs.
3. Eşqimi sönməyə qoymaram. Bakı, Yazıçı, 1989,86 səh., 4.000 nüs.
4. Dağlar üçün darıxmışam (şeirlər). Bakı, Şirvannəşr, 2001, 132 səh.,200 nüs.
5. Bu torpağa bağlıyam (nəğmələr, şeirlər və poemalar). Bakı, İqtisad Universiteti nəşriyyatı, 2002, 224 səh., 500 nüs.

## ZƏNGİLİ
*(1911-1942)*

*Hüseyn Süleyman oğlu Bünyadov - tənqidçi, şair*

1911-ci ildə Qərbi Azərbaycanın Zəngəzur mahalının Yuxarı Girətağ kəndində (indiki Ermənistan Respublikasının Qafan rayonu) anadan olmuşdur. İbtidai təhsilini kənd mollası





yanında almışdır. 20-ci illərdən sonra Bakıya gəlmiş və fabrik-zavod məktəbində təhsilini davam etdirmişdir. Oranı bitirdikdən sonra həmin məktəbdə saxlanmışdır. Hələ Bakı Darülmüəllimində oxuduğu illərdə dövri mətbuat səhifələrində "Zəngili", "B.Zəngili", "H.B.Zəngili" imzaları ilə çıxış etmişdir. Onun publisistik məqalələri, rəyləri və şeirləri "Gənc işçi", "Yeni yol", "Kommunist", "Hücum", "İnqilab və mədəniyyət", "Gənc bolşevik" qəzet və jurnallarında dərc olunmuşdur. Bakıda keçirilən cəza tədbirlərinin sıxıntılı mühitinə dözə bilmədiyindən 1938-ci ildə doğma kəndinə qayıtmışdır.

İkinci Dünya müharibəsinin başlanmasına (1939-cu il) qədər Qafan bölgəsində müəllimlik etmişdir. Səfərbərliyə alınmış, ön cəbhədə döyüşlərdə olmuş, 1942-ci ildə itkin düşmüşdür. Onun ədəbi irsindən yalnız qəzet və jurnal səhifələrində dərc olunan yazıları qalmışdır. Almaz İldırımın "Dağlar səslənirkən" ("Kommunist", 2 mart 1931), Səməd Vurğunun "Şairin andı" ("İnqilab və mədəniyyət" 3-4, 1931), Mikayıl Müşfiqin "Küləklər" ("Hücum", 78, 1931) kitablarına eyni adlı məqalələr bu qəbildəndir.

# QƏRBİ AZƏRBAYCANIN ZƏNGƏZUR MAHALININ MEĞRİ (Mığrı) RAYONU




Ermənistan SSR-də (1920-1991)(1991-ci ildən Ermənistan Respublikası) inzibati rayon. 1930-cu il sentyabrın 9-da təşkil edilib. Rayonun indiki ərazisi 1921-ci ilə kimi Azərbaycan Respublikasının Gəncə quberniyasının Zəngəzur qəzasının tərkibində olub. Bu tarixdən Zəngəzur qəzası bolşeviklər tərəfindən yeni qurulmuş Ermənistan SSR-yə verilib. 1921-1930-cu illərdə yeni qurulmuş sovet Ermənistanının Zəngəzur qəzasına daxil idi.

Rayonun ərazisi şimaldan Ermənistan SSR-nin Qafan rayonu, qərbdən Azərbaycan SSR-nin Naxçıvan Muxtar Respublikasının Ordubad rayonu, şərqdən yenə Azərbaycan SSR-in Zəngilan rayonu, cənubdan isə İranla həmsərhəddir.





Sahəsi 664 km$^2$-dir. Rayonun indiki ərazisi çar Rusiyası dövründə Gəncə (sonra Yelizavetpol) quberniyasının Zəngəzur qəzasının tərkibində olmuşdur. 1917-ci ilin fevralında çar üsul-idarəsi dağıldıqdan sonra Cənubi Qafqazda yaradılmış Cənubi Qafqaz Komissarlığının, 1918-1920-ci illərdə Azərbaycan Demokratik Respublikasının, 1920-ci il aprelin 28-dən 1921-ci ilin sonlarına kimi isə Azərbaycan SSR-in tərkibində olmuşdur.

Bir çox tədqiqatçılar onun Meğri yox Mığrı olmasını qeyd edirlər. Mığrı sözü isə türk tayfalarının birinin adıdır. Keçən əsrin 80-ci illərindən Meğri yazanlar da olmuşdur. Bu sözə bəzi mənbələrdə yenə də rast gəlirik. Ən düzgün variantı Mığrıdır.

Meğri (Mığrı) rayonunun ərazisində 1988-ci ilədək türklər və ermənilər (haylar) bir yerdə yaşamışlar. Ermənilər (haylar) burada 1828-ci ildən sonra İrandan (Qacar dövləti) və Türkiyədən (Osmanlı dövləti) köçərək məskunlaşmışdır. Bu dövrə qədər burada yaşayan xristianlar qədim türklər olmuşdular. Sonradan onlar çoxluq təşkil edən xristian ermənilərin (hayların) təsiri altında erməniləşmişdilər.

1931-ci ildə türklər (azərbaycanlılar) 1143 nəfər, ermənilər (haylar) 1031 nəfər, 1873-cü ildə türklər (azərbaycanlılar) 2907 nəfər, ermənilər (haylar) 3001 nəfər, 1897-ci ildə türklər (azərbaycanlılar) 4998 nəfər, ermənilər (haylar) 5185 nəfər, 1922-ci ildə türklər (azərbaycanlılar) 1554 nəfər, ermənilər (haylar) 6370 nəfər, 1926-cı ildə türklər (azərbaycanlılar) 1985 nəfər, ermənilər (haylar) 6519 nəfər olmuşdur.

30-cu illərdə isə artıq əhalinin 1/3-ni türklər təşkil etmişdir. 50-ci illərin sonuna kimi rayon ərazisində rəhbər vəzifələrdə türklərdən də kadrlar olduğu halda, artıq 60-cı illərdən vəziyyət türklərin ziyanına dəyişməyə başlamışdır. Yəni vəzifədə olan türklər min bir bəhanə ilə vəzifələrindən uzaqlaşdırılmışdılar.

Rayonun ərazisində yaşayan türklər (azərbaycanlılar) 1918-1920-ci illərdə daşnak Ermənistanın (1918-1920) mövcud olduğu

dövrdə soyqırımına məruz qalmışdılar. Ermənilər (haylar) türk kəndlərini dağıtmış və bu zaman əhalinin bir hissəsi qırılmış, sağ qalanlar isə təhlükəsiz yerlərə qaçmağa məcbur olmuşdular.

Qaçqın əhali (cüzi bir hissəsi) yalnız daşnak Ermənistanında 1920-ci il noyabrın 29-da sovet hakimiyyəti qurulduqdan sonra, yəni 1922-ci ildən vətənlərinə qayıtdılar. Onlar çox çətinliklə də olsa, dağılmış kəndləri bərpa etdilər və 30-cu illərdə bu kəndlərdə kolxoz quruldu, məktəblər (əvvəl ibtidai, sonra yeddillik və orta) açıldı. 50-ci illərdə kolxozlar ləğv olundu və onların bazası əsasında sovxozlar yaradıldı. Meğrililər ermənilərin ayrı-seçkilik siyasətini daima hiss edirdilər.

Nəhayət,1988-ci ilin sonunda bütün qərbi azərbaycanlılar kimi meğrililər (mığrılılar) da öz dədə-baba torpaqlarından Moskvanın himayədarlığı ilə ermənilər tərəfindən qovuldular. Yalnız Nüvədi kəndinin sakinləri düz üç il doğma kəndlərini qoruya bildilər. Sonra onlar da sovet ordusunun köməyi ilə ermənilər tərəfindən doğma yurdlarından çıxarıldılar.

Nüvədililərin bu müqaviməti qərbi azərbaycanlılar tərəfindən həmişə fəxrlə danışılır.

Hazırda meğrililər (mığrılılar) bütün qərbi azərbaycanlılar kimi Azərbaycan Respublikasının müxtəlif şəhərlərində, rayon mərkəzlərində, qəsəbələrində və kəndlərində yaşamaqdadırlar.

Tarixən Meğri (Mığrı) rayonunun ərazisində aşağıda adları qeyd olunan türk kəndləri mövcud olmuşdur:

1.Bənövşəbüst (1918); 2. Buğakar (1930-cu illər); 3. Duş (qışlaq) (1920-ci illərdə); 4. Əkərək mis mədənləri (1953-cü ildən qəsəbə) (qarışıq-türklər və ermənilər); 5. Əldərə (Əli damı) (1988); 6. Əmrah daşı (Əmrəkar) (1930-cu illərdə); 7. Əynəzur (Vernazor) (1930-cu illərdə); 8. Gül (Nor Arevik) (1918); 9. Lehvaz, (1988); 10.Liçkivaz (1918); 11. Lök (Vartanadzor); 12. Maralzəmi (Yuxarı Vartnazor) (1988); 13. Mərzəğat (Mərzəkit) (1918); 14. Mülk (1930-cu illərin sonu); 15. Nüvədi (1991); 16.





Tağamız (1930-cu illərin sonu); 17. Teğut (Ataqut, Tuğut) (1930-cu illərin sonu); 18. Tey (Gedisallı, Əcili) (1960-cı illərin sonu); 19.Tey mis mədənləri (Vahzavar) (1930-cu illərin sonu) (qarışıq-türklər və ermənilər).

1970-ci ilin məlumatına görə rayonun ərazisində 2 şəhər tipli qəsəbə [**Meğri (Mığrı)**- Araz çayının qolu olan Meğri (Mığrı) çayının sahilində yerləşir.1958-ci ildən şəhər tipli qəsəbədir. Meğri (Mığrı) qəsəbə sovetinə 27 km kənarda yerləşən Vəng və 5 km kənarda yerləşən Meğri (Mığrı) stansiya qəsəbəsi də daxildir; **Əkərək (Aqarak)**- 1954-cü ildən şəhər tipli qəsəbədir. Ən yaxın dəmiryol dayanacağı 2 km kənarda Karçəvan stansiyasıdır. Rayon mərkəzindən 9 km, İrəvan şəhərindən 259 km məsafədədir], 8 kənd sovetliyi [1.Aldərə, 2. Karçəvan (Kerçivan); 3. Kuris; 4. Lehvaz; 5. Liçik; 6. Nüvədi; 7. Şvanidzor (Astazur); 8. Vartanadzor (Lök)] və 17 yaşayış məntəqəsi [1. Aldərə; 2. Daşdan; 3. Haykadzor (Puşgah); 4. Karçivan (Kərçivan); 5. Karçıvan stansiya qəsəbəsi; 6. Kuris; 7. Qurdemnis; 8. Lehvaz; 9. Liçk; 10. Maralzəmi; 11. Meğri stansiya qəsəbəsi; 12. Nüvədi; 13. Şvanidzor (Astazur); 14. Şvanidzor stansiya qəsəbəsi; 15. Vağnavar; 16. Vartanadzor (Lök); 17. Vang] var idi.

1920-1988-ci illərdə Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin verdiyi fərmanlarla dəyişdirilərək erməniləşdirilmiş türk kəndləri.

| Keçmiş (əsl) adı | Yeni adı | Dəyişdirildiyi tarix |
|---|---|---|
| 1. Astazur | Svanidzor | 22.04.1935 |
| 2. Astazur stansiya qəsəbəsi | Svanidzor | 19.09.1950 |
| 3. Gül | Nor Arevik | ? |
| 4. Lök | Vartanazor | 18.06.1960 |
| 5. Püşgah | Aygedzor | ? |
| 6. Liçkvaz | Liçk | ? |

1991-ci ildən sonra Ermənistan Respublikasının Prezidenti tərəfindən imzalanmış fərmanlarla dəyişdirilərək erməniləşdirilmiş türk kəndləri:

| Keçmiş (əsl) adı | Yeni adı | Dəyişdirildiyi tarix |
|---|---|---|
| 1. Aldərə | Alvank | 1991-ci ildən sonra |
| 2. Lehvaz | Levvaz | 09.04.1991 |
| 3. Maralzəmi | Tğrut | 1991-ci ildən sonra |
| 4. Nüvədi | Nonadzor | 1991-ci ildən sonra |





MARALZƏMİ KƏNDİ

## HİDAYƏT ORUCOV
*(1944)*

*Hidayət Xuduş oğlu Orucov - şair, dramaturq, nasir, tərcüməçi, Azərbaycan Yazıçılar Birliyinin üzvü (1978) Əməkdar incəsənət xadimi (1991)*

1944-cü il sentyabrın 5-də Qərbi Azərbaycanın Zəngəzur mahalı Maralzəmi kəndində [ndiki Ermənistan Respublikasının Meğri (Mığrı) rayonu] oğulmuşdur. Aldərə orta məktəbini qızıl medalla bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində qiyabi ali təhsil almışdır (1963-1968). Əmək fəaliyyətinə Meğri (Mığrı) rayonundakı Maralzəmi kənd ibtidai məktəbinin müdiri kimi başlamışdır (1964-1968). "Sovet Ermənistanı" redaksiyasında ədəbi işçi (1966-1968), Cəfər Cabbarlı adına Yerevan (İrəvan) Azərbaycan Dövlət Dram Teatrının direktoru (1968-1984), "Gənclik" nəşriyyatının baş redaktor müavini (1984-1986), baş redaktoru (1986-1992) vəzifələrində işləmişdir. Azərbaycan Respublikası Prezidentinin millətlərarası münasibətlər üzrə müşaviri təyin edilmişdir (1992). Milli siyasət məsələləri üzrə dövlət müşaviri (1993-2006), Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin sədri olmuşdur. Hazırda Azərbaycan Respublikasının Qırğızıstandakı səfiridir."Nəyin var?" adlı ilk şeiri "Ədəbi Ermənistan" almanaxında (1963, №5) dərc olunmuşdur. Bu vaxtdan dövri mətbuatda müntəzəm çıxış edir. O, poetik yaradıcılıqla bərabər, bədii tərcüməyə də xüsusi diqqət verir. Bir çox klassik və müasir yazıçıların əsərlərini, V.Şekspirin "Yaxşı qurtaran iş yaxşıdır" pyesini, H.B.Stounun "Tom dayının koması" romanını dilimizə çevirmişdir. "Məhəbbət

yaşayır hələ", 'Məni qınamayın", "Mənzil əhvalatı" pyesləri Bakı, Yerevan (İrəvan), Naxçıvan, Ağdam və digər teatr səhnələrində oynanılmışdır. Ermənistan Yazıçılar İttifaqı İdarə Heyətinin üzvü və Azərbaycan ədəbiyyatı dərnəyinin sədri olmuşdur (1980-1984). Ermənistan Teatr Cəmiyyəti İdarə Heyətinin üzvü seçilmişdir (1974-1984). Gürcüstanın "Şöhrət" ordeni (2002) ilə təltif edilmişdir.

**Əsərləri:**

1. Məni səsləyəndə (şeirlər və poema). Yerevan, Hayastan, 1970, 46 səh., 1000 nüs.
2. Məhəbbət qocalmır (şeirlər və poema). Yerevan, Hayastan, 1977, 124 səh., 1000 nüs.
3. Bir az gözləyin məni (şeirlər və poemalar). Yerevan, 1977, 175 səh., 3000 nüs.
4. Dənizi harayladım (şeirlər). Bakı, Gənclik, 1978, 33 səh., 4000 nüs.
5. Eviniz analı olsun(şeirlər və poema). Bakı, Yazıçı, 1981, 98 səh.,4000 nüs.
6. Zirvə cığırı (şeirlər və poema). Yerevan, 1982, 147 səh., 3000 nüs.
7. İrəvanda xal qalmadı (dramaturgiya, nəsr, publisistika). Yerevan, 1984, 350 səh., 5000 nüs.
8. Qatardan məktub. Bakı, Yazıçı, 1986,159 səh., 5000 nüs.
9. Qaynaq (şeirlər). Yerevan, Sovetakan qroğ, 1986, 91 səh., 3000 nüs.
10. Sabaha çox var (nəsr, publisistika). Bakı, Yazıçı, 1989, 408 səh., 30000 nüs.
11. Doxsanıncı il (şeirlər və poemalar). Bakı, Yazıçı, 1992, 360 səh.,15000 nüs.
12. Hərdən xatırla məni (seçilmiş şeirlər). Bakı, Göytürk, 1998, 122 səh., 1000 nüs.
13. Sözün vaxtı (publisistika). Bakı, Şərq-Qərb, 1999,676





səh., 3.000 nüs.

14. Ömrümün çəhlimləri (şeirlər və poemalar). Bakı, Azərbaycan Milli Ensiklopediyası, 2002,476 səh., 2000 nüs.
15. İrəvana 7 məktub. Bakı, 2004. (Aərbaycan və rus dillərində).
16. Burdan min atlı keçdi. Bakı, Azərbaycan Milli Ensiklopediyası Nəşriyyatı, 2004.
17. Zəngəzurda doğuldum. Bakı, Əbilov, Zeynalov və oğulları, 2005.
18. Mir Cəlal dünyasından sətirlər. Bakı, 2006 (Azərbaycan və rus dillərində).
19. Əziz Əliyev - Odlar yurdunun və dağlar diyarının iftixarı. Bakı, Əbilov, Zeynalov və oğulları, 2007 (azərbaycan və rns dillərində).
20. Seçilmiş əsərləri. Bakı, Şərq-Qərb, 2007.

**Tərcümələri:**

1. Uçan nəğmələr (erməni sovet şeiri antologiyası). Yerevan, Hayastan, 1975, 104 səh., 1.000 nüs.
2. Ədəbi Ermənistan (toplu). Yerevan, 1985, 200 səh., 3000 nüs.
3. G.Emin. Bu yaşımda. Bakı,Yazıçı, 1986,159 səh., 5000 nüs.
4. Harriet Biçer Stou. Tom dayının koması (roman). Bakı, Gənclik, 1991, 384 səh., 30000 nüs.

## NÜVƏDİ KƏNDİ

### ƏLİ VƏLİOĞLU
*(1940)*

*Əli Vəli oğlu Əlizadə - şair, publisist*

1940-cı il yanvarın 1-də Qərbi Azərbaycanın Zəngəzur mahalının Nüvədi kəndində [indiki Ermənistan Respublikasının Meğri (Mığrı) rayonu]anadan olmuşdur. Şair, tədqiqatçı Həmzə Vəlinin qardaşıdır. Yeddiilliyi Nüvədi kəndində, orta məktəbi qonşuluqda olan Aldərə kəndində bitirmişdir (1958). Əmək fəaliyyətinə kolxozda işləməklə başlamışdır (1958-1961). Ordu sıralarında xidmət etmişdir (1961-1964). Yenə Nüvədi kənd kolxozunda işləmişdir (1964-1968). Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində qiyabi ali təhsil almışdır (1965-1975). Nüvədi kənd orta məktəbində Azərbaycan dili və ədəbiyyatını tədris etmişdir (1968-1989). Qaçqınlıq dövründə doğma kəndini tərk edib Bakıya köçmüşdür (1989). Azərbaycan Qaçqınlar Cəmiyyətində bir il işlədikdən sonra "Hikmət", "20 Yanvar" qəzetlərində böyük müxbir kimi jurnalistlik fəaliyyətinə başlamışdır (1991-1992). "Kefli İsgəndər" satirik qəzetində baş redaktorun müavini, həm də rəssam kimi fəaliyyət göstərmişdir (1993). Hazırda Bakının 151 saylı orta məktəbində müəllim vəzifəsində işləyir (1993-cü ildən). Ədəbi fəaliyyətə 1965-ci ildən başlamışdır. İlk miniatürləri "Kommunist" qəzetində (1970), şeirləri "Ədəbi Ermənistan" almanaxında (1983), publisist məqaləsi "Didərginlər" kitabında dərc olunmuşdur. Hekayə, şeir, miniatür və məqalələrini mətbuatda vaxtaşırı çap etdirir. Hazırda təqaüdə çıxmış, fərdi yaradıcılıqla məşğuldur. "Ağıl dəryasından incilər" (2006) və "Nüvədi antropologiyası" (2010) kitablarını tərtib





etmişdir. Jurnalistik fəaliyyətinə görə Həsən bəy Zərdabi (2004) və "Qızıl qələm" (2006) media mükafatına layiq görülmüşdür.

**Əsərləri:**

1. Mənim dan ulduzum. Yerevan, 1985, 48 səh., 1.000 nüs.
2. Mənim dünyam. Bakı,"Gənclik", 1993, 80 səh., 5.000 nüs.
3. Qəzəllər. Bakı, "Təbriz", 1997, 60 səh., 1000 nüs.
4. Halal çörək (povest). Bakı, "Təbriz", 1997, 142 səh., 1000 nüs.
5. Bu minvalla dünya belə qalammaz (şeirlər, hekayələr). Bakı, 1997, 168 səh., 1000 nüs.
6. Mənim mənalı dünyam (hikmətli deyimlər). Bakı, 2001, 123 səh., 500 nüs.
7. Vətən boyda dərd göyərtdim, qəm yedim (şeirlər). Bakı, 2004, 110 səh., 1000 nüs.
8. Ağıl dəryasından incilər. Bakı, 2008, 178 səh., 500 nüs.
9. Ömrümüzə işıq düşür (albom). Bakı, 2000, 161 səh., 500 nüs.
10. Nüvədi və nüvədililərin tayfa şəcərəsi. Bakı, 2009, 160 səh., 500 nüs.

### HƏMZƏ VƏLİ
*(1924-1999)*

*Həmzə Vəli oğlu Əliyev – şair, tədqiqatçı*

1924-cü ilin payızında Qərbi Azərbaycanın Zəngəzur mahalının Nüvədi kəndində [indiki Ermənistan Respublikasının Meğri (Mığrı) rayonu] sənətkar ailəsində anadan olmuşdur. Burada kənd orta məktəbini bitirmişdir (1941).

İkinci Dünya müharibəsinin (1939-1945) tərkib hissəsi olan Almaniya – SSRİ (Böyük Vətən müharibəsi də deyilir) başlayanda 17 yaşında ikən könüllü ön cəbhəyə getmişdir. Mozdok uğrunda

ağır döyüşlərdə iştirak etmiş və əsir düşmüşdür. Hərbi əsir kimi almanların Drezden kömür mədənləri şaxtalarında işləmişdir (1942-1945). Bu dövrdə dəhşətli şəraiti, rüzgarın dönüklüyünü lənətləyən qəzəllərini qələmə almışdır. 1945-ci ilin payızında doğma kəndə qayıdır. İki il müəllim işləyəndən sonra əsirlikdə qaldığına görə təqib olunur. Kənddə sıravi kolxozçu kimi çalışır, orada da sıxışdırılır. Meğridə Mis-Molibden Mədəni şaxtalarında çalışmağa məcbur olur.

Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində qiyabi ali təhsil alır (1962-1966). Doğma kənd məktəbində Azərbaycan ədəbiyyatı və alman dili fənnini tədris edir. Bu dövrdə şeirləri və qədim Azərbaycan tarixinə dair tədqiqat xarakterli məqalələri mətbuatda dərc olunur. "Vətən məhəbbəti" və "Dağlar çağırır məni" şeir topluları nəşr edilir. 90-cı ildən taleyinə qaçqınlıq qismət olan şair ömrünün axırınadək Bakıda yaşayıb-yaratmışdır. 1999-cu il noyabrın 26-da vəfat etmişdir.





## QƏRBİ AZƏRBAYCANIN ZƏNGƏZUR MAHALI SİSYAN (KEÇMİŞ QARAKİLSƏ) RAYONU



Ermənistan SSR-də (1920-1991) (1991-ci ildən Ermənistan Respublikası) inzibati rayon. 1930-cu il sentyabrın 9-da yaradılıb. Rayonun ərazisi 1719 km$^2$-dir. Dəniz səviyyəsindən 2300 metr hündürlükdədir. Mərkəzi şəhər tipli Sisiyan qəsəbəsidir. 1940-cı il martın 2-nə kimi Qarakilsə adlanıb. Rayonun adı da bu tarixdən Sisiyan adlanıb. Cənubdan Ermənistan Respublikasının Gorus, cənub-qərbdən Qafan, şimal-qərbdən Əzizbəyov (keçmiş Paşalı) rayonları ilə, habelə Azərbaycan Respublikasının Naxçıvan MR və Laçın rayonu ilə həmsərhəddir. Rayon ərazisi bir tərəfdən Zəngəzur dağları ilə, digər tərəfdən isə Bərgüşad sıra dağları ilə əhatə olunmuşdur. Ən yaxın dəmiryolu stansiyası Naxçıvan (98 km) və Qafandır.

Rayon mərkəzindən İrəvan şəhərinə olan məsafə 217 km-dir (bəzi mənbələrdə 227 km yazılır). Bazarçay çayı (1968-ci ildən Vorotan) və onun qolları olan Loradzor, Şəki, Əyri Sisiyan ərazisindən axır. Bulaqlarının yarısı mineral sulardır. Onlardan Lərzər, Qoşabulaq (süd bulağı), Yeddi bulaq və Şəki bulaqları tərkibi və bol suyu ilə fərqlənir. Rayonun Şəki və Angeğaqat kəndlərindəki bazalt daşı ehtiyatının 7 mln m$^3$ olduğu hesablanmışdır. Ərəfsə, Sofulu və Lernaşen kəndlərində böyük qranit daşı ehtiyatı vardır. Ümumiyyətlə, rayonun ərazisi Zəngəzur mahalı ərazisinin üçdə birini təşkil edir.

1886-cı ildə rayonun indiki ərazisində 21072 nəfər, 1922-ci ildə 21583 nəfər, 1986-cı ildə isə 34000 nəfər əhali (türklər və ermənilər) yaşamışdır. Rayonun indiki ərazisində XX əsrin əvvəllərində 76 kənd olmuş və onların 58-də türklər (azərbaycanlı) yaşamışdır. 1988-ci ildə rayonda olan 38 yaşayış məntəqəsinin 20-də türklər (azərbaycanlılar) yaşamışdır. Ümumiyyətlə, bu dövrdə (1988-ci il) rayon əhalisinin 28 %-ni türklər (azərbaycanlılar) təşkil etmişdir.

1813-cü ildə Rusiya ilə Qacar xanədanı (sonra İran adlanıb) arasında bağlanan Gülüstan müqaviləsinə əsasən Sisyan





rayonunun ərazisi də daxil olmaqla Zəngəzur mahalı Rusiyanın tərkibinə daxil edilmişdir. 1822-1830-cu illərdə İranın Xoy, Salmas və başqa bölgələrindən minlərlə erməni (hay) ailəsi köçərək Sisyan rayonunun indiki ərazisində məskunlaşmışdı. Sisyan rayonunun ərazisi 1920-ci ilədək Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasının tərkibində idi. 1921-ci ildə Zəngəzur qəzasının Ermənistan SSR-yə verilmiş hissəsinin tərkibində Sisiyan rayonunun indiki ərazisi də olmuşdur. Bu rayonun ərazisi əvvəl (1921-1930-cu illərdə) Ermənistan SSR-nin Zəngəzur qəzasının tərkibində olmuşdur. 1930-cu il sentyabrın 9-dan isə müstəqil rayon olmuşdur.

Rayonun əhalisi, əsasən, türklər (azərbaycanlılar) və ermənilər (haylar) olmamışdır. Xristian olan əhalinin heç də hamısı əslən hay (erməni) olmamışdır. Onların əksəriyyəti yerli xristian türklər olmuşdur. Sonradan Türkiyədən və İrandan bu əraziyə köçürülən əsl ermənilər (haylar) çoxluq təşkil etdiklərindən yerli xristian türklər də onların təzyiqinə məruz qalaraq erməniləşmişdilər. Xristian türklərin istifadə etdikləri alban kilsəsinin idarəçiliyi XIX əsrin 30-cu illərində çar tərəfindən ermənilərin (hayların) kilsələrinə tabe edilmiş və yerlərdə çar hökuməti tərəfindən rus-tatar məktəbləri kimi rus-erməni (hay) məktəbləri də açılmışdır. Bu rus - erməni məktəblərində tədris dili yerli xristianların [xristian olan türklərin (albanların)] dilində deyil, əsl ermənilərin (hayların) dilində olduğundan xristian türklərin bu məktəblərdə oxuyan uşaqları 2-3 nəsildən sonra öz dillərini unudaraq gəlmə xristianların (ermənilərin) dilində danışmağa başladılar. Bəzi mənbələr göstərir ki, yerli xristianlar kilsələrinin ermənilərin (hayların) kilsələrinin nüfuz dairəsinə tabe etdirilməsinə etiraz edərək müsəlmanlığı qəbul etmişdilər.

XX əsrin əvvəllərində rayonun indiki ərazisində 76 kənd olmuşdur ki, onun da 58-də türklər yaşamışdır. Bu 58 kəndin 53-ü sırf türk kəndi, 5-i isə qarışıq (türklər və ermənilər) olmuşdur.

Əhalinin etnik tərkibi XIX-XX əsrin əvvəllərində belə olmuşdur: 1831-ci ildə 2155 nəfər erməni (hay) (1828-1830-cu illərdə İrandan gəlmiş ermənilərlə (haylar) birlikdə), 1052 nəfər türk (azərbaycanlılar), 1873-cü ildə 9602 nəfər erməni (hay), 4106 nəfər türk, 1886-cı ildə 13145 nəfər erməni (hay), 8642 nəfər türk (azərbaycanlılar), 1922-ci ildə 18593 nəfər erməni (hay), 2808 nəfər türk (azərbycanlılar), 1931-ci ildə 21716 nəfər erməni (azərbaycanlılar), 4608 nəfər türk (azərbaycanlılar), 1976-ci ildə 22443 nəfər erməni (hay), 9242 nəfər türk (azərbaycanlılar) əhali olmuşdur.

1922-ci ildə türk əhalisinin ermənilərə nisbətdə çox aşağı olmasının əsas səbəbi 1918-1920-ci illərdə Qərbi Azərbaycanın torpaqlarında İrəvan şəhəri mərkəz olmaqla qurulmuş Ermənistan Respublikasını idarə edən daşnak hökuməti olmuşdur. Onların o dövrdə Ermənistan Respublikasının ərazisində və Azərbaycan Respublikasının ərazisi olan Göyçə mahalında, Naxçıvanda və Zəngəzur qəzasında türklərə qarşı törətdikləri soyqırımı nəticəsində yüzlərlə kənd dağıdılmış və on minlərlə əhalisi məhv edilmişdir. Sağ qalanlar isə çox çətinliklə təhlükəsiz ərazilərə qaçaraq xilas ola bilmişdilər. Daşnak Ermənistanında sovet hakimiyyəti qurulduqdan (1920-ci il noyabrın 29-u) sonra, yəni 1922-ci ildən etibarən qaçqın düşmüş əhali tədricən doğma yurdlarına qayıdaraq dağıntıları bərpa etmiş və məhv edilmiş təsərrüfatı dirçəltməyə çalışmışdılar. 30-cu illərdə bərpa olunmuş türk (azərbaycanlılar) kəndlərində kolxozlar qurulmuş, ibtidai, yeddiillik və orta təhsil məktəbləri, klublar, tibb məntəqələri və məişət xidməti emalatxanaları təşkil edilmiş və yaradılmışdır. Qaçqınların ağrı-acısı hələ canlarından çıxmamış İkinci Dünya müharibəsinin (1939-1945) tərkib hissəsi olan Almaniya-SSRİ müharibəsi (1941-1945) başladı (buna Böyük Vətən müharibəsi də deyilir). Bu zaman Sisiyan rayonunun türk əhalisinin kişi cinsindən olanlarının əksəriyyəti səfərbərliyə alınaraq cəbhələrə





göndərildi. Rayondan müharibəyə cəlb olunmuş əsgərlərin bir hissəsi həlak oldu, bir hissəsi də şikəst vəziyyətdə doğmalarının yanına qayıda bildilər. Bir çoxunun da itkin düşdüyü qeyd olunmaqdadır.

1948-1953-cü illərdə Qərbi Azərbaycanda yaşayan (indiki Ermənistan Respublikası) türklərin Azərbaycan SSR-yə köçürülməsi barədə Moskva tərəfindən verilmiş qərarlar nəticəsində 100000-dən çox qərbi azərbaycanlı zorla Azərbaycanın aran rayonlarına köçürüldü. Bu zaman iqlim şəraitinə dözə bilməyən köçkünlərin çoxu müxtəlif xəstəliklərdən dünyalarını dəyişdilər (əksəriyyəti uşaqlar və yaşlı insanlar idi). 1953-cü ildə İosif Stalin öləndən sonra köçkünlərin bir hissəsi isə yenidən doğma yurdlarına qayıtdılar. Bu deportasiya zamanı Sisyan rayonunun türk əhalisi o qədər ziyan çəkmədi. Bu zaman, əsasən, İrəvan şəhərinin, Eçmiədzin, Hoktemberyan, Abaran, Əştərək, Vedi, Qəmərli, Kəvər (Kamo), Dərələyəz mahalının rayonlarının, qismən də Zəngibasar və Basarkeçər rayonlarının türk əhalisi bu məcburi deportasiyaya daha çox məruz qaldı.

1950-80-ci illərdə də Qərbi Azərbaycanın Zəngəzur mahalının Sisiyan rayonundan Azərbaycan SSR-yə köçənlər olmuşdur. Onların çoxu Bakı şəhərində və Abşeiron yarımadasının müxtəlif yaşayış məntəqələrində yerləşmişdilər.

Artıq 1988-ci ilin sonunda Moskvanın himayədarlığı ilə ermənilər (haylar) Qərbi Azərbyacanda (indiki Ermənistan Respublikası) yaşayan 300000-ə yaxın türk (azərbaycanlılar) və müsəlman kürdünü (20 min) zorla qovmağa nail oldular. Onlar arasında Sisyan rayonunun türk (azərbaycanlı) əhalisi də olmuşdur. İndi onlar Azərbaycan Respublikasının müxtəlif şəhərlərində, rayon mərkəzlərində, şəhər tipli qəsəbələrində və kəndlərində yaşamaqdadırlar.

XIX-XX əsrlərdə rayonun ərazisində mövcud olmuş türk kəndləri:

1. Ağadi Mehrəli (1918);
2. Ağaqa (1918);
3. Ağkənd (Aşotavan) (1918);
4. Ağkörpülü (əvvəl Boznəli adlanıb) (?);
5. Ağüdü (1988);
6. Ağyol (1918);
7. Alçadərəli Məzməzək (1918);
8. Almalıq (?);
9. Arxlı (1918);
10. Arıqlı (1918);
11. Armudlu (1918);
12. Aşağı Ağkörpü (1918);
13. Baharlı (1918);
14. Başkənd (Məzrə, 1948-ci ildən Basravan) (1918);
15. Bazarçay (XX əsrin 30-cu illərin sonu- 40-cı illərin əvvəlləri);
16. Bazarkənd (XIX əsrin ikinci yarısı);
17. Bələk (Balak) (XX əsrin əvvəlləri) (qarışıq-türklər və ermənilər);
18. Bəybalı (?);
19. Bozkənd (Dərəkənd) (XX əsrin 30-40-cı illər);
20. Comərdli (1988);
21. Dərəbas (1946-cı ildən Darbas) (1918);
22. Dərəkənd (?);
23. Dəstəkert (1988) (qarışıq-türklər və ermənilər);
24. Dulus (Dolors) (1918);
25. Əkəri (?);
27. Əlişar (30-cu illərdə);
28. Ərəfsə (Səfəralı, 1968-ci ildən Ərevis) (1988);
29. ƏRəmis (1918);
30. Gözəldərə (1918);
31. Hortağız (1918);





32. İkinci Arxlı (1918);
33. Kürdlər (1918);
34. Qalacıq (XIX əsrin sonu);
35. Qarakilsə (1940-cı ildən Sisyan) (1988);
36. Qıvraq (XX əsrin 30-cu illərin sonu);
37. Qızılcıq (1988);
38. Qoşabulaq (?);
39. Məliklər (1968-ci ildən Şpandasyan) (1918);
40. Murğuz (1988);
41. Pulkənd (1918);
42. Püsək (XX əsrin 30-cu illərində);
43. Sisiyan (Hatsavan) (1918);
44. Sofulu (1988);
45. Sultanlı (?);
46. Şamb (1918);
47. Şəki (1988),
48. Şıxlar (1940-cı ildən Qızılşəfəq) (1988);
49. Şükər (1918);
50. Təzəkənd (?);
51. Urud (1968-ci ildən Vorotan) (1988);
52. Vağüdü (1988) (qarışıq-türklər və ermənilər);
53. Yaqubi (1918);
54. Yuxarı Ağkörpü (?);
55. Zabahadur (1918).

1970-ci il məlumatına görə rayonun ərazisində 2 şəhər tipli qəsəbə [**Dəstəgird (Dəstəkert)**-rayon mərkəzindən 21 km, İrəvan şəhərindən 238 km məsafədə yerləşir. 1951-ci ildən şəhər tipli qəsəbədir. Qəsəbəyə ən yaxın dəmiryol dayanacağı 119 km kənarda yerləşən Naxçıvan stansiyasıdır (Azərbaycan Respublikasının Naxçıvan MR ərazisindədir); Sisyan (1940-cı ildən əvvəl Qarakilsə) – IX əsr mənbələrində «Əs-Sisəcan» kimi adı çəkilir. Hələ VI əsrdə xəzərlər tərəfindən tutulub sonralar

Qarakilsə kimi tanınıb. 1938-ci ildən şəhər tipli qəsəbədir. Sisiyan şəhər sovetinə 3 km kənarda yerləşən Uz, 2 km kənarda yerləşən Qızılcıq kəndləri də daxildir], 16 kənd sovetliyi [1.Ağudi (Ağüdü); 2.Axlatian (Əhlətian); 3. Angefaqot; 4. Arevis (Ərəfsə); 5. Aşotavan (Ağkənd); 6. Hatsavan (Sisyan); 7. Bartsravan (Məzrə); 8. Brnakot; 9. Darbas (Dərəbas); 10. Lernaşen (Şenadağ); 11. Sarnakunk (Saybalı); 12. Sofulı (Sofulu); 13. Şakat; 14. Şamb (Şam); 15. Şəki; 16. Vağudi (Vağüdü)] və 35 yaşayış məntəqəsi [1. Ağüdi (Ağüdü); 2. Axtatian (Əhlətian); 3. Angefaqot); 4. Arevis (Ərəfisə); 5. Aşotavan (Ağkənd); 6. Hatsavan (Sisyan); 7. Balaq; 8. Bartsravan (Məzrə); 9. Bazarçay; 10. Bnunis; 11. Borisovka; 12. Brnakot; 13. Comartlı (Comərdli); 14. Darbas (Dərəbas); 15. Dastakert (Dəstəgird); 16. Dolors; 17. Gedetağ (Gədədağ); 18. Hatsavan (Sisyan); 19. Qızılcıq; 20. Qızılşəfəq (Şıxlar); 21. Lernaşen (Şenadağ); 22. Ltsen; 23. Murğuz; 24. Salvard (Alılı); 25. Sarnakunk (Saybalı); 26. Sisyan (Qarakilsə) qəsəbəsi; 27. Soflu (Sofulu); 28. Şakat; 29. Şamb (Şam); 30. Şəki; 31. Şpandaryan (Məliklər); 32. Tazagyuğ (Təzəkənd); 33. Uz; 34. Vağudi (Vağüdü); 35. Vorotan (Urud)] var idi.

1935-1988-ci illərdə Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin verdiyi müxtəlif fərmanlarla dəyişdirilərək erməniləşdirilmiş türk kəndləri:





| Keçmiş (əsl) adı | Yeni adı | Dəyişdirildiyi tarix |
|---|---|---|
| Ağkənd | Aşotavan | 7.04.1948 |
| Dərəbas | Darbas | 10.09.46 |
| Alılı | Salvard | 03.01.1935 |
| Məliklər | Şpandaryan | 04.05.1939 |
| Məzrə | Bartsravan | 10.09.1946 |
| Saybalı | Sarnakunk | 10.09.1946 |
| Sisyan | Hatsavan | 02.03.1940 |
| Şenadağ | Lernaşen | 02.03.1940 |
| Şıxlar | Qızılşəfəq | 02.03.1940 |
| Təzəkənd | Tasik | 03.07.1968 |
| Urud | Vorotan | 03.07.1968 |

1991-ci il və ondan sonrakı illərdə Ermənistan Respublikasının Prezidentinin imzaladığı fərmanlarla adları dəyişdirilərək erməniləşdirilmiş türk kəndləri.

| Keçmiş (əsl) adı | Yeni adı | Dəyişdirildiyi tarix |
|---|---|---|
| Ağüdi | Aquti | 09.04.1991 |
| Bazarçay | Qarayk | 1991-ci ildən sonra |
| Comartlı (Comərdli) | Tanahat | 09.04.1991 |
| Soflu (Sofulu) | Sofulu | 09.04.1991 |
| Uz | Uyts | 1991-ci ildən |
| Vağudi | Vağadin | 1991-ci ildən sonra |

## AĞUDİ KƏNDİ

### ƏLİ VƏLİYEV
*(1901-1983)*

*Əli Qara oğlu Vəliyev - nasir, 1937-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü (1937), M.F.Axundov adına Dövlət mükafatı laureatı (1958), Azərbaycanın Xalq yazıçısı (1974)*

1901-ci il fevralın 27-də Qərbi Azərbaycanın Zəngəzur mahalının Ağudi kəndində [indiki Ermənistan Respublikasının Sisyan (keçmiş Qarakilsə) rayonu] doğulmuşdur. Atası Qara kişi 15 yaşından yoxsulluq üzündən Bakıya pənah gətirmiş, ömrü boyu neft mədənlərində dartayçı - fəhlə olmuşdur. O, ilk təhsilini kənddə almış, ata-anasını itirəndən sonra (1918-1923) muzdurluq etmişdir. Şuşa firqə məktəbində (1923), Bakı Mərkəzi Firqə Şura Məktəbində və mühazirəçilər qrupunda (1924-1925) təhsil almış, Kürdüstan Qəza Partiya Komitəsinə mühazirəçi göndərilmişdir. Burada müxtəlif vəzifələrdə (qəza siyasi maarif şöbə müdiri, "Sovet Kürdüstanı" qəzetinin məsul redaktoru) işləməklə yanaşı, Şura pedaqoji kurslarında təhsilini artırmış, nəticədə, Xalq Maarifi Komissarlığı xüsusi komissiyası qarşısında imtahan verib orta təhsilini bitirməsi haqqında şəhadətnamə almış, elə həmin il - 1928-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun tarix-ictimaiyyət fakültəsinə daxil olmuşdur. Bu dövrdə Proletar Yazıçıları Cəmiyyətində əsərlərin müzakirəsində iştirak etmişdir. "İnqilab və mədəniyyət", "Hücum", "Ədəbiyyat cəbhəsində" və s. qəzet və jurnallarda hekayələri dərc olunmuşdur.

1930-cu ildə Ağdam Rayon Partiya Komitəsinə təbliğat və təşviqat şöbəsinin müdiri və "Kolxoz sədası" qəzetinin redaktoru vəzifəsinə göndərilmişdir. Bir il sonra pedaqoji institutda imtahan





verib ali məktəbi bitirmişdir. 1937-ciilədək Laçın, Qubadlı rayonlarında və Naxçıvan vilayətində partiya sahəsində müxtəlif vəzifələrdə çalışmışdır. Eyni zamanda "Şərq qapısı" (1934-1935) və "Sovet Kürdüstanı" (1935-1937) qəzetlərində məsul redaktor olmuşdur. Sonra Bakıda, Yazıçılar İttifaqında təşkilat katibi, məsul katib, nəsr bölməsinin rəhbəri, klub müdiri işləmişdir (1937-1941).

İkinci Dünya müharibəsinin (1939-1945) tərkib hissəsi olan Almaniya-SSR müharibəsi (1941-1945) dövrüdə Sovet Ordusu tərkibində Krım cəbhəsində yazıçı-jurnalist kimi fəaliyyət göstərmişdir (1942). 1942-1943-cü illərdə Azərbaycan İncəsənət İşçiləri İttifaqında, Bakı şəhər Rayon İcraiyyə Komitəsində məsul vəzifələrdə çalışmışdır. Sonra "Kommunist" qəzetinin redaktor müavini, məsul redaktor işləmiş (1943-1949), Azərbaycan SSR Ali Sovetinə deputat seçilmişdir (1947). Moskvada ÜİK (b) P MK yanında rəhbər qəzet işçiləri hazırlayan 9 aylıq kursun müdavimi (1947) olmuşdur. Azərbaycan K(b) MK üzvü seçilmişdir (1949), Bir müddət Yazıçılar İttifaqında məsul katib (1949-1954), "Azərbaycan" jurnalında məsul redaktor işləmiş, ömrünün sonunadək yazıb-yaratmışdır. Misir, İraq, Livan (1961), Bolqarıstan (1973) ölkələrində turist səfərində olmuşdur. 1974-cü il sentyabrın 6-da ona Azərbaycanın xalq yazıçısı fəxri adı verilmişdir.

Partiya və hökumət qarşısında xidmətlərinə görə "Lenin" (1971), "Oktyabr inqilabı" (1981), "Qırmızı əmək bayrağı" (1959), "Şərəf nişanı" (1946) ordenləri, "Xalq maarifi əlaçısı" (1971), "Əmək veteranı" (1936), Azərbaycan Ali Sovetinin Fəxri fərmanı (1976) və SSRİ-nin medalları ilə təltif olunmuşdur.

1983-cü il fevralın 2-də Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur. Bakı küçələrindən biri onun adını daşıyır.

**Əsərləri:**

1. Allahın səyahəti. Bakı, Azərnəşr, 1930, 20səh., 3.000 nüs.

2. Nənəmin cəhrəsi. Bakı, Azərnəşr, 1930, 151 səh., 3.000 nüs.
3. Madarın dastanı. Bakı, Azərnəşr, 1936, 44səh., 7.000 nüs.
4. Qarlı dağlar. Bakı, Azərnəşr, 1938, 193 səh., 5.000 nüs.
5. Ordenli çoban. Bakı, Azərnəşr, 1939, 49 səh., 5.000 nüs.
6. Dostlar. Bakı, Uşaqgəncnəşr, 1939, 39 səh., 5.150 nüs.
7. Qəhrəman. Bakı, Azərnəşr, 1940, 292 səh., 5.000 nüs.
8. Sübut. Bakı, Uşaqgəncnəşr, 1941, 151 səh., 5.000 nüs.
9. Sovqat. Bakı, Uşaqgəncnəşr, 1941, 151 səh., 5.000 nüs.
10. Cəbhə hekayələri. Bakı,Azərnəşr, 1942, 60 səh., 4.000 nüs.
11. Ərköyün. Bakı, Azərnəşr, 1944, 54 səh., 3.500 nüs.
12. Gülşən. Bakı, Uşaqgəncnəşr, 1949, 80 səh., 10.000 nüs.
13. Hekayələr. Bakı,Uşaqgəncnəşr, 1950,204səh., 15.000 nüs.
14. Gülşən. Bakı, Uşaqgəncnəşr, 1953,280 səh., 10.000 nüs.
15. Hekayələr. Bakı, Uşaqgəncnəşr, 1953, 164 səh., 10.000 nüs.
16. Qəhrəman. Bakı, Azərnəşr, 1954, 372 səh., 7.000 nüs.
17. Çiçəkli. Bakı, Azərnəşr, 1955, 514 səh., 15.000 nüs.
18. Ürək dostları. Bakı, Uşaqgəncnəşr, 1970, 280 səh.15.000 nüs.
19. Zamanın ulduzları. Bakı, Azərnəşr,1957,180 səh., 10.000 nüs.
20. Seçilmiş əsərləri (iki cilddə). I c. B.akı Azərnəşr, 1957, 544 səh., 10.000 nüs.
21. Seçilmiş əsərləri (iki cilddə). II c. Bakı, Azərnəşr, 1960, 564 səh., 10.000 nüs.
22. Xalq yazıçısı S.Rəhimov. Bakı, Azərnəşr, 1960, 38 səh., 5.000 nüs.
23. Turaclıya gedən yol. Bakı, Azərnəşr, 1961, 471 səh., 15.000 nüs.





24. Uşaqlara sovqat. Bakı, Uşaqgəncnəşr, 1962, 120 səh., 15.000 nüs.
25. Budağın xatirələri. Bakı, Azərnəşr, 1963, 462 səh., 15.000 nüs.
26. Əziz nəvələrimə. Bakı, Azərnəşr, 1964, 79 səh., 15.000 nüs.
27. Anaqız. Bakı, Azərnəşr, 1965, 335 səh., 10.000 nüs.
28. Bir cüt ulduz. Bakı, Gənclik, 1967, 76 səh., 13.000 nüs.
29. Bir cüt tərlan. Bakı, Gənclik, 1968, 315 səh., 15.000 nüs.
30. Əsərləri (altı cilddə). I c. Bakı, Azərnəşr, 1968, 475 səh., 12.000 nüs.
31. Əsərləri (altı cilddə). II c. Bakı Azərnəşr, 1968, 534 səh., 12.000 nüs.
32. Əsərləri (altı cilddə).III c. Bakı, Azərnəşr, 1969, 456 səh., 12.000 nüs.
33. Əsərləri (altı cilddə). IV c. Bakı, Azərnəşr, 1970, 478 səh., 12.000nüs.
34. Əsərləri (altı cilddə). V c. Bakı, Azərnəşr, 1970, 538 səh., 15.000 nüs.
35. Əsərləri (altı cilddə). VI c. Bakı, Azərnəşr, 1971, 471 səh.,15.000 nüs.
36. Samovar tüstülənir. Bakı, Gənclik, 1971, 531 səh., 20.000 nüs.
37. Durna qatarı. Bakı, Gənclik, 1972, 541 səh., 16.000 nüs.
38. Ərköyün. Bakı,Uşaqgəncnəşr, 1973, 427 səh., 10.000 nüs.
39. Budağın xatirələri. Bakı, Gənclik, 1974, 846 səh., 15.000 nüs.
40. Zamanın ulduzları. Bakı, Azərnəşr, 1976, 455 səh., 20.000 nüs.
41. Qarabağda qalan izlər. Bakı, Gənclik, 1977, 534 səh., 10.000 nüs.

42. Şamama Həsənova. Bakı, İşıq, 1978, 23 səh., 16.000nüs.
43. Narahat adam. Bakı, Gənclik, 1978, 312 səh., 20.000 nüs.
44. Qənirsiz gözəl. Bakı, Gənclik, 1979, 328 səh., 16.000 nüs.
45. Turaclıya gedən yol. Bakı, Gənclik, 1980, 456 səh., 10.000 nüs.
46. Ötən günlər. Bakı, Gənclik, 1981, 463 səh., 37.000 nüs.
47. Qəhrəman. Bakı, Yazıçı, 1983, 320 səh., 10.000 nüs.
48. Madarın dastanı. Bakı, Gənclik, 1988, 40səh., 35.000 nüs.

## AFAQ MƏSUD
*(1957)*

*Afaq Məsud qızı Vəliyeva – nasir, Azərbaycan Yazıçılar Birliyinin üzvü (1981)*

1957-ci il iyunun 3-də Bakı şəhərində Məsud Əli oğlunun ailəsində anadan olmuşdur. Xalq yazıçısı Əli Vəliyevin nəvəsidir. 190 saylı şəhər orta məktəbini bitirdikdən sonra Azərbyacan Dövlət Universitetinin jurnalistika fakültəsində ali təhsil almışdır (1974-1979). Əmək fəaliyyətinə C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında redaktor kimi başlamışdır. (1979-1983). Azərbaycan Televiziya və Radio Verilişləri Şirkətində telefilmin baş redaktoru vəzifəsində işləmişdir (1987-1989). Respublika Tərcümə və Ədəbi Əlaqələr Mərkəzinin direktor müavini, sonra direktoru olmuşdur (1989-cu ildən). Azərbaycan Yazıçılar Birliyi katibliyi heyətinə (tərcümə üzrə katib) seçilmişdir (1991-ci ildən). "Qarğalar nə üçün qarıldayır" adlı ilk yazısı 1970-ci ildə "Azərbaycan pioneri" qəzetində dərc olunmuşdur. Həmin vaxtdan dövri mətbuatda ardıcıl çıxış edir.





"Duyğular imperiyası" pritçalar silsiləsinin, yüzəcən hekayənin, irihəcmli romanların müəlifidir.

Amerika yazıçısı Tomas Vulfun "Dünyanın hörümçək toru", Nobel mükafatı laureatı, Latın Amerikası yazıçısı Qabriel Qarsia Markesin "Patriarxın payızı" romanlarını tərcümə etmişdir

**Əsərləri:**

1. Üçüncü mərtəbə. Bakı, Gənclik, 1971, 104 səh. 11000 nüs
2. Qarğış. Bakı, 1978
3. Şənbə gecəsi. Bakı, Yazıçı, 1984. 192 səh. 30.000 nüs
4. Üzü işiğa doğru. Bakı, 1986
5. Cəza. Bakı, 1987
6. Keçid (povestlər və hekayələr).Bakı, Yazıçı, 1988. 229 səh, 20.000 nüs
7. Suiti. Bakı1987.
8. Fatma. Bakı, 1989.
9. Tək. Bakı, Gənclik, 1992. 365 səh 9.000 nüs
10. İzdiham. Bakı, Azərbaycan Tərcümə Mərkəzi nəşri, 210 səh, 5.000 nüs
11. Azadlıq (roman, esse, hekayə). Bakı, 1991. Azərbaycan Tərcümə Mərkəzi, 1997, 500 səh., 1000 nüs.

## ƏVƏZ LƏLƏDAĞ
*(1935)*

*Əvəz Cəlal oğlu Mahmudov - şair, publisist, Azərbaycan Jurnalistlər Birliyinin üzvü (1995)*

1935-ci il sentyabrın 6-da Qərbi Azərbaycanın Zəngəzur mahalının Ağudi kəndində [indiki Ermənistan Respublikasının Sisyan (keçmiş Qarakilsə) rayonu] anadan

olmuşdur. Qonşuluqda olan Vağudi kənd orta məktəbini bitirmişdir (1954). Azərbaycan Dövlət Xarici Dillər İnstitutunun alman dili fakültəsində təhsilini davam etdirmişdir (1954-1958). Əmək fəaliyyətinə doğma kəndində müəllim kimi başlamışdır. Ağudi kənd orta məktəbində direktor müavini (1963-1965), Fəhlə-Gənclər Məktəbində direktor (1965-1972) işləmişdir. 1972-ci ildə Sumqayıt şəhərinə köçmüşdür. Burada 15 saylı orta məktəbdə direktor müavini (1975-1983), H.Z.Tağıyev qəsəbəsindəki 6 saylı məktəbdə direktor işləmişdir. Sumqayıt şəhər Təhsil Şöbəsi Həmkarlar İttifaqı şəhər komitəsinin sədri (1989-1995), 13 saylı məktəbdə direktor (1995-1996) vəzifələrində çalışmışdır. Hazırda 25 saylı məktəbin direktoru, eyni zamanda Sumqayıt şəhər Ziyalılar Cəmiyyətinin sədridir. "Qabaqcıl maarif xadimi", "Təhsil əlaçısı"dır. Demək olar ki, Sumqayıt şəhər və qəsəbə sovetinə dəfələrlə deputat seçilmişdir. İlk mətbu şeiri "Yadıma düşdü" 1958-ci ilin yanvarın 12-də "Sovet Ermənistanı" qəzetində dərc edilmişdir. Bundan sonra şeirləri "Ulduz", "Kirpi", "Ədəbiyyat qəzeti", "Azərbaycan gəncləri", "Azərbaycan müəllimi" və s. jurnal və qəzetlərdə, eləcə də almanaxlarda müntəzəm çıxmışdır. Ədəbi-bədii kompozisiyaları tamaşaya qoyulmuşdur.

**Əsərləri:**

1. El yada düşdü. Bakı, Yazıçı, 1984, 74 səh., 2.000 nüs.
2. Dağlar marala qaldı. Bakı, Gənclik, 1991, 210 səh., 5.000 nüs.
3. Ömür payı. Bakı, Azərnəşr, 1995, 232 səh., 2.000 nüs.
4. Sinəsi dolu nənəm. Bakı, Gənclik, 1996, 149səh., 2.000 nüs.
5. Ömürdən qalan izlər. Bakı, Təhsil, 1998, 155 səh., 500 nüs.
6. Ağ dovşanın nağılı. Sumqayıt, 1999, 90 səh., 500 nüs.
7. Dünya hara gedirsən? Sumqayıt, 2001, 270 səh., 100 nüs.





8. Yaddan çıxmaz günlərim. Bakı, Təfəkkür, 2002, 302 səh., 500 nüs.
9. Bizi deyib gəlmə, Mirzə. Bakı, Təfəkkür, 2003, 326 səh., 500 nüs.
10. Səni gözləyirəm. Bakı, Pedaqogika, 2004, 263 səh., 500 nüs.
11. Analı dünyam. Bakı, Nurlan, 2006, 200 səh., 500 nüs.
12. Ümumbəşəri bəla-erməni xəstəliyi. Bakı, Nurlan, 2007, 207 səh., 500 nüs.
13. Bu dünyaya könül verdim. Bakı, Nurlan, 2008, 350 səh., 500 nüs.
14. Dağlar, gözləyin məni. Bakı, Nurlan, 2008, 350 səh., 500 nüs.
15. Sənə sözüm var. Bakı, Kövsər, 2009, 230 səh., 500 nüs.

## MƏMMƏD ARAZ
*(1933-2004)*

***Məmməd İnfil oğlu İbrahimov - şair, tərcüməçi, publisist, Azərbaycan Yazıçılar Birliyinin üzvü (1957), Əməkdar mədəniyyət işçisi (1978), Əməkdar incəsənət xadimi (1984), Azərbaycan Dövlət mükafatı laureatı (1988), Azərbaycanın xalq şairi (1991)***

1933-cü il oktyabrın 14-də Azərbaycan SSR-nin Naxçıvan MR Şahbuz rayonunun Nurs kəndində anadan olmuşdur. Atası əslən Qərbi Azərbaycanın Zəngəzur mahalının Ağudi kəndindəndir [indiki Ermənistan Respublikasının Sisyan (keçmiş Qarakilsə) rayonu]. Nurs orta məktəbini bitirdikdən sonra Azərbaycan Dövlət Pedaqoji İnstitutunun coğrafiya fakültəsində ali təhsil almışdır (1950-1954). Əmək fəaliyyətinə doğma kəndində orta məktəbdə müəllimliklə başlamış, sonra Bakıya köçüb burada

Azərbaycan Nazirlər Soveti yanında Baş Mətbuat İdarəsində müvəkkil (1957-1959) işləmişdir. Moskvada Yazıçılar İttifaqı nəzdində olan ali ədəbiyyat kurslarında müdavim (1959-1961), Bakıda "Maarif" nəşriyyatında redaktor (1961-1963), Azərbaycan Dövlət Nəşriyyatında bədii ədəbiyyat redaksiyasının müdiri (1963-1967), "Ulduz" jurnalının məsul katibi (1967-1970), "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında baş redaktorun müavini (1970-1972), Azərbaycan Dövlət Nəşriyyatında baş redaktorun müavini (1972-1974) olmuşdur. "Ulduz" jurnalı redaksiya heyətinin üzvü olub. Azərbaycan Yazıçılar İttifaqında poeziya bölməsinə rəhbərlik etmişdir (1971-1981). Ədəbi yaradıcılığa 1952-ci ildə "İnqilab və mədəniyyət" jurnalında çap olunan "Yanın, işıqlarım" adlı ilk şeirilə başlamışdır. Dövri mətbuatda vaxtaşırı çıxış edirdi. Əsərləri bir sıra keçmiş SSRİ və xarici ölkə xalqlarının dillərinə tərcümə olunmuşdur. Xidmətlərinə görə Azərbaycan Respublikasının İstiqlal ordeni (1995) ilə, bir medalla və Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanları ilə (1975; 1983) təltif edilmişdir. Hacı Zeynalabdin Tağıyev adına milli mükafatın laureatıdır (1992). Onun adına "Məmməd Araz" mükafatı təsis olunmuşdur (1993-cü ildən).

2004-cü ilin dekabrında Bakıda vəfat etmiş və Fəxri Xiyabanda dəfn olunmuşdur.

**Əsərləri:**

1. Sevgi nəğməsi. Bakı, Azərnəşr, 1959, 68 səh., 3.000 nüs.
2. Üç oğul atası. Bakı, Uşaqgəncnəşr, 1961, 63 səh., 6.000 nüs.
3. Araz baxır. Bakı, Azərnəşr, 1964, 76 səh., 10.000 nüs.
4. Mən səni taparam. Bakı, Azərnəşr, 1963,59 səh., 5.000 nüs.
5. Anamdan yadigar nəğmələr. Bakı, Azərnəşr, 1966, 152 səh., 10.000 nüs.
6. Ömür karvanı. Bakı, Azərnəşr, 1967, 136 səh., 10.000 nüs.





7. İllərdən bəri. Bakı, Gənclik, 1969, 114 səh., 9.000 nüs.
8. Qanadlı qayalar. Bakı, Azərnəşr, 1973, 190 səh., 10.000 nüs.
9. Atamın kitabı. Bakı, Gənclik, 1974, 168 səh., 9.500 nüs.
10. Həyatın və sözün rəngləri. Bakı, Gənclik, 1975, 135 səh., 10.000 nüs.
11. Oxucuya məktub. Bakı, Gənclik, 1978, 234 səh., 10.000 nüs.
12. Aylarım, illərim. Bakı, Yazıçı, 1979, 224 səh., 8.000 nüs.
13. Dünya sənin, dünya mənim. Bakı, Yazıçı, 1983, 310 səh., 15.000 nüs.
14. Seçilmiş əsərləri (bircildlik). Bakı, Azərnəşr, 1986, 15.000 nüs.
15. Dünya düzəlmir. Bakı, "Azərbaycan" nəşriyyatı, 1992, 81 səh., 10.000 nüs.
16. Daş harayı. Bakı, Yazıçı, 1993, 254 səh., 12.000 nüs.
17. Qayalara yazılan səs. Bakı, Azərnəşr, 1994, 5.000 nüs.
18. Yol ayrıcında söhbət. Bakı, "Azərbaycan" nəşriyyatı, 1997, 318 səh., 5.000 nüs.
19. Sənətdə son mənzil olmur. Bakı, "Adiloğlu" nəşriyyatı, 2001, 440 səh., 1.000 nüs.
20. Ağlayan qayalar. Bakı, "Araz" nəşriyyatı, 2002, 144 səh.,1.000 nüs.
21. Vətən deyin. Bakı, "Adiloğlu" nəşriyyatı, 2003, 149 səh.,2.000 nüs.
22. Əsgər andı. Bakı, "Araz" nəşriyyatı, 2003, 98 səh., 1.000 nüs.
23. Seçilmiş əsərləri (dörd clddə). I cild. Bakı, "Ozan" nəşriyyatı, 2003, 337 səh., 2.000 nüs.
24. Seçilmiş əsərləri (dörd cilddə). II cild. Bakı, "Ozan" nəşriyyatı, 2003, 360 səh., 2.000 nüs.
25. Seçilmiş əsərləri (dörd cilddə). III cild. Bakı, "Ozan"

nəşriyyatı, 2003, 376 səh., 2.000 nüs.

26. Seçilmiş əsərləri (dörd cilddə). IV cild. Bakı, "Ozan" nəşriyyatı, 2003, 365 səh., 2.000 nüs.

**Tərcümələri: (ruscadan)**

1. S.V.Mixalkov. Foma. Bakı, Azərnəşr, 1964, 16 səh., 15.000 nüs.
2. G.Ağacanyan. Narahat ürək. Bakı, Gənclik, 1974, 83 səh., 8.500 nüs.
3. M.Svedov/ Şeirlər. Bakı, Azərnəşr, 1975, 204 səh., 5.000 nüs.
4. N.A.Nekrasov. Rus qadınları. Bakı, Yazıçı, 1983, 124 səh., 7.000 nüs.
5. Ocaq başında (dünya şairlərinin şeirləri). Bakı, Yazıçı, 1988, 241 səh., 6.000 nüs.

## QIZILCIQ KƏNDİ

### RUZİGAR CƏBİSOY ÇƏLƏBİ
*(1953)*

*Ruzigar Əmənulla oğlu Cəbiyev - şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü (2009)*

1953-cü il avqustun 5-də Qərbi Azərbaycanın Zəngəzur mahalının Qızılcıq kəndində [indiki Ermənistan Respublikasının Sisyan (keçmiş Qarakilsə) rayonu] anadan olmuşdur. Orta təhsilini doğma kəndində almışdır (1971). M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki Mədəniyyət və İncəsənət Universiteti) kino aktyorluğu fakültəsini bitirmişdir (1976). Təyinatla S.Rəhman adına Şəki Dövlət Dram Teatrında (1977-1989), sonra isə H.Ərəblinski adına





Sumqayıt Dövlət Dram Teatrında (1989-1995) aktyor işləmişdir. Hazırda sənətini davam etdirməklə yanaşı, həm də jurnalist kimi fəaliyyət göstərir. Şeirləri, poema və məqalələri müxtəlif mətbuat orqanlarında dərc olunur.

**Əsərləri:**

1. Nə vaxtacan? Sumqayıt, 2001, 56 səh.,300 nüs.

## SOFULU KƏNDİ

### İDRAK ƏLIYEV
*(1955)*

*İdrak Rəhim oğlu Əliyev – şair, publisit*

1955-ci ildə Qərbi Azərbaycanın Zəngəzur mahalının Sofulu kəndində [indiki Ermənistan Respublikasının Sisyan (keçmiş Qarakilsə) rayonu] müəllim ailəsində anadan olmuşdur. 1962-1972-ci illərdə Sofulu orta məktəbində orta təhsil, 1972-1977-ci illərdə isə Azərbaycan Dövlət Universitesinin tarix fakültəsində ali təhsil (indiki Bakı Dövlət Universiteti) almışdır.

İlk əmək fəaliyyətinə Quba rayonunun Hacı Hüseynli (Yelenovka) orta məktəbində tarix müəllimi kimi başlamışdır. Hərbi xidmətdə olmuşdur. Hazırda Bakı şəhərində Fizika-Riyaziyyat-İnformatika Təmayüllü Liseydə tarix müəllimi işləyir.

Dövrü mətbuatda – "Türküstan", "Təzadlar", "Azərbaycan müəllimi" qəzetlərində şeir və məqalələrlə çıxış edir.

**Əsərləri:**

1. Azərbaycan tarixinə qısa nəzər. Bakı, 1997.
2. Bu da bir ömürdü yaşadım. Bakı, 2012.

## NİKBİN ƏLİYEV
*(1979)*

*Nikbin Rəhim oğlu Əliyev – şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü*

1969-cu ildə Qərbi Azərbaycanın Zəngəzur mahalının Sofulu kəndində [indiki Ermənistan Respublikasının Sisyan (keçmiş Qarakilsə) rayonu] anadan olmşdur. 1977-1987-ci illərdə Sofulu orta məktəbində orta təhsil, 1991-1996-cı illərdə isə Bakı Dövlət Universitetinin filologiya fakültəsində ali təhsil almışdır. Hərbi xidmətdə olmuşdur. 90-cı illərin əvvəllərindən "Ozan", "Türküstan", "Təzadlar", "Ədəbiyyat", "İqtisadiyyat" və s. mətbuat orqanlarında müxtəlif məzmunlu publisist məqalələr, oçerklər, satirik və lirik şeirlərlə çıxış edir.

**Əsərləri:**

1. Könlümdə bir dəniz var. Bakı, "Gənclik", 2002.

## NUŞİRƏVAN KƏRİMOV
*(1898-1966)*

*Nuşirəvan Kərimov-şair, müəllim*

1898-ci ildə Qərbi Azərbaycanın Zəngəzur mahalının Sofulu kəndində [indiki Ermənistan Respublikasının Sisyan (keçmiş Qarakilsə) rayonu] bəy ailəsində anadan olmuşdur. 1931-ci ildə Şuşa Pedaqoji Texnikumunu bitirmişdir. Elə həmin ildən Qubadlı rayonunun Xocamsaxlı ibtidai məktəbində müəllimlik fəaliyyətinə başlamışdır. O, müəllimliklə yanaşı, müxtəlif səpkili şeirlər yazmış, uzun illər "Molla Nəsrəddin" jurnalında





"Aşıq", "İstiot" imzası ilə çıxış etmişdir. Yazdığı şeir felyeton və tapmacalarında dövrünün eybəcərlikləri, gerilikləri böyük ustalıqla Molla Nəsrəddinsayağı tənqid edilmişdir.

Uzun illər qüsursuz pedaqoji fəaliyyətinə görə Azərbaycanın əməkdar müəllimi adına layiq görülmüş, "Lenin" və "Şərəf Nişanı" ordeni ilə təltif edilmişdir.

1966-cı ildə Qubadlı rayonunun Xocamsaxlı kəndində vəfat etmişdir.

## RƏHİM ƏLİYEV
*(1920-1983)*

*Rəhim Əhməd oğlu Əliyev – şair, müəllim*

1920-ci ildə Qərbi Azərbaycanın Zəngəzur mahalının Sofulu kəndində [indiki Ermənistan Respublikasının Sisyan (keçmiş Qarakilsə) rayonu] anadan olmuşdur. İbtidai təhsilini Sofuluda (Alişərdə) 1929-cu ildə Kərbəlayi Kərim tərəfindən açılmış ibtidai məktəbdə, orta təhsilini isə Vağudi kəndində 1930-cu ildə açılmış orta məktəbdə almışdır. Ali təhsilini Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filologiya fakültəsində tamamlamış və ömrünün sonuna kimi doğma kəndində dil və ədəbiyyat müəllimi işləmişdir. Rəhim Əhməd oğlu müəllimliklə yanaşı, ədəbi yaradıcılığı həyatının mənası hesab etmişdir. Onun pyesləri, poemaları və şeirləri "Ədəbiyyat və incəsənət" qəzetində, İrəvan şəhərində Azərbaycan türkcəsində nəşr olunmuş "Ədəbi Ermənistanı" məcmuəsində dərc olunmuşdur. Rəhim müəllim haqqında jurnalist-publisist Flora Xəlilzadə 1978-ci ildə "Azərbaycan müəllimi" qəzetində "Dağlarda döyünən ürək" məqaləsində yazırdı: "Rəhim müəllimin şeirlərində təbiət genişliyi, ətirli təbiət havası doludur. Zəngəzura xas olan bütün

təbii gözəlliklər onun şeirlərinə çökmüşdür. Bu şeirlər incə zövqün, duyğunun məhsuludur. Onun ictimai məzmunu vətəndaşlıq hissi, sənət eşqi, xalqlar dostluğu ideyasını əks etdirən şeirlərin orijinallığı, məzmunu ilə diqqəti cəlb edir.

R.Əliyev şeirlərində elə kəm baxanları, qınından çıxıb qınını bəyənməyənləri, ikiüzlü və riyakarları, haram tikə önündə "quyruq bulayanları", bədxahları pisləyir, insanları nəcib hiss və duyğularla yaşamağa çağırırdı".

R.Əliyev 1983-cü ildə vəfat etmiş və Bakıda Mehdabad qəbristanlığında dəfn olunmuşdur.

**Əsərləri:**

1. Qəlbimin təranələri. Yerevan, "Hayastan", 1975.
2. Dan ulduzu. Yerevan, "Hayastan", 1979.
3. "Biz yaşamaq istəyirik" pyesi

## PƏNAH SOFULU
*(1927)*

*Pənah Əhməd oğlu Əliyev – şair. Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

1927-ci ildə Qərbi Azərbaycanın Zəngəzur mahalının Sofulu kəndində [indiki Ermənistan Respublikasının Sisyan (keçmiş Qarakilsə) rayonu] anadan olub. İbtidai və səkkizillik təhsilini Sofulu kəndində aldıqdan sonra təhsilini 1950-1953-cü illərdə İrəvan Kənd Təsərrüfatı Texnikumunda davam etdirmişdir. Ali təhsilini isə 1964-1970-ci illərdə Gəncə şəhərində Azərbaycan Dövlət Kənd Təsərrüfatı İnstitutunun baytarlıq fakültəsində almış və uzun müddət Sofulu sovxozunda baş baytar vəzifəsində işləmişdir.

1988-ci il noyabrın sonlarında baş vermiş məlum hadisələr





zamanı Pənah Əliyev də digər sofulular kimi ermənilər (haylar) tərəfindən doğma yurdundan zorla qovuldu. O, əvvəlcə Qubadlı rayonuna köçdü, sonra isə Bakıda məskunlaşdı.

Pənah Əliyev öz yaradıcılığında bayatı janrına xüsusi yer vermişdir. Hollandiyanın Rotterdam şəhərində türk dilində nəşr olunan "Kuzey yıldızı" jurnalının 96 və 102-ci saylarında Pənah Sofulunun Bakı və Xocalı haqqında şeirləri, bayatıları çap olunmuşdur. 20 Yanvar, Xocalı hadisələri, tarixi haqsızlıqlar, erməni xisləti və digər mövzular bu kitablarda əks olunmuşdur. Onun yaradıcılığında mərdlik, Vətənə, ailəyə, dosta məhəbbət və sədaqətlə yanaşı acgözlük, namərdlik, xəbislik və s. keyfiyyətlərin tənqidi də yer almışdır.

**Əsərləri:**

1. Ağlar bayatılar. Bakı, 1996.
2. Solmayan güllər. Bakı, 2000.
3. Qoca ağac çiçəkləyib. Bakı, 2000.
4. Şəhid ruhların şikəstəsi. Bakı, 2000.
5. Qələmlə söz əkən şair. Bakı,2000.
6. Hüzn qönçəsi (Hollandiyada Rotterdam şəhərində nəşr olunub).
7. Zəngəzurun harayı. Bakı, 2004.
8. Canlı güllər, çiçəklər. Bakı, 2004.
9. Dərdli dərdsizlər oxusun. Bakı, 2012.

## SƏKİ KƏNDİ

### ƏYYUB ABBASOB
*(1905-1957)*

*Əyyub Cəbrayıl oğlu Abbasov - şair, dramaturq, Azərbaycan Yazıçılar Birliyinin üzvü (1938), Əməkdar incəsənət xadimi*

1905-ci ildə Qərbi Azərbaycanın Zəngəzur mahalının Şəki kəndində [indiki Ermənistan Respublikasının Sisyan (keçmiş Qarakilsə) rayonu] anadan olmuşdur. 1918-1919-cu illərdə ermənilər (haylar) doğma kəndini dağıdan zaman ata-anasını və kiçik qardaşını itirib tək, kimsəsiz qalmış, 14 yaşından bir tikə çörək qazanmaq üçün ağır zəhmətə qatlaşmış, nökərçilik etmişdir. 1920-ci ildə Naxçıvana – qohumlarının yanına gəlib orta təhsil almışdır. Naxçıvan Pedaqoji Texnikumunu bitirib, 1927-1928-ci illərdə Naxçıvan Xalq Maarif Komissarlığında inspektor işləmişdir. Sonra Azərbaycan Dövlət Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakültəsidə ali təhsil almışdır. Ali təhsilini başa vurduqdan sonra Naxçıvan Pedaqoji Texnikumunda müəllim və dərs hissə müdiri işləmişdir. Sonra Naxçıvan rayon maarif şöbəsi müdiri təyin olunmuş, Bakıda "Kommunist" qəzeti redaksiyasında, Xalq Maarif Komissarlığında işləmişdir. Azərbaycan KP MK onu Leninqradda marksizm-leninizm klassiklərinin tərcüməçiləri və redaktorları kursuna göndərmişdir. 1937-1939-cu illərdə Azərbaycan Nazirlər Sovetinin nəzdində İncəsənət İşləri İdarəsində işləmişdir. 1941-1943-cü illərdə İkinci Dünya müharibəsinin (1939-1945) tərkib hissəsi olan Almaniya-SSRİ müharibəsində (1941-1945) (Böyük Vətən müharibəsi) iştirak etmiş, Sevastopol uğrunda döyüşlərdə ağır yaralanmışdır. Ordudan tərxis olunduqdan sonra 1943-1947-ci illərdə Azərbaycan KP MK təbliğat və təşviqat şöbəsində təlimatçı, sonra teatr məktəbində, uşaq və gənclər nəşriyyatının müasir bədii ədəbiyyat şöbəsində müdir olmuşdur. 20-ci illərdən yaradıcılığa başlamış, 1926-cı ildə "Orağım", "Yeni həyata atılmış qadın" adlı ilk şeirlərini "Şərq qapısı" qəzetində dərc etdirmişdir. Bundan sonra "Gənc işçi", "Yeni yol", "Kommunist", "Maarif və mədəniyyət", "Qığılcım", "Dan ulduzu" qəzet və jurnallarında müntəzəm çıxış etmişdir. İlk pyesi - "Qadın azadlığı" Naxçıvan teatrında tamaşaya qoyulmuşdur. Onun səhnə əsərləri ("Böhtan", "Azad", "Barışıq", "Məlik Məhəmməd", "Qardaşlar", "Şəfəq", "Bahar nəğməsi" və s.) Gənc Tamaşaçılar Teatrında və ölkənin digər yerlərində oynanılmışdır. Rus ədəbiyyatından (S.Marşak, S.Mixalkov, P.Tuvim, A.Barto və b.) poetik tərcümələr etmişdir. "Qafqazın müdafiəsinə görə", "1941-1945-ci illər Böyük Vətən müharibəsində əmək igidliyinə görə" medalları ilə təltif olunmuşdur.

1957-ci il noyabrın 18-də vəfat etmişdir.

**Əsərləri:**

1. Mübarizə (şeirlər), Naxçıvan, Naxçıvan Yazıçılar İttifaqının nəşriyyatı, 1932, 34 səh., 2.000 nüs.
2. Günəşli yollar. Bakı, Azərnəşr, 1938, 78 səh., 5.000 nüs.
3. Sərhəd boyunda. Bakı, Azərnəşr, 1938, 32səh., 5.000 nüs.
4. Ürək nəğmələri. Bakı, Azərnəşr, 1948, 85səh.,4.000 nüs.
5. Vətən suları. Bakı, Uşaqgəncnəşr, 1949, 40 səh., 4.000 nüs.
6. Pyesləri. Bakı, Uşaqgəncnəşr, 1950,111 səh., 7.000 nüs.
7. Bahar mahnısı. Bakı, Uşaqgəncnəşr, 1951, 120 səh., 7.000 nüs.
8. Nailə. Bakı, Uşaqgəncnəşr, 1951, 28 səh., 20.000 nüs.
9. Doğma vətən torpağında. Bakı, Uşaqgəncnəşr, 1952, 132 səh., 5.000 nüs.
10. Qırmızı bayraq altında. Bakı, Uşaqgəncnəşr, 1954, 14

səh., 20.000 nüs.

11. Ağ çadırlar. Bakı, Uşaqgəncnəşr, 1955, 64 səh., 10.000 nüs.
12. Məlik Məhəmməd (pyeslər). Bakı, Uşaqgəncnəşr, 1955, 180 səh., 7.000 nüs.
13. Könül şikəstəsi. Bakı, Uşaqgəncnəşr, 1956, 76 səh., 10.000 nüs.
14. Zəngəzur (roman). I kitab. Bakı, Uşaqgəncnəşr, 1956, 572 səh., 10.000 nüs.
15. Zəngəzur (roman). II kitab. Bakı, Uşaqgəncnəşr, 1957, 480 səh., 10.000 nüs.
16. Seçilmiş əsərləri. Bakı, Uşaqgəncnəşr, 1962, 268 səh., 20.000 nüs.
17. Sevinc (pyes). Bakı, Gənclik, 1968,48 səh., 6.000 nüs.

## URUD KƏNDİ

### FLORA XƏLİLZADƏ
*(1955)*

*Flora Fətulla qızı Xəlilzadə- şair, publisist, Azərbaycan Yazıçılar Birliyinin üzvü (1999), Jurnalistlər Birliyinin üzvü (1981), "Qızıl qələm" mükafatı laureatı*

1955-ci il avqustun 23-də Qərbi Azərbaycanın Zəngəzur mahalının Urud kəndində [indiki Ermənistan Respublikasının Sisyan (keçmiş Qarakilsə) rayonu] anadan olmuşdur. Vağudi kəndində orta məktəbi bitirmiş (1971) və Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsində ali təhsil almışdır (1971-1977). Əmək fəaliyyətinə "Azərbaycan təbiəti" jurnalında müx-





bir kimi başlamışdır (1977-1979). "Azərbaycan müəllimi" qəzeti redaksiyasında müxbir, xüsusi müxbir, şöbə müdiri (1979-1992), "Azərbaycan" qəzetində müxbir (1992-1994) işləmişdir. Hazırda orada mədəniyyət və publisistika şöbəsinin müdiri vəzifəsində çalışır (1994-cü ildən). Bədii yaradıcılığa erkən başlamışdır: İlk "Yad olaq" şeiri "Azərbaycan qadını" jurnalında çıxmışdır (1978). Bundan sonra dövri mətbuatda şeirləri, uşaq hekayələri və publisistik məqalələri nəşr olunmuşdur. "Dünyanı uşaqlara verdik" (1979), "Bahar çiçəkləri" (1980), "Mənim fikrimcə" (1992) və s. almanaxlarda əsərləri dərc edilmişdir. Türkiyədə peyğəmbərin mövludu münasibəti ilə keçirilən müsabiqədə mükafata layiq görülmüşdür. "Dan ulduzu" və "Araz" ali ədəbi mükafatına (1994), Respublika Jurnalistləri Həmkarlar İttifaqının təsis etdiyi "Xan qızı Natəvan" və "Salatın Əsgərova" adına mükafata layiq görülmüşdür (1995).

**Əsərləri:**

1. Ruhumun ehtiyacı (şeirlər). Bakı, "Azərbaycan" nəşriyyatı, 1993, 104 səh., 6.000 nüs.
2. Bənövşə ətirli səs (ədəbi portret). Bakı, "Azərbaycan" nəşriyyatı, 1993, 47 səh., 50.000 nüs.
3. Aysel adını itirib (uşaq hekayələri). Bakı, "Azərbaycan" nəşriyyatı, 1995, 150 səh., 2.000 nüs.
4. Analar (publisistika). Bakı, "Azərbaycan" nəşriyyatı, 1998, 120 səh., 1.000 nüs.
5. Ürəyim aldatdı məni (şeirlər). Bakı, "Azərbaycan" nəşriyyatı, 1998, 250 səh., 1.000 nüs.
6. Bu mənim tale yolum (ədəbi portret). Bakı, "Azərbaycan" nəşriyyatı, 1999, 300 səh., 6.000 nüs.
7. Taleyimdən keçən adamlar. Bakı, "Azərbaycan" nəşriyyatı, 1998, 260 səh., 2.000 nüs.
8. İgidliyin son zirvəsi (ədəbi portret). Bakı, "Azərbaycan" nəşriyyatı, 270 səh., 2.000 nüs.

9. Məmməd Araza məktub. Bakı, "Araz" nəşriyyatı, 2003, 96 səh., 500 nüs.
10. Yuxular (şeirlər). Bakı, Araz, 2007, 262 səh., 500 nüs.
11. Yolum düşə Zəngəzura (tarixi etnoqrafik bədii nəşr). Bakı, Araz, 2007, 514 səh., 500 nüs.
12. Dağları tərpədən fəryad (ədəbi portret). Bakı, Araz, 2008, 212 səh., 500 nüs.

## MƏHƏMMƏD SADIQ ARAN
*(1895-1972)*

*Məhəmməd Sadıq Semih oğlu - şair, publisist*

Məhəmməd Sadıq Aran 1895-ci ildə Qərbi Azərbaycanın Zəngəzur mahalının Urud kəndində [indiki Ermənistan Respublikasının Sisyan (keçmiş Qarakilsə) rayonu] ruhani ailəsində doğulmuşdur. Onun babası Tiflisdə Qafqaz Şeyxülislamı vəzifəsini daşımışdır. Atası Samih bəy dövrünün ziyalılarından idi.

Erkən yaşlarından ədəbiyyatla, elmlə maraqlanmış, bu işdə atasının təsiri böyük olmuşdur. İlk təhsilinə atasının kəndlərində tikdirdiyi məktəbdə başlamış, daha sonra Qarakilsədə ibtidai məktəbi bitirmiş, Naxçıvandakı 8 illik orta dərəcəli rus məktəbində təhsilini davam etdirmişdir. İlk şeirləri Bakıda "Açıq söz" qəzetində çıxmışdır.

1917-ci ildə Gorusda məktəb açaraq, uşaqların təhsili ilə məşğul olmuşdur. Sonra ermənilərin təqibi üzündən ailəlikcə Bərşada köçərək burada da müəllimliyini davam etdirmişdir. 1918-ci il mayın 28-də Milli Azərbaycan Cümhuriyyətinin qurulmasından sonra keçirilən parlament seçkilərində Zəngəzur millət vəkili seçilmiş, Müsavat Partiyasının qaçqınlar üzrə





komissiyasının fəal üzvü olmuşdur.

1920-ci il aprelin 28-də Azərbaycan Cümhuriyyətinin süqutu zamanı Müsavat Partiyasının Qarabağda gizli təşkilatının rəhbəri olmuşdur. Həbs edilmiş, Tiflisdə iki il işgəncələrə məruz qalmışdır. Dəlilik roluna girdiyi üçün həbsxanadan azad edildən sonra 1924-cü ildə İrana, oradan Türkiyəyə getmiş, Müsavat partiyasının baş katibi kimi milli mücadiləyə davam etmişdir. İstanbulda "Yeni Qafqaz", "Odlu yurd" jurnallarında, ayrı-ayrı qəzetlərdə Azərbaycan haqqında məqalələr yazmış, şeirlər nəşr etdirmişdir. Finlandiyada iki il çalışmış və "Turcin" adlı bir qəzet nəşr etmişdir. 1936-1941-ci illərdə İranda "Ulus" və "Cümhuriyyət" qəzetlərinin müxbiri olmuşdur. Türkiyəyə qayıtmış, burada "İran türkləri" adlı bir əsər yazmışdır. "Boz qurd", "Şərq yolu" və "Türk yolu" dərgilərini təsis etmiş, məqalə və şeirlərində Azərbaycanın istiqlal və azadlığını, türk millətçiliyini təbliğ etmişdir. Şeirlərini "Erkenekon yollarında" kitabında toplu halda çap etdirmişdir. "Türkün altun kitabı" adlı əsəri ilə tanınır.

1972-ci ildə İstanbulda vəfat etmişdir.

## MUSA URUD
*(1961)*

*Musa İsa oğlu Quliyev- şair, publisist-tədqiqatçı, Azərbaycan Yazıçılar Birlıyinin üzvü (1994)*

1961-ci il noyabrın 25-də Qərbi Azərbaycanın Zəngəzur mahalının Urud kəndində [indiki Ermənistan Respublikasının Sisyan (keçmiş Qarakilsə) rayonu] anadan olmuşdur. Burada orta məktəbi bitirmişdir (1978). Ali təhsilini N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunda almışdır (1978-1984). Əmək fəaliyyətinə təyinatla göndərildiyi Gəncə şəhərində, A.Səhhət

adına 1 saylı xəstəxanada həkim-intern kimi başlamışdır (1984-1985).

Gəncə Narkoloji Dispanserində həkim-narkoloq (1986-1990), 7 saylı Bakı şəhəri poliklinikasında həkim nevropatoloq (1990-1993), Bakı şəhəri Yasamal rayonunda həkim əmək ekspert komissiyasında ekspert nevropatoloq (1993-1994), Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində şöbə müdiri (1994-1997), idarə rəisi (1997-2000) vəzifələrində işləmişdir. Yeni Azərbaycan Partiyasının Siyasi Şurasının üzvü seçilmişdir. 2000-2005-ci illərdə YAP proporsional siyahısı üzrə 2-ci çağırış Azərbaycan Milli Məclisinin üzvü olmuş, 2005-ci il noyabrın 6-da 40 saylı Kəpəz 2-ci (Gəncə) seçki dairəsindən 3-cü çağırış Milli Məclisə deputat seçilmişdir. Milli Məclisin Sosial Siyasət Komitəsinin sədrinin müavini, Azərbaycan-Əlcəzair parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Britaniya, Azərbaycan-Qazaxıstan, Azərbaycan-Litva, Azərbaycan-Pakistan parlamentlərarası əlaqələr üzrə işçi qruplarının, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisində Azərbaycan nümayəndə heyətinin üzvü olmuşdur. Əsərləri rus, ingilis və fransız dillərinə tərcümə edilmişdir. Prezident təqaüdçüsü (1998), "Araz", "Yusif Məmmədəliyev" ədəbi mükafatları laureatıdır. Azərbaycan Yazıçılar Birliyi İdarə Heyətinin üzvüdür. Qərbi Azərbaycandan (indiki Ermənistandan) qovulan həmvətənlərinin faciələri onun əsərlərinin əsas mövzularından biri olmuşdur. Gəncədə "İlham" ədəbi birliyinin fəal üzvü kimi yazıb-yaratmışdır.

**Əsərləri:**

1. Nuh, gəminə götür bizi. Bakı, Gənclik, 1994, 54 səh.,2.000 nüs.
2. Tanrı şam yandırıb (şeirlər). Bakı, Azərbaycan Dövlət Kitab Palatası, 1995, 64 səh.
3. Ömürdən 101 şeir (şeirlər). Bakı, Azərbaycan Dövlət





Kitab Palatası, 1997, 88 səh.
4. Üzü haqqa gedirəm (şeirlər və poemalar). Bakı, Yeni nəşrlər evi, 1999, 80 səh.
5. Urud (bədii publisistika). Bakı, Araz, 2000, 431 səh.
6. Haqqın var yaşamağa (siyasi publisistika). Bakı, Araz, 2001, 292 səh.
7. Vətən and yerimiz (uşaq şeirləri). Bakı, Avropa, 2004, 112 səh.
8. Zəngəzur (elmi-publisistik nəşr). Bakı, Nurlar, 2005, 503 səh.
9. Uruda iki səfər (bədii publisistika). Bakı, Adiloğlu, 2008, 124 səh.
10. Hər nə varsa (şeirlər və poemalar). Bakı, Avropa, 2008, 304 səh.
11. Zəngəzur toponimləri. Bakı, "Nurlan", 2013, 399 səh.

# QƏRBİ AZƏRBAYCANIN ZƏNGİBASAR MAHALI



## ZƏNGİBASAR MAHALININ MASİS (keçmiş ZƏNGİBASAR) RAYONU




Ermənistan SSR-də (1920-1991) (1991-ci ildən Ermənistan Respublikası) inzibati rayon. 1937-ci il dekabrın 31-də təşkil edilmişdir. Sahəsi 170 km$^2$ olan rayonun ərazisinə daxil olan kəndlərin 18-i Qəmərli rayonuna, 14-ü isə Eçmiədzin (Vağarşabad) rayonuna aid idi. Ərazisi cənubdan Türkiyə, qərbdən Eçmiədzin, şərqdən Artaşat (keçmiş Qəmərli) rayonları və şimaldan İrəvan

şəhərinin Lenin və Şaumyan rayonları ilə həmsərhəddir. 1953-cü ildə rayon tamamilə ləğv edilmişdir. 1969-cu il yanvarın 14-də rayon təzədən Masis adı ilə bərpa olunur. Rayonun o zamankı mərkəzi olan Uluxanlı (Zəngibasar) şəhər tipli qəsəbəsinin də adı rayonun adı ilə eyniləşdirilir, yəni Masis qoyulur.

Qədimdən 1988-ci ilə kimi Masis (Zəngibasar) rayonunun indiki ərazisində aşağıdakı kəndlərdə türklər yaşamışdır:

1. Ağcaqışlaq (Ağcaqala qışlağı, Çerçerakin) (qarışıq-türklər və ermənilər) (1948-1953-cü illərdə);
2. Ağhəmzəli (Molla Polad, Həmzəkənd) (qarışıq-türklər və ermənilər) (1950-ci ildə);
3. Arbat (qarışıq-türklər və ermənilər) (1988-ci ildə);
4. Aşağı Çarbağ (qarışıq-türklər və ermənilər) (1950-ci ildə);
5. Aşağı Necili (Sayat Nova) (qarışıq-türklər və ermənilər) (1988-ci ildə);
6. Aşağı Şinqovit (1928-1929-cu illərdə);
7. Azadaşen (qarışıq-türklər və ermənilər) (1940-cı ildə);
8. Beybutabad (Behbudabad) (1828-1832-ci illərdə);
9. Cəbəçili (qarışıq-türklər və ermənilər) (1949-cu ildə);
10. Cəfərabad (Yuxarı Göykənd) (1830-cu ildə);
11. Çarbağ (Xürrəmabad, Yuxarı Çarbağ) (qarışıq-türklər və ermənilər) (1931-ci ildə);
12. Çobankərə (Böyük Çobankərə) (1940-cı illərdə);
13. Daşlı (1826-1829-cu illərdə);
14. Dəmirçi (Dəmirçili, Kiçik Şorlu Dəmirçi) (1988-ci illərdə);
15. Dərcan (Dircan) (1826-1829-cu illərdə);
16. Göyçəbəyli ( XIX əsrin əvvəllərində);
17. Göygümbət (qarışıq-türklər və ermənilər) (1950-ci illərdə);
18. Hacı Elyas İpəkli (qarışıq-türklər və ermənilər) (1949-cu ildə);
19. Haçaparaq (Zəhmət) (1988-ci ildə);





20. Həbilkənd (Bulaqlı, Kalinin qəsəbəsi) (1988-ci ildə);
21. Həsənli (Mirzə Hüseyn) (1948-1949-cu illərdə);
22. Xaraba Sarvanlar (1950-ci ildə);
23. Xarberd (?);
24. Xarratlı (qarışıq-türklər və ermənilər) (1949-cu ildə);
25. Xəlifəli (?);
26. İlxı qoruğu (1918-ci ildə);
27. Kolanlı (Xaraba Kolanı. Rənçbər Kolanısı) (1948-1949-cu illərdə);
28. Kolar( Qalalı, Gələrə, Kəlley) (1828-ci ildə);
29. Qaracalar (Məmmədabad) (1931-ci ildə);
30. Qaraqışlaq (Hacı Bayram, Dostluq) (1988-ci ildə);
31. 31Qaratəpə (Qaracaviran, Qaraviran) (?);
32. Qullar (Qulular) (?);
33. Qulucan (1950-ci ildə);
34. Mehmandar (Şorlu Mehmandar) (qarışıq-türklər və ermənilər) (1988-ci ildə);
35. Mərəköyüt (Norakovit) (1828-ci ildə);
36. Muxtarabad (1918-ci ildə);
37. Orucadası (?);
38. Ozanlar (Ozanlı, Kərəm) (1926-1929-cu illərdə);
39. Reyhanlı (1948-1953-cü illərdə);
40. Rəhimabad (1988-ci ildə);
41. Rəncbər (Şorkənd 1988-ci ildə);
42. Sarıcalar (Cahanşadıllı) (1988-ci ildə);
43. Sarvanlar (Uliya Sarvanlar) (1988-ci ildə);
44. Seyfəli (Rüstəmli) (XVIII əsrin 2-ci yarısında);
45. Seyidkənd (Şurakənd 1988-ci ildə);
46. Sınıqxaç (Sinnik) (1826-1829-cu illərdə);
47. 47.Şorlu (Şorlu Dəmirçi, Böyük Şorlu, Dəmirçi, Şöllü) (qarışıq-türklər və ermənilər) (1988-ci ildə);
48. Terkevit (Təkaverti, Təkevlər) (XVIII əsrin sonlarında);

49. Təzəkənd (Noragiğ) (?);
50. Uluxanlı (1988-ci ildə) ( qarışıq-türklər və ermənilər);
51. Yuxarı Necili Həsənəvar, Palaslı, Balaşlı Necili, Nizami) (qarışıq-türklər və ermənilər) (1988-ci ildə);
52. Yuxarı Şinqovit (Şenqovit, Bayat Şinqovit) (qarışıq-türklər və ermənilər) (XIX əsrin ortalarında);
53. Zəngilər (Donuzyeyən, Məscidli) (1988-ci ildə);

1970-ci ilin məlumatına görə rayonda 2 şəhər tipli qəsəbə [1. **Uluxanlı**-Zəngibasar mahalının, sonralar Zəngibasar (sonra Masis) rayonunun inzibati mərkəzi, İrəvan şəhərindən 20 km-lik məsafədə, İrəvan-Naxçıvan-Bakı dəmiryol xəttinin üstündə, Zəngi çayının sol tərəfində yerləşir. 1971-ci ildən şəhərtipli qəsəbədir. Ermənilər Uluxanlı oykonimini itirmək üçün adını düz dörd dəfə dəyişmişlər. 1920-ci illərdə kəndin qədim Uluxanlı adı dəyişdirilərək Nəriman Nərimanovun şərəfinə Nərimanlı, 1937-ci ildə dekabrın 31-də yenidən dəyişdirilərək Zəngibasar qoyulmuşdur. Ondan sonra qısa bir müddətdə Zəngi çayının Razdan adlandırılması ilə bağlı kəndin adı da Razadan qoyulmuş, lakin 1950-ci il iyulun 31-də bu ad da Masis ilə əvəz edilmişdir; 2. **Xarberd (Nor Qjank, Nor Xarberd)**- rayon mərkəzindən və ən yaxın dəmiryol stansiyasından, həmçinin İrəvan şəhərindən 10 km məsafədə yerləşir. 1936-cı ildən şəhər tipli qəsəbədir], 9 kənd sovetliyi [1. Arbat; 2. Ayntap (Təzəkənd); 3. Geğanist (Göykümbət); 4. Kalinin qəsəbəsi (Bulaqlı, Həbilkənd); 5. Qaraqışlaq; 6. Marmaraşen (Ağhəmzəli); 7. Masis sovxoz qəsəbəsi (Hacı Eyləs, İpəkli); 8. Rəncbər; 9. Yuxarı Necili] və 26 yaşayış məntəqəsi [1. Ağcaqışlaq; 2. Arbat; 3. Arqavand; 4. Aşağı Necili; 5. Ayntap (Təzəkənd); 6. Azadaşen; 7. Crahovit (Cəbəçəli); 8. Dəmirçi; 9. Geğanist (Göykümbət); 10. Xarratlı; 11. Kalinin qəsəbəsi (Bulaqlı, Həbilkənd); 12. Qaraqışlaq; 13. Qukasavan (Kələrə); 14. Marmaraşen (Ağhəmzəli); 15. Masis (Uluxanlı,





Zəngibasar); 16. Masis sovxoz qəsəbəsi (Hacı Eyləs, İpəkli); 17. Mehmandar; 18. Nor Xarberd (Nor Qjank); 19. Rəhimabad; 20.Rəncbər; 21. Sarıcalar; 22. Sarvanlar (Uliya Sarvanlar); 23. Yengicə; 24. Yuxarı Necili; 25. Zəhmət (Haçaparaq); 26. Zəngilər] var idi.

1920-1988-ci illərdə Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin verdiyi fərmanlarla adları dəyişdirilərək erməniləşdirilmiş türk kəndləri:

| **Köhnə (əsl) adı** | **Yeni adı** | **Dəyişdirildiyi tarix** |
|---|---|---|
| 1. Ağcaqışlaq | Getapya | 25. I .1978 |
| 2. Ağhəmzəli | Marmaraşen | 25.V.1967 |
| 3. Aşağı Necili, | Savat Nova | 25. I .1978 |
| 4.Böyük Şorlu Dəmirçi | 1. Şorlu Dəmirçi<br>2. Daştavan | ?<br>25. I .1978 |
| 5. Bulaqlı | 1.Həbilkənd,<br>2. Kalinin sovxozu | 25.IX. 1967 |
| 6. Cəbəcəli | Crahevit | 27.II.1960 |
| 7. Cəfərabad | Arqavand | 04.IV.1946 |
| 8.Haçapara (Hasaparak) | Zəhmət | 03.I.1935 |
| 9.Həbilkənd (Bulaqlı), | Kalinin | 26. IX. 1970 |
| 10. Kələrə | Qukasavan | 01.XII.1949 |
| 11. Qaraqışlaq | Dostluq | 25.I.1978 |
| 12. Şorlu Dəmirçi | Daşdadem | 25. I .1978 |
| 13. Təzəkənd | Tazagyuğ | ? |
| 15. Təzəkənd | Ayntap | 10. IX. 1970 |
| 16.Uluxanlı | 1.Zəngibasar, 2. Masis | 31.XII.1937 |
| 17. Şaxanlı stansiyası | Masis stansiyası | 31.VII.1950 |
| 18. Ulya Sarvanlar | Sarvanlar | ? |
| 19. Yengicə | Norabats | 25.I.1978 |
| 20. Yuxarı Necili | Nizami | 25.I.1978 |
| 21 Zəngibasar rayonu | Masis rayonu | 15.III.1953 |

1991-ci ildən sonra Ermənistan Respublikasının Prezidenti

tərəfindən imzalanmış fərmanlarla Zəngibasar (indi Masis) rayonun adları dəyişdirilərək erməniləşdirilmiş türk kəndləri.

| Köhnə (əsl) adı | Yeni adı | Dəyişdirildiyi tarix |
|---|---|---|
| 1. Dəmirçi | Darpinik | 03.IV.1993 |
| 2. Dostluq | Ayanist | 09.04.1991 |
| 3. Sarvanlar | Sis | |
| 4. Zəhmət | Xaçpar | 03.04.1991 |
| 5. Zəngilər | Zorak | 09.04.1991 |

Zəngibasar rayonu qurulan zaman orada olan 32 kəndin 21-də ancaq türklər, 6-da çoxu türklər olmaqla türklərlə ermənilər qarışıq, 5 kənddə isə ancaq ermənilər (haylar) yaşayırdılar. Qarışıq olan altı kəndin (Arbat, Göykümbət, Ağcaqışlaq, Ağhəmzəli, Xarratlı, Cəbəçəli) adından da görünür ki, əvvəllər ancaq türklər yaşayıblar. Adı çəkilən beş erməni kəndlərində isə ermənilər Təzəkənd və Gölərdə 1828-ci ildən, Yengicə, Azadaşen və Cəfərabadda isə 1920-ci ildən sonra məskunlaşmışdılar.





## QARAQIŞLAQ KƏNDİ

### MİRZƏ YUSİFOĞLU
*(1954)*

*Mirzə Yusif oğlu Yusifov-şair, publisist, Azərbaycan Jurnalistlər Birliyinin üzvü (1984)*

1954-cü il noyabrın 15-də Qərbi Azərbaycanın Zəngibasar mahalının Qaraqışlaq kəndində [indiki Ermənistan Respublikasının Masis (keçmiş Zəngibasar) rayonu] anadan olmuşdur. Burada kənd orta məktəbini bitirmişdir (1971). Ordu sıralarında xidmət etmişdir. Tərxis olunduqdan sonra Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsində ali təhsil almışdır (1975-1981). Əmək fəaliyyətinə İrəvanda "Sovet Ermənistanı" qəzeti redaksiyasında başlamış, baş korrektor, xüsusi müxbir, ədəbiyyat, incəsənət və mədəniyyət şöbəsinin müdiri vəzifələrində işləmişdir (1981-1988). 1988-ci ilin sonlarında baş vermiş məlum hadisələr nəticəsində doğma yurdu tərk etməyə məcbur olmuşdur. Bakıda "İttifaq teatr"ın Azərbaycan filialında redaksiya-nəşriyyat şöbəsinin rəisi (1989-1990), "Qafqaz" İnformasiya-Reklam Mərkəzində sədr müavini (1990- 1992), eyni zamanda mərkəzin nəşrləri – "Ömür ayları" jurnalının redaktoru, "Kuryer" informasiya-reklam qəzetinin məsul katibi olmuşdur. "Ekran-efir" qəzetində redaktor işləmişdir (1992-1993). Hazırda Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin Uşaq verilişləri baş redaksiyasında yeniyetmələr şöbəsinin müdiridir (1993-cü ildən). Burada "Məktəb kamera qarşısında", "Yeniyetmələr" televiziya verilişlərinin ssenari müəllifi və aparıcısıdır. 70-ci illərdən yaradıcılığa başlamış, şeir, hekayə və publisistik yazılarını dövri mətbuatda vaxtaşırı çap etdirmişdir. Tele-jurna-

list Alı Mustafayevin "Dəli bir ağlamaq keçir könlümdən" şeirlər toplusunu tərtib və nəşr etdirmişdir. «Dünya yanar, unudulsan dünyada" xatirələr kitabını çapa hazırlamışdır. Milli Qəhrəman Alı Mustafayev adına mükafatın laureatıdır (1993).

## YUNİS YUSİFLİ
## (1938)

*Yunis Mirzə oğlu Yusifli - nasir, şair, publisist, pedaqoq, qabaqcıl maarif xadimi (1983)*

1938-ci il oktyabrın 1-də Qərbi Azərbaycanın Zəngibasar mahalının Qaraqışlaq kəndində [indiki Ermənistan Respublikasının Masis (keçmiş Zəngibasar) rayonu] anadan olmuşdur. Burada kənd orta məktəbini bitirdikdən sonra İrəvan Dövlət Pedaqoji İnstitutunun tarix-filologiya fakültəsində ali təhsil almışdır (1957-1962). Əmək fəaliyyətinə Qaraqışlaq kənd səkkizillik məktəbində müəllim kimi başlamışdır. Sonra Sarıyaqub və Pəmbək kəndlərində müəllimlik etmişdir. Ailəliklə Bakıya köçüb Maştağa qəsəbəsindəki 15 saylı internat məktəbində tərbiyəçi işləmişdir (1965). Qaradağ rayonunun Sahil qəsəbəsi 228 saylı orta məktəbdə tarix, Azərbaycan dili və ədəbiyyatı müəllimi olmuşdur (1966-1969). Azərbaycan Müəllimlər İnstitutuna metodist vəzifəsinə dəvət olunmuşdur (1970). Hazırda institutda dekan müavinidir (1990-cı ildən). Müəllimlərin qabaqcıl pedaqoji təcrübəni öyrənməsində yorulmaz əməyi ilə rəğbət qazanmışdır. Sankt-Peterburq, Səmərqənd və s. şəhərlərə müəllimlərin rəsmi səfərlərinə başçılıq etmişdir. Məktəblərdə təlim-tərbiyə mövzusunda külli miqdarda məqalələri, tövsiyələri, oxu vəsaiti və s. olmuşdur.

Bədii yaradıcılığa tələbəlik illərindən başlamışdır. İlk mətbu





hekayəsi – "Əkrəm qardaşlarını tapdı" "Sovet Ermənistanı" qəzetinin 10 aprel 1960-cı il tarixli nömrəsində çıxmışdır. Bundan sonra dövri mətbuatda şeirləri, hekayələri və tədqiqat xarakterli yazıları çap olunmuşdur. Səməd Vurğunun 24 bəndlik "Azərbaycan" şeirini aşkar etmiş ("Azərbaycan gəncləri" qəzeti - 1947-ci il 9 iyun), «Altun taxtın izi ilə", «Ayğır gölü düyünü» məqalələrində maraqlı elmi mülahizələr söyləmişdir.

**Əsərləri:**

1. Sən millətin atasısan (şeirlər). Bakı, Nərgiz nəşriyyatı, 1998, 32 səh., 1.000 nüs.
2. Didaktik nəğmələr (şeirlər). Bakı, "Ağrıdağ" nəşriyyatı, 2001, 46 səh., 200 nüs.
3. Hazıram qisas almağa (şeirlər). Bakı, "Müəllim" nəşriyyatı, 2003, 68 səh., 500 nüs.

# ZƏHMƏT KƏNDİ

## AYDIN ULUXANLI
## (1958)

*Aydın Cabbar oğlu Uluxanlı– şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü (1989)*

1958-ci il yanvarın 23-də Qərbi Azərbaycanın Zəngibasar mahalının Zəhmət kəndində [indiki Ermənistan Respublikasının Masis (keçmiş Zəngibasar) rayonu] rəssam ailəsində anadan olmuşdur. Burada orta məktəbi bitirmişdir (1975).

M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun teatrşünaslıq fakültəsinin axşam şöbəsində ali təhsil almışdır (1975-1981). Eyni zamanda institutun tədris teatrında, Azərbaycan

Dövlət Teatr Muzeyində fəhlə, "Kommunist" nəşriyyatında təsərrüfat işləri müdiri işləmişdir (1975-1981). "Azərbaycan" jurnalında çalışmış, sonra "Gənclik" nəşriyyatında redaktor (1983-1989), "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında müxbir (1989-1991), "Müxalifət" qəzeti redaksiyasında müxbir (1992-1993), "Söz" qəzetinin təsisçisi və baş redaktoru (1995), "Qərbi Azərbaycan" ədəbi-bədii, publisistik toplunun təsisçisi və redaktoru (2003) olmuşdur. "Yeni Avrasiya" qəzetinin baş redaktorunun müavinidir (2005). İlk mətbu şeirləri 1975-ci ildə "Sovet Ermənistanı" qəzeti səhifələrində dərc olunmuşdur. Bundan sonra dövri mətbuatda vaxtaşırı çıxış etmişdir. Bədii tərcümə ilə də müntəzəm məşğul olur. Rus və türkdilli xalqlarının ədəbiyyatından seçmə nümunələri tərcümə edir. Teatr tamaşaları haqqında rəyləri və publisistik yazıları çap olunmuşdur. "Şeşəqulaqla kosanın nağılı" uşaq pyesinin müəllifidir. "Azadlıq" qəzetində "Qaçqınlar" poeması dərc olunmuşdur. Hazırda fərdi yaradıcılıqla məşğuldur.

**Əsərləri:**

1. Qırmızı axşamların birində. Bakı, Gənclik, 1991, 80 səh., 3.000 nüs.

## MÜBARİZ SƏFƏROV

*(1957)*

***Mübariz Telman oğlu Səfərov - publisist, ədəbiyyatşünas, Azərbaycan Yazıçılar Birliyinin üzvü (1998), Azərbaycan Jurnalistlər Birliyinin üzvü (1986)***

**1957-ci il dekabrın 24-də Qərbi Azərbaycanın Zəngibasar mahalının Zəhmət kəndində [indiki Ermənistan Respublikasının Masis (keçmiş Zəngibasar) rayonu] anadan**





olmuşdur. Burada orta məktəbi bitirdikdən sonra İrəvanda Dövlət Pedaqoji İnstitutunun filologiya fakültəsinin Azərbaycan şöbəsində ali təhsil almışdır (1976-1980). Ordu sıralarında hərbi xidməti borcunu yerinə yetirmişdir (1980-1982). Bakıda "Maarif" nəşriyyatında korrektor, kiçik redaktor, redaktor (1982-1991), "Respublika" və "Həyat" qəzeti redaksiyalarında müxbir (1991-1992) olmuşdur. Hazırda Azərbaycan Respublikası Nazirlər Kabinetində elm, mədəniyyət, xalq təhsili və sosial problemlər şöbəsinin bölmə müdiridir (1992-ci ildən). "Mir" dövlətlərarası teleradio şirkətinin Azərbaycan milli nümayəndəliyinin baş məsləhətçisidir. Ədəbi fəaliyyətə 80-ci illərdən başlamışdır. İlk mətbu əsəri "Qoçaq dovşan" 1983-cü ildə "Azərbaycan gəncləri" qəzetində dərc olunmuşdur. Dövri mətbuatda məqalələri vaxtaşırı çap edilmişdir.Azərbaycan Respublikası mətbuat fondunun"Dan ulduzu" ali mükafatına, fəxri diploma, KİVNİ-nin "Qızıl qələm" laureatı mükafatına və "Kəmaliyyə" diplomuna layiq görülmüşdür.

**Əsərləri:**

1. Cəfər Cabbarlı yaradıcılığında məktəb və müəllim. Bakı, Maarif, 1994, 69 səh., 2000 nüs.
2. Səməd Vurğun və klassiklər. Bakı, Maarif, 1995, 33 səh., 1000 nüs.
3. Azərbaycan gerçəklik işığında. Bakı, Təhsil, 1997, 77 səh., 1000 nüs.
4. Millət Atası. Bakı, Təhsil, 2000, 204 səh., 2000 nüs.
5. Millet Atası. Ankara, Asena, 2002, 215 səh., 10000 nüs.
6. Hardasan ata. Bakı, Qismət, 2004, 81 səh., 1000 nüs.

## ZƏNGİLƏR KƏNDİ

### İBRAHİM XƏLİL
*(1923-1993)*

*İbrahim Heydər oğlu Xəlilov - şair, mətnşünas, tərcüməçi*

1923-cü ildə mayın 9-da Qərbi Azərbaycanın Zəngibasar mahalının Zəngilər kəndində (indiki Ermənistan Respublikasının Masis (keçmiş Zəngibasar) rayonu) anadan olmuşdur. Burada yeddiillik məktəbi bitirib İrəvan Azərbaycanlı Kənd Təsərrüfatı Texnikumunda təhsilini davam etdirmişdir (1938-1942). İkinci Dünya müharibəsinin tərkib hissəsi olan Almaniya-SSRİ müharibəsində (Böyük Vətən müharibəsi də deyilir) iştirak etmiş və ön cəbhədə vuruşmuşdur. Döyüşlərin birində ağır yaralanmışdır.Tərxis ediləndən sonra Zəngibasar rayonunun Zəngilər, Mehmandar və Dəmirçi kəndlərində müəllimlik etmişdir (1944-1950). Şöllü-Zəngilər kənd kolxozuna sədr müavini, sonra sədr seçilmişdir (1950-1954). İrəvan Dövlət Pedaqoji İnstitutunun azərbaycanlı şöbəsinin tarix-ədəbiyyat fakültəsini bitirmişdir (1959). Zəngibasar rayonunun Aşağı Necili, Zəngilər və Zəngibasar kənd orta məktəblərində direktor (1959-1970), İrəvan Pedaqoji Dövlət İnstitutunun Azərbaycan şöbəsində müəllim (1970-1974), Zəngilər kənd sovxozunda direktor, Yuxarı Necili kənd məktəbində direktor, Zəngibasar rayon maarif şöbəsində metodist müəllim (1974- 1988) olmuşdur. Ədəbi fəaliyyətə 50-ci illərdən başlamışdır. Şeirləri, elmi və publisistik məqalələri **dövri mətbuatda müntəzəm çıxmışdır. İlk şeirləri "Ədəbi Ermənistan" almanaxında çıxmışdır. İri həcmli "Ermənicə-azərbaycanca lüğət" (1975) və "Azərbaycanca-er-**





**mənicə lüğət" (1976) kitablarının şərikli tərtibçisi olmuşdur. 1988-ci ilin sonunda ermənilərin təzyiqi nəticəsində doğma vətəni tərk edib, ailəlikcə Bakıya köçmüşlər (1988). Burada "Vətən səsi" qəzetində böyük müxbir vəzifəsində işləmişdir. İkinci dərəcəli "Vətən müharibəsi" ordeni və bir neçə medalla təltif olunmuşdur. 1993-cü il martın 6-da Bakı şəhərində vəfat etmişdir.**

## MÜNDƏRİCAT

**Ön söz...................................................................3**
**Qərbi Azərbaycanın (İndiki Ermənistan) xəritəsi ..5**
**İndiki «Ermənistan Respublikası»nın yaranmasına və ermənilərin Qafqaz türklərinə qarşı soyqırım siyasətinə dair qəbul olunmuş fərman və qərarların və yazılmış məqalələrin bir hissəsi............................6**
– "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" Azərbaycan – — Respublikası Prezidentinin fərmanı (18 dekabr 1997-ci il)..................................................7
– Azərbaycanlıların soyqırımı haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı...........................11
20 noyabr 2009-cu ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Goranboy rayonuna səfəri zamanı məcburi köçkünlər üçün salınan yeni qəsəbənin açılışında etdiyi nitqindən:.........................16
– 26 Aprel 2011-ci ildə Milli Elmlər Akademiyasının illik ümumi yığıncağında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin giriş nitqindən:..................16
– 7 iyul 2014-cü ildə Xarici İşlər Nazirliyində keçirilən Azərbaycan Respublikasının diplomatik xidmət orqanları rəhbərlərinin beşinci müşavirəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən:...............................................................17
– 16 sentyabr 2010-cu ildə İstanbulda keçirilən Türkdilli ölkələrin dövlət başçılarının X zirvə toplantısında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışından:.........................................17





– 14 oktyabr 2010-cu ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Yevlax şəhərində 1 saylı orta məktəbin yeni binasının açılışındakı nitqindən:..........18
– 7 noyabr 2010-cu ildə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Milli Qəhrəman Mübariz İbrahimov və baş leytenant Fərid Əhmədovun vida mərasimindəki çıxışından:..............................................................18
– 22 aprel 2011-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müxtəlif sahələrdə uğurlar qazanmış bir qrup gənc və tələbə gənclər təşkilatlarının nümayəndələrinin qəbulu zamanı söylədiklərindən:.......................................................19
– 17 yanvar 2008-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ağdam rayonunun Quzanlı qəsəbəsində Olimpiya İdman Kompleksinin təntənəli açılış mərasimində etdiyi nitqindən:..........................19
– 18 sentyabr 2013-cü ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Quba Soyqırımı Memorial Kompleksinin açılışındakı nitqindən: .......................20
– 17 may 2013-cü ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Şamaxı Cümə məscidinin əsaslı bərpa və yenidənqurmadan sonra istifadəyə verilmə mərasimindəki nitqindən: ............................25
– **Ramiz Mehdiyev.** Hər birimizdən böyük vətəndaş məsuliyyəti tələb edən tarixi sənəd............................26
– **Yaqub Mahmudov.** İrəvan və ətrafındakı torpaqlar ermənilərə hansi şərtlərlə verilmişdi..........................39
– **İbrahim Bayramov.** Qərbi azərbaycanın tarixi coğrafiyasi və etnik tərkibi.........................................52
– **Əziz Yusif oğlu Ələkbərli** Tariximizi yaşadan abidələrimiz, abidələrdə yaşayan tariximiz.................85

**Qərbi Azərbaycanın Ağbaba mahalı** ........................97
Qərbi Azərbaycanın Ağbaba və Şörəyel nahiyələrində yerləşən Amasya rayonu ............................................99
**BALIQLI KƏNDİ** ............................................................107
*Əli Bayramov* ............................................................107
**ÇAYBASAR KƏNDİ** ........................................................108
*Səyyad Ağbabalı* ..........................................................108
**ELLƏR KƏNDİ** ................................................................110
*Aşıq İsgəndər Ağdabalı* .................................................110
*Zahid Əziz* ......................................................................111
**GÖLLÜ KƏNDİ** ..............................................................113
*Nizami Məmmədcanlı* ....................................................113
**GÜLLÜBULAQ KƏNDİ** ..................................................114
*Rafiq Musa* .....................................................................114
**ÖKSÜZ KƏNDİ** ..............................................................115
*Kazım Əziz* .....................................................................115
**SULTANABAD KƏNDİ** ....................................................116
*Eldar Sərtqaya* ...............................................................116
*Qəşəm Vəliyev* ...............................................................117
**QƏRBİ AZƏRBAYCANIN AĞRI VADİSİ** ..........118
Qərbi Azərbaycanın Ağrı vadisində yerləşən Eçmiədzin (keçmiş Üçkilsə) rayonu ..........................119
**KOLANLI KƏNDİ** ...........................................................125
*Zakir Səfəroğlu* ..............................................................125
**QARĞABAZAR KƏNDİ** ..................................................126
*Rüstəm Bağır* .................................................................126
**Qərbi Azərbaycanın Borçalı mahalı** ........................128
Qərbi Azərbaycanın Borçalı mahalının Borçalı və Loru nahiyələri ..............................................129
Borçalı nahiyəsində yerləşən Noyemberyan (keçmiş Barana) rayonu ............................................138





**LƏMBƏLİ KƏNDİ** *(İndiki Baqrataşen qəsəbəsi)* ......142
*Bilal Ənsər* ......................................................................142
*Əhməd Hüseynov* ...........................................................143
*Məmməd Süleymanoğlu* .................................................144
*Vəli Ləmbəli* ....................................................................146
*Səfalı Nəzərli* ..................................................................147
**YUXARI KÖRPÜLÜ KƏNDİ** ..........................................150
*Elşad Qoca* ......................................................................150
*İsa Körpülü* .....................................................................151
*Kazım Körpülü* ................................................................152
*Möhbəddin Səməd* ..........................................................153
*Nəriman Süleymanov* .....................................................155
*Şəmistan Nəzirli* .............................................................156
Borçalı nahiyəsinin və Loru nahiyəsinin ərazisində yerləşən Tumanyan rayonu (keçmiş Allahverdi) .......160
**BÖYÜK AYRIM KƏNDİ** .................................................166
*Bayram Həsənov* .............................................................166
*Məleykə Səma* .................................................................167
Loru nahiyəsində yerləşən Kalinino Rayonu (Keçmiş Vorontsovka .................................................170
**CÜCƏKƏND KƏNDİ (İNDİKİ QIZILŞƏFƏQ KƏNDİ)** .................................................................174
*Əhməd Oğuz* ...................................................................174
*Miraslan Bəkirli* ..............................................................175
*Mövlud Süleymanlı* .........................................................176
**EVLİ KƏNDİ** ...................................................................178
*Tahir Talıblı* ....................................................................178
**İLMƏZLİ KƏNDİ** ............................................................179
*Hafiz Hacxalıl* ................................................................179
*İsmayıl İlməzli* ...............................................................180
*Salman Qazi* ....................................................................181
**QARAQALA KƏNDİ** ......................................................182

*Xaqani İsmayıl*......182
**PETROVKA (KEÇMİŞ QURDQALA) KƏNDİ**...183
*Alxan Yekəəhmədli*......183
**SOYUQBULAQ KƏNDİ**......185
*Südabə İrəvanlı*......185
**QƏRBİ AZƏRBAYCANIN DƏRƏÇİÇƏK MAHALI**......186
Dərəçiçək Mahalının Hrazdan (keçmiş Axta) Rayonu....189
**TƏKƏLİK KƏNDİ**......193
*Nadir Hacıyev*......193
**QƏRBİ AZƏRBAYCANIN DƏRƏLƏYƏZ MAHALI**......195
Qərbi Azərbaycanın Dərələyəz mahalının Əzizbəyov rayonu (keçmiş Soylan)......197
**GABUD KƏNDİ**......203
*Valeh Savalan*......203
**GOMUR KƏNDİ**......204
*Kamil Teymuroğlu*......204
**HER-HER KƏNDİ**......205
*Vahid Əziz*......205
Qərbi Azərbaycanın Dərələyəz mahalının Yeğeqnadzor (keçmiş Keşişkənd, Mikoyan) rayonu......207
**ARDARAZ KƏNDİ**......215
*Sona Çərkəz*......215
**GƏDİKVƏNG KƏNDİ**......216
*Nizami Elyanar*......216
**QABAXLI (CANI, AŞAĞI CANI) KƏNDİ**......217
*Alim Dərələyəzli*......217
*Kamil Dərələyəzli*......218
**SALLI KƏNDİ**......220
*Qulu Kəngərli*......220
*Həsən Mətin*......221





**QƏRBİ AZƏRBAYCANIN QAZAX MAHALININ DİLCAN NAHİYƏSİ**......222
Qərbi Azərbaycanın Qazax mahalının Dilcan nahiyəsində yerləşən İcevan (Karvansara) rayonu....223
**HAQQIXLI KƏNDİ**......228
*Fərhad Vəlizadə*......228
*Zabit Əliyev*......229
**POLAD KƏNDİ**......230
*Poladlı Məhəmməd*......230
Qərbi Azərbaycanın Qazax mahalının Dilican nahiyəsinin (əsasən Qaraqoyunlu dərəsinin kəndləri) və Göyçə mahalının Məzrə nahiyəsinin ərazisində yerləşən Krasnoselo (keçmiş Çəmbərək) rayonu......233
**AĞBULAQ KƏNDİ**......238
*Eldar İsmayıl*......239
**ARDANIŞ KƏNDİ**......241
*Əhməd Paşa*......241
*Həsən Həsənli*......242
*Nuru Bayram*......243
**ÇAYKƏND KƏNDİ**......244
*Qurban Süleymanov*......244
*Nəsib Əfəndiyev*......246
*Suliddin Qasımlı*......247
**CİL KƏNDİ**......248
*Fərzalı Rüstəmli*......248
*İdris Zamanlı*......249
*Zəki İslam*......250
**ƏMİRXEYİR KƏNDİ**......252
*Babək Göyüş*......252
*Zöhrə Məmmədova*......253
**GÖLKƏND KƏNDİ**......254
*Şahmurad Məmmədov*......254

**TOXLUCA KƏNDİ**......255
*Müzahim Mehvalıoğlu*......255
**QƏRBİ AZƏRBAYCANIN GÖYÇƏ MAHALI**......256
Qərbi Azərbaycanın Göyçə mahalının Vardenis (keçmiş Basarkeçər) rayonu......258
**AĞKİLSƏ KƏNDİ**......269
*Aşıq Ələsgər*......269
*Aşıq Talıb*......270
*Əli Qurban Dastançı*......271
*İsmixan Didərgin*......273
*Növrəs İman*......274
**BABACAN KƏNDİ**......275
*Niftalı Göyçəli*......275
**BALA MƏZRƏ KƏNDİ**......276
*Füzuli Sabiroğlu*......276
*Məcnun Göyçəli*......277
**BÖYÜK QARAQOYUNLU KƏNDİ**......279
*Aşiq Əsəd*......279
*Salman Vilayətoğlu*......280
**BALA (KİÇİK) QARAQOYUNLU KƏNDİ**......282
*İbrahim Köçkün*......282
**DAŞKƏND KƏNDİ**......283
*Aqil İman*......283
*Alqayıd Xəlil*......284
*Eldar Həsənli*......285
*Xasay Hacıyev*......286
*Həsən Xəyallı*......287
*Şiruyə Həsənoğlu*......287
**İNƏKDAĞ KƏNDİ**......289





*Həsən Göyçəli*......289
**KƏSƏMƏN KƏNDİ**......290
*Ülvi Bünyadzadə*......290
**QANLI KƏNDİ**......292
*Saşa Əliyev*......292
**NƏRİMANLI KƏNDİ**......294
*Aşiq Bəhmən Göyçəli*......294
*Aşıq İslam*......295
*Xəstə Bayraməli*......296
*Qədir Aslan*......297
*Mahir Bayram*......298
*Maşallah Xudubəyli*......299
*Möhsüm Qədiroğlu*......299
**ŞİŞQAYA KƏNDİ**......301
*Adil Şişqayalı*......301
*Qara Məriş*......302
**YARPIZLI KƏNDİ**......302
*Aşiq Oruc*......302
**YUXARI ŞORÇA KƏNDİ**......304
*Əli Vəkil*......304
**ZƏRKƏND KƏNDİ**......307
*Aşıq İdris*......307
*Aşıq Şirin*......308
**ZOD KƏNDİ**......308
*Aydın Murovdağ*......308
*Böyükkişi Mirzəzadə*......310
Qərbi Azərbaycanın Göyçə Mahalının Kamo (keçmiş Kəvər, Novo Bayazid, Nor Bayazid) Rayonu......311
**AĞQALA KƏNDİ**......316
*Salman Göyçəli*......316
**AĞZIBİR KƏNDİ**......317

*Qədir Babayev* ........ 317
**İRƏVAN ŞƏHƏRİ** ........ 318
*Cabbar Əsgərzadə* ........ 319
*Cabbar Məcnunbəyov* ........ 320
*Cəlal Məmmədov* ........ 322
*Əhməd Cəmil* ........ 324
*Əziz Süleymanov* ........ 327
*Fuad Tarverdiyev* ........ 328
*İsmayıl İsmayılov* ........ 330
*Məmmədəli Nasir* ........ 331
*Murtuz Muradov* ........ 332
*Nüsrət* ........ 333
*Svetlana Nəcəfova* ........ 334
*Şirzad Əliyev* ........ 335
**QƏRBİ AZƏRBAYCANIN PƏMBƏK MAHALI** ........ 337
Qərbi Azərbaycanın Pəmbək mahalının Quqark rayonu (keçmiş Böyük Qarakilsə) ........ 339
**GÖZƏLDƏRƏ KƏNDİ** ........ 344
*Xıdır Alovlu* ........ 344
*İmamverdi Hacıyev* ........ 346
Qərbi Azərbaycanın Pəmbək mahalının Spitak rayonu (keçmiş Hamamlı) ........ 347
**QURSALI KƏNDİ** ........ 352
*Məmməd İbrahim* ........ 352
*Namiq Qursali* ........ 353
*Rəşid Namaz* ........ 354
**SARAL KƏNDİ** ........ 355
*Ələmdar İsa* ........ 355
*İman Usuboğlu* ........ 355
*Səməd Sarallı* ........ 356





*Süleyman Şaman* ........ 358
*Zəkiyyə Elruh* ........ 359
**QƏRBİ AZƏRBAYCANIN VEDİBASAR MAHALI** ........ 361
Qərbi Azərbaycanın Vedibasar mahalının Ararat (keçmiş Vedi) rayonu ........ 362
**BAĞÇACIQ KƏNDİ** ........ 374
*Musa Bağırov* ........ 374
**BAYBURT KƏNDİ** ........ 375
*İsa Hümmətov* ........ 375
**BÖYÜK VEDİ KƏNDİ** ........ 377
*Fərman Kərimzadə* ........ 377
*Məmməd Oruc* ........ 378
*Telli Pənahqızı* ........ 379
**GORAVAN KƏNDİ** ........ 380
*Əziz Şüküroğlu* ........ 380
**GÖLAYSOR KƏNDİ** ........ 381
*Əli Şabanov* ........ 381
**HAXIS KƏNDİ** ........ 382
*Telman Hüseyn* ........ 382
**XALİSƏ KƏNDİ** ........ 383
*Nəsibə İsrafilqızı* ........ 383
*Sərtib İslamoğlu* ........ 384
*Zaur Vedili* ........ 386
**KOLANLI KƏNDİ** ........ 387
*İnqilab Xan Rəvan* ........ 387
**QARAXAÇ KƏNDİ** ........ 390
*Əmir Quliyev* ........ 390
*Qəmər Quliyeva* ........ 391
**İZMİRZİK (MİRZİK) KƏNDİ** ........ 392
*Nəriman Əyyub* ........ 392
**ŞİDLİKƏNDİ** ........ 394

*Bilman Qüdrət*......394
*Kamil Novruz*......395
**QƏRBİ AZƏRBAYCANIN ZƏNGƏZUR MAHALI**......**396**
Qərbi Azərbaycanın Zəngəzur mahalının Qoris (keçmiş Gorus) rayonu......398
**ŞURNUXU KƏNDİ**......**403**
*Ələsgər Həsənli*......403
Qərbi Azərbaycanın Zəngəzur mahalının Qafan rayonu......404
**ACIBAC KƏNDİ**......**416**
*Pərvanə Zəngəzurlu*......416
**BAHARLI KƏNDİ**......**417**
*Dünyamali Məftun*......417
*Güloğlan Dünya*......418
**GƏRD KƏNDİ**......**418**
*Səməd Qarayev*......418
**GIĞI KƏNDİ**......**418**
*Bariz Bəhramoğlu*......420
*Şair Təbib*......420
*Rövşən Nüsrətoğlu*......421
**KURUD KƏNDİ**......**423**
*Əşrəf Nurlu*......423
**QARAÇİMƏN KƏNDİ**......**423**
*Vaqif Mehman*......423
**SİZNƏK KƏNDİ**......**425**
*Məmməd Elli*......425
*Yavər Zəngəzurlu*......426
**ŞƏHƏRCİK KƏNDİ**......**427**
*Əliş Əhmədoğlu*......427
*Nailə İbrahimova*......428
**YUXARI GİRƏTAĞ KƏNDİ**......**429**





*Hafiz Baxış*......429
*Zəngili*......430
Qərbi Azərbaycanın Zəngəzur mahalının Meğri (Mığrı) rayonu......432
**MARALZƏMİ KƏNDİ**......**437**
Hidayət Orucov......437
**NÜVƏDİ KƏNDİ**......**440**
*Əli Vəlioğlu*......440
*Həmzə Vəli*......441
Qərbi Azərbaycanın Zəngəzur mahalının Sisyan (keçmiş Qarakilsə) rayonu......443
**AĞUDİ KƏNDİ**......**452**
*Əli Vəliyev*......452
*Afaq Məsud*......456
*Əvəz Lələdağ*......457
*Məmməd Araz*......459
**QIZILCIQ KƏNDİ**......**462**
*Ruzigar Cəbisoy Çələbi*......462
**SOFULU KƏNDİ**......**463**
*İdrak Əliyev*......463
*Nikbin Əliyev*......464
*Nuşirəvan Kərimov*......464
*Rəhim Əliyev*......465
*Pənah Sofulu*......466
**ŞƏKİ KƏNDİ**......**468**
*Əyyub Abbasov*......468
**URUD KƏNDİ**......**470**
*Flora Xəlilzadə*......470
*Məhəmməd Sadıq Aran*......472
*Musa Urud*......473
**QƏRBİ AZƏRBAYCANIN ZƏNGİBASAR MAHALI**......**476**

Qərbi Azərbaycanın Zəngibasar mahalının
Masis keçmiş Zəngibasar) rayonu..............................477
**QARAQIŞLAQ KƏNDİ..........................................483**
*Mirzə Yusifoğlu..........................................................483*
*Yunis Yusifli..............................................................484*
**ZƏHMƏT KƏNDİ..................................................485**
*Aydin Uluxanlı..........................................................485*
*Mübariz Səfərov.........................................................486*
**ZƏNGİLƏR KƏNDİ..............................................488**
*İbrahim Xəlil.............................................................488*



# TƏRTİBÇİLƏR HAQQINDA MƏLUMAT

## MİRZƏ MƏSİM OĞLU ƏNSƏRLİ *(Ləmbəli)*



Mirzə Məsim oğlu Ənsərli (Ləmbəli) – türkoloq, tarixçi, publisist, Azərbaycan Yazıçılar Birliyinin üzvü (1999), Azərbaycan Jurnalistlər Birliyinin üzvü (1994).

1959-cu il dekabrın 31-də Qərbi Azərbaycanın Borçalı mahalının Borçalı nahiyəsinin Ləmbəli kəndində [indiki Ermənistan Respublikasının Noyemberyan (keçmiş Barana) rayonunun Baqrateşen qəsəbəsi) anadan olmuşdur. Doğma kəndində 2 saylı orta məktəbi bitipdikdən sonra Azərbaycan Dövlət Universitetinin kitabxanaçılıq fakültəsində ali təhsil almışdır (1981-1987). 1980-1981-ci illərdə hazırlıq şöbəsində oxumuşdur. Əmək fəaliyyətinə Baqrataşen qəsəbəsində ağac emalı cexində və "Zeytun" sovxozunda fəhlə kimi başlamışdır (1977-1980). Sonra isə Gəncə şəhərində Mərkəzləşdirilmiş Kitabxana Sisteminin 25 saylı filialında böyük kitabxanaçı (1988-1989), Bakı şəhərində Azərbaycan Dövlət Kitab Palatasında biblioqraf, bölmə müdiri (1989-1992), Azərbaycan MEA Milli Münasibətlər İnstitutunda baş laborant, kiçik elmi işçi, elmi işçi (1992-2002) işləmişdir. Eyni vaxtda Mədəniyyət Nazirliyinin Mədəniyyət İşçilərinin Hazırlıq və İxtisasartırma kursunda baş metodist (1996-1997), Azərbaycan MEA Mərkəzi Elmi Kitabxanasında bölmə müdiri (1997-1999) olmuşdur. Azərbaycan Dövlət Kitab Palatasında işləyən zaman Moskvada Mətbuat İşçilərinin İxtisasartırma kursunu da bitirmiş (1990) və 1993-1996-cı illərdə Azərbaycan MEA Şərqşünaslıq İnstitutunun aspiranturasında (qiyabi) oxumuşdur. Hazırda AMEA-нын akademik Z.M.Bünyadov adına





Şərqşünaslıq İnstitutunun "Türkiyə tarixi və iqtisadiyyatı" şöbəsinin elmi işçisidir. Türkologiya sahəsində tədqiqatlar aparır. "Prof. Dr. Əhməd Zəki Vəlidi Toqan və Türkiyə tarixşünaslığı" adlı dissertasiya mövzusu üzərində işləyir.

Diaspor və Lobbi Elmi Araşdırmalar Mərkəzi İctimai Birliyinin (2001-ci ildən) və Qərbi Azərbaycan Araşdırmalar Mərkəzi İctimai Birliyinin (2010-cy ildən) təsisçisi və rəhbəridir

90-cı illərdən dövrü mətbuatda müxtəlif məzmunlu məqalələrlə çıxış edir. Elmi jurnallarda və məcmuələrdə elmi məqalələri çap olunub.

Əsərləri:

1. Gəncəli professor Əhməd Cəfəroğlu. Bakı, "Qartal", 1996, 86 səh.
2. Mühacirət tarixindən yarpaqlar (Türkiyədə yaşamış məşhur tatar-başqırd mühacirləri). Bakı, "Qartal", 1997, 112 səh. (fil.ц.e.d. İsfəndiyar Şəkili ilə birlikdə)
3. Prof. Dr. Əhməd Zəki Vəlidi Toqan. Bakı, "Qartal", 1997, 64 səh.
4. Cəfər Seyidəhməd Krımər. Bakı, "Qartal", 1998, 32 səh.
5. Şərq kitabxanaları tarixindən (XV-XVIII əsrlərdə Osmanlı İmperiyasında kitabxanalar). Bakı, "Qartal", 1998, 64 səh.
6. İstanbulun məşhur kitabxanaları. Bakı, "Qartal", 1998, 32 səh.
7. ABŞ Konqres Kitabxanası. Bakı, Ağrıdağ, 1998, 56 səh.
8. Ləmbəli və ləmbəlilər (Ləmbəli və ləmbəlilər haqqında eşitdiklərim, oxuduqlarım və gördüklərim). Bakı, Nurlar, 2011, 776 səh., şəkilli.

Tərtib etdiyi:

1. Nağı Şeyxzamanlının xatirələri. Bakı, "Qartal", 1997 (fil.ц.e.d. Cəlal Qasımov ilə birlikdə)
2. Türkiyə massonları tarixindən (XVIII əsr – XX əsrin birinci yarısı). Bakı, Qanun, 1999.

3. Dildə, Fikirdə, İşdə Birlik (İsmayıl bəy Qaspıralı: 1851-1914): Toplu (ped.ü.f.d. Həsən Bayramoğlu ilə birlikdə). Bakı, "Qartal", 2002.
4. Türkiyədə masonların və sionistlərin fəaliyyətləri (XVIII əsr – XX əsrin birinci yarısı). Bakı, Ocaq, 2007.
5. Masonlar. I kitab (Saleh Dostəliyev və Gülsən Qurbanova ilə birlikdə) Bakı, "Qanun", 2010; 2011.
6. Masonlar. Materiallar toplusu. II kitab (t.ü.f.d. İradə Məmmədova və Şahin Ələsgərov ilə birlikdə). Bakı, "Turxan NPB", 2014, 300 səh.

**Türkiyə türkcəsindən çevirdiyi əsərlər:**
1. M.F.Köprülü. Azəri Bakı, Elm, 2000. (fil.ü.e.d. prof. Buludxan Xəlilovla birlikdə).
2. Prof. Dr. Nadir Dövlət. Rusiya Türklərinin Milli Mübarizə Tarixi (1905-1917). Bakı, "Ağrıdağ", 2002. (ped.ü.f.d. Həsən Bayramoğlu ilə birlikdə)
3. Prof. Dr. Əhməd Zəki Vəlidi Toqan. Azərbaycan. Bakı. Ocaq, 2007. (tar. ü.f.d. Tofiq Nəcəfli ilə birlikdə).
4. Raif Qaradağ. Neft fırtınası. Bakı, "Qanun", 2009.





## Telman Nəcəf oğlu Kərimli



1966-cı ilin iyunun 6-da Qərbi Azərbaycanın Pəmbək mahalının Saral kəndində (indiki Ermənistan Respublikasının Spitak (keçmiş Hamamlı) rayonu) anadan olub.

Orta təhsilini 1973-1983-cü illərdə doğma kəndində, ali təhsilini isə Bakı şəhərində 1983-1990-cı illərdə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun «Sənaye və Mülki tikinti» fakültəsində almışdır. Tələbəlik illərində, 1984-1986-cı illərdə SSRİ-nin Çita şəhərində hərbi xidmətdə olmuşdur.

Əmək fəaliyyətinə 1993-cü ildən başlamışdır. 1993-2000-ci illərdə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Tarix və Mədəniyyət Abidələrinin Mühafizəsi və Bərpası Komitəsində mütəxəssis, baş mütəxəssis və şöbə müdiri, 2001-2003-cü illərdə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Abidələrinin Qorunması və Bərpası Baş İdarəsində baş mütəxəssis, 2003-2006-cı illərdə Mədəniyyət Nazirliyinin Abidələrin Qorunması və İstifadəsi şöbəsində böyük məsləhətçi, şöbə müdirinin müavini və şöbə müdiri 2006-2010-cu illərdə Mədəniyyət və Turizm Nazirliyinin Mədəni İrs şöbəsinin bərpa, layihələndirmə və ekspertiza sektorunun müdiri vəzifələrində çalışmışdır.

2010-cu il aprelin 8-dən Mədəniyyət və Turizm Nazirliyinin «Azərbərpa» Elmi-Tədqiqat Layihə İnstitutunun direktoru vəzifəsində işləyir.

Azərbaycan Respublikası Prezidentinin 2003-cü il avqustun

4-də imzaladığı 912 saylı fərmanla Birinci dərəcəli dövlət qulluqçusu, 2009-cu il iyulun 28-də isə dövlət qulluğunun kiçik müşaviri ixtisas dərəcəsi verilmişdir.

Telman Nəcəf oğlu Azərbaycan Respublikası ərazisindəki bir sıra tarix və mədəniyyət abidələrinin bərpa layihələrinin hazırlanmasında və bərpa işlərinin aparılmasında iştirak etmişdir və bu gün də iştirak edir.

Hazırda memarlıq üzrə fəlsəfə doktoru elmi adı almaq üçün «Azərbaycanda bərpa-konservasiya işlərinin tarixi və perspektivləri» adlı dissertasiya mövzusu üzərində işləyir.

Ailəlidir. Qızı Azərbaycan Tibb Univesitetində, oğlu isə orta məktəbdə oxuyur.





## İradə Malik qızı Məmmədova



1967-ci il fevralın 13-də Azərbaycan Respublikasının Masallı şəhərində anadan olub. Orta təhsilini Masallı şəhərində, ali təhsilini M.F.Axundov adına Rus dili və Ədəbiyyatı İnstitutunda (1987-1991-ci illərdə) və Lənkəran şəhərində Lənkəran Dövlət Universitetinin humanitar fakültəsinin tarix bölməsində (1993-1998) almışdır.

1998-ci ildə Azərbaycan MEA A.Bakıxanov adına Tarix İnstitutunda «Vətən tarixi» ixtisası üzrə dissertantlığa qəbul olunur. 2003-cü ildə Tarix İnstitutuna kiçik elmi işçi vəzifəsinə qəbul olunur və hazırda orada aparıcı elmi işçidir. 2005-ci ilin dekabrında «Lənkəran xanlığının qonşu xanlıqlar və dövlətlərlə münasibətləri» adlı dissertasiya müdafiə edərək 2006-cı il noyabrın 28-də tarix elmləri namizədi (hazırda tarix üzrə fəlsəfə doktoru) alimlik dərəcəsi alıb.

Ümumiyyətlə, indiyədək 50-dən çox beynəlxalq, 3 respublika və institut miqyaslı bir neçə elmi tədbirdə məruzə ilə çıxış edib. 2009-cu ildən başlayaraq «Azərbaycan tarixi ilk mənbələrdə» layihəsinin fəal iştirakçısıdır. O, İstanbul, Moskva və Ankara şəhərlərində yerləşən müxtəlif arxivlərdən Azərbaycan tarixi ilə bağlı çoxsaylı qaynaqların Tarix İnstitutuna gətirilməsində və bu sənədlərin toplu şəklində ortaya qoyulmasında fəal iştirak edib. AMEA A.Bakıxanov adına Tarix İnstitutu ilə Türkiyə Cümhuriyyəti və s. respublikaların elmi qrupları ilə, eləcə də Atatürk Araşdırma Mərkəzi ilə elmi əməkdaşlığın qurulmasında yaxından iştirak edir. A.Bakıxanov adına Tarix

İnstitutunun Türkiyə üzrə əlaqələndiricisi, T.C.Atatürk Araşdırma Mərkəzinin Xəbərləşmə üzvü, Azərbaycan Tarix Qurumu İctimai Birliyinin sədr müavini və bir sıra Elmi jurnalların redaksiya heyətinin də üzvüdür.

Azərbaycan Respublikası Prezidentinin 28 may 2012-ci il tarixli fərmanı ilə Azərbaycan Respublikası Dövlət Mükafatı laureatı fəxri adına layiq görülüb.

Hal-hazırda «Azərbaycan əhalisi xanlıqlar dövründə» doktorluq dissertasiyası üzərində çalışır. 2 kitabın müəllifi, 6 monoqrafiyanın həmmüəllifi, 8 sənəd toplusunun tərtibçisi, 1 biblioqrafik məlumat kitabçasının tərtibçisi, 1 kitabın tərtibçilərindən biri, 1 ali məktəb tələbələri üçün dərs vəsaitinin, 2 kitabın elmi redaktoru olmuşdur. 90-dan çox elmi məqalənin müəllifidir.

**Əsərləri**

1. Lənkəran xanlığı Birinci Rusiya-İran müharibəsi dövründə. Bakı, «Elm», 2007, 496 səh.

2. İrəvan xanlığı (Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi). Bakı, 2009, 574 səh. (həmmüəllif).

3. Rusiya və İran arasında Azərbaycan (Lənkəran xanlığı). İstanbul, 2011, 140 səh. (Türkiyə türkcəsində).





## Könül Şahin qızı İbrahimova



1982-ci il dekabrın 7-də Qərbi Azərbaycanın Pəmbək mahalının Saral kəndində [indiki Ermənistan Respublikasının Spitak (keçmiş Hamamlı) rayonu] anadan olub. Orta təhsilini 1989-1999-cu illərdə Bakı şəhəri Sabunçu rayonu A.Bakıxanov qəsəbəsində yerləşən 252 saylı orta məktəbdə, bakalavr təhsilini 1999-2003-cü illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakultəsində, magistr təhsilini isə 2004-2007-ci illərdə Bakı Dövlət Universitetinin filologiya fakultəsində türkologiya ixtisası üzrə alıb. Həm bakalavrı, həm də magistraturanı fərqlənmə diplomu ilə bitirib. 2007-ci ildən bu günə kimi Xocavənd rayonu 2 saylı orta məktəbdə Azərbaycan dili və ədəbiyyatı müəllimi işləyir.



## Toğrul Mirzə oğlu Ənsərli

1994-cü il sentyabrın 20-də Bakı şəhəri Sabunçu rayonu A.Bakıxanov qəsəbəsində ziyalı ailəsində anadan olub. Orta təhsilini A.Bakıxanov qəsəbəsində 2001-2012-ci illərdə 96 saylı orta məktəbdə alıb.

Hazırda Bakı İslam Universitetinin IV kurs tələbəsidir.







**Səyyad Ağbabalı**



**Zahid Əziz**



**Rafiq Musa**



**Kazım Əziz**



**Eldar Sərtqaya**



**Qəşəm Vəliyev**



**Bilal Ənsər**



**Əhməd Hüseynov**



**Məmməd Süleymanoğlu**


Vəli Ləmbəli


Səfali Nəzərli


Elşad Qoca


İsa Körpülü


Kazım Körpülü


Möhbəddin Səməd


Nəriman Süleymanov


Şəmistan Nəzirli


Bayram Həsənov




Məleykə Səma


Əhməd Oğuz


Miraslan Bəkirli


Mövlud Süleymanlı


Tahir Talıblı


Hafiz Hacxalıl


İsmayıl İlməzli


Salman Qazi


Xaqani İsmayıl


Alxan Yekəəhmədli


Südabə İrəvanlı


Nadir Hacıyev


Valeh Savalan


Kamil Teymuroğlu


Vahid Əziz


Sona Çərkəz


Nizami Elyanar


Alim Dərələyəzli




Kamil Dərələyəzli


Qulu Kəngərli


Həsən Mətin


Fərhad Vəlizadə


Zabit Əliyev


Poladlı Məhəmməd


Eldar İsmayıl


Əhməd Paşa


Həsən Həsənli


**Qurban Süleymanlı**


**Nəsib Əfəndiyev**


**Suliddin Qasımlı**


**Fərzalı Rüstəmli**


**İdris Zamanlı**


**Zəki İslam**


**Babək Göyüş**


**Zöhrə Məmmədova**


**Şahmurad Məmmədova**




**Müzahim Mehvalıoğlu**


**Zakir Səfəroğlu**


**Rüstəm Bağır**


**Aşıq Ələsgər**


**Aşıq Talıb**


**Əli Qurban Dastançı**


**İsmixan Didərgin**


**Növrəs İman**


**Niftalı Göyçəli**



**Füzuli Sabiroğlu**



**Məcnun Göyçəli**



**Aşıq Əsəd**



**Salman Vilayətoğlu**



**İbrahim Köçkün**



**Aqil İslam**



**Alqayıt Xəlil**



**Eldar Həsənli**



**Xasay Hacıyev**





**Həsən Xəyallı**



**Şiruyə Həsənoğlu**



**Həsən Göyçəli**



**Ülvi Bünyadzadə**



**Saşa Əliyev**



**Aşıq Bəhmən Göyçəli**



**Aşıq İslam**



**Xəstə Bayraməli**



**Qədir Aslan**



**Mahir Bayram**



**Maşallah Xudubəyli**



**Möhsüm Qədiroğlu**



**Adil Şişqayalı**



**Qara Məriş**



**Aşıq Oruc**



**Əli Vəkil**



**Aşıq İdris**



**Aydın Murovdağ**





**Böyükkişi Mirzəzadə**



**Salman Göyçəli**



**Qədir Babayev**



**Cabbar Əsgərzadə**



**Cabbar Məcnunbəyov**



**Cəlal Məmmədov**



**Əhməd Cəmil**



**Əziz Süleymanov**



**Fuad Tarverdiyev**



**İsmayıl İsmayılov**



**Məmmədəli Nasir**



**Murtuz Muradov**



**Nüsrət**



**Svetlana Nəcəfova**



**Şirzad Əliyev**



**Xıdır Alovlu**



**İmamverdi Hacıyev**



**Məmməd İbrahim**





**Namiq Qursalı**



**Rəşid Namaz**



**Ələmdar İsa**



**İman Usuboğlu**



**Səməd Sarallı**



**Süleyman Şaman**



**Zəkiyyə Elruh**



**Musa Bağırov**



**İsa Hümmətov**



**Fərman Kərimzadə**



**Məmməd Oruc**



**Telli Pənahqızı**



**Əziz Şüküroğlu**



**Əli Şabanov**



**Telman Hüseyn**



**Nəsibə İsrafilqızı**



**Sərtib İslamoğlu**



**Zaur Vedili**





**İnqilab xan Rəvan**



**Əmir Quliyev**



**Qəmər Quliyeva**



**Nəriman Əyyub**



**Bilman Qüdrət**



**Kamil Novruz**



**Ələsgər Həsənli**



**Pərvanə Zəngəzurlu**



**Dünyamalı Məftun**



Güloğlan Dünya



Səməd Qarayev



Bariz Bəhramoğlu



Şair Təbib



Rövşən Nüsrətoğlu



Əşrəf Nurlu



Vaqif Mehman



Məmməd Elli



Yavər Zəngəzurlu





Əliş Əhmədoğlu



Nailə İbrahimova



Hafiz Baxış



Zəngili



Hidayət Orucov



Əli Vəlioğlu



Həmzə Vəli



Əli Vəliyev



Afaq Məsud



**Əvəz Lələdağ**



**Məmməd Araz**



**Ruzigar Cəbisov Çələbi**



**İdrak Əliyev**



**Nikbin Əliyev**



**Rəhim Əliyev**



**Pənah Sofulu**





**Əyyub Abbasov**



**Flora Xəlilzadə**



**Musa Urud**



**Mirzə Yusifoğlu**



Yunis Yusifli



Aydın Uluxanlı



Mübariz Səfərov



İbrahim Xəlil

«Elm və təhsil» nəşriyyatının direktoru:
professor Nadir MƏMMƏDLİ

Dizayn: Zahid Məmmədov
Səhifələyici: Tünzalə Vahabova

Çapa imzalanmış 30.01.2016.
Şərti çap vərəqi 32. Sifariş № 52.
Kağız formatı 60x84 1/16. Tiraj 100

Kitab «Elm və təhsil» nəşriyyat-poliqrafiya
müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.
E-mail: nurlan1959@gmail.com
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 84.